# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

### *altıncı kitab*

***mart, 1996 - iyun, 1996***

*çıxışlar*
*nitqlər*
*bəyanatlar*
*məktublar*
*müsahibələr*

**AZƏRNƏŞR**
**BAKI-1998**

**BBK 66.3(5Aze)8**
**Ə – 65**

Buraxılışına məsul
**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 1998, 512 səh.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyevin nitqlərindən, müraciətlərindən, bəyanatlarından, müsahibələrindən, məktublarından və s. ibarət çoxcildlik əsərlərinin 6-cı cildi 1996-cı il martın ortalarından iyunun sonlarına qədər olan dövrü əhatə edir.

Bu əsərlərdə respublikamızda dönməz xarakter almış demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesi, iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi və səmərəliliyinin artırılması, Dünya Birliyində Azərbaycanın mövqelərinin gücləndirilməsi, beynəlxalq sıx əlaqələr yaradılması, milli ordumuzun müdafiə qüdrətinin möhkəmləndirilməsi, daxili və xarici siyasət kursunun başlıca istiqamətləri və ictimai-siyasi həyatın digər aktual məsələləri əks olunmuşdur.

**BBK – 66.3(5Aze)8**

Ə $\frac{\textbf{0801000000–37}}{\textbf{M – 651(07) – 98}}$

**© Azərnəşr, 1998**

## KİTABIN İÇİNDƏKİLƏR

**NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*19 mart 1996-cı il*........................................................................................................ 11

**ŞƏHİD UŞAQLARI VƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN TƏŞKİL OLUNMUŞ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ**
*20 mart 1996-cı il*........................................................................................................ 12

**BAKININ GƏNCLƏR MEYDANINDA – QOŞA QALA QAPISI ÖNÜNDƏ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ**
*21 mart 1996-cı il*........................................................................................................ 14

**PAKİSTAN İSLAM RESPUBLİKASININ MİLLİ GÜNÜ MÜNASİBƏTİLƏ PAKİSTANIN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ**
*23 mart 1996-cı il*........................................................................................................ 16

**TÜRK DÖVLƏT VƏ İCMALARININ IV DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYININ İŞTİRAKÇILARINA**
*24 mart 1996-cı il*........................................................................................................ 17

**ÜMUMDÜNYA İSLAM XALQ RƏHBƏRLİYİ İDARƏ HEYƏTİNİN NÖVBƏTİ TOPLANTISI İŞTİRAKÇILARINA**
*24 mart 1996-cı il*........................................................................................................ 18

**AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT**
*27 mart 1996-cı il*........................................................................................................ 19

**AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN HƏR İKİ ÖLKƏNİN İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ**
*27 mart 1996-cı il*........................................................................................................ 20

**AZƏRBAYCAN-RUMINİYA DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT**
*27 mart 1996-cı il*........................................................................................................ 22

**RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ**
*27 mart 1996-cı il*........................................................................................................ 26

**RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ BAKIDAKI 10 SAYLI TEXNİKİ PEŞƏ MƏKTƏBİNİN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ FÜZULİ, AĞDAM, ZƏNGİLAN, XOCALI SAKİNLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ**
*28 mart 1996-cı il*........................................................................................................ 28

**KƏLBƏCƏRİN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ 3-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR RAYON SAKİNLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ**
*1 aprel 1996-cı il*........................................................................................................ 30
**YEKUN SÖZÜ**
*1 aprel 1996-cı il*........................................................................................................ 31

**ÖTƏN KƏND TƏSƏRRÜFATI İLİNİN YEKUNLARI, 1996-cı İLDƏ GÖRÜLƏSİ**

İŞLƏR, AQRAR BÖLMƏDƏ İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏZİYYƏTİ VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*2 aprel 1996-cı il*.......................................................................................... 35
YEKUN SÖZÜ
*2 aprel 1996-cı il*.......................................................................................... 35

1994-cü İL OKTYABR, 1995-ci İL MART HADİSƏLƏRİ VƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏTƏ HƏSR OLUNMUŞ ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİ TOPLANTISINDA GİRİŞ SÖZÜ
*5-6 aprel 1996-cı il*.......................................................................................... 43
YEKUN SÖZÜ
*5-6 aprel 1996-cı il*.......................................................................................... 44

PAKİSTAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ
*9 aprel 1996-cı il*.......................................................................................... 53

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*9 aprel 1996-cı il*.......................................................................................... 54

AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*10 aprel 1996-cı il*.......................................................................................... 56

PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM BƏNƏZİR BHUTTONUN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*10 aprel 1996-cı il*.......................................................................................... 58

PAKİSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*11 aprel 1996-cı il*.......................................................................................... 60

VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL LAHOR HAVA LİMANINDA PAKİSTAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ
*11 aprel 1996-cı il*.......................................................................................... 62

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZIN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT
*14 aprel 1996-cı il*.......................................................................................... 63

AZƏRBAYCAN-TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
*14 aprel 1996-cı il*.......................................................................................... 64

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZLA AZƏRBAYCAN İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ
*14 aprel 1996-cı il*.......................................................................................... 66

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*14 aprel 1996-cı il*.......................................................................................... 70

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZA M. Ə. RƏSULZADƏ ADINA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*15 aprel 1996-cı il*............ 71

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZLA SABUNÇU RAYONUNDAKI 6 SAYLI TEXNİKİ PEŞƏ MƏKTƏBİNİN YATAQXANASINDA YAŞAYAN FÜZULİ, CƏBRAYIL, ZƏNGİLAN QAÇQINLARININ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*15 aprel 1996-cı il*............ 73

PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK
*15 aprel 1996-cı il*............ 75

BAKIDA "RAMSTORE" SUPERMARKETİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ
*15 aprel 1996-cı il*............ 76

DÖVLƏT BAYTARLIQ XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN BEYNƏLXALQ MÜŞAVİRƏSİNİN İŞTİRAKÇILARINA
*18 aprel 1996-cı il*............ 77

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
*19 aprel 1996-cı il*............ 78

AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ MARK DALİNƏ
*21 aprel 1996-cı il*............ 79

QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MÜXBİRLƏRİN SUALLARINA CAVAB
*21 aprel 1996-cı il*............ 80

RUSİYA FEDERASİYASININ LÜKSEMBURQDAKI SƏFİRLİYİ ƏRAZİSİNDƏ BÖYÜK AZƏRBAYCAN ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİ ÖNÜNDƏ ÇIXIŞ
*22 aprel 1996-cı il*............ 82

AZƏRBAYCAN RESPUBLİKASI İLƏ AVROPA BİRLİYİ ARASINDA TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*22 aprel 1996-cı il*............ 83

AVROPA KONFRANS MƏRKƏZİNDƏ ZAQAFQAZİYANIN DİGƏR İKİ RESPUBLİKASININ PREZİDENTLƏRİ İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI
*22 aprel 1996-cı il*............ 85

BELÇİKA BEYNƏLXALQ TİCARƏT MƏRKƏZİNDƏ ÇIXIŞ
*23 aprel 1996-cı il*............ 89

AZƏRBAYCANIN BRÜSSELDƏKİ SƏFİRLİYİNDƏ ÇIXIŞ
*23 aprel 1996-cı il*............ 90

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ NATO-nun BAŞ KATİBİ XAVYER SOLANANIN JURNALİSTLƏRLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ
*23 aprel 1996-cı il*............ 91

BRÜSSELDƏN NORVEÇƏ RƏSMİ SƏFƏRƏ GƏLƏRKƏN OSLO HAVA

LİMANINDA NORVEÇ JURNALİSTİNİN SUALINA CAVAB
*24 aprel 1996-cı il*............................................................................................ 92

NORVEÇİN BAŞ NAZİRİ QRU HARLEM BRUNDTLAND İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*24 aprel 1996-cı il*............................................................................................ 93

NORVEÇİN BAŞ NAZİRİ QRU HARLEM BRUNDTLANDIN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*24 aprel 1996-cı il*............................................................................................ 94

AZƏRBAYCAN VƏ NORVEÇ ÖLKƏLƏRİ ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BƏYANAT
*24 aprel 1996-cı il*............................................................................................ 96

BEYNƏLXALQ UŞAQ İNCƏSƏNƏT MUZEYİNDƏ ÇIXIŞ
*24 aprel 1996-cı il*............................................................................................ 97

NORVEÇDƏ AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*24 aprel 1996-cı il*............................................................................................ 98

MƏTBUAT KONFRANSINDA BƏYANAT
*25 aprel 1996-cı il*............................................................................................ 103

"STATOYL" ŞİRKƏTİNİN PREZİDENTİ HARL NORVİNQ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*25 aprel 1996-cı il*............................................................................................ 105

"STATOYL" ŞİRKƏTİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*25 aprel 1996-cı il*............................................................................................ 106

NORVEÇİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*26 aprel 1996-cı il*............................................................................................ 108

NORVEÇDƏ DƏNİZ NEFT PLATFORMASI İLƏ TANIŞLIQDAN SONRA RESPUBLİKA TELEVİZİYASINA MÜSAHİBƏ
*26 aprel 1996-cı il*............................................................................................ 111

"STATOYL" ŞİRKƏTİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*26 aprel 1996-cı il*............................................................................................ 112

QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ SƏFƏRDƏN QAYITDIQDAN SONRA RESPUBLİKA MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ
*27 aprel 1996-cı il*............................................................................................ 113

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ "QIZILQUM" SANATORİYASINDA MÜVƏQQƏTİ YERLƏŞMİŞ ŞUŞA, XOCALI, LAÇIN, AĞDAM QAÇQINLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*28 aprel 1996-cı il*............................................................................................ 116

RESPUBLİKA NAZİRLƏR KABİNETİ RƏHBƏRLİYİNİN, APARATININ VƏ PREZİDENT APARATININ RƏHBƏR İŞÇİLƏRİNİN BİRGƏ İCLASINDA NİTQ
*4 may 1996-cı il*............................................................................................ 120

ŞUŞA VƏ LAÇIN RAYONLARI SAKİNLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ

**GİRİŞ SÖZÜ**
*6 may 1996-cı il*.......................................................................................................... **127**
**YEKUN SÖZÜ**
*6 may 1996-cı il*.......................................................................................................... **127**

**AZƏRBAYCANIN XALQ ARTİSTİ SOFİYA XANIM HÜSEYNOVAYA**
*7 may 1996-cı il*.......................................................................................................... **136**

**TANK QOŞUNLARI GENERAL-MAYORU, İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI HƏZİ ASLANOVUN BAKIDAKI MƏZARI YANINDA XATİRƏ MİTİNQİNDƏ ÇIXIŞ**
*9 may 1996-cı il*.......................................................................................................... **137**

**ALMAN FAŞİZMİ ÜZƏRİNDƏ QƏLƏBƏNİN 51-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ HƏZİ ASLANOV ADINA BAKI ALİ ÜMUMQOŞUN KOMANDİRLƏRİ MƏKTƏBİNİN MEYDANINDA RƏSM-KEÇİDDƏ ÇIXIŞ**
*9 may 1996-cı il*.......................................................................................................... **138**

**YENİDƏN QURULMUŞ 92 NÖMRƏLİ ATS-i VƏ 97 NÖMRƏLİ YENİ ATS-i BİRLƏŞDİRƏN AVTOMAT-TELEFON STANSİYASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ**
*10 may 1996-cı il*.......................................................................................................... **144**

**RUSİYA FEDERASİYASININ "YENİ ADLAR" BEYNƏLXALQ XEYRİYYƏ FONDUNUN VƏ "BİZNESMENLƏR – AZƏRBAYCANIN GƏNC İSTEDADLARINA" XEYRİYYƏ FONDUNUN HİMAYƏ ETDİKLƏRİ GƏNC İSTEDADLARIN TƏQDİMAT KONSERTİNDƏN ƏVVƏL "YENİ ADLAR" BEYNƏLXALQ XEYRİYYƏ FONDUNUN YARATDIĞI "PLANETİN YENİ ADLARI" KİTABI İMZALANDIQDAN SONRA ÇIXIŞ**
*10 may 1996-cı il*.......................................................................................................... **145**

**MƏŞHƏD-SƏRƏXS-TƏCƏN DƏMİRYOLU MAGİSTRALININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İRANA SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA RESPUBLİKA TELEVİZİYASI MÜXBİRİNİN SUALINA CAVAB**
*12 may 1996-cı il*.......................................................................................................... **146**

**MƏŞHƏD HAVA LİMANINDA İRAN MİLLİ TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
*12 may 1996-cı il*.......................................................................................................... **147**

**İQTİSADI ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (EKO) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ**
*14 may 1996-cı il*.......................................................................................................... **148**

**DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISININ YEKUN İCLASINDA NİTQ**
*14 may 1996-cı il*.......................................................................................................... **150**

**MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*16 may 1996-cı il*.......................................................................................................... **151**

**RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ, MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASI ŞURASININ SƏDRİ YEQOR STROYEVLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTİN SUALINA CAVAB**
*16 may 1996-cı il*.......................................................................................................... **152**

RUSİYA FEDERAL MƏCLİSİ MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA BƏYANAT
*17 may 1996-cı il*.................................................................................................... 153

MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MOSKVADA KEÇİRİLMİŞ İCLASININ YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSINDA DAĞLIQ QARABAĞIN STATUSU BARƏDƏ SUALA CAVAB
*17 may 1996-cı il*.................................................................................................... 154

NORVEÇİN MİLLİ BAYRAMI – ÖLKƏ KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ NORVEÇİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ
*20 may 1996-cı il*.................................................................................................... 155

ŞRİ LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASI, ZAMBİYA RESPUBLİKASI, QANA RESPUBLİKASI, AVSTRİYA RESPUBLİKASI VƏ POLŞA RESPUBLİKASI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*21 may 1996-cı il*.................................................................................................... 157

ŞAİR SABİR RÜSTƏMXANLIYA
*22 may 1996-cı il*.................................................................................................... 158

AZƏRBAYCANDA KEÇİRİLƏN GÜRCÜSTAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ ÇƏRÇİVƏSİNDƏ İKİ RESPUBLİKANIN İNCƏSƏNƏT USTALARININ BÖYÜK KONSERTİ BAŞA ÇATDIQDAN SONRA ÇIXIŞ
*22 may 1996-cı il*.................................................................................................... 159

"OQONYOK" JURNALI MÜXBİRLƏRİ İLƏ MÜSAHİBƏ
*may 1996-cı il*.................................................................................................... 160

MİLLİ BAYRAM – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ
*26 may 1996-cı il*.................................................................................................... 163

AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT
*27 may 1996-cı il*.................................................................................................... 169

AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA İKİTƏRƏFLİ DANIŞIQLAR ZAMANI ÇIXIŞ
*27 may 1996-cı il*.................................................................................................... 170

AZƏRBAYCAN-ÖZBƏKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATI
*27 may 1996-cı il*.................................................................................................... 174

M. Ə. RƏSULZADƏ adına BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*27 may 1996-cı il*.................................................................................................... 178

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ
*27 may 1996-cı il*.................................................................................................... 180

"AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ ƏMƏKDAŞLIĞININ PERSPEKTİVLƏRİ"

MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSIN AÇILIŞINDA NİTQ
*30 may 1996-cı il*........................................................................................................ 184

UŞAQLARI BEYNƏLXALQ MÜDAFİƏ GÜNÜ MÜNASİBƏTİLƏ UŞAQ MUSİQİ FESTİVALI QALİBLƏRİNİN YEKUN KONSERTİNDƏ ÇIXIŞ
*1 iyun 1996-cı il*........................................................................................................ 190

"OQONYOK" JURNALININ AZƏRBAYCANA HƏSR OLUNMUŞ XÜSUSİ NÖMRƏSİNİN TƏNTƏNƏLİ TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ
*1 iyun 1996-cı il*........................................................................................................ 192

BMT İNKİŞAF PROQRAMININ RƏHBƏRİ GEYMS QUSTAV SPETİN SUMQAYITDA QARŞILANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*2 iyun 1996-cı il*........................................................................................................ 196

"AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFINA DAİR HESABAT" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ
*2 iyun 1996-cı il*........................................................................................................ 198

AZƏRBAYCAN, ERMƏNİSTAN, GÜRCÜSTAN VƏ RUSİYA DÖVLƏT BAŞÇILARININ, HABELƏ RUSİYA FEDERASİYASININ SUBYEKTLƏRİ OLAN ŞİMALI QAFQAZ RESPUBLİKALARI, DİYARLARI VƏ VİLAYƏTLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ
*3 iyun 1996-cı il*........................................................................................................ 204

AZƏRBAYCAN RESPUBLİKASI, ERMƏNİSTAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ RUSİYA FEDERASİYASI DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ QƏBUL EDİLMİŞ "QAFQAZDA ƏMİN-AMANLIQ, SÜLH, İQTİSADİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ UĞRUNDA BƏYANNAMƏ"
*3 iyun 1996-cı il*........................................................................................................ 207

AZƏRBAYCAN, ERMƏNİSTAN, GÜRCÜSTAN VƏ RUSİYANIN DÖVLƏT BAŞÇILARININ, HABELƏ ŞİMALI QAFQAZ RESPUBLİKALARI, DİYAR VƏ VİLAYƏTLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNDƏN QAYITDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA "MİR" DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏ
*3 iyun 1996-cı il*........................................................................................................ 209

BAKIDA "XƏZƏRNEFTQAZ-96" ÜÇÜNCÜ BEYNƏLXALQ SƏRGİSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ
*4 iyun 1996-cı il*........................................................................................................ 210

"ŞAHDƏNİZ" YATAĞININ BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏ İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ
*4 iyun 1996-cı il*........................................................................................................ 212

RUSİYA FEDERASİYASININ BAKIDAKI SƏFİRLİYİNİN RUSİYANIN MİLLİ BAYRAMI – RUSİYANIN SUVERENLİYİ HAQQINDA BƏYANNAMƏNİN QƏBUL OLUNMASI GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ
*10 iyun 1996-cı il*........................................................................................................ 216

QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİNİN YEDDİNCİ SESSİYASI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ
*11 iyun 1996-cı il*........................................................................................................ 218

QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİ İQTİSADİ ƏMƏKDAŞLIĞI

PARLAMENT MƏCLİSİNİN YEDDİNCİ SESSİYASINDA NİTQ
*12 iyun 1996-cı il*.................................................................................................. 220

ABŞ KONQRESİNDƏ "PORTER ƏLAVƏSİ"NİN MÜZAKİRƏSİ İLƏ ƏLAQƏDAR BƏYANAT
*13 iyun 1996-cı il*.................................................................................................. 225

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MİLLİ BAYRAMI – ÜLYAHƏZRƏT KRALİÇA II YELİZAVETANIN AD GÜNÜ MÜNASİBƏTİLƏ İNGİLTƏRƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*20 iyun 1996-cı il*.................................................................................................. 228

GÖRKƏMLİ ALİM VƏ DÖVLƏT XADİMİ VƏLİ YUSİF OĞLU AXUNDOVUN 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY YIĞINCAĞINDA NİTQ
*21 iyun 1996-cı il*.................................................................................................. 229

TÜRKİYƏNİN İQDIR, VİLAYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*21 iyun 1996-cı il*.................................................................................................. 235

RESPUBLİKADA AQRAR İSLAHATLARIN GEDİŞİ VƏZİYYƏTİNƏ VƏ TORPAQ İSLAHATI HAQQINDA QANUN LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ
*24 iyun 1996-cı il*.................................................................................................. 240
YEKUN SÖZÜ
*24 iyun 1996-cı il*.................................................................................................. 241

GÖRKƏMLİ DÖVLƏT XADİMİ, GENERAL-LEYTENANT ARİF HEYDƏROVUN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ NİTQ
*28 iyun 1996-cı il*.................................................................................................. 245

NAZİRLƏR KABİNETİNİN RƏYASƏT HEYƏTİ ÜZVLƏRİNİN, İQTİSADİYYATIN İNKİŞAFINDA MÜHÜM ROL OYNAYAN NAZİRLİKLƏRİN BAŞÇILARININ VƏ PREZİDENTİN İCRA APARATI RƏHBƏR İŞÇİLƏRİNİN İŞTİRAKI İLƏ 1996-cı İLİN BİRİNCİ YARISININ İŞ YEKUNLARININ TƏHLİLİNƏ HƏSR OLUNMUŞ İCLASDA ÇIXIŞ
*28 iyun 1996-cı il*.................................................................................................. 249

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlərim!

Bu müqəddəs gündə doğma xalqımı Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, Azərbaycanın hər bir vətəndaşına yeni ildə sülh, əmin-amanlıq, uzun ömür və xoşbəxtlik diləyirəm.

Qədim milli və tarixi ənənələrimizlə bağlı olan Novruzun gəlişi həmişə olduğu kimi bu il də bizə yeni ümidlər gətirir, xeyrin şərə qalib gələcəyinə, qəm-qüssənin sevinclə əvəz olunacağına sarsılmaz inam yaradır. Mən bu gün də əminəm ki, iqtisadi çətinliklər məngənəsində çırpınan, düşmənin qara əməlləri ilə qaçqın, didərgin ömrü yaşayan doğma xalqını Novruzun bəxş etdiyi ümidə söykənib qəmə və kədərə qalib gələcək.

Artıq beş ildir ki, biz müqəddəs Novruz bayramını rəsmi dövlət bayramı kimi müstəqil Azərbaycan Respublikasının vətəndaşı olaraq qarşılayırıq. Əsrlər boyu Novruz bizim üçün təbiətin və ana torpağın oyanması, baharın gəlişi olmaqla yanaşı, həm də barış və saf niyyətlər bayramı olmuşdur. Bu əziz gündə xoşbəxt gələcək naminə Azərbaycan xalqına əbədi birlik və vətəndaş həmrəyliyi arzulayıram.

Cəsur Azərbaycan əsgərinə bayram təbriki yetirərək arzu edirəm ki, o, müstəqillik qazanmış vətənimizin müdafiəsi, zəbt olunmuş torpaqlarımızın azad edilməsi uğrunda hünər və şücaəti ilə tariximizin yeni şanlı səhifələrini yazsın.

Ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızı salamlayıram, xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaqda bütün azərbaycanlılara daha qətiyyətli və dəyanətli olmağı arzulayır, bu əziz bayram günündə onlara uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*19 mart 1996-cı il* [5-6]

## ŞƏHİD UŞAQLARI VƏ KİMSƏSİZ UŞAQLAR ÜÇÜN TƏŞKİL OLUNMUŞ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*20 mart 1996-cı il*

Əziz balalar – qızlar, oğlanlar, uşaqlar,
bizim övladlarımız!

Mən sizi bu gün, bizim milli bayramımız – Novruz bayramı günü ürəkdən təbrik edirəm. Sizə və bütün Azərbaycan uşaqlarına, gənclərinə, qızlarına, oğlanlarına bayram salamımı yetirir, hamınıza şən həyat, sağlamlıq, xoşbəxtlik və böyük gələcək arzulayıram.

Novruz bayramı xalqımızın əsrlərdən-əsrlərə keçmiş, ulu babalarımızdan bizə vəsiyyət edilmiş, gəlib çatmış əziz milli bayramıdır. Son illər biz bu bayramı yüksək səviyyədə keçiririk. Doğrudur, respublikamızdakı ağır vəziyyətə görə bəzən bu bayram dərd-qəmlə bir yerdə olur. Ancaq xalqımız bayram edir, şənlənir, sevinir. Bizim hər birimizin ən böyük sevinci, ən çox istədiyimiz – balalarımız, uşaqlarımız, gənclərimizdir, əziz balalar, əziz övladlar, sizlərsiniz. Mən sizin hamınızı qucaqlayıram, öpürəm, bağrıma basıram. Bu gün burada sizinlə bir yerdə olmağımdan çox şadam və bu bayram şənliyini həyatımda olan şənliklərin hamısından üstün tuturam.

Sizin çoxunuz atanızı, ananızı itirmisiniz, çoxlarınızın atası Vətənimizi, torpağımızı, müstəqil Azərbaycanı müdafiə edərkən şəhid olub, canını qurban verib, qəhrəmanlıq nümunələri göstərib, həyatı qəhrəman kimi tərk edibdir. Ancaq onlar sizin də, bizim də, bütün Azərbaycan xalqının qəlbində qəhrəman kimi yaşayırlar. Onlar həyatdan getməyiblər, bizimlədirlər, qəlbimizdədirlər. Onlar bu gün bu salondadırlar, sizin şən, xoşbəxt gününüzü görüb daha da sevinirlər. Ona görə də siz özünüzü heç də valideynsiz hesab etməyin. Sizin valideynləriniz var. Müstəqil Azərbaycan dövləti sizin valideyninizdir. Sizin valideyniniz Azərbaycan torpağıdır, Vətənimizdir, müstəqil Azərbaycan dövləti və onun prezidentidir. Siz buna arxayın ola bilərsiniz. [6-7]

"Gülüstan" sarayı vaxtilə, on altı il bundan öncə Azərbaycanda böyük dövlət mərasimləri keçirmək üçün tikilibdir. Burada, adətən, rəsmi mərasimlər, dövlət ziyafətləri, yaşlı adamların şənlik mərasimləri, konsertlər, cürbəcür belə tədbirlər keçirilir. Bu gün isə sarayın tarixində ikinci dəfədir ki, bura sizin – balalarımızın, uşaqların ixtiyarına verilibdir, sizin sərəncamınıza verilibdir, burada şənlik, bayram keçirirsiniz. Mən hesab edirəm ki, bu sarayın divarları indiyədək bugünkü kimi sevinməyibdir. Sevinir ona görə ki, siz, bizim əziz balalarımız bu salonda şadlanırsınız, oxuyur-oynayır, Novruz bayramını qeyd edirsiniz.

Mən isə daha çox sevinirəm. Çünki – siz uşaqsınız, bilmirsiniz, yaşınız da azdır, – on altı il bundan öncə həmin bu "Gülüstan" sarayını tikən, yaradan mən olmuşam. Bu, mənim əsərimdir, onu mən tikmişəm. Ona görə də sevinirəm ki, vaxtilə bunu böyük mərasimlər üçün tikmişəm, indi isə o sizindir, uşaqlarındır, burada bayram şənliyi, ziyafəti keçirirsiniz.

Əziz balalar, sizin bu şən həyatınız, bu gününüz Azərbaycanın böyük gələcəyidir. Siz Azərbaycanın gələcəyisiniz, müstəqil Azərbaycan dövlətinin, müstəqil Azərbaycan Respublikasının gələcəyi sizsiniz. Ona görə də siz bugünkü kimi şənlənməlisiniz, həyatınız xoşbəxt olmalıdır. Amma eyni zamanda yaxşı oxumalısınız, təhsil almalısınız, özünüzü gələcək həyata hazırlamalımız.

Bu gün gördüm ki, bizim uşaqlarımız, balalarımız – qızlarımız, oğlanlarımız nə qədər istedadlıdırlar. Çox gözəl mahnılar oxuyur, oynayır, kütləvi rəqslərdə çox həvəslə iştirak edirsiniz. Bunlar məni çox sevindirir. Bu, onu göstərir ki, sizin tərbiyənizlə, təhsilinizlə məşğul olanlar bu işə doğrudan da səylə, ürəkdən, can-başla yanaşırlar.

Sizin əksəriyyətiniz, bilirəm, uşaq evlərində yaşayır. Uşaq evlərinə qayğı göstərmək bizim ən əsas vəzifələrimizdən biridir. Mən bu gün bunu bir daha bəyan edirəm, sizə bildirirəm. Ancaq sizdən də çox, bizim dövlət orqanlarına bildirirəm. Bütün dövlət orqanları, icra hakimiyyəti orqanları uşaq evlərinə xüsusi diqqət verməlidirlər. Valideynsiz, ata-anasız uşaqların yaşamasına, tərbiyə, təhsil almasına xüsusi qayğı göstərilməlidir. Mən bunu bir daha qeyd edir və vəzifə kimi hakimiyyət orqanlarının qarşısında qoyuram.

Ümumiyyətlə, məktəblərə, uşaqlara, onların təlim-tərbiyə[7-8]sinə, təhsilinə qayğı bizim əsas borcumuzdur. Biz bu borcumuzu yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik.

Siz uşaqsınız, həyatımızın çətinliklərini bəlkə o qədər də dərk edə bilmirsiniz. Əlbəttə ki, bir neçə ildən sonra, böyüyəndən, yaşlaşandan sonra, ali məktəblərə gedən zaman çox şeyləri biləcəksiniz. Amma bu gün də, ola bilər, sizlərdən kiminsə yaddaşında qalacaqdır ki, prezidentlə görüşmüsünüz, prezident sizə öz tövsiyələrini veribdir. Ona görə də mən sizə demək istəyirəm: bu gün ölkəmiz, Azərbaycan çox ağır, çətin bir həyat keçirir, ağır bir dövr keçiririk. Respublikamız Ermənistanın təcavüzünə məruz qalıbdır. İşğal olunmuş torpaqlarımızdan

Azərbaycanın bir milyon vətəndaşı didərgin, qaçqın düşübdür. Əziz balalar, çoxlarınızın ailə həyatını pozan, valideynlərinizi həlak edən, dünyadan aparan da Ermənistanın Azərbaycana etdiyi təcavüzdür.

Biz müharibəni dayandırmışıq. İki ilə yaxındır ki, müharibə getmir, atəş yoxdur. Biz sülh istəyirik, bu məsələləri sülh yolu ilə həll etməyə çalışırıq. Bunların da hamısını ona görə etmək istəyirik ki, xalqımız sülh, əmin-amanlıq şəraitində yaşasın. Nə qədər çox sülh, əmin-amanlıq olarsa, gələcək nəslimiz daha yaxşı, daha firavan yaşayacaq, yaxşı təhsil, tərbiyə alacaq, gələcək üçün hazırlaşacaqdır.

Biz bütün bu işləri çətinliklər içində görürük. Ancaq bu çətinliklərə baxmayaraq, biz sizin qayğınıza qalmışıq, qalırıq və bundan sonra da qalacağıq. Hər birimizin, Azərbaycanın hər bir vətəndaşının borcu uşaqlara qayğı, diqqət göstərməkdir. Mən bu gün hər bir valideynə, hər bir ataya, anaya müraciət edirəm ki, uşağına yaxşı baxsın, yaxşı tərbiyə versin, uşağını yaxşı böyütsün. Çünki bugünkü uşaqlar müstəqil Azərbaycanın gələcəyidir. Bu gün hər bir müəllimə, məktəb işçisinə müraciət edirəm ki, uşaqlarımıza yaxşı təhsil versinlər, onları gələcəyə yaxşı hazırlasınlar. Bilirəm, məktəblərin vəziyyəti çətindir, ağırdır, bir çox problemlər var. Amma bunlara baxmayaraq, müəllimlik bizim üçün həmişə müqəddəs, şərəfli vəzifə olubdur və ümidvaram ki, müəllimlər öz şərəfli vəzifələrini bundan sonra da layiqincə yerinə yetirəcəklər.

Mən bu gün Azərbaycanın bütün xeyirxah insanlarına müraciət edirəm. İmkanlardan istifadə edib uşaqlara, gənclərə qayğı göstərmək lazımdır. Onlara xüsusən ona görə müraciət edirəm ki, uşaq evlərinə, valideynsiz uşaqlara xüsusi qayğı göstərməlidirlər. Gərək hər bir xeyirxah, imkanlı adam uşaq evi[8-9]nə qayğı göstərməyi, kömək etməyi, orada təlim-tərbiyə alan, yaşayan uşaqların vəziyyətini yüngülləşdirməyi özü üçün şərəfli bir vəzifə hesab etsin. Güman edirəm ki, mənim səsimə səs veriləcəkdir.

İkinci ildir ki, mən sizinlə "Gülüstan" sarayında görüşürəm. Bu gözəl tədbirin təşəbbüskarı Bakı şəhər icra hakimiyyəti, onun rəhbərliyidir. Hesab edirəm ki, bu, çox nəcib, gözəl təşəbbüsdür, xalqımıza, millətimizə xas olan təşəbbüsdür. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu təşəbbüsə hamı qoşulacaq, bütün şəhərlər, rayonlar qoşulacaqdır, bütün dövlət adamları, xeyirxah adamlar qoşulacaqdır. Beləliklə də bizim uşaqlar – qızlarımız, oğlanlarımız, gənclərimiz bütün bu çətinliklərə baxmayaraq, şən, xoşbəxt yaşayacaqlar, firavan şəraitdə yaşayacaqlar, yaxşı təhsil alacaq, gələcək üçün hazırlaşacaqlar.

Əziz balalar, burada sizinlə keçirdiyim dəqiqələri, saatları həyatımın ən xoşbəxt anları hesab edirəm. Sizə baxdıqca ürəyim şad olur. Çünki bizim nə qədər gözəl-göyçək, istedadlı uşaqlarımız var, nə qədər gözəl gəncliyimiz var! Deməli, Azərbaycanın nə qədər gözəl, xoşbəxt gələcəyi var! Mən buna sevinirəm. Ona görə də sizin hər birinizi, hamınızı bir daha təbrik edir, qucaqlayıram, öpürəm, bağrıma basıram. Hamınıza cansağlığı, xoşbəxt, firavan həyat arzulayıram. Arzu edirəm ki, həmişə belə şən olasınız, güləsiniz, çalıb-oynayasınız. Sağ olun. [9-10]

## BAKININ GƏNCLƏR MEYDANINDA – QOŞA QALA QAPISI ÖNÜNDƏ NOVRUZ ŞƏNLİYİNDƏ ÇIXIŞ

*21 mart 1996-cı il*

Əziz həmvətənlər, bacılar və qardaşlar!

Əziz Bakı sakinləri, Azərbaycan vətəndaşları!

Bu bayram – Novruz bayramı, milli bayramımız günü mən sizi, bütün Azərbaycan vətəndaşlarını səmimi qəlbdən təbrik edirəm. Sizə, bütün Azərbaycana sülh, əmin-amanlıq, xoşbəxtlik, firavan həyat arzulayıram.

Novruz bayramı hər bir azərbaycanlı üçün əziz bayramdır. Bu, hər bir insanın, hər bir vətəndaşın bayramıdır, ulu babalarımızdan əsrlərdən-əsrlərə keçib gəlmiş əziz bayramdır. Bu bayram həm adi insan bayramıdır, həm millət, həm xalq, həm də dövlət bayramıdır. Bu bayramı bütün başqa bayramlardan fərqləndirən cəhət bundan ibarətdir. Hər bir vətəndaş, hər bir insan, hər bir azərbaycanlı, Azərbaycan torpağında yaşayan hər bir insan bu bayramı öz qəlbində, öz evində, obasında, ailəsində bayram edir.

Ola bilər ki, dövlət bayramını kimsə bir bayram kimi qəbul etsin, amma qəlbində ona başqa münasibət göstərsin. Ola bilər ki, bir ümumdünya bayramına da kimsə başqa münasibət göstərsin. Ancaq Novruz bayramı hər bir azərbaycanlı demək olar ki, anadan olandan onun qəlbində, ürəyində, ruhunda, fikrində yaşayan bayramdır. Ona görə də bu bayram bütün insanları coşdurur, Azərbaycanda olan hər bir insanı sevindirir, şənləndirir. İnsan nə qədər qəm-qüssə içində olsa da, bu bayramda özünü şən əhval-ruhiyyədə hiss edir.

Novruz bayramı həm bu dünyada yaşayanların bayramıdır, həm də bu dünyanı tərk edən insanların ruhunun bayramıdır. Ona görə təsadüfi deyildir ki, bu bayram ərəfəsində və günlərində hər bir insan öz əcdadını, babasını, dünyadan getmiş qohum-əqrəbalarını yada salır, dünyadan köçmüş insanların qəbri üstünə gedir, onların ruhlarına dualar oxutdurur. Yenə də deyirəm, bunlar hamısı Novruz bayramının nə qədər insani bayram olduğunu, hər bir azərbaycanlı üçün nə qədər əziz bayram olduğunu göstərir.[10-11]

Bununla yanaşı, bu, bizim milli bayramımızdır. Bu bayram əsrlərdən əsrlərə bizim milli, dini adət və ənənələrimizi yaşadıb bu günlərə gətirib çıxaran bayramdır. Buna görə də Novruz bizim ümumdövlət, ümummilli bayramımızdır, ümumxalq bayramımızdır. O da məlumdur ki, ümumxalq, ümumdövlət, ümumölkə amilləri hər bir insan ilə, hər bir vətəndaşla bir olanda bayram da daha yüksək səviyyəyə qalxır, insanlar da bir-biri ilə daha sıx ünsiyyətdə olurlar. Bu bayram bizim adət-ənənələrimizi əsrlər boyu yaşadıb bu günlərə gətirdiyi kimi, bu gün də bizi birləşdirir, daha da həmrəy edir, xalqımızda daha möhkəm birlik yaradır və birlik yaratmağa xidmət edir.

Bizim üçün – Azərbaycan üçün, indi həyatının, tarixinin bu ağır dövrünü keçirən bir xalq üçün, bir millət üçün bu, çox lazımdır, çox zəruridir. Biz tariximizin həm şərəfli bir dövrünü, həm də ən çətin və ağır dövrünü yaşayırıq. Ona görə şərəflidir ki, biz azadıq, müstəqilik, sərbəstik və bu bayramımızı, ola bilər, tarixdə indiyədək olmayan qədər yüksək səviyyədə və geniş bayram edirik. Deməli, bu bizim azadlığımızın, sərbəstliyimizin, müstəqilliyimizin ən yüksək, ən parlaq təzahürüdür.

Biz həyatımızın, tariximizin şərəfli bir dövrünü yaşayırıq. Ona görə ki, biz müstəqil dövlət qururuq, hüquqi dövlət qururuq, demokratik dövlət qururuq, insanlara azadlıq, sərbəstlik verən, insanların həyatının daha da firavan olmasına xidmət edə bilən cəmiyyət yaradırıq. Ona görə bu, tariximizin şərəfli səhifəsidir, şərəfli dövrüdür. Biz bu şərəfli dövrü yaşayırıq. Biz tarixi ənənələrimizi, adətlərimizi, dinimizi, dilimizi ümumxalq sərvəti etmişik. Bunlar hər bir vətəndaşın sərvətidir. Xalqımızın, millətimizin sərvətidir, ölkəmizin sərvətidir, dövlətimizin sərvətidir. Ona görə də bu, tarixin ən şərəfli dövrüdür.

Bununla yanaşı olaraq, biz, tariximizin çətin bir dövrünü yaşayırıq. Çətinlik ondan ibarətdir ki, əgər XX əsrin əvvəlində bizim həyatımızda və dünyanın bir çox ölkələrinin həyatında, ictimai-siyasi quruluşunda baş vermiş dəyişikliklər hər bir insanın həyatını qarmaqarışıq etdi, pozdu, dağıtdı, ölkələrin həyatında böyük dəyişikliklər əmələ gətirdisə, XX əsrin sonunda biz müstəqillik əldə etdikdən sonra, bir ictimai-siyasi, iqtisadi sistemdən başqasına keçəndən sonra, sərbəst, müstəqil bir həyat yoluna addım atdığımız zaman böyük çətinliklərlə rastlaşmışıq. Bunlar keçid dövrünün çətinlikləridir. Bu çətinliklər təbiidir, bunlar tarixin obyektiv proseslərindən meydana gələn, zəruriyyətdən doğan çətinliklərdir. Biz bunu yaşamalıyıq, biz [11-12] buna dözməliyik. Buna nə qədər dözümlü olsaq, gələcək həyatımız da bir o qədər xoşbəxt olacaq, istədiyimiz kimi olacaqdır.

Tariximizin çətin dövrünü yaşayırıq, ona görə ki, səkkiz il bundan öncə Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan torpağına Ermənistan tərəfindən hərbi təcavüz edilibdir. Bu təcavüz Azərbaycana böyük zərbələr vurubdur. Azərbaycan ərazisinin bir qismi işğal olunub, dağıdılıb, viran qoyulubdur. İşğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaşımız qaçqın düşüb, qaçqınlıq şəraitində yaşayır, bir çoxu çadırlarda yaşayır. Onların vəziyyəti ağırdır. Bunlar həyatımızın, tariximizin çətin mərhələsini əks etdirir. Torpağımız yaralanıbdır, vətənimiz yaralanıbdır. Bizə böyük yara vurulubdur, zərbə dəyibdir. Ancaq bunlar bizim iradəmizi

sındırmayıbdır. Bu yaralar bizi qorxutmamalıdır və xalqımızı heç vaxt qorxuda da bilməz. Biz bunların qarşısını alacağıq. Biz torpaqlarımızın azadlığını, ərazi bütövlüyümüzü təmin edəcəyik, müstəqil Azərbaycanın hüdudlarını bərpa edəcəyik. Bütün bu yaralar sağalacaq, müstəqil Azərbaycan öz hüdudlan çərçivəsində, öz hüdudlarının sahibi, öz torpağının sahibi, öz ərazisinin sahibi olacaqdır.

Lakin bu yol asan yol deyildir. Bu, çətin, ağır yoldur. Çünki biz zərbələr almışıq, torpaqlarımız işğal edilibdir, vətəndaşlarımız yerindən-yurdundan olublar. Bunların hamısını bərpa etmək asan deyildir, çətin işdir. Ona görə də biz tariximizin çətin dövrünü yaşayırıq. Ancaq xalqımızın iradəsi ilə, millətimizin iradəsi ilə, dövlətimizin iradəsi ilə biz bu çətinliklərdən çıxacağıq. Əminəm ki, çıxacağıq. Bu gün Azərbaycanın hər yerində, o cümlədən Bakıda xalqımızdakı bu bayram əhval-ruhiyyəsi, bu nikbinlik, bu sevinc, bu şənlik ümid verir ki, biz bu çətinliklərdən çıxacağıq.

Bildiyiniz kimi, biz məsələləri sülh yolu ilə həll etmək üçün iki ilə yaxındır ki, atəşkəs rejimində yaşayırıq. Atəşin dayandırılması barədə erməni təcavüzkarları və qəsbkarları ilə saziş əldə etmişik. Bu, lazımdır. Biz bu addımı atmışıq və bu, düzgün addımdır. Bu addımı ona görə atmışıq ki, bundan sonra qan tökülməsin. Bu addımı ona görə atmışıq ki, məsələləri sülh yolu ilə həll edək. Biz buna da çox ümidlər bəsləyirik. Ümidvaram ki, biz məsələni bu yolla həll edəcəyik. Biz müharibəyə bu yolla son qoyacağıq. Biz bu yolla bölgədə sülh yaradacağıq. Bu yolla Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, insanlar öz yerinə-yurduna qayıdacaq, qaçqınlar öz evi[12-13]nə-eşiyinə dönəcək və Azərbaycanda daimi sülh yaranacaqdır.

Mən buna əminəm. Əminəm ona görə ki, haqq işi, ədalət işi həmişə qələbə çalıb. Əminəm ona görə ki, Azərbaycan xalqı tarix boyu böyük sınaqlardan keçib və bu sınaqdan da keçəcəkdir. Əminəm ona görə ki, Azərbaycan xalqının zəkası, iradəsi, qəhrəmanlığı buna əsas verir. Əminəm ona görə ki, biz, Azərbaycan dövləti xalqın əmin-amanlığının, xoşbəxt gələcəyinin keşiyində durmuşuq.

Bu bayram günü bu sözləri sizə çatdıraraq sizdə daha yüksək əhval-ruhiyyə yaratmaq istəyirəm. Eyni zamanda sizdə daha möhkəm əzmkarlıq, ümumi işimiz naminə daha sıx birlik yaratmaq istəyirəm. Mən bu gün, Novruz bayramı günü, bu bahar bayramı günü, bu milli bayram günü bütün Azərbaycan vətəndaşlarını birliyə, vəhdətə dəvət edirəm. Xalqımız nə qədər tez birləşərsə, Azərbaycan xalqı bir-biri ilə nə qədər həmrəy olsa, nə qədər hamının sözü bir olsa, o qədər də tez bu çətinliklərdən çıxacağıq, o qədər də tez torpaqlarımızı geri qaytaracağıq, azad edəcəyik, ərazi bütövlüyümüzü təmin edəcəyik.

Mən bu sözləri deyərkən onu da bildirmək istəyirəm ki, Azərbaycan xalqının son illərdə, xüsusən son iki ildə nümayiş etdirdiyi birlik, həmrəylik – xalqın, millətin dövlət ilə birliyi indiki mərhələdə ən böyük nailiyyətimizdir. Mən buna yüksək qiymət verirəm. Mən xalqın dövlətə göstərdiyi hörmət və ehtiramı yüksək qiymətləndirirəm. Xalqın dövlət siyasətinə verdiyi dəstəyi, hörmət və ehtiramı yüksək qiymətləndirirəm. Son illərdə – 1994-cü ildə Azərbaycanda dövlət çevrilişinə cəhd zamanı, 1995-ci ilin bu mart ayında Azərbaycanda dövlət çevrilişinə cəhd zamanı, başqa çətin zamanlarımızda xalqın dövləti, Azərbaycan prezidentini müdafiə etməsi, dəstəkləməsi bizim bu sınaqlardan keçməyimizin əsasını təşkil edibdir. Ona görə də bu bayram günü bu tarixi keçmişimizi yada salaraq mən bir daha xalqa, Azərbaycan vətəndaşlarına, əziz bacı və qardaşlarım, sizə təşəkkürümü bildirirəm, minnətdarlığımı bildirirəm.

Əmin ola bilərsiniz ki, sizin bu etimadınızı, sizin bu dəstə[13-14]yinizi, sizin bu hörmətinizi mən və mənimlə bərabər dövlətə, hökumətə rəhbərlik edən adamlar daim doğruldacağıq. Buna arxayın ola bilərsiniz. Biz sizə arxalanırıq. Siz də bizə əmin ola bilərsiniz. Mənə, Azərbaycan prezidentinə əmin ola bilərsiniz ki, mən içdiyim anda, verdiyim sözə sadiqəm, daim xalqın azadlığı, xalqın müstəqilliyi keşiyində durmuşam və bundan sonra da duracağam.

Sizə minnətdarlığımı bildirirəm, sizə təşəkkür edirəm, sizi təbrik edirəm, sizi qucaqlayıram, bağrıma basıram. Sizin hər birinizə xoşbəxtlik, səadət arzulayıram, şən həyat arzulayıram, sizin hamınıza bayram əhval-ruhiyyəsi arzulayıram. Bayramınız mübarək olsun! Sağ olun. [14-15]

## PAKİSTAN İSLAM RESPUBLİKASININ MİLLİ GÜNÜ MÜNASİBƏTİLƏ PAKİSTANIN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Azərbaycan Tarixi Muzeyinin böyük salonu*

*23 mart 1996-cı il*

Hörmətli cənab səfir, hörmətli xanımlar və cənablar!

Pakistan xalqının, Pakistan Respublikasının milli bayramı, müstəqillik bayramı münasibətilə Pakistan xalqmı və buraya toplaşanları səmimi qəlbdən təbrik edir, Pakistan xalqına səadət və xoşbəxtlik arzu edirəm.

Pakistan xalqı çoxəsrlik tarixində 49 il bundan öncə dövlət müstəqilliyini əldə edib və Asiya qitəsinin ən böyük dövlətlərindən biri olaraq Dünya Birliyində özünə layiq yerini tutubdur. Pakistan xalqının böyük tarixi keçmişi dünyaya məlumdur. Onun tarixi keçmişi haqqında Azərbaycanda da ətraflı məlumatlar var və biz Pakistan xalqının əsrlər boyu keçdiyi yolu parlaq bir həyat yolu sayır və bu xalqın tarix boyu əldə etdiyi nailiyyətləri onun özünəməxsus milli, mənəvi ənənələrinə uyğun olan nailiyyətlər kimi qiymətləndiririk.

Pakistan xalqının dövlət müstəqilliyi əldə edəndən sonra qazandığı nailiyyətlər çox böyükdür. Bu müsəlman ölkəsində eyni zamanda demokratik prinsiplər əsasında dövlət quruculuğu prosesi çox sürətlə inkişaf edibdir. Pakistanın iqtisadiyyatında böyük dəyişikliklər müşahidə olunur və xalqın rifahının yüksəldilməsi üçün dövlət tərəfindən çox böyük işlər görülüb və görülməkdədir.

Pakistan öz nailiyyətləri, çoxsaylı əhalisi ilə, böyük ərazisi, təbii sərvətləri ilə Dünya Birliyində layiqli yer tutur. Onun apardığı düzgün, sülhsevər siyasət Asiya qitəsində sülhün, əmin-amanlığın, sabitliyin bərqərar olması üçün çox əhəmiyyətli bir amildir.

Xalqlarımızın – Pakistan xalqının və Azərbaycan xalqının tarixi əlaqələri çox böyükdür. Bizim keçmişimiz və bu günümüz bir-birinə çox bənzərdir. Dinimiz eyni olduğuna görə, bir çox oxşar milli ənənələrimizə görə yaxın olduğumuz üçün və [15-16] bir regionda məskun olduğumuza görə bu əlaqələr çox sıx olubdur və bu gün daha da sıxdır. Pakistan ilə Azərbaycan Respublikası arasındakı əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən sonra bu əlaqələr çox sürətlə inkişaf etməkdədir. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Pakistan dövləti Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biridir.

Qısa bir müddətdə ölkələrimiz arasında diplomatik əlaqələrin yaranması, Azərbaycanda Pakistan dövlətinin səfirliyinin fəaliyyət göstərməsi və buna bənzər bütün başqa amillər ölkələrimiz arasında əlaqələrin sıx olduğunu nümayiş etdirir.

Keçən il Pakistan prezidenti cənab Əhməd xan Leqarinin Azərbaycana rəsmi səfəri zamanı ölkələrimiz arasında çox mühüm müqavilələr imzalanmışdır və bunlar əməli surətdə həyata keçirilir. Pakistanın baş naziri xanım Bənazir Bhutto ilə bir neçə görüşümüz olmuşdur. Pakistan prezidentinin Azərbaycana səfəri zamanı olduğu kimi, bu görüşlərdə də dövlətlərimiz, ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha sürətlə inkişaf etdirilməsi problemlərini müzakirə etmiş və bu məsələlər barəsində eyni fikirdə olduğumuzu bildirmişik.

Hesab edirəm ki, əlaqələrimizin perspektivi çox böyükdür və ona görə də Pakistan prezidentinin dəvətini qəbul edərək bu ölkəyə rəsmi səfərə getmək barədə qərar qəbul etmişəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu rəsmi səfər zamanı danışıqlarımızı davam etdirəcək, yeni müqavilələr imzalayacaq və Pakistan ilə Azərbaycan arasında olan əlaqələrin, əməkdaşlığın inkişaf etdirilməsi üçün yeni addımlar atacağıq.

Pakistanı bir ölkə, dövlət kimi dünyada tanıtdıran, ona hörmət qazandıran bir çox amillər var. Pakistanın islam ölkəsi olaraq demokratiya yolu ilə getməsi və öz həyatını demokratik prinsiplər əsasında qurması, bu prinsiplər əsasında dövlət idarəsini təşkil etməsi çox maraqlı və dünya ictimaiyyəti tərəfindən çox böyük hörmətlə qarşılanan amillərdir.

Pakistan böyük, zəngin ölkədir. Təbii sərvətlərdən istifadə edilməsində Pakistan xalqının çox parlaq gələcəyi var. [16-17]

Azərbaycan xalqı, Azərbaycan Respublikası bu bayram günündə Pakistan xalqına ən xoş arzularını bildirir. Pakistan xalqına xoşbəxtlik, səadət arzulayır, Pakistan dövlətinə, hökumətinə qarşılarında duran vəzifələrin həyata keçirilməsində uğurlar diləyirəm. Pakistan Respublikasının, Pakistan dövlətinin rəhbərlərinə – prezident Əhməd xan Leqariyə, baş nazir xanım Bənazir Bhuttoya, bütün Pakistan xalqına hörmət və ehtiramımı bildirirəm. Sağ olun. [17-18]

## TÜRK DÖVLƏT VƏ İCMALARININ IV DOSTLUQ, QARDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ QURULTAYININ İŞTİRAKÇILARINA

Möhtərəm qurultay iştirakçıları!

Sizi türk dövlət və icmalarının IV dostluq, qardaşlıq və əməkdaşlıq qurultayının açılışı münasibətilə səmimi qəlbdən salamlayıram.

Bir kök üzərində şaxələnən türk xalqları dünyanın müxtəlif yerlərində məskunlaşaraq böyük və şərəfli bir tarix yaşamış, neçə-neçə qüdrətli dövlət yaratmışlar. Bu gün müasir türk xalqları öz qədim tarixlərinə sadiq qalaraq elmi, mədəni, iqtisadi və siyasi əlaqələrini daha da genişləndirir, qarşılıqlı münasibətlərin yeni bir inkişaf dövrünə qədəm qoyurlar.

Əminəm ki, məhz həmin məqsədlərə xidmət edən bu ali məclisiniz türk dövlət və icmaları arasında dostluq, qardaşlıq və əməkdaşlıq sahəsində yeni bir mərhələ olacaq, xalqlarımızın yaxınlaşması, türk dünyasının çiçəklənməsi yolunda mühüm rol oynayacaqdır.

Bir çox iqtisadi və siyasi problemlərin mövcud olduğu bir zamanda bütün türk dövlət və icmalarının nümayəndələrinin bir yerdə toplanması, geniş fikir mübadiləsi aparması, yeni mədəni və iqtisadi münasibətlərin yaranması üçün şərait yaratdığına görə Türkiyə dövlətinə və onun prezidenti möhtərəm Süleyman Dəmirəl cənablarına öz təşəkkürümü bildirirəm.

Əziz qurultay iştirakçıları!

Türk dünyasının ayrılmaz bir hissəsi olan Azərbaycan dövləti adından sizi təbrik edir, qurultayın işində sizə uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 mart 1996-cı il* [18-19]

## ÜMUMDÜNYA İSLAM XALQ RƏHBƏRLİYİ İDARƏ HEYƏTİNİN NÖVBƏTİ TOPLANTISI İŞTİRAKÇILARINA

Mərhəmətli, rəhmli Allahın adı ilə!
Hörmətli toplantı iştirakçıları!

Sizi – nüfuzlu Beynəlxalq İslam Təşkilatının nümayəndələrini bütün Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayıram.

Dünyanın tanınmış din xadimlərinin müstəqil Azərbaycanın paytaxtı Bakıda keçirilən bu ilk böyük toplantısı islam aləminin ayrılmaz bir hissəsi olan ölkəmizin həyatında əlamətdar hadisədir. Məlumdur ki, qonşu Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan səkkiz ildir ki, ağır müharibə şəraitində yaşayır. Bu müharibədə Azərbaycan 20 mindən artıq şəhid vermiş, yüz minə qədər azərbaycanlı yaralanmış. torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, milyondan artıq vətəndaşımız yurd-yuvasından didərgin düşmüşdür. İşğal olunmuş torpaqlar viran olmuş. evlər, məktəblər, sosial və inzibati binalar, təsərrüfat obyektləri, məscidlər və məbədlər dağıdılmış, müsəlman qəbiristanlıqları təhqirə məruz qalmış, Qurani-Kərim nüsxələri yandırılmış. qədim islam mədəniyyəti abidələri yerlə yeksan edilmişdir. Təbii ki, xalqımızın belə ağır gündə müsəlman qardaşlarının, bütün xeyirxah insanların yardımına və mənəvi dəstəyinə böyük ehtiyacı vardır. Buna görə də toplantınızı Azərbaycanda keçirdiyiniz üçün sizə öz minnətdarlığımı bildirirəm. Ümidvaram ki, respublikamızda olduğunuz günlər ərzində hər şeyi öz gözlərinizlə görüb real vəziyyətlə tanış ola biləcəksiniz və xalqımızın haqq işinin beynəlxalq miqyasda müdafiə olunması yolunda əlinizdən gələni əsirgəməyəcəksiniz.

Sizin bu toplantınız xalqımızın gözəl bayramlarından biri olan Novruz bayramı günlərində keçirilir. Mən şadam ki. sosial-iqtisadi vəziyyətin ağırlığına baxmayaraq müstəqil Azərbaycanın gələcəyinə böyük inam və nikbinliklə baxan xalqımızın bu Bahar bayramı şənliklərindəki sevincinə siz də şərik olacaqsınız. [19-20]

Azərbaycan xalqı bütün çətinliklərə və əngəllərə baxmayaraq öz dini dəyərlərini qoruyub saxlamış, yüksək islam ideallarına sədaqətini daim nümayiş etdirmişdir. O, ürəklərimizi bir-birinə birləşdirərək bizə qardaşlıq nemətini bəxş etmiş yenilməz qüvvət və hikmət sahibi Allahın bu fəzilətini həmişə əziz tutmuş və bütün müsəlmanların qardaşlığı naminə əlindən gələni etmişdir. Əminəm ki, sizin bu toplantınız da müsəlman xalqlarının qardaşlığı və həmrəyliyi işinə öz layiqli payını verəcəkdir.

Əziz toplantı iştirakçıları!

Sizi və sizin şəxsinizdə bütün müsəlman qardaşlarımızı bir daha salamlayır, Allah-Təaladan sizə cansağlığı, xoşbəxtlik və nəcib işlərinizdə böyük uğurlar diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*24 mart 1996-cı il* [20-21]

## AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*27 mart 1996-cı il*

Hörmətli prezident! Hörmətli qonaqlar!

Bu gün Azərbaycan Respublikası ölkəmizə rəsmi səfərə gəlmiş Rumıniya prezidenti hörmətli cənab İon İliyeskunu qəbul edir. Bizim əziz qonağımız, Azərbaycana gəlməyiniz münasibətilə sizi salamlayıram. Ümidvaram ki, Rumıniya ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi problemləri haqqında, həllinə Rumıniyanın və Azərbaycanın maraq göstərdikləri bir çox başqa məsələlər barədə əvvəllər başlanmış dialoqu burada, Bakıda davam etdirə biləcəyik.

Ölkələrimiz arasında mehriban münasibətlər yaranmışdır. Artıq müəyyən nəticələr əldə etmişik. Lakin əminəm ki, Rumıniya prezidentinin Azərbaycana səfəri münasibətlərimizin möhkəmləndirilməsində, əməkdaşlığımızın daha da inkişaf etdirilməsində yeni mərhələ olacaqdır.

Azərbaycana xoş gəlmisiniz! Biz sizi əziz qonaq kimi qəbul edirik və ümidvarıq ki, səfəriniz səmərəli və yaddaqalan olacaqdır. Sizi salamlayıram! [21-22]

## AZƏRBAYCAN VƏ RUMINİYA PREZİDENTLƏRİNİN HƏR İKİ ÖLKƏNİN İŞGÜZAR DAİRƏLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident sarayı*

*27 mart 1996-cı il*

Hörmətli xanımlar və cənablar! Bu gün Rumıniya prezidenti cənab İon İliyeskunun Azərbaycana rəsmi dövlət səfəri başlanmışdır. Biz bu səfərin gedişində Rumıniya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişafına dair məsələlər barədə fikir mübadiləsi edə bilərik, bundan sonra dövlətlərarası, hökumətlərarası sənədlər imzalanacaqdır.

Cənab İliyesku ilə görüşüm zamanı biz çox geniş məsələlər barədə fikir mübadiləsi etdik. Sonra isə Rumıniya nümayəndə heyətinin üzvləri və Azərbaycanın müvafiq nümayəndələri ilə geniş tərkibdə görüşdük və orada da bir sıra məsələləri müzakirə etdik. Söhbətlərimizdə və danışıqlarımızda ölkələrimiz arasında iqtisadi əməkdaşlıq problemi başlıca yer tutmuşdur və tutur. Biz belə hesab edirik ki, bu əməkdaşlığı genişləndirmək üçün böyük ehtiyatlarımız və imkanlarımız var.

Rumıniya Avropanın böyük dövlətidir. Biz onunla birlikdə Qara dəniz ölkələrinin iqtisadi əməkdaşlıq proqramında iştirak edirik. Mənə belə gəlir ki, burada da istifadə olunmamış ehtiyatlar çoxdur. Eyni zamanda, Rumıniya Avropa qitəsindəki coğrafi mövqeyinə, məsafəcə Azərbaycana yaxınlığına görə, nəqliyyat imkanları və Qara dəniz vasitəsilə Qafqazla əlaqələri sahəsində Azərbaycanla bilavasitə əməkdaşlıq üçün, habelə bizim böyük regionumuzun ölkələrinin genişmiqyaslı əməkdaşlığını təşkil etmək üçün çox böyük maraq doğurur. Böyük region deyərkən Avropa regionunu, Qafqazı, xüsusən Zaqafqaziyanı – Gürcüstanı və Azərbaycanı, Xəzər dənizini və Orta Asiyaya çıxmaq imkanı ilə Xəzəryanı dövlətləri nəzərdə tuturam.

Belə nəqliyyat xətti bu yol – həm dəniz, həm dəmiryol, həm də avtomobil yolları boyunca yerləşən ölkələrin hamısı üçün böyük maraq doğurur. Burada Rumıniyanın həlledici [22-23] mövqeyi var, Azərbaycanın və Gürcüstanın, habelə regionumuzun digər ölkələrinin də çox mühüm mövqeləri var. Biz bu məsələni müzakirə edərək belə bir yekdil fikrə gəldik ki, həmin xətdən fəal istifadə etməliyik. Bununla əlaqədar Qara dəniz hövzəsi zonası ölkələri arasında əməkdaşlığın genişləndirilməsinin mühüm əhəmiyyəti var. Həm Xəzəryanı ölkələrin, həm də Qara dəniz hövzəsi ölkələrinin səylərinin birləşdirilməsi böyük fayda verə bilər.

Rumıniya ilə Azərbaycan arasında bilavasitə əməkdaşlığa gəldikdə isə, biz belə hesab edirik ki, istər kənd təsərrüfatı, istərsə də sənaye sahəsində çox böyük imkanlar var. Biz Azərbaycana taxıl göndərilməsi barədə Rumıniyaya artıq müraciət etmişik, lakin bir çox başqa məsələləri də nəzərdən keçirə bilərik. Burada təkcə ticarətlə bağlı birdəfəlik addımlardan deyil, həm də ölkələrimiz arasında müntəzəm və mütəşəkkil ticarət-iqtisadi əlaqələrdən söhbət gedir. Bu sahədə bəzi cəhətlər var, bunlar da onunla bağlıdır ki, indi həm Rumıniyanın, həm də Azərbaycanın iqtisadiyyatı keçid dövrünün çətinliklərini yaşayır. Eyni zamanda iqtisadi islahatların həyata keçirilməsinin sürətində də fərqlər var. Rumıniya Azərbaycandan xeyli irəlidədir. Bununla belə, Azərbaycan iqtisadi islahatlar, bazar iqtisadiyyatını inkişaf etdirmək, dövlət mülkiyyətini özəlləşdirmək yolu ilə inamla addımlayır. Ona görə də bu sahədə Rumıniyada islahatların həyata keçirilməsində qazanılmış təcrübə də bizim üçün çox mühümdür. Biz bu təcrübədən istifadə edərək tədbirlərimizi daha uğurla həyata keçirə, böyük səhvlərə yol verməyə, yaxud bu səhvləri mümkün qədər az buraxa bilərdik. Digər tərəfdən, bu, iqtisadi əməkdaşlıq imkanlarının özünəməxsus xüsusiyyətini yaradır.

Biz onu əsas tuturuq ki, Azərbaycan xarici investisiyalar üçün açıqdır. Bu baxımdan biz neft sənayesi sahəsində böyük addım ataraq Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz yataqlarının iri neft şirkətləri ilə birlikdə istismarı haqqında 1994-cü ildə müqavilə bağladıq. Buraya ABŞ-ın beş iri neft şirkəti, Britaniyanın "Bi-Pi" şirkəti, Norveçin "Statoyl", "Rusiyanın "LUKoyl" şirkətləri, Türkiyə Neft Şirkəti daxildir. Ötən il biz Xəzərin Azərbaycan sektorundakı perspektivli yatağın işlənməsi haqqında İtaliyanın "Acip", Rusiyanın "LUKoyl", Amerikanın "Pennzoyl" şirkətləri ilə daha bir neft müqaviləsi imzaladıq. İndi "Şahdəniz" yatağına dair müqavilə hazırlanmaqdadır. Müqavilədə bir sıra xarici şirkətlər iştirak edir. Biz [23-24] hesab edirdik ki, bu istiqamətdə kifayət qədər iri addımlar atmışıq və zənnimcə, onlar Azərbaycan iqtisadiyyatına və bizimlə uzunmüddətli əməkdaşlığa başlayan xarici şirkətlərə fayda gətirəcəkdir. Axı 1994-cü ilin sentyabrında imzalanmış müqavilə 30 il üçün nəzərdə tutulmuşdur. Əminəm ki, əməli işimiz bu müqavilənin müddətini uzadacaq, çünki yeni böyük imkanlar meydana çıxacaqdır, çünki bizdə neft və qaz ehtiyatları var.

Bu, onu göstərir ki, biz iqtisadiyyatın neft və qaz sənayesi kimi aparıcı sahələrində fəal əməkdaşlığa hazırıq. Biz böyük iqtisadi potensiala malikik, xüsusən sənayedə, sənayenin kimya, maşınqayırma sahələrində, kənd təsərrüfatı məhsullarının emalı, toxuculuq istehsalı sahələrində və digər sahələrdə. Bir tərəfdən, biz Azərbaycanın həmin sahələrə, o cümlədən də infrastruktura xarici investisiyalar qoyulması üçün açıq olduğunu

bildiririk, digər tərəfdən isə, mülkiyyətin özəlləşdirilməsinə fəal başlayaraq həm öz sahibkarlarımız üçün, həm də əcnəbi sahibkarlar üçün şərait yaradırıq ki, potensialımızdan iqtisadiyyatın inkişafı, Azərbaycan əhalisinin sosial tələbatının ödənilməsi üçün istifadə olunsun.

Biz iri sənaye müəssisələrimizin xarici şirkətlərin idarəçiliyinə verilməsinin mümkünlüyü haqqında qərar qəbul etmişik. Bu baxımdan şirkətlər var və onlar alüminium sənayesinə maraq göstərmişlər. Biz onlarla iri alüminium zavodunun verilməsi haqqında danışıqlar aparırıq. Metallurgiya sahəsinə dair digər layihələr də var. Bunların hamısı dəqiq sübut edir ki, Azərbaycan əməkdaşlıq üçün, xarici investisiyalar üçün, ölkədə özəlləşdirmə prosesində xarici kapitalın iştirakı üçün açıqdır. Bu, elə bir prinsipdir ki, ondan Rumıniya ilə Azərbaycan arasında, xüsusən ölkələrimizin müvafiq firma və şirkətləri, işgüzar dairələri arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün istifadə oluna bilər. [24-25]

## AZƏRBAYCAN – RUMINİYA DÖVLƏTLƏRARASI VƏ HÖKUMƏTLƏRARASI SƏNƏDLƏR İMZALANDIQDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*

*27 mart 1996-cı il*

Hörmətli prezident! Hörmətli rumıniyalı qonaqlar, möhtərəm xanımlar və cənablar!

Sizi mühüm hadisə – sənədlərin imzalanması münasibətilə təbrik edirəm. Bu sənədlər Rumıniya ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın daha da inkişaf etməsi üçün yaxşı əsas olacaqdır.

Ötən ilin iyun ayında, prezident İon İliyeskunun dəvəti ilə Rumıniyaya rəsmi səfərim zamanı biz bir çox məsələləri müzakirə etdik və bəzi dövlətlərarası, hökumətlərarası sənədləri imzaladıq. Bu gün Rumıniya prezidenti İon İliyesku cənablarının Azərbaycana rəsmi səfəri başlanmışdır. Biz danışıqlar apardıq, bir çox məsələləri ətraflı müzakirə etdik və bir az əvvəl çox mühüm dövlətlərarası, hökumətlərarası sənədlər imzaladıq. Mənim və Rumıniya prezidentinin imzaladığımız dostluq münasibətləri və əməkdaşlıq haqqında müqavilə böyük tarixi əhəmiyyətə malikdir. Bu, Rumıniya ilə müstəqil Azərbaycan Respublikası arasında ilk belə sənəddir və dostluq münasibətlərimizin, ölkələrimiz, xalqlarımız arasında bütün istiqamətlərdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün zəmindir.

Nazirlərin imzaladıqları sənədlər də böyük əhəmiyyətə malikdir, çünki prezidentlərin imzaladıqları müqaviləni konkretləşdirir və inkişaf etdirir. Beləliklə, Rumıniya ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə kifayət qədər yaxşı müqavilə – hüquqi əsas yaradılmışdır. Bu, indiyədək etdiyimiz əməkdaşlığın nəticəsidir. Bu, həm Rumıniyanın, həm də Azərbaycanın müstəqilliyinə, suverenliyinə, milli azadlığına sübutdur. Bu, [25-26] ölkələrimiz və xalqlarımız arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün də yaxşı zəmindir.

Bu, müstəqil Azərbaycan üçün xüsusilə böyük əhəmiyyətə malikdir. Azərbaycan dövlət müstəqilliyini 1991-ci ildə qazanmış və ötən illər ərzində bu müstəqilliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün çox mürəkkəb yol keçmişdir. Bu yolun mürəkkəbliyi xaricdən hərbi təcavüzlə, həmin dövrdə Azərbaycanın özündə baş vermiş siyasi proseslərlə, iqtisadiyyat sahəsində, sosial həyatda qarşılaşmış olduğumuz və qarşılaşdığımız çətinliklərlə bağlıdır. Buna görə də ölkələrlə möhkəm, səmimi dostluq münasibətləri yaradılması bizim üçün çox vacibdir və bu cür hər bir addım dövlət müstəqilliyimizin bərqərar olduğuna, Azərbaycanın suverenliyinin möhkəmləndiyinə sübutdur.

Bununla əlaqədar biz ölkəmizin Rumıniya ilə münasibətlərinə böyük əhəmiyyət veririk. Burada, Bakıda baş verən hadisə ölkələrimiz arasında qarşılıqlı münasibətlərin tarixində mühüm mərhələdir.

Cənab prezident, hörmətli qonaqlar, sizi əmin edə bilərəm ki, bütün razılaşmaların, imzalanmış sazişlərin əməli surətdə həyata keçməsini təmin etmək üçün biz var qüvvə ilə səy göstərəcəyik. Biz bunu əsas tuturuq ki, bu sənədlər əməkdaşlığımızın inkişafı üçün əlverişli şərait və müqavilə – hüquqi əsas yaradır. Əməkdaşlığımız çoxplanlı, çoxsahəli olmalıdır. Əməkdaşlığın məhz bu cür inkişafının təmin olunması üçün biz Azərbaycanda hər şeyi edəcəyik.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini, milli azadlığını yüksək qiymətləndirir. Odur ki, bunların möhkəmlənməsinə yönəldilmiş hər bir addım bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Biz hüquqi, demokratik, sivilizasiyalı dövlət, cəmiyyət quruculuğu yolu ilə gedirik və bu yolda Azərbaycanın inkişaf etmiş demokratik ölkələr səviyyəsinə qalxa bilməsi üçün hər şeyi edirik. Biz iqtisadi islahatlar aparır, dövlət əmlakını geniş miqyasda özəlləşdirir və bütün sahələrdə bazar iqtisadiyyatı prinsiplərini bərqərar edirik. Azərbaycan bütün ölkələrlə əməkdaşlıq üçün açıqdır. Biz iqtisadiyyatın inkişafı və əhalinin həyat səviyyəsinin yaxşılaşması üçün, ölkəmizə xarici investisiyalar axınını təmin etmək üçün bütün tədbirləri görürük.

Azərbaycan təbii ehtiyatlarla zəngindir, onun böyük iqtisadi, sənaye, intellektual potensialı var. Lakin bütün bu potensialdan [26-27] keçid dövründə istifadə etmək üçün biz digər ölkələrlə, beynəlxalq birliklə əməkdaşlıq etməliyik, bizə xarici investisiyalar gərəkdir. Biz buna doğru gedirik və bunu iqtisadiyyat, dövlət quruculuğu, ictimai-siyasi həyat sahələrində Azərbaycanın inkişafının strateji xətti sayırıq.

Lakin Azərbaycan bu genişmiqyaslı proqramın həyata keçirilməsində çox çətinliklərlə qarşılaşır. Onlardan ən böyük çətinlik budur ki, biz müharibə vəziyyətində olmağa məcburuq. Məlumdur ki, Dağlıq Qarabağın ilhaq edilməsi, yəni onun Azərbaycandan qoparılıb Ermənistana birləşdirilməsi məqsədilə səkkiz il əvvəl Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı hərbi təcavüz başlanmışdır. Bu, Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişəyə səbəb olmuşdur. Səkkiz il ərzində döyüşlər getmiş, qan tökülmüş, çoxlu insan tələf olmuş, respublikamıza çox böyük maddi və mənəvi ziyan vurulmuşdur. Hərbi təcavüzə məruz qalan Azərbaycan

obyektiv və subyektiv səbəblərə görə ağır vəziyyətə düşmüşdür, çünki onun ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir. İşğal olunmuş torpaqlardan, şəhərlərdən, rayon və kəndlərdən Azərbaycanın bir milyon nəfərdən artıq sakini zorakılıqla qovulub didərgin salınmışdır. Onlar respublikamızın müxtəlif bölgələrində olduqca ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayırlar. Bu adamlar malik olduqları hər şeyi, qohum-əqrəbalarını itirmişlər.

Bütün bu itkilərə, Azərbaycana vurulmuş çox böyük zərərə, mənəvi zədəyə baxmayaraq, biz münaqişənin dinccliklə aradan qaldırılmasına tərəfdarıq, həmişə Yer kürəsinin istənilən hissəsində müharibənin əleyhinə, hərbi təcavüzün əleyhinə, hər cür separatçılıq, terrorçuluq əməllərinin əleyhinə çıxmışıq.

Azərbaycan sülh mövqeyində durmuşdur. Bunu əsas tutaraq və beynəlxalq təşkilatların, xüsusən ATƏT-in Minsk qrupunun, bu təşkilata daxil olan ölkələrin, ABŞ, Rusiya, Türkiyə kimi iri dövlətlərin imkanlarından istifadə edərək, biz münaqişənin dincliklə aradan qaldırılmasına çalışırıq.

Məhz bu məqsədlə təxminən iki il əvvəl 1994-cü ilin mayında biz razılıq əldə etdik və atəşin dayandırılması haqqında saziş imzaladıq. İki ilə yaxındır ki, döyüş əməliyyatları aparılmır, qan tökülmür. Biz barışıq vəziyyətindəyik. Çox vacibdir ki, bu barışığa həm Azərbaycan, həm də Ermənistan əməl edir, özü də heç bir xarici kömək olmadan, sülhyaratma qüv[27-28]vələrinin, aralaşdırıcı qüvvələrin iştirakı olmadan. Bu, ona dəlalətdir ki, biz sülhə nail olmağa, səkkizillik münaqişə ərzində əmələ gəlmiş düşmənçiliyi və qarşıdurmanı aradan qaldırmağa qadirik. Buna görə də biz tam sülhə nail olmağa çalışırıq.

Biz konstruktiv mövqelərdən çıxış edərək, bir çox güzəştlərə gedərək öz təkliflərimizi irəli sürmüşük və sürürük. Bəyan edirəm ki, biz atəşkəs rejiminə sadiqik, hərbi əməliyyatlara Azərbaycan tərəfindən yenidən başlanmasına yol verməyəcəyik. Biz hər şeyi edəcəyik ki, atəşkəs rejimi tam sülh sazişi bağlanılana qədər saxlansın.

Bununla bərabər, biz bundan sonra da indiki vəziyyətdə, torpaqlarımızın işğalı vəziyyətində qala bilmərik. Buna görə də Böyük Sülh Sazişi bağlanmasına çalışırıq. Bununla əlaqədar şərtlər irəli sürürük və bu şərtlər beynəlxalq hüquq normalarına tam uyğundur. Onlar bundan ibarətdir ki, tam sülhə nail olmaq üçün Azərbaycanın ərazi bütövlüyü bərpa və təmin edilməli, beynəlxalq hüquq normalarının mühüm prinsipi kimi Azərbaycanın ərazi bütövlüyü hamı tərəfindən tanınmalı, işğalçı qoşunlar tutulmuş ərazilərdən çıxmalı, işğal olunmuş ərazilərin sakinləri doğma yerlərinə qayıtmalı, Ermənistan ilə Azərbaycan arasında möhkəm sülh yaradılmalıdır. Bu zaman biz erməni tərəfinin tələbinin də ödənilməsinin zəruriliyini nəzərə alırıq və bizim şərtlərimiz əsasında Dağlıq Qarabağa Azərbaycan dövlətinin hüdudları daxilində yüksək muxtariyyət statusu verməyə, Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə tam təminat verməyə hazırıq. Biz bu prinsiplər əsasında möhkəm və uzunmüddətli sülh təklif edirik. Bu prinsiplər beynəlxalq hüquq normalarına, həm Azərbaycanın, həm də Ermənistanın və Dağlıq Qarabağın erməni əhalisinin mənafelərinə tam uyğundur. Bunlar ədalətli prinsiplərdir.

Ümidvaram ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə Ermənistan və Azərbaycan nümayəndələrinin hazırda Moskvada apardıqları danışıqlar və Birləşmiş Ştatların prezidenti Bill Klinton cənablarının, Rusiya prezidenti Boris Yeltsin cənablarının atdıqları addımlar müsbət nəticələrə, yəni həm sülh prinsipləri haqqında sazişə, həm də sülhün özünə gətirib çıxara bilər. Biz bunu istəyirik və bu mövqelərdə möhkəm dayanmışıq.

Azərbaycan öz xarici siyasətində bütün planetdə sülh və təhlükəsizlik uğrunda, bütün ölkələrlə ikitərəfli və qarşılıqlı [28-29] surətdə faydalı əməkdaşlıq uğrunda çıxış edir. Biz bütün beynəlxalq təşkilatların fəaliyyətində yaxından iştirak edir və əməkdaşlıq, mehriban qonşuluq mövqeyində, bütün mübahisəli məsələlərin, münaqişələrin dincliklə həll olunması mövqeyində dururuq, biz dövlətlər arasında mübahisəli məsələlərin həllində güc işlədilməsinin əleyhinə çıxmışıq və çıxırıq, hesab edirik ki, onlar danışıqlar yolu ilə, bərabərlik əsasında həll olunmalıdır. Dünyada heç kəs heç kimə öz prinsiplərini, öz iradəsini zorla qəbul etdirməməlidir, heç bir dövlət digər ölkələrin hüquq və mənafelərini pozmamalıdır. Biz bunu əsas tutaraq, MDB çərçivəsində, Birləşmiş Millətlər Təşkilatı, ATƏT ilə, bütün digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik.

Azərbaycan ilə Rumıniya arasında əməkdaşlıq və ölkələrimiz arasında yaranmış münasibətlər, imzalanmış sənədlər Azərbaycanın və Rumıniyanın məhz belə mövqe tutduqlarına inandırıcı sübutdur. Cənab prezident, sizi və rumıniyalı qonaqlarımızı, burada olanların hamısını əmin etmək istəyirəm ki, biz bu prinsipləri bundan sonra da öz əməli fəaliyyətimizdə, beynəlxalq münasibətlərdə əsas tutacağıq. Diqqətinizə görə sağ olun.

**Sual: Cənab İliyesku, siz Ermənistandan getdikdən sonra Snark agentliyi xəbər verdi ki, siz "Dağlıq Qarabağın müstəqilliyinin" Rumıniya tərəfindən prinsipcə tanınmasının mümkün olduğunu bildirmisiniz. Bu xəbəri şərh etməzsinizmi?**

**İ. İliyesku:** Bunun necə şərh olunduğunu bilmirəm, amma mən bunu deməmişəm. Məndən bu barədə soruşdular, cavab verdim ki, bu həyat məsələsidir. Dağlıq Qarabağın müstəqil olub-olmayacağı siyasi praktika işidir. İndi məsələ tamam başqa cür qoyulur və biz dedik ki, müstəqil dövlətlər arasında beynəlxalq münasibətlərin prinsiplərinə müvafiq surətdə münaqişənin dincliklə aradan qaldırılması sahəsində səyləri böyük diqqətlə izləyirik, Mən başqa heç nə deməmişəm.

**Sual: Cənab İliyesku, Dağlıq Qarabağ münaqişəsi, sizcə, hansı prinsiplərlə aradan qaldırıla bilər?**

**İ. İliyesku:** Prezident Heydər Əliyevin göstərdiyi prinsiplər əsasında. Qonşu dövlətlərin suverenliyi, müstəqilliyi prinsipləri əsasında.

**Sual: Cənab Əliyev, bu yaxınlarda Gürcüstan prezidenti Eduard Şevardnadze Belovejsk sazişlərinin ləğv olunması haqqında Rusiya Dövlət Dumasının qə[29-30]rarını müzakirə etmək üçün MDB başçılarının növbədənkənar zirvə toplantısını çağırmaq ideyası irəli sürmüşdür. Siz bu ideyaya necə baxırsınız?**

**H. Əliyev:** Cənab Şevardnadzenin ideyasından xəbərim yoxdur, bu barədə eşitməmişəm. Bilirsinizmi, belə suallara; mətbuat vasitəsilə cavab vermirlər. Əgər belə təşəbbüs olarsa və o, rəsmən elan edilərsə, onda mən buna öz münasibətimi bildirərəm.

**Sual: Rumıniya Dağlıq Qarabağ məsələsinin həllində necə iştirak edə bilər? Bu prosesdə onun rolu nədən ibarət ola bilər?**

**İ. İliyesku:** Rumıniyanın imkanları çox azdır. Biz yalnız onunla kömək edə bilərik ki, bu sülh prosesinə kömək məqsədilə əlaqədar dövlətlərin və beynəlxalq təşkilatların irəli sürdükləri təşəbbüsləri dəstəkləmək üçün var qüvvə ilə səy göstərək. Biz prezident Əliyevin qeyd etdiyi prinsiplərlə tam razıyıq. Bu prinsiplərin əsasını həmin məsələnin dincliklə həlli təşkil edir. Aydındır ki, o, hərbi yolla həll edilə bilməz.

**Sual: Rumıniyanın Azərbaycanla oxşar problemləri var. İndiki halda söhbət Transilvaniyadan gedir. Bununla əlaqədar separatçılığa və Dağlıq Qarabağ probleminə münasibətinizi bilmək istərdik.**

**İ. İliyesku:** Mən belə düşünmürəm ki, Transilvaniya ilə Dağlıq Qarabağ arasında hansısa bir paralel var. Transilvaniya Macarıstanın deyil, Rumıniyanın qədim ərazisidir. Orada bizim ulu babalarımız yaşamışlar. Roma imperiyası hələ meydana gəlməzdən əvvəl orada bizim ulu babalarımızın – dakların dövləti olmuşdur. Bu dövlətin siyasi mərkəzi Transilvaniyada idi. Macarlar Avropada yalnız min il bundan əvvəl peyda olmuşlar. Bizim əcdadlarımız orada min illər boyu yaşamışlar. Transilvaniyanın Avstriya və Avstriya – Macarıstan imperiyası tərəfindən işğalı dövründə Transilvaniya əhalisinin əksəriyyətini həmişə rumınlar təşkil etmişlər, macarlar azlıqda olmuşlar.

Birinci dünya müharibəsindən sonra millətlərin öz müqəddəratını təyin etməsi prinsipinə əsasən Transilvaniya əhalisinin əksəriyyəti, yəni rumınlar digər əyalətlərlə birləşməyi və bir milli dövlətdə – Rumıniya dövlətində qaynayıb-qarışmağı qərara aldılar. Bu, 1918-ci ildə olmuşdur. 1940-cı ildə Molotov – Ribbentrop paktına əsasən Sovet İttifaqı Rumıniya ərazisi olan Bessarabiyanı işğal etdi, Hitlerin və Mussolininin [30-31] hökmü ilə isə Transilvaniyanın yarısı Macarıstana verildi. İkinci dünya müharibəsindən sonra Transilvaniya yenidən Rumıniyanın tərkibinə daxil oldu. Orada macarlar da yaşayırlar. Lakin onlar azlıq təşkil edirlər. Rumıniyada 23 milyon adam yaşayır, onların 1 milyon 700 min nəfəri macarlardır. Transilvaniyada 9 milyondan çox adam var. Beləliklə, bütün göstəricilərə görə macarlar azlıq, Rumıniya əhalisinin 7 faizini təşkil edirlər. Lakin onlar Rumıniya vətəndaşlarıdır və bütün vətəndaş hüquqlarına, siyasi hüquqlara malikdirlər, Rumıniya parlamentində, yerli idarəetmə orqanlarında təmsil olunmuşlar, onların öz məktəbləri var. Orada anklav məsələsi heç vaxt ortaya atıla bilməz.

Dünyanın heç bir yerində – nə Avropada, nə də Zaqafqaziyada sırf milli dövlət yoxdur. Məsələ insan hüquqlarındadır, dövlətin demokratik həyatındadır. Elə ölkələr var ki, orada milli azlıqlar barədə söhbət getmir. Məsələn, Fransada yalnız bir məfhum – vətəndaş məfhumu var. Hətta o, Seneqaldan gəlmiş zənci və ya məğribli ərəb də olsa, fransız sayılır, pasportunda da beləcə yazılır. Avropanın digər ölkələrində başqa tarixi şərait yaranmışdır, ona görə də onlar milli azlıqların hüquqları sahəsində siyasət yeridirlər. Sizin zonada da millətlərarası münasibətlərdə mürəkkəb məsələlər mövcuddur. Hər bir ölkənin öz tarixi təcrübəsi var.

Biz separatçılığın və ayrı-seçkiliyin əleyhinəyik, ona görə ki, bu, böyük faciədir. Əsrlər boyu bır yerdə yaşamış, xarici basqınlara qarşı birgə mübarizə aparmış insanlar indi bir yerdə yaşaya bilmirlər. Belə hesab edirəm ki, hər bir ölkənin yalnız demokratik inkişafı insanlar arasında humanist münasibətləri normal riala salmağa imkan verəcəkdir. Bizdə də etnik təmizləmə aparmaq, xalqı macarlara və rumınlara bölmək istəyən millətçilər, ekstremistlər, separatçılar, ayrı-seçkilik tərəfdarları var. Lakin onların niyyətləri baş tuta bilməz. Bizdə yüz minlərlə qarışıq nikah var. Onların uşaqları hansı millətdəndir? Yəqin ki, sizdə də belə məsələlər var.

**H. Əliyev:** Cənab prezident, nəzərinizə çatdırım ki, Bakıda təxminən 50-60 min erməni qadın yaşayır. Onların ərləri azərbaycanlıdır.

**İ. İliyesku:** Bir sözlə, həyat bizi normal insani münasibətlər şəraitində yaşamağa öyrədəcəkdir.

**Sual: Cənab İliyesku, Qara dəniz və Xəzər dənizi regionlarını birləşdirmək üçün Rumıniya ilə Azər[31-32]baycan arasında nəqliyyat dəhlizinin layihəsi nə vaxt reallaşdırılacaqdır?**

**İ. İliyesku:** Türkiyə ilə bizim daimi dəniz əlaqəmiz var. Tbilisidə də, Bakıda da danışdıq ki, Samsundan və Trabzondan Gürcüstan sahillərinədək gələn bu xətti uzadaq. Qara dəniz yolunu Azərbaycandan Gürcüstana gələn dəmir yolu vasitəsilə də uzatmaq olar. Sizin Türkmənistanla şəxsi təcrübəniz var. Ona görə də bu yolu Xəzər dənizi vasitəsilə də uzatmaq mümkündür.

Biz bu ilin axırınadək nəqliyyat xətlərini Poti və Batumiyədək uzatmaq barədə razılığa gəlmişik.

**Sual: Mənim sualım hər iki prezidentədir. Azərbaycan və Rumıniya neft sənayesi sahəsində əməkdaşlıq edəcəklərmi və bu, təkcə neftin nəqli ilə məhdudlaşmayacaq ki?**

**İ. İliyesku:** Ölkələrimiz arasında neft sənayesi və ondan ötrü avadanlıq istehsalı sahəsində əməkdaşlıq təcrübəsi var. Prezident Əliyev bu barədə danışdı. Lakin indi əməkdaşlığımız yeni zəmin üzərində, yeni siyasi reallıqlar nəzərə alınmaqla qurulmalıdır. Biz bu əməkdaşlığı bazar iqtisadiyyatı əsasında modernləşdirməliyik.

**H. Əliyev:** Cənab İliyeskunun fikrinə tamamilə şərikəm. Neft sənayesində əməkdaşlıq sahəsində həqiqətən böyük təcrübəmiz var. Ancaq yeni şəraitdə bundan ötrü daha böyük imkanlar yaranmışdır və biz onlardan istifadə etməyə çalışacağıq. [32-33]

## RUMINİYA PREZİDENTİ İON İLİYESKUNUN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*27 mart 1996-cı il*

Hörmətli cənab prezident!
Hörmətli qonaqlar, xanımlar və. cənablar!

Rumıniya prezidenti cənab İon İliyeskunun Azərbaycan Respublikasına rəsmi səfəri əlamətdar bir hadisədir. Azad, demokratik Rumıniyanın prezidenti ilk dəfədir ki, müstəqil Azərbaycana rəsmi səfər edibdir. Bunun böyük mənası, əhəmiyyəti var. Bu, bir tərəfdən Rumıniyanın dünyada yeni keyfiyyətlərini, digər tərəfdən Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Dünya Birliyində özünəməxsus yerini nümayiş etdirir. Tam qətiyyətlə demək olar ki, bu gün Rumıniyanın rezidenti və onu müşayiət edən nümayəndə heyəti ilə bərabər biz burada, Bakıda Rumıniya ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafı üçün çox əhəmiyyətli işlər görmüşük.

Birinci onu qeyd etmək lazımdır ki, bizim danışıqlarımız Rumıniya-Azərbaycan danışıqları dostluq, mehribanlıq, qarşılıqlı anlaşma şəraitində keçibdir. Danışıqlar zamanı Rumıniyanın və Azərbaycanın mənafelərinə uyğun və eyni zamanda ölkələrimiz, dövlətlərimiz arasında əməkdaşlığı inkişaf etdirmək üçün zəruri olan məsələlər müzakirə edilibdir. Məhz bunların nəticəsində Rumıniya ilə Azərbaycan arasında dostluq münasibətlərinin, əlaqələrinin və bir çox sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsi üçün çox lazımlı müqavilələr, sazişlər imzalandı. İmzalanmış müqavilələr, sazişlər Rumıniya-Azərbaycan münasibətlərinin gələcək inkişafı üçün hüquqi zəmin əsasında şərait yaradıbdır. Şübhəsiz ki, bunlar bizim gələcək işlərimizə çox böyük kömək edəcəkdir.

Bu gün Azərbaycan torpağında, Bakıda baş vermiş bu hadisələr, əldə olunan bu nailiyyətlər münasibətilə qonaqlan və bu salona toplaşanların hamısını, Azərbaycan Respublikasının vətəndaşlarını səmimi qəlbdən təbrik edirəm. Rumıniya-Azərbaycan əlaqələri, onun gələcəyi üçün demək olar ki, yeni [33-34] mərhələ açılıbdır. Bizim borcumuz, vəzifəmiz açılmış bu yollardan, imkanlardan səmərəli istifadə etmək və Rumıniya-Azərbaycan əlaqələrini daha yüksək səviyyələrə qaldırmaqdan ibarətdir. Bunun üçün yaxşı əsas – Rumıniya-Azərbaycan əlaqələrinin böyük tarixi var. Keçmişdən bizim əməkdaşlığımız, əlaqələrimiz haqqında çox faktlar gətirmək olar. Ancaq mən bir neçəsini xatirinizə salmaq istəyirəm.

Rumıniya da, Azərbaycan da qədim neft ölkələridir. Neft sənayesi sahəsində keçmişdə bizim çox sıx əlaqələrimiz, əməkdaşlığımız olubdur. Azərbaycan neftçiləri 50-ci illərdə neft yataqlarının istismarı işində əməkdaşlıq, dostlara kömək üçün Rumıniyanın Ployeşti vilayətində fəaliyyət göstəriblər. Rumıniyanın Piteşti şəhəri ilə Azərbaycanın Sumqayıt şəhəri arasında dostluq əlaqələrinin və qardaşlaşmanın da çox böyük tarixi var. Elm, mədəniyyət, incəsənət, texnika sahəsində də bizim əməkdaşlığımızın çox parlaq səhifələri var. Bunlar hamısı keçmişə aiddir, bu gün bizim əməkdaşlığımız üçün yaxşı bir təməldir. Ancaq bugünkü əlaqələrimiz tam başqa xarakter daşıyır. Bu, demokratik, azad Rumıniya ilə müstəqil, azad Azərbaycan Respublikası arasında olan dostluq əlaqələridir. Biz bu əlaqələri yüksək qiymətləndiririk və dostlarımızı əmin edə bilərəm ki, biz bu dostluq əlaqələrinə daim sadiq olacağıq.

Rumıniya Avropanın böyük ölkəsidir. Dünya Birliyində onun özünəməxsus yeri var. Rumın xalqının çox qədim, zəngin tarixi var. Rumın xalqı dünya mədəniyyətinə, sivilizasiyasına çox dəyərli töhfələr vermişdir. Bu xalq öz böyük tarixi dövründə çox çətinliklərlə rastlaşmış, yadelli qəsbkarların hücumlarına məruz qalmış, onlarla vuruşmuş, öz azadlığı, müstəqilliyi uğrunda daim mücadilələr aparmışdır. Rumın xalqı tarixin bütün mərhələlərindən keçərək öz milli mənliyini, azadlığını qorumuş, öz ənənələrini qoruyub saxlamış, milli mədəniyyətini daim inkişaf etdirmişdir.

1989-cu il dekabr inqilabından sonra rumın xalqının, Rumıniyanın həyatında yeni böyük mərhələ açılmış, böyük dəyişikliklər meydana gəlmiş, Rumıniya dünya demokratiyasının nümunələrindən istifadə edərək azadlıq, demokratiya yolu ilə inkişaf etməyə başlamışdır.

Məlumdur ki, Rumıniya bu yol ilə gedərkən böyük çətinliklərlə rastlaşır. Ancaq rumın xalqı öz müdrikliyi, cəsarəti ilə bu çətinliklərin hamısının öhdəsindən gəlir. Rumıniyada demokratik təsisatların yaranması, iqtisadi, ictimai-siyasi islahat[34-35]ların keçirilməsi və bütün başqa tədbirlər Dünya Birliyi tərəfindən, o cümlədən Azərbaycan xalqı tərəfindən çox böyük hüsn-rəğbətlə qarşılanır.

1989-cu il dekabr inqilabında və ondan sonrakı dövrdə Rumıniyanın həyatında ölkənin prezidenti, bizim dostumuz cənab İon İliyeskunun çox böyük xidmətləri var. Cənab İon İliyeskunun həyat yolu, Rumıniya xalqı qarşısında xidmətləri çox şərəflidir. Azərbaycanda biz bunu yaxşı bilirik. Ona görə də o, başqa yerlərdə olduğu kimi, Azərbaycan ictimaiyyətində də böyük ehtiram və hörmət qazanıbdır. Rumın xalqının həyatındakı ən çətin illərdə – 1989-cu ilin dekabr inqilabı zamanı və ondan sonrakı illərdə bütün bu inqilabi hərəkata məhz bizim

dostumuz İon İliyesku rəhbərlik etmişdir. Bu fəaliyyəti onun həyatda tutduğu mövqe ilə bağlıdır. Bu mövqe azadlıq, istiqlaliyyət, demokratiya, insan hüquqlarına hörmət mövqeyidir.

Məlumdur ki, keçmiş illərdə cənab İon İliyesku bu keyfiyyətlərinə, siyasi dünyabaxışına görə, bu fəaliyyətinə görə bir çox tənqidlərə məruz qalmışdır. Ancaq o heç vaxt öz iradəsindən dönməmişdir. Nəhayət, onun mövqeyi, onun tutduğu yol qalib gəlmiş və o, neçə ildir ki, Rumıniya xalqına, dövlətinə rəhbərlik edir.

Son illər cənab İon İliyesku ilə mənim aramda yaranmış dostluq əlaqələrindən çox məmnun olduğumu bildirirəm. Ancaq onun Azərbaycan xalqı ilə dostluğunun tarixi daha da böyükdür. İctimaiyyətimiz də bunu .bilməlidir ki, hələ 43 il bundan əvvəl, 1953-cü ildə cənab İon İliyesku Azərbaycanın o vaxt ən böyük tikintisi olan Mingəçevir su-elektrik stansiyasının tikilməsində bilavasitə iştirak edibdir. O vaxt Mingəçevirə gələndə cənab İon. İliyesku Moskva Energetika İnstitutunun tələbəsi olmuşdur. İndi isə o, Azərbaycana rəsmi səfərə hörmətli qonaq, Rumıniyanın prezidenti kimi gəlibdir. 43 il bundan əvvəl yaranmış münasibətlər indi bərpa olunur və yüksək səviyyələrə qalxır.

Azərbaycanın qarşısında duran problemlər haqqında biz bu gün danışıqlarımızda və mətbuat konfransımızda çox ətraflı söhbət apardıq. Bir daha qeyd edirəm, Azərbaycan müstəqil dövlət kimi öz müstəqilliyini çox yüksək qiymətləndirir. Azərbaycan Respublikasında demokratik, hüquqi, sivilizasiyalı dövlət qurulur, cəmiyyət yaranır. Azərbaycan iqtisadi islahatlar yolu ilə gedir, öz iqtisadiyyatını islahatlar, bazar münasibətləri yolu ilə inkişaf etdirməyə çalışır. [35-36]

Azərbaycan Dünya Birliyində özünə layiq yer tutubdur və bundan sonra da layiqli yer tutmağa çalışacaqdır. Azərbaycan sülhsevər ölkədir. Azərbaycan dünyada sülh istəyir, bölgəmizdə sülh istəyir, ölkəmizdə sülh istəyir. Azərbaycan ölkəmizin həyatını bu gün çox çətinləşdirən, ağırlaşdıran və faciəvi hala salan Ermənistan-Azərbaycan münaqişəsinin də sülh yolu ilə həll olunmasına çalışır. Güman edirəm ki, Rumıniya ilə Azərbaycan arasında yaranmış dostluq əlaqələri bu problemlərin həll olunmasında Rumıniya ilə əməkdaşlığımıza arxalanmağımıza daim imkan verir.

Əmin olduğumu bildirmək istəyirəm ki, Rumıniya ilə Azərbaycan arasında yaranmış dostluq əlaqələri bundan sonra da inkişaf edəcək və əbədi olacaqdır. Mən rumın xalqına, Rumıniya dövlətinə Azərbaycan xalqı adından yeni müvəffəqiyyətlər arzulayıram.

Rumıniyada bu ilin payızında parlament, prezident seçkiləri olacaqdır. Bizim dostumuz cənab İon İliyeskuya, rumın xalqına bu seçkilərdə uğurlar diləyirəm.

Rumın xalqının, Rumıniya dövlətinin, rumın xalqının xoşbəxt gələcəyinin, dövlət başçısı, prezident cənab İon İliyeskunun, Rumıniya-Azərbaycan dostluğunun şərəfinə. Sağ olun. [36-37]

## RUMINİYA PREZİDENTİ İON İLİYESKU İLƏ BAKIDAKI 10 SAYLI TEXNİKİ PEŞƏ MƏKTƏBİNİN YATAQXANASINDA MÜVƏQQƏTİ MƏSKUNLAŞMIŞ FÜZULİ, AĞDAM, ZƏNGİLAN, XOCALI SAKİNLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

*28 mart 1996-cı il*

Bilirsiniz ki, Rumıniyanın prezidenti, mənim dostum, cənab İliyesku iki gündür Azərbaycanda rəsmi səfərdədir. İndi artıq səfər başa çatır və qonağımız öz vətəninə qayıdır. Aparılan danışıqlardan, imzalanmış müqavilələrdən, şəhərlə tanışlıqdan sonra qonağımız ölkəmizin bu ağır vəziyyəti ilə daha yaxından tanış olmaq üçün Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımızdan didərgin düşmüş Azərbaycan vətəndaşları ilə də görüşmək istədi.

Mən ona ətraflı məlumatlar vermişəm ki, torpaqlarımızın 20 faizi işğal olunub. İşğal olunmuş, torpaqlardan bir milyondan çox Azərbaycan vətəndaşı yerindən-yurdundan zorla qovulubdur. Onların evi-eşiyi dağıdılıb, viran edilibdir. Didərgin düşmüş vətəndaşlarımız Azərbaycanın müxtəlif bölgələrində yaşayırlar. O cümlədən, onların böyük bir hissəsi Bakı şəhərində yaşayır. Ancaq bizim hazırkı vəziyyətimiz onların hər birinə lazımi yaşayış şəraiti yaratmağa imkan vermir. Ona görə də, siz belə ağır vəziyyətdə yaşayırsınız. Mən bunu qonağımıza da bildirmişəm.

Mən bu gün sizin yanımıza qonağımızla birlikdə gəlmişəm. Bilirsiniz ki, sizin vəziyyətiniz Azərbaycan xalqının, prezident kimi şəxsən mənim ən böyük dərdimdir və bizim ən böyük problemimizdir. Biz bu problemlərlə məşğul oluruq, məsələnin sülh yolu ilə həll edilməsinə, torpaqlarımızın azad olunmasına çalışırıq. İşğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələrinin sülh yolu ilə çıxarılmasına çalışırıq ki, siz öz yerinizə, yurdunuza qayıdasınız.

Qonağımıza və onunla bərabər gələn Rumıniya nümayəndə heyətinin üzvlərinə bu məsələlər barədə çox ətraflı məlumatlar vermişik və xahiş etmişik ki, Azərbaycan [37-38] torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalından azad olunması, məsələnin sülh yolu ilə həll edilməsi üçün beynəlxalq təşkilatlarda öz nüfuzundan, .imkanından istifadə etsin, səylər göstərsin. Cənab prezident İon İliyesku bu məsələlərlə bu günlərdə dərindən tanış olubdur. Ümidvar olduğumu bildirmək istəyirəm ki, o, sizinlə şəxsən görüşəndən, Azərbaycanın sizin kimi bir milyon vətəndaşının ağır vəziyyətini görəndən sonra şübhəsiz ki, bu məsələlərə biganə qalmayacaq, münaqişənin həll olunması, yəni Azərbaycan xalqının ədalətli işinin başa çatması, işğal edilmiş torpaqların azad olunması üçün beynəlxalq təşkilatlarda öz dövlətinin mövqeyini daha dəqiq, kəskin bildirəcəkdir.

Rumıniya ilə Azərbaycan arasındakı əlaqələr dostluq əlaqələridir. Biz dünən bir çox sazişlər, müqavilələr imzaladıq. Ən böyük müqaviləni – Rumıniya ilə Azərbaycan arasında dostluq münasibətləri və əməkdaşlıq haqqında müqaviləni prezident cənab İon İliyesku və mən imzaladıq. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu görüşlərdən, imzalanan bu müqavilələrdən sonra Rumıniya-Azərbaycan əlaqələri daha sürətlə inkişaf edəcək və bunlar da hamısı həm Rumıniya xalqının, həm də Azərbaycan xalqının bu ağır keçid dövründən tezliklə, müvəffəqiyyətlə çıxmasına kömək edəcəkdir. Bu əməkdaşlıq bizim üçün bir də ona görə vacib və əhəmiyyətlidir ki, bu böyük, ağır problemin həllində dünya dövlətlərinin köməyinə möhtacıq. Ona görə də Azərbaycanın bu ağır vəziyyətini hər bir dövlətin daha dəqiq bilməsi, bu məsələnin sülh yolu ilə həll olunmasında iştirak etməsi bizim üçün çox vacib, çox zəruridir.

Əziz bacılar və qardaşlar, mən sizi ürəkdən salamlayıram. Bilin ki, sizin dərdinizi xalq da, bildiyiniz kimi, mən də hər gün, hər dəqiqə çəkirəm. Mən yaxşı bilirəm ki, belə bir yataqxanada bu qədər ailənin, adamın yaşaması çətindir, ağırdır. Ancaq mən dəfələrlə demişəm, sizə bir daha deyirəm: qara günün ömrü çox gödək olur. Haqq-ədalət, Ulu Tanrı heç vaxt yol verməyəcəkdir ki, siz də, ölkəmiz də belə vəziyyətdə qalsın. Bizim özümüz də dövlətimizin, hökumətimizin, xalqımızın iradəsi ilə yol verməyəcəyik ki, ölkəmiz və xalqımız, o cümlədən yerindən, yurdundan didərgin düşmüş vətəndaşlarımız bu vəziyyətdə qalsınlar.

Şübhəsiz ki, biz bu vəziyyətdən çıxacağıq. Şübhəsiz ki, işğal olunmuş torpaqlarımızın azad edilməsinə nail olacağıq. Şübhə[38-39]siz ki, işğal olunmuş torpaqlardan Ermənistan silahlı qüvvələrinin çıxarılmasına nail olacağıq. Şübhəsiz ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsinə nail olacağıq. Şübhəsiz ki, biz sərhədlərimizin toxunulmazlığına nail olacağıq. Biz bunlara nail olacağıq. Müstəqil Azərbaycan özünün bütün ərazisinin sahibi olacaq. Müstəqil Azərbaycan Respublikası öz taleyinin sahibi olacaqdır.

Bizim böyük potensial imkanlarımız var. Biz onların hamısını hərəkətə gətirəcəyik. Onlar hərəkətə gətiriləndən sonra, müstəqil Azərbaycanın təbii sərvətlərindən istifadə edərək xalqımız bu vəziyyətdən çıxacaq və şad, xoşbəxt, firavan həyata qovuşacaqdır. Mən buna əminəm. Biz bu ümidlərlə yaşayırıq, siz də bu ümidlərlə yaşamalısınız. Biz buna nail olacağıq. Mən isə sizdən dözümlülük, mətanət, dəyanət gözləyirəm.

Ümidvaram ki, biz hamımız dözümlülüyümüz, mətanətimiz, eyni zamanda iradəmiz, gücümüz, gələcəyə ümidimiz ilə bu məsələlərin hamısını həll edəcəyik, sülh yolu ilə həll edəcəyik. Əgər sülh yolu ilə həll etməyə imkan olmasa, bütün başqa vasitələrdən istifadə edib bu məsələləri həll edəcəyik. İşğal edilmiş torpaqlarımız azad olunacaq, siz öz yerinizə, yurdunuza qayıdacaqsınız. Müstəqil Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin olunacaqdır.

Sizin hamınıza cansağlığı, dözümlülük arzu edirəm. Sizin hamınıza xoşbəxt gələcək arzulayıram. Sağ olun. [39-40]

## KƏLBƏCƏRİN ERMƏNİSTAN SİLAHLI QÜVVƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALININ 3-cü İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR RAYON SAKİNLƏRİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ GİRİŞ VƏ YEKUN SÖZÜ

*Prezident Sarayı*

*1 aprel 1996-cı il*

Kəlbəcər rayonu əhalisinin nümayəndələri ilə mənim bugünkü görüşümün məqsədi birinci növbədə respublikanın ayrı-ayrı yerlərində məskunlaşmış bu rayonun sakinlərinin vəziyyəti ilə tanış olmaqdan ibarətdir. Kəlbəcər rayonu üç il bundan əvvəl Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğuna görə Kəlbəcərin sakinləri yerlərindən, yurdlarından didərgin düşüblər və respublikanın müxtəlif şəhərlərində, rayonlarında yaşayırlar.

Ermənistan silahlı qüvvələrinin 1988-ci ildən başlayaraq Azərbaycana qarşı etdikləri hərbi təcavüz respublikamıza çox böyük zərbələr vurubdur. Təəssüflər olsun ki, həmin müddətdə ərazimizin bir qismi işğal olunmuş və orada yaşayanlar, o torpaqların sahibləri didərgin düşüblər. İşğal olunmuş rayonlardan biri də Kəlbəcərdir.

Kəlbəcərin işğalından üç il keçir. İnsanlar adətən bayram günlərini, müsbət hadisələri qeyd etmək üçün görüşürlər, eyni zamanda milli ənənələrimizə görə tariximizdə olan bəzi faciəvi halların da ildönümünü, yaxud həmin günləri qeyd etmək üçün görüşürlər. Ona görə bizim bu görüşümüz də birinci növbədə, Kəlbəcər rayonu sakinlərinin vəziyyəti ilə mənim şəxsən tanış olmağım məqsədi daşıyır. Siz üç ildir ki, yerinizdən-yurdunuzdan olmusunuz, didərgin düşmüsünüz. Bu günü xatırlamaq lazımdır. Bu görüş həm də bu faciədən nəticə çıxarıb işğal olunmuş torpaqlarımızdan işğalçı qüvvələrin çıxarılması, torpaqlarımızın azad olunması uğrunda mübarizəmizi daha da gücləndirmək üçün, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək üçün fikir mübadiləsi aparmaq məqsədi daşıyır. [40-41]

Kəlbəcər rayonu Azərbaycanın gözəl guşələrindən biridir. Onun çox zəngin təbiəti, tarixi abidələri vardır. Kəlbəcər Azərbaycanın qədim dövrlərdən ibarət öz tarixini qəlbində, sinəsində, qoynunda saxlayan ərazilərindən biridir.

Kəlbəcər həm təbii sərvətlərlə zənginliyinə görə, həm iqliminin gözəlliyinə görə, həm də orada yaşayan insanların fədakarlığına görə respublikamızda həmişə çox hörmətə, ehtirama layiq olubdur.

Azərbaycanın çox yerlərindən, o cümlədən paytaxtımız Bakıdan da insanlar həmişə Kəlbəcərə ziyarətə gediblər. O dağların, meşələrin gözəlliyindən müəyyən qədər bəhrələnmək üçün, eyni zamanda bu gözəlliyi seyr edib ölkəmizin nə qədər gözəl bir məmləkət, diyar olduğunu bir daha dərk etmək üçün ziyarət ediblər. Kəlbəcər Azərbaycanın ayrılmaz bir parçasıdır, hissəsidir. Heç şübhəsiz, o gün gələcək ki, Kəlbəcər rayonu Ermənistan silahlı qüvvələrinin işğalından azad olacaq və Kəlbəcərin vətəndaşları, sakinləri, bizim soydaşlarımız öz yerlərinə, yurdlarına qayıdacaqlar.

Doğrudur, bu üç il müddətində Kəlbəcərə böyük ziyan vurulubdur, zərbələr dəyibdir. Ermənistan işğalçıları o qədər vəhşidirlər, qəddardırlar, insani keyfiyyətlərdən o qədər uzaqdırlar ki, onlar işğal olunmuş torpaqlarda, o cümlədən Kəlbəcərdə də nəinki insaniyyətə xas olmayan, hətta insaniyyətə zidd, yabançı hərəkətlər edirlər. Ancaq bunların heç birisi Kəlbəcərin o məğrur dağlarını, qayalarını, meşələrini, çeşmələrini, bulaqlarını heç vaxt endirə bilməz, əyə bilməz, sındıra bilməz, eləcə də güman edirəm ki, kəlbəcərlilərin iradəsini sındıra bilməz. Ona görə də mən əminəm ki, vaxt gələcək, bunlar hamısı tarixdə qalacaq, Kəlbəcər işğaldan azad olacaq, kəlbəcərlilər tezliklə doğma rayonda öz həyatlarını quracaq, öz yerlərini, yurdlarını, evlərini, obalarını bərpa edəcəklər. Mən buna əminəm.

Mən bilirəm ki, sizin və ümumiyyətlə işğal olunmuş ərazilərimizdən didərgin düşmüş bütün vətəndaşlarımızın vəziyyəti bu gün çox çətindir, ağırdır. Bu vəziyyəti müəyyən qədər yüngülləşdirmək üçün biz bütün imkanlardan istifadə edirik, buna çalışırıq və bundan sonra da çalışacağıq. Ümidvaram ki, indi bizim apardığımız siyasət Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə gətirib çıxaracaqdır və işğal olunmuş torpaqlarımız azad olunacaqdır. Eyni zamanda ümidvaram ki, respublikamız bu ağır sosial-iqtisadi böhrandan çıxa[41-42]caq, ölkəmizin böyük sərvətləri, təbii, intellektual sərvətləri xalqımızın rifahına xidmət edəcəkdir, xalqımızın rifah halı günü-gündən yaxşılaşacaqdır.

Mən buna əminəm. Ona görə əminəm ki, apardığımız siyasət bizi, şübhəsiz, bu səviyyəyə gətirib çıxaracaq. Əminəm ona görə ki, bizim işimiz haqq işidir. Biz Azərbaycan Respublikasının müstəqilliyini qoruyuruq. Azərbaycanda hüquqi demokratik dövlət qururuq. Müstəqil Azərbaycanın ərazisinin bərpa olunmasına çalışırıq. Bu, ədalətli işdir, haqq işidir. Biz buna nail olacağıq.

Hörmətli bacılar və qardaşlar, mən sizi salamlayıram. Sizin simanızda Kəlbəcər rayonunun bütün vətəndaşlarını salamlayıram. Əlbəttə, mən istərdim elə bir imkan yaransın ki, Kəlbəcər rayonu sakinlərinin hamısı ilə görüşmək mümkün olsun. Sizin hamınızla birlikdə, bir yerdə, yaxud da ayrı-ayrı görüşməyə mənim çox böyük istəyim, arzum var. Güman edirəm, gün gələcək, bu da olacaqdır. Amma bu gün isə sizin vasitənizlə bütün kəlbəcərlilərə öz salamımı, hörmət və ehtiramımı, xoş arzularımı və ümidlərimi çatdırıram. O ümidlərimi ki, biz bu vəziyyətdən çıxacağıq və Kəlbəcər yenə də öz keçmiş, gözəl dövrünə qayıdacaq və gələcəkdə ondan da gözəl olacaqdır. O gün həm kəlbəcərlilər üçün, həm də bizim üçün əziz olacaqdır.

Mən sizi salamlayıram. Sizlərdən kimsə danışmaq üçün söz istəyirsə, buyursun.

## YEKUN SÖZÜ

Güman edirəm ki, biz bu gün ətraflı söhbət etdik. Həm sizin – kəlbəcərlilərin problemləri ilə daha yaxından tanış olduq, həm də ki, üç il bundan öncə Kəlbəcərin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasının səbəbləri, bu işğalın günahkarları haqqında ətraflı fikir mübadiləsi apardıq.

Sizin çıxışlarınız, dediyiniz sözlər, fikirləriniz çox əhəmiyyətlidir. Birinci növbədə xalqımızın, ölkəmizin, respublikamızın tarixinin düzgün əks olunması üçün çox əhəmiyyətlidir. İkincisi də gələcək sizin burada şərh etdiyiniz fikirlər, işlərimiz üçün, müstəqil Azərbaycanın torpaqlarını qorumaq, müdafiə etmək, işğal olunmuş torpaqların azad edilməsinə nail olmaq üçün sizin fikirləriniz çox əhəmiyyətlidir.

Burada bəzi təkliflər irəli sürdünüz: kəlbəcərlilərin vəziy[42-43]yətinə qayğı, ayrı-ayrı fərdi xahişlər. Mən burada iştirak edən müvafiq rəhbər şəxslərə, xüsusən İcra Aparatının başçısına tapşırıram ki, bu təkliflərin hamısı cəmləşdirilsin və mənim adımdan icraçılara çatdırılsın ki, burada irəli sürülən məsələlər həll olunsun.

Ancaq sizinlə birlikdə bizim hamımızın bu gün burada danışılan sözlərdən meydana gələn fikrimiz bundan ibarətdir ki, Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal olunmuş torpaqları azad edilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalı və müstəqil dövlət kimi Azərbaycan bütün ərazisinin sahibi olmalıdır, bütün ərazisinə, öz sərhədlərinə tam nəzarət etmək hüququna nail olmalıdır. Bu, qarşımızda duran ən böyük, eyni zamanda deyə bilərəm ki, ən çətin vəzifədir. 1988-ci ildən indiyə qədər 8 ildir Azərbaycanın həyatında baş vermiş hadisələr, bir respublika kimi ölkəmizin, xalqımızın başına gələn bəlalar, faciələr Azərbaycan xalqının tarixinin çox ağır səhifələridir. Bu səhifələrdə qəhrəmanlıq, rəşadət nümunələri də var. Bizim igid oğlanlarımız, Azərbaycanın övladları müqəddəs torpağımızın qorunması, müdafiəsi uğrunda, Azərbaycanın istiqlaliyyəti, azadlığı uğrunda şəhid oldular, özlərini qurban verdilər. Beləsi çoxdur və bu şəhidlərin, Vətən, torpaq yolunda özünü qurban verənlərin xatirəsi qəlbimizdə daim yaşayacaq, onların şücaəti Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır. Bizim bu 8 illik tariximizdə belə qəhrəmanlıq səhifələri çoxdur.

Ancaq eyni zamanda bu 8 ildə, yəni Azərbaycana qarşı təcavüz başlanandan indiyə qədər tariximizdə qara səhifələr də çoxdur, həddindən artıq çoxdur. Ayrı-ayrı şəxslərin, ayrı-ayrı qrupların, vəzifə sahiblərinin xalq, millət, Vətən, torpaq qarşısında xəyanətkarlığını əks etdirən səhifələr də çoxdur, həddindən artıq çoxdur. Ermənistanın ölkəmizə qarşı təcavüzünün davam etdiyi bu illərdə Azərbaycanın qayğısına qalan insanlar, Azərbaycanın rəhbərliyində olan şəxslər bunları düşünə bilsəydilər, öz vəzifələrini, borclarını dərk edə bilsəydilər, şübhəsiz ki, bunların qarşısı alına bilərdi. Təcavüzün də qarşısı alına bilərdi, heç onun başlanmasına, münaqişənin meydana çıxmasına yol verilməzdi. Əgər belə bir hadisənin meydana gəlməsinin qarşısı alınmadısa, onda gərək respublikamız, xalqımız, millətimiz və onun başında duranlar torpaqlarımızın qorunmasını təmin edəydilər. Təəssüf ki, bu, olmayıbdır.

Bilirsiniz, bu, hər bir azərbaycanlıda daim vicdan əzabı do[43-44]ğurur. Mən bunu dəfələrlə demişəm, bizim millətimiz aciz millət deyil, xalqımız aciz xalq deyildir. Xalqımız çoxəsrlik tarixində milli mənliyini, torpağını, Vətənini qoruyub saxlamağa qadir olduğunu dəfələrlə sübut edibdir. Ancaq bu dəfə, təəssüflər olsun ki, bu keyfiyyətləri nümayiş etdirmək mümkün olmayıbdır. Ona görə yox ki, xalqımızda bu keyfiyyətlər yoxdur. Ona görə ki, əgər lap qədim keçmişlərdən desək, hər bir tayfanın, ordunun, dəstənin, hər bir millətin başında duranlar, sərkərdəlik edənlər çox şeyi həll edirlər.

Təəssüf ki, o illər xalqımızda böyük çatışmazlıq olubdur, qıtlıq olubdur. Bu çatışmazlıq, bu qıtlıq da xalqımıza böyük faciələr, bəlalar gətiribdir. Bilirsiniz, Kəlbəcəri müdafiə etmək bəlkə də çətin məsələ idi. Burada rəqəmlər söylədilər ki, nə qədər adam həlak oldu, itkin düşdü. Həlak olanlara Allah rəhmət eləsin, itkin düşənləri də axtarıb tapıb Vətənimizə qaytarmaq bizim borcumuzdur. Məsələn, burada deyildi ki, hansısa gəlin o dəhşətə, erməninin təcavüzünə dözə bilmədi, özünü qayadan atdı. Bu, böyük bir əfsanədir. Bu, millətimizin ən böyük keyfiyyətini nümayiş etdirən bir haldır. Mən hesab edirəm ki, bu gün də olmasa, vaxt gələcək, biz həmin gəlinin o faciəvi qəhrəmanlığına elə həmin qayanın başında böyük abidə ucaldacağıq. Bunu mütləq edəcəyik.

Ancaq bununla yanaşı, nə qədər satqınlıq, xəyanətkarlıq oldu, nə qədər insanlar şəxsi həyatlarını torpağın, Vətənin, xalqın mənafeyindən üstün tutdular. Beləliklə, torpaqlarımız işğal olundu. Əgər bir azərbaycanlı ilə bir ermənini təkbətək meydana salsan, azərbaycanlı heç vaxt kürəyini yerə verməz, heç vaxt. Amma millətimizi bu

cür pəhləvan etmək bir-iki adamın işi deyildir. Bu, xalqın hamısının birlikdə işidir və xalqa rəhbərlik, başçılıq, sərkərdəlik edən adamların işidir. Xalqımızda bu qüdrət, cürət, qəhrəmanlıq keyfiyyətləri var.

Ona görə də deyirəm ki, o vaxt Kəlbəcəri qoruyub saxlamaq olardı. Burada danışanların hamısı bunu dedi. O vaxt – Kəlbəcərin işğal olunması dövründə mən buradan çox uzaqda idim, o qədər məlumatım yox idi. Mənim məlumatını buraya gələndən sonra ayrı-ayrı yazılardan, belə söhbətlərdən, sənədlərdən toplanıbdır və bu gün sizin dediklərinizin əsasında öz fikrimi söyləyirəm. Sizin bu fikirlərinizi, sözlərinizi cəmləyərkən bir nəticə çıxır ki, şübhəsiz torpaqlarımızın hamısını, o cümlədən Kəlbəcəri də müdafiə etmək mümkün idi. Əgər vaxtilə bunu edə bilməmişiksə, bu, xalqın, millətin [44-45] günahı deyildir, xalqa xəyanət edənlərin günahıdır. Burada cürbəcür ifadələr işlədildi: səriştəsiz rəhbərlər, qorxaqlar – hamısı olubdur. Təkcə Kəlbəcərin işğalı zamanı yox, bu 8 il müddətində bütün başqa hallarda, təəssüf ki, hamısı olubdur.

Bu, bizi faciəli vəziyyətə gətirib çıxarıb, ağır vəziyyətə salıbdır. Torpaqlarımızın 20 faizi işğal olunub, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşübdür. Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Amma sülh danışıqları aparanda da bir bizim vəziyyətimizə baxın, bir də tərəf-müqabilimizin vəziyyətinə baxın. Onlar torpaqlarımızı işğal ediblər, öz şərtlərini diqtə edirlər. Bizim torpaqlarımız işğal altındadır, biz də şərtlərimizi deyirik, amma vəziyyətimiz bərabər deyildir. Bəs bizi, xalqımızı bu günə salanlar kimlərdir? Həmin o satqınlar, xəyanətkarlar, həmin o səriştəsizlər, qorxaqlar, mənəviyyatca pozulmuş insanlardır. Dərd də burasındadır.

1988-ci ildə Ermənistan Azərbaycana qarşı təcavüzə başlayarkən xalqımız gərək yumruq kimi birləşəydi. Bütün daxili ixtilafları, çəkişmələri, cürbəcür narazılıqları bir kənara qoyaraq yumruq kimi birləşib gərək torpağı qoruyaydı. Amma əslində nə oldu? Əslində, bu fürsətdən, şəraitdən hərə özü üçün istifadə etməyə çalışdı. Xalqımızın faciəsi də bundan ibarətdir ki, bu müddətdə biri orada vəzifə almaq istəyib, biri burada hakimiyyətə gəlmək istəyib. Bəs bu adamlar düşünməyiblər ki, ölkə belə vəziyyətə düşəndən sonra, lap vəzifəyə də gəlsən, sən nə edəcəksən?

Sizin burada dediklərinizlə tamamilə razıyam. Doğrudan da Kəlbəcər öz coğrafi mövqeyinə görə elə bir yerdir ki, oranı işğal etmək sadəcə olaraq mümkün deyildir. Təsadüfi deyil ki, Ermənistanın işğalçı dəstələri Azərbaycana 1988-ci ildən hücum etmiş, Kəlbəcər isə 1993-cü il martın sonunda işğal olunubdur. O vaxt Azərbaycanın bir çox başqa bölgələri, o cümlədən bütünlükdə Dağlıq Qarabağ, Kəlbəcərlə qonşu olan Laçın rayonu işğal edilmişdi. Amma Kəlbəcər bir ada kimi qalmışdı. Bir tərəfdən, doğrudan da coğrafi mövqeyinə görə, ikinci tərəfdən isə kəlbəcərlilərin özlərinin qəhrəmanlığına görə. Deməli, onu saxlamaq, qorumaq mümkün idi və Ermənistanın işğalçı qüvvələrini Azərbaycanın zəbt edilmiş torpaqlarından, o cümlədən Dağlıq Qarabağdan, Laçından, başqa yerlərdən çıxarmaq üçün, şübhəsiz ki, Kəlbəcəri strateji nöqteyi-nəzərdən qoruyub saxlamaq lazım idi. Bu, bir nömrəli vəzifə idi. [45-46]

Ancaq təəssüf ki, o vaxt bunu etməyiblər. Nəinki etməyiblər, mən sizin dedikləriniz əsasında bu nəticəyə gəlirəm, əgər bunu etməyə sadəcə imkan olmasaydı, bunu anlamaq mümkün idi. Müharibədə irəli getmək də, geri çəkilmək də olar. Bu, müharibənin təbii qanunudur. Ancaq Kəlbəcəri müdafiə etməyiblər. Ona görə ki, doğrudan da xəyanət, satqınlıq, ayrı-ayrı məqsədlər olubdur. Eldar Həsənov çox düzgün və doğru dedi: 1988-ci ildən bəri Azərbaycanın başına gələn bəlalar – ayrı-ayrı şəxslərin, qrupların bir-biri ilə toqquşması və nəhayət, Kəlbəcərin süqutu həm o vaxtkı Azərbaycan rəhbərliyinin nəinki səriştəsizliyinin, eləcə də qətiyyətsizliyinin, bacarıqsızlığının, fəaliyyətsizliyinin, eyni zamanda həmin o quldurların, oğruların – Rəhim Qazıyev, Surət Hüseynov kimi adamların öz şəxsi məqsədlərinə nail olmaq üçün satqınlıq hərəkətlərinin nəticəsidir. O vaxt Azərbaycana rəhbərlik edən. şəxslər – prezident Əbülfəz Elçibəy, Ali Sovetin sədri İsa Qəmbərov, baş nazir Pənah Hüseynov bunların qarşısını ala bilmədilər və bilməzdilər də, çünki bunun üçün onların nə iradəsi, nə də bacarığı yox idi və onlarla toqquşan digər qüvvələr Azərbaycanın torpaqlarını qurban verdilər ki, nə var-nə var, görək kim-kimi yıxa bilər. Onlar bunları, bunlar da onları yıxmaq istədilər, axırda Azərbaycan bədbəxt oldu.

Kəlbəcərin işğalı bizim üçün böyük itkidir. Kəlbəcərin zənginliyi, təbii sərvətləri haqqında burada danışıldı. Doğrudan da, Kəlbəcər Azərbaycanın çox dəyərli bir guşəsidir. Həm təbiətinə, dağlarına, meşələrinə, çaylarına, bulaqlarına, qayalarına görə, həm də orada olan çox qiymətli yeraltı sulara, mərmər yataqlarına, qızıl yataqlarına, başqa əlvan metalların yataqlarına görə çox qiymətli bir yerdir. O vaxtlar, keçmişdə biz Kəlbəcərin inkişafı üçün çox səylər göstərmişdik. İstisuda böyük kompleks tikilmişdi. Bu, neçə-neçə nəsillərin yaratdığı abidələr, yaşayış binaları idi. Təəssüf ki, vaxtilə qızıl yataqlarından istifadə edilməsi ilə məşğul olmamışdılar. Hələ o sakit dövrdə ermənilər gəlib bizim qızıl yataqlarımızı zəbt etmək istəyirdilər. Xatirimdədir, biz o barədə çox ciddi tədbirlər gördük. Dağ rayonu kimi Kəlbəcərin inkişafı üçün xüsusi qərarlar qəbul olunmuşdu və bunların həyata keçirilməsindən Kəlbəcərin əhalisi, hesab edirəm, çox bəhrələnmişdir.

Xatirimdədir, biz Kəlbəcərdə tütün əkməyə başladıq. Kəlbəcərlilərin yadındadır, təxminən 1975-ci ilə qədər orada [46-47] tütün əkilmirdi. Raykomun birinci katibi Nadirov mənim yanıma gəldi. Göstəriş verdim ki, tütün əkilsin. İki-üç ildə kəlbəcərlilər tütündən xeyli gəlir götürdülər. Xatirinizdədirmi, min tondan artıq tütün istehsal olunurdu. Bu, o vaxt Kəlbəcər üçün, işsiz adamlar üçün nə qədər böyük hadisə idi! Tütünçülük o vaxtlar kəlbəcərlilərə çox gəlir gətirdi. Dağ rayonlarından, o cümlədən Kəlbəcərdən olan uşaqların institutlara daxil olmaları üçün güzəştlər etmişdik. Bu yolla ali məktəblərə nə qədər kəlbəcərli daxil oldu.

Bilirsiniz, keçmişdə belə bir əhval-ruhiyyə vardı ki, guya bizim dağ rayonlarımız geridə qalmışdır, orada camaatın mədəni, yaxud bilik səviyyəsi o qədər də yüksək deyildir. Amma siz də görmüsünüz ki, həmin o illərdə aparılan işlər ölkəmizin cürbəcür bölgələrində olan əhalinin həm elm, bilik səviyyəsini, həm də mədəni səviyyəsini, eyni vəziyyətə qaldırdı. İndi mən burada görürəm, kəlbəcərlilərdən nə qədər şair var. Hər çıxış edən şeir oxuyur, özü də başqasının yox, özünün yazdığı şeiri oxuyur. Elə bunun özü kəlbəcərlilərin həm nə qədər istedadlı olduğunu, həm də mədəniyyətə, ədəbiyyata nə qədər qovuşduğunu göstərir. Kəlbəcərdən nə qədər böyük alimlər, ziyalılar var. Yəni keçmişdə bəzən belə əhval-ruhiyyə vardı ki, dağda yaşayanlar guya dağ adamlarıdır. Bəzən şəhərdə onlara bir az kəc baxır, yaxud başqa cür yanaşırdılar.

Bunlar hamısı qısa bir müddətdə keçdi getdi. Ona görə ki, insanların daxilində, genlərində olan fitri istedad eynidir. Şəhərdə və ya dağda doğulmağın fərqi yoxdur. İnsanın anadangəlmə fitri istedadı varsa, bu, onun şəhərdə, dağda, yaxud aranda doğulmasından asılı deyildir. Ancaq hər bir fitri istedadın meydana çıxması üçün ona şərait yaratmaq lazımdır. O şərait də həmin illərdə yarandı, insanlar öz daxilində olan potensialı büruzə verə, nümayiş etdirə, hərəkətə gətirə bildilər. Beləliklə də Kəlbəcər, necə deyərlər, həm də ki, çox fədakar insanlar diyarıdır.

Bu, tamamilə aydın məsələdir. Çıxış edənlərdən kim isə dedi ki, bəzən burada danışırlar: qaçqınlar, yerazlar... Bilirsiniz, mən bunu deyən insanlara nifrət edirəm. Bəli, 1988-ci ildə bizim soydaşlarımızı, azərbaycanlıları ermənilər zorla, silah gücünə Ermənistandan çıxarandan sonra buraya köçmüş adamlara burada ad qoydular: yerazlar. Bu adı mənfi nöqteyi-nəzərlə qoydular. Kimlər qoydu bu adı? Vəzirov kimi alçaq adamlar, onun şaykasında olan adamlar, Mütəllibov kimi al[47-48]çaq adamlar, onun şaykasında olan adamlar. Anadan olduğu yerdən asılı olmayaraq, azərbaycanh hər yerdə dəyərli adamdır. Kəlbəcərdə, Laçında, ya da Zəngəzurda, yaxud Göyçə mahalında anadan olub, ya da Borçalıda, Bakıda, Maştağada anadan olub – fərqi yoxdur, hamısı bir millətin adamlarıdır, azərbaycanlılardır. Millətimizin, xalqımızın içindən bunları təbəqələrə bölənlər, bir-birindən ayıranlar Azərbaycan xalqına, millətimizə ən böyük xəyanət edən adamlardır. Yerindən-yurdundan didərgin düşmüş adamlara, yaxud Ermənistandan zorla sürülüb çıxarılmış adamlara mənfi münasibət göstərmək, yaxud mənfi ad qoymaq, onlara belə təkəbbürlü yanaşmaq ən böyük cinayətdir və deyə bilərəm ki, ədəbsizlik, mənəviyyatsızlıq, tərbiyəsizlikdir.

1988-ci ildən bəri belə tərbiyəsiz adamlar gəlib Azərbaycanın başına bu bəlaları gətirdilər. Ədəbsiz adamlar kəlbəcərlilərin arasında da var. Kəlbəcərdən burada oturan ziyalılar, alimlər, şairlər, gözəl adamlar da var, İsgəndər Həmidov kimi alçaq adamlar da var. Beləsi hər yerdə var. Ermənistanlı azərbaycanlılardan da, naxçıvanlılardan da, qarabağlılardan da, gəncəlilərdən, bakılılardan, şəkililərdən də – hamısından var, hər yerdə var. Yaxşısı da var, pisi də var. Ancaq yerlərə görə, yaxud müəyyən qruplara görə insanların hamısına mənfi münasibət göstərmək olmaz, yaxud kimi isə xüsusi bir dəstə kimi çox mötəbər hesab etmək olmaz. Bu, bizim mənəviyyatımıza zidd olan bir amildir. Mən bunu pisləyir və yenə də deyirəm: xalqımızın arasında ayrı-seçkilik salmaq istəyən, onu, ayrı-ayrı qruplara, dəstələrə bölmək istəyən, hansısa mənfi münasibət göstərmək istəyən adamlara nifrət edirəm. Belə adamların, belə halların qarşısı alınmalıdır.

Yenə Kəlbəcərin keçmişinə qayıdıram. Onun çox gözəl keçmişi olubdur və güman edirəm ki, çox gözəl də gələcəyi var. Burada çıxışlar bir-birindən fərqli olsa da, hamısında bu fikir eyni idi: işğal edilmiş torpaqlar, o cümlədən Kəlbəcər sülh yolu ilə azad olunmalıdır. Əgər bu, mümkün olmasa, – burada bacılarımız da dedi, qardaşlarımız da dedi, yaşlılar da, cavanlar da dedi, – bütün imkanlarımızdan, gücümüzdən istifadə edib Kəlbəcəri azad edəcəyik, işğal olunmuş bütün torpaqlarımızı azad edəcəyik. Buna heç kəsin şübhəsi olmasın. Biz qoymayacağıq ki, torpağımızın bir qarışı da qəsbkarların əlində qalsın. Bir qarışını da qoymayacağıq.

Ancaq yenə də deyirəm, işğalçıları çıxarmaq o torpaqları [48-49] müdafiə etməkdən qat-qat çətin məsələdir. Torpaqları müdafiə etmək olardı və hərə öz yerində qalardı. Ola bilərdi çox qurban verək, ola bilərdi həmin Kəlbəcərdə də əlli-yüz adam yox, min adam həlak olsun, əlli min adamdan mini, iki mini həlak olsun. Sağ qalan adamlar özünü qayadan atan o gəlindən də qiymətli deyil ki. Hər bir insanın özünə görə qiyməti var, hər kəs atası-anası, qardaşı-bacısı üçün, ailəsi üçün ən qiymətlidir. Bizim heç birimiz həlak olanlardan qiymətli deyilik, o cümlədən mən də. Ona görə də Kəlbəcəri, başqa torpaqlarımızı da müdafiə etmək lazım idi. Bəlkə də beş dəfə, on dəfə artıq qurban vermək lazım idi, ancaq müdafiə edib öz torpağımızda alnıaçıq, üzüağ oturmaq lazım idi. Ola bilər, yarımız qırılaydıq, amma yarımız öz torpağımızda qalardıq. İndi nə olsun ki, əksəriyyəti çıxıb gəlib, qaçqın düşübdür. Torpaqlarımız da, burada düz dedilər, yağıların əlindədir. Güman edirəm ki, biz bundan sonra bütün işlərimizə, həyatımıza, hökumətimizə, dövlətimizə, respublikamıza, torpaqlarımıza əsl vətənpərvər kimi münasibət göstərməliyik.

Buradakı çıxışlarda Kəlbəcərin süqutunda, onun təslim edilməsində günahkarlar haqqında deyildi. Baş prokuror Eldar Həsənov özü də kəlbəcərlidir, güman edirəm ki, Azərbaycanın hər bir guşəsi onun üçün əzizdir, amma öz doğma yurdunu xəyanətkarcasına təslim edən adamlar haqqında qəti qərar qəbul olunmalıdır, buna şübhə olmasın. Ancaq iş təkcə iki-üç adamda deyil. Burada Qənizadənin, ya başqasının adı çəkildi. Hesab edirəm ki, bir var məhkəmənin hökmü, bir də var xalqın hökmü. Kəlbəcərlilər özləri yığışmalıdır, – sizin aranızda alim də, şair də, yazıçı da, hüquqşünas da, jurnalist, hamısı var, – və siyasi hökm çıxarmalıdır. Üç il keçibdir, bütün materiallar var, hər şey sizə məlumdur. Özünüz bu işlərin şahidisiniz, hansı kənd nə cür getdi,

erməni silahlı qüvvələri haradan, nə təhər girdilər, nə cür oldu ki, adamlar qaçdı, onları çıxardılar, – hamısı sizə məlumdur. Sizə tövsiyəm, hətta deyərəm, xahişim bundan ibarətdir. Mən bunu arzu edirəm. Bilirsiniz, sizin özünüzün çıxartdığınız hökm ən ədalətli hökm olacaqdır. Özünüz bir komissiya düzəldin, yığışın, müzakirə eyləyin, hər bir cümləni, sətri ələkdən-süzgəcdən keçirin ki, düzgün, ədalətli olsun. Amma bir siyasi hökm olmalıdır.

Burada bu söhbəti apararkən bu fikir beynimə gəldi. Hesab edirəm, bunu bütün başqa rayonlarımız üçün də etməliyik. [49-50]

Mən bu təklifi verirəm. Belə bir hökm hazırlayın, bir prezident kimi mənə də təqdim edərsiniz, mənim əlimdə də siyasi sənəd olar. Onu mətbuatda da dərc edərik. Bu, tarix üçün, gələcək üçün də lazımdır.

O ki qaldı istintaqa, mən hesab edirəm ki, baş prokuror daha geniş istintaq aparmalı, Ali Məhkəmə də bu işə ədalətlə yanaşmalı və cinayətkarlar öz cəzalarını almalıdırlar. Onların öz cəzalarım almaları təkcə ona görə deyil ki, cinayətkar gedib on il, on beş il həbsxanada otursun. Hər bir cinayətə görə cəza vermək eyni zamanda başqalarını cinayətdən xilas etməkdir, profilaktikadır. Gərək insan bilsin ki, cinayət etmək olmaz, bilsin ki, bu cür cinayət etmək olmaz. Həmin o Qənizadə orada qoşunu ilə Kəlbəcəri qoruyaraq şəhid olsaydı, onun adı əsrlər boyu yaşayacaqdır. Amma indi görürsünüz, burada hər çıxış edən Qənizadənin adını nifrətlə çəkir.

Bilirsiniz, dünyada heç kəs daimi deyil, insan mənəviyyat üçün yaşamalıdır. Mənəviyyatını qoruyan, yaşayan insan əbədi olacaqdı. Amma səkkiz ildir Azərbaycanın başına cürbəcür bəlalar gətirən nadürüst, cinayətkar adamlar, vəzifə hərisləri, – hansılar ki, bu gün də Azərbaycanda qarışıqlıq salmaq istəyirlər, – belə adamların heç birisi yaşamayacaqdır. Ola bilər, fiziki cəhətdən ömrü çox olsun, amma mənəvi cəhətdən ömrü olmayacaqdır.

Biz isə, əgər Allahın kəlamına, Qurani-Kərimin kəlamına da, ulu babalarımızın vəsiyyətinə də istinad etmiş olsaq, mənəviyyat üçün yaşamalıyıq.

Hesab edirəm ki, bu gün bizim danışığımız çox səmərəli oldu. Bir tərəfdən Kəlbəcərin faciəsini xatirimizə saldıq. Bu faciəni heç vaxt unutmaq olmaz. Faciə bizə nə qədər qəm-qüssə, kədər gətirsə də, onu daim yaşatmaq lazımdır ki, bu faciədən hərə özü üçün ibrət dərsi götürsün. Yaşatmaq lazımdır ki, dünya xalqları bilsin – Azərbaycanın başına nə kimi bəlalar gəlibdir və erməni qəsbkarları, quldurları nə qədər vəhşidirlər ki, Azərbaycan xalqının başına bu cür bəlalar gətiriblər. Ona görə bunu yaşatmaq lazımdır, unutmaq olmaz, nəsillərdən-nəsillərə ötürmək lazımdır.

Bu baxımdan bugünkü görüşümüz çox əhəmiyyətlidir. Amma bu görüşün əhəmiyyəti eyni zamanda ondan ibarətdir [50-51] ki, biz Kəlbəcərin işğaldan azad olunması üçün özümüzü daha da səfərbər edirik. Mən çox məmnunam ki, bu gün burada çıxış edənlərin hamısı yekdildir ki, əgər Kəlbəcər, eləcə də işğal olunmuş digər torpaqlarımız sülh yolu ilə azad edilməsə, biz gərək özümüzü hazırlayaq və torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edək. Bu barədə fikrim qətidir. Mən bu yolun yolçusuyam, bu yoldan dönməyəcəyəm. Sağ olun. [51-52]

## ÖTƏN KƏND TƏSƏRRÜFATI İLİNİN YEKUNLARI, 1996-cı İLDƏ GÖRÜLƏSİ İŞLƏR, AQRAR BÖLMƏDƏ İQTİSADİ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ VƏZİYYƏTİ VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*2 aprel 1996-cı il*

Hörmətli müşavirə iştirakçıları!

Bugünkü müşavirə respublikamızın iqtisadiyyatının əsas sahələrindən biri olan kənd təsərrüfatının, aqrar bölmənin problemlərinə həsr olunub. Müşavirənin məhz bu vaxt keçirilməsi onunla bağlıdır ki, biz 1995-ci ildə kənd təsərrüfatı sahəsində görülmüş işləri yekunlaşdırmalıyıq və 1996-cı ilin vəzifələri haqqında, xüsusən builki yaz mövsümündə kənd təsərrüfatında görüləcək işlərin gedişi barədə müzakirələr aparmalıyıq. Bu, kənd təsərrüfatının cari məsələləri ilə əlaqədar olan problemlərdir. Amma eyni zamanda, kənd təsərrüfatında, aqrar bölmədə köklü dəyişikliklər aparılmalıdır.

Kənd təsərrüfatı məhsulları istehsalını artırmaq, iqtisadiyyatımızın inkişafını təmin etmək üçün biz əvvəlki görüşlərdə, müşavirələrdə geniş müzakirələr keçirmişik. Aqrar bölmədə, kənd təsərrüfatında islahatlar aparmalıyıq. Aqrar sahədə islahatlar aparmaq üçün biz iki çox mühüm qanun qəbul etmişik. Bu qanunların həyata keçirilməsi işinə başlanıb. Ancaq hesab edirəm ki, bu iş biz istədiyimiz sürətlə getmir. Bir tərəfdən ona görə ki, bu qanunlardan irəli gələn vəzifələrin icrası, həyata keçirilməsi üçün müvafiq təşkilatlar, nazirliklər, yerli orqanlar lazımi qədər fəallıq, təşəbbüskarlıq göstərmirlər. İkinci tərəfdən, bu qanunların həyata keçirilməsi üçün başqa qanunların da qəbul olunması lazımdır. [52-53]

Ona görə də mən bugünkü müşavirənin keçirilməsi barədə qərar qəbul edərkən məhz bu problemlərin müzakirə olunmasını nəzərdə tutmuşam. Yəni kənd təsərrüfatı sahəsində cari məsələlər, yaz mövsümündə görüləsi işlər və bu işlərin aparılmasına hazırlığın səviyyəsi, 1996-cı ildə kənd təsərrüfatında məhsul istehsalının artırılması, bununla yanaşı kənd təsərrüfatında, aqrar bölmədə iqtisadi islahatların bu il sürətlə həyata keçirilməsi ilə əlaqədar qarşıda duran vəzifələr müzakirə olunmalıdır.

Biz aqrar bölmədə iqtisadi islahatlar ilə əlaqədar iki qanun qəbul edərkən qarşımızda vəzifə qoymuşduq ki, bu qanunların həyata keçirilməsinin başlanğıcı sürətlə aparılmalıdır. 1996-cı ilin birinci rübü artıq başa çatdı. Ancaq bir daha qeyd edirəm, bu işlərin gedişini qənaətbəxş hesab etmək olmaz. Ona görə də bax, bu məsələləri müzakirə etmək üçün bizim bu gün burada yığışmağımıza və müzakirələr aparmağımıza ehtiyac var.

Belə hesab edirəm ki, biz kənd təsərrüfatı naziri İrşad Əliyevin məruzəsini dinləməliyik. İrşad Əliyev gərək ki, öz məruzəsində həm 1995-ci ilin yekunları barədə təhlili məlumat versin ki, hansı işlər görülüb, hansı işlər görülməyib və buraxılan səhvlərin səbəblərindən bəhs etsin. O, 1996-cı ildə görüləcək işlər, qarşıda duran vəzifələr və xüsusən bu il kənd təsərrüfatı işlərinin müvəffəqiyyətlə aparılması üçün hansı məsələlərin həll edilməsinin zəruriliyi barədə məlumat verməlidir. Əvvəlki görüşlərimizdə, keçirdiyimiz müşavirələrdə, mənim fərmanlarımda və qəbul olunmuş qanunlarda nəzərdə tutulmuş aqrar islahatların aparılması və əldə edilən nəticələr barədə məlumat verməlidir.

Nəzərdə tutulub ki, ikinci məruzəni Milli Məclis sədrinin birinci müavini Arif Rəhimzadə etsin. Biz torpaq islahatı barədə qanun layihəsi hazırlamışıq. Bu, çox mühüm bir qanun layihəsidir, yəni qəbul ediləcək bir qanundur. Bu qanun layihəsini Milli Məclisin müzakirəsinə çıxarmaqdan əvvəl mən belə hesab etdim ki, bu layihələr barədə məlumat verilsin və layihəyə münasibət bugünkü müşavirədə müzakirə olunsun. Təkcə bugünkü müşavirədə yox, ola bilər, bundan sonra rayon rəhbərləri, müvafiq nazirliklər bu qanun layihəsi ilə əlaqədar fikirlərini, təkliflərini təqdim etsinlər ki, onları nəzərə alaraq Milli Məclisin müzakirəsinə daha mükəmməl səviyyədə layihə təqdim edə bilək. [53-54]

### YEKUN SÖZÜ

Bu gün biz respublikamızın iqtisadiyyatının böyük sahəsini bir daha nəzərdən keçirdik. Bu sahədə indiyədək görülmüş bütün işlər təhlil olundu və görüləcək işlər haqqında təkliflər, mülahizələr irəli sürüldü.

Mən bu gün fürsətdən istifadə edib onu demək istəyirəm ki, Azərbaycan Respublikasının təbiəti, iqlimi, ərazisi, torpaqları ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalı üçün çox gözəl və əlverişli şərait yaradır. Biz taleyimizdən çox razı olmalıyıq ki, dünyanın belə bir gözəl guşəsində yaşayırıq.

Bildiyiniz kimi, Qafqaz dünyanın ən gözəl regionlarından biri hesab olunur. Qafqazın təbiəti, iqlimi,

dağları, çayları, ovalıq və meşələri, gözəl torpaqları dünya səyyahlarını həmişə cəlb etmişdir. Ona görə də Qafqaz Yer kürəsinin incilərindən biri hesab olunur.

Bunu deməyə əsasımız var ki, Azərbaycanın ərazisi, Azərbaycan Respublikasının torpaqları Qafqazın başqa ölkələrinin, başqa respublikaların ərazisinə, torpaqlarına, təbiətinə nisbətən, zənnimcə, ən zəngindir. Alimlərimiz, yazıçılarımız dəfələrlə böyük iftixar hissi ilə qeyd etmişlər ki, dünyanın 11 iqlim qurşağından doqquzu Azərbaycanda var. Bu, bəlkə də bəzən sadəcə olaraq öz diyarımızı, öz ölkəmizi başqalarına daha gözəl göstərmək üçün işlədilən ifadədir. Ancaq bu, həqiqətə uyğundur. Doğrudan da, bizim Aran zonasında çox gözəl münbit torpaqlarımız, pambıq və digər texniki bitkilərin əkilib becərilməsi üçün yararlı torpaqlarımız var. Biz taxıl məhsulları istehsal etmək üçün çox yararlı torpaqlara malikik. Azərbaycanda üzümçülük çox geniş inkişaf etdirilmişdi. Bunu hamı bilir. Əgər qısa bir müddətdə, cəmi on il ərzində Azərbaycanda üzüm istehsalı 200 min tondan 2 milyon tonadək artdısa, yaxud üzüm bağlarının sahəsi 1981-1982-ci illərdə 280-285 min hektardan təxminən 300 min hektara çatdırıldısa və biz bir o qədər üzüm istehsal edə bildiksə, buna ən əvvəl münbit və məhsuldar torpaqlarımız, əlverişli iqlim imkan vermişdir.

Bizim çox zəngin meyvə bağlarımız var. Quba, Xaçmaz, Qusar zonasında, yaxud Oğuz, Qəbələ, Şəki, Qax, Zaqatala, Balakən zonasında və başqa zonalarda da, məsələn, Naxçıvan Muxtar Respublikasında, o cümlədən Ordubadda və onun başqa bölgələrində də gözəl, xüsusi iqlimə, xüsusi torpağa [54-55] mənsub olan barlı-bərəkətli meyvə bağlarımız var. Biz Qarabağda nə qədər gözəl meyvə bağlarına malikik – həm Dağlıq Qarabağda, həm də Aran Qarabağında. Subtropik zonanı götürün, Lənkəran, Masallı, Astara həm gözəldir, həm də orada cürbəcür meyvələr, subtropik bitkilər yetişdirmək üçün, məhsul almaq üçün şərait var.

Tərəvəz bitkiləri, özü də müxtəlif fəsillərdə ən tez yetişən, ən faraş tərəvəz məhsulları yetişdirmək üçün Azərbaycanda böyük imkanlar mövcuddur. Təsadüfi deyildir ki, o vaxtlar, yəni Sovet İttifaqı dövründə Azərbaycan bütün İttifaqı, xüsusən onun Şimal zonasını faraş tərəvəzlə təmin etmək üçün "Ümumittifaq bostanı" adlandırılırdı. Bəli, bunlar təsadüfi deyildi, bunların hamısı illər boyu, on illər boyu aparılan elmi tədqiqatlar nəticəsində müəyyən edilmişdi və biz böyük bir dövlətin tərkibində olduğumuza görə torpaqlarımızın ayrı-ayrı hissələrindən ümumdövlət, ümumittifaq mənafeyi naminə istifadə edilirdi.

Heyvandarlıq üçün, heyvandarlıq məhsulları istehlak etmək üçün Azərbaycanın, demək olar, bütün bölgələrində çox gözəl imkanlar var. Biz gözəl təbii otlaqlara, gözəl dağ yerlərinə, heyvandarlıqla səmərəli məşğul olmaq üçün əlverişli imkanlara malikik. Bilirsiniz, mən keçmişdə də Azərbaycanın gələcəyi, müstəqilliyi haqqında düşünərkən və Sovet İttifaqı dağılan zaman bu barədə öz fikrimi qəti bildirərkən Azərbaycanın müstəqil yaşamağı üçün tam imkanı olduğu barədə fikirlərimi deyərkən, eyni zamanda zəngin yeraltı sərvətlərimizlə, neft-qaz yataqlarımızla və başqa mədənlərimizlə bərabər, böyük sənaye potensialı ilə bərabər geniş aqrar sektorda, kənd təsərrüfatı sahəsində, ərzaq məhsulları istehsalı sahəsində də Azərbaycanın böyük potensialını həmişə nəzərə alırdım.

Biz elə bir ölkəyik ki, əgər öz təbiətimizdən, iqlimimizdən səmərəli istifadə etsək, özümüzü bütün ərzaq məhsulları ilə təmin edə bilərik və bir çox kənd təsərrüfatı məhsullarını, – həm ərzaq məhsullarını, həm də texniki bitki məhsullarını, yəni pambığı, tütünü, çayı hətta ixrac edə bilərik. Bizim belə böyük imkanımız var. Ona görə də bu baxımdan bu keyfiyyətlərə görə Qafqazda Azərbaycana bərabər olan ölkə yoxdur, Azərbaycana bərabər olan bir respublika yoxdur. O cümlədən Cənubi Qafqazda müstəqil dövlətlərin heç birinin, – mən Gürcüstanı və Ermənistanı nəzərdə tuturam, – Azərbaycan kimi [55-56] ərzaq məhsulları, kənd təsərrüfatı məhsulları istehsal etmək imkanları yoxdur.

Bu, Allah-təaladan xalqımıza bəxş olunan nemətdir və böyük sərvətimizdir. Bunu hamı bilməlidir. Ona görə hamı bilməlidir ki, biz bundan səmərəli istifadə edək. Bax, buna görə də, bir tərəfdən, kənd təsərrüfatı sahəsi, aqrar sektorumuz iqtisadiyyatın böyük bir hissəsidir. Digər tərəfdən isə, bu imkanlar bizə yaşamaq üçün, əhalimizi bu gün də, gələcəkdə də yarıdan bir qədər az hissəsini, bəlkə də zəruri ərzaq məhsulları ilə təmin etmək üçün imkan verir.

Bir şeyi də nəzərə almaq lazımdır ki, əhalimizin, demək olar, yarısı kənd yerlərində yaşayır. Düzdür, 70-ci illərdə bu nisbət bir qədər dəyişmişdi. Məsələn, şəhərlərdə yaşayan əhalinin sayı kənddə yaşayanların sayından çox idi və bu meyl davam edir, şəhərlər böyüyürdü, kənd yerlərindən adamlar şəhərlərə – Bakıya, Gəncəyə, o cümlədən yeni şəhərlərə – Sumqayıta, Əli Bayramlıya, Mingəçevirə və digər şəhərlərə gəlirdilər. Ancaq son illərdə respublikada yaranmış vəziyyət, sənaye müəssisələrimizin zəif işləməsi, yaxud tamamilə dayanması adamların çoxunu yenə də kəndə, kənd təsərrüfatına qaytarıbdır. Orada kənd təsərrüfatı ilə məşğul olan adamlar əhalimizin çox hissəsini, bəlkə də yarıdan bir qədər az hissəsini, bəlkə də təxminən yarısını təşkil edirlər.

Ona görə də kənd təsərrüfatı, aqrar sektor bizim iqtisadiyyatımızın aparıcı hissəsidir, onun həlledici sahəsidir. Bu, bir tərəfdən. Digər tərəfdən isə, təkcə iqtisadiyyatın inkişafı naminə yox, həm də əhalimizi ərzaq məhsulları ilə təmin etmək üçün, xalqımıza, lazım olan malların istehsalından ötrü xammal ilə təmin etmək üçün kənd təsərrüfatımız, aqrar sektorumuz mühüm bir sahədir. Bu sahədə vəzifələrimiz böyükdür, elə məsuliyyətimiz də böyükdür. Biz bu qədər böyük imkanlardan istifadə edib əhalimizin həyat tərzini yaxşılaşdırmalı, rifahını yüksəltməliyik. Bunun üçün bizim tam imkanımız var.

Bu baxımdan indiki müşavirə və ötən illərdə keçirdiyimiz müşavirələr çox böyük əhəmiyyət kəsb edir.

Bunlar təkcə müşavirə naminə yox, əsas məqsədimizə nail olmaq üçün, bu sahəni inkişaf etdirmək üçün, burada yaranmış problemləri aradan qaldırmaq üçün və bu sahədə olan istifadə edilməmiş potensial imkanları hərəkətə gətirmək üçün keçirilir.

Bugünkü müşavirəmizin başlanğıcında mən qeyd etdim ki, [56-57] bu müşavirə həm ötən ilin yekunlarına, cari ildə qarşıda duran vəzifələrə, həm də əsas məsələmizə – aqrar sektorda, kənd təsərrüfatında islahatların aparılmasına və indiyədək görülmüş işlərin yekunlarına həsr olunur. Kənd təsərrüfatı sahəsində, kənd təsərrüfatı məhsulları istehsalı sahəsində keçən ilin nəticələri haqqında burada verilən məlumatlar, zənnimcə, tam təsəvvür yaradır. Təəssüf ki, çox təəssüflər olsun ki, keçən il biz nəinki irəliyə gedə bilmədik, hətta müəyyən sahələrdə əvvəlki illərə nisbətən geri düşdük, yəni inkişafı təmin edə bilmədik. Bu, əlbəttə, çox narahatedici haldır və bizi incidir. Ona görə ki, respublikamızın kənd təsərrüfatının imkanları böyükdür. Ona görə ki, biz cəmi on il bundan öncə həmin bu təbiətimizdən, həmin bu torpaqlarımızdan, həmin bu iqlim şəraitimizdən yüksək nailiyyətlər, böyük həcmdə, böyük miqdarda kənd təsərrüfatı məhsulları əldə etmişik.

Əgər respublikamız 70-ci illərdə – 80-ci illərin əvvəllərində ildə orta hesabla 800 min ton pambıq istehsal edirdisə, istər 93-cü ildə, istər 94-cü ildə, istərsə də 95-ci ildə heç 300 min tona da çata bilmir. Deməli, məhsuldarlıq təxminən üç dəfə azalıbdır. Bu, onu göstərir ki, biz nə qədər imkanı əldən vermişik. Əgər o rəqəmlər, əldə etdiyimiz nailiyyətlər olmasaydı, onda deyərdik ki, bizim imkanlarımız elə bundan ibarətdir. Amma məlumdur ki, bizim bu sahədə imkanlarımız bundan üç dəfə artıqdır.

Taxıl indi bizim üçün ən zəruri ərzaq məhsuludur. Çünki necə olursa-olsun biz əhalimizi taxıl, çörək ilə təmin etməliyik. Taxıl istehsalı da o illərə nisbətən çox aşağı düşübdür. Əgər 1994-cü ildə 1 milyon 100 min ton taxıl istehsal olunmuşdusa, 1995-ci ildə 900 min ton taxıl məhsulu götürülmüşdür. Doğrudur, burada kənd təsərrüfatı naziri dedi ki, məhsulun bir hissəsi gizlədilibdir. Ola bilər, 200-300 min ton gizlədilibdir. Amma bir yerə getməyib ki, gizlənilsə də istifadə olunub, mənimsənilibdir. Əlbəttə, qanunsuz istifadə edilibdir. Buna baxmayaraq, bizim imkanlarımız bu qədər deyildir. Əgər keçən il biz 600 min hektardan çox sahəyə taxıl səpmişdiksə, buradan ən azı, şübhəsiz 1,5 milyon ton taxıl əldə etməliyik.

Bizdə üzüm, tərəvəz, meyvə, çay, tütün istehsalı da aşağı səviyyədədir.

Beləliklə, 1995-ci ilin yekunlarından danışarkən onu demək lazımdır ki, keçən il kənd təsərrüfatı sahəsində, aqrar sahədə qənaətbəxş hesab edilə bilməz. Biz sanki o adamlar deyilik. [57-58] Yox həmin adamlarıq, həmin torpaqda yaşayan insanlarıq. Ancaq nədənsə məsuliyyət hissi azalıbdır, işə münasibət dəyişibdir. Aydındır, bunların hamısı son illər respublikada baş vermiş dağıdıcı proseslərin nəticəsidir. Təxminən 1988-ci ildən Azərbaycan ilbəil dağıdılmışdır. Bir tərəfdən, Ermənistanın Azərbaycana təcavüzü respublikada daxili vəziyyəti gərginləşdirib, şübhəsiz, bütün sahələrə mənfi təsir göstəribdir. İkinci tərəfdən isə, respublikanın daxilində gedən ictimai-siyasi proseslər, cürbəcür qeyri-qanuni hərəkətlər, cürbəcür cinayətkar qrupların burada hökm sürməsi, hakimiyyət ələ keçirməsi iqtisadiyyatımızı bu vəziyyətə gətirib çıxarmışdır.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, iqtisadiyyatda gedən dəyişikliklər, yəni bir iqtisadi sistemdən başqa iqtisadi sistemə keçid, bir quruluşdan başqa bir quruluşa keçid prosesləri – bunların hamısı respublikanın iqtisadiyyatına belə mənfi təsir göstərib və bizi belə vəziyyətə salıbdır. Etiraf etmək lazımdır ki, keçmiş Sovet İttifaqının başqa bölgələrində də, indi müstəqil dövlətlər olan başqa respublikalarda da vəziyyət təxminən belədir, bəlkə bir az yaxşıdır, bəlkə də pisdir. Məsələn, Arif Rəhimzadə Nijni Novqorod və Oryol vilayətlərinə getmişdi. O qayıdandan sonra mən onunla söhbət etdim. Məlumdur ki, Oryol və Nijni Novqorod islahatların keçirilməsində Rusiyada ən qabaqcıl vilayətlər hesab olunur.

Ona görə də Milli Məclisin üzvləri Arif Rəhimzadə və başqaları bu vilayətlərə gediblər ki, orada olan vəziyyəti, təcrübəni öyrənsinlər və biz bunları öz işlərimizdə tətbiq edə bilək. O, burada bu haqda məlumat verdi. Şübhəsiz ki, müxtəlif formalarda islahatlar keçirilir. Ancaq təəssüf ki, Rusiya kimi böyük bir dövlətdə və islahatların həyata keçirilməsində öndə gedən dövlətdə də bu islahatlar hələ yarımçıq bir vəziyyətdədir. Məsələn, Rusiyada indiyə kimi torpaq islahatı haqqında qanun, torpaq məcəlləsi qəbul olunmayıbsa və bu gün də elə bir vəziyyət yaranırsa ki, bunların qəbul olunub-olunmayacağı hələ bilinmir, şübhəsiz, bu, onu göstərir ki, orada da vəziyyət normal deyil.

Ancaq Nijni Novqorod və Oryol kimi məşhur vilayətlərdə də islahatlar zəifləyib. Arif Rəhimzadə mənə dedi ki, 1995-ci ildə orada istehsal 11 faiz aşağı düşüb. Bu, heç də bizə təskinlik verməməlidir, yaxud bizdə istehsalın aşağı düşməsinə bəraət qazandırmamalıdır. Mən bunları sizə çatdıraraq onu demək istəyirəm ki, daxili proseslər, Ermənistanın Azərbayca[58-59]na təcavüzü ilə bərabər keçid dövrünün prosesləri iqtisadiyyatımızın, o cümlədən kənd təsərrüfatının vəziyyətinə mənfi təsir göstəribdir.

Mən bunları obyektiv təhlil üçün deyərək, onu da bildirmək istəyirəm ki, biz 1994-cü və 1995-ci illərdə işlərimizi istənilən səviyyədə qura bilsəydik və bu islahatları başlayan zaman sürətlə apara bilsəydik bu gün 1995-ci ilin yekunları haqqında danışanda daha sevindirici rəqəmlər gətirə bilərdik. Bunun əsas səbəbi buraxılan səhvlər və özümüzün işə münasibətimizin hələ də dəyişməməsidir. Mən bunu deyəndə, şübhəsiz ki, bu sahə ilə məşğul olan nazirliklərin, şirkətlərin, rayon icra hakimiyyətlərinin, rayonlarda kənd təsərrüfatı ilə bağlı təşkilatların fəaliyyətini və Nazirlər Kabinetinin işini nəzərdə tuturam. Hesab edirəm ki, biz 1995-ci ili daha yaxşı yekunlarla başa çatdıra bilərdik. Əgər bunu edə bilməmişiksə, günah bizim özümüzdədir.

Bundan nəticə çıxarmaq lazımdır. Hesab edirəm ki, 1996-cı ildə kənd təsərrüfatı sahəsində irəliləməliyik. Kənd təsərrüfatı məhsulları istehsalı 1994-cü və 1995-ci illərə nisbətən xeyli artmalıdır, biz bunu təmin etməliyik. Bu, qarşımızda duran ən mühüm vəzifədir. Mən sizin qarşınızda bu vəzifəni qoyuram. Sizdən – aqrar bölmədə çalışan bütün təşkilatlardan, nazirliklərdən, komitələrdən, şirkətlərdən, rayon təşkilatlarından – hamıdan bunu tələb edirəm.

1996-cı ilin 1-ci rübü başa çatıb. İndi kənd təsərrüfatı sahəsində işlərin ən həlledici dövrüdür. Yazdır. Əgər yaz aylarında biz işləri gərgin təşkil etsək və kənd təsərrüfatının əsas sahələrində qarşıda duran vəzifələri yerinə yetirə bilsək, 1996-cı ildə irəliləyə bilərik, kənd təsərrüfatı məhsulları istehsalını artıra bilərik və artırmalıyıq. Bu, bizim vəzifəmizdir, borcumuzdur, sizin borcunuzdur, üzərinizə düşən vəzifədir. Siz bunu etməlisiniz. Mən sizdən bunu tələb edirəm. Tələb edirəm, ona görə ki, hər bir nazirliyin, hər bir komitənin, şirkətin, rayon təşkilatının buna imkanları var və bu imkanlardan istifadə etmək lazımdır.

Bu gün burada çıxış edənlər iki ilə yaxındır ki, Azərbaycanın sülh şəraitində yaşadığını qeyd etdilər. Bəli, doğrudan da bu, böyük nailiyyətdir. May ayının 12-də atəşkəs rejiminin iki ili tamam olacaqdır. Ancaq gəlin, açıq danışaq. Bu iki ildə sülh şəraitindən biz istehsalın, o cümlədən kənd təsərrüfatında istehsalın qaldırılması üçün necə istifadə etdik? Hansı səmə[59-60]rəyə nail olduq. Heç bir səmərə yoxdur. Bunu etiraf etmək lazımdır.

Yaz tarla işləri çox gərgin aparılmalıdır və qarşıya qoyulan bütün vəzifələr vaxtında yerinə yetirilməlidir. Siz indi bütün vasitələrdən istifadə etməlisiniz. Həm mövcud istehsal formalarından, həm yaradılmış fermer təsərrüfatlarından, həm islahatlar nəticəsində yaranmış şəraitdən, bir sözlə, bütün imkanlardan istifadə edib istehsalı artırmaq lazımdır. 1996-cı ildə əsas vəzifə respublikamızda taxıl istehsalını təmin etməkdir. Bizdə 700 min hektar sahə taxılçılıq üçün ayrılmışdır. Buradakı çıxışlardan belə məlum oldu ki, əgər qış müəyyən qədər qeyri-münasib keçdisə də, son vaxtlar respublikada yağan yağışlar taxıl əkinlərinin vəziyyətini yaxşılaşdırıbdır. Odur ki, bol taxıl məhsulu götürülməsi bundan sonra görüləcək işlərdən asılıdır. Yəni təbiət bizə kömək etdi, yaxşı yağışlar yağdı, taxıl zəmilərini bolluca münbitləşdirdi. İndi becərmə ilə məşğul olmaq, yaxşı məhsul əldə etməyə çalışmaq lazımdır. Bu, bizim ən birinci vəzifəmizdir. Çünki bu, respublika əhalisinin çörəklə təmin olunması ilə əlaqədar vəzifədir.

Mən bu gün qeyd etdim və bir daha deyirəm ki, Nazirlər Kabineti, baş nazir Fuad Quliyev, onun müavini Abbasov və başqaları, Kənd Təsərrüfatı Nazirliyi, Taxıl Məhsulları Dövlət Şirkəti yerli və başqa təşkilatlarla birlikdə 1996-cı ildə və gələn ilin birinci yarısında respublikanın taxılla təmin olunması balansını çox qısa müddətdə yaratmalıdırlar. Bu balans yaranmalı və qısa müddətdə mənə təqdim edilməlidir.

Aydındır, biz özümüz özümüzü taxıl ilə hələ ki, təmin edə bilmirik. Ancaq eyni zamanda bizim böyük imkanlarımız var. Nəzərə alınmalıdır ki, 700 min hektar taxıl zəmilərimiz var. Oradan nə qədər taxıl, nə qədər dən götürüləcək, o dənin nə qədərindən çörək istehsalı üçün istifadə olunacaqdır – bunun üçün həm balans hazırlanmalıdır, həm də taxıl məhsulu əldə etmək və bu məhsulu anbarlarımıza gətirmək üçün iqtisadi həvəsləndirmə şəraiti yaradılmalıdır.

Burada Milli Bankın İdarə Heyətinin sədri danışanda dedi ki, bunun üçün imkanlar var və onlardan istifadə etmək olar. Balans tək ondan ibarət deyildir ki, biz buradan nə qədər taxıl götürəcəyik və haradan nə qədər alacağıq. Yox, respublikanın anbarlarına maksimum miqdarda taxıl gətirilməsi üçün hansı tədbirlər görüləcəyi müəyyən edilməlidir. Bu, balansın əsas hissələrindən biri olmalıdır. Həm də bu tədbirlər qısa [60-61] müddətdə həyata keçirilməlidir. Burada Kamil Məmmədov qiymətləri elan etdi və dedi ki, artıq müqavilələr bağlayıb. Mən belə başa düşdüm ki, 200 min ton taxıl üçün müqavilələr imzalanıb. İndi baxaq görək, daha nə qədər müqavilələr bağlamaq olar, özü də bu müqavilələrin reallığını təmin etmək üçün nə etmək, hansı işləri görmək lazımdır. Mən bunu dəfələrlə demişəm və yenə də demək istəyirəm – keçmişdə heç kəs düşünmürdü ki, taxılı kim, nə cür, necə istehsal edəcəkdir. Sadəcə olaraq plan var idi, kolxoz və sovxozlar, rayon partiya komitələrinin rəhbərləri bu planı yerinə yetirməli idilər. Xatirimdədir, bizə 300 min ton taxıl istehsalı üçün ümumi tədarük planı verilirdi, sonra da İttifaqda taxıl çatışmırdı, buna görə də əlavə olaraq daha yüz min ton taxıl üçün plan verilirdi. Biz ildə 400 min ton taxıl məhsulu tədarük edib dövlətə verirdik. Amma ondan sonra biz bir milyon tondan artıq taxıl alırdıq və bunu dövlətin anbarına təhvil verirdik. Sonra isə oradan yenidən alırdıq. Daha fikirləşmirdik ki, taxıl haradan gələcək və necə gələcək. Bu, dövlət tərəfindən planlaşdırılan ümumi bir iş idi.

Ona görə də indi məsələ çox dəqiq müəyyən olunmalıdır. Həm də nə qədər dəqiq müəyyən edilsə, zənnimcə, biz öz taxıl zəmilərimizdən bir o qədər çox məhsul götürər və anbarlarımıza təhvil verərik. Bu. əsas vəzifələrdən biridir və mən bunu sizə tapşırıram, tələb edirəm qısa müddətdə bu məsələ barəsində mənə məlumat verəsiniz ki, nə etmisiniz və biz nə gözləyirik.

Pambıq istehsalı bizim çox mühüm bir sahəmizdir. Məsələn, keçən il çox az miqdarda pambıq istehsal olunduğu halda, kənd təsərrüfatı nazirinin dediyi kimi, 60 min ton pambıq mahlıcı satılıb respublikaya 91 milyon dollar gətirilibdir. Mən onu qeyd etmək istəyirəm ki, Azərbaycan keçən illərdə özü pambığı sərbəst satmağa başlayıb və heç vaxt da bu qiymətə pambıq satılmayıbdır. Bəli, heç vaxt belə olmayıbdır. Doğrudur, pambıq istehsalı bundan çox olub və pambıq bundan da çox satılıbdır. Amma respublikaya bu qədər valyuta gəlməyibdir. Bu, nəyi göstərir? Deməli, işin təşkilində müəyyən müsbət nəticələr əldə edilibdir. Bu, eyni

zamanda onu göstərir ki, pambıq bitkisi bizim üçün olduqca mənfəətlidir. Bu gün mən fasilədə İrşad Əliyevdən soruşdum və o dedi ki, həmin 91 milyon dolların hamısı onların sərəncamına gəlibdir. Elədir, ya yox? Özünüz istifadə etmisiniz. [61-62] Doğrudur, bu gün burada Elman Rüstəmov faktlar gətirdi ki, bəzi yerlərdə bu pullardan öz şəxsi məqsədləri üçün istifadə edirlər. Bunu araşdırmaq lazımdır. Şübhəsiz ki, həmin adamlar cəzalandırılmalıdır. Axı, bu pullar ümumən respublikanın gəliridir.

Ona görə də pambıq istehsalına ciddi fikir vermək gərəkdir. Pambıq məhsulundan mahlıc almaqla yanaşı, onun müəyyən hissəsi daxili tələblərimizə yönəldilmişdir və bundan mallar istehsal edilmişdir. Deməli, buradan da gəlir götürülübdür. Həm kənd təsərrüfatı sahəsi, həm də sənaye sahələrimiz. Şübhə yoxdur ki, pambıq respublikamız üçün gəlirli bitkidir, pambıqçılıq faydalı sahədir və biz işlərimizi bu istiqamətdə aparmalıyıq.

İndi çiyid səpini başlayır. Bu vaxtadək görülmüş hazırlıq işləri öz yerində, amma mən tələb edirəm ki, bugünkü müşavirədən sonra bu sahədə əlavə tədbirlər görülsün. Çalışmaq lazımdır ki, keçən illərə nisbətən bu il pambıq istehsalı artsın. Buna da imkan var. Bu imkandan istifadə etmək lazımdır. Bunun üçün də yenə Kənd Təsərrüfatı Nazirliyi Nazirlər Kabinetinin rəhbərliyi altında rayonlarla, pambıq becərənlərlə məsələləri aydınlaşdırmalıdır – yəni nə qədər pambıq alınacaq, ondan nə qədər götürüləcək, nə qədər mənfəət əldə edəcəklər. İndi keçmişdəki kimi ola bilməz, 91 milyon dollar əldə olunan keçən ilin təcrübəsindən istifadə etmək, bu təcrübəni təbliğ etmək, əhaliyə çatdırmaq lazımdır. Bunun nəticəsində isə bu il pambıq istehsalı artmalıdır.

Baxmaq lazımdır, bəlkə də əlavə sahələrə pambıq əkilməlidir. İrşad Əliyev məlumat verdi ki, guya onlar 210 min hektar sahədə pambıq əkmək istəyirlər, amma rayonlar bunu təmin etmirlər. Bunu təmin etməyən rayonlardan mən bu gün tələb edirəm ki, əlavə tədbirlər görsünlər. Nazirlər Kabinetinə, Kənd Təsərrüfatı Nazirliyinə tapşırıram ki, həmin rayonlarla 2-3 gün ərzində müzakirə aparılsın və onların imkanları müəyyən olunsun. Bu gün burada Bərdə rayonunun nümayəndəsi etiraf etdi ki, onlar istənilən qədər pambıq əkəcəklər. O biri rayonlarla əlaqədar tədbirlər görün. 210 min hektar sahədə pambıq əkilməlidir və yaxşı səpin aparılmalıdır.

Burada Saatlı rayon icra hakimiyyətinin başçısı bildirdi ki, onlar taxılı biçəndən sonra taxıl sahələrində pambıq əkərək hər hektardan 7-9 sentner pambıq götürdülər. Bu, mənim üçün yeni bir şey deyildir. Keçmiş illərdə biz bu təcrübədən [62-63] çox istifadə edirdik. Bəli, istehsalı həqiqətən artırmaq istəyən rayon rəhbərləri həmin üsuldan istifadə edir və pambıq istehsalını artırırdılar. Onlar əhalinin də, dövlətin də gəlirini artırırdılar. Bu üsuldan da istifadə etmək lazımdır. Başqa üsullar da var. Bunların hamısından istifadə olunmalı, pambıq istehsalı artmalıdır.

Burada qalan bitkilərdən də danışıldı. Məni çox narahat edən və incidən hal budur ki, biz, bir tərəfdən, üzüm bağlarını dağıtmışıq, – bu, keçmişdə olub, nəticədə üzüm bağlarının məhsuldarlığı aşağı düşüb, üstəlik bu məhsuldan alınmış məhsul indiyədək satılmayıbdır. Bu, biabırçılıqdır. Buna heç dözmək olmaz. Əgər siz nəyi isə istehsal edə bilməyibsinizsə, bu da sizin nöqsanınızdır. Amma o şey ki, istehsal olunub, siz onu indiyədək satmayıbsınızsa, bunu anlamaq mümkün deyildir.

Mən Kənd Təsərrüfatı Nazirliyini tənqid edirəm və onu günahkar hesab edirəm. Eyni zamanda Nazirlər Kabineti də günahkardır. Nə üçün bunu indiyə qədər satmayıbsınız? Niyə? Təxminən 5-10 gün bundan qabaq bu məsələ qaldırılıbdır. İndi də deyirlər ki, aksizləri götürmək, məhsulu satmaq lazımdır. Məgər bunu bir il bundan qabaq etmək olmazdımı? Bunu altı ay bundan qabaq etmək olmazdımı? Sadəcə bir şeyi bilmək lazımdır – əgər siz bu aksizi, baha qiyməti saxlayırsınızsa və məhsul bu qiymətə də alınırsa, siz bu məhsulu nə edəcəksiniz? Axı dünya bazarında belə bir qanun var və bu qanunu dərk etmək lazımdır; məhsulu istehsal edirlər və əgər məhsul qış fəslində satılmırsa, yay fəsli gələndə onun qiymətini aşağı salıb satırlar. İstehsal olunan məhsullar yaya qədər satılmırsa, onların qiymətlərini yenə aşağı salıb satırlar. O cümlədən də yay üçün istehsal edilən mallar qış gələnə qədər satılmırsa, onların da qiymətlərini aşağı salıb satırlar. Mal anbarda qalmamalıdır, qaldıqca keyfiyyətini itirir. Axı bu, məlum həqiqətdir. Amma siz üç ildir ki, məhsulu saxlamısınız. İndi də fikirləşirsiniz ki, onun qiymətini dəyişək, ya dəyişməyək. Yaxşı, dəyişməyib onu nə edəcəksiniz? Hamısını özünüz içəcəksiniz? Özünüz də içə bilmirsiniz. Əgər özünüz içsəydiniz, qoymazdınız ki, xaricdən buraya bu qədər saxta və keyfiyyətsiz araq-şərab gətirilsin.

Fuad Quliyev mənə deyir ki, 1993-1994-cü illərin məhsullarına aksizi götürək, 1995-ci ilin məhsulu hələ qalsın. Düzdür, mən bu barədə hələlik qəti bir fikir deyə bilmirəm. Çünki bunlar iqtisadçıdır, bəlkə haqq-hesab ediblər. Amma mən [63-64] buna ümumi bir baxışla deyirəm ki, yaxşı, 1995-ci ilin məhsullarına aksizi götürməsək şərabların qiyməti qalxacaq? Axı qalxmayacaq. Bir də ki, axı kim nə bilir ki, o çənlərin hansındakı məhsul 1993-cü ilin, hansı 1994-cü ilindir? Onsuz da onları bir-birinə qarışdırırlar. Bilirsiniz, mən belə qəribə danışıqlar eşidirəm. Ona görə də hesab edirəm ki, bu, iqtisadiyyat nazirinin, kənd təsərrüfatı nazirinin, Nazirlər Kabinetinin günahıdır. Düzünü deyim, buna görə siz cəzalandırılmalısınız. Belə işləmək yaramaz.

Bu məsələni tezliklə həll etmək lazımdır. Əldə olan məhsullar satılmalıdır. Bunu daxili bazarda da satmaq olar. Respublikamıza nə üçün bu qədər spirtli içkilər gəlir? Nə üçün? Rəsizadə mənə məlumat verir ki, Türkmənistandan buraya bərə ilə demək olar ki, hər gün bir vaqon araq gətirilir. Gör nə günə qalmışıq ki, buraya Türkmənistandan araq gəlir! Deyirlər ki, spirti İrandan Ermənistana, oradan Gürcüstana keçirib araq düzəldirlər, oradan da Qazağa keçirib gətirib burada satırlar. Hələ bu, aşağı səviyyəli içkilərdir. Amma buraya

bahalı içkilər də gətirirlər, nədən ötrü, niyə? Axı iqtisadiyyatın sadə bir qanunu var: daxili bazarı qorumaq üçün hansı mallar ki, daxili bazarda da öz mallarımızın satılmasına mane olacaq, onları respublikaya buraxmamalıyıq. Yaxud onlara o qədər yüksək qiymət qoymalıyıq ki, buna görə gəlir götürək və onların qarşısını alaq. Bu, adi bir şeydir. Bunu niyə etmirsiniz, niyə başlı-başına buraxmısınız?

Burada cürbəcür saxta araqlar düzəldib satırlar. Ayrı-ayrı müəssisələrdən biri şərab, biri araq və sair hazırlayır. Bizim bu qədər şərab, araq, konyak zavodlarımız, şampan zavodu olduğu halda burada nə üçün kiçik müəssisələr araq, şərab hazırlayıb satmalıdırlar? Əgər onların düzəltdiyi məhsulları böyük müəssisələrimizdə istehsal etmək mümkün deyilsə, olsun. Bu, təbiidir. Ancaq bir halda ki, zavodlarımızda cürbəcür şərablar da, araq da, konyak da və sair buraxılır, cürbəcür müəssisələr yaratmağa ehtiyac varmı? Türkmənistandan bura araq gəlir, Gürcüstandan və sair yerlərdən araq gətirilir.

İqtisadiyyatımıza bir tərəfdən bu zərər vurur, digər tərəfdən isə istehsal etdiyimiz şərab məhsulları çənlərdə, anbarlarda qalıb kiflənir, xarab olur. Bilmirik ki, bunları nə vaxt satacağıq. Mən tələb edirəm ki, bu məsələlər barədə qısa müddətdə tədbirlər görülsün. Həm respublikamızın anbarlarında olan şərab məhsullarının satılması üçün, həm də respublika [64-65] bazarına xarici müdaxilənin, şərab, araq, digər spirtli içkilər gətirilməsinin qarşısını almaq üçün qəti tədbirlər görülsün. Mən sizə qısa bir müddət – 4-5 gün vaxt verirəm. Lazımi qərarlar qəbul edilməli, tədbirlər görülməli və bunlar haqqında mənə məlumat verilməlidir.

Burada məlumat verildi, 68 min hektar üzüm bağlarımız var. Bilirsiniz, 68 min hektar çox münbit, qüvvətli torpaq üzüm bağları altındadır. Axı bunu istifadəsiz qoymaq özümüzün özümüzə qarşı cinayət etməyimiz deməkdir. Bu qədər üzüm sahəsini istifadəsiz qoymaq olmaz, bu bağlar belə qala bilməz. Harada xəstəlik varsa onunla mübarizə aparmaq lazımdır, harada məhsuldarlıq aşağı düşübsə qaldırmaq lazımdır. Bunlar çətin məsələ deyil.

Mən burada Şamaxı icra hakimiyyəti başçısına sula verdim. O özü vaxtilə sovxoz direktoru işləyirdi. O vaxtlar işləmisiniz, görmüsünüz Şamaxı rayonunda üzümçülük sahəsində nələr əldə edilmişdir. Avtomobillə Mərəzəyə tərəf olan dağı aşanda baxırdın üzüm bağları dərya kimi idi, insanın qarşısında böyük bir mənzərə açılırdı. Həm təbiətin gözəlliyini göstərirdi, həm də yaxşı məhsul verirdi. İndi bunları dağıtmaq böyük qəhrəmanlıqdırmı, kişilikdirmi, şücaətdirmi? Bu, özümüzün özümüzə qarşı etdiyimiz düşmənçilikdir, cinayətdir. Başqa şey deyil.

Ona görə də mövcud üzüm bağlarımıza çox ciddi münasibət göstərilməlidir, onlar becərilməlidir və bu il oradan yüksək məhsul əldə edilməlidir.

Mən meyvə bağlarımız haqqında da danışmaq istəyirəm. Bilirsiniz, bizim Quba, Qusar, Xaçmaz kimi gözəl bağlar diyarımız var, yaxud götürək Şəki, Zaqatala, Balakən, Oğuz, Qəbələ rayonlarını. Xaricdən alma gətirib bizə satırlar. Yaxşı, "Qubanın ağ alması" mahnısı yüz il bundan qabaq meydana çıxmış mahnıdır. Nə təhər olurdu ki, vaxtilə Qubanın almasını aparıb Rusiyanın ən mötəbər şəhərlərinə satırdılar. İndi biz nə günə düşmüşük ki, bağlarımız istifadəsiz qalıb, buraya xaricdən alma gətirib satırlar?

O şey ki, bizdə yoxdur, onu xaricdən gətirib burada satırlar, – bu, çox yaxşı. Amma bu alma ki, bizdə var. Bizdə başqa meyvələr ki, var. Biz 70-ci illərdə palmet üsulu ilə alma bağları saldıq. Xatirinzdədir, biz buraya Yuqoslaviyadan, Moldaviyadan, Rumıniyadan, Macarıstandan, Bolqarıstandan nə qədər tinglər gətirdik. Həmin bağlardan Qubada da, Şəkidə [65-66] də, Zaqatalada da, Qusarda da var. Keçmiş ənənəvi sortlarla yanaşı, nə qədər gözəl sortlar gətirdik. İndi o bağlar niyə dağılır? İslahatlar haqqında da danışacağam, ancaq bu islahatlardan danışırıqsa, onu birinci növbədə meyvəçilikdə həyata keçirmək lazımdır.

Başqa sahələr üzərində dayanmaq istəmirəm, hesab edirəm ki, həm meyvə, həm çay, həm də tərəvəz, tütün istehsalı üçün 1996-cı ildə bizim çox yaxşı imkanlarımız var. Heyvandarlıq məhsulları istehsalı üçün yaxşı imkanlarımız var. Bu imkanlardan yaxşı istifadə etmək lazımdır. Keçid dövründə mövcud formalardan və yeni yaranan istehsal formalarından istifadə edərək biz 1996-cı ildə bütün sahələrdə kənd təsərrüfatı məhsulları istehsalını artırmalıyıq. Bu, bizim vəzifəmizdir və siz bu vəzifəni yerinə yetirməlisiniz.

Eyni zamanda, bizim bu gün buraya yığışmağımızın məqsədi kənd təsərrüfatında islahatların gedişi və onların sürətini artırmaq məsələsinin müzakirəsi ilə bağlıdır. İslahatlar çox zəif gedir. Xızı rayon icra hakimiyyətinin başçısı Muradov burada xatırlatdı, biz buraya 1994-cü ilin noyabrında yığışmışdıq. Biz o vaxt dedik ki, gəlin, islahatları tezliklə başlayaq və 1995-ci il bizim üçün islahatlar ili olsun. Məhz onda Xızı və Zaqatala rayonları eksperiment rayonları kimi meydana çıxdı. O xatırladı ki, 1995-ci ilin aprelində burada söhbətlər apardıq. Biz hansı nəticəni görürük?

Xızı rayonunda hər şey edilib, nəticələr aydındır. Mən hesab edirəm ki, onlar çox yaxşı işləyiblər. Zaqatala rayonu zəif işləyib. Hesab edirəm ki, rayon icra hakimiyyətinin başçısı ya cəsarətli hərəkət edə bilmir, yaxud da bu işi nədənsə ləng aparır. Mən bunu anlaya bilmirəm. İndi mən ondan soruşuram ki, nə vaxt olacaq? Deyir 1997-ci ilin iyulunda, ya da dekabrında bu islahatları qurtaracağıq. Axı bir halda ki, siz bunu etmisiniz, bunun bəhrələrini görmüsünüz, bir halda ki, sizin rayonda bu iş artıq başlanıb, bunu uzatmağın nə mənası var?

Mən hesab edirəm ki, bunu uzatmaq olmaz. 1996-cı ildə Zaqatala rayonu bu işi tamamilə qurtarmalıdır. Heç bir şey 1997-ci ilə keçə bilməz. Mən burada icra hakimiyyəti başçılarının danışıqlarından belə başa düşdüm ki, müxtəlif yerlərdə müəyyən işlər gedir. Ancaq çox ləng, çox zəif gedir. Biz aqrar bölmədə islahatlar haqqında iki

qanun qəbul etdik. [66-67] Mən hesab edirəm ki, o, qanunlardan istifadə edib çox işlər görmək olar. Ancaq nədənsə hamı – Kənd Təsərrüfatı Nazirliyi də, rayon başçıları da ondan tutdular ki, torpaq məcəlləsi olmadan bunu etmək mümkün olmayacaq.

İndi görürsünüz, Rusiya kimi yerdə hələ torpaq məcəlləsi yoxdur və nə vaxt olacaq – məlum deyil. Torpaq islahatı haqqında Arif Rəhimzadənin bu gün təqdim etdiyi qanun layihəsini də şübhəsiz ki, gecikdirmişik. Bunu etiraf etmək lazımdır. Ancaq mən hesab edirəm ki, lap onsuz da çox iş görmək olardı. Xızı rayon icra hakimiyyətinin başçısı burada dedi ki, mən bəziləri ilə söhbət edirəm, deyirlər sizin üçün asandır, bizim üçün çətindir. Nəyi çətindir? Bir şeyi bilmək lazımdır ki, geriyə yol yoxdur. Mən bunu qətiyyətlə deyirəm. Ona görə yox ki, bu, bizim inadımız, yaxud prinsipimizdir. Ona görə ki, biz geridə nə var idi, hamısını görmüşük.

Bilirsiniz, 1975-ci ildə Azərbaycanda olan səviyyə tarixdə heç vaxt olmayıb. 1970-ci illərdə kənd təsərrüfatında əldə olunmuş nailiyyətlərə mən bilavasitə rəhbərlik etmişəm. Mən 1980-ci illərin əvvəllərində həm burada işləyərkən, həm də sonra Moskvada işləyərkən, Sovetlər İttifaqının rəhbərlərindən biri və Siyasi Büronun üzvü kimi gördüm ki, kənd təsərrüfatı artıq bu forma ilə irəliyə gedə bilməyəcəkdir. Məsələn, mən o vaxtkı onuncu beşilliyi götürürəm. 1976-1981-ci illəri əhatə edən onuncu beşillikdə Azərbaycanda kənd təsərrüfatı istehsalı 50 faiz qalxdı. Amma bütün Sovetlər İttifaqında məhsul istehsalı cəmi 12 faiz artdı. Mən hesab edirdim ki, onlar yaxşı işləyə bilməyiblər, biz yaxşı işləyirik, bizim sürətimiz yuxarıdır. Amma Moskvaya getdim, tanış oldum. Bəli, fərq var idi. Biz yaxşı işləyirdik. Respublikaların çoxunda bizim səviyyədə işləmirdilər. Amma mən gördüm ki, ola bilər, bir beşillik də Azərbaycan belə getsin, lakin bu forma ilə daha gedə bilməyəcəkdir.

Ona görə də 1982-ci ildən 1987-ci ilədək mən Moskvada işləyərkən axtarışlarda oldum. O vaxtlar bu islahatların həyata keçirilməsinin təşəbbüskarlarından biri mən oldum. Mən bunlarla işləmişəm. Ona görə də bilirəm ki, o vaxtkı üsullarla biz kənd təsərrüfatı, bütün iqtisadiyyat sahəsində irəliyə gedə bilməyəcəyik. Bax, buna görə də mən deyirəm ki, geriyə yol yoxdur. Bizim strateji yolumuz müəyyən olunubdur, iqtisadi islahatlar yoludur. Bütün sahələrdə, o cümlədən aqrar sahədə. [67-68]

İndi Arif Rəhimzadə burada dedi ki, Rusiyanın o vilayətlərində bilmirlər – seçkilərdən sonra hakimiyyətə kim gələcək, islahatlar davam edəcək, yoxsa etməyəcək. Ola bilər, onların belə düşünməyə əsası var. Çünki Rusiyada bunun üçün müəyyən səbəblər var. Ancaq mən sizə deyirəm və bu gün respublikanın bütün vətəndaşlarına çatdırıram, keçmiş Sovetlər İttifaqına mənsub olmuş hansı respublikada, o cümlədən Rusiyada nə olub, bundan sonra nə olmasından asılı olmayaraq Azərbaycanın iqtisadiyyatı islahatlar yolu ilə, bazar münasibətləri yolu ilə getməlidir. Aqrar bölmədə, kənd təsərrüfatında bu islahatlar ilə getməlidir. Aqrar bölmədə, kənd təsərrüfatında bu islahatlar sürətlə aparılmalıdır. Bunu bilməlisiniz. Ona görə də bu yola nə qədər tez düşsəniz, addımlarımız nə qədər iri olsa, siz o qədər tez gəlib mənzilə çatacaqsınız, o qədər də tez nailiyyətlər əldə edəcəksiniz. Mən bunu sizə açıq deyirəm. Başqa yol yoxdur. Başqa yol da olmayacaq. Biz bu yolu Xızı, Zaqatala rayonlarında sınaqdan keçirdik, biz 1992-ci ildə Naxçıvanda bu işə başlamışıq, gözəl nəticələr əldə olunubdur. Başqa rayonlarda xırda-xırda nəticələr və bu məsələyə münasibətimiz var.

Ona görə də mən tələb edirəm ki, hərə öz rayonunda, öz təsərrüfatında bu barədə nə edə bilir – etsin. Ancaq bir şeyə yol vermək olmaz. Dövlətin əmlakı dağıdılmamalıdır, mənimsəməyə yol vermək olmaz, cinayətə, oğurluğa, quldurluğa, talançılığa yol vermək olmaz. Xalqımızın, millətimizin, respublikamızın əmlakının bu son illərdə dağıldığı bəsdir. Bundan sonra yol vermək olmaz. Bunların qarşısı alınmalıdır.

Elman Rüstəmovun gətirdiyi faktlar haqqında burada mən göstəriş verdim və bir də deyirəm, ciddi yoxlamalar aparılmalıdır. Kim harada qeyri-qanuni işlərlə, cinayətkarlıqla məşğuldur, pambıqdan alınan valyuta ilə xarici maşın almaq istəyir, yaxud icra hakimiyyəti başçısı üçün mebel, xarici maşın almaq istəyir – onlar ən ciddi cəza almalıdırlar. Amma bununla yanaşı, islahatların aparılması ilə cəsarətlə məşğul olmaq lazımdır. Cəsarətlə, sağlam mənəviyyat əsasında məşğul olmaq, sağlam mənəviyyat əsasında cəsarətlə hərəkət etmək lazımdır. Mən bunu sizdən tələb edirəm.

Hesab edirəm ki, islahatlar haqqında qanun qısa müddətdə qəbul olunmalıdır. Mən Mehdiyevə göstəriş verdim, hazırlanan qanun layihəsini indi çoxaltdılar və o, bütün icra hakimiyyəti başçılarına verilibdir. Mən sizdən tələb edirəm ki, qısa vaxtda, 10-15 gün ərzində bu layihəni müzakirə edin. Özü də əvvəlcə [68-69] ayrı-ayrı təsərrüfatlarda, sonra rayon miqyasında müzakirə edin. Camaatın, xüsusən torpaqda işləyən, torpağın sahibi olacaq adamların fikrini öyrənin. Öz təkliflərinizi 10-15 gün müddətində verin. Çünki may ayının birinci yarısında biz gərək bu qanunu qəbul edək. Mən sizə öz planlarımı deyirəm. Demək may ayının birinci yarısında bu qanun qəbul edilməlidir.

Bu qanunun qəbul edilməsi üçün biz geniş müzakirə aparmaq istəyirik. Görürsünüz, biz Rusiyanın vilayətlərinə nümayəndə heyəti göndərdik, gedib öyrəndilər. Bu gün burada müzakirələr apardıq. Layihəni sizə verdik. Ola bilər, mətbuatda bu barədə müzakirə açılsın. Mən aparatın işçilərinə göstəriş verirəm, mətbuatda müzakirə açsınlar ki, hansı yollar daha əlverişlidir.

Mən burada üç məsələ görürəm. Birinci iki məsələ ondan ibarətdir ki, burada ayrı-ayrı fikirlər söylənildi – torpaq hamıya verilsin, yaxud bilavasitə kolxozlarda, sovxozlarda işləyən adamlara verilsin. Bu barədə fikirlər müxtəlif oldu. Bəziləri dedi hamıya verilsin, bəziləri dedi ki, ancaq təsərrüfatda işləyənlərə verilsin. Amma

gördüm ki, çoxları, dedi ki, hamıya verilsin. Məsləhətləşin, bəlkə biz qanunumuzda iki yolu da qoya bilərik. Yəni elə də, belə də ola bilər, yerin xüsusiyyətlərindən asılı olaraq. Burada da biz torpaqda işləyən adamlara sərbəstlik verərik, özləri seçsinlər. Bu da ola bilər. Ancaq qanunda bu məsələləri daha dəqiq əks etdirmək üçün siz gərək müzakirələr aparasınız və vaxtında başa çatdırasınız.

İndi bir məsələ də var ki, bu qanunla biz torpağı torpaqda işləyənlərə, yaxud da kənddə yaşayanlara veririk. Ancaq keçmiş Sovetlər İttifaqının başqa respublikalarının (Gürcüstanla Ermənistandan başqa) heç birində torpaq paylanmayıb. Torpaq icarəyə verilibdir. Rusiyada da paylanmayıbdır, icarəyə verilibdir. Arif Rəhimzadənin verdiyi məlumatdan görünür ki, ola bilər, bu məsələ də bir az sıxılsın.

Ona görə də siz bu məsələni müzakirə edin. Bəziləri hesab edirlər ki, torpağı paylamaqla bərabər bəlkə uzunmüddətli icarə, məsələn, 50 illik, 100 illik icarə olsun. Bunu da müzakirə edin. Ola bilər, başqa fikirlər də meydana çıxsın. Bunların hamısını müzakirə edin və bizə ətraflı məlumat yazın. Biz onun əsasında müzakirə aparacağıq. Güman edirəm ki, islahat komissiyası bunların hamısını cəmləşdirməlidir, müzakirə etməlidir. Sonra bu mənim yanımda müzakirə olunar, bundan [69-70] sonra Milli Məclisin müzakirəsinə çıxarılar. Yenə də deyirəm, gərək bu işlər qanun əsasında aparılsın, hər şey elə olsun ki, sonradan dəyişdirilməsin. Eyni zamanda hər yerdə bu addımlar atılmalıdır.

Dəvəçi rayon icra hakimiyyətinin başçısı burada məsələ qaldırdı ki, onların torpaqlarının çox hissəsi əllərindən alınıb. Lənkəran rayon icra hakimiyyətinin başçısı isə dedi ki, torpaqların bir qismi ayrı-ayrı orqanların qərarı ilə kimlərəsə verilib. Bu, çox mürəkkəb məsələdir. Bu barədə mən qəti fikir demək istəmirəm. Ancaq hesab edirəm ki, bu qanun layihəsinin müzakirəsi zamanı biz bu məsələyə də öz münasibətimizi göstərməliyik və onu həll etməliyik. Ona görə mən sizdən xahiş edirəm ki, müzakirə zamanı bunlara diqqət yetirin. Məsələn, bir sıra adamlara ayrı-ayrı səbəblər üzündən torpaq sahəsi verilib. Yaxud burada çıxış edən fermer dedi ki, 50 hektar sahəsi var, o bu torpaqda işləyib, onu hazırlayıb, indi torpaqlar paylananda bu necə olacaq? Siz bunların hamısını kompleks şəkildə müzakirə edin, bizə aydınlıq gətirin ki, torpaqları paylananda bunların hamısını nəzərə alaq, bu qanun qəbul olunandan sonra məsələlərin həll edilməsi üçün əlavə sənədlər lazım olmasın.

Beləliklə, aqrar bölmədə, kənd təsərrüfatında iqtisadi islahatlar bizim strateji yolumuzdur, gələcəyimizdir. Bu yol ilə getməliyik və nə qədər tez getsək, respublikanın iqtisadiyyatının yüksəldilməsinə də bir o qədər tez nail ola bilərik, respublika əhalisinin tələbatının təmin edilməsinə nail ola bilərik. Buna bizim böyük imkanlarımız var.

Bugünkü görüşümüzü bitirərkən mən onu bildirmək istəyirəm ki, çıxışımın əvvəlində dediyim kimi, respublikamızın potensial imkanları böyükdür, təbii sərvətlərimiz də, yaxşı insanlar da, fədakar adamlar da var. Xalqımız zəhmətkeşdir. Şəxsən mən gələcəyə çox böyük nikbinliklə baxıram. Mənim çox nikbin əhval-ruhiyyəm var. Əminəm ki, iki-üç il içərisində biz kənd təsərrüfatında, iqtisadiyyatın digər sahələrində həm özəlləşdirməni, həm də bütün digər islahatları həyata keçirsək, inanın ki, bugünkü adamlar Azərbaycanın iqtisadiyyatını tanımayacaq. Böyük sıçrayış, irəliləyiş olacaqdır. Mən buna əminəm, mən bunu aydın görürəm. Qarşımızda olan üfüqü, o gələcəyi mən görürəm. Ancaq o gələcəyə nail olmaq üçün biz bu tədbirləri həyata keçirməliyik və sürətlə irəliləməliyik.

Bir daha deyirəm, yolumuz məlumdur. Hamınızı bu yolla sürətlə getməyə dəvət edirəm. Sağ olun. [70-71]

## 1994-cü İL OKTYABR, 1995-ci İL MART HADİSƏLƏRİ VƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏTƏ HƏSR OLUNMUŞ ÜMUMXALQ NÜMAYƏNDƏLƏRİ TOPLANTISINDA GİRİŞ SÖZÜ

*Respublika Sarayı*

*5-6 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz Azərbaycanın ümumxalq nümayəndələrinin respublika toplantısına yığışmışıq. Toplantının keçirilməsinin məqsədi respublikamızda gedən ictimai-siyasi prosesləri və keçmiş illərdə baş vermiş hadisələri, onların nəticələrini, bu hadisələrlə əlaqədar ölkəmizdə yaranmış çətinliklərin aradan qaldırılması üçün aparılan tədbirləri, bunların yekunlarını təhlil etməkdən və Azərbaycan Respublikasının bütün vətəndaşlarını, əhalinin bütün təbəqələrini təmsil edən belə bir toplantıda bu günümüz və gələcəyimiz üçün tədbirlərin görülməsindən ötrü birlikdə qərarlar qəbul etməkdən ibarətdir.

Azərbaycan dövlət müstəqilliyinin beşinci ilini yaşayır. Bu illər ölkəmizin, Azərbaycan xalqının həyatında həm şərəfli illərdir, həm də gərgin, mürəkkəb ictimai-siyasi proseslərlə və respublikamız, dövlət müstəqilliyimiz üçün təhlükəli bəzi hadisələrlə müşayiət olunmuş illərdir. Bunların hamısına baxmayaraq Azərbaycanda dövlət müstəqilliyi yaşayıb, möhkəmlənib və indi biz müstəqillik yolu ilə inamla irəliyə gedirik. Ancaq bu yolla getməyimizə mane olan qüvvələr, çətinliklər daim olmuşdur. Bugünkü ən böyük nailiyyətimiz də ondan ibarətdir ki, bütün bu manеələrin, çətinliklərin qarşısını ala bilmişik, tutduğumuz yol ilə getmişik və respublikamızın müstəqilliyini qoruyub saxlamışıq.

İndi respublikamızda daxili ictimai-siyasi vəziyyət sabitdir. Ancaq bu sabitliyə nəyin bahasına gəlib çatmışıq və nə qədər səy göstərilib, zəhmət çəkilib – bunu ictimaiyyətimiz də bilir, biz də bilirik. Şübhəsiz ki, bunlar nəzərdən qaçmamalı, təhlil olunmalı və bunun əsasında gələcəyimiz üçün, respublikada daha sabit, daha sərbəst vəziyyət yaratmaqdan ötrü tədbirlər görülməlidir. [71-72]

Keçən illərdə respublikamızda həyatımızı çətinləşdirən, ağırlaşdıran bir çox amillər olmuşdu. Xalqımız, respublikamız üçün ən dəhşətli, ən ağır amil 1988-ci ildən etibarən Azərbaycan Respublikasına Ermənistan tərəfindən başlanmış hərbi təcavüzdür. Bu təcavüz başlanandan Azərbaycan Respublikası, demək olar ki, yaralanıbdır. Respublikamızda vəziyyət gündən-günə, aybaay gərginləşib, bəzən çox böhranlı hallara gətirib çıxarıbdır. Bu gün böyük təəssüf hissi ilə qeyd edirik ki, hərbi təcavüzün qarşısı alınmayıb və bunun nəticəsində Azərbaycan Respublikasına, onun ərazi bütövlüyünə böyük zərbələr vurulub, ölkəmizin ərazi bütövlüyü böyük zərbəyə məruz qalıb, dövlət sərhədlərimiz pozulubdur. Böyük itkilər verilibdir, respublikamızın ərazisinin bir qismi işğal olunubdur. Bu, 1988-ci ildən bəri Ermənistan tərəfindən Azərbaycana qarşı başlanmış və ardıcıl surətdə davam etmiş hərbi təcavüzün nəticəsində olmuşdur.

Amma eyni zamanda respublikamızın belə bir ağır vəziyyətə düşməsinə o illərdən başlayaraq ölkənin daxilində gedən və çox böyük ziyan vurmuş ictimai-siyasi proseslər də səbəb olmuşdur. Şübhəsiz ki, dünyada gedən ictimai-siyasi proseslər, dəyişikliklər hər bir ölkəyə – birinə az, digərinə çox təsir edir. Azərbaycanda baş verən proseslər də dünyada gedən proseslərlə və xüsusən o vaxt Sovetlər İttifaqında gedən proseslərlə, İttifaqın dağılması və bunun nəticəsində Azərbaycanda dövlət müstəqilliyinin əldə edilməsi ilə əlaqədar olmuşdur.

Ancaq təəssüflər olsun ki, bu çətin, ağır mərhələdə, bu gərgin ictimai-siyasi proseslərdən keçid dövründə respublikamızın daxilində cürbəcür qruplar, qüvvələr cinayət yoluna düşmüşlər və Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, ölkənin daxilində də sabitlik, dövlət qanun-qaydaları pozulmuşdur.

Əgər buna tarix nöqteyi-nəzərindən yanaşsaq, bəlkə də bu, təsadüfi deyildir. Çünki Azərbaycan kimi bir ölkənin, respublikanın dağıdılmasına keçmiş zamanlarda da çox səy göstərilmişdir. 1988-ci ildən Ermənistan tərəfindən başlanmış təcavüz və bununla əlaqədar Azərbaycanın daxilində yaranmış gərgin, mürəkkəb və çox ziddiyyətli vəziyyət bir yandan xarici qüvvələrin Azərbaycanı dağıtmaq meyllərinin nəticəsi olmuşdursa, digər tərəfdən həm xaricdə, həm də daxildə xalqımıza, millətimizə düşmən olan qüvvələrin təxribatçı əməllərinin, işlərinin nəticəsi olmuşdur. [72-73]

1990-cı il Yanvar faciəsi, 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsinin baş verməsi, 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında dövlət çevrilişi cəhdləri dediyim fikirləri təsdiq edən faktlardır.

Bu gün qətiyyətlə demək olar ki, son iki ildə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün, respublikada bütün qüvvələrin, ictimai-siyasi təşkilatların, bütün Azərbaycan xalqının həmrəyliyini təmin etmək üçün görülən tədbirlər mənfi proseslərin qarşısını almışdır. Bu gün biz Azərbaycanda ictimai-siyasi vəziyyətin sabitliyini məmnuniyyət hissi ilə qeyd edirik. Ancaq bu günə hansı yollarla gəlib çatmışıq, nə işlər, nə tədbirlər görülübdür, hansı çətinliklərin, təxribatların qarşısı alınıbdır, bunlar hamısı nəyin bahasına başa gəlibdir –

bunun böyük təhlilə ehtiyacı var. Bunun üçün də daim mən belə hesab edirəm ki, Azərbaycanda bütün xalqın, vətəndaşların, bütün qüvvələrin birləşməsi, həmrəy olması çox zəruridir. Ona görə də respublikamızda ümumxalq nümayəndələri toplantısının bu tərkibdə keçirilməsi xalqın hamısını həmrəy etmək, bir istiqamətə yönəltmək məqsədi daşıyır.

1994-cü ilin oktyabrındakı dövlət çevrilişi cəhdlərinin qarşısı alınandan sonra bu hadisələri təhlil etmək və lazımi nəticələr çıxarmaq üçün həmin ilin noyabrında Azərbaycanın ümumxalq nümayəndələrinin respublika toplantısını keçirdik. Bu hadisələrə qiymət verildi və qarşıda duran vəzifələr müəyyən edildi. Hesab edirəm ki, bundan sonra çox səmərəli iş görüldü. Ancaq buna baxmayaraq, 1995-ci ilin martında yenidən respublikada dövləti devirmək, dağıtmaq cəhdləri ilə rastlaşdıq. Hesab edirəm, bu gün tam əsasla deyə bilərik ki, 1995-ci ilin mart ayında respublika böyük fəlakət, təhlükə qarşısında olmuşdur və biz ölkəmizi, xalqımızı bu fəlakətdən xilas edə bildik.

Ondan sonrakı dövr 1994-cü ilin oktyabrında da, 1995-ci ilin martında da xarici və daxili qüvvələrin birləşməsi nəticəsində Azərbaycanın dövlətçiliyinin dağıdılması üçün göstərilən cəhdlərin respublikamızın bu günü və gələcəyi üçün nə qədər təhlükəli olduğunu bir daha sübut etdi.

1995-ci ilin mart hadisələrindən bir il keçibdir. Hüquq-mühafizə, istintaq orqanları baş vermiş cinayətlərin köklərini, səbəblərini araşdırmaqla məşğul olmuşlar. Respublikada gedən ictimai-siyasi proseslər ölkədəki vəziyyəti daha da durultmuş, daha da təmizləmişdir. Məhz bunların nəticəsində respublika[73-74]mızda əldə olunmuş ictimai-siyasi sabitlik şəraitində 1995-ci ilin noyabr ayında müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edilmiş, ilk parlamenti seçilmişdir. Oktyabr və mart hadisələrindən sonra keçən illər və aparılan siyasi tədbirlər nəticəsində, dövlət tərəfindən görülmüş, hüquq-mühafizə orqanlarının apardığı işlər və gördükləri tədbirlər həmin illərdə və ondan əvvəlki illərdə respublikanın daxilində olan vəziyyəti daha da aydınlaşdırmışdır. Odur ki, bunları bir daha təhlil etmək, cəmləşdirmək, keçmiş illərdəki bütün proseslərə qiymət vermək, cinayətkar, təxribatçı hərəkətlərin Azərbaycana nə qədər böyük zərbələr vurduğunu bir daha dərk etmək üçün bu gün ümumxalq nümayəndələri toplantısının keçirilməsini mən zəruri hesab etmişəm və buna görə də buraya yığışmışıq. Bu gün qarşımızda duran əsas vəzifə keçmiş illərdə gedən ictimai-siyasi prosesləri təhlil etməkdən, onlara daha doğru-düzgün qiymət verməkdən və bütün ictimaiyyəti bu barədə məlumatlandırmaqdan, eyni zamanda belə halların kökünün kəsilməsi üçün tədbirlər görməkdən ibarətdir.

Biz bütün işlərimizi tam aşkarlıq şəraitində görürük. Azərbaycanda demokratik hüquqi, sivilizasiyalı dövlət qurulur.

Biz bütün cəmiyyətimizi demokratikləşdirmək istəyirik, ona görə də qəbul etdiyimiz Konstitusiya əsasında respublikamızda addımbaaddım bu işləri görürük və bundan sonra da görəcəyik. Bütün bu işlərimizin bir cəhəti də aşkarlıqdır. Bütün işlərimizi açıq-aydın, aşkar, xalqın, vətəndaşların qarşısında görürük.

Yenə deyirəm, ən əsas məqsədlərdən biri Azərbaycanın bütün təbəqələrinin, bütün xalqın, vətəndaşların həmrəyliyini təmin etməkdir. 1988-ci ildən indiyə qədər Azərbaycanın başına gəlmiş bəlaların əsas səbəblərindən biri respublikanı cürbəcür yollarla parçalamaq üçün həyata keçirilmiş təxribatçı hərəkətlərdir. Biz bunlara son qoymalıyıq. Onsuz da xarici qüvvələr çox cəhd göstəriblər və bu gün də cəhd göstərirlər ki, Azərbaycanı parçalasınlar. Əgər daxilimizdə də belə qüvvələrin fəaliyyətinə imkan versək, şübhəsiz ki, Azərbaycan bir dövlət kimi məhv ola bilər. Bu isə bugünkü nəsillər tərəfindən Azərbaycanın tarixi qarşısında cinayət ola bilər.

Ona görə də bu gün ümumxalq nümayəndələrinin toplantısına respublikamızın bütün təbəqələrinin, ictimai-siyasi təşkilatların, siyasi partiyaların, bütün regionların nümayəndələri dəvət olunublar. Məhz belə aşkarlıq şəraitində, hamının bir [74-75] yerə yığışması şəraitində bu məsələləri müzakirə etmək istəyirik. Güman edirəm ki, bu, həm bu günümüz, həm də gələcəyimiz üçün çox vacib amildir.

Bugünkü toplantımız Azərbaycan milli televiziyası vasitəsilə birbaşa yayılır. Bu da onu göstərir ki, respublikamızda heç bir şey heç kəsdən gizlədilmir. Məqsəd budur ki, bu salonda gedən danışıqlar eyni zamanda bütün respublikada bilinsin, dinlənilsin, beləliklə də bütün vətəndaşlar bu salondakı müzakirədə iştirak etsinlər.

Bu məsələləri müzakirə etməkdən ötrü buraya toplaşanlar və televiziya vasitəsilə bizi dinləyənlər üçün ətraflı məlumatların verilməsi lazımdır. Bundan ötrü bir neçə məruzə dinləmək nəzərdə tutulmuşdur. Ondan sonra isə toplantının iştirakçıları müzakirədə iştirak edə bilərlər.

## YEKUN SÖZÜ

İki gün davam edən ümumxalq nümayəndələri toplantısında 26 nəfər nitq söyləyib. Ancaq çıxış etmək, söz demək istəyən adamlar çoxdur. Müraciət edənlərin hamısı siyahıya alınıb. Əgər onların hamısına söz verilsə, gərək biz azı iki gün də işləyək. Şübhəsiz ki, toplantının söz demək istəyən hər bir iştirakçısının ürəyində olan sözlərin aşkara çıxması çox vacibdir. Eyni zamanda güman edirəm ki, bu iki günlük müzakirə qarşımızda qoyduğumuz vəzifənin həyata keçirilməsini təmin etmişdir. Bəlkə daha çıxışları dayandıraq və işimizi yekunlaşdıraq. Etiraz yoxdur ki? Ancaq mən toplantının çıxış etmək üçün hazırlaşan iştirakçılarından xahiş

edirəm ki, onlar öz çıxışlarım Prezident Aparatında olan şöbəyə təqdim etsinlər. Hesab edirəm ki, bizim bu iki gündə apardığımız iş tarixi əhəmiyyət kəsb etdiyinə görə onların çıxışları da bu toplantının stenoqramında öz əksini tapa bilər. Beləliklə, işimizi yekunlaşdıraq.

Dünən, bu gün bu sarayda, salonda biz Azərbaycanda son 15 ildə gedən prosesləri təhlil etdik. Onlara qiymət verildi. Ümumiyyətlə, tariximizə, keçmişimizə nəzər saldıq. Xüsusən son illərdə ölkəmizin həyatında olan mühüm məsələləri, baş vermiş faciəli hadisələri və onların aradan qaldırılması üçün görülmüş tədbirləri, bu faciəli hadisələrin acı nəticələrinin respublikamıza vurduğu zərbələri təhlil etdik, yadımıza saldıq, fikirlərimizi ümumiləşdirdik. [75-76]

Hesab edirəm ki, bu iki gün müddətində biz çox səmərəli iş görmüşük. Məqsəd son illərdə, xüsusən 1994-cü ilin oktyabrında dövlət çevrilişinə cəhd zamanı baş vermiş hadisələri, onun ağır nəticələrini təhlil etməkdən, 1995-ci ilin martında respublikamızda yenə də dövlət çevrilişinə cəhd ilə əlaqədar olan hadisələri və onun ağır nəticələrini təhlil etməkdən ibarətdir. Məqsəd – vaxt keçəndən sonra istintaq materiallarının əsasında bu ağır cinayətlərin mənasını, məzmununu və onların Azərbaycan dövlətçiliyi üçün nə qədər təhlükəli olduğunu indi bir daha aşkar etməkdən ibarətdir.

Söhbət daha geniş çərçivədə getdi. Həm uzaq, həm də yaxın keçmişdə Azərbaycan Respublikasının həyatında baş vermiş hadisələr də yada salındı. Ümumiyyətlə, respublikamızın demək olar ki, mövcud ictimai-siyasi vəziyyəti müzakirə olundu.

Məruzələr, çıxışlar və orada aşkar olunan konkret faktlar, dəlillər, sübutlar, mülahizələr, fikirlər, hesab edirəm ki, həm 1994-cü ilin oktyabr, həm də 1995-ci ilin mart hadisələri, ondan əvvəlki və ondan sonrakı dövrdə baş vermiş hadisələr haqqında respublikanın bütün ictimaiyyətinə geniş məlumat verdi. Bu hadisələri, xüsusən son dövrdə, illərdə baş vermiş hadisələri izləyən, bu proseslər haqqında mütəmadi məlumat alan bir adam kimi mənim özümdə də məruzəçilər, natiqlər tərəfindən ümumiləşdirilmiş şəkildə təqdim olunan bu materialları dinləyərkən həmin hadisələr haqqında daha geniş təsəvvür yarandı.

Güman edirəm ki, respublika ictimaiyyətinin belə bir geniş məlumat almağa ehtiyacı var idi. İctimaiyyətimiz üçün bu məlumatlar verildi və hər bir vətəndaş artıq bu hadisələrə, cinayət hərəkətlərinə, faktlarına özü-özlüyündə qiymət verə bilər.

Bu gün respublikamızda ictimai-siyasi vəziyyət sabitdir. Ancaq bir il , iki il, üç il bundan əvvəl vəziyyət tamam başqa şəkildə idi. Biz bu sabitliyə hansı yollarla gəlmişik, hansı səylər nəticəsində nail ola bilmişik? Keçmiş illərdəki vəziyyət ilə indikini müqayisə edərkən bugünkü vəziyyətin Azərbaycan xalqı, Azərbaycan Respublikası üçün nə qədər qiymətli olduğunu dünən və bu gün aparılan müzakirələrdə hər birimiz dərk edə bildik. Hesab edirəm ki, bu müzakirələrdən çox böyük nəticələr çıxarmaq lazımdır. Hər bir vətəndaş düşünməlidir və özü üçün nəticə çıxarmalıdır. Biz – Azərbaycan dövlətini idarə [76-77] edənlər – özümüz üçün nəticə çıxarmalıyıq, Azərbaycanda fəaliyyət göstərən ictimai-siyasi təşkilatlar özləri üçün nəticə çıxarmalıdırlar. Ona görə ki, keçmişdə qalmış cinayətkarlıqlar, cinayətlər bundan sonra bir daha baş verməsin, təkrar olunmasın, Azərbaycan o cinayətkarlıq mühitindən tamamilə azad, xilas olsun, biz respublikamızın, dövlətimizin, xalqımızın qarşısında duran çox böyük, vacib məsələlərin həll olunması üçün əmin-amanlıq şəraitində işləyə bilək, yaşaya bilək.

Hamı bu nəticəni çıxarmalıdır. Xüsusən, cinayətkarlığa meylli, keçmişdə dövlət çevrilişlərini özləri üçün peşə hesab etmiş, onlara havadarlıq etmiş adamlar, onlarla həmrəy olmuş və bu gün də onları müəyyən qədər, açıq olmasa da gizli dəstəkləyən adamlar nəticə çıxarmalıdırlar. Hamı nəticə çıxarmalıdır.

Respublikamızın qarşısında çox böyük və möhtəşəm vəzifələr var. Azərbaycan dövlət müstəqilliyinin beşinci ilini yaşayır. Dövlət müstəqilliyini təmin etmək üçün beş il az bir zamandır. Bu beş ildə respublikamız özbaşınalıq, qarmaqarışıqlıq, cinayətkarlıq şəraitində olubsa və dünən, bu gün burada elan olunan məlumatların bunu sübut etdiyi kimi, biz belə bir ağır şəraitdə yaşamışıqsa, indi görün bu müstəqilliyi möhkəmləndirmək üçün hələ bundan sonra nə qədər iş görülməlidir. Bir də deyirəm, bu vəzifələri yerinə yetirmək, dövlət müstəqilliyini möhkəmləndirmək üçün bu tarixi keçmişimizdən nəticə çıxarmaq lazımdır. Respublikamızı bu ağır vəziyyətə salmış belə hallara gələcəkdə yol verilməməsi üçün hər bir vətəndaş öz payını verməli, səy göstərməlidir.

Azərbaycanın çoxəsrlik tarixi var. Biz XX əsrin son illərini yaşayırıq. XX əsr bəşər tarixində çox görkəmli yer tutur. Hər bir ölkə, hər bir xalq XX əsrdə öz xalqı, ölkəsi üçün nələr əldə etdiyini, nələr itirdiyini əsrin sonuna qədər yekunlaşdırmalıdır. Biz Azərbaycanın XX əsr tarixini yazmalıyıq. XX əsrdə keçdiyimiz yolu araşdırmalıyıq, tədqiq etməliyik. Nə əldə etdiyimizi, nə itirdiyimizi müəyyən etməliyik. Bu, bizim ümumi vəzifəmizdir. Alimlərimizin, tədqiqatçılarımızın qarşısında duran vəzifədir. Biz bunu etməliyik. Ancaq bu gün əməli işimiz üçün biz ayrı-ayrı məqamları həmişə diqqət mərkəzində saxlamalıyıq, heç vaxt unutmamalıyıq.

XX əsrdə Azərbaycan xalqının həyatında çox böyük dəyişikliklər olubdur. XX əsr Azərbaycan xalqı üçün sürətli bir inkişaf dövrüdür, mərhələsidir. XX əsrin əvvəlində Azərbaycan[77-78]da milli dirçəliş, oyanış hərəkatı, milli azadlıq, demokratiya hərəkatı inkişaf etməyə başlayıbdır. 1918-ci ildə Azərbaycanda ilk demokratik respublika yaranıbdır. Qısa bir zamandan sonra o, süqut edibdir. Azərbaycan xalqı 70 il sovet,

kommunist sistemi şəraitində yaşayıbdır. Bu 70 il müddətində Azərbaycan xalqının böyük nailiyyətləri olubdur. Eyni zamanda, bu 70 ildə xalqımızın tarixinin çox faciəli, qara səhifələri də olubdur.

Bizim üçün ən ağır, ən faciəli illər 1988-ci ildən, Ermənistanın Azərbaycana təcavüzü vaxtından başlayıbdır. Ancaq bu təcavüzün təməli çox uzaq illərdə qoyulubdur. 1918-1920-ci illərdə Azərbaycan Respublikasının hüdudları müəyyən edilərkən respublikamıza qarşı ədalətsizlik olubdur. Ölkəmizin tarixi ərazilərinin bir hissəsi, çox hissəsi Azərbaycan Respublikasının hüdudlarından kənarda qalıbdır. Bu, Azərbaycana qarşı edilmiş ədalətsizlikdir. Azərbaycanın tarixi torpaqlarının bir qismi başqa dövlətlərin, xüsusən Ermənistanın ərazisində qalıbdır.

Bununla bərabər, iyirminci illərin əvvəlində məhz Azərbaycanın başına cürbəcür bəlalar gətirmək üçün respublikamızın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Məlumdur ki, Azərbaycan öz coğrafi, siyasi vəziyyətinə, öz təbii sərvətlərinə görə bir çox böyük dövlətlərin, ölkələrin daim maraq dairəsində olmuşdur və bu gün də maraq dairəsi kimi qalır. Ona görə bir çox böyük dövlətlərin, ölkələrin daim maraq dairəsində olmuşdur və bu gün də maraq dairəsi kimi qalır. Ona görə də respublikamızın bütün imkanlarından xalqımızın istifadə etməsini məhdudlaşdırmaq üçün ayrı-ayrı qüvvələr, hakim dairələr, dövlətlər Azərbaycan üçün böyük çətinliklər yaradıblar. Onlardan biri də Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasıdır.

Dağlıq Qarabağ Muxtar Vilayəti həmişə Azərbaycanı susdurmaq, Azərbaycana diktə etmək, respublikamızın sərvətlərindən, imkanlarından başqalarının istifadə etməsi mənbəyi olubdur. Ona görə də Dağlıq Qarabağ problemi o yaranandan sonrakı dövrdə vaxtaşırı baş veribdir. Ancaq həqiqət naminə demək lazımdır ki, həm 20-ci, 30-cu, 40-cı, 50-ci, həm də sonrakı illərdə – 60-70-ci illərdə əgər bu məsələ vaxtaşırı qalxıbsa, onun qarşısı da alınıbdır. Onun qarşısı bir tərəfdən Azərbaycanı idarə edən şəxslər tərəfindən alınıbdır. İkinci tərəfdən isə, ədalət naminə demək lazımdır ki, o vaxt Sovetlər İttifaqında hökm sürən qanun-qayda çərçivəsində alınıbdır. [78-79]

Təəssüflər olsun ki, 1980-ci illərin əvvəllərindən, xüsusən, 1985-1986-cı illərdən Azərbaycanı parçalamaq meylləri yenidən sürətlənibdir. Tarixən Azərbaycanı çox mərhələlərdə parçalamaq istəyiblər. Xüsusən respublikamızla qonşu olan Ermənistanın Azərbaycana torpaq iddiası daim olmuşdur. Bayaq mən dediyim kimi, əgər bəzən Azərbaycan torpaqları bu bölgü zamanı ədalətsiz olaraq respublikamızın hüdudlarından kənarda qalmışdısa da, mövcud Azərbaycanı parçalamaq mümkün olmamışdır. 80-ci illərdə ölkəmizə qarşı bu təcavüz, bu düşmən meylləri artmış və nəhayət, 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana hərbi təcavüz başlanmışdır. Onun gedişi və nəticələri məlumdur. Azərbaycana dəhşətli zərbələr vurulmuş, respublikamızın ərazi bütövlüyü pozulmuş, torpaqlarımızın bir qismi işğal olunmuş, bir milyondan çox vətəndaşımız yerindən-yurdundan didərgin düşmüşdür.

Azərbaycanın belə bir tarixi xalqımız, xüsusən respublikamızı idarə edənlər, siyasətlə məşğul olanlar üçün daim dərs olmalı idi. Dərs olmalı idi ki, Azərbaycan təhlükə altında olub və daim təhlükə altındadır. Dərs olmalı idi ki, Azərbaycan bütün daxili problemləri kənara qoyub xarici qüvvələrin respublikamıza uzatdığı əlləri kəsə bilsin, onların bu qəsbkar meyllərinin qarşısını ala bilsin və Azərbaycanın bütövlüyünü qoruyub saxlaya bilsin.

Təəssüf ki, keçmiş tarixin təhlili bunu deməyə əsas verir ki, belə olmayıbdır. 1988-ci ildən Azərbaycana Ermənistan tərəfindən hərbi təcavüz başlanıbdır. Ancaq bu təcavüz 1988-ci ildə birdən-birə başlanmayıbdır, ondan əvvəlki illərdə hazırlanıbdır. Onu duymaq, bilmək lazım idi, onun qarşısını almaq lazım idi. Ancaq təəssüf ki, Azərbaycanı idarə edən adamlar buna fikir verməyiblər, öz məsuliyyətlərini hiss etməyiblər və 1988-ci ildə belə bir kəskin şərait yaranan zaman ona cavab verməyə qabil olmayıblar.

Əgər respublikaya rəhbərlik edən şəxslər və Azərbaycan haqqında düşünən, yaşayan insanlar fikirlərini, güclərini bir yerə toplasaydılar, 1988-ci ildə bu təcavüzün qarşısını ala bilərdilər. Bu, olmayıbdır. 1988-ci ildə Ermənistanın Azərbaycana təcavüzü başlanandan respublikamızda ictimai-siyasi vəziyyət pozulubdur. Azərbaycanın idarə edilməsi tamamilə pozulubdur. Bu, artıq tarixi faktdır. Biz bu gün bunu etiraf etməliyik. Azərbaycanı parçalamaq, respublikamızın ərazisinin bir hissəsini – Dağlıq Qarabağı əlindən alıb Ermənistana vermək [79-80] üçün, Azərbaycana. kənardan, tək Ermənistandan yox, həm də o vaxt Sovetlər İttifaqının rəhbərliyindən çox xəyanətkar addımlar atılmışdır. Ancaq təəssüf ki, bunun qarşısına çıxan olmamışdır, bunun qarşısı alınmamışdır və Azərbaycan 1988-ci ildə ağır bir vəziyyətə düşmüşdür. O zaman xalq ayağa qalxmış, öz etirazını bildirmişdi. Məhz 1988-ci ildə Dağlıq Qarabağın Azərbaycanın əlindən alınması ilə əlaqədar respublikamızda olan hərəkətlərə qarşı Azərbaycanın namuslu, millə-tini sevən, torpağına sadiq adamları ayağa qalxmış, etiraz səsini qaldırmışlar. Məhz o vaxtlar Azərbaycanda xalq hərəkatı başlamışdı. Bu, müsbət bir haldır. Hesab edirəm ki, bu, Azərbaycan tarixinin dəyərli səhifələridir. Xalq məhz öz torpağını qorumaq, Azərbaycanın bütövlüyünü saxlamaq, ölkəmizə olunan təcavüzə etiraz etmək üçün ayağa qalxmışdı. Xalqın bu gücündən istifadə etmək lazım idi. Kütlələrlə Azərbaycanı idarə edənlər birləşməli, hamısı bir olmalı idilər. Azərbaycana qarşı bu təcavüzün nə qədər təhlükəli olduğunu dərk etməli, onun qarşısını almalı idilər. Ancaq təəssüf ki, belə olmamışdır.

Azərbaycanın dağılmasının, təcavüz nəticəsində məğlub olmasının əsası məhz o vaxt qoyulmuşdu. Təsəvvür edin, 1988-ci ildə və 1989-cu ildə Azərbaycanın ərazisində Dağlıq Qarabağdan, onun mərkəzi

Stepanakertdən, respublikamızın öz ərazisindən azərbaycanlıları sürgün edirlər, bu da normal hadisə kimi qəbul olunur, Azərbaycanın rəhbərləri onu dəstəkləyirlər və nəinki buna razılıq verirlər, hətta bunu özləri təşkil edirlər.

Təsəvvür etmək mümkün deyil ki, Azərbaycanın ərazisində – Dağlıq Qarabağda olan yüz minə qədər erməni əhalisi onu əhatə edən milyonlarla azərbaycanlı əhalidən güclü oldu və Dağlıq Qarabağdan azərbaycanlıları zorla çıxardı. Stepanakertdən azərbaycanlıları zorla çıxardılar və azərbaycanlılar həmin yüz min ermənin əlində aciz qaldılar. Bunu təsəvvür etmək mümkün deyil. Bunlar hamısı o səbəbdən meydana gəldi ki, bir tərəfdən, Azərbaycanı idarə edənlər öz xalqına xəyanət etdilər, ikinci tərəfdən də ayağa qalxmış xalqın milli azadlıq hərəkatından ayrı-ayrı adamlar öz şəxsi məqsədləri üçün istifadə etməyə çalışdılar. Hamısı birləşib Ermənistan təcavüzünün əleyhinə getmək əvəzinə, Azərbaycanın daxilində hakimiyyət mübarizəsi, çəkişmələr, qruplaşmalar getdi.

Bəzən mən soruşuram – necə oldu ki, Dağlıq Qarabağda ermənilər bir günün içərisində qalxdılar və Azərbaycan Respublikasına tabe olmadıqlarını elan etdilər? Bu, necə oldu? [80-81] Azərbaycan Respublikasının – həm hərbi gücü, həm də insani gücü var idi ki, onları öz yerlərində oturtsun. Deyirlər ki, guya artıq ermənilərin əlində silah var idi. Bəs azərbaycanlıların əlində silah niyə yox idi?

Ermənistan silahlanmağa başladı. 1989-cu ildə bütün Sovetlər İttifaqının mətbuat, informasiya orqanları bağırırdılar ki, Ermənistanda qeyri-qanuni silahlı dəstələr var. Hətta o vaxt Qorbaçov prezident kimi Ermənistanda olan silahlı dəstələrin dağıdılması, tərksilah olunması haqqında bir fərman da verdi. Doğrudur, bir neçə aydan sonra özü onu ləğv etdi. Bəs Ermənistan o qədər silahlanırdısa, Azərbaycanda düşünmək lazım deyildimi ki, bunlar nə üçün silahlanırlar? Bunlar kimə qarşı silahlanırlar – Rusiyayamı qarşı, qonşu Türkiyəyəmi, İranamı, Gürcüstanamı qarşı? Yox, Azərbaycana qarşı silahlanırdılar. Bəs nə üçün o illər, o aylar, o günlər həmin proseslərə lazımi qiymət verilmədi, Azərbaycan Ermənistanda olan vəziyyətə uyğun özü üçün bir şərait yaratmadı, öz torpaqlarını müdafiə etməyə qadir olmadı? Nə üçün?

Sonra Azərbaycanda da silahlar meydana gəldi. Amma o silahların çoxu daxili çəkişməyə, vuruşmağa yönəldildi. Şübhəsiz ki, Moskvanın – Sovetlər İttifaqının o vaxtkı rəhbərliyinin Azərbaycana və Ermənistana münasibətləri fərqli idi. Mən bunu keçmişdə də dəfələrlə demişəm, indi də deyirəm ki, Azərbaycana ögey, Ermənistana isə doğma münasibət var idi. Bu, tarixi həqiqətdir.

Təsadüfi deyil ki, o illərdə, məsələn, 1989-cu ildə Azərbaycanda da, Ermənistanda da insanlar mitinqlər keçirirdilər. Ancaq 1990-cı ilin yanvar ayında Azərbaycana sovet ordusunun qoşun hissələri yeridildi. Azərbaycana qarşı Ermənistanın təcavüzündən savayı, sovet ordusunun da təcavüzü baş verdi. Amma Ermənistanda gedən mitinqlər üçün Ermənistana heç bir qoşun hissəsi yeridilmədi, heç bir qırğın da olmadı.

Bu, o vaxt mərkəzin Azərbaycana və Ermənistana olan münasibətlərinin fərqini aşkar göstərir. Deməli, belə olan şəraitdə Azərbaycanın bütün qüvvələri birləşməli idi. Bütün qüvvələr birləşib Azərbaycanı mühafizə etməli idi. Ancaq, yenə də deyirəm, təəssüf ki, parçalanma, daxili mübarizələr getdi və nəhayət, böyük çətinliklər əmələ gəldi.

Mən bayaq qeyd etdim, o vaxt Ermənistanda da qanunsuz silahlı dəstələr vardı. Amma aralarında bəlkə ziddiyyətlər var [81-82] idisə, hamısı birləşdi və Azərbaycana təcavüz etməyə yönəldi. O vaxtdan indiyə qədər Ermənistanda bir dəfə də dövlət çevrilişi olmayıbdır. Bunu da demək lazımdır. Çünki onlar bütün qüvvələrini Ermənistanın qəsbkar siyasətini həyata keçirməyə yönəldiblər, baxmayaraq ki, daxildə bir-biri ilə ziddiyyətləri də var.

Amma Azərbaycanda neçə dəfə dövlət çevrilişinə cəhd göstərilib, respublikamız neçə dəfə vətəndaş müharibəsi həddində olubdur.

Bax, bu tarixi məqamları yada salaraq bildirmək istəyirəm ki, 80-ci illərdən etibarən başımıza gələn bəlalar, bir tərəfdən bədnam qonşumuz Ermənistanın Azərbaycana olan torpaq iddiası və hərbi təcavüzü ilə əlaqədardırsa, eyni zamanda, Sovet İttifaqının rəhbərliyinin Azərbaycana ögey münasibəti ilə bağlıdırsa, o biri tərəfdən daxildəki cürbəcür qrupların, dəstələrin bir-biri ilə hakimiyyət mübarizəsi aparmasının nəticəsidir.

Çıxışlarda deyildi, təkrar etməyə ehtiyac yoxdur ki, əgər Azərbaycana rəhbərlik edən Vəzirov bunu edə bilməyib, ordunun təyyarəsində respublikadan qaçırsa və qan üstündə hakimiyyətə gəlmiş Mütəllibov Azərbaycanın bütün imkanlarından istifadə edib ölkəni ağır vəziyyətdən çıxarmaq əvəzinə özü üçün gizli silahlı dəstələr yaradırsa, özünü qorumağa çalışırsa, demək Azərbaycanı, ərazimizi qorumağa yox, Ermənistanın təcavüzünün qarşısını almağa yox, sadəcə olaraq, qeyri-qanuni yolla öz hakimiyyətini qorumağa çalışırsa, şübhəsiz ki, başqa nəticə əldə etmək mümkün olmazdı. Əgər 1990-1991-ci illərdə Azərbaycanda hakimiyyət "Qardaşlıq" cəmiyyətinə rəhbərlik edən Axundov kimi savadsız, məşhur cinayətkara, yaxud uzun illər oğurluqla, cürbəcür çirkin işlərlə məşğul olmuş, nəhayət terrorçuluq aktları həyata keçirmiş Seyfəl Babayev kimi adamlara istinad edirdisə, ölkənin həyatında hansı müsbət nəticələr gözləmək olardı? Bunlar dəhşətli hallardır, amma tariximizin həqiqətidir. Bu gün mən bunu ürək ağrısı ilə deyirəm. Ancaq demək də lazımdır.

Şübhəsiz ki, bütün bunlar iqtidarı hakimiyyətdən uzaqlaşdırmalı idi. Bu, aydındır. Ancaq xalqın inamı ilə hakimiyyətə gəlmiş adamlar, Xalq Cəbhəsi – Müsavat hakimiyyəti də bir il müddətində Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirib çıxardı. 1993-cü ilin iyununda Azərbaycanda həddindən artıq gərgin vəziyyət

yaranmışdı. Bu barədə dünən də, bu gün də deyilibdir, təkrar etməyə ehtiyac yoxdur. Azərbaycanda vətən[82-83]daş müharibəsi başlandı. Kim bunu yaratdı? Bunu nə Ermənistan, ermənilər yaratdı, nə də başqaları – özümüz yaratdıq. Şübhəsiz ki, xarici kəşfiyyat orqanları güclü işlədilər. Ancaq bunu yaradanlar Azərbaycanın öz vətəndaşları oldu.

Bundan sonrakı proseslər məlumdur. O vaxt Azərbaycan parçalanmışdı. Bilirsiniz ki, cənub zonası Əlikram Hümbətovun, Gəncəbasar zonası Surət Hüseynovun əlində, başqa rayonlar ayrı-ayrı dəstələrin əlində idi. Belə bir vəziyyətdə hakimiyyətdə olan adamlar hakimiyyəti əldə saxlaya bilmədilər. Bir şeyi də qeyd etmək lazımdır. Əgər 1992-ci ildə hakimiyyətə gəlmiş Xalq Cəbhəsi həqiqətən xalqın cəbhəsi idisə, nə üçün 1993-cü ilin may-iyun aylarında xalq onu müdafiə etmədi? Deməк, onlar bir il müddətində xalqın inamını itirdilər və hesab edirəm ki, artıq Xalq Cəbhəsi adını daşımaq hüququnu da itiriblər. Çünki xalqın cəbhəsi idisə, 1993-cü ildə xalq onları müdafiə etməli idi, separatçı qüvvələrin qarşısını almalı, hakimiyyəti müdafiə etməli idi. Amma xalq onları müdafiə etmədi. Ona görə də vətəndaş müharibəsi başlandı.

Belə bir şəraitdə biz Azərbaycanda vəziyyəti sabitləşdirməyə başladıq. Bu yol ağır, çətin oldu. Bilirsiniz, dünən də, bu gün də burada çox sözlər deyildi ki, 1993-cü ildə Heydər Əliyev gəldi, bunu qiymətləndirirsiniz. Ancaq inanın, bilin o vaxt mən nə qədər ağır, məsuliyyətli, nə qədər çətin bir vəzifəni öz üzərimə götürdüm. Təsəvvür edə bilmirdim ki, mən Azərbaycana dəvət olunandan sonra, Ali Sovetin, Milli Məclisin sədri seçiləndən sonra Azərbaycan prezidenti öz vəzifəsini atıb, fərarilik edərək qaçıb dağlara gedəcəkdir. İnanın, mən səmimi deyirəm, bunu təsəvvür edə bilmirdim.

Məlumdur ki, buraya gəlməyim üçün mənimlə bir neçə gün danışıqlar aparılmışdı. Mən gəlmək istəmirdim. Ona görə yox ki, ürəyim yanmırdı. Yox, ürəyim yanırdı, çox yanırdı. Ancaq vəziyyətin nə qədər ağır, gərgin olduğunu görürdüm. Bir də hesab edirdim ki, ola bilər, bu adamlarla əməkdaşlıq edə bilməyim. Ona görə yaxşı olar ki, gəlməyim, qoy Azərbaycanı başqaları bu vəziyyətdən çıxarsın. Ancaq son həddə, vəziyyətin doğrudan da fövqəladə dərəcədə gərgin olduğunu dərk edəndən sonra buraya gəldim. Bilirsiniz ki, gələn kimi də o təklifləri qəbul etmədim. Bakıya iyunun 9-da gəldim, yalnız 15-də Ali Sovetin sədri seçildim. Təsəvvür edə bilmirdim ki, ondan sonra başıma bu işlər gələcəkdir. Sonra bunu təhlil [83-84] etdim. Demək, mənə tələ qurmaq istəyirmişlər ki, Surət Hüseynovla, Rəhim Qazıyevlə, Əlikram Hümbətovla üz-üzə qoysunlar ki, onlarla vuruşum, onlar mənimlə vuruşsunlar, mən də aradan çıxım, bəlkə sonra yenidən hakimiyyətə gələ bilsinlər. Bəlkə belə fikirləri varmış, nə bilim. Yoxsa nə üçün hərəsi bir tərəfə qaçdı? Bir hissəsi vəzifəsini dondurdu, bir hissəsi qaçdı, fərarilik etdi. Mən meydanda tək qaldım.

Belə bir ağır vəziyyətdə biz – bir qrup adam yavaş-yavaş respublikanı bu vəziyyətdən çıxarmağa başladıq. Təəssüf ki, 1993-cü ilin ikinci yarısı çox ağır və çətin dövr oldu. Vaxtınızı alıb, hamısını təhlil etmək istəmirəm. 1994-cü ilin fevral ayından Surət Hüseynov yenidən çevrilişə başladı. Bunu bilirdik, bu bizə məlum idi. 1994-cü ilin oktyabrında bu çevriliş cəhdi başlandı. O vaxt dəfələrlə mənə xəbərdarlıq edirdilər ki, Surət Hüseynov hazırlaşır, tək özü deyil, başqa qüvvələrlə də birləşib. Məlumat var idi ki, o, ayrı-ayrı siyasi partiyalarla, hətta Xalq Cəbhəsinin bəzi dəstələri, cürbəcür partiyaların nümayəndələri ilə əlaqəyə giribdir. Bunlar hamısı məlum idi. Ancaq inanırdım ki, əgər xalq mənə etimad göstərib Azərbaycana gətiribsə, xalqın köməyi ilə də bunun qarşısını ala bilərik. Beləliklə də 1994-cü ildə xalqın köməyi, birləşməsi ilə dövlət çevrilişinin qarşısını aldıq.

Ondan sonra Cavadov qardaşları yenidən .çevrilişə başladılar. O da burada çox ətraflı təhlil olundu. İstintaqın verdiyi məlumatlar onların gördükləri işləri tam aşkarlayır. Ancaq onu demək istəyirəm ki, yanvar ayında da, fevralda da mənə xəbərdarlıq edirdilər ki, çevriliş etmək istəyirlər. Hətta məni qorxudurdular, hədə gəlirdilər. Bəziləri gəlib mənə məsləhətlər verirdilər ki, bəlkə onlara yeni vəzifələr verəsiniz, sakitləşdirəsiniz, yoxsa Azərbaycanı dağıdacaq, sizi də devirəcəklər. Ancaq mən yenə də inanırdım ki, artıq Azərbaycan dövləti gücünü toplayıbdır, özünü qorumaq imkanı var və xalqla birlikdə bunun qarşısını ala bilər. Bunun da qarşısı alındı.

Təsəvvür edə bilmirdim ki, ondan sonra yenə cürbəcür cəhdlər – yenidən dövlət çevrilişi hazırlamaq, terrorçuluq aktları, təyyarəni vurmaq, körpünü partlatmaq cəhdləri olacaq. Bunu təsəvvür edə bilmirdim. Ancaq bunlar hamısı oldu, meydana çıxdı. Bunlar hamısı bir daha sübut edir ki, 1988-ci ildən Azərbaycanın başına gəlmiş bəlalar bax, bunların nəticəsidir. O illərdən ibrət dərsi götürməyənlər 1993-cü ildə [84-85] vətəndaş müharibəsinə başladılar, 1994-cü ildə, 1995-ci ildə dövlət çevrilişi etmək istədilər. O vaxtlar Azərbaycan cəmiyyətinə düşmüş həmin yoluxucu xəstəlik – xalqı, ölkəni idarə etmək üçün yox, öz şəxsi məqsədlərinə nail olmaq, şəxsi imtiyazla əldə etmək üçün hakimiyyət, vəzifə hərisliyi Azərbaycanı belə ağır vəziyyətə gətirib çıxardı.

Nə qədər itkilər verdik, nə qədər insan tələf oldu. Oktyabr, mart hadisələri ilə əlaqədar, ondan sonra körpünü partlatmaq, raket atıb təyyarəni vurmaq cəhdi ilə, başqa hadisələrlə əlaqədar nə qədər cinayətkar həbs olunubdur. Nə qədəri də qaçıb gizlənir, axtarışdadır. Şübhəsiz ki, onlar da tapılacaq, həbs ediləcək, cinayət məsuliyyətinə cəlb olunacaqlar. Onlar ədalət məhkəməsi qarşısında cavab verməlidirlər. Amma nə üçün, nədən ötrü? Həlak olanlar da, cinayət edib özlərini ağır vəziyyətə salanlar da 1988-ci ildən son vaxtlaradək Azərbaycanda çox qeyri-normal bir xəstəliyin məntiqi nəticələridir.

Ona görə də bu gün toplantını qurtararaq, artıq dərk etməliyik, hamı dərk etməlidir ki, bunlara son qoyulmalıdır. Azərbaycanda bundan sonra zorla, güc işlətməklə, silah gücünə hakimiyyət əldə etmək mümkün deyildir. Bunu hamı bilməlidir, hamı dərk etməli və belə cinayət əməllərindən çəkinməlidir. Cinayətkarlar haqqında, onlardan nə qədər silah-sursat yığıldığı barədə burada danışıldı. Onlar nəinki dövləti devirmək üçün, həm də ayrı-ayrı adamları öldürərək, soyaraq, cürbəcür cinayətkar hərəkətlər edərək cəmiyyətimizə, mənəviyyatımıza zərbələr vurublar. Bunlara son qoyulmalıdır. Hesab edirəm ki, bütün bu müzakirələrimizin nəticəsi belə olmalıdır. Güman edirəm ki, bizim istintaq orqanları öz işini davam etdirəcək, ədalət məhkəməsi cinayətkarları qanunlar əsasında mühakimə edərək öz qərarlarını çıxaracaqdır. Güman edirəm ki, başqaları da bütün bu hadisələrdən özləri üçün nəticə çıxaracaqlar və Azərbaycan bu xəstəlikdən, bu bəlalardan, daxili çəkişmələrdən, hakimiyyət, vəzifə mübarizəsindən birdəfəlik xilas olacaqdır.

Son iki il müddətində Azərbaycanın başına gəlmiş ağır bəlalardan müvəffəqiyyətlə çıxmağımızın əsas səbəbi odur ki, xalq ilə dövlətin tam həmrəyliyi əldə olunubdur. Müxalifətdə olan ayrı-ayrı partiyalar, yaxud dəstələr haqqında burada danışdılar. Onlar heç də Azərbaycan cəmiyyətinin bugünkü mənzərəsini əks etdirmirlər. 1994-cü il oktyabr dövlət çevrilişi cəhdinin qarşısının alınması məhz dövlət ilə xalqın həmrəyliyi nəticəsində olubdur. 1995-ci ilin martında dövlət çevrilişi cəhdinin qarşısının alınması da dövlət ilə xalqın həmrəyliyi [85-86] nəticəsində, Azərbaycan dövlətinin qüdrətinin möhkəmliyi, silahlı qüvvələrimizin cəsarəti nəticəsində olubdur. Bunlar hamısı Azərbaycanda müstəqil dövlətin olduğunu bir daha nümayiş etdiribdir.

Ona görə də mən bu gün müzakirələrə yekun vuraraq Azərbaycan xalqına, həmvətənlərimizə, bacı-qardaşlarımıza, Azərbaycanın dövlətçiliyini, müstəqilliyini müdafiə edənlərin hamısına, bütün Azərbaycan vətəndaşlarına bir daha öz minnətdarlığımı bildirirəm.

Bizim Milli Ordumuz qurulub, yaranıb, möhkəmlənibdir, Azərbaycan torpaqlarının keşiyində, eyni zamanda, dövlətçiliyimizin keşiyində dayanıbdır. Azərbaycanın dövlətçiliyini qoruyarkən canlarını qurban vermiş, şəhid olmuş Azərbaycan övladlarının ruhu qarşısında baş əyirəm, onların valideynlərinə, ailə üzvlərinə minnətdarlığımı bildirirəm. Əmin edirəm ki, bu qəhrəmanlıq nümunələri heç vaxt unudulmayacaq, qəlbimizdə əbədi yaşayacaq, özlərini Azərbaycanın dövlətçiliyi uğrunda şəhid edənlərin valideynləri, ailə üzvləri həmişə dövlətin qayğısı altında olacaqlar.

Azərbaycanın hüquq-mühafizə orqanları keçmişdə bir çox səhvlər buraxsalar da, 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələrindən sonra işlərində çox köklü dəyişiklik edə, öz sıralarını xeyli təmizləyə, işlərini daha mütəşəkkil qura bilmişlər. Məhz hüquq-mühafizə orqanları əməkdaşlarının fəaliyyəti nəticəsində cinayətkarların çoxu yaxalanıb, həbs olunubdur. Onların bir qismi Azərbaycan Respublikasının hüdudlarından kənarda axtarılıb tapılıb, yaxalanıbdır. Məhz hüquq-mühafizə orqanlarının fəaliyyəti nəticəsində istintaq aparılıb, dünən, bu gün bizə təqdim olunan materiallar əldə edilib və o cinayətlərin nə qədər dərin və təhlükəli olduğu meydana çıxıb. Həmin cinayətkarlar ədalət məhkəməsinə verilibdir və artıq bir çoxu azadlıqdan məhrum edilibdir. Mən hüquq-mühafizə orqanlarının son mərhələdə gördüyü işləri müsbət qiymətləndirirəm. Məhz ona görə də bu işlərdə fərqlənənlər təltif olunublar. Bu gün onlara bir daha təşəkkür edirəm.

Ancaq bu müzakirələrdən çıxaracağımız əsas nəticə ondan ibarətdir ki, tariximiz bizim üçün dərs olmalıdır və cəmiyyətimiz birləşməlidir. Şübhəsiz ki, cəmiyyətdə fikir ayrılığı, müxtəlifliyi, cürbəcür cərəyanlar təbii haldır. Bu barədə də öz sözü[86-87]mü deyəcəyəm. Ancaq Azərbaycanın dövlətçiliyi, müstəqilliyi, ölkəmizin ərazi bütövlüyü, torpaqlarımız müdafiə olunarkən bunların hamısı bir kənara qoyulmalıdır.

Bəli, kim isə başqasından fərqli düşünə, danışa bilər. Ancaq dövlətə, millətə xəyanət etmək olmaz. Dünən, bu gün gətirilən faktlar onu göstərdi ki, təəssüflər olsun ki, respublikamızda fəaliyyət göstərən bəzi siyasi partiyalar, ictimai təşkilatlar xəyanətkarlıq etmiş, cinayətkarlıqda iştirak etmiş və dövlət çevrilişi cəhdlərinin iştirakçısı olmuşlar. Həmin təşkilatlar bundan nəticə çıxarmalıdırlar.

Mən göstəriş vermişdim və demişdim ki, bu toplantıya bütün siyasi partiyaların nümayəndələri dəvət edilsinlər. Dünən axşam mənə məlumat verdilər ki, müxalifətdən olan bir çox partiyaların nümayəndələri bu dəvətdən imtina edərək buraya gəlməyiblər. Öz işləridir. Ancaq bizim məqsədimiz bütün cəmiyyəti birləşdirməkdən ibarətdir. Azərbaycanın müstəqilliyini qorumaq üçün, respublikamızı bu ağır vəziyyətdən çıxarmaq üçün bütün cəmiyyəti birləşdirmək lazımdır. Ona görə dünən kim nə cinayət edibsə, ona cavabdeh olmalıdır. Hansı səhvi edibsə, onu təhlil edib bir də belə səhv buraxmamalıdır. Ancaq əsas məqsədlərimiz, amallarımız yolunda hamı birləşməlidir. Bu gün bir çox çıxışlar da səsləndi, mən də deyirəm, bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyini qorumaq, ərazi bütövlüyünü bərpa etmək, Azərbaycan Respublikasını erməni təcavüzündən xilas etmək üçün, hüquqi demokratik dövlət qurmaq üçün hamını birliyə, həmrəyliyə, əməkdaşlığa dəvət edirəm.

Qarşımızda çox böyük vəzifələr var. Ən böyük vəzifə Azərbaycanı erməni təcavüzündən xilas etməkdir. Bilirsiniz ki, iki ilə yaxındır biz atəşkəs şəraitində yaşayırıq. Bəzi qüvvələr, yaxud partiyalar buna başqa cür qiymət verirlər. Öz işləridir. Bir həqiqət bütün xalq tərəfindən qəbul olunubdur ki, atəşkəsin əldə olunması və onun iki ilə yaxın təmin edilməsi çox böyük nailiyyətdir, Azərbaycan Respublikasının müstəqilliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək üçün çox böyük bir imkan, fürsətdir və bu iki il müddətində biz çalışmışıq ki,

ondan səmərəli istifadə edək. Biz bir çox vasitələrlə, bir çox mərhələlərdə, istiqamətlərdə danışıqlar aparırıq. Bu gün bir daha bəyan edirəm ki, biz döyüşlərin yenidən başlanmasının əleyhinəyik.

Biz yenidən qan tökülməsinin əleyhinəyik. Biz atəşkəs reji[87-88]minin qorunub saxlanmasının tərəfdarıyıq, bunun üçün öz tərəfimizdən üzərimizə düşən vəzifələri yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Amma eyni zamanda bütün bu danışıqları apararaq biz Azərbaycanın ərazi bütövlüyünü təmin etmək istəyirik. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistanın işğalçı dəstələrini çıxarmaq istəyirik və yerindən-yurdundan didərgin düşmüş azərbaycanlıları, vətəndaşlarımızı öz yerlərinə, öz el-obalarına qaytarmaq istəyirik. Bu sahədə çox işlər görülüb və hesab edirəm ki, yaxın vaxtlarda da bu işlər görüləcəkdir. Bunlar asan işlər deyildir. Buna nə qədər vaxt, nə qədər enerji, nə qədər güc sərf olunur. Buna beyin gücü deyirlər. Bilməlisiniz ki, vaxtımızın əksər hissəsini, bax, bu məsələnin həll olunması aparır. Bu da tamamilə əsaslıdır, çünki bu, bizim üçün başlıca məsələdir. Bax, bu məsələni həll etmək üçün mən hamını birliyə dəvət edirəm. Bu məsələni həll etmək üçün mən hamını həmrəyliyə dəvət edirəm. Eyni zamanda biz ordumuzu gücləndiririk, ordumuzun gücünü artırırıq və ordu quruculuğu ilə məşğuluq.

Burada deyildi və buna görə də mən təkrar etmək istəmirəm ki, Azərbaycanın ordusu, təəssüflər olsun, 1993-cü ilin noyabr ayından qurulmağa başlayıbdır. O vaxta qədər ordu olmayıbdır və əksinə, hərə ordudan istifadə edib öz məqsədlərinə nail olmağa çalışıbdır. Bu müddətdə çox iş görülübdür. Əsgərlərimiz, zabitlərimiz, ordudakı Azərbaycan övladları Azərbaycan Respublikasının ərazisinin keşiyində durublar və möhkəm duracaqlar. Mən əminəm ki, ordumuz bundan sonra da Azərbaycan torpaqlarını qorumağa qadir olacaqdır və bizim iradəmizdən asılı olmayaraq, əgər kimsə bu atəşkəsi pozarsa, ordumuz ona cavab verməyə də qadirdir.

Müstəqilliyimizi qorumaq üçün çox işlər görülməlidir. Heç kəs düşünməsin ki, Azərbaycanın müstəqilliyini qorumaq asan məsələdir. Dünyada gedən proseslərin nə qədər çətin, ağır və mürəkkəb olduğunu bilirsiniz. Keçmiş Sovet İttifaqının ərazisində gedən proseslər nə qədər ağır və çətindir. Biz Müstəqil Dövlətlər Birliyindəyik. MDB-nin bir çox fəaliyyətində iştirak edirik. Lakin Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlayıb və bundan sonra da qoruyub saxlayacaqdır. Buna tam əmin ola bilərsiniz. Ancaq müstəqilliyimizin əleyhinə hərəkət edən qüvvələr də çoxdur. Elə məhz Moskvada yerləşmiş Ayaz Mütəllibov, Rəhim Qazıyev, Surət Hüseynov və başqaları Azərbaycanın müstəqilliyini pozmağa çalışırlar, Azərbaycan [88-89] haqqında çox bəd fikirlər yaratmağa çalışırlar, özlərini rusiyapərəst elan edərək Azərbaycan ilə Rusiya arasındakı əlaqələri pozmaq niyyəti ilə cürbəcür təxribat hərəkətlərinə qoşulublar. Bilirsiniz ki, vaxtaşırı Moskva mətbuatında Azərbaycan haqqında ədalətsiz məlumatlar yayılır, guya Azərbaycan Çeçenistana silah göndərir, Azərbaycan ərazisindən təyyarələr keçir, Azərbaycan ərazisindəki aerodromlardan Çeçenistana təyyarələr göndərilir. Cürbəcür belə böhtanlar və heç bir əsası olmayan məlumatlar yayılır. Çox təəssüf ki, bu məlumatları yayan Azərbaycandan qaçmış, Azərbaycana xəyanət edən Mütəllibov, Rəhim Qazıyev, Surət Hüseynov və onların dəstələridir. Bu, dəqiq məlumdur. Bunları edən onlardır. Bu, tamamilə məlumdur ki, ayrı-ayrı qəzetlərə, televiziya və radioya belə məlumatları verən onlardır. Bəs bunları azərbaycanlı hesab etmək mümkündürmü?

Biz Rusiya ilə dostluq, əməkdaşlıq haqqında müqavilələr imzalamışıq, Rusiya ilə münasibətlərimizi inkişaf etdirməyə çalışırıq və bundan sonra da inkişaf etdirməyə çalışacağıq. Azərbaycana düşmən olan qüvvələr, nəinki başqa qüvvələr, həm də Azərbaycandan qaçmış, Azərbaycana xəyanət edən azərbaycanlılar bizim bu siyasətimizi poza bilməyəcəklər. Ancaq bəzi ləkələr vurmağa çalışırlar. Məsələn, dünən Moskva televiziyası böyük bir məlumat veribdir ki, Çeçenistanda hansı bir rayonusa bombardman ediblər və bunu edən təyyarələr guya Azərbaycandan gəlibdir, oraya aparılan silah-sursat guya Azərbaycandan gətirilibdir. Mən dünən axşam müdafiə naziri Səfər Əbiyevə, milli təhlükəsizlik naziri Namiq Abbasova göstəriş verdim ki, bunu dərhal təkzib etsinlər. Təkzib ediblər. Amma buna baxmayaraq, bizim Moskvadakı səfirimiz Rizayev bu gün fasilədə mənə məlumat verdi ki, Moskvanın bir çox qəzetlərində bu məlumatlar yayılıbdır. Mən bu gün Səfər Əbiyevə və Namiq Abbasova yenə də göstəriş verdim ki, onlar dərhal Moskva televiziyasına öz məlumatlarını versin və çalışsınlar ki, bu məlumatlar Moskva televiziyasında getsin. Mən bu fürsətdən istifadə edərək bunu deyirəm və Azərbaycanın Rusiyadakı səfiri Rizayevə tapşırmışam mənim adımdan bəyan etsin ki, Azərbaycan haqqında Rusiyanın mətbuat orqanlarında yayılan bu məlumatlar tamamilə yalandır, onların heç bir əsası yoxdur, biz bunları rədd edirik. Onların hamısı Azərbaycana düşmən olan qüvvələr tərəfindən qəsdən yayılan yalan məlumatlardır və bunlar da Rusiya-Azərbaycan əlaqə[89-90]lərini ləkələməyə, pozmağa yönəldilmiş hərəkətlərdir. Mən bunları pisləyirəm, bu məlumatları rədd edirəm və bəyan edirəm ki, Rusiya ilə Azərbaycan arasında əlaqələri heç bir qüvvə poza bilməyəcəkdir.

Gördüyünüz kimi, biz nə qədər çətinliklərlə qarşılaşırıq. Bax, bütün bu çətinliklərin qarşısını almaq üçün bizim daxili sabitliyimizi qoruyub saxlamaq lazımdır, cəmiyyətimizdə milli həmrəylik əhval-ruhiyyəsi yaratmaq lazımdır. Bu məsələləri həll etmək üçün hamı birləşməlidir, hamı bir olmalıdır.

Respublikamızın qarşısında böyük iqtisadi problemlər durur. 1994-1995-ci illərdə respublikamızda məhz bu proseslər getdiyinə görə bizdə iqtisadi islahatların həyata keçirilməsi ləngiyibdir. Ancaq bizim strateji yolumuz məlumdur. Strateji yolumuz ondan ibarətdir ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir, iqtisadi islahatlar aparır və bu barədə biz dünyanın iqtisadi mərkəzləri ilə, maliyyə mərkəzləri ilə, Ümumdünya Bankı ilə,

Beynəlxalq Valyuta Fondu ilə, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa Birliyi ilə sıx əlaqədəyik, əməkdaşlıq edirik və bundan sonra da edəcəyik.

Aprelin 2-də aqrar sektorda islahatların və xüsusən torpaq islahatının aparılması üçün ayrıca bir müşavirə keçirildi. Torpaq islahatının layihəsi geniş müzakirəyə verilib. Bu müzakirə qısa bir zamanda başa çatdırılacaq və torpaq islahatı haqqında qanun qəbul olunacaq, Azərbaycanda aqrar sektorun islahatının aparılması üçün çox geniş şərait yaradacaqdır. Biz bunu yaxın aylarda edəcəyik və bu, qarşımızda duran əsas vəzifələrdən biridir.

İqtisadi islahatları apararaq özəlləşdirmə proqrammı 1996-cı ildə sürətlə həyata keçirməliyik. Bu, qarşımızda duran vəzifədir və bu proqram məlumdur. O proqramı həyata keçirmək tədbirləri haqqında mən bir neçə fərman vermişəm və lazım olan fərmanlar da veriləcəkdir. Bu gün bir daha bəyan edirəm ki, özəlləşdirmə proqramı sürətlə, ardıcıl şəkildə həyata keçirilməlidir və 1996-cı il Azərbaycanda özəlləşdirmənin böyük sürətlə inkişaf etməsi ili olacaqdır. .

İqtisadiyyat sahəsində başqa tədbirlər də görülməlidir. İqtisadiyyatımızda böyük çətinliklər var. İqtisadiyyatımız böhran vəziyyətindən çıxmayıbdır, istehsalın səviyyəsi yenə də aşağı düşüb. Birinci rübün göstəriciləri qeyri-qənaətbəxşdir. Bunların hamısını qaydaya salmaq üçün respublikamızda ictimai-siyasi sabitlik lazımdır. Bunların hamısını həyata keçirmək üçün çox [90-91] vaxt sərf etmək lazımdır. Vaxtımızı ayrı-ayrı cinayətkar dəstələrin cinayətkar hərəkətlərinin qarşısını almağa yox, belə tədbirlərin həyata keçirilməsinə sərf etmək lazımdır. Ancaq təəssüf ki, həmin o düşmən dairələr bir tərəfdən, bizim daxili sabitliyimizi pozmağa çalışıblarsa, digər tərəfdən də qüvvələrimizi buna cəlb edərək bu işləri həyata keçirməyimizə mane olmağa səy göstəriblər. Ona görə də daxili sabitliyimizi, ictimai-siyasi sabitliyi təmin etmək bizim üçün ən əsas vəzifədir.

Mən çıxışımın əvvəlində dedim – bu, təmin olunubdur, bundan sonra da təmin olunacaqdır. Əminəm ki, 1996-cı ilin sonuna qədər həm 1994-cü ilin oktyabr hadisələrində, həm mart hadisələrində, həm də sonrakı hadisələrdə yayınmış, qaçmış gizlənmiş cinayətkarlar yaxalanacaq, tutulacaq, cinayət məsuliyyətinə cəlb olunacaqlar və məhkəmə onların haqqında öz sözünü deyəcəkdir. Güman edirəm ki, artıq bunlara son qoyulacaqdır. Güman edirəm ki, bütün cinayətkarlar, cinayətə meylli adamlar və silah gücü ilə nəyə isə nail olmaq istəyən adamlar dərk edəcəklər ki, bunlar daha mümkün deyildir. Güman edirəm ki, biz bundan sonra Azərbaycanda vətəndaşların rahat, əmin-amanlıq şəraitində yaşaması üçün lazımi tədbirlər görmək imkanı əldə edəcəyik.

Şübhəsiz ki, bu gün Azərbaycanın mənzərəsi iki il bundan əvvəlkindən xeyli fərqlənir. Adamlar öyrəniblər, bu dəyişikliklər getdikcə keçmişi unudurlar. Lakin iki il bundan əvvəlki vəziyyətlə bugünkü vəziyyəti yadınıza salıb müqayisə etsəniz, bunların nə qədər böyük dəyişikliklər olduğunu hiss edə bilərsiniz. Ancaq bu o demək deyildir ki, biz hər şeyə nail olmuşuq. Yox, yenə də deyirəm, bizim qarşımızda hələ çox böyük, ağır vəzifələr durur. Bu vəzifələri yerinə yetirmək üçün dövlət orqanlarımız daha yaxşı işləməlidir. Cinayətkarlıqla mübarizə aparan hüquq-mühafizə orqanları daha yaxşı işləməlidir. Bütün ictimaiyyət respublikamızın müstəqilliyinə, iqtisadiyyatının inkişafına zərər vuran halların hamısının aradan qaldırılması üçün birləşməlidir, öz səylərini göstərməlidir.

Dünən və bu gün burada respublikadakı vəziyyəti müzakirə edərkən çıxışlarda mənim ünvanıma bir çox xoş sözlər deyildi. Bəlkə də bunlara heç bir ehtiyac yoxdur. Ancaq mən hesab edirəm ki, bu sözlər səmimi sözlərdir. Bu sözlərə görə mən öz təşəkkürümü, minnətdarlığımı bildirirəm və istəyirəm ki, bizim münasibətlərimiz həmişə səmimi olsun. Səmimiyyət olan yerdə [91-92] yaxşı işləmək olar. Səmimiyyət olmasa yaxşı işləmək çox çətin ola bilər.

Mən dəfələrlə demişəm, bu gün də deyirəm: həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Bu, mənim bu gün də, gələcəkdə də həyatımın mənası olacaqdır. İndiyədək xalq qarşısında etdiyim xidmətlərə görə heç bir mükafat ehtiyacında olmamışam. Mənə heç bir şah-şöhrət də lazım deyildir. Burada bir təklif oldu ki, mənim anadan olan günüm bayram elan edilsin. Bilirsinizmi, belə bir söz deyildiyinə görə mən ona cavab vermək məcburiyyətindəyəm. Keçən il də bir çox təkliflər olmuşdu ki, xidmətlərinə görə Heydər Əliyevə böyük mükafatlar verilsin, adlar verilsin. İndi də belə bir təklif meydana çıxdı. Mən hesab edirəm ki, bunlar ürəkdən gələn sözlərdir. Mən hesab edirəm ki, bu, xalqın dərin hisslərindən doğan sözlər və təkliflərdir. Mən bunlara görə öz minnətdarlıq və təşəkkürümü bildirirəm. Ancaq eyni zamanda bir daha bəyan edirəm ki, mənim üçün ən yüksək mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir.

Dünən də, bu gün də çıxışlarda deyildi, mənim həyatıma terror etmək üçün nə qədər cəhdlər olubdur. Bunun sayı-hesabı itibdir. Bunlar məni heç vaxt qorxutmayıbdır, heç vaxt öz əqidəmdən çəkindirməyibdir, heç vaxt mənim fəaliyyətimə hansısa bir mənfi təsir edə bilməyibdir. Çünki mən çox böyük sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqa həsr etmişəm. Əgər məni öldürmək üçün dəfələrlə cəhd göstərən adamlar öldürə bilməyiblərsə, hətta təyyarəni belə vurub məndən savayı təxminən 80 nəfəri də öldürməyə cəhd göstərərək öz çirkin niyyətlərinə nail olmağa çalışan adamlar buna nail ola bilməyiblərsə, körpünü partladıb tək məni yox, Ukrayna prezidentini də həlak etmək üçün cəhd göstərərək buna nail ola bilməyiblərsə, güman edirəm ki, bundan sonra da heç bir şeyə nail ola bilməzlər.

Lakin bir daha deyirəm, bunlar heç vaxt məni nə qorxudub, nə də narahat edir. Çünki mən neçə dəfə demişəm, bir daha deyirəm: mən əməli-saleh adamam. Məni o böyük Allah indiyə qədər saxlayıbsa, bundan

sonra da saxlayacaqdır və inanıram ki, onun izni olmadan heç kəs mənə heç bir şey edə bilməz. Sağ olun. [92-93]

## PAKİSTAN İSLAM RESPUBLİKASINA RƏSMİ SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRƏ MÜSAHİBƏ

*9 aprel 1996-cı il*

Pakistan ilə Azərbaycan arasında çox yaxşı əlaqələr, dostluq əlaqələri var. Bu əlaqələr keçmiş tarixi ənənələrimiz üzərində qurulur. Təsadüfi deyil ki, Azərbaycan müstəqilliyi haqqında bəyanat verdikdən sonra Pakistan ölkəmizin öz müstəqilliyini tanıyan ilk dövlətlərdən biridir. Sonrakı dövrdə, xüsusən axırıncı illərdə də Pakistanla Azərbaycan arasında çox yaxşı əlaqələr yaranıbdır.

Bilirsiniz ki, mən bir neçə dəfə xarici ölkələrdə beynəlxalq təşkilatların toplantılarında olarkən Pakistanın baş naziri xanım Bənəzir Bhutto ilə görüşüb danışıqlar aparmışam. Pakistanın prezidenti Azərbaycanda rəsmi səfərdə olubdur, xarici işlər naziri də iki dəfə buraya gəlibdir. Onlar məni səfərə dəvət eləyiblər, mən də bu dəvəti qəbul etmişəm. Bu, çox mühümdür, çünki Pakistan dünyanın, Asiya qitəsinin böyük ölkəsidir. Dinimiz eynidir, ənənələrimiz bir-biri ilə çox bağlıdır. Əlaqələrimizin inkişaf etdirilməsi həm bizim üçün, həm də Pakistan üçün çox əlverişlidir. Bunları nəzərə alaraq mən dəvəti qəbul etmişəm. Ümidvaram ki, oradakı görüşlərimiz çox yaxşı keçəcəkdir.

Səfər zamanı dövlətlərarası müqavilə, ticarət, vergi, səhiyyə, turizm sahəsində sazişlər imzalanacaqdır. Eyni zamanda dünya siyasəti ilə, regional siyasətlə bağlı mövqelərimizin bir-birinə daha da yaxınlaşdırılması məsələlərini müzakirə edəcəyik. Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar Pakistan bizim haqq işimizi qəti şəkildə müdafiə edir. Yəqin ki, danışıqlar zamanı bu məsələyə də toxunulacaqdır. [93-94]

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ FƏRRUX ƏHMƏD XAN LEQARİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*İslamabad*

*9 aprel 1996-cı il*

Cənab prezident Əhməd xan Leqari!
Hörmətli xanımlar və cənablar!

Mən bu fürsətdən istifadə edib sizə və sizin simanızda bütün Pakistan xalqına müstəqil Azərbaycan Respublikasının xalqından, vətəndaşlarından səmimi salamlar çatdırıram.

Hörmətli cənab prezident! Mən sizin dəvətinizlə Pakistana rəsmi ziyarətə gəlmişəm. Mən və mənimlə bərabər bu gün Pakistan torpağına qədəm qoymuş Azərbaycan nümayəndələri sizin tərəfinizdən qızğın qonaqpərvərlik hiss edirik və görüşlərimiz çox mehriban şəraitdə keçir. Məni Pakistana dəvət etdiyinizə görə, məni müşayiət edən nümayəndə heyətini səmimiyyətlə, mehribanlıqla qəbul etdiyinizə görə və bu gün apardığımız səmərəli işə, çox əhəmiyyətli danışıqlara görə sizə səmimi qəlbdən təşəkkür edirəm.

Cənab prezident, keçən ilin oktyabrında sizin Azərbaycanda rəsmi səfərdə olmağınız, ölkələrimiz arasında aparılmış danışıqlar, imzalanmış sənədlər, respublikamızın həyatı ilə sizin yaxından tanışlığınız və keçirdiyiniz görüşlər Pakistan-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox mühüm bir mərhələ olmuşdur. Pakistan ilə Azərbaycanın əlaqələrinin çox böyük tarixi var. Xalqlarımız əsrlər boyu bir-biri ilə yaxın münasibətlərdə olmuşlar və tarixi keçmişimiz, ənənələrimizin bir-birinə bənzərliyi, dilimizin yaxınlığı və bir dinə mənsub olmağımız bizi daim bir-birimizə yaxınlaşmağa, sıx əlaqə saxlamağa dəvət etmişdir.

Cənab prezident, siz bu gün böyük Azərbaycan şairi, XII əsrdə yaşayıb-yaratmış, bütün Şərq aləmində çox məşhur olan və dünya mədəniyyətinə böyük töhfələr vermiş Nizami Gən[94-95]cəvinin vətənində olmağınızı xatırladınız. Nizami Gəncəvi kimi şəxsiyyətlər hələ 800 il bundan əvvəl Pakistan-Azərbaycan xalqlarını bir-biri ilə yaxın əlaqələr saxlamağa çağırmışlar. Bizim bugünkü əlaqələrimiz həmin bu təməl, köklər üzərində qurulmuşdur. Heç də təsadüfi deyildir ki, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini əldə edən zaman respublikamızın dövlət müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Pakistan olmuşdur.

Pakistan öz dövlət müstəqilliyini 50 il əvvəl əldə etmişdir. Müstəqillik yolu ilə getməkdə sizin böyük təcrübəniz var. Dövlət müstəqilliyinizin xeyli yaşı var. Azərbaycan Respublikası isə dövlət müstəqilliyinin beşinci ilini yaşayır. Bizim qarşımızda çox böyük çətinliklər, problemlər var və müstəqilliyimizi möhkəmləndirmək, inkişaf etdirmək yolunda qarşımıza çıxan çox böyük maneələr var. Buna görə də bizim üçün yaxın olan, dost olan dövlətlər və ölkələrlə sıx əməkdaşlıq etməyə böyük ehtiyacımız var. Bu ölkələrdən biri və çox mühümü Pakistandır. Cənab prezident, biz sizinlə keçən ilin oktyabrında Azərbaycanda bu barədə çox geniş söhbətlər aparmışıq. Bu gün İslamabadda başlanan danışıqlarda da biz bu məsələlərə geniş yer veririk.

1994-1995-ci illərdə beynəlxalq təşkilatların toplantılarında iştirak edən zaman mən Pakistanın baş naziri hörmətli xanım Bənazir Bhutto ilə görüşlərimdə bu məsələlərlə əlaqədar çox ətraflı söhbətlər aparmışam. Hörmətli xanım Bənazir Bhutto ilə bu gün keçirilən danışıqlarımız əvvəllər apardığımız danışıqların davamı olmuşdur və. mən bunlardan çox məmnun qaldığımı bildirmək istəyirəm. Ümidvaram ki, sizinlə bərabər bu gün gördüyümüz işlər, apardığımız danışıqlar, sabah aparacağımız danışıqlar və İslamabadda imzalayacağımız sənədlər Pakistan ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrin sürətlə inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradacaqdır.

Bildirmək istəyirəm ki, biz öz tərəfimizdən bu danışıqların müvəffəqiyyətlə başa çatması üçün əlimizdən gələni edəcəyik. Mən tam əminəm ki, bu danışıqlar, görüşlər gələcək işlərimiz üçün çox böyük yollar açacaqdır.

Bu gün səhərdən biz İslamabaddayıq, sizin gözəl ölkənizlə tanış oluruq. Paytaxtınız İslamabad bizə çox gözəl təsir bağışlayıb. Pakistanın iqliminin və mənzərəsinin Azərbaycana bənzərliyi, bir-birinə uyğunluğu bizim doğma olduğumuzu bir daha sübut edir. [95-96]

Pakistan dünyanın, Asiyanın böyük ölkələrindən biridir. Pakistanın qədim tarixi, gözəl ənənələri var. Müstəqillik yolunda və dünya birliyində Pakistan xalqının əldə etdiyi nailiyyətlər bizi dost bir ölkə kimi çox sevindirir. Dövlət müstəqilliyi yolunda Pakistanda əldə edilmiş nailiyyətlər, bu ölkədə baş vermiş böyük dəyişikliklər, aparılan islahatlar, demokratiyanın inkişafı, demokratik prinsiplər əsasında dövlət qurulması və cəmiyyətin formalaşması tam ümid verir deyək ki, Pakistanın gözəl gələcəyə, Pakistan xalqının xoşbəxt gələcəyə ümid bəsləməyə əsası var. Əziz dostlar, sizə bu yolda uğurlar arzulayıram və Pakistan xalqının xoşbəxt gələcəyinə tam əminəm.

Pakistan beynəlxalq təşkilatlarda da özünəməxsus yer tutaraq beynəlxalq proseslərin inkişafına öz təsirini göstərir. Azərbaycan Respublikası beynəlxalq təşkilatlarda Pakistan ilə daim əməkdaşlıq edir və biz bu əməkdaşlığı özümüz üçün çox əhəmiyyətli hesab edirik.

Qeyd etdiyim kimi, Azərbaycan Respublikası müstəqillik yolunda bir çox problemlərlə, maneələrlə rastlaşıbdır. Bildiyiniz kimi, 8 il bundan əvvəl Azərbaycan Respublikasına Ermənistan silahlı qüvvələri tərəfindən hərbi təcavüz edilmişdir. Bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuşdur. Həmin torpaqlardan bir milyondan çox Azərbaycan vətəndaşı zorla qovulmuş, didərgin düşmüşdür. Bunların əksəriyyəti çadırlarda çox ağır vəziyyətdə yaşayır. Azərbaycan xalqı öz torpaqlarının müdafiəsi, öz ərazisinin bütövlüyü, öz müstəqilliyi, suverenliyi uğrunda cəsarətlə vuruşmuş, itkilər, şəhidlər, qurbanlar vermişdir. Azərbaycanın ərazisinin bir qismi müəyyən səbəblərdən işğal olunmuşdur. Azərbaycan böyük itkilər versə də, məsələnin sülh yolu ilə həll edilməsi üçün 1994-cü ilin mayında atəşkəs haqqında razılıq əldə edilmişdir.

Bilirsiniz ki, son illər dünyanın müxtəlif qitələrində, regionlarında ölkələr, xalqlar, millətlər arasında şiddətli hərbi münaqişələr gedir. Son illər Qafqaz regionu da hərbi münaqişələr içərisindədir. Azərbaycan bütün hərbi münaqişələrin əleyhinədir. Azərbaycan silah gücü ilə, zor ilə bir dövlətin o biri dövlətin torpağını ələ keçirməsinin əleyhinədir. Azərbaycan separatizmin, terrorizmin əleyhinədir. Biz bütün münaqişələrin sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Məhz buna görə də biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsinə çalışırıq və bunun üçün konstruktiv addımlar [96-97] atırıq, çox səylər göstəririk. ATƏT-in Minsk qrupu çərçivəsində, böyük dövlətlərin – ABŞ-ın, Rusiyanın, Türkiyənin və başqa dövlətlərin vasitəçiliyi ilə sülh danışıqları aparırıq. İşğal olunmuş torpaqlarımızın sülh yolu ilə azad edilməsinə nail olmağa çalışırıq. Qafqazda və xüsusən Ermənistan ilə Azərbaycan arasında olan münaqişəyə sülh yolu ilə son qoymaq istəyirik. Bu haqq, ədalətli işimizdə bizə kömək edən bütün dövlətlərə təşəkkürümü bildirirəm. Xüsusən Pakistan dövlətinə təşəkkür edirəm.

Pakistan dövləti Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü daim pisləmişdir, Ermənistanı bir təcavüzkar kimi məhkum etmişdir. BMT-nin Təhlükəsizlik Şurasında bu məsələ müzakirə edilərkən Pakistanın nümayəndəsi Azərbaycana çox ədalətli münasibət göstərmiş və yardım etmişdir. Mən bu fürsətdən istifadə edib bütün bunlara görə Pakistan dövlətinə minnətdarlığımı bildirirəm.

Asiya qitəsində, xüsusən Asiyanın Pakistan yerləşən bölgəsində sülh və əmin-amanlıq naminə Pakistanın apardığı fəaliyyəti mən yüksək qiymətləndirirəm. O cümlədən həm Əfqanıstanda, həm də Tacikistanda bu məsələlərin sülh yolu ilə həll olunması üçün Pakistan dövlətinin göstərdiyi səylər, hesab edirəm ki, yüksək qiymətə layiqdir.

Pakistan üçün ən böyük problem olan Kəşmir məsələsinin həll olunması sahəsində Pakistanın səylərini biz dəstəkləmişik. Pakistanın haqq və ədalətli mövqeyini beynəlxalq təşkilatlarda biz daim müdafiə etmişik və bu gün də müdafiə edirik.

Mən məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Pakistan ilə Azərbaycan arasında əlaqələrin sürətlə inkişaf etdirilməsi üçün çox əlverişli şərait yaradılmışdır. Biz Azərbaycanda demokratik dəyişikliklər aparırıq, hüquqi demokratik dövlət qururuq. Demokratik prinsiplər əsasında yeni parlament seçilib, müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul edilib. Azərbaycanın iqtisadiyyatında böyük dəyişikliklər prosesi gedir. Biz keçmiş sosialist iqtisadi sistemindən bazar iqtisadiyyatına keçirik, bunun üçün iqtisadi islahatlar aparırıq. Böyük özəlləşdirmə proqramı həyata keçirilir. Bunlar hamısı Azərbaycanın dünya iqtisadiyyatına bağlanması üçün çox əlverişli şərait yaradır.

Azərbaycan çox böyük təbii sərvətlərə, iqtisadi potensiala malikdir. Biz bunların əsasında dünyanın bütün ölkələri ilə [97-98] əməkdaşlıq etmək istəyirik. Azərbaycan öz qapılarını xarici sərmayəçilərə açıb, bu sərmayənin ölkəmizə gəlməsi üçün bütün şəraitləri yaradıb. Hesab edirəm ki, biz bu sahədə Pakistan ilə daha geniş və dərin əməkdaşlıq edə bilərik.

Azərbaycanın neft yataqlarından müştərək istifadə edilməsi üçün biz dünyanın böyük neft şirkətləri ilə müqavilələr imzalamışıq. Bu işi bundan sonra da davam etdirəcəyik. Yenə də deyirəm, bütün dövlətlərlə əməkdaşlıq etmək üçün Azərbaycanın böyük imkanları vardır. Bu baxımdan Pakistanın iş adamlarını, biznesmenlərini də Azərbaycana dəvət edirəm, onları ölkəmizin neft yataqlarına sərmayə qoymağa dəvət edirəm. Əmin edirəm ki, Azərbaycanda müştərək iş görmək üçün siz yaxşı imkanlar əldə edə bilərsiniz.

Qədim Pakistan torpağına, Pakistan xalqına bir daha öz hörmət və ehtiramımı bildirirəm. Pakistan dövlətinə, hökumətinə onların qarşısında duran problemlərin həll edilməsində uğurlar arzulayıram. Pakistanın prezidenti, hörmətli dostum Əhməd xan Leqariyə, Pakistanın bütün xalqına, Pakistanın buraya toplaşmış dövlət və hökumət nümayəndələrinə öz hörmət və ehtiramımı bildirirəm. Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm, gələcək işlərinizdə uğurlar diləyirəm. Sağ olun, xoşbəxt olun. [98-99]

## AZƏRBAYCAN-PAKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA PAKİSTANIN BAŞ NAZİRİ BƏNƏZİR BHUTTO İLƏ BİRGƏ MƏTBUAT KONFRANSI

*10 aprel 1996-cı il*

**Heydər Əliyev:** Mən Pakistan İslam Respublikasının baş Naziri hörmətli xanım Bənəzir Bhuttonun Azərbaycanın qarşılaşdığı təcavüz nəticəsində yurdlarından didərgin düşmüş 1 milyondan çox qaçqının əzab-əziyyətlərinin və çətinliklərinin aradan qaldırılması məqsədi ilə bu adamlarla həmrəyliyinin ifadəsi kimi, onlara 1 milyon dollar həcmində yardım göstərmək haqqında qərarına görə təşəkkürümü bildirirəm və Ermənistanın hərbi təcavüzü nəticəsində yurd-yuvasından qaçqın düşmüş Azərbaycan vətəndaşları da bu humanistliyiniz üçün Sizə, Pakistan hökumətinə minnətdar olacaqdır.

**Sual: Cənab prezident, Siz Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar Pakistanın mövqeyi barədə nə demək istərdiniz?**

**Heydər Əliyev:** Mən məmnuniyyətlə bildirmək istəyirəm ki, Pakistan dövləti, hökuməti, bu ölkənin rəhbərləri həmin təcavüzlə əlaqədar daim Ermənistanı pisləmiş, bəyanatlar vermişlər. 1993-cü ilin aprelində Ermənistan Azərbaycanın Kəlbəcər rayonunu işğal edəndən sonra bu məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında müzakirə olunarkən Pakistanın nümayəndəsi Şuraya sədrlik edirdi və onun köməyi, Pakistanın tutduğu prinsipial mövqeyi nəticəsində həmin təcavüzlə əlaqədar böyük bir qətnamə qəbul olunmuşdur. Son illərdə bütün beynəlxalq təşkilatlarda, o cümlədən İslam Konfransı Təşkilatının Kasablankada keçirilmiş toplantısında da Pakistan Ermənistanın Azərbaycana təcavüzü barədə prinsipial mövqeyini bildirmişdir.

**Sual: Pakistan-Azərbaycan münasibətlərində** [99-100] **başlıca rol oynayan amil hansıdır – iqtisadi əlaqələr, yoxsa siyasi əlaqələr?**

**Bənəzir Bhutto:** Bizim münasibətlərimiz bunların hər ikisindən irəli gəlir. Çünki Azərbaycanı əhəmiyyətli bir ölkə sayır, ona iqtisadı, siyasi dəstək veririk. Biz EKO təşkilatının üzvləriyik, Azərbaycanla regional əməkdaşlıq edirik. Bu gün doqquz saziş imzalamışıq. Azərbaycanla əlaqələrimizə siyasi əməkdaşlıq kimi də baxırıq. Biz Azərbaycanın öz regionunda və Mərkəzi Asiya regionundakı fəaliyyətini yüksək qiymətləndiririk.

**Sual: Pakistanın verdiyi dəstəyin əvəzində Azərbaycan Pakistanın neft sənayesinin inkişafına kömək etmək fikrindədirmi?**

**Bənəzir Bhutto:** Ümumiyyətlə, biz Azərbaycanla münasibətlərimizə xüsusi münasibətlər kimi baxırıq və bunu hər hansı neft məsələsi ilə bağlamaq fikrində deyilik. Biz təcavüzün əleyhinəyik. Ermənistanın beynəlxalq prinsipləri pozaraq Azərbaycanın torpaqlarını işğal etməsini heç vaxt qəbul edə bilmərik. Harada təcavüz baş versə, bizim səsimiz eşidiləcəkdir. Bu, bizim xarici siyasətimizin bir hissəsidir.

**Sual: Zati-aliləri, Kəşmir problemi ilə bağlı Sizin mövqeyiniz necədir? Bilirsiniz ki, Hindistan ordusu Kəşmirdə qırğınlar törədibdir.**

**Heydər Əliyev:** Kəşmir problemi ilə əlaqədar Azərbaycan həmişə Pakistanın mövqeyini dəstəkləyib və bu gün də dəstəkləyir. Bu məsələ Kasablankada İslam Konfransı Təşkilatının toplantısında müzakirə olunarkən cürbəcür fikirlər vardı, ancaq Azərbaycan nümayəndə heyəti və şəxsən mən, Azərbaycanın prezidenti Pakistanın mövqeyini nəinki müdafiə etdik, hətta Kəşmir problemi ilə əlaqədar Hindistanın pislənməsi və Pakistanın dəstəklənməsi haqqında qətnamənin qəbul olunmasında müəllif kimi iştirak etdik.

**Sual: Cənab prezident, bu regionda iqtisadi əməkdaşlıqdan danışarkən Əfqanıstanda olan qeyri-sabitliyi unuda bilmərik. Regionda iqtisadi əməkdaşlığın genişlənməsi üçün sizin ölkəniz Əfqanıstanda sülhün bərqərar edilməsindən ötrü nə kimi rol oynaya, necə yardımçı ola bilər?**

**Heydər Əliyev:** Azərbaycan Əfqanıstanda sülhün bərqərar edilməsinin daim tərəfdarı olub və bu gün də həmin mövqedəyik. Mövqeyimizi həmişə bildirmişik və indi də [100-101] bəyan edirəm. Güman edirəm ki, bu məsələ ilə məşğul olan böyük dövlətlər problemin sülh yolu ilə həlli istiqamətində daha çox səy göstərə bilərlər.

**Sual: Xanım Bhutto, indi bəyan etdiniz ki, Pakistan ATƏT-in Dağlıq Qarabağda yerləşdiriləcək sülhyaratma qüvvələrinin tərkibində iştirak etmək istəyir. Pakistan bu qüvvələrin tərkibində necə iştirak edəcək və həmin qüvvələrin yaradılmasına ölkənizin köməyi nədən ibarət ola bilər? Pakistan regional əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verir. Bu baxımdan EKO təşkilatının üzv dövlətlər arasında həqiqətən işlək mexanizmə çevrilməsi üçün Pakistan hansı konkret tədbirlərin həyata keçirilməsini təklif edir?**

**Bənəzir Bhutto:** Pakistan ATƏT-in Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə dinc yolla son qoyulmasına yönəldilmiş səylərini həmişə diqqətlə izləyib və dəstəkləyibdir. Biz arzumuzu bildirmişik ki,

ATƏT necə məsləhət bilsə, sülhyaratma əməliyyatlarında o cür iştirak etməyə hazırıq. Şübhəsiz ki, bunun təfərrüatı ATƏT-dən asılıdır.

Avropa Birliyinin nümunəsi göstərir ki, regional iqtisadi əməkdaşlığın uğurlu olması vaxtdan asılıdır. Ayrı-ayrı iqtisadi layihələrin həyata keçirilməsindən ötrü vaxt gərəkdir. Bunun üçün müəyyən maddi-texniki baza hazırlanmalı, ayrı-ayrı layihələr bütün təfərrüatı ilə işlənməlidir. Bu baxımdan EKO təşkilatı çərçivəsində konkret layihələrin reallaşdırılması barədə təkliflər irəli sürmüşük. Məsələn, ümumi hava xətlərinin, gəmiçiliyin, ümumi sığorta, bank sistemlərinin yaradılması barədə fikrimizi bildirmişik və Pakistan hökuməti həmin layihələrin həyata keçirilməsi üçün vəsait də ayırıbdır.

Azərbaycanın prezidentinə bizim dərin hörmətimiz var, onun siyasi karyerasını çox diqqətlə izləyirik və Azərbaycanda demokratik dəyişikliklərin aparılması, ölkənizin bazar iqtisadiyyatına doğru addımlamasından ötrü islahatlar keçirilməsi yolunda göstərdiyi səyləri alqışlayırıq. Bu proseslər – həm demokratik cəmiyyətin qurulması, həm də azad bazar münasibətlərinin yaradılması asan iş deyildir. Bundan ötrü vaxt gərəkdir. Biz bu işdə Azərbaycan prezidentini dəstəkləyirik və əminəm ki, Azərbaycan xalqı onun müdrik rəhbərliyi altında bu dəyişikliklərin bəhrələrini görəcəkdir. [101-102]

## PAKİSTAN İSLAM RESPUBLİKASININ BAŞ NAZİRİ XANIM BƏNƏZİR BHUTTONUN ADINDAN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*10 aprel 1996-cı il*

Hörmətli xanım Bənəzir Bhutto!
Hörmətli xanımlar və cənablar!

Sizi Azərbaycan Respublikası, Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayır, sizə və sizin simanızda bütün Pakistan xalqına hörmət və ehtiramımı bildirirəm.

İkinci gündür ki, biz sizin ölkənizdə, Pakistan torpağındayıq. Burada özümüzü çox mehriban şəraitdə hiss edirik. Bizə göstərilən qayğı və diqqətə, qonaqpərvərliyə görə sizə ürəkdən təşəkkür edirəm.

Hörmətli baş nazir, hesab edirəm ki, bu gün sizinlə apardığımız danışıqlar çox səmərəli olmuşdur və bunun nəticəsində Pakistan-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün mühüm olan doqquz saziş imzalanmışdır. Keçən ilin oktyabrında Pakistan prezidenti, hörmətli Fərrux Əhməd xan Leqarinin Azərbaycana rəsmi səfəri zamanı aparılmış danışıqlar və imzalanmış sazişlər və mənim dünəndən başlayan rəsmi səfərim zamanı Pakistan prezidenti və hörmətli baş nazir Bənəzir Bhutto ilə apardığım danışıqlar, imzalanmış sazişlər, sənədlər Pakistan-Azərbaycan əlaqələri tarixində yeni bir mərhələdir. Qətiyyətlə deyə bilərik ki, Pakistan ilə Azərbaycan arasında dostluq, sıx əməkdaşlıq mövcuddur. Sizə bəyan edirəm ki, Azərbaycan bu dostluq, əməkdaşlıq əlaqələrinə sadiq olacaq və bunların inkişaf etdirilməsi üçün səy göstərəcəkdir.

Dünyanın böyük dövlətlərindən, Asiyanın ən iri dövlətlərindən olan Pakistan əlli illik müstəqillik dövründə böyük nailiyyətlər əldə edibdir. Biz bu nailiyyətləri çox yüksək qiymətləndirir və bunlara bir dost kimi sevinirik. Pakistanın apardığı iqtisadi islahatlar, ölkədə gedən demokratik proseslər xalqın rifahını yaxşılaşdırmış, dövlətin yeritdiyi sülhsevər xarici siyasət beynəlxalq aləmdə onun mövqelərini daha da möhkəmləndir[102-103]miş, nüfuzunu, hörmətini qaldırmışdır. Pakistanın əldə etdiyi nailiyyətləri və apardığı siyasəti dost ölkə kimi dəstəkləyir, xüsusən Asiya qitəsində sülh və əmin-amanlığın bərqərar olması üçün gördüyü tədbirləri, müstəqilliyin bundan sonra da qorunub saxlanması sahəsindəki mövqeyini müdafiə edirik.

Bütün beynəlxalq təşkilatlarda Pakistanla əməkdaşlıq edərək biz onun haqq işi naminə öz sözümüzü həmişə demişik və Kəşmir problemi ilə əlaqədar mövqeyi barədə bu gün də sözümüzü deyirik.

Apardığımız danışıqlar göstərir ki, Pakistan-Azərbaycan münasibətlərinin çox böyük perspektivi, gələcəyi var. İqtisadi əlaqələrin inkişaf etdirilməsində müştərək nailiyyətlər əldə edə bilərik. Müştərək işlər görülməsi üçün mən Pakistan nümayəndələrini Azərbaycana dəvət etmişəm və bu gün də dəvət edirəm. Əmin ola bilərsiniz ki, biz bu əməkdaşlığın inkişafı üçün səylərimizi əsirgəməyəcəyik.

Gələn il Pakistan dövlət müstəqilliyinin 50 illik yubileyini qeyd edəcəkdir. Azərbaycan isə dövlət müstəqilliyinin cəmi beşinci ilini yaşayır. Dövlət müstəqilliyimizi möhkəmləndirmək, suverenliyimizi qorumaq üçün ölkəmizin qarşısında çox ağır və çətin problemlər durur. Bizim ən ağır problemimiz Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və bunun nəticəsində ölkəmizə vurulmuş zərbədir. Azərbaycanın ərazisinin 20 faizi işğal olunub, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan didərgin düşüb qaçqın vəziyyətində yaşayır.

Ermənistanın Azərbaycana hərbi təcavüz etməsi, təcavüzkar olması barədə Pakistan həmişə çox ədalətli mövqe tutub, Ermənistanın təcavüzkarlığını daim pisləyibdir. Dünən, bu gün aparılan danışıqlarda da, indicə burada hörmətli baş nazirin nitqində də bu təcavüz bir daha pisləndi. Bütün bunlara görə mən Pakistan dövlətinə, hökumətinə, baş nazir, hörmətli xanım Bənəzir Bhuttoya təşəkkürümü bildirirəm.

Azərbaycanın iqtisadi vəziyyətinin çətinliyi, bir milyondan artıq qaçqının ağır vəziyyətdə yaşaması ilə əlaqədar olaraq bu gün hörmətli baş nazir, xanım Bənəzir Bhutto yerindən-yurdundan qovulub çadırlarda yaşayan vətəndaşlarımıza 1 milyon dollar məbləğində kömək göstərilməsi haqqında bəyanat verdi. Bu köməyə, bu bəyanata görə təşəkkürümü bildirirəm. Bir daha bəyan edirəm ki, Pakistan ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələri sarsılmaz olacaq, ölkəmiz bu əlaqələrə daim sadiq qalacaqdır. Qədim Pakistan ölkəsinə, [103-104] xalqına, Pakistan torpağına Azərbaycan xalqı adından və öz adımdan bir daha hörmət və ehtiramımı bildirirəm.

Əmin olduğumu bildirmək istəyirəm ki, Pakistanda gedən islahatlar və demokratik dəyişikliklər nəticəsində ölkənin güclü iqtisadi potensialı xalqınızın rifahının yaxşılaşması üçün çox böyük səmərələr verəcəkdir.

Hörmətli dostlar, mən ilk dəfədir ki, Pakistana gəlmişəm. Ancaq Pakistan, onun tarixi, 50 il müddətində müstəqillik uğrunda apardığı mübarizə haqqında çox geniş məlumatım var. Pakistan xalqının dövlət müstəqilliyi əldə edəndən sonra istiqlaliyyəti uğrunda öz ərazisində, torpağında gördüyü işlər dünyaya geniş məlumdur. Ölkənizin öz müstəqilliyi uğrunda apartdığı mübarizə dünyada, o cümlədən Azərbaycanda həmişə məşhur

olmuşdur. Həmin illərdə Pakistanın həyatında böhranlı dövrlər, böyük münaqişələr, dövlət quruculuğunda çətinliklər də olmuşdur. Lakin xalqınız müdriklik göstərərək bütün bunların öhdəsindən gəlmiş və Pakistan böyük dövlət kimi Dünya Birliyində özünə layiq yer tutmuşdur.

Pakistanın yaxın keçmişdəki tarixini xatırlayarkən, mən ölkənin həyatında, bugünkü günündə böyük rol oynamış Pakistanın indiki baş naziri, hörmətli xanım Bənəzir Bhuttonun atası mərhum Zülfüqar Bhuttonun xidmətlərini böyük ehtiram hissi ilə yad edirəm. Zülfüqar Bhuttonun qızı, hörmətli xanım Bənəzir Bhutto atasının işini davam etdirərək Pakistanın ağır dövründə öz xalqı qarşısında böyük xidmətlər göstərmişdir. Bu fürsətdən istifadə edərək Bhuttolar ailəsinə və baş nazir, xanım Bənəzir Bhuttoya hörmət və ehtiramımı bildirirəm.

Pakistan xalqına dövlət müstəqilliyi yolunda yeni qələbələr, yeni uğurlar arzulayıram. Pakistan dövlətinə, hökumətinə qarşıda duran böyük vəzifələrin yerinə yetirilməsində müvəffəqiyyətlər diləyirəm. Azərbaycan xalqının dostu, Pakistan İslam Respublikasının baş naziri hörmətli xanım Bənəzir Bhuttoya hörmət və ehtiramımı bildirirəm. Sağ olun. [104-105]

## PAKİSTAN TELEVİZİYASININ MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*11 aprel 1996-cı il*

**Müxbir: Biz Azərbaycan Respublikasının prezidenti hörmətli Heydər Əliyev cənablarını dövlət televiziyasında salamlamağı özümüzə böyük şərəf bilirik. Azərbaycan Respublikasının prezidenti zati-aliləri Heydər Əliyev, Pakistana rəsmi səfərinizi məmnuniyyətlə qarşıladıq və bunu özümüzə şərəf hesab edirik. Sovet İttifaqı dağıldıqdan sonra Mərkəzi Asiya dövlətləri müstəqillik əldə etdilər. Pakistan həmin dövlətlərlə öz tarixi, mədəni, elmi köklərini əsas götürərək bu dövlətlərin müstəqilliyini dərhal tanıdı. Məhz bu baxımdan Pakistan İqtisadi Əməkdaşlıq Təşkilatının yaradılmasında mühüm rol oynadı, Mərkəzi Asiyanın müstəqil dövlətləri ilə iqtisadi, siyasi münasibətlər yaratmağa başladı və bu münasibətləri indi daha da genişləndirir. Siz ölkəmizə səfəriniz zamanı doqquz saziş imzaladınız. Bu sazişləri necə qiymətləndirirsiniz və Pakistan-Azərbaycan münasibətləri barədə nə deyə bilərsiniz?**

**Heydər Əliyev:** Azərbaycan keçmiş Sovet İttifaqına mənsub olmuş bir respublikadır. Ölkəmiz Qafqazda yerləşir. Məhz Sovet İttifaqının dağılması ilə əlaqədar olaraq Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi. Artıq beş ildir müstəqil bir dövlət kimi yaşayırıq. Bu dövrdə Azərbaycan beynəlxalq aləmdə öz mövqelərini möhkəmləndirməyə çalışıb və dünyanın bir çox ölkələri ilə ikitərəfli və qarşılıqlı surətdə faydalı əlaqələr yaradıbdır. Bu baxımdan Azərbaycan üçün mühüm ölkələrdən biri də Pakistandır. Keçmişdə Azərbaycanın Pakistanla tarixi əlaqələri çox geniş olubdur və xalqlarımızın eyni dinə mənsub olması, keçmiş adət-ənənələrimizin bir çox cəhətdən oxşarlığı bizim indiki zamanda da geniş əlaqələr saxlamağımıza əsas verir.

Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də Pakistan olmuşdur. İndi bizim əlaqələrimiz yaxşı bir səviyyədədir. Azərbaycanda [105-106] Pakistanın səfirliyi fəaliyyət göstərir. Keçən il Pakistan prezidenti Fərrux Əhməd xan Leqari Azərbaycana rəsmi səfər etmişdir. İndi isə mən onun dəvəti ilə Pakistana rəsmi səfərə gəlmişəm. Bu səfər zamanı bizim çox əhəmiyyətli danışıqlarımız oldu. Prezident Fərrux Əhməd xan Leqari, baş nazir xanım Bənəzir Bhutto ilə və başqa şəxslərlə yaxşı danışıqlar apardıq.

Baş nazir ilə apardığımız danışıqlar nəticəsində Pakistanla Azərbaycan arasında əlaqələrin daha sürətlə inkişaf etməsi üçün doqquz çox mühüm saziş imzaladıq. Keçən il oktyabr ayında Bakıda Pakistan prezidenti ilə imzaladığımız sazişlər və dünən burada baş nazir və digər rəhbər vəzifəli şəxslərlə imzaladığımız sənədlər Pakistan-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün çox böyük yollar açır və gözəl şərait yaradır.

**Müxbir: Cənab prezident, Pakistan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın mövqeyini dəstəklədiyini bəyan edibdir. Biz istərdik ki, insan hüquqlarının kütləvi surətdə pozulduğu Kəşmirin məsələsi ilə bağlı sizin fikirlərinizi biləк.**

**Heydər Əliyev:** Mən fürsətdən istifadə edərək təşəkkürümü bildirmək istəyirəm ki, Pakistan Azərbaycana Ermənistan tərəfindən edilən hərbi təcavüzü daim pisləyibdir və dünən, srağagün apardığımız danışıqlarda da Pakistanın prezidenti, baş naziri öz bəyanatlarında Ermənistanın təcavüzkar olduğunu, Azərbaycana təcavüz etdiyini bir daha bildirdilər və bu təcavüzü pislədilər. Mən buna görə onlara çox minnətdaram.

Pakistan üçün çox mühüm olan Kəşmir problemi haqqında Azərbaycan Respublikası öz mövqeyini daim bildiribdir, yəni biz beynəlxalq təşkilatlarda, başqa lazımi səviyyələrdə Pakistanın bu barədə haqq-ədalət işini, Kəşmir problemi ilə əlaqədar olaraq onun mövqelərini daim müdafiə etmişik və bu gün də müdafiə edirik. Mən həm cənab prezidentlə görüşəndə, həm də hörmətli baş nazir ilə görüşəndə bu barədə öz bəyanatlarımı vermişəm. Kəşmirdə insan hüquqlarının pozulmasını biz qətiyyətlə pisləyirik və buna öz etirazımızı bildiririk.

**Müxbir: Cənab prezident, İqtisadi Əməkdaşlıq Təşkilatı bir müddətdir ki, fəaliyyət göstərir. Bu təşkilatın gələcəyi barədə fikirlərinizi bizimlə bölüşməyi xahiş edirik.** [106-107]

**Heydər Əliyev:** İqtisadi Əməkdaşlıq Təşkilatı çox lazımi bir təşkilatdır. Biz onun fəaliyyətini bəyənir və dəstəkləyirik. Azərbaycan bu təşkilatın üzvüdür. Mən hesab edirəm ki, bu təşkilat daha səmərəli fəaliyyət göstərə bilər. May ayında bu təşkilatın Zirvə görüşü olacaqdır. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, bu Zirvə görüşündə təşkilatın işinin sürətləndirilməsi və iqtisadi əməkdaşlığın daha da səmərələşdirilməsi üçün lazımi tədbirlər görüləcəkdir.

**Müxbir: Zati-aliləri, Azərbaycan öz müstəqilliyini yenicə elan edib, öz müstəqil dövlətini yaradıbdır. Azərbaycan zəngin potensiala malikdir. Bilmək istərdik, Azərbaycanda daxili proseslər hansı məcrada inkişaf edəcək, Azərbaycanın siyasi sisteminin təkamülü hansı yollarla gedəcəkdir? Azərbaycanda, ümumiyyətlə, cəmiyyətdə baş verəcək dəyişikliklər barədə, ölkənizin gələcək inkişafı barədə fikirlərinizi öyrənmək istərdik.**

**Heydər Əliyev:** Bəli, Azərbaycan müstəqilliyini əldə etdikdən sonra az bir müddət keçibdir. Azərbaycan həqiqətən böyük potensiala malikdir. Onun təbii sərvətləri, ümumiyyətlə, intellektual, elmi potensialı, iqtisadi potensialı böyükdür. Məqsədimiz bunlardan Azərbaycan xalqının rifahını yüksəltmək üçün istifadə etməkdir.

Azərbaycan bir müstəqil dövlət kimi demokratiya yolu ilə getmək qərarı qəbul edibdir. Azərbaycanda demokratik, sivilizasiyalı, hüquqi dövlət qurulur. Doğrudur, son illər ölkənin daxilində ictimai-siyasi vəziyyət o qədər sabit olmayıbdır. Bu, bir tərəfdən, Ermənistanın təcavüzü ilə əlaqədar olubsa, ikinci tərəfdən də daxildəki ayrı-ayrı qrupların, ayrı-ayrı dəstələrin hakimiyyət uğrunda mübarizəsi ilə bağlı olubdur. Daxildə gedən proseslər bəzi hallarda, xüsusən keçmişdə Azərbaycanda silah gücünə, zor gücünə dövlət çevrilişi etmək cəhdlərinə də gətirib çıxarıbdır. Ancaq xalqın dövlətlə həmrəyliyi sayəsində bu proseslərin qarşısı alınıbdır.

1995-ci ilin noyabr ayında müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olundu və azad, demokratik seçkilər nəticəsində Azərbaycan Respublikasının ilk parlamenti seçildi. İndi Azərbaycanın demokratiya yolu ilə getməsi üçün bir çox əsaslar yaranıbdır. Biz bazar iqtisadiyyatı yolu ilə gedirik, özəlləşdirməni həyata keçirir, iqtisadi islahatlar aparırıq. Bütün demokratik prinsiplər Azərbaycanda bərqərar olunubdur və sürətlə inkişaf edir. Güman edirəm ki, biz Ermənistanın hərbi [107-108] təcavüzündən xilas olduqdan sonra Azərbaycanın müstəqil bir dövlət kimi çox gözəl və xoşbəxt gələcəyi var.

**Müxbir: Cənab prezident, siz ölkənizdəki dəyişikliklər barədə, ölkənizin gələcəyi, tutduğu yol barədə bizə ətraflı məlumat verdiniz. Eyni zamanda Pakistanla Azərbaycan arasında ümumi oxşarlıqlar barədə və münasibətlərin gələcək inkişafı barədə fikirlərinizi bizimlə bölüşdürdünüz. Biz hesab edirik ki, sizin bu səfəriniz Pakistan ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etməsi üçün bir təkan olacaqdır. Vaxt ayırıb bizə müsahibə verdiyiniz üçün sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun.**

**Heydər Əliyev:** Sağ olun. [108-109]

## VƏTƏNƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL LAHOR HAVA LİMANINDA PAKİSTAN JURNALİSTLƏRİNƏ MÜSAHİBƏ

*11 aprel 1996-cı il*

**Sual: Cənab prezident, xahiş edirik səfər barədə təəssüratlarınızı bizimlə bölüşəsiniz.**

**Cavab:** Mən Pakistana prezident Fərrux Əhməd xan Leqarinin dəvəti ilə rəsmi səfərə gəlmişəm. Üçüncü gündür ki, Pakistan torpağındayam, bir neçə dəqiqədən sonra Vətənimə yola düşürəm. Mən bu səfərdən çox məmnunam. Pakistan prezidenti Fərrux Əhməd xan Leqari ilə, baş nazir, hörmətli xanım Bənəzir Bhutto ilə, digər dövlət və hökumət rəhbərləri ilə, Pəncab əyalətinin rəhbərləri ilə bizim çox səmərəli, işgüzar, əhəmiyyətli danışıqlarımız olmuşdur.

Dünən Pakistanın baş naziri, hörmətli xanım Bənəzir Bhutto ilə apardığımız danışıqlar nəticəsində Pakistan ilə Azərbaycan arasında bir çox əhəmiyyətli müqavilələr, sazişlər imzalandı. İmzalanmış sənədlər Pakistan-Azərbaycan münasibətlərinin, iqtisadi və bütün başqa sahələrdə əlaqələrin sürətlə inkişaf etməsi üçün çox gözəl yollar açır.

Bu danışıqlar, görüşlər, imzalanmış sənədlər, Pakistanın bugünkü həyatı ilə, İslamabad, qədim Lahor şəhərləri ilə və Lahorun qədim memarlıq və dini abidələri ilə tanışlıq mənə çox böyük təsir göstərdi. Mən bu günlər bir daha hiss etdim ki, Azərbaycan və Pakistan xalqları bir-birinə çox yaxın, dost və doğma xalqlardır. Bizim adət-ənənələrimiz, Azərbaycan dili ilə urdu dili bir-birinə çox oxşayır. Güman edirəm ki, mən danışarkən siz bəzi Azərbaycan sözlərini anlayırsınız. Tarixi abidələrimiz də bir-birinə çox oxşayır. Bizi ən çox birləşdirən həm Pakistanın, həm də Azərbaycanın İslam dininə mənsub olmasıdır.

Bu səfər zamanı mən belə gözəl təəssüratlar əldə etmişəm. [109-110] Ölkənizdə olduğumuz günlərdə biz pakistanlı qardaşlarımızın, bacılarımızın böyük qonaqpərvərliyini hiss etdik. Bu qonaqpərvərliyə və səfərimin müvəffəqiyyətlə başa çatmasına görə mən Pakistanın rəhbərlərinə – prezident, hörmətli cənab Fərrux xan Leqariyə, baş nazir, hörmətli xanım Bənəzir Bhuttoya, Pəncab əyalətinin valisinə, Pəncabın baş nazirinə, səfərdə məni daim müşayiət edən Pakistanın informasiya nazirinə və bütün başqa pakistanlılara öz minnətdarlığımı, təşəkkürümü bildirirəm. [110-111]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZIN BİNƏ HAVA LİMANINDA QARŞILANMA MƏRASİMİNDƏ BƏYANAT

*14 aprel 1996-cı il*

Hörmətli baş nazir! Hörmətli qonaqlar!

Bu gün Türkiyə Cümhuriyyətinin baş naziri hörmətli dostumuz Məsud Yılmaz mənim dəvətimlə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir. Bu səfər Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin yeni parlaq təzahürüdür. Bu, təbii bir haldır. Bizim ölkələrimiz arasında çox dərin, sıx dostluq, qardaşlıq əlaqələri var. Ona görə də bizim bir-birimizlə görüşməyimiz, bir-birimizin ölkələrinə səfərlərimiz bu əlaqələrin daha da inkişaf etdirilməsi üçün çox lazımdır.

Hörmətli baş nazir! Mən sizə təşəkkür edirəm ki, siz mənim dəvətimi qəbul edib, Azərbaycana rəsmi səfərə gəlmisiniz. Əminəm ki, burada olduğunuz zaman Azərbaycan xalqının, Azərbaycan vətəndaşlarının sizə olan hörmət və ehtiramını hiss edəcəksiniz. Özünüzü öz evinizdə hiss edəcək, Azərbaycanın qonaqpərvərliyini duyacaqsınız. Sizin buraya gəlməyiniz, danışıqlarımız, söhbətlərimiz, Azərbaycanla tanışlığınız əlaqələrimizin inkişafım daha da yüksəklərə qaldıracaqdır.

Bildiyimə görə siz birinci dəfədir ki, Azərbaycana səfər edirsiniz. Bakı – Azərbaycanın paytaxtı sizi bir əziz qonaq kimi qəbul edir və əminəm ki, siz də Bakıda olmağınızdan məmnun qalacaqsınız.

Bir daha xoş gəlmisiniz, səfa gətirmisiniz, Azərbaycanın bütün evləri, bütün ailələri sizi səmimiyyətlə qarşılayır və sizin üzünüzə açıqdır. [111-112]

## AZƏRBAYCAN–TÜRKİYƏ SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA TÜRKİYƏNİN BAŞ NAZİRİ MƏSUD YILMAZLA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident Sarayı*

*14 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, bu gün Türkiyənin baş naziri, hörmətli dostumuz Məsud Yılmaz Azərbaycana ilk rəsmi səfərə gəlibdir. Biz Azərbaycan-Türkiyə münasibətləri ilə əlaqədar danışıqlar aparmışıq. Bildirmək istəyirəm ki, danışıqlarımız dostluq, qarşılıqlı anlaşma, mehribanlıq şəraitində keçibdir. Bu danışıqlar Türkiyə ilə Azərbaycan arasında olan dostluq və qardaşlıq əlaqələrinin təzahürüdür, bu dostluğu dünyaya bir daha nümayiş etdirir.

Biz bir çox məsələləri müzakirə etmişik. Birinci növbədə Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsi və genişləndirilməsi haqqında müzakirələr apardıq. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişaf etdirilməsi üçün müştərək komissiya yaradıblar. Bu komissiyanın sədrləri Azərbaycan tərəfindən baş nazirin müavini Abid Şərifovdur, Türkiyə tərəfindən isə enerji naziri cənab Hüsni bəydir. Onlar artıq işə başlayıblar və bir çox müzakirələr də aparırlar.

Biz ümumiyyətlə, Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin bütün sahələrinə nəzər saldıq və eyni fikirdə olduq ki, bu əlaqələr inkişaf etdirilməli, genişləndirilməlidir. Mən güman edirəm ki, hörmətli baş nazirin Azərbaycana bu səfərindən sonra hər iki ölkə tərəfindən bu barədə lazımi addımlar atılacaqdır.

Türkiyə və Azərbaycan üçün çox mühüm məsələ olan Ermənistan-Azərbaycan hərbi münaqişəsi bizim danışıqlarımızın, müzakirələrimizin mərkəzində oldu. Bildirmək istəyirəm ki, bu barədə biz eyni fikirdəyik. Türkiyə Azərbaycan Respublikasının [112-113] haqq və ədalətli işini müdafiə edir. Baş nazir Məsud Yılmaz tərəfindən bu fikirlərin bir daha bəyan edilməsi bizim üçün çox əhəmiyyətli oldu.

Həm Türkiyə tərəfi, həm də Azərbaycan tərəfi eyni fikirdədir ki, sülh danışıqları Minsk qrupu çərçivəsində və ayrı-ayrı böyük dövlətlərin – ABŞ-ın, Rusiyanın, Türkiyənin vasitəçiliyi ilə davam etdirilməlidir. Bu məsələ sülh yolu ilə həll olunmalıdır.

Məsələnin sülh yolu ilə həll olunması üçün Azərbaycan Respublikasının irəli sürdüyü təkliflər məlumdur. Ermənistan silahlı qüvvələri işğal olunmuş Azərbaycan torpaqlarından çıxmalıdır, torpaqlarımız azad edilməlidir və bu torpaqlardan didərgin düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə, yurdlarına qayıtmalıdırlar. Respublikamızın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır. Belə bir şəraitdə Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilə bilər. Azərbaycan tərəfi bunu bəyan etmişdir. Bu məsələlər barədə bizim fikirlərimiz Türkiyə ilə eynidir.

Bütün bunlarla yanaşı, hörmətli baş nazir və onun başçılıq etdiyi nümayəndə heyəti ilə biz beynəlxalq məsələləri də gözdən keçirdik. Bölgəmizdə, ümumiyyətlə, dünyada olan vəziyyəti də müzakirə etdik. Bu məsələlər barədə də bizim fikirlərimiz eynidir, yaxud bir-birinə bənzərdir.

Türkiyə ilə Azərbaycan arasında dostluq əlaqələrinin ən mühüm cəhəti ondan ibarətdir ki, bir çox beynəlxalq məsələlərə də biz eyni münasibət göstəririk. Biz beynəlxalq aləmdə də əməkdaşlıq edirik və beynəlxalq məsələlərin həll olunmasında bir-birimizə yardım edir, dəstək veririk.

Güman edirəm ki, baş nazir Məsud Yılmazın respublikamıza səfəri Azərbaycan-Türkiyə münasibətlərində yeni bir mərhələ olacaqdır. Əmin olduğumu bildirmək istəyirəm ki, hər iki tərəf bu münasibətlərin daha da inkişaf etməsi üçün səylər göstərəcəkdir. Mən hörmətli baş nazir cənab Məsud Yılmaza Azərbaycana rəsmi səfər etdiyinə görə bir daha təşəkkürümü bildirirəm. Sağ olun.

**Sual: Azərbaycan və Türkiyə qardaş olmaları barədə dəfələrlə bəyanat vermişlər. Türkiyə ötən il Ermənistanla hava sərhədlərini açdı və ümid edirdi ki, Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həllində əməli addımlar atacaqdır. Ermənistan heç bir addım [113-114] atmadı. Məndə olan məlumata görə, Azərbaycanla Ermənistan arasında protokol imzalandıqdan sonra Türkiyə Ermənistanla sərhədləri açmağa hazırdır. Belə bir şəraitdə Türkiyə Ermənistanla sərhədləri açarsa, bu, qardaşlıq haqqında bəyanatlara zidd deyilmi?**

**İkinci sualım Azərbaycan prezidentindir. Əgər sərhədlər indiki şəraitdə açılarsa, bu, bizim Türkiyə ilə münasibətlərimizə necə təsir edə bilər?**

**Məsud Yılmaz:** Türkiyə Ermənistan üçün hava dəhlizi açandan sonra Ermənistanın sülh istiqamətində Türkiyənin gözlədiyi addımları atmadığı barədəki fikirlər doğrudur. Biz də bunu müəyyən etmişik. Ermənistanla bizim aramızda olan sərhəd keçid məntəqəsinin – Əlican qapısının açılması ilə əlaqədar

bəyanatımızın şərtləri məlumdur. Ermənistan Azərbaycanla apardığı ikitərəfli danışıqlarda razılığa gəlmədikcə və Azərbaycanın ərazi bütövlüyünü tanıması və hazırda işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməyi öhdəsinə götürməsi prinsiplər bəyannaməsi imzalamadıqca Türkiyənin bu sərhəd qapısını açmasından bəhs edilə bilməz. Türkiyə bu addımı atarkən qardaş Azərbaycanın mənafeyini öz mənafeyi hesab edir, bunu Azərbaycan torpaqlarının Ermənistan işğalından azad edilməsinə bir töhfə kimi qiymətləndirir. Türkiyədən bunun əksi olan başqa bir hərəkət gözləmək olmaz və bu günə kimi Azərbaycanla birlikdə göstərdiyimiz nümunəvi həmrəylik bizə başqa cür hərəkət etməyə izn verməz.

**Heydər Əliyev:** Hesab edirəm ki, hörmətli baş nazirin bu cavabından sonra həmin suala mənim cavab verməyimə ehtiyac yoxdur. Bir halda ki, belə olacaq, demək, bizim münasibətlərimiz də elə indiki kimi olacaqdır.

**Sual: Dağlıq Qarabağ münaqişəsinin həllində ABŞ və Rusiya diplomatiyasının fəallaşdığı bir vaxtda bu danışıqlarda Türkiyənin mövqeyi və rolu haqqında məlumat verməyinizi xahiş edirəm.**

**Məsud Yılmaz:** Dağlıq Qarabağ probleminin həlli üçün ABŞ ilə Rusiya Federasiyası arasında aparılan məsləhətləşmələrdən, bu istiqamətdəki sülh səylərindən biz məmnunuq. Azərbaycan və Ermənistan arasında ikitərəfli müzakirələrə əlavə olaraq, Rusiya ilə Amerikanın məsələyə bu şəkildə münasibəti bizim üçün problemin həllini asanlaşdıran bir amildir. Biz bu prosesdə necə iştirak edəcəyimiz barədə düşünürük. Bizim bu ixtilafdakı yerimiz Azərbaycanın ya[114-115]nındadır. Biz hər baxımdan Azərbaycanın yanında olmağa məcburuq. Əvvəla, Azərbaycan zərərçəkən, torpaqları işğal edilən, təcavüzə məruz qalan ölkə olduğu üçün biz onun yanındayıq. Azərbaycanla aramızda olan qardaşlıq əlaqələri tələb etdiyi üçün də biz Azərbaycanın yanındayıq. Lakin bu mövqeyimizə baxmayaraq, bu münaqişənin həllinə, bu işğalın qurtarmasına necə kömək edə bilərik – biz bu barədə düşünürük. Bu sahədə Ermənistana təsir edə biləcək bütün vasitələrdən istifadə etməyə hazırıq.

**Sual: Hörmətli baş nazir, Bakıya səfərinizdən əvvəl Ermənistan prezidenti Levon Ter-Petrosyanın nümayəndəsi Libaridyanla görüşünüz barədə xəbərlər yayılmışdır. Bu görüşdə nə barədə söhbət apardınız, Ermənistan nə istəyir?**

**Məsud Yılmaz:** Ermənistan prezidenti Levon Ter-Petrosyanın nümayəndəsi Liberidyanla görüşümdən əvvəl mən Azərbaycan prezidenti hörmətli Heydər Əliyevin xüsusi nümayəndəsi Vəfa Quluzadə ilə görüşmüşdüm. Hər iki görüşdə toxunduğumuz məsələ iki ölkə arasındakı müzakirələrin gedişi ilə əlaqədardır, Bizim müəyyən etdiyimizə görə iki ölkə arasında razılıq əldə edilməməsinin əsas səbəbi ermənilərin Dağlıq Qarabağa əslində muxtariyyəti aşan, müstəqilliyi nəzərdə tutan status verilməsində israr etməsidir. Biz Azərbaycanın bu barədəki şərtlərinin daha doğru olduğuna inanırıq. Bizim fikrimizcə, Ermənistanın bu məsələdə irəli sürdüyü şərtlər qəbul edilə bilməz. Bu fikrimizi Ter-Petrosyanın nümayəndəsinə açıq şəkildə bildirdik.

**Sual: Hörmətli baş nazir, Bakı – Supsa neft kəməri ilə əlaqədar olaraq təkliflərinizin qəbul edilməsində Türkiyə israr edəcəkmi? Türkiyə bu təkliflərində hansı güzəştlərə gedə bilər?**

**Məsud Yılmaz:** Bakı – Supsa boru xətti ilə əlaqədar Türkiyənin fikirləri aydındır, ictimaiyyətə məlumdur. Türkiyənin israr etdiyi əsas məsələ Xəzər neftinin Türkiyənin Aralıq dənizi sahilinə axıdılmasıdır. Bu boru xəttinin Ceyhana doğru uzadılmasıdır. Bu həm iqtisadi baxımdan, həm də Qara dəniz boğazlarının təhlükəsizliyi baxımından əhəmiyyətlidir. Türkiyə bu məsələdə israr edəcəkdir. Bunu Azərbaycanın rəhbərliyi də yaxşı bilir və bu fikrimizə tərəfdar çıxanların getdikcə daha çox olduğunu görməkdən məmnunluq duyuruq. [115-116]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZLA AZƏRBAYCAN İCTİMAİYYƏTİ NÜMAYƏNDƏLƏRİNİN GÖRÜŞÜNDƏ NİTQ

*Respublika Sarayı*

*14 aprel 1996-cı il*

Türkiyə Cümhuriyyətinin baş naziri, əziz dostumuz, qardaşımız Məsud Yılmaz!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Respublikası ictimaiyyətinin nümayəndələri bu axşam buraya – Respublika Sarayına əlamətdar hadisə münasibətilə toplaşıblar. Bu gün Türkiyə-Azərbaycan dostluğunun yeni bir səhifəsi yazılır. Türkiyə Cümhuriyyətinin baş naziri, əziz dostumuz, qardaşımız cənab Məsud Yılmaz mənim dəvətimlə Azərbaycan Respublikasına rəsmi səfərə gəlmişdir. Bu gün biz Türkiyə-Azərbaycan əlaqələri ilə bağlı olan bir çox məsələləri müzakirə etmişik və indi də Azərbaycan ictimaiyyətinin nümayəndələri Türkiyənin baş naziri ilə görüşə gəlmişlər.

Əziz dostumuz, qardaşımız! Mən bu salona toplaşanlar adından, bütün Azərbaycan xalqı, vətəndaşları adından sizi, Türkiyə Cümhuriyyətindən gəlmiş qonaqların hamısını səmimi qəlbdən salamlayıram, sizə xoş gəlmisiniz! – deyirəm.

Türkiyə-Azərbaycan dostluğu böyük tarixə malikdir. Biz Türkiyədə olarkən özümüzü öz məmləkətimizdə hiss edirik və əminəm ki, Türkiyədən gələn hər bir bacımız, qardaşımız da Azərbaycanda özünü öz məmləkətində hiss edir. Əziz dostumuz cənab Məsud Yılmaz, siz də bu gün burada – Azərbaycanda, onun paytaxtı Bakıda özünüzü öz evinizdə, öz məmləkətinizdə hiss edirsiniz və buna da tam haqqınız var.

Bizim dostluğumuzun böyük tarixi var və dostluq, qardaşlıq əlaqələrinin sarsılmazlığının, bir-birimizə olan duyğularımızın, hisslərimizin bəyan edilməsinə görüşlərimizdə həmişə ehtiyac hiss olunur. Bu gün də burada, Türkiyənin baş naziri, hörmətli dostumuz cənab Məsud Yılmazla görüşərkən Azərbaycan xalqının [116-117] Türkiyə Cümhuriyyətinə, Türkiyə xalqına, Türkiyə torpağına hədsiz hörmətini, məhəbbətini bildirirəm və buradan Ankaraya, İstanbula, Türkiyə Cümhuriyyətinin hər bir bölgəsinə Azərbaycan xalqının möhtəşəm salamını, hörmət və ehtiramını yetirmək istəyirəm.

Xalqlarımız arasındakı dostluq, qardaşlıq əlaqələri tarixin böyük sınaqlarından keçibdir. Bu əlaqələr xalqlarımızı daim bərabər yaşamağa dəvət edibdir. Xalqlarımız bu dostluq və qardaşlıqdan daim bəhrələniblər. Biz bir kökdən olan, bir dinə mənsub xalqlarıq, bizim bir dilimiz var, adət-ənənələrimiz də eynidir, əcdadlarımızın, ulu babalarımızın keçdikləri yol da eynidir. Əcdadlarımız yan-yana yaşayıblar, öz həyatlarını qurublar, torpaqlarım yadellilərdən qoruyublar, daim bir olublar, öz azadlıqları uğrunda daim birlikdə mübarizə aparıblar. Bunlar bizim tarixi keçmişimizdir. Bu tarixin çox parlaq, sevindirici səhifələri var, biz onlarla fəxr edirik. Keçmişdə bizim böyük şəxsiyyətlərimiz dostluq ediblər. Böyük şairlərimiz, yazıçılarımız, alimlərimiz, xalqlarımızın mədəniyyətini, mənəviyyatını inkişaf etdirmək sahəsində əməkdaşlıq ediblər, bir-birinin yaradıcılığından bəhrələniblər. Biz daim bir-birimizə dayaq olmuşuq, yardım əli uzatmışıq. Keçmişdə də belə olubdur, indi də belədir.

XX əsrin əvvəlində Azərbaycanın həyatında faciəli hadisələr baş verdiyi zaman Türkiyədə olan qardaşlarımız bizim dadımıza yetişmişlər, harayımıza gəlmişlər, kömək əlini uzatmışlar. Sonrakı illərdə də dostluğumuz, əməkdaşlığımız daim olubdur. Doğrudur, bəzi dövrlərdə bunlar çox böyük məhdudiyyətlərlə rastlaşıbdır. Ancaq qəlbimizdə bir-birimizə olan hisslər, məhəbbət, sevgi heç vaxt sönməyibdir, daim yaşayıb, parlayıb və bizi xoşbəxt günlərə gətiribdir.

Son illərdə Azərbaycan xalqı öz milli azadlığı, milli müstəqilliyi uğrunda mübarizə apararkən Türkiyədə bacı və qardaşlarımız bizim səsimizə səs vermişlər, bizə dəstək göstərmişlər, haqq işimizi müdafiə etmişlər. O illərdən başlayaraq dostluq, qardaşlıq əlaqələrimiz yeni vüsət alıb, daha da inkişaf edib və bugünkü sarsılmaz dostluq əlaqələrinə gətirib çıxarıbdır.

Türkiyə Cümhuriyyəti böyük dövlətdir, Dünya Birliyində onun özünə layiq görkəmli yeri var. Türkiyə xalqı çoxəsrlik tarixində böyük nailiyyətlər əldə etmişdir. Ancaq onun ən böyük nailiyyəti Türkiyə Cümhuriyyətinin yaranması və bu cümhuriyyətin yetmiş ildən artıq bir müddətdə yaşaması və inkişaf [117-118] etməsidir. Türkiyə Cümhuriyyətinin bu dövrdə keçdiyi yol çox əzəmətli, çox şərəfli yoldur və Türkiyə xalqını bugünkü xoşbəxt həyata gətirib çıxarıbdır. Biz bu tarixi keçmişi izləmişik, onu bu gün də çox böyük iftixar hissi ilə yad edirik. Bu tarixi yad edərək, Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə hörmət və ehtiramımızı bildirərək bu cümhuriyyətin yaradıcısı böyük Mustafa Kamal Atatürkü dərin hörmət və ehtiramla xatırlayırıq. Onun həm Türkiyə Cümhuriyyəti üçün, həm də bütün türk dünyası, türk xalqları üçün etdiyi xidmətləri böyük minnətdarlıqla yad edirik.

Yetmiş illik respublika dövründə Türkiyə xalqı öz azadlığını, ölkədə demokratiyanın, iqtisadiyyatın sürətlə inkişafını və xalqın rifahının sürətlə yüksəlməsini dünyaya nümayiş etdiribdir. Bunlar bizi daim sevindirib və sevindirir. Türkiyə xalqının cümhuriyyət dövründə keçdiyi yol bizim üçün böyük təcrübə yolu, böyük örnəkdir. Bu gün bu yolu xatırlayarkən Türkiyə xalqına böyük xidmət etmiş Mustafa Kamal Atatürkün davamçılarına da hörmət və ehtiramımızı bildiririk, bütün Türkiyə xalqına hörmət və ehtiramımızı bildiririk.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyinə çalışarkən, qeyd etdiyim kimi, Türkiyə daim Azərbaycana dəstək vermiş, ona dayaq olmuşdur. Bu gün onu da demək lazımdır ki, Azərbaycan öz dövlət müstəqilliyini elan edən kimi dünyada ilk dəfə onun müstəqilliyini tanıyan dövlət Türkiyə olmuşdur. Bu, hələ Sovet İttifaqının mövcud olduğu bir vaxtda baş vermişdir və onu göstərir ki, Azərbaycanın milli azadlığını, istiqlaliyyətini Türkiyə xalqı, Türkiyə hökuməti nə qədər istəmişdir. Türkiyə Cümhuriyyətinin, Türkiyə hökumətinin Azərbaycanın müstəqilliyini tanımasında bugünkü əziz qonağımız baş nazir, hörmətli dostumuz Məsud Yılmazın xüsusi xidmətləri var. 1991-ci il noyabrın 9-da – hörmətli Məsud Yılmaz Türkiyənin baş naziri olarkən Türkiyə hökuməti Azərbaycan Respublikasının müstəqilliyinin tanınması haqqında bakanlar qurumunda qərar qəbul etmiş və onu dostumuz Məsud Yılmaz imzalamışdır.

O zamandan Türkiyə ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf etmiş, Türkiyənin böyük şəxsiyyətləri Azərbaycanı ziyarət etmiş, yollar açılmışdır. İnsanlar Azərbaycandan böyük axınla Türkiyəyə getmişlər, onun şəhərləri, vilayətləri ilə, onların nailiyyətləri ilə tanış olmuşlar. Əgər aramızdakı əlaqələr yetmiş il ərzində tamamilə bağlı olmuşdursa, bir-biri[118-119]mizə ancaq uzaqdan-uzağa həsrətlə baxıb, həsrətlə yaşamışıqsa, Azərbaycan müstəqilliyini əldə edəndən sonra yollar, sərhədlər açılmış, xalqlarımız nəhayət, bir-birinə qovuşmuş, bir-birinin yanına gedib-gəlməyə imkan tapmışlar. İndi Azərbaycandan Türkiyəyə getmək, Türkiyədən Azərbaycana gəlmək adi bir hadisədir. Bu, çox böyük xoşbəxtlikdir.

Bu illərdə Türkiyənin böyük rəhbərləri Azərbaycanı ziyarət etmişdir. Türkiyənin mərhum prezidenti Turqut Özal Azərbaycanı ziyarət edərək ölkəmizə öz dəstəyini vermişdir. Türkiyənin prezidenti, əziz dostumuz, qardaşımız, hörmətli Süleyman Dəmirəl dəfələrlə Azərbaycanı ziyarət etmişdir. Türkiyənin keçmiş baş naziri, hörmətli bacımız Tansu Çillər ölkəmizi ziyarət etmişdir. Nəhayət, bu gün Türkiyənin yeni baş naziri, hörmətli dostumuz Məsud Yılmaz Azərbaycanın qonağıdır. Bunlar hamısı qısa bir zamanda Türkiyə ilə Azərbaycan arasında nə qədər sıx əlaqələr yaranmasının əyani nümayişidir. Bu, çox gözəl bir haldır. Bütün bu əlaqələrə görə, Türkiyə Cümhuriyyətinin son illərdə Azərbaycana göstərdiyi qardaş münasibətinə, problemlərimizin həlli ilə bizimlə bərabər məşğul olmalarına görə və bütün qardaşlıq münasibətlərinə görə Türkiyə xalqına, Türkiyə Cümhuriyyətinə, Türkiyə hökumətinə Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm.

Biz bu gün iqtisadi əlaqələrimizin inkişaf etdirilməsi məsələlərini çox geniş müzakirə etmişik. Güman edirəm ki, bu əlaqələr bundan sonra daha da sürətlə inkişaf edəcəkdir. Beynəlxalq vəziyyəti birgə müzakirə edib fikir mübadiləsi aparmışıq. Azərbaycanın başına gəlmiş böyük bəlanı – Ermənistan tərəfindən ölkəmizə edilmiş təcavüzü və bunun nəticəsində baş vermiş hadisələri müzakirə etmişik və bu vəziyyətdən çıxış yollarını araşdırmışıq. Mən bu gün deyə bilərəm ki, bütün bu məsələlərin müzakirəsində keçmişdə də, indi də Türkiyə ilə Azərbaycan arasında fikirlər eynidir. Xüsusən onu qeyd etmək istəyirəm ki, Ermənistanın ölkəmizə təcavüzü ilə əlaqədar Türkiyə daim Azərbaycanla bir olmuşdur və bu gün də bir yerdədir.

Xalqımız heç vaxt unutmayacaq ki, Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı hərbi təcavüzə başladığı dövrdən, – Azərbaycanın o zaman Sovetlər İttifaqının tərkibində olmasına baxmayaraq, – Türkiyə ictimaiyyəti, xalqı, mətbuatı ölkəmizə böyük maraq göstərmiş, buradakı hadisələri çox böyük diqqətlə izləmiş və xalqımızla həmrəy olduğunu bildirmişdir. [119-120]

Biz yaxşı xatırlayırıq ki, o vaxtlar Türkiyənin bir çox şəhərlərində böyük xalq mitinqləri keçirilmiş, Türkiyə xalqının, vətəndaşlarının Azərbaycanla həmrəy olduğu bütün dünyaya bəyan edilmişdir.

Təəssüflər olsun ki, Ermənistanın təcavüzü nəticəsində Azərbaycan böyük zərbələrə məruz qalmışdır. Azərbaycan Respublikasının ərazisinin iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan zorla çıxarılaraq didərgin düşmüşdür və onların əksəriyyəti ağır vəziyyətdə, çadırlarda yaşayır. Azərbaycan böyük itkilər, çoxlu şəhidlər vermişdir, ölkəmizə çox böyük maddi zərər vurulmuşdur. Bunların hamısı son illərdəki tariximizin reallığıdır. Biz bu reallığı dünyaya bəyan etmişik, həmin reallığı Türkiyə də bilir.

Bütün bu çətinliklərə, zərbələrə baxmayaraq, biz dünyaya bəyan etmişik ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıyıq. Ona görə də münaqişənin. dayandırılması üçün atəşkəs haqqında saziş imzalanmışdır. İki ildir ki, biz bu sazişə, atəşkəs rejiminə riayət edirik. Bu, Azərbaycan xalqının sülhsevərliyini dünyaya bir daha nümayiş etdirir. Beləliklə, biz məsələnin sülh yolu ilə həllinə çalışırıq. Bu gün fürsətdən istifadə edərək dünyaya bir daha bəyan edirəm ki, Azərbaycan atəşkəs rejiminə sadiqdir və bundan sonra da sadiq olacaqdır, məsələlərin sülh yolu ilə həll olunmasına çalışır və gələcəkdə də çalışacaqdır. Azərbaycan Qafqazda sülhün, əmin-amanlığın tərəfdarıdır və bundan sonra da bu yolda səylərini davam etdirəcəkdir.

Bu məsələlərin həll olunmasında biz beynəlxalq təşkilatların imkanlarından istifadə etməyə çalışırıq. Məlumdur ki, bu məsələlərlə, ATƏT-in Minsk qrupu məşğul olur, Amerika Birləşmiş Ştatları səy göstərir. Bizə

dost, qardaş ölkə olan Türkiyə Cümhuriyyəti, onun rəhbərləri bu məsələlərin həllində xüsusi səy göstərirlər və deyə bilərəm ki, bizimlə bərabər daim bu işlə məşğul olurlar. Bu gün həmin məsələləri müzakirə etmişik. Bir daha eyni fikrə gəlmişik ki, səylərimizi davam etdirməli, məsələnin sülh yolu ilə həll olunmasına çalışmalıyıq. Bu yolla gedərək biz indiyədək Türkiyənin dəstəyinə arxalanmışıq, bu gün də arxalanırıq və gələcəkdə də arxalana bilərik.

Eyni zamanda hamı, bütün dünya bilməlidir ki, bu məsələnin sülh yolu ilə həlli üçün Azərbaycanın haqq və [120-121] ədalət çərçivəsində olan şərtləri qəbul edilməlidir. Yəni Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxmalıdır, o cümlədən Laçın və Şuşa rayonları da işğalçılardan azad edilməlidir. Yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları azad olunan rayonlara qayıtmalıdırlar. Azərbaycan Respublikasının ərazi bütövlüyü tanınmalı, bərpa edilməli, sərhədlərimizin toxunulmazlığı, ölkəmizin suverenliyi təmin olunmalıdır. Bu halda Dağlıq Qarabağda yaşayan ermənilərə Azərbaycan Respublikası tərkibində yüksək muxtariyyət verilə bilər. Biz bu şərtlər əsasında sülh danışıqları aparırıq və həmin şərtlər daxilində də sülhə nail olmaq istəyirik. Türkiyə Cümhuriyyəti, onun rəhbərləri və bu gün müzakirə nəticəsində bir daha məlum oldu ki, onun baş naziri, hörmətli qonağımız cənab Məsud Yılmaz da məsələnin məhz bu şərtlər əsasında həllinin tərəfdarıdır.

Ancaq yerindən-yurdundan didərgin düşmüş vətəndaşlarımız daha belə vəziyyətdə yaşaya bilməzlər. İki-üç il qaçqın vəziyyətində çadırlarda yaşamaq qeyri-mümkündür. Bu, çox ağır haldır. Xalqımız dözümlü xalqdır, bu əzab-əziyyətə ona görə dözür ki, haqq-ədalətə inanır. Azərbaycan xalqının tələbləri ədalətli tələblərdir, onun apardığı mücadilə, mübarizə haqq-ədalət mübarizəsidir. Bu mübarizə yolunda xalqımız bütün əziyyətlərə, çətinliklərə dözür. Amma dözümümüzün də həddi var. Biz məsələlərin sülh yolu ilə həll olunmasına yenə çalışacağıq. Ancaq işğal edilmiş torpaqlarımız azad olunmasa, bütün imkanlardan, vasitələrdən istifadə edib, nəyin bahasına olursa-olsun, torpaqlarımızı azad edəcəyik, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin edəcəyik. Əminəm ki, Türkiyə Cümhuriyyəti, Türkiyənin rəhbərləri indiyə qədər olduğu kimi, bundan sonra da bu yolda axıradək bizimlə olacaqlar.

Hörmətli dostumuz! Mən bu gün sizə geniş məlumat vermişəm, bir də bildirmək istəyirəm ki, Azərbaycan xalqı öz milli azadlığını göz bəbəyi kimi qoruyub saxlayacaqdır. Azərbaycan xalqı dövlət müstəqilliyini özü üçün tarixi nailiyyət hesab edir və onu günbəgün, ilbəil gücləndirəcək, möhkəmləndirəcək, əbədi edəcəkdir.

Azərbaycanda demokratik hüquqi, sivilizasiyalı dövlət qurulur. Azərbaycan demokratiya yolu ilə gedir. Türkiyə Cümhuriyyətinin demokratiya yolunda əldə etdiyi nailiyyətlər bizim [121-122] üçün böyük örnəkdir. Biz indiyə qədər bu nailiyyətlərdən istifadə etmişik və bundan sonra da istifadə edəcəyik. Demokratiya yolundan bizi heç kəs döndərə bilməyəcək. Gələcəkdə Azərbaycan inkişaf etmiş demokratik bir dövlət olacaqdır. Azərbaycan heç vaxt keçmişə dönməyib və dönməyəcəkdir. Azərbaycan irəli, sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yolu ilə gedəcəkdir, öz iqtisadiyyatını dünya iqtisadiyyatına bağlayır və bağlayacaqdır. Ölkəmiz dünya iqtisadiyyatı, dünya sərmayəçiləri üçün açıqdır. Bu sahədə bir neçə addım atmışıq və bundan sonra da atacağıq və heç bir qüvvə bizi bu yoldan döndərə bilməyəcəkdir.

Azərbaycan ilə Türkiyənin iqtisadi əməkdaşlığının çox gözəl gələcəyi var. Bu əməkdaşlıq sahəsində çox dəyərli addımlar atmışıq. Xüsusən Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə olunması üçün biz Türkiyə ilə əməkdaşlıq edirik. Məlumdur ki, 1994-cü ilin sentyabrında imzalanmış böyük neft müqaviləsinin iştirakçılarından biri də Türkiyə Cümhuriyyətinin "Türk petrolları" şirkətidir. Onu da qeyd etmək lazımdır ki, həmin müqavilə imzalandıqdan sonra biz Türkiyə neft şirkətinin konsorsiumda olan payını 5 faiz də artırmışıq və Türkiyə konsorsiumda artıq özünəməxsus yer tutubdur.

İlkin neftin ixracı üçün boru kəmərinin çəkilməsi üçün də biz Türkiyə ilə daim əməkdaşlıq etmişik. Nəticədə Azərbaycanın ilkin neftinin ixracı üçün iki boru kəmərinin – Rusiya ərazisi vasitəsilə Qara dəniz sahilindəki Novorossiysk limanına və Gürcüstan ərazisindən keçməklə Türkiyənin Supsa limanına kəmərlərin çəkilməsi haqqında qərarlar qəbul etmişik. Bu qərarları hazırlayarkən, qəbul edərkən Türkiyə Cümhuriyyətinin mənafelərini də nəzərə almış, onunla əməkdaşlıq etmişik və həmin qərarlar birgə əməkdaşlığımızın nəticəsidir.

Bizim bundan sonra da əməkdaşlıq etməyimiz üçün yaxşı imkanlar var, özü də təkcə neft sənayesi sahəsində yox, başqa sahələrdə də imkanlar var. Türkiyənin iş adamları Azərbaycana gəlirlər. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitləşibdir. Biz buna tam zəmanət vermişik və Azərbaycanın prezidenti kimi mən bu gün bir daha zəmanət verirəm, Türkiyənin iş adamlarını ölkəmizdə müştərək iş görməyə dəvət edirəm.

Ümidvaram ki, iqtisadi əməkdaşlığımız, elm, mədəniyyət sahəsindəki, bütün başqa sahələrdəki əməkdaşlığımız və xüsusən beynəlxalq aləmdə Türkiyə-Azərbaycan əməkdaşlığı, [122-123] Qafqazda sülhün, əmin-amanlığın bərqərar olması üçün etdiyimiz əməkdaşlıq və nəhayət, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək, ölkəmizi xarici təcavüzdən qurtarmaq üçün əməkdaşlıq – bunların hamısı birlikdə Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının gələcəkdə də inkişafını təmin edəcəkdir. Qeyd etdiyim kimi, bizim dostluğumuz, qardaşlığımız böyük sınaqlardan keçib və bu gün də belə sınaqlardan keçir. Çünki bu dostluq və qardaşlığımıza kəc baxanlar, buna qısqananlar mane olmaq istəyənlər də var. Həm daxildə, həm də xaricdə dostluğumuzu, qardaşlığımızı ləkələmək istəyənlər də var. Amma qoy hamı bilsin ki, heç bir qüvvə, heç kəs buna mane ola bilməyəcəkdir. Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı sarsılmazdır, əbədidir.

Türkiyə Cümhuriyyətinin yeni baş naziri, hörmətli dostumuz, qardaşımız cənab Məsud Yılmaz Azərbaycanda çox tanınan, məşhur şəxsiyyətdir. Onun Türkiyənin həyatındakı böyük siyasi fəaliyyətini Azərbaycanda hamı çox yaxşı bilir, bunu yüksək qiymətləndirir. Cənab Məsud Yılmazın böyük siyasətçi, böyük bir siyasi partiyanın başçısı kimi xidmətləri dünyada da məşhurdur. Bu xidmətlər Türkiyə xalqına böyük nailiyyətlər gətiribdir. Cənab Məsud Yılmazın Türkiyə xalqı, Türkiyə Cümhuriyyəti qarşısındakı xidmətləri Türkiyədə də, Azərbaycanda da yüksək qiymətləndirilir.

Cənab Məsud Yılmaz Azərbaycana ilk dəfədir gəlibdir. Güman edirəm, bu ilk gəliş bir çox gəlişlərin, səfərlərin başlanğıcı olacaqdır. Əminəm ki, dostluğumuzu, qardaşlığımızı inkişaf etdirmək, möhkəmləndirmək üçün cənab Məsud Yılmaz bundan sonra Azərbaycana yeni-yeni səfərlər edəcəkdir. Mən bu gün bəyan edirəm ki, dostumuz, qardaşımız Məsud Yılmazı hər vaxt Azərbaycanda görməkdən çox bəxtiyar olacağıq.

Bizim dostumuz baş nazir vəzifəsini öhdəsinə götürməklə həm də üzərinə böyük məsuliyyət götürmüşdür və eyni zamanda böyük xidmətlər göstərir. Əminəm və güman edirəm bütün Azərbaycan xalqı mənimlə həmfikirdir ki, Türkiyə cəmiyyətinin böyük siyasətçisi bu mühüm və şərəfli vəzifəni layiqincə yerinə yetirəcək, Türkiyə xalqı, türk dünyası qarşısında yeni-yeni xidmətlər göstərəcək və bunlar da Türkiyə-Azərbaycan dostluğunu daha yüksək səviyyələrə qaldıracaqdır.

Hörmətli dostumuz, əziz qardaşımız! Bu yüksək məsuliyyətli [123-124] vəzifələri yerinə yetirməkdə sizə cansağlığı arzulayıram, şəxsi həyatınızda xoşbəxtlik diləyir, sizə və Türkiyə Cümhuriyyətinə böyük uğurlar arzu edirəm.

Keçən ilin dekabrında Türkiyə Cümhuriyyətinin prezidenti, xalqımızın böyük dostu, əziz qardaşımız Süleyman Dəmirəl Azərbaycana rəsmi səfərə gəlmişdi. Biz bu gün də həmin səfərin təəssüratı altındayıq, həmin günlərdə Azərbaycan xalqının hörmətli dostumuz Süleyman Dəmirəldən eşitdiyi dəyərli sözlərin təsiri altındayıq. Möhtərəm prezident Süleyman Dəmirəlin Azərbaycan xalqına göstərdiyi qayğı və hörməti bu gün də minnətdarlıq hissi ilə yad edirik. Buradan, bu salondan Süleyman Dəmirəl cənablarına hörmət və ehtiramımızı bildirir, ona atəşin Azərbaycan salamı göndəririk. Güman edirəm ki, Türkiyə Cümhuriyyətinin başında Süleyman Dəmirəl kimi təcrübəli, dünya miqyaslı böyük şəxsiyyət, Türkiyə hökumətinin başında böyük siyasətçi və təcrübəli Məsud Yılmaz olmaqla onlar ölkəni yeni-yeni nailiyyətlərə doğru aparacaqlar.

Hörmətli dostumuz, qardaşımız! Mən sizə bir daha hörmət və ehtiramımı bildirir, sizə cansağlığı, xoşbəxtlik arzulayır, bütün işlərinizdə uğurlar diləyirəm.

Sarsılmaz, əbədi Türkiyə-Azərbaycan dostluğuna, qardaşlığına eşq olsun! [124-125]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*14 aprel 1996-cı il*

Cənab baş nazir, əziz dostumuz, qardaşımız Məsud Yılmaz!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Türkiyə-Azərbaycan dostluğunun, qardaşlığının yeni bir parlaq səhifəsi yazılır, xalqlarımızın əsrlər boyu yazdıqları tarixə yeni bir fəsil əlavə olunur. Bu isə bizim xalqların tarix boyu qurduqları, yaratdıqları dostluq və qardaşlıq əlaqələrinin məntiqi davamıdır, yeni bir pillədir. Son illər xalqlarımız bir-birinə öz məhəbbətini, sevgisini, dostluğumuzu, qardaşlığımızı bildirmək üçün imkanlar alıblar. Ona görə də bu dostluq əlaqələri gündən-günə yüksəklərə qalxacaqdır. Mən bunu bir pillə kimi dedim. Bu pillələr bizim vaxtımızda da, bizdən sonra gələn nəsillər tərəfindən də artırılacaq, səmanın ən yüksək qatlarına çatacaqdır. Bu, təbiidir. Çünki bizim köklərimiz, bizim doğmalığımız, bizi bir-birimizə bağlayan tellər biz yaranan gündən o qədər möhkəm qurulub, möhkəm sarınıbdır ki, bu dostluğu bundan sonra heç vaxt pozmaq mümkün olmayacaqdır.

Azərbaycan 70 il kommunizm-sosializm hakimiyyəti altında olduğu zaman Türkiyə kimi dost, qardaş ölkə ilə əlaqə saxlamağa imkan tapa bilmirdi. 70 il keçdi, ancaq bu 70 il də bizim əsrlər boyu bir-birimizə olan hisslərimizi, duyğularımızı sarsıda bilmədi, sındıra bilmədi, poza bilmədi. Kiçik bir fürsət əldə edən kimi biz bir-birimizə qovuşduq, bir-birimizə yaxınlaşdıq.

Türkiyə böyük dövlətdir, müstəqil dövlətdir və öz dövlətçiliyini gündən-günə inkişaf etdirir. Azərbaycan müstəqil bir dövlət kimi gənc dövlətdir, ancaq bu müstəqillik yolunda dönməzdir, yenilməzdir. Bizim dostluğumuzun, qardaşlığımızın böyük gələcəyi var. Biz Türkiyəni özümüzə dayaq hesab edirik. Türkiyədə gedən prosesləri və 70 il müddətində dövlət quruculuğunda əldə olunmuş nailiyyətləri özümüz üçün örnək [125-126] hesab edirik. Bu təcrübədən, əldə olunan bu nailiyyətlərdən Azərbaycanın xüsusiyyətlərinə uyğun istifadə etməyə çalışırıq. Bu təcrübə də demokratiya təcrübəsidir, insan azadlığı təcrübəsidir, sərbəst iqtisadiyyat təcrübəsidir, söz azadlığı təcrübəsidir. Bunların hamısı Azərbaycanda bərqərar olmaqdadır.

Dünya demokratiyasının əldə etdiyi nailiyyətlərdən istifadə edərək bu prinsipləri daha da möhkəmləndiririk, daha da inkişaf etdirərik. Bizim üçün tarixi, milli ənənələrimizə görə çox yaxın olan Türkiyənin təcrübəsindən səmərəli istifadə etməyə çalışırıq. Biz istəyirik ki, Türkiyə gündən-günə möhkəmlənsin, artsın, inkişaf etsin, Türkiyə dünya miqyasında öz nüfuzunu nə qədər qaldıracaqsa, Azərbaycan üçün, bütün türk dünyasına mənsub olan ölkələr üçün o qədər gərəkli olacaqdır. Ona görə də Türkiyənin nailiyyətlərini biz özümüzün doğma nailiyyətlərimiz hesab edirik və hər bir nailiyyətə, irəliləyişə hər bir türk vətəndaşı kimi sevinirik. Mən bizim qonaqları əmin edə bilərəm ki, bu dostluğa, əməkdaşlığa, qardaşlığa sadiq olacağıq. Ümidvar olduğumu bildirirəm ki, Türkiyə Cümhuriyyəti, Türkiyə xalqı özünə dost, qardaş olan Azərbaycan xalqının, Azərbaycan Respublikasının qayğıları ilə daim yaşayacaq, bu qayğıları daim öz qayğılan hesab edəcək, Azərbaycanın gələcəyə olan ümidini öz ümidi hesab edəcəkdir.

Bu gün apardığımız danışıqlar, görüşlər və imzaladığımız bəyanat Bakının küçələrində, hava limanından şəhərin mərkəzinə qədər sadə insanların Türkiyənin baş nazirinə göstərdikləri hüsn-rəğbət, məhəbbət hissləri, onların çox səmimi salamları – bunlar hamısı bir daha onu nümayiş etdirir ki, bizim dostluğumuz səmimidir, əbədidir, sarsılmazdır.

Mən rica edirəm, qədəhlərimizi Türkiyə Cümhuriyyətinin, qardaş Türkiyə xalqının, əbədi və sarsılmaz Türkiyə-Azərbaycan dostluğunun, Türkiyə xalqının xoşbəxt gələcəyinin, Azərbaycan xalqının xoşbəxt gələcəyinin, Türkiyənin baş naziri, əziz dostumuz, qardaşımız Məsud Yılmazın, onun xanımının, Türkiyədən gəlmiş bütün qonaqların, Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu Süleyman Dəmirəlin şərəfinə qaldıraq! Sizin şərəfinizə! [126-127]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZA M. Ə. RƏSULZADƏ ADINA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*15 aprel 1996-cı il*

Hörmətli baş nazir, əziz dostumuz, qardaşımız Məsud Yılmaz! Hörmətli qonaqlar, hörmətli xanımlar və cənablar!

Böyük tarixə malik olan Bakı Dövlət Universitetinin həyatında bu gün yeni bir əlamətdar hadisə baş verir. Dünyanın böyük siyasətçilərindən biri, Türkiyə Cümhuriyyətinin böyük partiyalarından birinin başçısı, Türkiyənin baş naziri Məsud Yılmaz Bakı Dövlət Universitetinin Fəxri doktoru adına layiq görülübdür. Hörmətli baş nazir, mən bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram, dövlət işinizdə, siyasi və elmi fəaliyyətinizdə yeni uğurlar diləyirəm.

Bakı Dövlət Universitetini təbrik edirəm ki, o öz böyük tarixi səhifələrini yazır və universitetin fəxri doktorları artır, dünyanın tanınmış siyasi xadimləri, elm xadimləri, dövlət xadimləri BDU-nun fəxri doktorları dəstəsinə daxil olurlar. Bu, BDU üçün də böyük fəxrdir, böyük şərəfdir. Mən sizi təbrik edirəm.

BDU-nun 75 illik tarixində çox böyük hadisələr baş vermişdir. Ancaq ən böyük hadisə, ən böyük nəticə ondan ibarətdir ki, 1919-cu ildə ilk Azərbaycan Demokratik Respublikasının hakimiyyəti dövründə yaranan bu universitet son illərdə müxtəlif mərhələlərdən keçərək yaşamış və bu günlərə böyük elm, yüksək təhsil potensialı ilə qalib çıxmışdır. Azərbaycan xalqının həyatında, onun ali təhsilinin inkişafında, elminin inkişafında BDU böyük xidmətlər göstərmişdir.

BDU Azərbaycanda ali təhsil sisteminin yaranmasında, demək olar, liderlik etmiş və bu təhsil ocaqlarına, necə deyərlər, analıq, atalıq etmişdir. Məhz BDU-nun fəaliyyəti nəticəsində son illərdə Azərbaycanda yeni-yeni universitetlər, [127-128] ali təhsil ocaqları yaranmışdır ki, onların da hamısı Azərbaycan xalqının, Azərbaycan millətinin mədəniyyətini, elmini, təhsilini inkişaf etdirmiş və xalqımızın bu gün dünya xalqları arasında ən yüksək yer tutmasına xidmət etmişdir.

BDU öz elmi nailiyyətləri ilə fəxr edə bilər. Onun məzunları, bu universitetdə təhsil almış və buradan böyük həyata – elmi həyata, siyasi həyata, mədəni həyata qovuşmuş insanlar indi həm Azərbaycanda, həm də onun hüdudlarından kənarlarda böyük işlər görür, Azərbaycan xalqına çox böyük fayda gətirirlər. Ona görə də mən bu gün bu fürsətdən istifadə edərək BDU-nun professor-müəllim heyətini, onun bütün nəsillərini böyük məmnuniyyət hissi ilə, böyük minnətdarlıq hissi ilə xatırlayıram və bu gün ağır, çətin dövrdə BDU-da fəaliyyət göstərən, fədakarlıq edən professor-müəllim heyətinə öz hörmət və ehtiramımı bildirirəm.

Respublikamız öz həyatının çox ağır bir dövrünü yaşayır. Bu, bizim üçün həm ağır, həm də çox əhəmiyyətli bir dövrdür. Azərbaycan öz dövlət müstəqilliyini qurub yaradır, özü üçün yeni həyat qurur. Bu, keçid dövrüdür. Bu dövrün təbii çətinlikləri var, iqtisadi çətinlikləri var. Başqa çətinliklər də var. Bu zaman elm adamları, təhsil adamları şübhəsiz ki, bir çox çətinliklərlə qarşılaşırlar. Mən bu gün qeyd etmək istəyirəm ki, bizim professorlarımız, alimlərimiz, müəllimlərimiz bütün bu çətinliklərə sinə gərir və bütün bu ağırlıqları öz üzərilərinə götürərək, onlara dözərək öz müəllim adını, alim adım şərəflə daşıyırlar və ümidvaram ki, bundan sonra da daşıyacaqlar.

Bilirsiniz ki, tarix həmişə cürbəcür mərhələlərdən ibarət olubdur. Bizim bu dövrümüz də daim belə ağır və çətin olmayacaqdır. Azərbaycanın müstəqil dövlət kimi çox gözəl gələcəyi var. O gözəl, o xoşbəxt, o firavan gələcəyə biz hamımız birlikdə getməliyik. Bu gələcəyə nail olmaq üçün birlikdə çalışmalıyıq. Mən əminəm ki, biz bütün qüvvələrimizi birləşdirərək, bütün bu çətinliklərə sinə gərərək bu ağır mərhələdən keçəcəyik, müstəqil Azərbaycan ayaqlan üstündə möhkəm duracaq, yaşayacaq və onun elmi, ali təhsili, mədəniyyəti bundan da yüksək zirvələrə qalxacaqdır.

Biz öz elmimizlə, ali təhsilimizlə fəxr edə bilərik, 75 il ərzində BDU, Azərbaycanın elmi, mədəniyyəti böyük, şərəfli, əzab-əziyyətli yol keçibdir, ancaq çox yüksək səviyyələrə qalxıbdır. Biz keçmişdə qapalı idiksə, indi dünyaya açılmışıq. Dünya da bizim üzümüzə açılıbdır. Ona görə də öz elmi, [128-129] mədəni səviyyəmizi dünyanın hər bir ölkəsinin elmi, mədəni, təhsil səviyyəsi ilə müqayisə etmək imkanı qazanmışıq. Obyektiv müqayisə etsək, biz artıq bunu görürük. Dərk edirik ki, Azərbaycanın elmi , ali təhsili, mədəniyyəti ümumdünya səviyyəsindən heç də geri qalmayıbdır. Bir çox sahələrdə Azərbaycan ümumdünya elm, təhsil, mədəniyyət nailiyyətlərinin ən ön cərgələrində gedibdir. Bu da Azərbaycan xalqının həm fitri istedadı, həm də əldə etdiyi elmi, mədəni, ali təhsil potensialının parlaq nümayişidir. Biz bununla fəxr edə bilərik.

Azərbaycanın alimləri, müəllimləri, yüksək səviyyəli mütəxəssisləri artıq dünyanın bir çox ölkələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Ayrı-ayrı adamlar bunu bəzən mənfi hal hesab edirlər. Bəzən deyirlər ki, respublikamızda vəziyyət ağırdır, ona görə də insanlar burada yaşaya bilmir və xaricə gedirlər. Doğrudur

respublikamızda iqtisadi vəziyyət ağırdır. Doğrudur, insanların bır çoxunun yaşayışı çox çətindir. Ancaq eyni zamanda əgər Azərbaycan alimi, professoru, müəllimi gedib Türkiyə, Amerika, Almaniya universitetlərində dərs deyə bilirsə, biz bunu böyük iftixar hissi ilə qəbul etməliyik. Mən hesab edirəm ki, biz buna görə heç də darıxmamalıyıq, əksinə, sevinməliyik.

Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri haqqında dünən də, bu gün də biz çox geniş danışdıq. Ancaq nə qədər danışsaq da, nə qədər gözəl sözlər desək də, Türkiyə ilə Azərbaycan arasında həm tarixi keçmişimizi, həm də bugünkü əlaqələrimizi tam təsvir edə bilməyəcəyik. Hörmətli qonağımız cənab Məsud Yılmaz öz nitqində Azərbaycan alimlərinin, musiqiçilərinin, bəstəkarlarının Türkiyədə tanınması haqqında, fəaliyyəti haqqında çox gözəl xatirələr söylədi, çox gözəl faktlar gətirdi. Bu, həqiqətdir. Həqiqət ondan ibarətdir ki, əsrlər boyu xalqlarımız bir-biri ilə sıx əlaqədə olmuş, bir-birinə kömək etmiş, arxa durmuşlar. Məhz buna görə də heç təsadüfi deyil ki, Azərbaycanın bir çox görkəmli şəxsiyyətləri tarixin ayrı-ayrı mərhələlərində Türkiyədə fəaliyyət göstərmiş, orada öz istedadlarını tamamilə büruzə verə bilmişlər, həm Türkiyə xalqı qarşısında həm də Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstərmişlər. Onların hamısı bizim dostluğumuzun, qardaşlığımızın böyük tarixidir, rəmzidir. Biz onlarla fəxr edə bilərik. Çünki Türkiyə-Azərbaycan dostluğu həm Türkiyə üçün, [129-130] həm də Azərbaycan üçün ən əziz, ən önəmli amildir. Biz bu dostluğu qoruyub saxlamalıyıq və bu gün də, dünən də keçirilən görüşlər, aparılan danışıqlar bir daha sübut etdi ki, bu dostluq, bu qardaşlıq sarsılmazdır, əbədidir.

Bu gün Türkiyənin baş naziri hörmətli Məsud Yılmazın və onu müşayiət edən hörmətli qonaqlarımızın Bakı Dövlət Universitetinə gəlməsinin özü əlamətdar bir hadisədir. Burada, bu salonda Azərbaycan ziyalılarının – alimlərinin, müəllimlərinin çox gözəl nümayəndələri oturublar. Onlar buraya böyük hörmət, ehtiram hissi ilə toplaşıblar. Onlar buraya toplaşıblar ki, Azərbaycan xalqının, Azərbaycan ziyalılarının Türkiyəyə olan hörmət və ehtiramını bir daha ifadə etsinlər. Onlar buraya toplaşıblar ki, Türkiyə-Azərbaycan dostluğunun möhkəmlənməsinə çalışsınlar. Mən sizin hamınıza öz hörmət və ehtiramımı bildirirəm, bu fürsətdən istifadə edib, sizinlə bir daha görüşdüyümə görə məmnun olduğumu bildirirəm. Bakı Dövlət Universitetinə gələcək fəaliyyətində yeni uğurlar arzulayıram.

Əmin olduğumu bildirmək istəyirəm ki, Türkiyənin baş naziri hörmətli Məsud Yılmaz BDU-nun Fəxri doktoru diplomunu, bu yüksək adı alandan sonra onun həm Azərbaycana, həm Azərbaycan elminə, həm də BDU-ya bəslədiyi hisslər artacaq və bütün bunlar Türkiyə-Azərbaycan dostluğunun daha da yüksəklərə qalxmasına xidmət edəcəkdir.

Mən hörmətli qonağımız, baş nazir Məsud Yılmazı bu əlamətdar hadisə münasibətilə bir daha təbrik edirəm. Hörmətli dostumuz, sizə cansağlığı, xoşbəxtlik, bütün işlərinizdə uğurlar diləyirəm. [130-131]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ MƏSUD YILMAZLA SABUNÇU RAYONUNDAKI 6 SAYLI TEXNİKİ PEŞƏ MƏKTƏBİNİN YATAQXANASINDA YAŞAYAN FÜZULİ, CƏBRAYIL, ZƏNGİLAN QAÇQINLARININ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*15 aprel 1996-cı il*

Əziz bacılar, qardaşlar, əziz balalar, əziz övladlar!

Mən bu fürsətdən istifadə edib sizin hamınızı səmimi qəlbdən salamlayır, sizə öz hörmətimi, ehtiramımı, məhəbbətimi, sevgimi çatdırıram və bu gün sizinlə bir daha görüşdüyümdən çox məmnun olduğumu bildirirəm.

Türkiyə Cümhuriyyətinin baş naziri, bizim əziz dostumuz hörmətli Məsud Yılmaz ikinci gündür ki, Azərbaycanda rəsmi səfərdədir. O, sizinlə görüşməyə gəlibdir. Mən də sizinlə görüşməyə gəlmişəm. Sizinlə görüşmək bizim üçün həmişə ən yüksək vəzifədir, ən böyük borcdur. Çünki siz Ermənistan silahlı qüvvələrinin işğalçılığı nəticəsində yerinizdən-yurdunuzdan didərgin düşmüsünüz, neçə ildir ki, ağır vəziyyətdə yaşayırsınız. Azərbaycan xalqının sizin kimi bır milyon vətəndaşı erməni silahlı qüvvələrinin işğalçılığı nəticəsində yerindən-yurdundan didərgin düşübdür. Siz bilirsiniz ki, çoxları ağır vəziyyətdə çadırlarda yaşayır. Siz özünüz də burada – keçmiş məktəb binasında çox ağır şəraitdə yaşayırsınız. Hörmətli qonağımız cənab Məsud Yılmazla mən burada sizin yaşadığınız otaqlara baxdıq. Gördük ki, vəziyyətiniz çox ağırdır, çətindir. Amma eyni zamanda Azərbaycan xalqına xas olan xüsusiyyətlər sizin hər birinizdə var. Sizin bu xoş görüşünüz, təbəssümünüz, belə ağır vəziyyətdə olmağınıza baxmayaraq, qonağı şadlıqla, sevgi və məhəbbətlə qarşılamağınız və ruhdan düşməməyiniz, böyük ümidlərlə yaşamağınız Azərbaycan xalqına, bütün türk xalqlarına məxsus olan bir xüsusiyyətdir. Bu xüsusiyyət əsrlər boyu bizi yaşadıb, dözümlü edib, ağır dövrlərdən, ağır sınaqlardan, ağır çətinliklərdən çıxarıbdır. Mən tam əmi[131-132]nəm ki, bu xüsusiyyət bizi – Azərbaycan xalqını bu ağır vəziyyətdən də çıxaracaqdır.

Siz bilirsiniz ki, biz, yəni Azərbaycanın dövləti, hökuməti, şəxsən mən erməni işğalçılarının ərazilərimizdən çıxması üçün əlimizdən gələn bütün tədbirləri görürük. İki ilə yaxındır ki, biz atəşi dayandırmışıq, cürbəcür vasitələrdən istifadə edib danışıqlar aparırıq, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Bu sahədə çox işlər görülübdür. Doğrudur, hələ bir nəticə əldə olunmasa da, güman edirəm, görülən işlər son nəticəsini verməlidir. Bütün bu işlərimizdə Türkiyə Cümhuriyyəti, onun rəhbərləri bizə daim yardım edirlər, türk xalqı həmişə bizimlədir. Ermənistanın Azərbaycana silahlı təcavüzü başlanandan indiyə qədər biz Türkiyəni, Türkiyə xalqını, Türkiyə Cümhuriyyətinin rəhbərlərini, başçılarım öz yanımızda, özümüzlə bərabər görürük. Bu, bizim üçün böyük təskinlikdir, dayaqdır, eyni zamanda böyük yardım və köməkdir. Bütün tədbirlərdə, beynəlxalq təşkilatlarda apardığımız danışıqlarda Türkiyə Cümhuriyyətinin nümayəndələri, Türkiyə hökuməti həmişə bizimlə olub, bizimlə birlikdə bütün tədbirlərin aparılmasına çalışırlar.

Dünən və bu gün hörmətli qonağımız – baş nazir, cənab Məsud Yılmazla bizim danışıqlarımızda da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazisindən çıxarılması, torpaqlarımızın azad olunması, Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi və bizim bölgədə tam sülhün yaranması məsələsi əsas mövzumuz olubdur. Hörmətli qonağımız Türkiyə Respublikasının bu məsələlərdə mövqeyini bir daha bildiribdir. O, indi sizin qarşınızda öz çıxışında da bildirdi ki, Türkiyə daim Ermənistanın təcavüzkar olduğunu bəyan edib, onun təcavüzkar hərəkətlərini pisləyib, bu gün də pisləyir və bu da bizim üçün böyük bir mənəvi dayaqdır. Ancaq tək bu yox. Biz Türkiyə ilə bərabər öz məsələlərimizi həll etməyə çalışırıq.

Sizin qarşınızda, yerindən-yurdundan didərgin düşmüş, bir neçə il belə ağır vəziyyətdə yaşayan Azərbaycan vətəndaşlarının qarşısında bir daha deyirəm ki, Türkiyə ilə Azərbaycan arasında olan dostluq əlaqələri Azərbaycanın bu vəziyyətdən çıxması üçün çox böyük bir əhəmiyyətli amildir və Türkiyə bütün bu işlərimizdə bizim üçün dayaqdır.

Azərbaycan xalqına bu ağır dövrdə etdiyi yardımlara, köməyə görə, verdiyi dəstəklərə görə Türkiyə Cümhuriyyətinə öz [132-133] təşəkkürümü bildirirəm və sizin adınızdan Türkiyə Cümhuriyyətinə, onun baş naziri hörmətli Məsud Yılmaza, bizim əziz dostumuz, Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirələ, Türkiyədə olan bütün bacı-qardaşlarımıza bir daha müraciət edirəm ki, bundan sonra da Azərbaycan xalqının bu ağır vəziyyəti ilə daim maraqlansınlar, bizimlə bir yerdə olsunlar və sizin bu ağır vəziyyətdən çıxmağınız üçün əllərindən gələni əsirgəməsinlər. Güman edirəm, bu, belə də olacaqdır.

Bir daha sizi salamlayıram, bir daha sizdən dözümlülük istəyirəm. Dözün ki, biz bu ağır vəziyyətdən çıxaq. Eyni zamanda mən sizin əhval-ruhiyyənizi bilirəm. Sizin də fikirləriniz, mənim də fikirlərim belədir ki, biz məsələləri sülh yolu ilə həll etməyə çalışırıq, işğal edilmiş torpaqlarımızın sülh yolu ilə azad olunmasına çalışırıq. Ancaq bunlar nəticə verməsə siz hazır olmalısınız, biz də hazır olmalıyıq ki, işğal olunmuş torpaqları

nəyin bahasına olursa-olsun – canımızın, qanımızın bahasına azad etməliyik, öz ərazimizin, torpaqlarımızın sahibi olmalıyıq.

Sizə cansağlığı, dözümlülük arzu edirəm. Ümidvaram ki, siz də inanırsınız ki, Azərbaycanın xoşbəxt gələcəyi var, bu günlər geridə qalacaq. Ağır günün, çətin günün ömrü çox gödək olur. Biz tezliklə tamamilə yeni bir həyata qovuşacağıq. Torpaqlarımız azad olacaq, siz öz yerinizə, yurdunuza qayıdacaqsınız. Sağ olun. [133-134]

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ RESPUBLİKANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi müqəddəs dini bayram – Pasxa münasibətilə ürəkdən təbrik edir, hamınıza xoşbəxtlik, şəxsi həyatınızda nailiyyətlər arzulayıram.

Tarixən Azərbaycanda dünya dinləri dinc yanaşı və qarşılıqlı hörmət şəraitində fəaliyyət göstərmişlər. Azərbaycan dövləti bu gün də öz ənənələrinə sadiqdir. Vicdan azadlığı, dini etiqad sərbəstliyi cəmiyyətimizin mənəvi sərvətlərindəndir. Müstəqil, demokratik respublikamızda bütün konsessiyalar cəmiyyətdə əxlaqi dəyərlərin, əmin-amanlığın, dostluğun və vətəndaş həmrəyliyinin bərqərar olması, insanların ilahi kəlama tapınması üçün öz nəcib vəzifələrini həyata keçirirlər. Bu işdə rus pravoslav kilsəsinin də layiqli xidməti vardır.

Qoy bu bayram Azərbaycanda yaşayan bütün xalqları bir-birinə daha da yaxınlaşdırsın, hər birinizin evinə sevinc, şadlıq və bərəkət gətirsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 aprel 1996-cı il* [134-135]

## BAKIDA "RAMSTORE" SUPERMARKETİNİN AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*15 aprel 1996-cı il*

Hörmətli baş nazir cənab Məsud Yılmaz!
Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün, Türkiyənin baş naziri Azərbaycanda rəsmi səfərdə olduğu zaman biz ölkələrimiz arasında əməkdaşlıqda yeni bir addımı müşahidə edirik. Bu, çox gözəl bir təşəbbüsdür. Yəni bu gün burada bu böyük mağazanın – supermarketin açılması Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyini göstərir. Bu mağaza Türkiyənin ən böyük şirkəti olan "Qoç qrupu" tərəfindən yaradılıb. "Qoç qrupu" Türkiyənin iqtisadiyyatında çox görkəmli yer tutur, ölkənin bütün iqtisadiyyatına, o cümlədən ticarətinə böyük təsir göstərir və dünyada çox məşhur bir şirkətdir. Biz "Qoç qrupu"nun Azərbaycana gəlməsini gözləyirdik. 1994-cü ilin fevralında mən Türkiyədə rəsmi səfərdə olduğum zaman mərhum Vəqfi Qoç ilə görüşdüm, onunla çox mehriban söhbət etdik. Mən "Qoç qrupu"nun Azərbaycana gəlməsini ondan xahiş etdim. Danışıqlarımız, söhbətlərimiz mənə ümid verdi ki, bu qrup Azərbaycana gələcək və ölkəmizlə iş birliyinə başlayacaqdır. Bizim danışıqlarımız artıq öz nəticəsini verir. "Qoç qrupu" Azərbaycana gəlib, belə böyük gözəl bir mağaza – supermarket yaradıb.

Azərbaycanda keçmişdə də çox böyük mağazalar tikilib. Onlar indi də fəaliyyət göstərirlər. Ancaq bu mağaza – supermarket müasir tələblərə, dünya standartlarına uyğun olan bir ticarət mərkəzidir. Sadəcə ticarət etmək yox, Azərbaycanda iqtisadiyyata, ticarətə, ticarətin dünya səviyyəsinə qalxmasına onun təsirinin də böyük əhəmiyyəti olduğunu mən bu gün qeyd etmək istəyirəm. Bir daha deyirəm, bu, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələrdə yeni addımdır, nümunədir. Mən bunu bəyənirəm. Bu supermarketin Azərbaycanda yaranması, ona burada, Bakının gözəl guşələrinin birində yer verilməsi üçün mən lazımi səylər göstərdim, təlimatlar verdim. Çox məmnunam ki, biz Türkiyənin baş naziri, hörmətli [135-136] qonağımız Məsud Yılmazla birlikdə bu mağazanın işə başlamasının şahidiyik.

Mən sizi, "Qoç qrupu"nu, onun Azərbaycanda olan ortağını bu hadisə münasibətilə təbrik edirəm və bu mağazaya gələcək işlərində uğurlar diləyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bu mağaza yaxşı işləyəcək, Azərbaycan vətəndaşlarına yaxşı xidmət edəcək, respublikamızda ticarətin inkişafına kömək edəcəkdir. Mən "Qoç qrupu"nun buradakı bəyanatlarını da çox məmnuniyyətlə qəbul edirəm ki, "Qoç qrupu" Azərbaycanda öz işinə davam edəcək və respublikamızın iş adamları ilə birlikdə bundan sonra da yeni-yeni belə müştərək işlər görəcəkdir.

Mən sizi əmin edirəm ki, sərmayə qoymaq, müştərək iş görmək üçün Azərbaycanda hər cür şərait yaratmışıq və bundan sonra da yaradacağıq. İş prosesində, ola bilər, hansısa problemlər meydana çıxsın, əngəllər olsun. Bu, təbiidir, çünki belə hadisələrə ictimaiyyətimiz indi-indi alışır, onları qəbul edir. Ancaq mən bildirmək istəyirəm ki, bu maneələr, əngəllər vaxtında aradan qaldırılacaq və gələcəkdə də belə işlərin görülməsi üçün geniş yollar açılmasının tərəfdarıyam, buna gələcəkdə də dəstək verəcəyəm.

Mən sizi təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Bakı şəhərinin vətəndaşları bu mağazadan hər gün faydalanacaqlar və sizin işinizdən razı qalacaqlar. Bütün işlərinizdə – "Qoç qrupu"nun həm Türkiyədə, həm də dünyanın bütün ölkələrindəki işlərində uğurlar diləyirəm. Türkiyə-Azərbaycan iqtisadi, ticarət əlaqələrinin daha da möhkəmlənməsini arzulayıram. [136-137]

## DÖVLƏT BAYTARLIQ XİDMƏTLƏRİ RƏHBƏRLƏRİNİN BEYNƏLXALQ MÜŞAVİRƏSİNİN İŞTİRAKÇILARINA

Beynəlxalq Epizootik Büronun rəhbərliyi ilə Müstəqil Dövlətlər Birliyi, Baltikyanı, Şərqi Avropa ölkələrinin, Türkiyə və İran dövlətlərinin baytarlıq xidmətləri rəhbərlərinin və bu sahədə çalışan işgüzar dairələrin nümayəndələrinin Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən beynəlxalq müşavirəsinin iştirakçılarını salamlayır və onlara işlərində uğur diləyirəm.

Sivilizasiyanın yüksək mərhələyə çatdığı indiki dövrdə rolu xeyli artmış baytarlıq xidməti xəstəliklərə və epizootiyalara qarşı mübarizə aparmaqla yanaşı, insan üçün zəruri olan qida məhsullarının sağlam və keyfiyyətli olmasını daim nəzarətdə saxlamaqla, bütünlüklə bəşəriyyətin sağlamlığını qoruyur.

Ümidvaram ki, dünyanın baytarlıq xidməti işçiləri bu çətin və məsuliyyətli vəzifənin öhdəsindən bundan sonra da ləyaqətlə gələcəklər.

Beynəlxalq Epizootik Büronun fəaliyyətini və baytarlıq təbabəti sahəsində əməkdaşlığı yüksək qiymətləndirərək, bu işdə ölkələrimiz qarşısında duran qlobal məsələlərin həllində sizə böyük müvəffəqiyyətlər arzulayıram.

**HEYDƏR ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti

*18 aprel 1996-cı il* [137-138]

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!

Əziz bacılar və qardaşlar!

Allah-təalanın islamı bir din kimi tamamlayıb insanlar üçün seçdiyi bu əziz Qurban bayramı günündə hamınızı ürəkdən təbrik edir, sizə cansağlığı və xoşbəxtlik arzulayıram.

Böyük xaliqin bəxş etdiyi nemətlərə görə bu minnətdarlıq günündə etdiyiniz dua və niyyətlərin çoxu doğma Azərbaycanımızın suverenliyinin, ərazi bütövlüyünün qorunmasına, xalqımızın əmin-amanlıq içində, xoşbəxt və firavan həyata qovuşmasına yönəlmişdir. Əminəm ki, sizin bütün arzu və diləkləriniz Allahın köməyi və xalqımızın iradəsi ilə həyata keçəcəkdir.

Bütün müsəlmanların həmrəylik və qardaşlıq bayramı olan mübarək Qurban bayramı günündə hamınızı xalqımızın haqq işinin təntənəsi, müstəqil respublikamızın çiçəklənməsi naminə daha sıx birlik və əzmkarlıq nümayiş etdirməyə çağırıram.

Bu müqəddəs bayram günlərində ölkəmizin hər tərəfində sülh və əmin-amanlığın, hər bir evdə xoş əhval-ruhiyyənin bərqərar olmasını Allahdan diləyirəm!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*19 aprel 1996-cı il* [138-139]

**AZƏRBAYCAN ELMLƏR AKADEMİYASININ HƏQİQİ ÜZVÜ MARK DALİNƏ**

Hörmətli Mark Aleksandroviç!

Sizi – Azərbaycanın qocaman alimini, əməkdar elm xadimini, neft-kimya sənayesinin banilərindən birini anadan olmağınızın 90 illiyi münasibətilə təbrik edirəm.

Siz bütün ömrünüzü Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edən neft-kimya məhsullarının sənaye istehsalının elmi əsaslarının işlənməsinə sərf etmişsiniz. Çoxsaylı elmi əsərləriniz və ixtiralarınız Azərbaycan və dünya elminin inkişafına xidmət etmişdir.

Fitri istedad, yüksək təşkilatçılıq bacarığınız sayəsində Siz böyük nüfuzu olan alim, istehsalat rəhbəri və ictimai xadim kimi tanınmışsınız. Azərbaycan elmi kadrlarının yetişdirilməsində də Sizin zəhmətiniz əvəzsizdir. Bu gün Azərbaycanın neft-kimya sahəsində çalışan alim və mütəxəssislərin böyük qismi Sizin yetirmələrinizdir.

Əziz Mark Aleksandroviç, bir daha Sizi ürəkdən salamlayır, möhkəm cansağlığı, xoşbəxtlik arzulayır, bütün niyyətlərinizin gerçəkləşməsini diləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*21 aprel 1996-cı il* [139-140]

## QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA MÜXBİRLƏRİN SUALLARINA CAVAB

*21 aprel 1996-cı il*

Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıq artıq başlanıbdır. Biz xeyli zamandır ki, bu əməkdaşlığı yaratmaq üçün addımlar atmışıq, danışıqlar aparmışıq və nəhayət, indi Avropa Birliyi qərara alıbdır ki, aprelin 22-də Lüksemburqda Avropa Birliyinin üzvü olan ölkələrin xarici işlər nazirlərinin toplantısında Azərbaycan, eləcə də Gürcüstan və Ermənistan Avropa Birliyinə qəbul olunmaq üçün saziş imzalayacaqlar. Bu, şübhəsiz ki, ilkin sazişdir, amma çox mühüm bir sazişdir və bunun tarixi əhəmiyyəti var. Çünki bu saziş Azərbaycanın Avropa Birliyinə qoşulmasında böyük bir addımdır. Bunun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Bu, Azərbaycanda demokratiyanın inkişafı, Azərbaycanın demokratiya yolu ilə, bazar iqtisadiyyatı yolu ilə getməsi prinsiplərinin Azərbaycanda daha da inkişaf etməsi üçün yeni bir mərhələdir. Ona görə mən buna çox böyük əhəmiyyət verirəm və bir də qeyd edirəm ki, mən yola düşməzdən öncə biz burada Azərbaycanda bu məsələni müzakirə etdik. Hesab edirəm ki, bu, Azərbaycanın həyatında tarixi hadisədir.

Eyni zamanda mən Brüsseldə olarkən NATO-nun Baş Qərargahına gedəcəyəm. Bildiyiniz kimi, 1994-cü il mayın 4-də Azərbaycan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulubdur və o zaman mən bu barədə sənədi imzalamışam. İndi o sənədin imzalanması ilə əlaqədar bu qoşulmanın prezentasiya sənədi təqdim ediləcəkdir. Burada da görüşlərimiz olacaqdır.

Ondan sonra isə mən Norveçə yola düşəcəyəm. Norveç ilə Azərbaycan arasındakı əlaqələr son zamanlar çox sürətlə inkişaf edir. Bilirsiniz ki, Norveçin böyük neft şirkəti "Statoyl" Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının istifadə olunmasında iştirak edir və konsorsiumun üzvüdür. Biz onlarla çox sıx əməkdaşlıq edirik və Norveç hökumətinin dəvəti ilə mən bu ölkəyə rəsmi səfərə gedirəm. Orada Norveçlə [140-141] Azərbaycan arasında əlaqələrin inkişaf etdirilməsi üçün danışıqlar aparılacaq və bir çox sənədlər imzalanacaqdır.

Hesab edirəm ki, bunların hamısı Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirən və onu dünyada bir daha nümayiş etdirən addımlardır, hadisələrdir və eyni zamanda Azərbaycanın Dünya Birliyində tutduğu özünəməxsus yeri bir daha əyani surətdə nümayiş etdirir.

**Sual: Ayaz Mütəllibovun Azərbaycana verilməsi məsələsinə necə baxırsınız?**

**Cavab:** Adamlar öz vətənindən qaçmamalıdırlar. Hətta hüquqa, qanuna zidd hansısa əməllər törətmiş olsalar da, öz xalqı, öz hakimiyyət orqanları qarşısında bunu etiraf etmək yaxşıdır, nəinki hansısa başqa bir ölkədə sığınacaq tapmaq. İndiki halda Mütəllibov da, Rəhim Qazıyev də cinayət etmişlər. Əslində elə buna görə də uzun müddətdir ki, Azərbaycanın hüdudlarından kənarda gizlənirdilər. Bilirsiniz ki, Rəhim Qazıyev Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən həbs edilmiş və respublikamıza verilmişdir, Azərbaycanın hüquq-mühafizə orqanlarının sərəncamındadır. Mütəllibov da həbs olunub və Rusiyanın hüquq-mühafizə orqanlarının sərəncamındadır.

Zənnimcə, bunun özü Rusiya ilə Azərbaycan arasında, o cümlədən hüquq-mühafizə orqanlarımız arasında mehriban əməkdaşlığın olmasına inandırıcı sübutdur. Bu fakt göstərir ki, Rusiya ilə Azərbaycan arasında münasibətlər dostluq xarakteri daşıyır və biz bu münasibətləri çox yüksək qiymətləndirir, bunları bütün sahələrdə – iqtisadiyyatda da, elm-texnika sahəsində də inkişaf etdirmək, dərinləşdirmək üçün hər şeyi edirik. Yeri gəlmişkən, deyim ki, aprelin 23-də Moskvada Azərbaycan mədəniyyəti günləri başlanacaqdır. Biz Rusiya ilə dostluğu Azərbaycanın xarici siyasət sahəsində əməkdaşlığının çox mühüm amili sayırıq.

Rəhim Qazıyevə gəldikdə isə, bilirsiniz ki, o, Milli Təhlükəsizlik Nazirliyinin təcridxanasından qaçmış və qanunsuz yolla Azərbaycanın hüdudlarını tərk edərək Moskvada gizlənirdi. Şübhəsiz ki, buna görə cavab verməlidir. O ki qaldı bağışlanma haqqında müraciətə, bizim məhkəməmiz ədalətlidir, əgər insan öz günahını başa düşürsə, əməllərindən peşman olursa, ona həmişə rəhm edilir. Ona da belə münasibət ola bilər.

Mənə məlum olduğuna görə, Mütəllibov ən yüksək cəza ölüm cəzası nəzərdə tutulan maddə ilə ittiham edilmir. Buna görə də hesab edirəm ki, onun barəsində belə cəza tətbiq olu[141-142]na bilməz. Ümumən onun məsuliyyət daşımasına gəldikdə isə, hesab edirəm ki, o, Vətəninə qayıtmalı və ədalət məhkəməsi qarşısında dayanmalıdır. Məhkəmə ona ədalətlə və mərhəmətlə yanaşacaqdır.

**Sual: Axtarışda olan adamların verilməsi müqabilində Azərbaycanın müəyyən güzəştlərə gedəbiləcəyi barədə şayiələrlə əlaqədar fikrinizi bilmək olarmı?**

**Cavab:** Bilirsiniz, bunlar çox bəsit uydurmalardır. Dövlətlərarası münasibətlər, xüsusən də Azərbaycan üçün çox yaxın, dost dövlət olan Rusiya kimi böyük bir ölkə ilə münasibətlərimiz hansısa təsadüfi amillər əsas götürülməklə qurula bilməz. Bu şayiələr olduqca bəsit uydurmadır. Mən də fikir vermişəm, Moskva mətbuatında belə mülahizələr, ehtimallar artıq dərc olunur. Mən buna hətta təəccüb edirəm. Bilirsiniz, biz

Rusiya ilə çox mehriban əməkdaşlıq edirik, bu əməkdaşlıq konyunktura xarakteri daşımır və hansısa cinayətkarın Azərbaycana verilib-verilməməsindən asılı ola bilməz. Əgər biz dövlətlərarası münasibətlərimizi həmin prinsiplər əsasında qursaydıq, bu, bizim də, Rusiyanın da səviyyəsini aşağı salmış olardı. Hesab edirəm ki, Rusiya Federasiyası dövləti də, Azərbaycan dövləti də bu təsadüfi hallardan çox-çox yüksəkdə dayanır.

Biz Rusiya ilə fəal əməkdaşlıq edirik. Biz MDB-yə daxilik, onun tərkibində də əməkdaşlığımız uğurla gedir. Xəzərdəki neft yataqlarının birgə işlənməsində də Rusiya Federasiyası ilə çox fəal əməkdaşlıq edirik, Rusiyanın "LUKoyl" şirkəti beynəlxalq konsorsiumda böyük yer tutur. Bu ilin yanvarında Moskvada mən və Rusiyanın baş naziri cənab Çernomırdin Azərbaycandan ilkin neftin Rusiyanın Novorossiysk limanına və oradan Qara dəniz vasitəsilə ixracına dair böyük saziş imzalamışıq. Əməkdaşlığa dair çoxlu başqa layihələrimiz də var, bunlar irimiqyaslı, dövlətlərarası xarakter daşıyır. Rəhim Qazıyevin, yaxud Mütəllibovun şəxsiyyəti bununla müqayisədə əhəmiyyətsiz şeydir.

## RUSİYA FEDERASİYASININ LÜKSEMBURQDAKI SƏFİRLİYİ ƏRAZİSİNDƏ BÖYÜK AZƏRBAYCAN ŞAİRİ NİZAMİ GƏNCƏVİNİN ABİDƏSİ ÖNÜNDƏ ÇIXIŞ

*22 aprel 1996-cı il*

Hələ Sovet İttifaqının varlığı dövründə, mən Azərbaycanın rəhbəri olarkən SSRİ-nin Lüksemburqdakı səfiri səfirliyin ərazisində yaradılan, bütün müttəfiq respublikalardan eksponatlar qoyulacaq qalereya üçün elə bir şey göndərməyi xahiş etdi ki, o, Azərbaycan tarixini və ya mədəniyyətini əks etdirsin. O vaxt biz bu qalereya üçün Nizami Gəncəvinin heykəlini təqdim etməyi lazım bildik. Bunun böyük mənası var. Axı Nizamı Gəncəvi bütün bəşər sivilizasiyasına məxsusdur. Onun dünya sivilizasiyasına, dünya mədəniyyətinə, dünya ədəbiyyatına verdiyi töhfə hamıya məlumdur. Lakin bununla bərabər, o, azərbaycanlıdır, Azərbaycan şairidir. Odur ki, burada həm ümumbəşəri mədəniyyət, ümumbəşəri dəyərlər, – hesab edirəm ki, onlar bütün Dünya Birliyinin əsasıdır, – həm də milli fərq, milli xarakter vəhdət yaradır. Hər bir xalq ümumbəşəri mədəniyyətə öz töhfəsini vermişdir və verir. Bütün bunlar isə ümumbəşəri dəyərləri əmələ gətirir.

Mən şadam və çox sağ olun ki, bunların hamısı yaxşı vəziyyətdədir. Ümidvaram ki, bundan sonra da belə olacaqdır. Tale elə gətirdi ki, bu səfirlik Rusiyanın səfirliyinə çevrildi. İndiki halda da bu, Rusiya ilə Azərbaycan arasında, xalqlarımız arasında dostluğun rəmzi olacaqdır. Bir baxın, burada nə qədər rəmzlər var. Mən bunların hamısını ümumi sərvətimiz, ümumi dəyərlərimiz hesab edirəm.

Mən sizi salamlayıram və şadam ki, fürsətdən istifadə edərək Rusiya Federasiyası səfirliyinin ərazisindəyəm. Rusiya ilə münasibətlər xarici siyasətimizin çox mühüm istiqamətidir. İstər MDB çərçivəsində əməkdaşlığımız, istərsə də birgə həyatımız, fəaliyyətimiz dövründə, keçmişdə, xüsusən biz vahid bir dövlətin tərkibində olduğumuz illərdə, Rusiya ilə Azərbaycan arasında dostluğun və qarşılıqlı münasibətlərin böyük tarixi ər[143-144]zində toplanmış olan hər şey bu gün böyük nemət, Azərbaycan xalqı üçün böyük nailiyyətdir. Biz istər Rusiyada, istərsə də Azərbaycanda keçmişdə, adamlarımızın əvvəlki nəsilləri tərəfindən əldə edilən hər bir nailiyyəti, habelə hazırda bütün sahələrdə xalqlarımız arasında əməkdaşlığın uğurlu inkişafı üçün görülən hər bir tədbiri çox yüksək qiymətləndiririk. Bununla əlaqədar, Lüksemburqa qısamüddətli səfərim zamanı Rusiya səfirliyində olmaq imkanı mənim üçün çox böyük hadisədir. Mən sizi salamlayıram və Rusiya ilə dostluğa və əməkdaşlığa sadiqliyimizi bir daha qeyd edirəm. [144-145]

## AZƏRBAYCAN RESPUBLİKASI İLƏ AVROPA BİRLİYİ ARASINDA TƏRƏFDAŞLIQ VƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞİN İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*Lüksemburq*

*22 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Azərbaycan Respublikası ilə Avropa Birliyi arasında tərəfdaşlıq və əməkdaşlıq haqqında bu gün imzalanan saziş gənc müstəqil Azərbaycan dövləti üçün çox böyük əhəmiyyəti olan tarixi bir hadisədir.

Saziş hərtərəfli əməkdaşlığı genişləndirmək və dərinləşdirmək, beynəlxalq sülhü və təhlükəsizliyi, inteqrasiya prinsiplərini möhkəmləndirmək, insan hüquqlarını qorumaq, bütün Avropa qitəsində tərəqqiyə və səmərəli əməkdaşlığa nail olmaq üçün geniş üfüqlər açır.

Azərbaycan Avropa ölkələri arasında inteqrasiya proseslərinin gələcəyinə böyük ümidlər bəsləyir və bərabərhüquqlu tərəfdaş kimi bu proseslərdə fəal iştirak edəcəkdir.

Dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə əzmlə irəliləyir. Qısa bir zaman ərzində bu sahədə xeyli nailiyyətlər əldə edilmişdir. Respublikada otuzdan artıq siyasi partiya fəaliyyət göstərir, siyasi plüralizm, söz azadlığı, mətbuat və vicdan azadlığı bərqərar olmuşdur. Referendum yolu ilə müstəqil Azərbaycanın ilk demokratik konstitusiyası qəbul edilmiş, respublikanın parlamentinə çoxpartiyalı əsasda ilk demokratik seçkilər keçirilmişdir.

Biz azad sahibkarlığa və bazar iqtisadiyyatına əsaslanan geniş miqyaslı iqtisadi islahatlar aparırıq. Mülkiyyətin özəlləşdirilməsinə dair dövlət proqramı qəbul edilib və həyata keçirilir. Özəl sektorun yaradılması və xarici investisiyaların cəlb edilməsi üçün hər cür şərait təmin olunur.

Dünyanın aparıcı şirkətləri ilə imzalanmış sazişlər Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasında mühüm rol oynayır. Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyat[145-146]larının birgə istismarına dair xarici şirkətlərlə bağlanmış neft müqavilələri buna əyani sübutdur.

İqtisadi islahatları həyata keçirmək üçün biz beynəlxalq maliyyə təsisatları və beynəlxalq təşkilatlar ilə sıx əməkdaşlıq edirik. Avropa Birliyi ilə əməkdaşlığa isə xüsusi əhəmiyyət veririk.

Avropa Birliyinin topladığı təcrübə və bu birliyə daxil olan dövlətlərin demokratiyanı inkişaf etdirməkdə, səmərəli iqtisadiyyat yaratmaqda, öz xalqlarının firavanlığını təmin etməkdə qazandıqları müvəffəqiyyətlər gənc müstəqil dövlətlər üçün gözəl nümunədir.

Beynəlxalq sülhü və təhlükəsizliyi qoruyub saxlamaq və möhkəmləndirmək sahəsində də Avropa Birliyinin böyük nailiyyətləri var. Bir çox kəskin beynəlxalq problemlər barəsində Avropa Birliyinin tutduğu prinsipial mövqelər istər Avropada, istərsə də onun hüdudlarından kənarda münaqişələrin ədalətlə aradan qaldırılmasına dəfələrlə kömək etmişdir. Biz ümid edirik ki, Cənubi Qafqazda mövcud olan problemlərin həllində də Avropa Birliyi daha fəal iştirak edəcək və bu da regionumuzda sülhün və sabitliyin tezliklə bərpa olunmasına öz təsirini göstərəcəkdir.

Azərbaycana qarşı törədilmiş təcavüz nəticəsində ərazimizin iyirmi faizi işğal edilmiş, minlərlə kəndlər, şəhərlər, sosial, xalq təsərrüfatı obyektləri, mədəniyyət abidələri dağıdılmış, yerlə yeksan edilmişdir. İşğal olunmuş ərazilərdən bir milyondan çox Azərbaycan vətəndaşı öz doğma yurdlarından didərgin düşmüş və qaçqın vəziyyətində yaşayır.

Böyük itkilərə, xalqımıza dəyən maddi və mənəvi zərbələrə baxmayaraq, biz Ermənistanla münaqişəni sülh yolu ilə, ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar yolu ilə həll etməyin tərəfdarıyıq. Sülhə nail olmaq üçün dövlətlərin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanımaq, beynəlxalq hüquq normalarına əməl etmək lazımdır.

Bu mötəbər məclisdə mən bir daha bəyan edirəm ki, biz bu prinsiplərə bundan sonra da sadiq olacağıq, Ermənistan ilə Azərbaycan arasında sülhün əldə olunmasına çalışacağıq.

Bunun üçün işğal olunmuş bütün Azərbaycan ərazilərindən Ermənistan silahlı qüvvələri çıxmalıdır.

Yerlərindən-yurdlarından didərgin düşmüş qaçqınlar doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycan Respublikası Dağlıq Qarabağa Azərbaycan [146-147] dövlətinin tərkibində müasir dünya təcrübəsində mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırdır. İki dövlət arasında sülhün əldə olunması regionda sabitliyi və iqtisadi çiçəklənməni təmin edəcəkdir. Fürsətdən istifadə edib, Azərbaycana göstərilən humanitar yardım üçün Avropa Birliyinə öz təşəkkürümü bildirirəm. Humanitar yardım hərbi təcavüz nəticəsində ziyan çəkmiş yüz minlərlə adamın vəziyyətini yüngülləşdirmişdir. Ümidvaram ki, Avropa Birliyi

gənc dövlətimizin ehtiyaclarının və problemlərinin həll olunmasında bundan sonra da öz xeyirxahlığını əsirgəməyəcəkdir.

Azərbaycan ilə Avropa Birliyinin münasibətlərində yeni səhifə açarkən bir daha bəyan edirəm ki, sülh və sabitlik naminə, Avropa qitəsinin bütün xalqlarının rifahı naminə əlimizdən gələni edəcəyik.

Diqqətinizə görə təşəkkür edirəm. [147-148]

## AVROPA KONFRANS MƏRKƏZİNDƏ ZAQAFQAZİYANIN ÜÇ RESPUBLİKASI PREZİDENTLƏRİNİN BİRGƏ MƏTBUAT KONFRANSI

*Lüksemburq*

*22 aprel 1996-cı il*

**Sual:** Cənab Ter-Petrosyan, Ermənistanın da üzv olduğu BMT və ATƏT-in prinsiplərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanımaqda nə üçün çətinlik çəkirsiniz? Axı məlum olduğu kimi, Zaqafqaziyanin üç dövləti liderlərinin bəyannamə imzalaması yolunda əngəl məhz budur. Köçəryanın Dağlıq Qarabağa müstəqillik verilməsinin zəruriliyi barədə verdiyi, əslində ikinci erməni dövləti yaratmaq demək olan bəyanatlara münasibətiniz necədir?

**Levon Ter-Petrosyan:** Birinci sualınıza – Azərbaycanın ərazi bütövlüyünü Ermənistanın nə üçün tanımaması haqqında suala cavab verim. Sizə əks sualım var – Azərbaycan Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnu nə üçün tanımır?

**Jurnalistin cavabı:** Azərbaycan BMT-nin prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək hüququnu tanıyır.

**Sual:** Cənab Ter-Petrosyan, Ermənistan birliyin iştirakçısı olan dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına əməl edilməsi haqqında bəyannaməni imzalamaqdan boyun qaçırmışdır. Azərbaycan da daxil olmaqla MDB dövlətlərinin ərazi bütövlüyü məsələsində Ermənistanın mövqeyini necə izah edərdiniz? Bildiyiniz kimi, vasitəçilər belə hesab edirlər ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoymaq üçün tərəflər qarşılıqlı güzəştə getməlidirlər. Azərbaycan prezidenti dəfələrlə bəyan etmişdir ki, onun ölkəsi güzəştə getməyə hazırdır və Azərbaycan Dağlıq Qarabağa ən yüksək muxtariyyət statusu verir. BMT-nin üzvü kimi [148-149] Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazırdırmı? Sonrakı sualım prezident Heydər Əliyevə və Ermənistan prezidentinədir: dünənki rəsmi məlumatda qeyd olunmuşdur ki, münaqişənin aradan qaldırılması beynəlxalq prinsiplərə əməl edilməsinə əsaslanmalıdır. Bunu deyərkən nəyi nəzərdə tutursunuz?

**Levon Ter-Petrosyan:** Birinci suala cavab vermişəm. İkinci sual barədə onu deyə bilərəm ki, beynəlxalq hüquqlar deyərkən hamımızın hörmət etdiyimiz on prinsipi nəzərdə tuturuq. Bunların hamısının eyni qüvvəsi var. O ki, qaldı Dağlıq Qarabağın statusuna, bu məsələni Dağlıq Qarabağın əhalisi həll etməlidir.

**Heydər Əliyev:** Beynəlxalq hüquq normalarına əməl edilməsi ifadəsi altında, şübhəsiz ki, bütün beynəlxalq hüquq normalarını nəzərdə tuturuq. Buraya çox anlayışlar daxildir və onlardan heç biri istisna edilmir.

**Sual:** Sovet İttifaqını keçmiş sərhədləri daxilində bərpa etmək barədə Moskvada göstərilən cəhdlərə necə baxırsınız?

**Eduard Şevardnadze:** Mən bunu yolverilməz sayıram. Yəqin ki, Dövlət Dumasının prezident Yeltsin tərəfindən rüsvayçı qərar adlandırılan qərarını nəzərdə tutursunuz. Zənnimcə, bu, çox dəqiq qiymətdir. Onu da əlavə edim ki, Dövlət Duması özünün bu qərarı ilə NATO-nun Şərqə doğru genişlənməsi prosesinin sürətlənməsinə kömək edir.

**Levon Ter-Petrosyan:** Bilirsiniz, keçmiş Sovet İttifaqında, məhz Rusiyada kommunistlərin qayıtmaq təhlükəsi var. Ölkəmin adından əmin etmək istəyirəm ki, Ermənistan heç vaxt öz suverenliyindən imtina etməyəcək və keçmiş Sovet İttifaqı hüdudlarında heç bir yeni ittifaqa daxil olmayacaqdır. Lakin kommunistlərin qayıtması təkcə keçmiş Sovet İttifaqı respublikaları üçün deyil, zənnimcə, həm də Avropa və bütün dünya üçün böyük təhlükədir. Cənab Şevardnadzenin dediyi məsələyə toxunaraq qeyd etmək istəyirəm ki, Rusiyada demokratiyanın qorunub saxlanması Avropanın təhlükəsizliyi üçün NATO-nun genişlənməsindən daha mühümdür. İndi dünyanın təhlükəsizliyi üçün başlıca məsələ Rusiyada kommunistlərin qayıtmasına yol verməməkdən ibarətdir.

**Heydər Əliyev:** Açıq deyirəm və hesab edirəm [149-150] ki, bununla bütün Azərbaycan xalqının rəyini ifadə etmiş oluram. Bir prezident kimi mən Sovetlər İttifaqının bərpasına və şübhəsiz ki, kommunist rejiminin bərpasına dair Rusiyada özünü göstərən meyllərə qəti şəkildə mənfi münasibət bəsləyirəm. Azərbaycan öz müstəqilliyindən heç vaxt geri çəkilməyəcəkdir. Azərbaycanın müstəqilliyi onun tarixi nailiyyətidir və biz keçmiş Sovetlər İttifaqı kimi hər hansı bir ittifaqa daxil olmağı özümüzə heç vaxt rəva bilməyəcəyik. Hesab edirəm ki, bu niyyətin müəllifləri nəyəsə nail olmağa ümid bəsləyirlərsə, son dərəcə yanılırlar. Rusiyada kommunistlərin qayıtması təhlükəsi var və zənnimcə, demokratik qüvvələr bunun qarşısına sipər çəkməlidirlər. Rusiyada demokratik proseslərin inkişaf etməsinin təkcə onun özü üçün deyil, həm də keçmişdə Sovetlər İttifaqının tərkibində olub indi demokratiya yolu ilə gedən ölkələrin hamısı üçün böyük əhəmiyyəti var.

**Sual:** Cənab Əliyev, siz bəyan etdiniz ki, Azərbaycanda demokratik seçkilər keçirilib, 30 partiya və azad

mətbuat var. ATƏT-in beynəlxalq müşahidəçiləri Azərbaycanda keçirilmiş parlament seçkilərini qeyri-demokratik və qeyri-azad seçkilər kimi səciyyələndirmişlər. Siyasi partiyalar qadağan olunub, azad mətbuat yoxdur. Burada ziddiyyət nədən ibarətdir?

**Heydər Əliyev:** Sizin sualınız qərəzli xarakter daşıyır. Mən dedim ki, qeydiyyatdan keçmiş 30 partiya sərbəst fəaliyyət göstərir, demokratik yolla seçilmiş parlamentdə 9 partiya təmsil olunub və bunlardan bəziləri müxalifət partiyalarıdır. Azərbaycanda bütün sahələrdə demokratiya bərqərar olur. İstinad etdiyiniz mənbələrdən xəbər alın ki, onlar nə üçün belə bəyanatlar verirlər.

**Sual:** Bu gün imzalanmış saziş Avropa ilə əməkdaşlığı və inteqrasiyanı nəzərdə tutur. Lakin mənə elə gəlir ki, indi Zaqafqaziyanın özündə inteqrasiya bundan heç də az əhəmiyyətli deyildir. Siz Zaqafqaziyada inteqrasiyanın mümkünlüyünə inanırsınızmı? Bu gün imzalanmış saziş ona necə kömək edə bilər.

**Levon Ter-Petrosyan:** Zənnimcə, bu suala əvvəlcə "Qafqaz evi" yaratmağın təşəbbüsçüləri cavab verəcəklər, sonra mən onların fikrinə qoşularam.

**Eduard Şevardnadze:** Biz hesab edirik ki, bugünkü gün Gürcüstan üçün, Zaqafqaziyanın bütün dövlətləri üçün tarixi bir gündür. Əvvəla, ona görə ki, biz Avropa ilə [150-151] inteqrasiyaya başlayırıq; ikincisi, Avropa özü Qafqazın həm Avropa, həm də bütün dünya üçün əhəmiyyətini dərk etməyə başlayır. Avropa Birliyi müasir dünyada dövlətlər arasında inteqrasiya proseslərinin həyata keçirilməsinə ən yaxşı nümunədir. Bu, on illərlə toplanmış təcrübədir. Ona görə də Avropa Birliyi ilə saziş imzalayarkən, şübhəsiz ki, biz nəzərdə tuturuq ki, Zaqafqaziya regionu daxilində, bu əsasda da Avropa ilə inteqrasiya mümkündür. Yeri gəlmişkən, onu da əlavə etmək istəyirəm ki, Avropa Birliyi ilə imzaladığımız saziş MDB çərçivəsində və Qara dəniz iqtisadi regionu ölkələrinin əməkdaşlığı çərçivəsində üzərimizə götürdüyümüz öhdəliklərə əsla zidd deyildir.

**Heydər Əliyev:** Söz yoxdur ki, bugünkü hadisə tarixi əhəmiyyətə malikdir. Avropa ilə inteqrasiya bütün Zaqafqaziya respublikaları üçün bütövlükdə dünya iqtisadi sistemi ilə inteqrasiyadan, demokratik proseslərin inkişafından, demokratik islahatların həyata keçirilməsindən ötrü çox mühüm vasitədir. Artıq Avropa Birliyindən aldığımız kömək, humanitar yardım, habelə müxtəlif bazar islahatlarının aparılması üçün göstərilən kömək ona dəlalət edir ki, inteqrasiya səmərəli və faydalı olacaqdır. Təbiidir ki, bu inteqrasiya Zaqafqaziya bölgəsində də inteqrasiya həyata keçirilməsini nəzərdə tutur.

Zaqafqaziya respublikaları arasında inteqrasiyanın mümkünlüyü barədə konkret suala cavab vermək istəyirəm. Əlbəttə, Zaqafqaziya respublikaları arasında inteqrasiya mümkündür. Məsələn, Azərbaycanla Gürcüstan arasında çox sıx inteqrasiya mövcuddur. Bu yaxınlarda biz Tbilisidə bir sıra sənədlər imzaladıq. Cənab prezident Şevardnadze və mən, Gürcüstanın və Azərbaycanın digər nümayəndələri inteqrasiyaya dair böyük bir proqram nəzərdə tutmuşuq. Şübhəsiz ki, Azərbaycan ilə Ermənistan arasında da çox sıx inteqrasiya mümkündür. Bununla əlaqədar dünən axşamdan xeyli keçmiş biz cənab prezident Ter-Petrosyan ilə görüşdükdə dedik ki, biz münaqişənin aradan qaldırılmasına, sülh yaranmasına, sülh sazişi bağlanmasına nail olmalıyıq. Mənim heç bir şübhəm yoxdur ki, bunun ardınca iqtisadi əlaqələr yüksək sürətlə inkişaf edəcəkdir. Mən buna inanıram.

**Levon Ter-Petrsoyan:** Mən də əlavə etmək istəyirəm ki, Zaqafqaziya dövlətlərinin sıx əməkdaşlığına inanıram. Bir tarixçi kimi deməliyəm ki, bu, labüddür. Zaqaf[151-152]qaziya üç xalqın tarixən təşəkkül tapmış regionudur, bu xalqların taleləri əsrlər ərzində qaynayıb qarışıbdır. İndi regionda birliyin olmaması bizim bəlamızdır. Amma Allaha şükür ki, məsələ, məncə kiçik bir işdən asılıdır. Heydər Əliyeviç dedi ki, Azərbaycan ilə Gürcüstan arasında gözəl münasibətlər var. Mən bunu Gürcüstan ilə Ermənistan arasında münasibətlər barəsində də deyə bilərəm. Kiçik bir məsələ – Azərbaycan ilə Ermənistan arasında münasibətləri tənzimləmək məsələsi qalır. Bundan ötrü isə yalnız Qarabağ problemini həll etmək lazımdır. Burada hələlik yeganə bir maneə var. Hətta Abxaziya münaqişəsi – Gürcüstan üçün ağır problem olan bu münaqişə, şükürlər olsun, Zaqafqaziya dövlətləri arasında münasibətlərə xələl gətirmir. Biz Qarabağ probleminin həll olunacağı xoşbəxt günə gəlib çıxdıqda hesab edə bilərsiniz ki, həmin gündən bu inteqrasiya da olacaqdır. Çünki onsuz biz mövcud ola bilmərik. Bu yaxınlarda mən Ermənistanda öz çıxışlarımdan birində dedim ki, istər Azərbaycan, istərsə də Ermənistan özü üçün ən təbii iqtisadi tərəfdaşdan əslində məhrum olmuşdur. Bir iqtisadi tərəfdaş kimi Ermənistan Azərbaycanı itirmişdir, Azərbaycan isə Ermənistanı itirmişdir. Onlar ən təbii iqtisadi tərəfdaşdırlar. Bu tərəfdaşlığın zəruriliyi bütün tarix ərzində sübuta yetirilmişdir. Bu tərəfdaşlığın bərpasından sonra hər iki dövlətimiz iqtisadi yüksəliş üçün böyük ehtiyat mənbəyi əldə edəcəkdir. Bir sözlə, mən buna nəinki inanıram, həm də hesab edirəm ki, biz bu məqsəd uğrunda mübarizə aparmalıyıq.

**Heydər Əliyev:** Əlavə edim ki, Dağlıq Qarabağ məsələsinin həlli üçün hərbi münaqişəyə son qoymaq, Azərbaycanın işğal olunmuş torpaqlarından silahlı qüvvələri çıxarmaq, bir milyon qaçqını öz yaşayış yerlərinə qaytarmaq lazımdır. Qarabağ məsələsinin həllinin açarı məhz bundan ibarətdir. Mən bir daha bəyan edirəm ki, Azərbaycan Dağlıq Qarabağa Azərbaycan Respublikası çərçivəsində, Azərbaycanın ərazi bütövlüyü şərti ilə ən yüksək status verməyə hazırdır.

**Sual:** Cənab prezidentlər, çeçen münaqişəsinə münasibətiniz necədir? Sizin fikrinizcə, bu münaqişəni necə aradan qaldırmaq olar?

**Eduard Şevardnadze:** Zənnimcə, cavab sadədir. Çeçenistan Rusiya dövlətinin tərkib hissəsidir. Biz

hamımız həm öz ölkələrimizin, həm də Rusiyanın ərazi bütövlüyünə tərəfdarıq. Bilavasitə münaqişəyə gəldikdə, biz, o cümlə[152-153]dən də mən onun dinc vasitələrlə tezliklə aradan qaldırılmasına həmişə tərəfdar olmuşuq. Belə düşünürəm ki, Rusiya prezidentinin axırıncı təşəbbüslərində münaqişənin məhz dinclikə aradan qaldırılması nəzərdə tutulur.

**Levon Ter-Petrosyan:** Bu suala cavabım standartdır: Qarabağ problemini indiyədək həll etməyə qadir olmadığımdan, bu suala cavab verməyi özüm üçün mənaviyyatsızlıq və ya etikaya zidd sayıram. Biz bu problemi həll etdikdən sonra çeçen probleminin həlli barədə məsləhətlər verə bilərəm.

**Heydər Əliyev:** Biz həmişə separatizmin əleyhinə çıxmışıq və çıxırıq, hər hansı bir dövlətin ərazi bütövlüyünə, sərhədlərinin pozulmazlığına, indiki halda Rusiyanın ərazi bütövlüyünə və suverenliyinə tərəfdarıq. Çeçenistanda nə baş verirsə, bunların hamısı bizim keçmişdə də, bu gün də pislədiyimiz separatizmin nəticəsidir. Aydındır ki, müharibə gedir, qan tökülür. Bunların hamısı böyük narahatlıq doğurur. Hesab edirəm ki, Rusiya hökuməti öz ölkəsinin ərazi bütövlüyü prinsipini əsas tutaraq, bu məsələnin həllinin ən məqbul yolunu axtarıb tapmağa qadirdir.

**Sual:** Cənab Şevardnadze, Avropa strukturları, Rusiya Qafqazda münaqişələrin aradan qaldırılması proseslərinə necə təsir göstərə bilərlər?

**Eduard Şevardnadze:** Bu gün mən öz çıxışımda dedim ki, gürcü – osetin münaqişəsinin həllində müəyyən tərəqqi yaranmışdır. Özü də burada Avropanın təhlükəsizlik strukturları, xüsusən Avropa Birliyi böyük rol oynayırlar. Rusiya ilə birlikdə onlar vasitəçilik vəzifəsini yerinə yetirir və bu, ona əyani misaldır ki, xüsusən belə mühüm saziş imzalandıqdan sonra Avropa Birliyi Zaqafqaziyada və bütövlükdə Qafqazda münaqişələrin hamısının aradan qaldırılmasında daha mühüm rol oynaya bilər.

**Sual:** Cənab prezidentlər, bu gün siz Almaniyanın xarici işlər naziri Klaus Kinkel ilə görüşdünüz. Bununla siz Qafqazda Almaniyanın xüsusi bir rolu olduğunu nəzərə çarpdırmaq istəyirsiniz?

**Levon Ter-Petrosyan:** Əgər bizi başqa bir ölkənin xarici işlər naziri səhər yeməyinə dəvət etsəydi, siz bu ölkənin xüsusi rolundan danışardınız? Bu, sadəcə olaraq təsadüfdür.

**Eduard Şevardnadze:** Mən xoşbəxtəm ki, [153-154] bütün dövlətlərin, o cümlədən Avropa ölkələrinin rəhbərləri ilə şəxsən mənim aramda çox səmimi və yaxşı münasibətlər yaranıbdır. O ki qaldı Almaniyaya, o cümlədən cənab Kinkelə, bəlkə də burada hansısa xüsusiyyətlər, Gürcüstan dövlətinin təşəkkül tapmasına, xüsusən iqtisadi sahədə dirçəlməsinə bu ölkənin göstərdiyi xüsusi bir yardımın, xüsusi bir köməyin rolu var.

**Heydər Əliyev:** Biz Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında və Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpa edilməsində bizə real kömək göstərə bilən hər hansı dövləti alqışlayırıq. Almaniya Avropanın ən böyük dövlətlərindən biridir. Almaniyaya və onun xarici işlər nazirinə böyük hörmət və rəğbətim var.

**Sual:** Cənab Əliyev, Qarabağa vəd etdiyiniz geniş muxtariyyət dedikdə nəyi nəzərdə tutursunuz?

**Heydər Əliyev:** Dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunu. Müxtəlif ölkələrdə öz dövlətçilik atributları olan muxtar qurumlar var, amma həmin atributlar bu muxtar qurumun daxil olduğu dövlətin atributlarına tam uyğun olmalıdır. Mən bunu nəzərdə tuturam. Lakin aydın və konkret olsun deyə, dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusunu nəzərdə tuturam. Dünya praktikasında hər hansı muxtariyyəti tapıb mənə xəritədə göstərin, mən ona razılıq verərəm.

**Sual:** Bu sual Ermənistan prezidentinədir: Ermənistan dinc Qafqaz uğrunda Tbilisi bəyannaməsinə qoşulmağa hazırlaşırmı? Bu sual isə prezident Şevardnadzeyədir: NATO-nun Şərqə tərəf genişlənməsi ilə müqayisədə Avropa Birliyinin genişlənməsinə regional təhlükəsizlik üçün daha möhkəm zəmin kimi baxmaq olarmı?

**Levon Ter-Petrosyan:** Sizin sualınıza mən demək olar, cavab vermişəm. Çünki Zaqafqaziya dövlətlərinin inteqrasiyası ideyasını dəstəkləyir və tarixi zərurilik sayıram. O ki qaldı Ermənistanın Tbilisi bəyənnaməsinə formal surətdə qoşulmasına, burada iki məqam var: Əvvəla, biz bu sənədin hazırlanmasında iştirak etməmişik. İkincisi, Ermənistan bu məsələyə Qarabağ probleminin həllindən sonra baxacaqdır.

**Eduard Şevardnadze:** Zənnimcə, NATO-nun Şərqə tərəf genişlənməsi ilə Avropa Birliyinin genişlənməsini bu cür qarşı-qarşıya qoymaq əsla qanunauyğun deyil[154-155]dir. Onların müxtəlif funksiyaları, müxtəlif məqsədləri var. Mən bayaq dedim ki, Avropa Birliyinin Şərqə tərəf genişlənməsi nə MDB-nin, nə də Qara Dəniz İqtisadi Birliyi ölkələrinin və digər regional təşkilatların maraqlarına zidd deyildir. Buna görə də mənə elə gəlir ki, Avropa Birliyinin Şərqə tərəf genişlənməsi bütün regionlarda, o cümlədən Zaqafqaziyada sabitlik üçün mühüm təminatdır.

**Sual:** Cənab prezidentlər, siz Qafqazda münaqişələrin aradan qaldırılmasında Rusiyanın istər keçmişdə, istərsə də gələcəkdə rolunu necə qiymətləndirirsiniz?

**Eduard Şevardnadze:** Rusiya abxaz münaqişəsinin, eləcə də gürcü – osetin münaqişəsinin aradan qaldırılmasında çox yaxından iştirak edir. Zənnimcə, Rusiyanın bu cür iştirakı, vasitəçiliyi və müəyyən dərəcədə sülhpərvərliyi, şübhəsiz, faydalı, bəlkə də hətta həlledici olacaqdır; amma bir şərtlə ki, bunlar BMT Təhlükəsizlik Şurasının və birlik ölkələrinin məlum qətnamələrində göstərilmiş prinsiplər əsasında həyata keçirilsin. Bizim xüsusi coğrafi mövqeyimiz sizə məlumdur. Rusiya istəsə, abxaz münaqişəsi çox sürətlə aradan

qaldırılar. Amma bəla burasındadır ki, Rusiyada müxtəlif qüvvələr, müxtəlif cərəyanlar var. Bəzən siyasi spektrin bu cür tərkibi nizamasalma prosesini, o cümlədən abxaz münaqişəsinin aradan qaldırılmasını sürətləndirməyə mane olur.

**Levon Ter-Petrosyan:** Keçmiş Sovet İttifaqının ərazisindəki bütün münaqişələrin aradan qaldırılmasında Rusiyanın çox yaxından iştirakı onların müvəffəqiyyətlə həlli üçün zəruri şərtdir. Yəni Rusiyanın fəal iştirakı olmadan bu münaqişələr heç vaxt aradan qaldırılmayacaqdır.

**Heydər Əliyev:** Rusiya Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılmasında fəal iştirak edir. O, ATƏT-in Minsk qrupunun həmsədridir. Biz onun fəaliyyətinə böyük ümid bəsləyirik. Bu baxımdan biz Rusiya ilə uzun illərdir əməkdaşlıq edirik və bu əməkdaşlığı indən sonra da davam etdirməyi lazım bilirik. Zənnimcə, Qafqazda bu münaqişələrə, xüsusən Dağlıq Qarabağ üstündə Ermənistan ilə Azərbaycan arasındakı münaqişəyə son qoymaq üçün Rusiya böyük potensial imkanlara malikdir. Ümidvaram ki, Rusiya özünün bu imkanlarından istifadə edəcəkdir.

**Sual:** Ermənistan və Azərbaycan prezidentləri görüşərək, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldı[155-156]rılması məsələlərinin müzakirəsi üçün bu səfərdən niyə istifadə etmədilər?

**Levon Ter-Petrosyan:** Azərbaycan və Ermənistan prezidentləri Lüksemburqda olduqlarından istifadə etdilər və dünən gecədən xeyli keçmiş görüşdülər. Bu görüş bir saatdan çox çəkdi. Demək olar ki, dünən biz münaqişənin aradan qaldırılması məsələsində indiki vəziyyətə yekun vurduq və yaxın aylarda görəcəyimiz tədbirləri razılaşdırdıq. İndiki atəşkəsi qəti olaraq saxlamaq, Azərbaycan ilə Ermənistan arasında dialoqu intensiv surətdə davam etdirmək, humanitar problemləri həll etmək, ən əvvəl, tərəflərin bütün hərbi əsirləri və girovları azad etməsi nəzərdə tutulmuşdur. Belə düşünürəm ki, bu, bir görüş üçün böyük nailiyyətdir. Biz onun yekunlarına əsasən birgə rəsmi məlumat yaydıq, buraya sadaladığım həmin bəndlər daxildir.

**Heydər Əliyev:** Cənab Prezident Ter-Petrosyanın verdiyi məlumatla tamamilə razıyam, ona görə də təkrar etməyəcəyəm. Yalnız onu əlavə etmək istəyirəm ki, dünən mən Lüksemburqa gələn kimi cənab Ter-Petrosyanın burada olub-olmamasını xəbər aldım. O, Lüksemburqa gələn kimi mən öz müşavirim Vəfa Quluzadəni onun yanına göndərdim. Onlar razılığa gəldilər və cənab Ter-Petrosyanın dediyi kimi, biz gecədən xeyli keçmiş görüşdük, çox uzun çəkən bir söhbət keçirdik. Görüşün nəticələri, razılaşmalarımız elə dünən elan etdiyimiz birgə bəyanatda öz əksini tapmışdır. Bəyanatın məzmunu barədə Levon Akopoviç danışdı. [156-157]

## BELÇİKA BEYNƏLXALQ TİCARƏT MƏRKƏZİNDƏ ÇIXIŞ

*Brüssel*

*23 aprel 1996-cı il*

Hörmətli prezident, möhtərəm xanımlar və cənablar!

Mən Belçika Xarici Ticarət Təşkilatının buraya toplaşan nümayəndələrini və ümumiyyətlə, Belçikanın ticarət, iş adamlarını səmimi qəlbdən salamlayıram və sizinlə görüşdən çox məmnun olduğumu bildirirəm.

Təəssüf ki, mənim bugünkü proqramıma görə burada sizinlə görüşümün vaxtı çox məhduddur. Ancaq mən bu məhdud vaxtdan da istifadə edib sizə qısa məlumat verməyə çalışacağam.

Azərbaycan Qafqazda yerləşən bir dövlətdir, onun çoxəsrlik zəngin bir tarixi var. Lakin Azərbaycan dövlət müstəqilliyini Sovet İttifaqı dağılandan sonra, beş il bundan öncə əldə edibdir və bir müstəqil dövlət kimi Dünya Birliyinə daxildir, dünyanın bütün beynəlxalq, o cümlədən iqtisadi, maliyyə, ticarət təşkilatlarının üzvüdür.

Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Ölkəmiz öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında təşkil edir və bu prinsiplər əsasında Azərbaycanda geniş miqyaslı iqtisadi islahatlar aparılır, mülkiyyətin özəlləşdirilməsi üçün çox ciddi tədbirlər həyata keçirilir. Azərbaycan çox mühüm coğrafi-siyasi mövqedədir və olduqca zəngin təbii sərvətlərə malikdir. Bu sərvətlərdən ən böyüyü neft və qaz yataqlarıdır. Azərbaycan dünyada ən məşhur neft ölkəsidir. Mən sizə bildirmək istəyirəm ki, bütün dünyada sənaye üsulu ilə neft ilk dəfə 1848-ci ildə Azərbaycanda istehsal edilibdir. İndiyədək bizim neft yataqlarından çox neft istehsal olunubdur. Lakin bu gün mövcud olan neft yataqları da çox zəngindir. İndi müstəqil Azərbaycan bu neft yataqlarından istifadə etmək üçün dünyanın böyük neft şirkətləri ilə müştərək iş aparır. Neft və qaz yataqlarımız əsasən Xəzərin Azərbaycan sektorundadır. Bununla yanaşı, ölkəmizin ərazisinin bir çox regionlarında da zəngin neft yataqları var.

Dediyim kimi, iqtisadiyyatımızı bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirərək, ölkəmizi dünya iqtisadiyyatına qoşmuşuq. Bi[157-158]zim qapılarımız xarici sərmayəçilərin üzünə açıqdır. Mən bu gün burada fürsətdən istifadə edib, Belçikanın iş adamlarını, şirkətlərini Azərbaycana dəvət edirəm və əmin edirəm ki, sizin Azərbaycanla müştərək işləriniz uğurlu olacaqdır. Biz Azərbaycanın neft sərvətlərindən, neft yataqlarından dünyanın böyük neft şirkətləri ilə müştərək istifadə etmək üçün bir neçə müqavilə imzalamışıq. Bu müqavilələr artıq əməli surətdə həyata keçirilir. Ancaq biz bir çox neft yataqlarında da hazırlıq işləri aparırıq və yeni müqavilələr də olacaqdır.

Azərbaycanın neft və qaz sənayesi ilə yanaşı, böyük sənaye, elmi və kadr potensialı da var. Ölkəmiz ərzaq malları istehsalı, kənd təsərrüfatı sahəsində də böyük imkanlara malikdir. Azərbaycan Avropa ilə Asiya arasında, Qafqazda çox mühüm coğrafi-siyasi mövqedə yerləşən bir ölkədir və bir tərəfdən Xəzər dənizi ilə, digər tərəfdən isə Qafqaz dağları ilə əhatə olunubdur. Qərb ilə Şərqi birləşdirən nəqliyyat yollarının, rabitə xətlərinin çoxu respublikamızdan keçir. Buna görə də Azərbaycan ilə nəqliyyat kommunikasiya işləri sahəsində də əməkdaşlıq etmək üçün çox geniş imkanlar var.

Ən əsası bundan ibarətdir ki, Azərbaycanda sərbəst sərmayə qoymaq üçün, sərbəst iş görmək üçün, ölkəmizdə birgə iş aparmaq üçün lazımi qanunlar qəbul edilibdir. Bu qanunlarda xarici sərmayənin Azərbaycana gəlməsi üçün çox güzəştli şərtlər nəzərdə tutulur. Mən qeyd etdim ki, biz demokratik dövlət qururuq, Azərbaycanın yeni konstitusiyası qəbul olunubdur, parlamentimiz demokratik prinsiplər əsasında seçilibdir. Azərbaycan dünya demokratiyasına qoşulmuş olan bir ölkədir. Ona görə də Azərbaycanda sərbəst iş aparmaq üçün, bir daha qeyd edirəm, çox böyük imkanlar var.

Mülkiyyətin özəlləşdirilməsində də xarici şirkətlərin iştirakı mümkündür və bu sahədə də imkanlar böyükdür. Mən bildirmək istəyirəm ki, son illər xarici ölkələrin böyük şirkətləri, iş adamları Azərbaycana gəliblər, biz müştərək işlər qurmuşuq, birgə müəssisələr yaratmışıq. Bu proses artıq inkişaf etməkdədir. Mən sizi Azərbaycana dəvət edirəm və bildirmək istəyirəm ki, kim Azərbaycana tez gəlsə, o, udacaqdır, kim geciksə, şübhəsiz, uduzacaqdır. [158-159]

Mən bununla sözümü tamamlayıram. Diqqətinizə görə və mənimlə buraya görüşə gəldiyinizə görə sizə təşəkkür edirəm. Güman edirəm ki, biz gələcəkdə də görüşəcəyik. Mənimlə buraya gələn nümayəndə heyətində Azərbaycan iqtisadiyyatını təmsil edən şəxslər, o cümlədən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti və başqa şəxslər mən sizi tərk edəndən sonra sizə daha geniş məlumat verə bilərlər. Təşəkkür edirəm. [159-160]

## AZƏRBAYCANIN BRÜSSELDƏKİ SƏFİRLİYİNDƏ ÇIXIŞ

*23 aprel 1996-cı il*

Dövlətçiliyimizin yaranması, qurulması eyni zamanda ondan ibarətdir ki, Azərbaycan dünya ölkələri ilə diplomatik əlaqələr yaradır və bu əlaqələrin səmərəli olması üçün ayrı-ayrı ölkələrdə səfirliklər fəaliyyətə başlayır. Bu proses gedir. Son iki ildə biz bir çox ölkələrdə səfirliklər yaratmışıq. Onlardan biri də burada, Belçikada olan səfirlikdir.

Biz bu səfirliyə xüsusi fikir veririk. Ona görə ki, Brüssel beynəlxalq təşkilatların, o cümlədən Avropa Birliyinin, NATO-nun və digər təşkilatların demək olar ki, mərkəzidir. Artıq biz Avropa Birliyi ilə, NATO ilə sıx əməkdaşlıq edirik. Ona görə də buradakı səfirlik birinci növbədə bu məqsədlərə xidmət etməlidir. Eyni zamanda Belçika ilə Azərbaycan arasında ikitərəfli əlaqələr üçün də bu səfirlik çox lazımlı və gərəklidir.

Hesab edirəm ki, səfirliyin kollektivi burada qısa müddətdə çox iş görübdür. Bina alınıb, işləmək üçün lazımi şərait yaradılır. Mən bunu müsbət hal kimi qiymətləndirirəm. Mən görürəm ki, burada, səfirlikdə işləyənlərin, Azərbaycan nümayəndələrinin hamısı gənclərdir. Bu məni sevindirir. Onların arasında həm kişilər, həm də qadınlar var. Bu da yaxşı haldır. Güman edirəm ki, siz belə bır kollektiv ilə, buradakı şəraitdə yaxşı işləyə bilərsiniz.

Mən Azərbaycan səfirliyinin bu yeni binası münasibətilə sizi təbrik edirəm. İşlərinizdə uğurlar diləyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, siz Azərbaycanın adını, şərəfini, şanını nəinki Belçikada, Belçikanın ətrafında olan ölkələrdə də tanıdacaqsınız, yayacaqsınız və. yüksəklərə qaldıracaqsınız. Bu, sizin vəzifəniz, borcunuzdur. Ümidvaram ki, siz bu vəzifənizi, borcunuzu dərk edirsiniz və onu layiqincə yerinə yetirəcəksiniz. [160-161]

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ NATO-nun BAŞ KATİBİ XAVYER SOLANANIN JURNALİSTLƏRLƏ GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Brüssel*

*23 aprel 1996-cı il*

Hörmətli cənab baş katib!

Mən burada, NATO-nun baş qərargahında olmağımdan, sizinlə apardığım söhbətlərdən çox məmnun olduğumu bildirmək istəyirəm. Siz qeyd etdiniz, mən bura artıq birinci dəfə deyil gəlirəm. 1994-cü ilin mayında mən buraya gəlib NATO-nun "Sülh naminə əməkdaşlıq" proqramına imza atmışam. 1994-cü ilin yanvarında NATO-nun belə bir proqramı qəbul etməsini, onu bəyan etməsini və ölkələrin bu proqrama qoşulması haqqında çağırışını biz məmnuniyyətlə qəbul etdik və bunu çox yüksək qiymətləndiririk. Bu proqram, həqiqətən Avropada, eyni zamanda dünyada sülhün, əmin-amanlığın bərqərar olması üçün çox yaxşı bir əsas yaradır. Ona görə də Azərbaycan iki il bundan əvvəl bu proqrama qoşulub. Mən bu proqrama imza atmışam.

Cənab baş katib, bu gün bu proqramla əlaqədar olaraq Azərbaycanın prezentasiya sənədini mən sizə təqdim etdim. Sizinlə apardığımız söhbətlərdən, fikir mübadiləsindən mən çox razıyam, məmnunam. Onlar bizim ikitərəfli əlaqələrimiz üçün, o cümlədən Qafqazda, Zaqafqaziyada sülhün, əmin-amanlığın yaranması üçün çox əhəmiyyətlidir. Fikir mübadiləmizdə Zaqafqaziyada Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələlərinə də toxunduq.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu məsələnin sülh yolu ilə həll olunması üçün NATO öz səylərini əsirgəməyəcəkdir. Ermənistan prezidenti Levon Ter-Petrosyanla mən bu məsələlərin sülh yolu ilə həll olunması üçün Lüksemburqda apardığımız danışıqlar nəticəsində birgə bəyanat verdik və mən bu barədə sizə geniş məlumat verdim.

Artıq iki ildir ki, bu münaqişədə atəşkəs rejimi yaranıbdır və prezident Ter-Petrosyan ilə mən bəyan etdik ki, biz bundan sonra da bu atəşkəs rejiminə riayət edəcəyik. Eyni zamanda [161-162] biz sülh danışıqlarını davam etdiririk və münaqişəyə sülh yolu ilə tamamilə son qoymaq istəyirik. Mən bu gün sizə bir daha bildirdim ki, bunun üçün Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş torpaqlarından çıxmalıdır, işğal edilmiş torpaqlardan didərgin düşmüş bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerinə, yurduna qayıtmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilə bilər.

Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin bu şərtlər əsasında, sülh yolu ilə həll edilməsində NATO da öz səylərini göstərəcəkdir. NATO-nun fəaliyyətini biz sülhsevər fəaliyyət hesab edirik. NATO-nun mövcudluğunu və onun fəaliyyətini Avropada, dünyada sülhün, əmin-amanlığın bərqərar olunması üçün çox mühüm bir amil hesab edirik. NATO-ya və NATO-nun üzvü olan ölkələrə bu sahədə yeni uğurlar diləyirəm.

Cənab baş katib, mən sizi Azərbaycana rəsmi səfərə dəvət etmişəm. Siz bu dəvəti qəbul etmisiniz və ümidvar olduğumu bildirmək istəyirəm ki, onu yaxın vaxtlarda həyata keçirəcəksiniz.

Bu böyük vəzifəni siz qısa bir vaxtdır ki, öz üzərinizə götürmüsünüz. Bilirəm ki, siz bu sahədə çox iş görürsünüz. Şəxsən sizə bu işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlayacaqdır. Bir prezident kimi mənim bu sahədə apardığım siyasətə və əməli işlərimə yüksək qiymət verdiyinizə görə sizə təşəkkür edirəm. Bugünkü söhbətimizə görə və mənə göstərdiyiniz diqqətə, mehribanlığa görə sizə təşəkkür edirəm. Sizə bir daha yeni müvəffəqiyyətlər arzulayıram.

## BRÜSSELDƏN NORVEÇƏ RƏSMİ SƏFƏRƏ GƏLƏRKƏN OSLO HAVA LİMANINDA NORVEÇ JURNALİSTİNİN SUALINA CAVAB

*24 aprel 1996-cı il*

Mən baş nazir xanım Brundtlandın dəvəti ilə Norveçə rəsmi səfərə gəlmişəm. Hər şeydən öncə Norveç torpağına gəlməyimdən çox məmnun olduğumu bildirir və ümidvaram ki, Norveç və Azərbaycan dövlətləri arasında münasibətlərin gələcək inkişafı üçün uğurlu danışıqlar aparacağıq.

Ölkələrimiz arasında yaxşı iqtisadi əməkdaşlıq yaranmışdır. Bilirsiniz ki, dünyanın ən iri şirkətlərindən olan "Statoyl" Dövlət Neft Şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənməsinə dair konsorsiumun üzvüdür. Yəni biz əməkdaşlıq edirik, lakin biz bunu daha da inkişaf etdirmək istəyirik. Şimal ölkəsi olan Norveç iqtisadiyyatda böyük nailiyyətlər əldə etmişdir, ona görə də biz birgə əməkdaşlığımızdan çox şey gözləyirik. Mən ilk öncə Oslo sakinlərinə, Norveç vətəndaşlarına salamımı və ən xoş arzularımı çatdırmaq istərdim.

Sizi görməyimə şadam. Mən sizi 1990-cı ilin yanvarından, xalq hərəkatını yatırtmaq üçün sovet silahlı qüvvələrinin böyük qoşun hissəsinin yeridilməsi ilə əlaqədar Bakıda faciə baş verən vaxtdan xatırlayıram. Mən Moskvada mitinqdə çıxış edərək sovet hökumətinin konstitusiyaya zidd olan bu hərəkətlərinə qarşı etirazımı bildirmişdim. O zaman biz sizinlə görüşdük və mən sizin suallarınıza cavab verdim. Hətta o da yadımdadır ki, sonra siz Moskvada mənim mənzilimə telefonla zəng etmişdiniz. O vaxt mən əslində təcrid olunmuş vəziyyətdə idim. Ona görə də sizi görməyimə şadam. [163-164]

## NORVEÇİN BAŞ NAZİRİ QRU HARLEM BRUNDTLAND İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*24 aprel 1996-cı il*

Hörmətli baş nazir xanım Brundtland!

Mən səmimi qəbul üçün Sizə öz təşəkkürümü bildirir və qeyd etmək istəyirəm ki, Sizinlə əvvəllər keçirdiyim görüşləri həmişə məmnuniyyətlə xatırlayıram. Məni Norveçə rəsmi səfərə dəvət etdiyi üçün xanım Brundtlanda minnətdarlığımı bildirirəm və bəyan edirəm ki, dost ölkəyə gəlməyimə şadam.

Norveç ilə Azərbaycan arasında iqtisadiyyatın bütün sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaranmışdır. Azərbaycanın neft yataqlarının işlənməsində Qərbin digər nüfuzlu neft şirkətləri ilə birgə "Statoyl" şirkətinin də "Əsrin müqaviləsi"ndə iştirakından razılıqla söhbət açmaq istəyirəm və bildirirəm ki, digər şirkətlərin də respublikamızda geniş fəaliyyəti üçün hər cür şərait vardır.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlərdən bəhs edərkən bildirmək istəyirəm ki, ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt zirvə toplantısında xanım Brundtlandın da fəal iştirakı ilə qəbul olunmuş qərardan sonra Minsk qrupu çərçivəsində, böyük dövlətlərin vasitəçiliyi ilə danışıqlar aparmağa və birbaşa dialoqlara başlamağa imkan xeyli artıb. Bu işdə Minsk qrupunun fəaliyyətinə böyük ümidlər bəslənilir.

Mən aprelin 21-də Lüksemburqda Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə görüş keçirdim. Bu görüşdə qəbul edilmiş birgə bəyanatı münaqişənin sülh yolu ilə nizama salınması yolunda mühüm addım saymaq olar. Bir daha bəyan edirəm ki, Azərbaycan sülhsevər dövlətdir, münaqişəni yalnız sülh yolu ilə həll etməyə çalışır. Ölkəmizə dəymiş böyük maddi, mənəvi zərbələrə, respublikamızın ərazisinin 20 faizindən çoxunun işğal altında olmasına, bir milyondan artıq vətəndaşımızın didərgin vəziyyətində, ağır şəraitdə yaşamasına baxmayaraq, biz Ermənistana ədalətli sülh təklif edirik.

Dağlıq Qarabağda yaşayan təxminən yüz minə yaxın erməniyə Azərbaycan dövlətinin tərkibində dünya təcrübəsində [164-165] mövcud muxtar qurum statusu verməyə, eyni zamanda, Dağlıq Qarabağda yaşayan, Azərbaycan vətəndaşı olan ermənilərin təhlükəsizliyini təmin etməyə ölkəmizin hazır olduğunu bildirirəm. Bu danışıqlarda sülh əldə edilməsinin əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqe tutması, zor işlətməsi və bir sıra ölkələrə arxalanmasıdır. Bütün bu maneələrə baxmayaraq, biz bundan sonra da sülh danışıqlarını davam etdirmək istəyirik.

Avropa ölkələrindən Norveçin Azərbaycanın müstəqilliyini birincilər sırasında tanıdığını və ölkəmizdə işləyən xarici şirkətlər arasında "Statoyl"un ilk şirkətlərdən biri olduğunu nəzərə çarpdırmaq istərdim. Mənim fikrimcə, Norveç, o cümlədən "Statoyl" ilə əməkdaşlığımız uzunmüddətli olacaqdır. XXI əsrin Norveç ilə Azərbaycan arasında yaxın münasibətlər əsri olacağına ümid bəslədiyimi bildirmək istərdim. Yaratdığımız bu əlaqələr möhkəm zəmin üzərində qurulur, ona görə də gərək dövlətlərimiz bütün beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlıq etsinlər.

Mən hörmətli baş nazir xanım Brundtlandı Azərbaycana rəsmi səfərə dəvət edirəm. [165-166]

## NORVEÇİN BAŞ NAZİRİ QRU HARLEM BRUNDTLANDİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*24 aprel 1996-cı il*

Hörmətli baş nazir xanım Brundtland, hörmətli parlament sədri, hörmətli xanımlar və cənablar! Mən sizi, bütün Norveç xalqını Azərbaycan xalqı adından, müstəqil Azərbaycan Respublikası adından səmimi qəlbdən salamlayıram.

Ən öncə baş nazir xanım Brundtlanda məni Norveçə rəsmi səfərə dəvət etdiyinə görə və mənimlə birlikdə Norveçə gələn nümayəndə heyətinə böyük diqqət və qonaqpərvərlik göstərdiyinə görə səmimi qəlbdən təşəkkürümü bildirirəm.

Mənim Norveçə səfərim və bu gün baş nazir xanım Brundtlandla apardığımız danışıqlar və imzaladığımız sənədlər müstəqil Azərbaycan Respublikasının müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək yolunda böyük bir hadisədir, yeni bir mərhələdir. Biz bu gün imzaladığımız sənədlərə çox yüksək qiymət veririk və bunları Norveç-Azərbaycan əməkdaşlığının, ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsində çox gərəkli sayırıq.

Azərbaycan öz dövlət müstəqilliyinin beşinci ilini yaşayır və bu beş il müddətində həm dünyada, həm də Azərbaycanın həyatında böyük dəyişikliklər baş vermişdir. Azərbaycanın dövlət müstəqilliyi və ölkəmizdə baş vermiş, dəyişikliklər dünyada son illər gedən proseslərlə və baş vermiş dəyişikliklərlə əlaqədardır. Sovetlər İttifaqının dağılması "soyuq müharibə"nin sona çatmasını təmin etdi və bununla əlaqədar dünya proseslərində yeni bir mərhələ başlandı. Bunun da bilavasitə nəticəsi olaraq keçmiş sovet respublikaları öz dövlət müstəqilliyini əldə etdilər. Azərbaycan da öz dövlət müstəqilliyini əldə etməsindən çox məmnundur. Biz bunu özümüz üçün tarixi nailiyyət hesab edirik.

Məhz bu proseslərlə əlaqədar, Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi nəticəsində bizim bugünkü görüşlərimiz mümkün olubdur və Azərbaycan Respublikası bir müstə[166-167]qil dövlət kimi Dünya Birliyinə daxil olubdur, dünya ölkələri ilə faydalı əlaqələr yaradır. Norveçlə Azərbaycan arasında yaranmış və inkişaf edən əlaqələr məhz bu proseslərin məntiqi nəticəsidir.

Mən böyük məmnunluq hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycan dövlət müstəqilliyini əldə edərkən onun müstəqilliyini tanıyan ilk dövlətlərdən biri Norveç olmuşdur. Dörd il bundan öncə bizim üçün tarixi hadisə ilə əlaqədar Norveçin Azərbaycana, onun müstəqilliyinə göstərdiyi bu qayğıya görə təşəkkürümü bildirirəm. Bir daha qeyd edirəm ki, bu müddətdə Norveç ilə Azərbaycan arasında əlaqələr sürətlə inkişaf edibdir. Biz bu gün bu əlaqələrin yüksək səviyyədə olduğunun şahidiyik. Biz Norveçlə əlaqələrimizə xüsusi fikir veririk, bu əlaqələr bizim üçün xüsusi əhəmiyyətə malikdir. Çünki Norveç dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərindən biridir. Norveçdə demokratiya, iqtisadiyyat sahəsində böyük nailiyyətlər əldə edilibdir. Norveçdə insan azadlıqları, söz azadlığı, vicdan azadlığı bərqərar olubdur. Bunların hamısı bizim üçün qiymətlidir. Biz bu təcrübədən istifadə etmək üçün Norveç ilə Azərbaycan arasındakı əlaqələri çox dəyərli sayırıq.

Ölkələrimiz arasında əməkdaşlığın artıq konkret nəticələri var. Norveçin böyük neft şirkəti "Statoyl" Azərbaycana gələn ilk xarici neft şirkətlərindən biridir. 1994-cü ilin sentyabr ayında dünyanın böyük neft şirkətlərinin konsorsiumu ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında imzalanmış və "Əsrin müqaviləsi" adlanan böyük neft müqaviləsində "Statoyl"un çox böyük payı və çox böyük yeri var.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarında yeni müştərək işlər görmək üçün biz "Statoyl" şirkəti ilə də danışıqlar aparırıq, birgə iş görürük. Güman edirəm ki, bunlar da öz müsbət nəticəsini verəcəkdir. Norveçin digər şirkətlərinin də Azərbaycana marağı və onların Azərbaycanda öz ofislərini açması bizim iqtisadi əlaqələrimizin sürətlə inkişaf etməsinə əyani sübutdur.

Azərbaycan böyük neft ölkəsidir, qədim neft ölkəsidir. Mən bu gün bir daha qeyd etmək istəyirəm ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft keçən əsrin ortalarında Azərbaycanda, Bakıda çıxarılmağa başlanmışdır. Lakin buna baxmayaraq, Azərbaycan indi neft istehsalı sahəsində yeni texnologiyalardan istifadə etməyə çox ehtiyac duyur. Buna görə də Norveçin 70-ci illərdən başlayaraq dənizdə neft çıxarmaq sahəsində əldə et[167-168]diyi nailiyyətlər və yeni texnologiyanı tətbiq etməsi bizim üçün çox maraqlıdır. Ümidvaram ki, sabah Stavanger şəhərində mən yeni texnologiya ilə yaxından tanış olacağam və bizim neft sahəsində işləyənlər bu təcrübədən səmərəli istifadə etməyə çalışacaqlar.

Bir sözlə, Norveç-Azərbaycan iqtisadi əlaqələrinin çox gözəl gələcəyi var və sizi əmin edirəm ki, biz bu əlaqələrin genişlənməsi üçün öz tərəfimizdən əlimizdən gələni əsirgəməyəcəyik. Eyni zamanda Norveç-Azərbaycan əlaqələrində biz Norveç xalqının, Norveç dövlətinin demokratiya sahəsində, iqtisadiyyatda islahatlar aparılması sahəsində, bütün müasir, mütərəqqi tədbirlərin həyata keçirilməsi sahəsində əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməyə çalışırıq və çalışacağıq.

Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkəmiz demokratik, hüquqi, dünyəvi cəmiyyət quruculuğu yolu ilə gedir, iqtisadiyyatda bazar iqtisadiyyatı əsasında ciddi islahatlar aparır. Bizdə özəlləşdirmə proqramı qəbul olunub və həyata keçirilir. Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə inkişaf etdirməyə çalışır. Ötən ilin noyabrında Azərbaycanın ilk demokratik konstitusiyası qəbul olunub və ilk dəfə demokratik prinsiplər əsasında respublika parlamentinə seçkilər keçirilibdir. Bundan başqa, digər demokratik islahatlar da aparılır.

Sizin ölkəniz əsrin əvvəlində dövlət müstəqilliyini əldə edib və XX əsrin sonuna böyük nailiyyətlərlə gəlib çıxmışdır. Azərbaycan öz dövlət müstəqilliyini XX əsrin son onilliyində əldə edib və XXI əsrə demokratik, hüquqi dövlət kimi daxil olmaq istəyir. Bu baxımdan Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq.

Hörmətli baş nazir, siz indicə nitqinizdə Azərbaycanda demokratik proseslərin inkişafı haqqında, gənc demokratiyanın ilk addımları haqqında xoş sözlər dediniz, bizim bu ilk addımlarımıza müsbət qiymət verdiniz. Bu, bizi ruhlandırır və əmin ola bilərsiniz ki, biz bu yolla daim gedəcəyik, bu yoldan heç vaxt dönməyəcəyik.

İki gün bundan öncə biz Lüksemburqda Avropa Birliyinə daxil olmaq üçün Avropa Birliyi ilə əməkdaşlıq və tərəfdaşlıq haqqında saziş imzalamışıq. Bunu Azərbaycan Respublikasının müstəqilliyi üçün, ölkəmizdə demokratiyanın inkişafı üçün ta[168-169]rixi hadisə hesab edirik və yüksək qiymətləndiririk. Şübhəsiz ki, bizim gənc respublikamızın qarşısında çox böyük problemlər, çətinliklər və həlli ağır olan məsələlər var. Bizim üçün ən ağır, ən çətin məsələ, Ermənistan-Azərbaycan münaqişəsi və onun aradan qaldırılmasıdır. Bildiyiniz kimi, səkkiz ildir ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü davam edir. Bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi. Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. İşğal edilmiş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı öz yerindən-yurdundan zorla çıxarılmış, didərgin salınmışdır. İndi onların əksəriyyəti çadırlarda çox ağır maddi vəziyyətdə yaşayır.

Demək istəyirəm ki, böyük itkilərimizə baxmayaraq, Azərbaycana dəyən böyük maddi və mənəvi zərərə, zərbələrə baxmayaraq, biz bu münaqişəni sülh yolu ilə aradan qaldırmağa çalışırıq. Ermənistan ilə Azərbaycan arasında daimi sülh əldə etmək istəyirik. Bu məqsədlə bütün vasitələrdən istifadə edirik. ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlardan səmərəli istifadə etməyə çalışırıq. Bunun üçün konstruktiv addımlar atırıq, təşəbbüslər göstəririk və əlimizdən gələn işləri görürük. Münaqişəyə son qoymaq üçün Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmalıdır, işğal olunmuş ərazilər azad edilməlidir, yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşları öz yerlərinə qayıtmalıdırlar və bu proseslə əlaqədar Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verməyə Azərbaycan hazırdır.

Məhz bu prinsiplər əsasında, Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması prinsipləri əsasında bizim regionda Ermənistanla Azərbaycan arasında daimi sülh yarana bilər.

Biz bundan sonra da bütün istiqamətlərdə səylərimizi davam etdirəcəyik. Bildirmək istəyirəm ki, artıq iki ildir Ermənistan ilə Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş əldə olunubdur. Biz bu sazişə riayət edirik. Aprelin 21-də Lüksemburqda Ermənistan prezidenti Ter-Petrosyanla mənim aramda danışıqlar nəticəsində biz bəyan etdik ki, bundan sonra da Böyük Sülh Sazişi əldə olunanadək atəşkəs rejimini qoruyub saxlayacağıq.

Biz ölkəmizdə sülh olmasını istəyirik. Biz regionumuzda sülh olmasını istəyirik. Biz dünyada sülh olmasını istəyirik. Biz [169-170] separatizmin, terrorizmin əleyhinəyik və bundan sonra da bu mövqedən çıxış edəcəyik. Regionumuzda sülhə nail olmaq üçün, şübhəsiz, dünyanın sülhsevər dövlətlərinin köməyinə ehtiyacımız var. Bununla əlaqədar Norveçin bizim regiona, xüsusən Azərbaycana olan qayğısını və marağını mən yüksək qiymətləndirirəm və baş nazir xanım Brundtlandın nitqində irəli sürülən müddəaları məmnuniyyətlə qəbul edirəm.

Qafqaz dünyanın mühüm bir regionudur. Ancaq indi Qafqaz münaqişə alovlan içərisində yanır. Bu münaqişələrdən biri də Ermənistan-Azərbaycan münaqişəsidir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Norveç dövləti və Norveç hökuməti Qafqazda münaqişələrin, xüsusən Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün bundan sonra da səy göstərəcəkdir.

Hörmətli dostlar, siz Yer kürəsinin şimalındasınız, biz, Azərbaycan isə cənubundayıq. Ölkələrimiz arasında böyük məsafə var. Lakin XX əsrin sonunda bu məsafə ölkələrimiz arasında sıx əlaqələr saxlamağa heç də mane olmur. İndiki əlaqələrimiz onu göstərir ki, biz bu əlaqələri bundan sonra da inkişaf etdirə bilərik.

Hörmətli baş nazir, bizə göstərdiyiniz bu qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm, sizi, bütün Norveç xalqını əmin edirəm ki, azərbaycanlılar dostluğa sadiqdirlər və Norveç-Azərbaycan əlaqələrinin, dostluğunun gözəl gələcəyi var.

Norveç xalqının şərəfinə, onun xoşbəxt gələcəyi şərəfinə badə qaldırıram. Norveç dövlətinə, Norveç hökumətinə onların qarşısında duran böyük vəzifələrin həyata keçirilməsində uğurlar arzulayıram. Norveç hökumətinin baş naziri xanım Brundtlanda, Norveç hökumətinə, Norveç dövlətinə səadət, xoşbəxtlik arzulayıram. Sağ olun. [170-171]

## AZƏRBAYCAN VƏ NORVEÇ ÖLKƏLƏRİ ARASINDA SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BƏYANAT

*24 aprel 1996-cı il*

Müstəqil Azərbaycan dövlətinin prezidenti kimi mən Norveçə ilk dəfə səfər etməyimdən çox məmnunam və Norveçin baş naziri hörmətli xanım Brundtlanda bu dəvət üçün təşəkkürümü bildirirəm. Apardığımız danışıqlar və indi imzaladığımız sənədlər Norveç-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün böyük bir mərhələdir və bu, Azərbaycan Respublikası, xalqımız üçün tarixi bir hadisədir.

Norveç ilə Azərbaycan arasındakı əməkdaşlıq, hesab edirəm ki, yaxşı inkişaf edir, ancaq onun bundan sonra daha sürətlə inkişafı üçün böyük imkanlar var. Biz bu gün bu imkanları araşdırdıq. Norveçdə – Osloda mənə və məni müşayiət edənlərə göstərilən diqqətə və qonaqpərvərliyə görə xanım Brundlanda təşəkkür edirəm.

Mən baş nazir xanım Brundtlandı Azərbaycana rəsmi səfərə dəvət etmişəm və onun Azərbaycana gəlməsini səbirsizliklə gözləyəcəyəm. Stavanger şəhərinə də gedəcəyəm və Norveçin neft istehsalı sahəsində yüksək nailiyyətləri, xüsusən yüksək səviyyəli texnologiya ilə tanış olmaq mənim üçün çox maraqlıdır. Bunlar hamısı Norveç-Azərbaycan dostluğu üçün yaxşı imkanlardır. [171-172]

## BEYNƏLXALQ UŞAQ İNCƏSƏNƏT MUZEYİNDƏ ÇIXIŞ

*Oslo*

*24 aprel 1996-cı il*

Hörmətli xanımlar, cənablar!

Mən və məni müşayiət edən nümayəndə heyətinin üzvləri Norveçin Oslo şəhərində yaradılmış belə bir qeyri-adi muzeylə tanış olmaqdan çox məmnunuq. Bu muzeyin ən üstün xüsusiyyəti ondan ibarətdir ki, o, uşaqlara – insanların, cəmiyyətin gələcəyinə, uşaqların öz istedadlarını ifadə edib yaratdıqdan rəsmlərin nümayiş etdirilməsinə həsr olunubdur. Uşaqlara qayğı, onlar haqqında daim düşünmək, onlara qayğı göstərmək yüksək mənəviyyatın, mədəniyyətin əlamətləridir. Norveç yüksək mədəniyyətə, mənəviyyata malik bir ölkədir. Bu ölkənin vətəndaşları, Norveç xalqı həqiqətən yüksək mədəniyyət sahibləridir. Ona görə də Norveçdə belə bir muzeyin olması bir tərəfdən təbiidir, digər tərəfdən çox fərəhləndirici bir haldır.

Mən əvvəlcə, bu muzeyi yaradanlara, yaşadanlara və onu belə gözəl səviyyədə saxlayanların hamısına hörmət və ehtiramımı bildirirəm. Onlara xeyirxah işlərində gələcəkdə də uğurlar diləyirəm. Muzeydə Azərbaycan uşaqlarının rəsmlərinin, əl işlərinin nümayiş etdirilməsi bu muzeyin və Norveçin Azərbaycana olan dostluq münasibətinin təzahürüdür. Mən bunu çox yüksək qiymətləndirirəm. Məni ən çox heyran edən, coşduran, sevindirən hal ondan ibarətdir ki, bu muzeydə məhz Azərbaycanda yerlərindən-yurdlarından didərgin düşmüş, Ermənistanın təcavüzü nəticəsində çox əzab-əziyyətlər çəkmiş qaçqın uşaqların rəsmləri nümayiş etdirilir. Bu, çox əlamətdar bir haldır. Demək istəyirəm ki, bu muzeydə belə rəsmlərin olması hər bir azərbaycanlının hisslərinin çox incə yerlərinə toxunur.

Norveçin Qaçqınlara Yardım Şurasının bu sahədə fəaliyyətini mən yüksək qiymətləndirirəm. Azərbaycanlı uşaqların əsərlərinin gətirilib burada göstərilməsi sahəsindəki xidmətlərinə görə "Statoyl" şirkətinə, bu muzeyin rəhbərlərinə və Norveç Qaçqınlara Yardım Şurasına təşəkkürümü bildirirəm. [172-173]

Azərbaycanın yaxın dostu, professor cənab Brundtlandın bu sahədə xidmətləri məni çox sevindirir. Onun Azərbaycana bu qədər qayğı və diqqət yetirməsi və respublikamızdakı qaçqınlara xidmət göstərməsi böyük hörmətə layiqdir. Mən buna görə də təşəkkür edirəm.

Bu hadisə münasibətilə çox məmnun olduğumu bildirirəm. Bu işin təşkilatçılarına və buraya toplaşanların hamısına təşəkkürümü bildirirəm. Hamınızı əmin etmək istəyirəm ki, xalqımız, azərbaycanlılar belə xeyirxah işləri heç vaxt unutmayacaqlar. Bunlar hamısı Norveç-Azərbaycan dostluğunun, əməkdaşlığının daha da yüksəklərə qalxmasını təmin edəcəkdir. Təşəkkür edirəm. [173-174]

## NORVEÇDƏ AZƏRBAYCAN DİASPORUNUN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*24 aprel 1996-cı il*

Sizin hamınızı – Norveçdə, İsveçrədə yaşayan azərbaycanlıları səmimi qəlbdən salamlayır, doğma yurdunuzdan, diyarınızdan – Müstəqil Azərbaycan Respublikasından ən qızğın salamlar çatdırıram.

Biz hansı ölkəyə gediriksə, orada azərbaycanlıların olub-olmaması ilə maraqlanırıq. Mən buraya səfərə hazırlaşanda da maraqlandım ki, Norveçdə nə qədər azərbaycanlı yaşayır. Bu barədə məlumat verdilər və bildirdilər ki, Azərbaycan-Norveç cəmiyyəti yaradılıb, ona da Rəhimov rəhbərlik edir. Buna görə də mən onu bizim nümayəndə heyətinin tərkibinə daxil edib buraya gətirmişəm.

Bilirsiniz ki, mənim səfərim bir neçə gün bundan öncə başlayıbdır. Mən Lüksemburqda olmuşam, Avropa Birliyi Xarici İşlər nazirlərinin növbəti toplantısı keçirilibdir. Bu toplantı zamanı ölkəmizin birliyə daxil olması üçün Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıq və tərəfdaşlıq haqqında sazişin imzalanması mərasimi olmuşdur. Neçə vaxtdan bəri hazırladığımız bu saziş çox böyük əhəmiyyəti olan sənəddir. Həmin saziş imzalandı, mən və mənimlə gələnlər bu mərasimdə iştirak etdik. Orada Avropa Birliyinin rəhbərliyi ilə danışıqlar apardıq.

Sonrakı gün Brüsseldə Avropa Birliyi iqtisadi komissiyasının sədri cənab Jak Santerlə görüşümüz oldu və Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlıq haqqında gələcək planlarımızı müəyyən etdik. NATO-nun baş qərargahında da oldum. Bilirsiniz ki, hələ iki il bundan öncə Azərbaycan NATO-nun "Sülh naminə əməkdaşlıq" çağırışına səs veribdir və mən iki il əvvəl NATO-nun baş qərargahında olarkən həmin proqramı imzalamışam. İndi onun davamı olaraq bizim addımımızı təsdiq edən prezentasiya sənədini onlara təqdim etmişəm, sonra isə buraya gəlmişəm.

Bu gün Norveçin Baş naziri xanım Brundtlandla görüşüm olubdur, danışıqlar aparmışıq. Bunların nəticəsində bir neçə [174-175] sənəd imzalanıbdır. Ən əsas sənəd Norveç ilə Azərbaycan arasında əməkdaşlığa dair birgə bəyanatdır. Bu, Norveçlə müstəqil Azərbaycan dövləti arasında aparılan ilk danışıqlardır. Birgə bəyanat və imzalanmış başqa sənədlər Norveç-Azərbaycan əlaqələrinin gələcək inkişafı üçün çox yaxşı hüquqi əsaslar yaradır. Bunların zəminində də şübhəsiz ki, gələcəkdə lazımi tədbirlər görəcəyik.

Beş ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, payızda beş il olacaqdır. Bu illər ərzində Azərbaycan çox ağır, çətin, həm də şərəfli yol keçibdir. Bu gün bir daha qeyd etmək lazımdır ki, ötən beş ildə bizim ən böyük nailiyyətimiz Azərbaycanın müstəqillik əldə etməsi və müstəqil dövlət kimi yaşayıb dünyaya özünü müstəqil bir xalq, müstəqil bir dövlət kimi tanıtmasıdır. Qarşımızda çox çətinliklər olub, ağır problemlərlə rastlaşmışıq. Xalqımız, millətimiz, dövlətimiz üçün ən ağır problem Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzdür. Bilirsiniz ki, bu təcavüz nəticəsində Azərbaycanın ərazisinin 20 faizi işğal edilmişdir, həmin ərazilərdən bir milyondan artıq bacı-qardaşlarımız didərgin düşüblər. İşğal olunmuş torpaqlarda hər şey – şəhərlər, qəsəbələr, kəndlər, evlər, məktəblər, xəstəxanalar, tarixi abidələr dağılıb, yerlə-yeksan edilibdir. Təcavüz nəticəsində çox itkilər, şəhidlər vermişik, çoxları xəsarət alıblar. Bunlar hamısı xalqımızın başına gələn bəlalardır.

İki ildir ki, mayın 12-də iki il tamam olacaq – biz atəşi dayandırmışıq və beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəçiliyi ilə Ermənistanla apardığımız danışıqlar nəticəsində atəşkəs haqqında saziş əldə etmişik və ona da riayət edirik. Müharibə, döyüşlər gedib, itkilər vermişik, qan tökülüb, lakin bunların bir nəticəsi olmayıb. Belə qənaətə gəlmişik ki, bu məsələnin sülh yolu ilə həll olması bizim üçün daha əlverişlidir. Ona görə də iki ildir atəşkəs rejimilə yaşayırıq və sülhə nail olmaq bu iki il ərzində dünyanın bütün imkanlarından istifadə edərək danışıqlar aparırıq. Həm Birləşmiş Millətlər Təşkilatının, həm ATƏT-in və onun Minsk qrupunun, böyük dövlətlərin – Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Türkiyənin, başqa dövlətlərin, digər beynəlxalq təşkilatların imkanları hərəkətə gətirilib, bu işə cəlb olunubdur. Ancaq təəssüf ki, istənilən nəticə əldə edilməyibdir.

İki gün öncə – aprelin 22-də Lüksemburqa gələn günü mən Ermənistan prezidenti Ter-Petrosyanla görüşüb çox ətraf[175-176]lı danışıqlar aparmışam. Biz birgə bəyanat vermişik ki, bundan sonra da atəşkəs rejimini qoruyub saxlayacaq, sülh danışıqlarını davam etdirəcək, məsələnin sülh yolu ilə həllini və beynəlxalq hüquq normalarına riayət olunmasını təmin edəcəyik. Hesab edirəm ki, indiki mərhələdə danışıqlarımızın belə bir nəticəsi lazımdır. Bu, onu göstərir ki, danışıqların gələcəkdə də aparılması üçün şərait yaranır.

Ancaq əsas nəticə əldə olunmayıb. Ona görə ki, Ermənistan tərəfi özünün üstünlüklərindən istifadə edərək, – üstünlük isə bundan ibarətdir ki, ərazimizin 20 faizi işğal olunub, Dağlıq Qarabağın ətrafında yeddi rayon da işğal edilib, bir milyondan çox vətəndaşlarımız qaçqın düşübdür. Belə olan halda Ermənistan, əlbəttə, öz üstünlüyünü bilir, – digər tərəfdən də böyük ölkələrdə, kiçik ölkələrdə olan (bilmirəm, burada erməni var, ya yox, amma Amerika Birləşmiş Ştatlarında bir milyondan artıq, Fransada 400 mindən çox erməni yaşayır. Bunların əksəriyyəti də uzun müddət həmin ölkələrdə yaşadığına görə o mühitə uyğunlaşmış adamlardır, o

ölkələrin vətəndaşlarıdır, çox varlıdırlar. Təəssüf ki, yaşadıqları ölkələrin siyasətinə, mövqeyinə təsir edə bilirlər) erməni diasporunun böyük imkanlarından istifadə edərək, eyni zamanda bunların vasitəsilə bir neçə böyük dövlətin dəstəyinə nail olaraq iddialarından əl çəkmirlər. İddiaları da ondan ibarətdir ki, Dağlıq Qarabağa dövlət müstəqilliyi almaq, beləliklə də Azərbaycanın ərazisinin bir hissəsini ələ keçirmək istəyirlər.

Şübhəsiz ki, biz buna razı ola bilmərik. Aprelin 22-də mən Lüksemburqda olarkən Ermənistan prezidenti Ter-Petrosyana bir də dedim ki, biz heç vaxt buna razı olmayacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Torpaqlarımızın bir qarışını da başqasının əlinə keçməsinə imkan verə bilmərik və bundan sonra da verməyəcəyik. Mən ona dedim ki, bu məsələnin geci-tezi var, heç bir münaqişə sizin dediyiniz kimi aradan qaldırıla bilməz. Bizim hüququmuz var, beynəlxalq hüquq normaları var, Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlət kimi onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı bərpa edilməli, təmin olunmalı və qorunmalıdır. Əgər biz bunu bu gün edə bilmiriksə, sabah edəcəyik, sabah da edə bilməsək sonrakı aylarda, illərdə edəcəyik. Ona görə də bu barədə heç bir güzəştə gedə bilmərik.

Güzəştimiz ondan ibarət ola bilər ki, mövcud reallığı nəzərə alaraq Dağlıq Qarabağda yaşayan ermənilərə (orada təxmi[176-177]nən yüz minə qədər erməni yaşayır) Azərbaycanın tərkibində muxtariyyət statusu verək. Bundan artıq heç bir şey edə bilmərik. Mən bunu Ermənistan prezidentinə bir daha bəyan etdim. Onu dəvət etdim ki, reallığı anlasınlar, bilsinlər ki, bir hədd var, biz onu keçə bilmərik. Anlasınlar ki, daim belə şəraitdə yaşamaq olmaz. Mən ona bildirdim ki, Ermənistan və Azərbaycan taleyin xalqımıza verdiyi yerlərdir, heç kim buradan köçməyəcək, biz qonşuyuq və qonşu kimi yaşamalıyıq. Amma daimi düşmənçilik ola bilməz, daim düşmənçilik vəziyyətində yaşamaq olmaz. Bu, onların özlərinə də böyük zərər vurur. Ancaq iş də bundadır ki, ermənilərdə bir xüsusiyyət var – öz istəklərinə nail olmaq üçün hər bir ağır, çətin vəziyyətə dözürlər. Məsələn, Dağlıq Qarabağ böyük bir yer deyildir. Əgər Amerikada bir milyondan çox, Rusiyada bəlkə də iki milyon, Fransada 400 mindən çox erməni yaşayırsa, Ermənistanın özündə cəmi üç milyon yarım erməni yaşayır. Yüz min erməninin məskun olduğu Dağlıq Qarabağdan ötrü səkkiz ildir ki, Ermənistan özünü çox ağır vəziyyətə salıbdır.

Bu müharibədə bizə çox zərbələr dəyib, torpaqlarımız işğal olunubdur. Ancaq demək olmaz ki, ermənilər nə isə böyük bir şey udublar. Ermənistan da çox ağır iqtisadi vəziyyətdədir, çox böyük problemlər var. Belə bir vəziyyətdə, yaxud Dağlıq Qarabağda yüz min erməni daim hərbi vəziyyətdə, silah altında yaşaya bilməz. İnsanlar azad olmalı, asudə olmalıdır, daim hərbi vəziyyətdə yaşaya bilməzlər. Yenə deyirəm, ermənilərin bir xüsusiyyəti də ondan ibarətdir ki, istədiklərinə nail olmaq üçün ən yaxşı yaşayan erməni də cəfaya, əziyyətə dözür ki, ermənilər əhval-ruhiyyəsini həyata keçirsin. Bu da Qafqazda çox təhlükəli bir amildir. Azərbaycan heç vaxt unutmamalıdır, erməni millətçiləri, daşnaklar və onların bugünkü törəmələri, "Böyük Ermənistan" iddiası ilə yaşayanlar o fikirlərdən əl çəkməyiblər, imtina etməyiblər. Ona görə də bütün bu əzab-əziyyətlərə dözürlər ki, istədiklərinə nail olsunlar.

Biz isə heç vaxt yol verə bilmərik ki, Azərbaycan xalqının mənafeyinin ziyanına olaraq ermənilər özlərinin bu çirkin iddialarını həyata keçirə bilsinlər. Ona görə də belə kəskin vəziyyət yaranmışdır. Ancaq bu vəziyyətdən çıxış yolunu mən yenə də sülh danışıqlarında və bu barədə prezident Ter-Petrosyanla açıq danışıb bəyanatlarımı verdim. Biz bu danışıqları aparacağıq, bu işləri görəcəyik və görürük. Azər[177-178]baycanın ərazi bütövlüyünün təmin edilməsinə nail olacağıq. Mən buna inanıram, əminəm və siz də əmin ola bilərsiniz.

Eyni zamanda hər bir azərbaycanlı bilməli və hazır olmalıdır ki, əgər bizim bütün bu cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olur-olsun, – canımızın, qanımızın bahasına da olsa, – işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik. Bu, qarşımızda duran vəzifədir və biz onu nəyin bahasına olur-olsun yerinə yetirəcəyik. Buna əmin ola bilərsiniz.

Azərbaycanda müstəqil dövlət yaşayır və yaşayacaqdır. Dediyim kimi, Azərbaycanın müstəqilliyi bizim üçün böyük nailiyyətdir. Bu nailiyyəti göz bəbəyi kimi qoruyub saxlamalıyıq və biz bunu edirik. Bir Prezident kimi mən özümün ən ümdə, ən ülvi, ali vəzifəmi bunda görürəm. Azərbaycanda demokratiya prinsipləri, insan azadlığı, söz, fikir azadlığı prinsipləri bərqərar olur. Azərbaycan yeni bir həyata başlayır, dəyişikliklər gedir. Şübhəsiz ki, bu dəyişikliklər bir günə, iki günə mümkün deyildir. Azərbaycan bundan sonra demokratik, hüquqi, dünyəvi, yəni sivilizasiyalı dövlət kimi yaşayıb, inkişaf etməlidir.

Bundan ötrü biz islahatlar aparırıq. Xüsusən iqtisadi islahatlar, özəlləşdirmə keçiririk və bunlar indən sonra daha sürətlə keçiriləcəkdir. Aqrar sektorda islahatlar aparılır, başqa demokratik islahatlar keçirilir. Yəni addım-addım, ardıcıl olaraq bu yolla gedirik və gedəcəyik. Azərbaycanın keçmişini də yaxşı bildiyimə görə, bu gün də mən rəhbərlik etdiyim üçün hər şeyi bildiyimə görə və respublikanın gələcəyinə də öz baxışım olduğuna görə əminəm və siz də əmin ola bilərsiniz ki, müstəqil Azərbaycanın böyük, çox parlaq, gözəl gələcəyi var. Biz bu gələcəyə çatacağıq, sonrakı nəsillər bunun bəhrələrini bəlkə bizdən də çox görəcəklər. Azərbaycan bu yoldan dönməyəcək və mən hesab edirəm ki, heç vaxt dönməməlidir.

Bu illərdə Azərbaycanın daxilində cürbəcür proseslər gedibdir. Bu da təbiidir, Sovetlər İttifaqının dağılması ərəfəsində, dağılması dövründə proseslər olubdur. Şübhəsiz ki, bunlar müəyyən mənada təbiidir. Amma ola bilərdi ki, bu proseslər daha zərərsiz getsin. Təəssüf ki, bunlar Azərbaycan xalqı üçün çox zərərli olubdur. Fikrimi bir də aydınlaşdırmaq istəyirəm ki, bu ictimai-siyasi proseslər təbiidir, olmalı idi. Ancaq bu proseslər

müəyyən qədər idarə olunsaydı, ağıllı şəkildə istiqa[178-179]mətləndirilsəydi xalq üçün, cəmiyyət, millət üçün bəlkə də az zərərlə keçə bilərdi. Amma bunlar olmadığına görə Azərbaycan çox zərbələr aldı.

Acınacaqlıdır ki, Azərbaycanda dövləti silah gücünə devirmək cəhdi adi bir hala çevrilmişdi. Bu dəfə, ilk dəfə silahlı çevriliş edilibdir. 1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi başlandı. O vaxt – məlumatınız olub, ya yox, bilmirəm, – Azərbaycan parçalanırdı. Mənim isə, – tərcümeyi-halım sizə məlumdur, deməyə ehtiyac yoxdur, – baxmayaraq ki, o vaxt Sovetlər İttifaqının rəhbərlərindən biri idim. Moskvada yaşayırdım, oradan təcrid olundum. Azərbaycanın paytaxtı Bakıya – yaşadığım, yaratdığım yerə gəldim, oradan da təcrid olundum. Sonra gedib, doğulduğum yerdən Naxçıvandan təcrid olunmuş vəziyyətdə yaşayırdım. Hesab edirdim ki, belə də yaşamaq olar, insan hər bir cəfaya dözməlidir. Ancaq 1993-cü ilin iyununda Azərbaycanda böyük bir böhtan, dövlət böhranı yarandı, vətəndaş müharibəsi başlandı. Azərbaycan artıq parçalanmışdı.

O vaxt məni Bakıya dəvət etdilər. Mən elə Azərbaycanda idim, amma ucqar yerdə, Naxçıvanda idim, Bakıya gəldim və bildiyiniz kimi, fəaliyyətə başladım. Bir-iki aydan sonra üç il olacaq ki, mən yenə də Azərbaycana rəhbərlik edirəm. Təəssüflər olsun ki, bu müddətdə də biz çox böyük, ağır çətinliklərlə rastlaşdıq. Ayrı-ayrı silahlı dəstələr 1994-cü ilin oktyabrında Azərbaycanda yenə çevriliş etmək istədilər. Eşitmisiniz, bilirsiniz, mən xalqa müraciət etdim, camaat Prezident sarayının ətrafına toplaşdı. O adamlar ki, silah gücünə dövləti devirmək istəyirdilər, biz onları dağıtdıq.

Təəssüf ki, bu zərərli ənənə Azərbaycanda bəzilərinin qanına o qədər işləyib ki, ondan əl çəkə bilmirlər. 1995-ci ilin martında yenidən çevriliş etmək istədilər. Bizim bəzi gənclərimiz tələf oldu, ancaq bu cəhdin də qarşısını aldıq. Bundan sonra yenidən çevriliş hazırlamaq, terror aktlarına keçmək istədilər. Mənə qarşı yönəldilmiş bir neçə terror aktının qarşısı alındı. Hətta 1995-ci ilin iyununda mən Rumıniyadan Azərbaycana qayıdarkən uçduğum təyyarəni raketlə vurmaq məqsədi ilə işlər görülmüşdü. Allah bizi o bəladan, xətadan qurtardı, təyyarəni vura bilmədilər. Sonra bu işin təşkilatçıları yaxalandı, hazırlanmış həmin raket də tapıldı. Bunlar hamısı bizim aramızda olub və öz şəxsi məqsədlərini, mənafelərini xalqın [179-180] mənafeyindən üstün tutan adamlardır. Əgər bir-birimizə daxildən zərbə vursaq yenə dərd yarıdır. Bütün bunlar Azərbaycana olan təcavüzə kömək edir, düşmənin dəyirmanına su tökür və ölkəmizin ümumi, qlobal mərasimlərinin, hərbi təcavüzündən xilas olmaq, ərazi bütövlüyümüzü təmin etmək məsələlərinin həllinə maneçilik törədir, böyük zərbələr vurur.

Mən bilirəm, hələ 1990-cı ilin yanvar faciəsi zamanı siz Azərbaycana qarşı olan təcavüzə bu ölkələrdə öz etirazınızı bildirmişsiniz. Azərbaycanda xalq meydanlara çıxıb respublikada o vaxtkı kommunist rejiminin əleyhinə mitinqlər keçirərkən onunla həmrəy olmuş, onu dəstəkləmişsiniz. Hesab edirəm, bunlar hamısı çox gözəl nümunələr, xidmətlərdir.

Təəssüflər olsun ki, o vaxt vətənpərvərlik, milli azadlıq əhval-ruhiyyəsi ilə yaşayan bəzi adamlar sonra mənəviyyatca pozulub cinayətkarlara çevrilibdir və bəziləri dövlət çevrilişi cəhdlərində iştirak etdilər. Bir hissəsi həbs olundu, bəziləri qaçıb Moskvada, Rusiyanın başqa şəhərlərində gizlənirlər. Məsələn, ola bilər xatirinizdədir, o vaxt Xalq Cəbhəsinin başçılarından biri olan Rəhim Qaziyevi 1990-cı ilin yanvar hadisələri ilə əlaqədar həbs edib, səkkiz ay Moskvada saxlamışdılar. Azad edilib Azərbaycana qayıtdıqdan sonra hamı sevinir, bayram edirdi ki, Rəhim Qazıyev kimi bir şəxs geri qayıtmışdır. Amma sonrası nə oldu? Heç bir təcrübəsi olmayan bu adam Xalq Cəbhəsinin hakimiyyəti dövründə müdafiə naziri oldu, xəyanət etdi. Bizim Şuşa, Laçın kimi yenilməz qalalarımızın düşmənə təslim edilməsinin iştirakçısı oldu, başqa cinayətlər də etdi. 1993-cü ildə də vətəndaş müharibəsini törədənlərdən biri o idi. Bu hadisələrə görə onu məsuliyyətə cəlb edərkən, izahat tələb edərkən qaçdı. Onu həbs etdilər, istintaq apardılar. Lakin xarici ölkələrin xüsusi xidmət dairələrinin vasitəsilə həbs etdilər və Bakıya gətirdilər.

Azərbaycanda qısa müddət Kommunist Partiyasına rəhbərlik etmiş, sonra az müddət prezident olmuş Ayaz Mütəllibov dörd il bundan öncə xalq tərəfindən qovulubdur. Dörd ildir ki, Moskvada oturub cürbəcür təxribat işləri aparır. Özünün guya yenə də hakimiyyətə gəlməsi üçün terrorçular hazırlayıb göndərir, raketlə təyyarəni vurdurmaq istəyir, min dənə iş görür. On-on beş gün öncə onu da Moskvada həbs ediblər. Bilmirəm, Azərbaycana verəcəklər, ya verməyəcəklər. Çünki gedib orada [180-181] onlara sığınıb və deyir ki, sizi hamıdan çox istəyirəm, sizin vətəninizi öz vətənimdən də çox istəyirəm. Ona görə onu müdafiə edənlər də var.

Təəssüf ki, Xalq Cəbhəsinin daxilində də öz əqidəsini dəyişən, mənəviyyatca pozulan adamlar çox oldu. Ona görə də bütün bunlar Azərbaycanın daxilində çox ağır nəticələrə gətirib çıxardı. Allaha şükürlər olsun ki, biz bu çətinliklərin hamısının öhdəsindən gələ bildik.

Keçən ilin noyabrında biz müstəqil Azərbaycanın ilk Konstitusiyasını qəbul etdik. Bu, böyük tarixi hadisədir. Konstitusiya Azərbaycanda demokratik, güclü dövlətin yaranıb yaşaması üçün böyük proqramdır. Azərbaycanda ilk demokratik parlament seçkiləri keçirildi. Artıq bizim demokratik parlamentimiz var, o işləyir. Mənimlə birlikdə buraya parlamentimizin səkkiz-doqquz üzvü də gəlmişdir. Parlamentdə bir sıra partiyalar təmsil olunubdur. Məsələn, Xalq Cəbhəsi də, Milli İstiqlal Partiyası da, Yeni Azərbaycan Partiyası, Demokratik İstiqlal Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası və başqa partiyalar da təmsil ediliblər. Yəni bizdə çoxpartiyalı sistem var. 30-dək partiya qeydiyyatdan keçibdir. Doğrudur, əksəriyyəti çox zəifdir, platformalarında böyük fərq də yoxdur. Bu partiyaların əksəriyyəti Azərbaycanın müstəqil dövlət kimi yaşamasını, inkişaf etməsini

istəyir. Ancaq təəssüf ki, bəzilərində, – ola bilər, özlərində yox, başçılarında – siyasi hikkə, iddialar olduğuna görə Azərbaycanın müstəqilliyi üçün birləşməkdə hələ ki, lazımi addımlar ata bilməyiblər. Ancaq mən inanıram ki, biz bu mərhələni də keçib gedəcəyik.

Azərbaycanın daxilində fikir azadlığı, söz azadlığı, dünya baxışlarında fərqin olması təbiidir. Bunlarla bərabər Azərbaycanın üzvü məqsədlərinin ətrafında hamı birləşməlidir. Bu məqsədlər nədən ibarətdir: Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq, ərazi bütövlüyünü təmin etmək, Azərbaycanı Ermənistanın təcavüzündən xilas etmək. Bunun üçün hamı birləşməlidir. Mən açıq deməliyəm, ermənilər bu sahədə çox birləşə bilirlər, amma təəssüf ki, azərbaycanlılar birləşmək qabiliyyətinə hələ istənilən qədər malik deyillər. Amma güman edirəm ki, bu da olacaqdır.

Xalqımız yeni bir inkişaf dövrünü keçirir. Biz bu dövrü də keçməliyik. Bundan sonra xalqımız daha da yüksələcəkdir. Dünyada 40 milyondan artıq azərbaycanlı yaşayır. Burada, belə bir şimal ölkəsində 1500 azərbaycanlının yaşaması özü bö[181-182]yük qüvvədir. Ancaq elə ölkələr var ki, orada milyonlarla azərbaycanlı yaşayır. Azərbaycanlıların vətəni var – müstəqil Azərbaycan dövləti, azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla, müstəqil Azərbaycanla bir vurmalıdır. Harada yaşayır-yaşasın – Norveçdə, İsveçrədə, Amerikada, Fransada, İngiltərədə, başqa ölkələrdə, – fərqi yoxdur. Güman edirəm, o gün gəlib çatacaq ki, başqa ölkələrdə, yəni Azərbaycanın hüdudlarından kənarda azərbaycanlılar daha çox təşkilatlanacaq, birləşəcək, bir-biri ilə daha da mehriban, səmimi olacaqdır. Bu, həm Azərbaycan xalqının birliyini, həmrəyliyini təmin edəcək, həm də müstəqil Azərbaycanı bütün dünyada dəstəkləyəcək, müdafiə edəcəkdir. Biz buna nail olmalıyıq. Güman edirəm ki, buna doğru aparan yollar da artıq açıqdır, aydındır, hesab edirəm, bizim üçün müəyyəndir. Ona görə də əminəm ki, xalqımız getdikcə daha da yaxınlaşacaq, birləşəcəkdir.

Güman edirəm ki, mənim bu sözlərimdən hərə özü üçün nə lazımsa götürəcəkdir. Ancaq bir şey məni narahat edir ki, ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılar bəzən parçalanırlar. Burada dediniz ki, iki təşkilat yaratmısınız, biri assosiasiyadır, o birisi kültür dərnəyidir. Bu, ola bilər, şübhəsiz, mən demirəm ki, hamı bir təşkilat olsun. Ancaq bu təşkilatlar eyni istiqamətdə işləyirlərsə, bir-biri ilə dostdurlarsa, qoy olsun. Yaxud kiçik bir yerdə bir təşkilat digəri ilə rəqabət aparırsa, ya da bəzən bir-birinə zidd gedirsə bu, lazım deyildir. Kənardan bizə olan mənfi hərəkətlər kifayətdir, lazım deyildir. Öz aramızda səmimi, dost, mehriban olmalıyıq, bir-birimizə kömək etməliyik, bir-birimizin qayğısına qalmalıyıq. Bu, "Qurani-Şərif"in bizə verdiyi nəsihətlərdir, xalqımızın, millətimizin əsrlər boyu, tarixdən gələn ənənələridir, azərbaycanlıların ən yüksək keyfiyyətləri, xüsusiyyətləridir. Bunları itirmək lazım deyildir, əksinə, hər kəs özündə toplamalı və başqasına da çatdırmalıdır ki, hamımız bir olaq. Azərbaycanlılar əsl azərbaycanlı olmalıdır, vətənpərvər olmalıdır, vətənini, dilini, dinini sevməlidir və vətənə öz qayğısını göstərməlidir. Mən sizi buna dəvət edirəm.

Şübhəsiz ki, Azərbaycan dövləti qüvvətləndikcə, iqtisadi cəhətdən gücləndikcə öz hüdudlarından kənarda yaşayan soydaşlarına da qayğısını və diqqətini artıracaqdır. Bu gün də qəlbimizdə bu qayğılar var, indi də bu, bizim üçün böyük vəzi[182-183]fədir. Ancaq gələcəkdə bu, daha da artacaqdır. Ona görə gəlin əl-ələ verək, bir olaq, müstəqil Azərbaycanı yaşadaq, irəliyə aparaq.

Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Hamınıza arzu edirəm ki, Azərbaycanla daim əlaqədə olasınız. Sağ olun.

## GÖRÜŞ İŞTİRAKÇILARININ SUALLARINA, AZƏRBAYCANDAN KƏNARDA YAŞAYAN SOYDAŞLARIMIZIN RESPUBLİKAMIZA VİZASIZ GƏLİB-GETMƏSİ BARƏDƏ QALDIRDIQLARI MƏSƏLƏYƏ CAVAB

Azərbaycanın müstəqilliyi o deməkdir ki, sərhədlərini də özü qoruyacaq, Azərbaycanın ərazisində heç bir xarici ordu olmayacaq. Təəssüf ki, bu barədə söz-söhbəti Azərbaycanda bizə qarşı müxalifətdə olan Xalq Cəbhəsi, Müsavat Partiyası yayır. Onlar özləri də bilirlər ki, nə qədər ki, Heydər Əliyev Azərbaycanın prezidentidir, o, sözündən dönən deyildir. Ancaq ayrı-ayrı adamlarda cürbəcür fikirlər yaratmaq üçün yalanlar, şayiələr yayırlar. Bunlara uymayın, hamısı yalandır, arxayın olun. Əgər sən burada yaşaya-yaşaya Azərbaycanın müstəqilliyi haqqında belə düşünürsənsə, necə bilirsən, mən, Azərbaycanın prezidenti, həyatının 50 ildən çoxunu Azərbaycan xalqına, onun rifahına həsr etmiş adam Azərbaycanın müstəqilliyinin pozulmasına imkan verə bilərmi? Belə şey ola bilməz!

Yenə deyirəm, azərbaycanlı özünü hər yerdə azərbaycanlı hiss etməlidir. Norveçdə yaşayırsansa, deyə bilməzsən ki, norveçlisən. Yox, sən azərbaycanlısan. Amerikada yaşayan erməni deyir ki, o, ermənidir. Amerika vətəndaşıdır, amma deyir ki, erməniyəm. Amma orada yaşayan azərbaycanlıların çoxu, – Amerika vətəndaşıdır və ya deyil, – demir ki, azərbaycanlıyam.

Əbülfəz Elçibəyin silahla devrilməsinə gəldikdə isə, hər bir dövlət özlünü qoruya bilməlidir. Əgər dövlət özünü qoruya bilmirsə, demək, o dövlət başçısı ona layiq deyildir. Əbülfəz Elçibəyı prezident seçmişdilər,

əlində bütün səlahiyyətlər var idi. Əbülfəz Elçibəyin silahlı qüvvələri var idi. Hakimiyyət də, ordu da, polis də əlində idi. Niyə qaçıb getdin Kələkiyə? Orada yaşayır, nədən ötrü? Vətəndaş müharibəsinin qarşısını almaq uçun Heydər Əliyevi dəvət etdilər. Bəs onlar niyə bunun qar[183-184]şısını almadılar? Vətəndaş müharibəsinə başlayanlar əgər bir tərəfdən Gəncədən Bakıya hücum edənlər idisə, ikinci tərəfdən Əbülfəz Elçibəyin sağında oturan Rəhim Qazıyev, sol tərəfində oturan İsgəndər Həmidov, Əbülfəz Elçibəyə diqtə edən İsa Qəmbər idi. Yaxşı, xalq səni seçib, etimad göstərib, prezidentsən – niyə qaçdın? Biri parlamentin sədri idi, Pənah Hüseynov baş nazir idi, bu günlərdə həbs elədilər. Üç il idi qaçıb gizlənirdi. Belə də şey olar? Əgər doğrudan da vətənini sevirsənsə, vətənində ol, cinayətin yoxdursa, sənə heç kim toxunmayacaq, varsa – cavab ver. Günahları çoxdur və bu günahlara görə də hamısı cavab verməlidir. [184-185]

## MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Oslo*

*25 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən Norveçin baş naziri hörmətli xanım Brundtlandın dəvəti ilə dost ölkəyə rəsmi səfərə gəlmişəm. Mənimlə birlikdə bizim nümayəndə heyəti də buradadır. Biz dünən danışıqlar aparmışıq. Qeyd etməliyəm ki, danışıqlarımız çox səmərəli keçdi. Danışıqlar nəticəsində Norveç ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün bir neçə sənəd imzalamışıq.

Azərbaycanda Norveç ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk. Norveç Azərbaycanın müstəqilliyini tanıyan dünya dövlətlərindən biridir. O vaxtdan bəri də Norveç Azərbaycanla iqtisadi əməkdaşlıq etməyə maraq göstəribdir. Norveçin "Statoyl" şirkəti və digər şirkətləri Azərbaycana gəlib və artıq bizimlə əməkdaşlığa başlayıblar.

Bununla bərabər bizi Norveçlə sıx əməkdaşlığa cəlb edən amil budur ki, Norveç Avropanın inkişaf etmiş dövlətlərindən biridir, iqtisadiyyat sahəsində böyük nailiyyətlər qazanıb. Norveç demokratik islahatlar aparılması sahəsində də çox böyük nailiyyətlərə malikdir. Norveç tam demokratik prinsiplər əsasında öz dövlətini qurub və cəmiyyətini formalaşdırıbdır. Bunların hamısı bizim üçün çox cəzbedici hallardır, bizim üçün çox maraqlıdır. Bunlar həm də müstəqil Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurmaq üçün təcrübədir. Bu amillər Norveçlə əlaqələrimizin daha çıx olması ilə indən sonra da inkişaf etməsi baxımından bizim üçün əhəmiyyətə malikdir.

Biz dünən baş nazir xanım Brundtland ilə bu məsələlər ətrafında geniş fikir mübadiləsi, danışıqlar aparmışıq. Bu danışıqların nəticəsində, bir tərəfdən, Norveç ilə Azərbaycan arasında əlaqələrin daha sürətlə inkişaf etdirilməsi haqqında ümumi rəyə gəldik və bununla bərabər, danışıqlarımız zamanı beynəlxalq aləmdə gedən proseslər, dünya prosesləri haqqında, o cümlədən, dünyanın ayrı-ayrı regionlarında gedən [185-186] proseslər, baş vermiş və uzun müddət davam edən hərbi münaqişələr, bu münaqişələrin aradan qaldırılması haqqında fikir mübadiləsi apardıq və fikirlərimiz uyğun gəldi. Bundan başqa bir çox digər məsələlər barəsində də fikirlərimiz və dünyagörüşlərimiz üst-üstə düşür. Bu isə gələcək əməkdaşlığımız üçün yaxşı əsasdır.

Azərbaycan Qafqazda yerləşir. Təəssüflər olsun ki, Qafqazda bir neçə hərbi münaqişə mövcuddur, o cümlədən Dağlıq Qarabağ ilə əlaqədar Ermənistanla Azərbaycan arasında münaqişə dünyanın ən ağır, eyni zamanda təhlükəli münaqişələrindən biridir. Bu münaqişə Azərbaycan Respublikasına, Azərbaycan xalqına çox böyük zərər və zərbələr vurmuşdur. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur, işğal edilən bu ərazilərdən Azərbaycanın bir milyon nəfərdən artıq vətəndaşı öz yer-yurdlarından zorla çıxarılmışdır. Onlar didərgin düşmüş və çox ağır vəziyyətdə çadırlarda yaşayırlar. Bu, bizim həm iqtisadi vəziyyətimizi, həm də ümumi vəziyyətimizi olduqca gərginləşdirmişdir. Mən xanım Brundtlandla bu barədə də çox geniş fikir mübadiləsi aparmışam və ona bildirmişəm, sizə də bəyan edirəm ki, Azərbaycan Ermənistanla münaqişəni sülh yolu ilə aradan qaldırmaq istəyir, məhz buna görə də biz iki il bundan öncə Ermənistanla Azərbaycan arasında atəşin kəsilməsi haqqında saziş imzalamışıq. Biz bu sazişə indiyədək əməl edirik və onun bundan sonra da saxlanmasına çalışacağıq. Biz bu atəşkəs rejiminin davam etdiyi vaxtda danışıqlar aparırıq. Danışıqlar nəticəsində hərbi əməliyyatlara və ümumiyyətlə, münaqişəyə son qoymaq istəyirik. Biz Azərbaycanla Ermənistan arasında daimi sülh olmasına tərəfdarıq.

Sülhə nail olmaq üçün hər bir ölkə, o cümlədən Ermənistan da beynəlxalq hüquq normalarına əməl etməlidir. Bu baxımdan biz sülh əldə etmək üçün çox güzəştli, konstruktiv təkliflər irəli sürmüşük. Təkliflər ondan ibarətdir ki, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələri çıxmalıdır. Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır, işğal edilmiş torpaqlardan didərgin düşmüş, zorla çıxarılmış Azərbaycan vətəndaşları o torpaqlara, öz yer-yurdlarına qayıtmalıdırlar. Dağlıq Qarabağ probleminin həll olunmasının əsas prinsipi, əsas yolu bundan ibarətdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və biz Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa, [186-187] burada yaşayan təxminən 100 min erməniyə yüksək muxtariyyət statusu verməyə hazırıq. Bu yüksək muxtariyyət statusu yalnız və yalnız Azərbaycan dövlətinin tərkibində ola bilər və heç zaman bu status Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə zərər vurmamalıdır.

Azərbaycan öz müstəqilliyinin beşinci ilini yaşayır. Dövlət müstəqilliyi Azərbaycan xalqı üçün tarixi bir hadisədir. Bu, bizim üçün əbədidir. Müstəqil Azərbaycan dövləti öz həyatını demokratik prinsiplər əsasında qurur. Azərbaycanda demokratik hüquqi dövlət qurulur və bütün demokratik prinsiplər ölkəmizdə bərqərar edilir. Azərbaycan ötən ilin noyabr ayında referendum yolu ilə ilk demokratik konstitusiyasını qəbul edib və eyni zamanda ilk dəfə Azərbaycan parlamentinə çoxpartiyalı sistem əsasında ilk demokratik seçkilər

keçirilibdir. Bunların hamısı Azərbaycanın demokratiya yolu ilə getməsi üçün çox yaxşı əsaslar yaradıbdır. Biz demokratiya yolu ilə gedirik. İqtisadiyyatımız dünyaya açıqdır. İqtisadiyyatda bazar iqtisadiyyatı prinsipləri əsasında islahatlar aparırıq. Özəlləşdirmə proqramı qəbul edilib və həyata keçirilir. Bunların hamısı zəngin təbii sərvətləri olan Azərbaycanı qısa müddətdə dünyanın ən yüksək inkişaf etmiş dövlətlərindən birinə çevirəcəkdir.

Sizin gözəl ölkənizdə, gözəl Oslo şəhərində biz özümüzü çox yaxşı hiss edirik. Bizə böyük qonaqpərvərlik göstərilir. Bizim görüşlərimiz, danışıqlarımız səmimilik və mehribanlıq şəraitində keçir. Bütün bunlar onu göstərir ki, Norveç-Azərbaycan əlaqələrinin çox gözəl gələcəyi var və biz bu gələcəyə nail olmaq üçün əlimizdən gələni edəcəyik. Təşəkkür edirəm.

**Sual**: Prezident Heydər Əliyev indi öz bəyanatında "Statoyl" ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında əməkdaşlığın genişləndiyini qeyd etdi. Bununla əlaqədar belə bir sual: Xəzər dənizi şelfində yeni neft yataqlarının, o cümlədən "Şahdəniz" yatağının işlənməsində "Statoyl" şirkətinin iştirakı nəzərdə tutulurmu?

**Heydər Əliyev**: Bəli, nəzərdə tutulur. Bu məsələ ilə əlaqədar indi biz fəal danışıqlar aparırıq.

**Sual**: Neft hasilatının artırılması onun nəqlinin genişləndirilməsini nəzərdə tutur. Məlum olduğu kimi, Azərbaycan nefti xaricə Rusiya və Gürcüstan ərazisi ilə nəql ediləcəkdir. Neft kəmərlərinin və [187-188] Norveç təşkilatları ilə əməkdaşlığın başqa variantları da hazırlanırmı?

**Heydər Əliyev**: Bəli, siz düz deyirsiniz ki, ilkin neftin Rusiya ərazisi ilə Qara dəniz sahilindəki Novorossiysk limanına və Gürcüstan ərazisi ilə yenə də Qara dəniz sahilindəki Supsa limanına ixracı üçün boru kəmərləri çəkilməsi haqqında Rusiya və Gürcüstan ilə sazişlər bağlamışıq. Lakin bununla eyni zamanda konsorsiumun layihəsində Azərbaycan neftinin ixracı üçün böyük bir neft kəmərinin çəkilməsi nəzərdə tutulur. Biz bu məsələdə Norveç təşkilatları ilə əməkdaşlıq edirik və edəcəyik.

**Sual**: Bilmək istərdik ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ATƏT-in və BMT-nin rolunu nədə görür və sizin Norveçin baş naziri ilə apardığınız danışıqlar zamanı ATƏT-in sülhyaratma qüvvələrində Norveç əsgərlərinin iştirakı məsələsi müzakirə edildimi?

**Heydər Əliyev**: Biz Ermənistanla Azərbaycan arasında münaqişənin aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun imkanlarından istifadə edirik və bundan sonra da edəcəyik. ATƏT-in Minsk qrupu məhz bu münaqişənin sülh yolu ilə həll edilməsi üçün yaradılmışdır. Doğrudur, Minsk qrupu və onun vasitəsilə apardığımız işlər istənilən nəticəni indiyədək verməyib. Ancaq biz bu vasitədən indən sonra da istifadə edəcəyik. Böyük Sülh Sazişinin əldə olunması və onun həyata keçirilməsi bölgəmizə beynəlxalq sülhü mühafizə qüvvələri gətirilməsini nəzərdə tutur. Baş nazir xanım Brundtland ilə görüş zamanı o, Azərbaycan jurnalistlərinin suallarına cavab verərək bildirdi ki, hələ 1994-cü ilin dekabrında Budapeştdə ATƏT-in Zirvə toplantısında Norveç bəyan etmişdi ki, əgər sülh müqaviləsi əldə olunarsa və bizim bölgəyə ATƏT-in sülhməramlı qüvvələri göndərilərsə, onda Norveç bu qüvvələrin tərkibinə qoşun hissələri göndərməyə hazırdır.

**Sual**: Siz artıq xatırlatdınız ki, neft konsorsiumunun layihəsində böyük neftin ixracı üçün neft kəməri çəkilməsi nəzərdə tutulur. Lakin siz demədiniz ki, bu neft kəməri haradan keçəcək və onun son məntəqəsi harada olacaqdır. Bu, birinci sualımdır. İkinci sualım: şübhə yoxdur ki, konsorsium öz fəaliyyətində Qafqazda, o cümlədən də Çeçenistandakı narahat vəziyyəti nəzərə alır. Bu, nə dərəcədə nəzərə alınır? [188-189]

**Heydər Əliyev**: Əvvəlcə böyük neft kəməri barədə. Təbii ki, bütün variantlar nəzərdən keçirilib öyrənilir. Bu məsələ barəsində indi qəti qərar yoxdur. Buna görə də müəyyən fikir söyləmək hələ tezdir. Hər halda konsorsiumun layihəsində böyük neft kəmərinin çəkilişi nəzərdə tutulur. Biz bu kəmərin çəkilişinə və istismarına nail olmağa çalışacağıq.

O ki qaldı Şimali Qafqazda vəziyyətə, biz Şimal istiqamətində neft kəməri çəkilməsi haqqında Rusiya ilə danışıqlar aparıb bu barədə saziş bağladıqda bu neft kəmərinin marşrutunda mümkün ola biləcək çətinlikləri nəzərə almışıq. Lakin bununla yanaşı, onu da nəzərə almışdıq ki, bu çətinlikləri aradan qaldırmaq mümkündür.

**Sual**: Cənab Prezident, bilmək istərdim ki, "Şahdəniz" yatağı haqqında bağlanacaq müqavilə ilə əlaqədar vəziyyət necədir, bu sahədə danışıqlar başa çatmaqdadırmı? "Şahdəniz" yatağının istismarında iştirak edəcək şirkətlərin siyahısı müəyyənləşdirilibmi? Əgər müəyyənləşdirilibsə, bunlar hansı şirkətlərdir? "Şahdəniz" layihəsinin maliyyələşdirilməsində Ümumdünya Bankının və Avropa Yenidənqurma və İnkişaf Bankının hər hansı iştirakı gözlənilirmi?

**Heydər Əliyev**: "Şahdəniz" yatağının müştərək işlənməsi haqqında danışıqlar sona çatır. Güman edirəm ki, yaxın vaxtlarda bu barədə müqavilə imzalanacaqdır. Bu neft yatağına dünyanın bir sıra şirkətləri böyük maraq göstərirlər. Biz onlarla danışıqlar aparırıq. Lakin mən danışıqlar nəticəsində bu layihədə hansı şirkətlərin iştirak edəcəyi barədə məlumat vermək istəmirəm. Sadəcə olaraq bildirmək istəyirəm ki, bu neft yatağında lap əvvəldən "Statoyl" və "Britiş Petroleum" çox zəhmət çəkmişlər və təbii ki, bu layihədə iştirak edirlər.

Layihənin maliyyələşdirilməsinə gəldikdə isə, bu məsələni adətən konsorsiuma daxil olan şirkətlərin özləri həll edirlər. Əgər onlar gəlib hər hansı layihəyə daxil olurlarsa, deməli, maliyyə problemlərini əvvəlcədən nəzərə alır və həll edirlər. Ola bilər ki, onlar Ümumdünya Bankının, Avropa Yenidənqurma və İnkişaf Bankının, digər bankların köməyindən istifadə etsinlər. Təşəkkür edirəm. [189-190]

## "STATOYL" ŞİRKƏTİNİN PREZİDENTİ HARL NORVİNQ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Stavanger*

*25 aprel 1996-cı il*

Hörmətli cənab Harl Norvinq!

Mən təmsil etdiyim Azərbaycan Respublikasının və şəxsən mənim ünvanıma deyilmiş xoş sözlərə görə ürəkdən təşəkkür edirəm. Bunu qeyd etmək çox xoşdur ki, Azərbaycan müstəqillik qazandığı vaxt ölkəmizdə iş görməyə gələn ilk xarici şirkətlərdən biri məhz "Statoyl" olmuşdur və biz bunu yüksək qiymətləndiririk. "Əsrin müqaviləsi"ndə "Statoyl"un iştirakından razılıqla söhbət açmaq istəyirəm və əmin olduğumu bildirirəm ki, bu şirkət digər sahələrdə də ölkəmizlə əlaqələri möhkəmləndirəcək və xarici sərmayədarların respublikamıza cəlb olunmasında da səylərini artıracaqdır.

Norveç-Azərbaycan iqtisadi əlaqələrinin daha da sıxlaşdırılmasının hər iki tərəf üçün böyük əhəmiyyəti vardır. Xüsusilə də "Statoyl"un istifadə etdiyi ən qabaqcıl texnika və texnologiyanın respublikamızda da tətbiqi vacibdir. Yaxşı olardı ki, "Statoyl" bütün sahələrdə gənc müstəqil respublikamıza yaxından kömək etsin, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məsələlərdə Azərbaycanın haqq işinin geniş təbliğinə diqqəti artırsın, Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycanın ədalətli mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında səylərini gücləndirsin.

Biz Xəzərin Azərbaycan sektorundakı digər yataqlarının da birgə istismarında "Statoyl"un iştirak etməsini istərdik. Bir daha bildirirəm ki, biz ölkəmizə sərmayə qoyan hər bir şirkətlə əlaqələri daha da sıxlaşdırmaq istəyirik və əməkdaşlığın genişləndirilməsi üçün ölkəmizdə imkanlar çoxdur.

Mən, həmçinin "Statoyl"un və "Britiş Petroleum"un respublikamıza laboratoriya hədiyyə etmək niyyətini razılıqla qarşılayır və minnətdarlığımı bildirirəm. [190-191]

## "STATOYL" ŞİRKƏTİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Stavanger*

*25 aprel 1996-cı il*

Hörmətli nazir, hörmətli prezident, möhtərəm xanımlar və cənablar!

Mən sizi – "Statoyl"un bütün əməkdaşlarını, Stavanger şəhərinin sakinlərini Azərbaycan xalqı adından səmimi qəlbdən salamlayıram. Qafqaz diyarından, Azərbaycan diyarından Yer kürəsinin ən şimalında yerləşən Notveç dövlətinin sakinlərinə və "Statoyl" şirkətinin əməkdaşlarına hərarətli dostluq salamı yetirirəm.

İkinci gündür ki, mən Norveçin baş naziri hörmətli xanım Brundtlandın dəvəti ilə sizin ölkənizdə rəsmi səfərdəyəm. Hesab edirəm ki, bu iki gündə çox səmərəli işlər görülüb və Norveç-Azərbaycan əlaqələrinin inkişafı üçün yeni mərhələ açılıbdır. Norveçin kralı, baş naziri, parlament sədri və başqa rəsmi şəxsləri ilə görüşlərimiz və danışıqlarımız, nəhayət, baş nazir xanım Brundtland ilə imzaladığımız sənədlər Norveç-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün çox yaxşı əsaslar yaradır.

Norveç-Azərbaycan əlaqələrinin yaranmasında və inkişaf etməsində "Statoyl" şirkətinin xüsusi xidmətləri var. Norveç Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. "Statoyl" şirkəti Azərbaycan dövlət müstəqilliyinə nail olduqdan sonra ölkəmizlə iqtisadi əməkdaşlıq etmək istəyən dünyanın böyük şirkətlərindən respublikamıza birincilər sırasında gələn şirkətidir. Bunların hamısı Norveç-Azərbaycan əlaqələrinin, Norveç-Azərbaycan dostluğunun yaranması üçün çox böyük kömək olmuşdur və bizim bugünkü görüşlərimiz də məhz dörd il öncə Norveçin Azərbaycana göstərdiyi münasibət və marağın əyani, məntiqi nəticəsidir.

Biz Norveçə, Oslo şəhərinə gəldiyimiz ilk anlardan indiyədək Norveç hökuməti və dövlətinin böyük qonaqpərvərliyini hiss edirik. Görüşlərimiz çox mehriban mühitdə keçibdir. Bütün bunlarda "Statoyl" şirkəti də fəal iştirak edibdir. [191-192]

Biz Norveçə gəldiyimiz vaxtdan sizin xalqınızın dövlət müstəqilliyi yolunda indiyədək əldə etdiyi uğurların, öz iqtisadiyyatını inkişaf etdirmək, öz rifahını yaxşılaşdırmaq üçün gördüyü böyük işlərin və qazandığı nailiyyətlərin şahidiyik. Norveç xalqının və hökumətinin XX əsrdə əldə etdiyi nailiyyətlər doğrudan da heyranedicidir. Şübhə yoxdur ki, bunlar Norveç xalqının istedadı və fədakarlığı sayəsində qazanılmışdır. Bu nailiyyətlərin əldə edilməsində "Statoyl" şirkətinin də böyük xidmətləri var.

Biz bir dost xalq kimi, dost ölkə kimi sizin bu yüksək nailiyyətlərinizə sevinirik və bu nailiyyətlər münasibətilə mən sizi ürəkdən təbrik edirəm, öz hörmət və ehtiramımızı bildirirəm.

Norveç neft istehsalı sahəsində gənc ölkədir. Norveçin dəniz sektorunda neft istehsalının tarixi cəmi 30 ilə bərabərdir. Azərbaycan isə qədim neft ölkəsidir. Azərbaycanda neft istehsalının tarixi 150 ildir, dənizdə neft hasilatının tarixi isə 50 ildir. Azərbaycanda neft istehsalı sahəsində əldə olunmuş nailiyyətlərdən və təcrübədən keçmişdə dünyanın bir çox ölkələrində istifadə edilmişdir. İndi isə Azərbaycan öz neft sənayesini inkişaf etdirmək üçün dünyanın neft sənayesi sahəsində qabaqcıl ölkələrinin təcrübəsindən bəhrələnmək istəyir. Bu baxımdan Norveçin və "Statoyl"un qazandığı nailiyyətlər və təcrübə bizim üçün çox maraqlıdır, çox əhəmiyyətlidir.

Qısa bir müddətdə – 30 ildə Norveçdə "Statoyl" şirkətinin belə yüksək nailiyyətlər qazanması müasir texnologiyadan istifadə olunması ilə bağlıdır. Bu texnologiya sayəsində əldə olunmuş nailiyyətlər bizim üçün də çox maraqlıdır. Ona görə də burada sizin təcrübənizlə yaxından tanış olmaq və ondan faydalanmaq istəyirik.

Norveç ilə Azərbaycan arasında neft sənayesi və neft istehsalı sahəsində əməkdaşlıq sürətlə inkişaf edir. "Statoyl" şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda neft yataqlarının işlənməsində və istismarında çox fəal iştirak edir. 1994-cü il sentyabrın 20-də imzalanmış böyük neft müqaviləsində – "Əsrin müqaviləsi"ndə "Statoyl" şirkətinin çox böyük və görkəmli yeri var. Bu, ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etməsi üçün çox yaxşı əsaslar yaradır. "Statoyl" ilə əməkdaşlığımız sayəsində indiyədək əldə olunmuş nəticələri mən müsbət qiymətləndirirəm və gələcəkdə daha geniş əməkdaşlıq edəcəyimizə inanıram. Bu əməkdaşlıq üçün konkret addımlar atıldığını da görürəm. [192-193]

Güman edirəm ki, bu gün və sabah burada keçirəcəyimiz vaxt gələcək əməkdaşlığımız üçün çox faydalı olacaqdır. Sizin Azərbaycan nümayəndə heyətinə, Azərbaycan prezidentinə göstərdiyiniz qonaqpərvərliyə görə, böyük diqqətinizə görə təşəkkürümü bildirirəm. Mən Norveç-Azərbaycan əməkdaşlığının böyük gələcəyi olduğuna inanıram. Mən o gələcəyi görürəm.

"Statoyl" ilə imzaladığımız müqavilənin azı 30 il müddəti var. Güman edirəm ki, əməkdaşlığımız 30 ildən də artıq davam edəcəkdir. Başqa müqavilələrin də müddəti çox olacaqdır. Buna görə də deyə bilərik ki, XXI əsr Norveç-Azərbaycan əməkdaşlığı əsri olacaqdır.

Hörmətli nazir, siz qeyd etdiniz ki, Norveç demokratik bir ölkədir. Doğrudan da, demokratiya sahəsində Norveç xalqının, Norveç dövlətinin qazandığı nailiyyətlər dünyada özünəməxsus və görkəmli yer tutmuşdur. Bu, bizim üçün çox gözəl örnəkdir və gözəl təcrübə mənbəyidir. Azərbaycan Respublikası da demokratiya yolu ilə gedir. Biz dünya demokratiyasının nailiyyətlərini Azərbaycanda tətbiq etmək istəyirik. Bu sahədə bizim müəyyən nailiyyətlərimiz də var və demokratiyanın inkişaf etdirilməsi üçün böyük gələcəyimiz də var. Azərbaycanın Norveçlə əməkdaşlığı və xüsusən "Statoyl" ilə Azərbaycan Dövlət Neft Şirkətinin müştərək iş görməsi Azərbaycanın məhz demokratiya yolu ilə, azad iqtisadiyyat yolu ilə getdiyini, dünya iqtisadiyyatına daha sıx bağlandığını nümayiş etdirir. Buna görə də bu gün Norveçdə restoran və hotel işçilərinin tətil etməsi bizi təəccübləndirmir. Biz bunu adi bir hal kimi qəbul edirik və bu, bizim buradakı işlərimizə mane ola bilməz. Siz qeyd etdiniz və mən də təsdiqləyirəm ki, tətil günləri "Statoyl" şirkətinin neft və qaz istehsalı ilə yanaşı, daha geniş imkanlara və qabiliyyətə malik olduğunu bir daha göstərdi. Mən "Statoyl" şirkətini və onun prezidentini bu nailiyyət münasibətilə də təbrik edirəm.

O ki qaldı ziyafəti böyük bir restoranda keçirmək istəyinizə və bunun mümkün olmamasına, buna görə darıxmayın. Bizim üçün bura da xoşdur, ziyafətin yeri bizim üçün o qədər də önəmli deyildir. Sizin bizə göstərdiyiniz qonaqpərvərlik, mehribanlıq və xüsusən səmimi duyğular bizim üçün daha önəmlidir.

Beləliklə, mən Norveç xalqının gələcək xoşbəxtliyi və səa[193-194]dəti şərəfinə badə qaldırıram. Norveç dövlətinin şərəfinə badə qaldırıram. Norveç kralının, Norveç hökumətinin, baş nazirin şərəfinə, energetika və sənaye nazirinin şərəfinə, "Statoyl" şirkətinin və onun gələcək uğurlarının şərəfinə, "Statoyl" şirkəti prezidentinin şərəfinə, bu salondakı norveçli dostlarımızın şərəfinə, Norveç-Azərbaycan dostluğu şərəfinə badə qaldırıram. Sizin şərəfinizə. Sağ olun. [194-195]

## NORVEÇİN İŞ ADAMLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Stavanger*

*26 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Sizin və sizin simanızda Stavanger şəhərinin sakinlərini, norveçliləri səmimi qəlbdən salamlayır, xoş arzularımı bildirirəm.

Üçüncü gündür ki, mən Norveçdəyəm. Buraya Norveçin baş naziri, hörmətli xanım Brundtlandın rəsmi dəvəti ilə gəlmişəm. Mənimlə birlikdə nümayəndə heyəti də gəlibdir. Bu rəsmi səfərimizin məqsədi Norveç-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi üçün yeni yollar açmaqdan ibarətdir. Səfərimin üçüncü günü başa çatarkən qeyd etmək istəyirəm ki, bu səfərimdən xeyli məmnunam və Norveçdə – Osloda da, Stavangerdə də mənə və məni müşayiət edən Azərbaycan nümayəndələrinə Norveç hökuməti tərəfindən göstərilən qonaqpərvərlik, qayğı və diqqət bizi heyran edibdir.

Ölkələrimiz məsafəcə bir-birindən uzaqdır. Ancaq Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən sonra xarici ölkələrlə müstəqil əlaqələr qurduğu bir zamanda Norveç ilə Azərbaycan arasında qısa vaxtda əlaqələr yaradılıb və bu gün çox müvəffəqiyyətlə inkişaf edir. Bu əlaqələrin əsasını təşkil edən iqtisadi əməkdaşlıqdır və bu sahədə xeyli nailiyyətlər əldə etmişik.

Bildiyiniz kimi, Azərbaycan qədim neft ölkəsidir və neft istehsalı sahəsində dünyada məşhur olan bir diyardır. Norveç neftçıxarma sahəsində gənc ölkədir, ancaq çox qısa bir zamanda – 25-30 il müddətində neft və qaz sənayesi sahəsində çox böyük nailiyyətlər əldə edibdir. Ölkələrimizin iqtisadiyyatının bu sahəsi bizi çox tez bir-birimizə yaxınlaşdırır, bağlayır və məhz bu sahə ümumi əməkdaşlığımızın, o cümlədən iqtisadi əməkdaşlığımızın əsasını təşkil edir.

Bildiyiniz kimi, Azərbaycan uzun illər Sovetlər İttifaqının tərkibində olubdur və əldə etdiyi bütün nailiyyətlər, o cümlədən neft sənayesi sahəsindəki uğurlar Sovetlər İttifaqının ümumi nailiyyətlərinin tərkib hissəsi olmuşdur. Ona görə ki, [195-196] Azərbaycanın öz iqtisadiyyatını inkişaf etdirmək üçün başqa dövlətlərlə bilavasitə əlaqə yaratmaq imkanı yox idi.

Norveç ilə Azərbaycan arasında çox qısa müddətdə yaranmış geniş iqtisadi əməkdaşlıq respublikamızın dövlət müstəqilliyi əldə etməsinin nəticəsidir və məhz buna görə öz imkanlarımızı başqa ölkələrin imkanları ilə sərbəst surətdə bağlaya bilirik. Azərbaycan öz iqtisadiyyatını geniş inkişaf etdirmək, onun potensialını hərəkətə gətirmək üçün müstəqilliyin imkanlarından istifadə edərək bütün dünya dövlətləri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr yaratmaq prinsipi əsasında bir çox addımlar atmışdır.

Müstəqil demokratik respublika kimi Azərbaycan öz iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurur və onu bu zəmində inkişaf etdirmək üçün islahatlar aparır. Azərbaycanda geniş özəlləşdirmə proqramı qəbul olunubdur və həyata keçirilir. İqtisadiyyat sahəsindəki bütün islahatlar Azərbaycanı dünyada üstün yer tutan bazar iqtisadiyyatı yolu ilə aparmağa yönəldibdir. Bu prinsiplərə söykənərək Azərbaycan iqtisadi əlaqələrində dünyanın hər bir ölkəsi, özəl şirkəti ilə müştərək iş görmək əzmindədir və bu sahədə bir çox nailiyyətlər əldə etmişik.

Azərbaycanın zəngin təbii sərvətləri var, ölkəmiz böyük iqtisadi potensiala, xüsusən sənaye potensialına malikdir. Azərbaycanın böyük intellektual potensialı, kifayət qədər işçi qüvvəsi, yüksək ixtisaslı kadrları var. Bütün bunlardan istifadə edərək Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə respublikamıza xarici investisiyaların gəlməsini iqtisadiyyatımızın əsas istiqamətlərindən biri sayırıq. Bu sahədə görülən işlərin əyani nəticəsi 1994-cü ilin sentyabrında Bakıda imzalanmış böyük neft müqaviləsidir. Ona təkcə mən yox, dünyanın bir çox yerlərində "Əsrin müqaviləsi" deyirlər. Bu müqavilə Xəzərin Azərbaycan sektorundakı neft yataqlarının dünyanın böyük neft şirkətləri ilə birgə işlənməsi üçün bağlanıbdır. Azərbaycan Dövlət Neft Şirkəti ilə həmin müqaviləni bağlayan konsorsium dünyanın 11 məşhur neft şirkətindən ibarətdir. Müqavilənin müddəti otuz ildir, amma hesab edirəm ki, o, həyata keçirilərkən üç yataqdan – "Azəri", "Çıraq", "Günəşli" yataqlarından hasil olunacaq neft və qazın miqdarı artacaq və güman edirəm ki, müqavilənin də vaxtı uzanacaqdır. Yəni mən hesab edirəm ki, həmin yataqlardan [196-197] müqavilədə nəzərdə tutulandan daha çox neft çıxarmaq mümkün olacaqdır.

Müqavilənin məşhur üzvlərindən biri Norveçin "Statoyl" şirkətidir. Bu neft şirkəti həmin müqavilənin hazırlanmasında, imzalanmasında səy göstəribdir və indi də həyata keçirilməsində çox fəal rol oynayır. "Statoyl" dünyanın Azərbaycana maraq göstərən, demək olar, ilk böyük neft şirkətlərindəndir və bizim əməkdaşlığımız çox normal, sağlam əsaslar üzərində qurulubdur. Güman edirəm ki, "Statoyl" şirkəti ilə əməkdaşlığımızın bundan da geniş perspektivləri var. Böyük Britaniyanın "Britiş Petrolium" şirkəti ilə bərabər, "Statoyl" hələ bir müddət bundan əvvəl Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" neft-qaz yatağına

da maraq göstərmişdir. Biz bu sahədə xeyli müştərək iş görmüşük. Yatağın işlənməsinə dair müqavilənin hazırlanması sahəsində işlər başa çatır. Güman edirəm ki, həmin müqavilə də imzalanacaq və "Statoyl" şirkəti burada da görkəmli yer tutacaqdır. Bu sahədə əməkdaşlıq etməyimiz üçün həm Norveçdə – "Statoyl"da, həm də Azərbaycanda – Dövlət Neft Şirkətində neft sahəsində əldə olunmuş nailiyyətlər bizə çox kömək edəcəkdir.

Mən sizə bildirim ki, Azərbaycan qədim neft ölkəsidir. Ölkəmizdə 150 il ərzində neftçilərin bir çox nəsli yetişib, böyük alimlər, geoloqlar yaşayıb-yaradıblar və bu gün də fəaliyyət göstərirlər. Ona görə də neft-qaz sənayesi sahəsində, neft yataqlarının kəşfi sahəsində Azərbaycanın böyük nailiyyətləri və imkanları var. Xəzər dənizinin Azərbaycan sektorunda indi mövcud olan neft yataqlarının, neft-qaz yataqlarının hamısı respublikamızın neftçiləri, alimləri, geoloqları tərəfindən kəşf olunubdur. Ümumiyyətlə, Xəzər dənizinin başqa sektorlarında da, o cümlədən indi Türkmənistanın, Rusiyanın istifadə etdiyi sektorlardakı neft yataqlarını da azərbaycanlılar kəşf ediblər. Ona görə də biz bu nailiyyətləri həm yüksək qiymətləndirir, bunlarla fəxr edir, həm də gələcək müştərək işimiz üçün yaxşı baza hesab edirik. Sizə bildirmək istəyirəm ki, Azərbaycan neftçiləri dünyada dəniz neft yataqlarının kəşfi və neft hasilatı sahəsində də pionerdirlər. Azərbaycan neftçiləri hələ 20-ci illərdə Xəzər dənizində neft yataqları kəşf etmişdilər. Ancaq burada geniş miqyasda neft çıxarılmasına 1949-cu ildə başlanmışdır. Bunun da artıq əlli illik tarixi var.

Norveçin "Statoyl" şirkətinin qısa bir zamanda dənizdə neft hasilatı sahəsində əldə etdiyi nailiyyətlər çox yüksək qiymətə [197-198] layiqdir. Bu qısa müddət ərzində "Statoyl" şirkəti, Norveçin neft sahəsində məşğul olan təşkilatları həqiqətən həddindən artıq böyük işlər görmüşlər və az bir vaxtda böyük miqdarda neft-qaz hasilatının təmin edilməsinə nail olmuşlar. Biz bunu bilirdik və bugünkü səfərimizdə mən bir daha dərk etdim ki, bunların hamısı dənizdən neft və qaz çıxarmaq üçün müasir, yüksək səviyyəli texnika və texnologiyanın, şübhəsiz ki, insan beyninin gücündən səmərəli istifadənin nəticəsidir. Neft sənayesi sahəsində Azərbaycanın böyük tarixi, zəngin təcrübəsi və neft sənayesində yüksək texnika və texnologiyanın tətbiqində Norveçin qazandığı nailiyyətlər və böyük təcrübə ölkələrimiz arasında, "Statoyl" ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında əməkdaşlığın çox səmərəli olması üçün əsasdır. Hesab edirəm ki, bu sahədə əməkdaşlığımızın böyük gələcəyi var. Biz bu əməkdaşlığın başlanğıcındayıq, uzun illər bərabər çalışacaq, əməkdaşlıq edəcəyik. Ümidvaram ki, həm Norveç, həm də Azərbaycan böyük faydalar götürəcəkdir.

"Statoyl" ilə Azərbaycan arasında əməkdaşlığın ilkin nəticələri onu göstərir ki, Azərbaycan ilə çox səmərəli əməkdaşlıq etmək olar və mən bu gün buraya toplaşanlara bildirmək istəyirəm ki, müştərək iş görmək, sərmayə qoymaq, iqtisadi əməkdaşlıq üçün Azərbaycanın qapıları bütün ölkələrə, şirkətlərə açıqdır. Azərbaycana gələn hər bir şirkət şübhəsiz ki, bu əməkdaşlıqdan xeyir götürə bilər. Bunun üçün ən əsaslı şərt Azərbaycan iqtisadiyyatının bazar iqtisadiyyatı prinsipləri əsasında qurulmasıdır. Biz bu yolla gedirik və iqtisadiyyatımızı dünya iqtisadiyyatına daha sıx bağlamaq istəyirik. Belə bir şəraitdə hər bir xarici şirkətin Azərbaycan ilə müştərək iş görməsi üçün bütün şərait yaranıbdır. Azərbaycan iqtisadiyyatının başqa sahələri də xarici şirkətləri cəlb edir. Güman edirəm ki, siz də buna daha çox maraq göstərə bilərsiniz.

Mən qeyd etdim ki, Azərbaycan böyük sənaye potensialına malikdir. Respublikamızda iri və müasir tələblərə uyğun sənaye müəssisələri var: kimya, maşınqayırma sənayesi, kənd təsərrüfatı məhsullarının emalı və başqa sahələr. Azərbaycanın zəngin təbiəti, münbit torpaqları var. Yəni kənd təsərrüfatında da çox böyük potensialı var. Bu sahənin inkişaf etdirilməsi və kənd təsərrüfatı məhsullarının istehsalı üçün də biz xarici şirkətlərlə müştərək iş görməyə hazırıq.

Bilirsiniz ki, "Statoyl" şirkətindən əlavə, Norveçin başqa şirkətləri də Azərbaycana maraq göstərirlər. Dünən biz "Kverner [198-199] injiniring" şirkətinin poldinqində olduq və çox ətraflı fikir mübadiləsi apardıq. Onlar artıq Azərbaycana gəliblər, ofislərini açıblar və neft müqaviləsinin həyata keçirilməsində, Azərbaycan iqtisadiyyatının başqa sahələrində şübhəsiz ki, onlarla müvəffəqiyyətli iş görə biləcəyik.

Mən qeyd etdim ki, Azərbaycanda genişmiqyaslı özəlləşdirmə proqramı qəbul olunub həyata keçirilir. Yəni biz Azərbaycanın bütün dövlət mülkiyyətini özəlləşdirmək fikrindəyik, bu barədə qanun qəbul etmişik, proqram tərtib olunub və artıq özəlləşdirmə prosesi gedir. Özəlləşdirmədə xarici ölkələrin şirkətləri, ayrı-ayrı vətəndaşları da iştirak edə bilərlər və bildirmək istəyirəm ki, bu sahədə də lazım olan şəraiti yaradırıq. Bəzi böyük sənaye müəssisələrini xarici şirkətlərin idarəsinə verməyi qərara almışıq. Bizim böyük metallurgiya kombinatının bir xarici şirkətin idarəsinə verilməsi haqqında danışıqlar aparılır və saziş hazırlanır.

Bazar iqtisadiyyatını təmin etmək, xarici şirkətlərə Azərbaycanda lazımi şərait yaratmaq üçün müvafiq qanunlar qəbul etmişik və bundan sonra da qəbul edəcəyik. Azərbaycana maraq göstərən xarici şirkətlər əmin ola bilərlər ki, Azərbaycanda onların rahat, səmərəli iş görməsi üçün bundan sonra da imkan yaradılacaqdır.

Mən iqtisadi sahədəki şərait haqqında məlumat verdim. Eyni zamanda demək istəyirəm ki, əməkdaşlıq üçün şərtlərdən biri də ölkənin daxilində sabitliyin olmasıdır. Bildirmək istəyirəm ki, Azərbaycanda ictimai-siyasi vəziyyət tam sabitdir və bu sabitlik müvəqqəti deyil, daimi xarakter daşıyır. Ona görə də sərmayəçilər bu barədə də narahat olmamalıdırlar.

Sizə məlumdur ki, Azərbaycan qonşusu Ermənistan ilə hərbi münaqişə vəziyyətindədir. Bu münaqişə səkkiz il öncə Ermənistan tərəfindən, Azərbaycana qarşı torpaq iddiası ilə başlanıbdır. Münaqişə nəticəsində Azərbaycana böyük zərbələr dəyib, ərazimizin bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur.

Ancaq biz münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün çox cəhdlər göstəririk. İki ildir ki, atəş dayandırılıb, atəşkəs rejimi haqqında saziş imzalanıbdır. Biz bu iki il müddətində məsələnin sülh yolu ilə həll olunması üçün cürbəcür vasitələrdən istifadə edib danışıqlar aparırıq. Biz sülh tərəfdarıyıq, yaşadığımız regionda, dünyada sülh olmasını istəyirik. Ona görə də hərbi əməliyyatların yenidən başlanmasına yol verməyəcəyik və Ermənistan ilə Azərbaycan [199-200] arasında olan münaqişəyə sülh yolu ilə son qoyulması üçün bundan sonra da çalışacağıq və ümidvaram ki, buna nail olacağıq.

Nəhayət, hər bir ölkə ilə əməkdaşlıq etmək istəyən ölkə, yaxud hansısa şirkət həmin ölkənin ictimai-siyasi sistemi ilə maraqlanır. Müstəqil Azərbaycan Respublikasında hüquqi, demokratik, dünyəvi dövlət qurulur. Azərbaycan demokratiya yolu ilə gedir, biz həyatımızın bütün sahələrində demokratiyanı tətbiq və inkişaf etdiririk. Ölkəmizdə demokratiyanı əks etdirən bütün amillər mövcuddur.

Keçən il ümumxalq səsverməsi – referendum yolu ilə Azərbaycan Respublikasının ilk demokratik konstitusiyası qəbul olunub, həmin vaxt parlamentə ilk demokratik seçkilər keçirilib və parlament artıq fəaliyyət göstərir. Azərbaycanda demokratiya daimidir, insan hüquqlarının qorunması, söz azadlığı, siyasi plüralizm, insan azadlığı prinsipləri, demokratik prinsiplər bərqərar olub və bundan sonra da möhkəmlənəcək, inkişaf edəcəkdir. Azərbaycan dünyanın demokratiya prinsipləri ilə yaşayan ölkələrinin ailəsinə daxil olubdur. Şübhəsiz ki, bu da Azərbaycanla əməkdaşlıq etmək, ölkəmizə sərmayə qoymaq istəyənlər üçün çox mühüm amildir. Ona görə sizə bu barədə də məlumat verdim.

Bu gün mən Norveçin ən böyük nailiyyətlərindən biri olan, Stavanger şəhərindən 240 kilometr məsafədə dənizdə yerləşən neft yatağında oldum. Orada yaradılmış həqiqi möcüzə məni heyran etdi. Məni dənizdəki neftçıxarma platformaları ilə təəccübləndirmək mümkün deyil, çünki Azərbaycanda bu işləri uzun müddət görmüşük, bunların hamısının şahidiyəm. Dünyanın başqa ölkələrində, o cümlədən Amerika qitəsində – Meksika körfəzində və başqa yerlərdə dənizdə neft çıxarılan platformalarda da olmuşam. Ancaq dəniz neft yatağında sizin yaratdığınız platformalar və çox yüksək səviyyəli texnologiya, elektronikanın nailiyyətlərindən məharətlə istifadə etməyiniz məni çox heyran etdi.

Bugünkü ziyarətimdən çox məmnunam. Ziyarət çox maraqlı keçdi. Maraqlı cəhətlərdən biri də bundan ibarətdir ki, vertolyota minməzdən əvvəl mənə və məni müşayiət edən şəxslərə xüsusi kostyumlar geyindirərkən bizimkilərdən bəziləri bir az qorxdular, çəkindilər, belə hesab etdilər ki, bəlkə başlarına bir iş gələ bilər. Ancaq heç bir şey olmadı, sağ-salamat gedib qayıtdıq. Azərbaycanda vertolyotla ayrı-ayrı platformalara uç[200-201]maq yeni bir şey deyil, biz bunların hamısını etmişik. Amma biz dənizin lap uzaq yerlərindəki platformalara gedəndə də belə kostyumlar geyməmişdik. Bu, bizim üçün qeyri-adi bir şey idi. Bəziləri də hesab edirdilər ki, onlar artıq kosmonavtlara oxşayırlar. Ona görə də bu, bir az təəccüblü oldu. Ancaq mən bunu da yüksək qiymətləndirirəm ki, siz dəniz neft mədənlərində işləyənlərin qayğısına qalır, onların təhlükəsizliyini təmin etmək üçün çox işlər görürsünüz, çox vəsait sərf edirsiniz. Bu da ölkənizin yüksək mədəniyyətə malik olduğunu, insanpərvərliyinizi göstərir.

Məni ən çox heyran edən və sevindirən norveçlilərin mehribanlığı, açıqürəkli olmaları, sadəliyi, səmimiliyi və qonaqpərvərliyidir. Biz buraya gəldiyimiz dəqiqələrdən indiyədək ölkənin başçılarından tutmuş sadə adamlara qədər mehribanlığınızı və qonaqpərvərliyinizi hiss edirik. Ona görə də mən nümayəndə heyətimizin bütün üzvləri adından, öz adımdan sizə təşəkkür edirəm.

Norveç-Azərbaycan iqtisadi əməkdaşlığının artıq yaxşı nəticələri var, biz bunlarla fəxr edirik. Eyni zamanda çox böyük imkanlar və perspektivlər də var. Norveçin iş adamlarını, şirkətlərini Azərbaycana dəvət edirəm. Azərbaycana sərmayə qoyan hər bir şirkət onun faydasını mütləq görəcəkdir, buna əmin ola bilərsiniz.

Bizə göstərdikləri qonaqpərvərliyə görə "Statoyl" şirkətinə, onun bütün rəhbərliyinə təşəkkürümü bildirirəm. Stavanger şəhərinin merinə, vilayətin qubernatoruna təşəkkür edirəm. Stavanger şəhərinin bütün sakinlərinə, Norveç xalqına hörmət və ehtiramımı bildirirəm. Sağ olun. [201-202]

## NORVEÇDƏ DƏNİZ NEFT PLATFORMASI İLƏ TANIŞLIQDAN SONRA RESPUBLİKA TELEVİZİYASINA MÜSAHİBƏ

*26 aprel 1996-cı il*

**Sual: Cənab prezident, platforma ilə tanışlıq səfər içində bir səfərdir. İstəyirik təəssüratlarınızı öyrənək.**

**Cavab:** Çox gözəl təəssüratlarımız var. Şimal dənizindəki bu platforma müasir texnologiya ilə təmin edilmiş çox mükəmməl bir qurğudur. Mən Azərbaycanda, Xəzər dənizində, başqa ölkələrdə də platformalar görmüşəm. Ancaq bu platforma həm texnikasına, həm də texnologiyasına, avadanlığına görə ən müasir platformadır. Bu platformalardan neft, qaz çıxarırlar. Onları görmək, tanış olmaq maraqlı idi. Biz orada işləyənlərlə söhbət etdik. Onlar öz işləri barədə ətraflı məlumat verdilər. Bu, bizim üçün çox əhəmiyyətlidir. Çünki "Əsrin müqaviləsi"nin həyata keçirilməsi ilə əlaqədar biz də belə platformalar tikəcəyik.

**Sual: Bu platformada öyrənilsi və tətbiq olunası çox şey var?**

**Cavab:** Bəli. Ümumiyyətlə görünür ki, "Statoyl" şirkəti həqiqətən çox qısa bir müddətdə böyük nailiyyətlər əldə etmişdir. Buraya gələn gündən onların işi ilə tanış oluram və bu gün Şimal dənizindəki platforma ilə tanışlıq da məni bu qənaətə gətirdi. [202-203]

## "STATOYL" ŞİRKƏTİNİN AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ VERDİYİ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*Stavanger*

*26 aprel 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən bu gün artıq sizin qarşınızda nitq söyləmişəm. Ona görə də vaxtınızı almaq istəmirəm. Mərasim qayda-qanununa uyğun olaraq bizi buraya qonaq çağıran tərəfin nümayəndəsi çıxış etdiyinə görə mən də bir neçə söz demək istəyirəm. Bu gün biz sizinlə burada axırıncı dəfə nahar edirik. Yəqin ki, növbəti dəfə bu mərasim Bakıda olacaqdır. Sabah səhər biz Vətənə qayıdacağıq. Mən bu gün buradakı təəssüratlarım haqqında danışacağam.

Norveç böyük ərazisi olan bir ölkədir, əhalisi isə ərazisinə nisbətən o qədər də çox deyil. Norveçlilərin istedadı və ən böyük üstünlüyü ondan ibarətdir ki, ərazisi böyük olan ölkəni az-saylı əhali ilə yüksək səviyyələrə qaldırmışlar. Biz bu günlər Norveçin tarixi ilə bir daha yaxından tanışlıq zamanı xalqınızın nə qədər zəngin tarixi və bu tarixin nə qədər parlaq səhifələri olduğunu gördük. Ancaq bütün bunlarla bərabər, Norveç xalqının ən böyük nailiyyəti demokratiyanın, iqtisadiyyatın və xalqın rifah halının ən yüksək səviyyədə olmasıdır. Siz buna öz istedadınız, fədakar əməyinizlə nail olmusunuz. Bu nailiyyətlər münasibətilə mən sizi təbrik edirəm. Belə bir xalq ilə, dövlət ilə dostluq, əməkdaşlıq yaratmaq Azərbaycan üçün çox əlverişlidir və mən bunu ürəkdən istəyirəm.

Hesab edirəm ki, belə bir dostluq, əməkdaşlıq yaranıbdır. Bu günlər bizim burada keçirdiyimiz görüşlər və xüsusən Norveçin iş adamları, şirkət rəhbərləri ilə bu axşamkı görüşüm mənə bir daha əsas verir deyim ki, biz doğrudan da artıq çox yaxınlaşmışıq.

Norveçin bir sıra şirkətlərinin Azərbaycanda işləməsi barədə həmin şirkətlərin başçıları bu gün mənə çox maraqlı məlumatlar verdilər. Doğrusunu deyim ki, mən əməkdaşlığımızın bu qədər geniş olduğunu bilmirdim. Xüsusən bu axşam sizinlə, [203-204] yəni iş adamları, ayrı-ayrı şirkətlərin rəhbərləri, nümayəndələri ilə söhbətlərim məni daha da sevindirdi. Mən sizi Azərbaycana dəvət edirəm. Amma gördüm ki, sizin çoxunuz artıq Azərbaycanda möhkəm yer tutmusunuz. Mən də sizə deyirəm: Azərbaycanda daha möhkəm yer tutun. Sizə kim mane olsa, mən sizin tərəfinizdəyəm və sizə kömək edəcəyəm. Buna arxayın ola bilərsiniz.

Bu görüşlər məni bir daha əmin edir ki, bizim əməkdaşlıq imkanlarımız çox böyükdür. Bu imkanları yaradan bizimlə bərabər "Statoyl" şirkətidir. Bir çox şirkətlər Azərbaycana məhz "Statoyl" şirkətindən sonra gəliblər və artıq respublikamızda iş görürlər. Gəlin bundan sonra da belə işləyək.

Biz buradan çox gözəl təəssüratlarla gedirik. Mən səmimi deyirəm, hər şey xoşumuza gəlir. Məni də, məni müşayiət edənləri də ən çox sevindirən odur ki, siz ürəyi çox açıq, sadə adamlarsınız, təkəbbürlü deyilsiniz. Bunlar çox yüksək keyfiyyətlərdir.

Məlumdur ki, siz öz müstəqilliyinizi 90 il bundan əvvəl əldə etmisiniz. Ondan əvvəlki dövrdə uzun illər sizin xalqınız müstəqil olmayıb, başqa xalqların tabeliyində olub. Siz müstəqilliyin dadını yaxşı bilirsiniz və ötən 90 ildə çox işlər görmüsünüz. Ona görə də mənim ən birinci təəssüratım ondan ibarətdir ki, siz öz müstəqilliyinizi möhkəm qorumusunuz. Bu, məni çox sevindirir.

Azərbaycan öz müstəqilliyinin beşinci ilini yaşayır. Təsəvvür edin, bu müstəqillikdən ötrü biz nə qədər həsrət çəkmişik, nə qədər həsrətlə, intizarla bunu gözləmişik. Fəxr edirik ki, nəhayət, buna nail olmuşuq və müstəqilliyimizi hər şeydən üstün tuturuq, hər şeydən yüksək qiymətləndiririk. Ola bilər ki, gələcəkdə biz müxtəlif çətinliklərlə qarşılaşaq, nəyi isə itirək, nəyi isə əldə edək. Amma müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik. Biz müstəqilliyimizi sizin kimi, bəlkə sizdən də çox əzmlə qoruyub saxlayacağıq. Bu amil də bizi çox doğmalaşdırır və bu, bütün sahələrdə – həm iqtisadiyyat, həm də digər sahələrdə bərabərhüquqlu əməkdaşlıq etməyimiz üçün çox gözəl əsasdır.

Burada biz özümüzü çox sərbəst hiss edirik. Sizin qonaqpərvər münasibətiniz özümüzü belə sərbəst hiss etməyimizə şərait yaradır. Biz buradan çox gözəl hissiyyatlarla Azərbaycana dönürük. Ölkənizi tərk edərkən mən sizin xalqınıza, ölkənizə, şəxsən sizlərə səadət və xoşbəxtlik arzu edirəm. Norveç xalqının xoşbəxt gələcəyi naminə badə qaldırmağınızı rica edirəm. [204-205]

## QƏRBİ AVROPA ÖLKƏLƏRİNƏ SƏFƏRDƏN QAYITDIQDAN SONRA RESPUBLİKA MİLLİ TELEVİZİYASINA MÜSAHİBƏ

*27 aprel 1996-cı il*

**Heydər Əliyev**: Bu səfər çox vaxt alsa da, hesab edirəm ki, səfər zamanı görülən işlər həqiqətən çox dəyərlidir. Bilirsiniz ki, aprelin 21-dən, yəni Bakıdan yola düşəndən bəri bu səfər zamanı çox gərgin iş olub. Bu da birinci növbədə hər bir imkandan istifadə edib Azərbaycanın mənafelərini təmin etmək üçün lazımi tədbirlər görməklə əlaqədar idi. Bu səfərin birinci hissəsi Azərbaycan Respublikasının Avropa Birliyi ilə əməkdaşlıq və tərəfdaşlıq haqqında sazişi imzalaması ilə bağlı idi. Biz bu sazişi imzaladıq. İmzalanma mərasimi çox böyük hadisə idi.

Bilirsiniz ki, Avropa Birliyinə daxil olan dövlətlərin xarici işlər nazirləri orada idi. Bu həm də məhz Azərbaycanın və digər Zaqafqaziya respublikaları – Gürcüstanın, Ermənistanın Avropa Birliyi ilə saziş imzalaması mərasimi ilə əlaqədar idi. Bir daha deyirəm, bu, tarixi hadisədir. Hesab edirəm ki, bu sazişin imzalanması müstəqil dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir, eyni zamanda respublikamızın daxili, ictimai-siyasi həyatında, iqtisadiyyatında və başqa sahələrdə Avropa demokratiyasına uyğun tədbirlərin həyata keçirilməsinin təzahürüdür. Xatirinizdədir ki, orada olan çıxışlarda Avropa Birliyinin nümayəndələri, üzvləri də bunu qeyd edirdilər. Mən bunu çox yüksək qiymətləndirirəm. Hesab edirəm ki, bu, Azərbaycanın həyatında böyük hadisədir, Avropa Birliyi ilə əməkdaşlıq etməyimiz üçün çox dəyərli bir addımdır. Şübhəsiz ki, bunun müsbət nəticələri olacaqdır.

Bununla yanaşı, biz Lüksemburqda bir neçə başqa görüş də keçirdik. Əməkdaşlığımızın bugünkü vəziyyəti və gələcək perspektivləri haqqında Brüsseldə Avropa Birliyinin iqtisadi komissiyasının sədri Jak Santerlə, ali komissar Van-Den Brukla danışıqlar apardıq. Bunlar da çox əhəmiyyətlidir. Çünki bunların hamısı Avropa Birliyi ilə çoxsahəli əməkdaşlıq aparmaq üçün lazım olan tədbirlərdir. Xüsusən Jak Santerlə və Van-[205-206]Den Brukla apardığımız danışıqlarda iqtisadi əməkdaşlığımız, yəni Avropa Birliyinin TASİS Traseka Proqramı, Humanitar yardım proqramı ilə nəzərdə tutulan tədbirlər və onların həyata keçirilməsi məsələsi müzakirə olundu. Bu da çox əhəmiyyətlidir. Hesab edirəm ki, bunlar hamısı bir yerdə, kompleks halda Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlığın irəli getməsini nümayiş etdirir.

Mən Brüsseldə NATO-nun baş qərargahında oldum, NATO-nun Baş katibi ilə görüşdüm. Mən 1994-cü ilin may ayında orada olmuşdum və NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramını imzalamışdım. Ancaq biz bundan sonra da əməkdaşlığımızı davam etdirmişdik. Bu əməkdaşlığı daha da təsdiq etmək üçün həmin proqram çərçivəsində respublikamızın prezentasiya sənədini mən onlara təqdim etdim.

Hesab edirəm ki, NATO-nun baş katibi ilə danışığımız da çox məzmunlu, əhəmiyyətli oldu. Azərbaycanın müstəqilliyinin qorunub saxlanması üçün fikirlərimi mən ona bildirdim. Biz geniş fikir mübadiləsi apardıq. Bu da bizim üçün çox əhəmiyyətlidir.

**Müxbir**: Cənab prezident, NATO ilə respublikamızın münasibətləri bəzən çoxlarında belə təsəvvür yaradır ki, – bu, müəyyən istəkdən də irəli gəlir – NATO ilə Azərbaycan arasında sıx əməkdaşlıq yaranıb. Amma yəqin ki, əslində bunlar ilk təmaslardır, əməkdaşlığın bünövrəsi qoyulur.

**Heydər Əliyev:** Bəli, əməkdaşlığın bünövrəsi qoyulur. Çünki NATO-nun 1994-cü ildə elan etdiyi "Sülh naminə tərəfdaşlığ"a çağırış, sülh naminə çağırışdır. NATO-nun Baş katibi ilə danışıqlarımızın da məzmunu, mənası ondan ibarətdir ki, Azərbaycanın NATO-nun bu proqramına qoşulması və əməkdaşlıq etməsi Avropada, o cümlədən, bizim regionda sülhün daha da möhkəmləndirilməsinə nail olmaq məqsədi daşıyır. Bunlar sülh məramlı danışıqlardır. Mən hesab edirəm, bunu belə də qəbul etmək lazımdır. Şübhəsiz ki, əməkdaşlığımızı bu istiqamətdə bundan sonra da davam etdirəcəyik.

Lüksemburqda, Brüsseldə mənim ikitərəfli görüşlərim də oldu. Almaniyanın xarici işlər naziri cənab Kinkel ilə danışıqlarımız çox əhəmiyyətli, maraqlı oldu. Ermənistan prezidenti Levon Ter-Petrosyan ilə mənim Lüksemburqdakı görüşüm çox lazımlı bir görüş idi. Bu görüş hər iki tərəfin – həm Ermənistanın, həm də Azərbaycanın təşəbbüsü ilə oldu. Bu görüş və [206-207] danışıqlar – münaqişədə olan iki ölkənin prezidentləri arasında birbaşa danışıqlar nəticəsində biz ilk dəfə olaraq birgə bəyanat elan etdik. Bu bəyanat çox əhəmiyyətlidir. Ona görə əhəmiyyətlidir ki, birincisi, biz bəyan etdik ki, hər iki tərəf atəşkəs rejiminin qorunub saxlanmasını bundan sonra da təmin edəcəkdir. Bilirsiniz ki, mayın 12-də bu sazişin imzalanmasının iki ili tamam olur. Bu çox vacibdir ki, biz atəşkəsin qorunub saxlanmasını bir daha bəyan edək və biz də arxayın olaq ki, Ermənistan da buna riayət edəcəkdir. Şübhəsiz, Ermənistan da narahatdır və onlar da istəyirlər bilsinlər ki, biz bu atəşkəsə riayət edəcəyik, yoxsa yox.

İkincisi, biz bəyan etdik ki, ikitərəfli danışıqlar davam edəcəkdir və bu məsələnin həll edilməsi yalnız sülh yolu ilə ola bilər. Bu da çox əhəmiyyətlidir. Biz bəyan etdik ki, bunun üçün danışıqları həm ATƏT-in Minsk

qrupu çərçivəsində, həm də birbaşa davam etdirəcəyik. Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasında birbaşa danışıqlar da var və bu da davam edəcəkdir.

Sonra biz qərara gəldik ki, əsirlər iki tərəfdən də – onlarda da, bizdə də olanlar azad olunmalıdır. Əsirlər sayına görə yox, kimdə nə qədər var – "Hamını hamıya" prinsipi ilə verilməlidir. Bu da çox əhəmiyyətlidir. Mən hesab edirəm ki, bu görüş və bu birgə bəyanat indiki mərhələdə bizim üçün lazımdır. Bu, dünyaya bir daha nümayiş etdirir ki, ağır zərbələr almasına baxmayaraq, Azərbaycan yenə də sülhsevər siyasət aparır, sülh yolu ilə gedir, məsələni sülh yolu ilə həll etmək istəyir.

Mənim Brüsseldə Gürcüstan prezidenti Eduard Şevardnadze ilə də görüşüm oldu. Bu görüş Gürcüstan ilə Azərbaycan arasında olan dostluq əlaqələrinin yeni bir təzahürüdür. Mən mart ayında Gürcüstanda səfərdə olmuşdum, biz çox əhəmiyyətli danışıqlar aparmışdıq və dəyərli sazişlər imzalamışdıq. Biz bunları bir daha nəzərdən keçirdik. Görüşdə təkcə Gürcüstan-Azərbaycan əlaqələri yox, bütün regionda olan vəziyyət, o cümlədən dünyanın və Müstəqil Dövlətlər Birliyinin problemləri ilə əlaqədar geniş danışıqlar apardıq. Mən bunu da çox əhəmiyyətli hesab edirəm.

Şübhəsiz ki, Brüsseldə başqa görüşlər də olub. Bilirsiniz ki, mən Brüsseldə ticarət mərkəzinə, o cümlədən ABŞ-ın oradakı ticarət mərkəzinə getdim. Digər görüşlərim də oldu. Mən [207-208] bunların hamısını çox əhəmiyyətli hesab edirəm. Ancaq bir neçə məqam üzərində dayandım.

Norveçə isə rəsmi səfərə getmişdim. Bu səfər Norveçin baş naziri xanım Brundtlandın dəvəti ilə idi. Mən bu dəvəti çoxdan almışdım, onun vaxtını elə müəyyənləşdirdim ki, Avropa Birliyinə səfərimlə eyni zamanda olsun ki, vaxta qənaət edə bilim. Mən hesab edirəm ki, bu səfər də çox uğurludur.

Bizim Norveç ilə əməkdaşlığımız çox səmərəlidir. Deyə bilərəm ki, Norveçdə olarkən apardığım danışıqlar, keçirdiyim görüşlər nəticəsində belə qənaətə gəldim ki, bu əməkdaşlıq, ola bilər, Azərbaycanda hələ təsəvvür edilməyən qədər səmərəlidir. Ola bilər ki, bu əməkdaşlığın bu gün və gələcək üçün nə qədər əhəmiyyətli olduğunu ictimaiyyətimiz hələ o qədər də bilmir. Yəqin ki, siz bu görüşlər, danışıqlar haqqında məlumat verdikdən sonra ictimaiyyətimiz bunu biləcək və hesab edirəm, bunun nə qədər əhəmiyyətli olduğunu dərk edəcəkdir. Mən bunu xüsusi qeyd etmək istəyirəm.

İki dəfədir ki, Norveçlə Azərbaycan arasında birbaşa sazişlər imzalanıb. Biz baş nazir xanım Brundtland ilə Norveç və Azərbaycan arasında əməkdaşlıq haqqında bəyanat imzaladıq. Bu, çox mühüm bir bəyanatdır. Başqa sazişlər də imzalandı. Yəni Norveç ilə Azərbaycan arasında əlaqələr indiyədək sadəcə iqtisadi əlaqələr səviyyəsində idisə, indi isə dövlətlər arasındakı əlaqələr səviyyəsinə qaldırıldı. Əgər indiyədək bizim əməkdaşlığımız iki ölkənin ayrı-ayrı şirkətləri ilə əlaqələr səviyyəsində idisə, indi bu, dövlətlərarası səviyyəyə qalxdı. Bu, çox əhəmiyyətlidir.

Bilirsiniz ki, Norveç Avropanın həm iqtisadi cəhətdən inkişaf etmiş, həm də iqtisadiyyatın demokratiya prinsipləri əsasında qurulması sahəsində çox nailiyyətlər əldə etmiş bir ölkədir. Norveçin xüsusiyyətlərindən biri də budur ki, bu dövlətdə bazar iqtisadiyyatı prinsipi ölkənin əhalisinin sosial vəziyyətinin inkişafı ilə çox sıx bağlıdır. Bu, Avropanın başqa ölkələrindən fərqlidir. Burada sosial problemlərə çox böyük qayğı, diqqət göstərilir və nailiyyətlər çoxdur. Ona görə də indiki mərhələmizdə biz respublika əhalisinin sosial problemləri ilə ciddi məşğul olarkən mən bu təcrübənin çox əhəmiyyətli olduğunu qeyd etmək istəyirəm.

Şübhəsiz ki, Norveçdə neft-qaz sənayesi sahəsində əldə olunan nailiyyətlər çox maraqlıdır. Stavanger şəhərində, Stavan[208-209]gerdən 240 kilometr məsafədə dənizin ortasındakı platformada gördüklərimiz məni çox heyran etdi. Bu, çox əhəmiyyətlidir. Çünki 25-30 il ərzində neft və qaz istehsalı sahəsində, dənizin dərinliyindən neftin, qazın çıxarılması və ondan istifadə edilməsi sahəsində əldə olunmuş nailiyyətlər çox yüksək qiymətə layiqdir.

**Müxbir**: Cənab prezident, siz Norveçdə olarkən bu platformanı möcüzə adlandırdınız. Azərbaycan prezidenti, yəni neft sənayesi ilə çox bağlı olan bir adam bunu möcüzə adlandırır. Bunun möcüzəliyi nədən ibarətdir?

**Heydər Əliyev**: Bunun möcüzəliliyi ondadır ki, birincisi, bu, suyun dərinliyi çox olan sahədə yerləşən bir platformadır. İkincisi, bu platforma elə bir qurğudur ki, orada hər bir şey yaradılmışdır. Üçüncüsü, orada çox yüksək texnika, texnologiya tətbiq edilib, hər şey elektronika vasitəsilə idarə olunur. Məsələn, təsəvvür edin ki, ildə altı milyard kubmetr qaz istehsal olunan bir platformada onu idarə edən cəmisi 51 adam işləyir. Bilirsiniz, bu çox yüksək nailiyyətdir.

**Müxbir**: Deməli, həm də öyrənməyə çox şey var.

Heydər Əliyev: Bəli, öyrənməli çox gözəl şeylər var. İndi biz imzaladığımız müqavilələr əsasında quracağımız platformalar məhz belə platformalar olacaqdır. Ola bilər. Biz onu təkrar etməliyik, o cür qurmalıyıq. "Statoyl" şirkəti ilə yanaşı, o platformanı quran şirkətlərin hamısı məhz Norveçdə yerləşir. Mən onlarla da görüşdüm. Yəni bu platformanı təkcə neft istehsal edən şirkət qurmur. Bu platforma bir çox şirkətlərin birgə əməyinin nəticəsində yaranıb. Bu, kompleks inteqrasiyadır. Ona görə də bu, mənim üçün çox maraqlıdır, ona görə də, bu, möcüzədir.

Vaxtilə biz də möcüzələr yaratmışıq. Məsələn 20-30 il bundan əvvəl Neft Daşlarına dünyada möcüzə deyirdilər. Amma indi onlar Neft Daşlarında olan nailiyyətləri çoxdan ötüb keçiblər. Təkcə Neft Daşları deyil.

Bizdə bu platformalar qurulubdur. Amma biz bu səviyyəyə hələ gəlib çatmamışıq. Mən belə platformaları 15 il bundan əvvəl Meksika körfəzində görmüşdüm. Ancaq bu, ondan da yüksəkdir, üstündür. Ona görə də möcüzədir.

Ola bilər, gələcəkdə Xəzər dənizində biz bundan da möcü[209-210]zəli bir şey yaradaq. Ancaq bu gün biz sadəcə olaraq bu təcrübədən istifadə etməliyik. Ona görə də Norveçdəki görüşlərimiz çox əhəmiyyətlidir. Həm baş nazir, həm parlament sədri, həm kral ilə, həm də nazirlərlə görüşlərim çox maraqlı, məzmunlu, əhəmiyyətli oldu. O cümlədən Oslo şəhəri ilə yanaşı Stavangerdə bir çox şirkətlərlə görüşlərim oldu. Mən dünən iş adamları ilə çox ətraflı söhbət etdim, onların qarşısında çıxış etdim. Azərbaycanın bugünkü iqtisadi imkanları haqqında geniş məlumat verdim, onları respublikamıza sərmayə qoymağa dəvət etdim. Mən onlarda Azərbaycana olan çox böyük marağı hiss etdim. Bu, onu göstərir ki, Azərbaycan ilə Norveç arasındakı əlaqələrin geniş imkanları və böyük perspektivləri var.

Ümumiyyətlə, bu ölkə mənim çox xoşuma gəldi. Ərazisi böyük, amma əhalisi az olan bir ölkədir. Eyni zamanda Avropada yerləşən, keçmişdə çox kasıb, bu gün isə çox zəngin olan bir ölkədir. Yəni qısa müddətdə kasıblıqdan zənginliyə keçmək, demokratiyanı inkişaf etdirmək, yüksək texnologiyanı mənimsəmək və ondan istifadə etmək çox maraqlıdır. Təsəvvür edin, burada 800-ə qədər su elektrik stansiyası var. Ölkədə istifadə edilən elektrik enerjisi bu stansiyalarda istehsal olunur. Şübhəsiz ki, bizdə bu qədər çaylar və bu qədər su elektrik stansiyası tikmək imkanı yoxdur. Biz Kür üzərində "Yenikənd" Su Elektrik Stansiyasını tikmək istəyirik. Bunun üçün Avropa Yenidənqurma və İnkişaf Bankından kredit almışıq. Norveçin şirkətləri platformanın tikilməsində bizə çox kömək edə bilərlər. Onlar hələ bir əməkdaşlığa maraq göstərirlər. Yəni demək istəyirəm ki, biz onlarla həm iqtisadi, həm ümumxalqlar, millətlər, dövlətlər arasında əməkdaşlıq edə bilərik və bu, bizim üçün çox əhəmiyyətli olar.

Bütün bu səfərimin, görüşlərimin müsbət nəticələrindən biri ondan ibarətdir ki, Avropanın inkişaf etmiş bu dövlətlərində – həm Lüksemburqda, həm Belçikada, həm də Norveçdə Azərbaycanın demokratiya sahəsində əldə etdiyi nailiyyətləri qiymətləndirirlər. Bütün çıxışlarda, məsələn, xanım Brundtlandın, yaxud Jak Santerin çıxışlarında və başqa çıxışlarda Azərbaycana olan münasibət, respublikamızda demokratik dövlətin qurulması və demokratiyanın inkişaf etdirilməsi qeyd olundu. Nailiyyətlərimiz, iqtisadiyyat sahəsindəki potensial imkanlarımız onları cəlb edir və onlar bu sahədə əldə etdiyimiz nailiyyətləri yüksək qiymətləndirirlər. Bu da həm Av[210-211]ropa Birliyi ilə, həm də Avropanın demokratik dövlətləri ilə Azərbaycan arasında münasibətlərin inkişaf etdirilməsi üçün çox yaxşı əsasdır.

Ümumiyyətlə, mən bu səfərimdən və görüşlərimdən çox məmnunam. Hesab edirəm ki, Azərbaycanın dünya miqyasında, xüsusən Avropa qitəsində mövqelərinin möhkəmləndirilməsi, respublikamızın geniş miqyasda tanınması üçün lazımi qədər iş görülübdür və bunlar da hamısı dövlət müstəqilliyimizin möhkəmlənməsinə kömək edə bilər. Sağ olun. [211-212]

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ "QIZILQUM" SANATORİYASINDA MÜVƏQQƏTİ YERLƏŞMİŞ ŞUŞA, XOCALI, LAÇIN, AĞDAM QAÇQINLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*28 aprel 1996-cı il*

Əziz bacılar və qardaşlar, əziz həmvətənlər!

Müsəlman dünyasının bir hissəsi kimi, bu gün Azərbaycan xalqı bizim üçün müqəddəs olan Qurban bayramım qeyd edir. Azərbaycanda Qurban bayramının bu qədər geniş və bu qədər təmtəraqlı qeyd olunması onu göstərir ki, xalqımız artıq öz doğma köklərinə, ənənələrinə qayıdır və bunlara sadiqdir.

Bu bayram qədim bayramdır. Bizim əcdadlarımız, ulu babalarımız onu müqəddəs bayram kimi həmişə qeyd ediblər. Təəssüflər olsun ki, XX əsrin çox hissəsində, 70 ildən artıq bir müddətdə belə bayramlar, yəni millətimizə, xalqımıza, dinimizə aid olan bayramlar o vaxt tərkibində yaşadığımız dövlət və ictimai-siyasi sistem tərəfindən qadağan olunmuşdu, yaxud da buna imkan verilmirdi. Ona görə də biz həmin bayramları bu qədər əziz, hörmətlə qeyd edə bilmirdik.

Amma onu da bildirmək lazımdır ki, biz bu bayramı heç vaxt unutmamışdıq. Xalqımız onu həmişə qeyd etmişdir. Hərə öz qəlbində, evində-ocağında qeyd etmişdir. İndi isə o, kütləvi xalq bayramı, milli bayram, dini bayramımız kimi böyük bayram gününə çevrilibdir. Bu bayram münasibətilə sizi – bu salona toplaşan bacı və qardaşlarımı, sizin simanızda Azərbaycanın bütün vətəndaşlarını ürəkdən təbrik edir, sizə cansağlığı, səadət, gələcək işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bu gün ölkəmizin hər bir guşəsində bu bayram qeyd olunur. Minlərlə qurban kəsilir, insanlar bir-birini təbrik edir, bir-birinə qonaq gedir. Bu gün bu salonda – Pirşağı qəsəbəsindəki "Qızılqum" sanatoriyasının binasında da yerindən-yurdundan didərgin düşmüş və burada məskunlaşmış bacı-qardaşlarımız bayram mərasiminə toplaşmışlar. Şübhəsiz ki, mən də bu gün ya öz evimdə bayram edə bilərdim, yaxud Azərbaycanın hər hansı bir guşəsinə gedə bilərdim və güman edirəm ki, hər yer[212-213]də vətəndaşlarımızla birlikdə bayramı çox gözəl qeyd edə bilərdik.

Ancaq mən bu gün buraya, sizin yanınıza gəlmişəm, bu bayramı sizinlə birlikdə qeyd etmək istəyirəm. Ona görə ki, siz Azərbaycanın bütün başqa vətəndaşlarından fərqli olaraq daha ağır, çətin günlər keçirmisiniz və bu gün də belə günlər içərisindəsiniz. On-on beş gündən sonra Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dörd ili tamam olacaqdır. Eyni zamanda may ayında Laçının işğalının dörd ili tamam olacaqdır. Fevral ayında biz Xocalı soyqırımının dördüncü ilini qeyd etdik. Kəlbəcərin işğalının ildönümü ilə əlaqədar mart ayında mən kəlbəcərlilərin nümayəndələri ilə görüşdüm, söhbət etdim. Bunlar bizim tariximizin acı, dəhşətli səhifələridir, faciəli, qara səhifələridir. Ancaq siz, biz bu səhifələri yaşamışıq və bunları heç vaxt unutmayacağıq. Ona görə unutmayacağıq ki, xalqımıza, onun köksünə böyük zərbələr vurulubdur, millətimiz yaralanıbdır. Şuşanın, Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması Azərbaycan millətini yaraladı, başqa ərazilərimizin də işğal edilməsinə geniş yol açdı. Bunlar hamısı bizim faciəmizdir.

Burada çıxış edən şuşalı qardaşım dedi ki, biz aciz deyilik, bəsdir dözdük, torpaqlarımızı azad etməliyik. Mən də bu fikirlə razıyam. Biz torpaqlarımızın işğal altında qalmasına heç vaxt razı ola bilməyəcəyik. Ölsək də, ola bilər hamımız məhv olsaq da, torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin işğalı altında qalmasına dözə bilməyəcəyik. Dözməyəcəyik və şübhəsiz ki, torpaqlarımızı azad edəcəyik. Buna heç bir şübhəniz olmasın.

Ancaq məlumdur ki, Şuşa qalasını əsrlər boyu qoruyanlar dörd il bundan öncə də qoruya bilərdilər. Şuşa qalasını qorumaq o, işğal olunandan sonra, dörd ildən sonra geriyə almaqdan, azad etməkdən çox-çox asan idi. Ancaq təəssüf ki, satqınlar, xainlər, Azərbaycanın daxilindən olan düşmənlər bizi belə bir faciəli vəziyyətə gətirib çıxardılar. Mən heç vaxt razılaşa bilmərəm ki, Azərbaycan xalqı kimi qəhrəman bir xalq Şuşa qalasını, Laçın dağlarını qoruya, saxlaya bilməyəydi. Yox, bu, qətiyyən mümkün deyildir. Əgər satqınlıq, xəyanət olmasaydı, daxildən Azərbaycana düşmən olan adamlar öz şəxsi mənafelərinə çatmaq üçün cürbəcür hoqqabazlıqla, hakimiyyət uğrunda mübarizə ilə məşğul olmasaydılar, Şuşa qalası da Azərbaycanın məğrur qalası kimi yaşayacaqdı, Laçın dağları da və in[213-214]di biz sadəcə olaraq başqa ərazilərimizdən erməni silahlı qüvvələrinin çıxarılması ilə məşğul olacaqdıq. Bu satqınlıq, xəyanətlər xalqımızın qəlbinə böyük yaralar vurubdur, o yaralar sağalmayıb, sarınmayıbdır, o yaralar sızıldayır. Ancaq biz sızıldamırıq. Nə qədər ağır, çətin olsa da, nəyin bahasına olsa da biz torpaqlarımızı geriyə qaytaracağıq, yəni işğaldan azad edəcəyik, onların sahibi olacağıq. Müstəqil dövlət kimi Azərbaycan öz ərazisinin hüdudları çərçivəsindəki bütün torpaqlarının sahibi olmalıdır. Bunu haqq-ədalət, beynəlxalq hüquq normaları, dünya demokratiyası, dünya ədaləti tələb edir. Biz buna nail olacağıq.

Eyni zamanda bilirsiniz ki, buna nail olmaq üçün çox çətinliklər də var. Dörd il bundan öncə Şuşa qalası, Şuşa rayonu və Laçın Ermənistan silahlı qüvvələrinə təslim edildikdən sonra Azərbaycanın başına çox böyük

bəlalar gəldi. Azərbaycanın ərazisinin başqa hissələri də işğal olundu. İndi ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beş ildir ki, siz yerinizdən didərgin düşmüsünüz, qaçqın vəziyyətində, ağır, çətin vəziyyətdə yaşayırsınız. Amma sizinlə bərabər Azərbaycanın bir milyon vətəndaşı Ermənistanın təcavüzü nəticəsində, torpaqlarımızın işğal olunması nəticəsində yerindən-yurdundan zorla çıxarılıb, didərgin düşüb və respublikamızın başqa bölgələrində sizin kimi qaçqın vəziyyətində yaşayır. Bu, Azərbaycan Respublikasının həyatında böyük gərginlik, çətinlik yaradır. Tarixdə heç vaxt biz belə ağır vəziyyətə düşməmişik ki, torpaqlarımızın 20 faizi işğal olunsun, bir milyondan artıq vətəndaşımız yerindən-yurdundan qaçqın düşsün.

Bilirsiniz ki, iki il öncə – 1994-cü ilin mayında biz döyüşləri dayandırdıq, Ermənistanla atəşkəs haqqında saziş bağladıq. İki ilə yaxındır ki, xalqımız atəşkəs şəraitində yaşayır. Bu atəş-kəs zəruri idi. Bilirsiniz ki, iki il bundan öncə, həmin bu günlərdə, aprel ayında Ağdam – Tərtər bölgəsində qanlı döyüşlər gedirdi. Erməni işğalçıları öz havadarlarının gücünə arxalanaraq, onların köməyindən istifadə edərək Azərbaycanın başqa ərazilərini də işğal etmək, bizi diz çökdürmək istəyirdilər. Biz onların qarşısını aldıq. Qırx gün gedən döyüşlər Azərbaycan xalqının, Azərbaycan əsgərinin, oğullarının nəyə qadir olduğunu bildirdi. Ermənistan silahlı qüvvələrinə də göstərdi ki, daha onlar irəliləyə bilməzlər. Biz onları dayandırdıq. Qırx günlük döyüşlərdən sonra başa düşdülər ki, belə vəziyyətdə müharibə aparmaq mümkün deyil. Onlar atəşkəs haqqında saziş imzala[214-215]mağa təşəbbüs göstərdilər və biz də buna razı olduq. Beləliklə atəş dayandırıldı.

Atəşkəs müddətində biz Ermənistanla Azərbaycan arasındakı hərbi münaqişəni sülh yolu ilə aradan qaldırmaq istəyirik. Biz sülhsevər xalqıq, sülh istəyirik. Bunu dünyaya da bildirmək istəyirik və bildiririk. Ona görə də sülh danışıqları aparırıq, bunu bilirsiniz. Mən dəfələrlə çıxışlarımda bunu demişəm, fikirlərim televiziya, radio vasitəsilə sizə çatır. Bu iki il müddətində biz saysız-hesabsız tədbirlər görmüşük, danışıqlar aparmışıq. Beynəlxalq təşkilatların, böyük dövlətlərin vasitəsilə danışıqlar aparmışıq və aparırıq. Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı çərçivəsində Minsk qrupu var, o bu işlə məşğul olur, – həmin səviyyədə də danışıqlar aparırıq. Amerika Birləşmiş Ştatlarının, Rusiyanın, Türkiyənin və başqa dövlətlərin vasitəçiliyi ilə danışıqlar aparırıq. İki il müddətində dünyanın ən böyük dövlətlərinin prezidentləri, hökumət başçıları ilə dəfələrlə görüşmüşəm, həmin ölkələrdə, beynəlxalq təşkilatlarda danışıqlar aparmışam. Mən bütün beynəlxalq təşkilatlarda olmuşam, dünyanın elə bir beynəlxalq təşkilatı yoxdur ki, bu iki il müddətində orada olmayım, Azərbaycanın əsas problemini, tələblərini deməyim. Dünyanın elə bir böyük dövləti yoxdur ki, mən onun başçısı ilə görüşməmiş olam. Amerika, Rusiya prezidentləri, Çin Dövlət Şurasının sədri, İngiltərənin baş naziri, Fransa, Almaniya, Türkiyə, İran prezidentləri ilə görüşmüşəm. Bu siyahını uzatmaq da olar.

Bu görüşlərin, danışıqların hamısı bir məqsəd daşıyır: Azərbaycanın haqq-ədalət işini dünyaya sübut etmək, ölkəmizə qarşı olmuş hərbi təcavüzü dünya ictimaiyyətinə anlatmaq, sübut etmək və beynəlxalq ictimaiyyətin, dünyanın böyük dövlətlərinin, beynəlxalq təşkilatların köməyi ilə, onların vasitəsilə məsələni sülh yolu ilə həll etmək. Hətta Ermənistanla birbaşa danışıqlara getmişik. Bu danışıqları aparırıq ki, məsələni sülh yolu ilə həll edək. Yəni bizim vicdanımız təmizdir, pakdır. Baxmayaraq ki, nə qədər qurbanlar, şəhidlər vermişik, işğal edilmiş torpaqlarımız viran olunubdur, əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə qurulub yaradılmış tarixi abidələrimiz, maddi nemətlərimiz dağıdılıbdır, millətimizə nə qədər mənəvi zərbələr vurulubdur, – biz məsələni yenə də sülh yolu ilə həll etmək istəyirik. Biz bölgəmizdə, Qafqazda sülh istəyirik, dünyada sülh istəyir və bu yolla məqsədimizə nail olmaq istəyirik.

Bir həftə idi ki, mən Avropada – Lüksemburqda, Belçika[215-216]da, Norveçdə böyük səfərdə idim. Lüksemburqda Avropa Birliyi kimi böyük, mötəbər bir təşkilatın toplantısında olmuşam. Avropa Birliyi ilə Azərbaycan arasında çox tarixi əhəmiyyət kəsb edən sənəd – ölkəmizin bu təşkilatla əməkdaşlıq və tərəfdaşlıq etməsi haqqında saziş imzalanıbdır. Bu, tarixi hadisədir. Yəni biz Avropa Birliyi kimi yüksək iqtisadiyyata, mənəviyyata, demokratiyaya malik olan təşkilatla əməkdaşlığa getmişik. Eyni zamanda bu, Azərbaycanın müstəqil dövlət kimi, demokratik, hüquqi dövlət kimi tanınması deməkdir. Həmin saziş imzalanarkən Avropa Birliyinin yüksək vəzifəli şəxsləri və Avropanın digər ölkələrində olduğum zaman dövlət, hökumət başçıları Azərbaycanda böyük dəyişikliklərin mövcud olduğunu, demokratik islahatların, iqtisadi islahatların həyata keçirildiyini məmnuniyyətlə qeyd etdilər. Demək, Azərbaycan dünya birliyinin ən yüksək pillələrinə addımlayır. Bu, bizim böyük nailiyyətimizdir.

Bununla yanaşı, mən Lüksemburqda da, Brüsseldə də Avropa Birliyinin nümayəndələri ilə fərdi danışıqlar da aparmışam. Həmin saziş imzalanarkən Avropa Birliyinin yüksək kürsüsündə söylədiyim nitqdə Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüzü, respublikamızın belə ağır vəziyyətdə olduğunu, eyni zamanda Azərbaycanın bu münaqişəni sülh yolu ilə aradan qaldırmaq istədiyini dünyaya bir daha bildirmişəm. Avropa dövlətlərinin nümayəndələri ilə fərdi danışıqlarda da bu məsələlərin həll olunmasının yollarını araşdırmış, təkliflər vermişəm.

Brüsseldə olarkən NATO kimi böyük beynəlxalq təşkilatların Baş Qərargahına gedərək onun baş katibi ilə görüşüb NATO ilə "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulmağımız haqqında prezentasiya sənədini təqdim etmiş, ətraflı danışıqlar aparmışam.

Azərbaycana maddi yardım, maliyyə yardımı göstərilməsi, respublikamızın inkişafı üçün cürbəcür proqramların ölkəmizdə tətbiq olunması barədə Avropa Birliyi komissiyasının sədri ilə, başqa rəsmi şəxslərlə geniş danışıqlar aparmışam. Nəhayət, Norveçə rəsmi dövlət səfəri edərkən bu ölkənin baş naziri, kralı,

parlamentin sədri ilə və digər şəxslərlə danışıqlarımız olubdur. Bütün bu danışıqların hamısında Azərbaycan ilə bu təşkilatlar, dövlətlər arasında münasibətləri inkişaf etdirmək problemləri ilə yanaşı, ən ön cərgədə, planda Azərbaycanın ağır problemini – Ermənistanın təcavüzündən xilas olmaq [216-217] problemini irəli sürmüşəm və bu barədə təkliflərimi vermişəm. Bunların hamısı ona görədir ki, biz başımıza gəlmiş bəlanı sülh yolu ilə aradan qaldırmaq istəyirik.

Eyni zamanda mənim bır həftəlik səfərimdə Azərbaycan Respublikasının müstəqil dövlət kimi tanınması üçün çox böyük işlər görülübdür. Bu görüşlərin hamısı Azərbaycanın müstəqilliyinin dünyaya bir daha nümayiş etdirilməsidir. Mən bu görüşlərdə bir daha bildirmişəm ki, dövlət müstəqilliyi, milli azadlıq bizim ən böyük nailiyyətimizdir. Biz bunu tarixi nailiyyət hesab edirik, qoruyub saxlayırıq və bundan sonra da qoruyub saxlayacağıq. Dövlət müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik, heç vaxt başqa bir dövlətin tərkibinə, yaxud tabeliyinə düşməyəcəyik. Biz müstəqilik və müstəqil də yaşayacağıq.

Yenə deyirəm, bütün bu tədbirlərin hamısı münaqişəyə sülh yolu ilə son qoyulmasına yönəldilibdir. Yaxın günlərdə ölkəmizə yeni nümayəndələr gələcəklər. Biz danışıqları davam etdirəcəyik. Ümidvaram ki, bu danışıqlarımız nəticə verəcək, sülh addımlarımız dünya ictimaiyyəti tərəfindən nəhayət, dərk ediləcək və məsələnin sülh yolu ilə həllinə nail olacağıq.

Eyni zamanda burada səslənən çağırışları və çıxışları da dəstəkləyirəm. Əgər bizim səylərimiz nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü bu yolla təmin edə bilməsək, işğal olunmuş torpaqlarımızı azad edə bilməsək, nəyin bahasına olur-olsun məqsədimizə çatmalıyıq. Şuşanı da, Laçını da, Xocalını da, Ağdamı, Kəlbəcəri, Füzulini, Cəbrayılı, Zəngilanı, Qubadlını da, bir sözlə, bütün torpaqlarımızı azad etməliyik.

Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində gedən müharibədə igid oğullarımız şəhid olublar, Vətən yolunda canlarım qurban veriblər. Sizin ailə üzvləriniz, qohum-əqrəbalarınız şəhid olublar. Çoxunuzun qohumları şikəst olub, ağır xəsarət alıbdır. Bunlar hamısı xalqımızın qəhrəmanlıq nümunələridir, qəhrəmanlıq salnaməsidir. Xalqımız bu döyüşlərdə qəhrəmanlıq göstərib. Əgər şəhidlər vermişiksə, oğullarımız həlak olublarsa, demək, xalqımız qəhrəman xalqdır, cəsurluğunu nümayiş etdiribdir. Güman edirəm ki, bütün bu keçmişi təhlil edəndən sonra xalqımızda qəhrəmanlıq, vətənpərvərlik əhval-ruhiyyəsi daha da yüksəlibdir və ondan da yüksəklərə qalxacaqdır.

Təəssüf ki, bunlarla yanaşı, aramızda satqınlar, xainlər də olubdur. Allah onlara lənət eləsin! Xalqımız onların xəyanətini, satqınlığım daim lənətləyəcək, onlar Azərbaycanda heç [217-218] vaxt hörmət qazana bilməyəcəklər. Bu gün də olmasa sabah, sabah da olmasa gələcək nəsillər onların cəzalarını verəcəkdir.

Bu gün mən vətən yolunda, torpaqlarımızın müdafiəsi yolunda şəhid olanların hamısının xatirəsini böyük hörmət və ehtiramla yad edirəm. Bu Qurban bayramı günündə şəhidlərin ruhu qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin!

Bütün bunlardan bir nəticə çıxır: xalqımız öz gücünü toplamalı, keçmişdən nəticə çıxarmalıdır. Xalqımız bilməlidir ki, biz özümüz özümüzü qorumalıyıq, qüdrətimizi, qəhrəmanlığımızı göstərməliyik. Bizə heç kəsin torpağı lazım deyil, heç kəsin torpağına göz dikmirik, baxmayaraq ki, keçmiş dövrlərdə torpaqlarımızın başqa hissələri də əlimizdən gedibdir. Ancaq indi beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərimiz çərçivəsində olan torpaqlarımızı göz bəbəyi kimi qoruyacağıq. Başqalarının torpağına göz dikmirik, öz torpaqlarımızı da qoruyuruq və qoruyacağıq. Öz torpaqlarımızın sahibi olmalıyıq! Ona görə də gücümüzü toplamalıyıq, qəhrəmanlığımızı nümayiş etdirməliyik. Sülh zamanı unutmamalıyıq ki, elə bir gün gələr, biz yenə də torpağımızı döyüşlərlə azad etmək zərurətinə gəlib çatarıq. Bunu unutmaq lazım deyil. Əksinə, gərək hamı buna hazır olsun, siz də hazır olun, biz də hazır olaq.

Sülh istəməklə yanaşı, biz eyni zamanda dövlətimizin hərbi qüdrətini möhkəmləndirməliyik. Azərbaycanın hər bir vətəndaşı işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə qalxmağa hazır olmalıdır. Əgər bizim sülh təşəbbüslərimiz nəticə verməsə, əminəm ki, birləşib torpaqlarımızı azad edəcəyik və Şuşada da, Laçında da, işğal olunmuş başqa torpaqlarımızda da belə bayram məclisi quracağıq, Qurban bayramını o yerlərdə qeyd edəcəyik.

Bilirəm ki, siz çox böyük əzab-əziyyətlərə dözürsünüz. Sizin vəziyyətinizi heç olmasa müəyyən qədər yüngülləşdirmək üçün əlimizdən gələni edirik. Burada sizlərə kömək edən, əl tutan ayrı-ayrı təşkilatlara, dövlət orqanlarına təşəkkürünüzü bildirdiniz. Bu, məlumdur, ancaq heç kəs minnət qoymasın. Hamı sizə borcludur. Ona görə də hamının borcu yerindən-yurdundan didərgin düşmüş vətəndaşlara – bacı və qardaşlarımıza qayğı göstərməkdir. Biz azərbaycanlılar belə yaşamışıq: nəyimiz var, həmişə bir-birimizlə bölüşmüşük. Bu gün də kimin imkanı varsa, gərək imkansıza kömək eləsin. Hər bir təşkilat – həm dövlət təşkilatı, həm ictimai və başqa təşkilatlar [218-219] yerindən-yurdundan didərgin düşənlərə kömək etməlidir. Bu gün təkcə sizə yox, ümumiyyətlə, didərgin düşmüş bütün vətəndaşlarımıza göstərilən köməyə görə məmnuniyyətlə razılığımı bildirir, eyni zamanda hesab edirəm ki, hələ bundan artıq iş görmək lazımdır. Bu sahədə hələ hər şeydən razı deyiləm, nöqsanlar, çatışmazlıqlar da var. Bəzi adamlar öz vəzifəsini layiqincə yerinə yetirə bilmir, bəziləri vəzifəsindən sui-istifadə edir. Bunlar da bizə məlumdur. Bu gün siz bunları bəlkə də demirsiniz. Amma bilin ki, biz bundan xəbərdarıq. Ona görə də bu gün hamını sədaqətlə işləməyə dəvət edirəm. Hamı öz borcunu,

vəzifəsini şərəflə yerinə yetirsin. Sizə göstərilən qayğı təbiidir, bundan sonra da olmalıdır və biz çalışacağıq ki, onu daha da artıraq.

Türkiyədən olan qardaşlarımız Azərbaycanın Qurban bayramı mərasimlərində iştirak ediblər, qurbanlar kəsiblər. Burada da çıxış edib öz sözlərini dedilər. Mən bilirəm, onlar başqa yerlərdə də xeyirxah işlərini görüblər. Ona görə də Türkiyə Cümhuriyyətindən, başqa müsəlman ölkələrindən Azərbaycana gəlib Qurban bayramında iştirak edənlərin, qurban kəsənlərin və bayramı bizimlə bölüşdürənlərin hamısına təşəkkür edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, əlaqələrimiz bundan sonra da genişlənəcək, inkişaf edəcək və gələn Qurban bayramlarını da birlikdə keçirəcəyik.

Sizi bir daha ürəkdən təbrik edir, cansağlığı, xoşbəxtlik arzulayır, hamınıza hörmət və ehtiramımı bildirirəm. Hamınızı qucaqlayır, bağrıma basıram. Sizə uğurlar olsun. Qurban bayramınız mübarək olsun! [219-220]

## RESPUBLİKA NAZİRLƏR KABİNETİ RƏHBƏRLİYİNİN, APARATININ VƏ PREZİDENT APARATININ RƏHBƏR İŞÇİLƏRİNİN BİRGƏ İCLASINDA NİTQ

*4 may 1996-cı il*

Bu gün mən Nazirlər Kabinetinin rəhbərliyinin, aparatının və Prezident aparatının rəhbər işçilərinin birgə iclasını çağırmışam. Əsas məsələ Nazirlər Kabinetinin işinin təşkili və onun qarşısında duran vəzifələrin yerinə yetirilməsi ilə əlaqədardır.

Müstəqil Azərbaycanın ilk konstitusiyası qəbul olunmasından sonra respublikamızda dövlət quruculuğu sahəsində proseslərin sürətlə həyata keçirilməsi, inkişaf etdirilməsi üçün bütün imkanlar yaranıbdır. Hər bir dövlət orqanı bu imkanlardan istifadə etməlidir. Dövlət quruculuğu elə bir prosesdir ki, o, bir neçə müddət davam olunmalıdır. Şübhəsiz ki, bu proses bundan sonra da davam edəcəkdir. Ancaq işlərin təşkil edilməsi üçün tədbirlər sürətlə həyata keçirilməlidir.

Konstitusiyaya görə prezidentin ali icra orqanı kimi Nazirlər Kabinetinin dövlət sistemimizdə çox mühüm yeri var. Nazirlər Kabinetinin işinin konstitusiya prinsiplərinə əsasən təşkil edilməsi mühüm vəzifələrimizdən biridir. Ona görə də konstitusiya qəbul olunandan sonra bu ilin əvvəlində, yanvarın 8-də mən Nazirlər Kabinetinin ilk iclasını keçirdim, işin təşkil edilməsi, Nazirlər Kabinetinin fəaliyyətinin müvəffəqiyyətli olması üçün orada bir çox göstərişlər, tövsiyələr verdim. Artıq dörd ay keçibdir. Ancaq təəssüflə qeyd edə bilərəm ki, bu dörd ay müddətində Nazirlər Kabineti, nazirliklər, iqtisadiyyatın və sosial sahənin idarə edilməsi ilə əlaqədar olan təşkilatlar tərəfindən lazımi səviyyədə iş görülməyib.

Güman edirəm, bu da iqtisadiyyatımızda mövcud olan nöqsanların əsas səbəblərindən biridir. Ona görə də mən bu gün sizi buraya dəvət etmişəm. Bu məsələlər barəsində həm sizdən soruşmaq istəyirəm, həm də bu məsələlərin indən sonra necə həll edilməsi ilə əlaqədar müzakirə aparmaq istəyirəm.

Biz artıq 1996-cı ilin dörd ayını yaşamışıq. Dövlət büdcəsi [220-221] çox gec olsa da qəbul olunubdur. İqtisadiyyatda mövcud olan çətinliklər, proseslər, çatışmazlıqlar, geriliklər davam edir. İqtisadiyyatı inkişaf etdirmək, əhalinin sosial təminatı ilə əlaqədar işləri həyata keçirmək üçün lazımi tədbirlər görülməyibdir. Bunlar hamısı məni narahat edir və şübhəsiz ki, ümumi işimizə çox böyük zərər vurur, aydındır ki, cəmiyyətimizi də narahat edir.

İqtisadiyyatı idarə etmək, sosial problemləri həll etmək üçün Nazirlər Kabinetinin üzərinə çox böyük vəzifələr düşür. Bunlar hamısı konstitusiyamızda yazılıbdır. Ancaq təəssüflər olsun ki, bu dörd ay müddətində bu sahədə lazımi iş görülməyibdir və mən bu gün məcburam ki, Nazirlər Kabinetinin işinin indiyədək olduğu kimi, qeyri-qənaətbəxş olduğunu qeyd edim. İşi yaxşı təşkil etmək üçün böyük struktur dəyişiklikləri edilməlidir. Bizim indiki idarəetmə, xüsusən iqtisadiyyatın əsas sahələrini idarəetmə strukturu, Nazirlər Kabinetinin strukturu keçmişdə, Sovetlər İttifaqı dövründə yaranmış və o dövrdən qalmış strukturdur.

Bu gün mən tələb etdim ki, Nazirlər Kabineti aparatının strukturu haqqında mənə məlumat versinlər. Mən gördüm ki, Nazirlər Kabinetinin aparatı 15-20 il bundan qabaq necə idisə, elə də qalır. Heç bir dəyişiklik yoxdur. Şübhəsiz ki, Nazirlər Kabineti özü tək bir aparatdan ibarət deyil. Aparat sadəcə olaraq Nazirlər Kabinetinin işini görmək üçün yaradılan və mövcud olan bir aparatdır. Nazirlər Kabineti hökumətə daxil olan nazirliklərdən, komitlərdən, konsernlərdən, şirkətlərdən ibarətdir. Bunlarda da bir dəyişiklik yoxdur. Bəzilərinin keçmişə nisbətən adı dəyişib, amma məzmunu eynidir. İş prosesi də elə keçmişdəki kimidir. Əlaqələr də, münasibətlər də keçmişdəki kimidir və ştatlar da keçmişdə necə var idisə, elə də qalıb.

Nazirlər Kabinetinin yanvarın 8-də keçirilən iclasında mən göstəriş verdim ki, bütün işlərimizi yaxşı qurmaq üçün birinci növbədə gərək biz iqtisadiyyatın idarə edilməsi sahəsində olan təşkilatların strukturunu müəyyənləşdirək və bunların hamısını bu günün tələblərinə uyğunlaşdıraq. O zaman mən yanvarın axırınadək vaxt verdim. İndi mayın 4-dür, amma heç bir təklif yoxdur, heç bir qərar da meydana çıxmayıb. Belə olan halda, şübhəsiz ki, müsbət nəticələr gözləmək mümkün deyil.

Struktur dəyişiklikləri indi iqtisadiyyatımızda gedən dəyişikliklər prosesi ilə bağlı olmalıdır. Biz bazar iqtisadiyyatı yolu ilə [221-222] gedirik, iqtisadi islahatlar həyata keçiririk. Bilirsiniz ki, bu barədə qanunlar da qəbul etmişik. Mən bir çox fərmanlar vermişəm. Ancaq bunları həyata keçirmək üçün bizim Nazirlər Kabinetinin strukturu da, iqtisadiyyatı – sənayeni, kənd təsərrüfatını və iqtisadiyyatın bütün sahələrini idarə edən lazımi idarələrimizin strukturu da tamamilə başqa cür olmalıdır. Əgər siz köhnə strukturla yaşayırıqsa, demək, bu struktur bizi köhnə iş üslubundan, metodlardan, qanun-qaydalardan ayırmayacaqdır. Demək, burada sərbəstlik, müstəqillik, iqtisadiyyatda liberallaşdırma və başqa məsələlər olmayacaqdır. Çünki aparatın, strukturun hamısı köhnədirsə, əhval-ruhiyyə də köhnədirsə, demək yeniliyə imkan da, yol da yoxdur.

Mən çox təəssüf, həm də təəccüb edirəm ki, ötən dörd ay müddətində bu işlər görülməyib və mənim verdiyim göstəriş Nazirlər Kabineti tərəfindən yerinə yetirilməyib. Bu, yaramaz bir haldır.

İqtisadiyyatı təmin etmək üçün, şübhəsiz ki, mövcud istehsal müəssisələrinin ahəngdar işləməsi lazımdır. Bizdə böyük sənaye potensialı var. Məlumdur ki, bu sənaye potensialı bu gün keçmişdə olan gücü ilə işləyə bilməz. Bunun obyektiv səbəbləri var. Ancaq bu sənaye potensialı müasir tələblərə uyğun olaraq çox iş görə bilər. Xatırlayıram, bir il bundan əvvəl, 1995-ci ilin mayında Nazirlər Kabinetinin iclasında mən bu barədə – konkret nə etmək lazımdır – fikirlərimi demişdim. O vaxt bildirmişdim, bir ildən sonra, bir daha təkrar edirəm ki, zavodlarımız, fabriklərimiz bu gün keçmişdəki istehsal gücü ilə işləyə bilməz. Onların belə işləməsi üçün bir tərəfdən müəyyən xammal, ayrı-ayrı ölkələrdən alınıb komplektləşdirilən materiallar yoxdur və yaxud çatışmır, ikinci tərəfdən, keçmişdə istehsal edilən məhsullar, mallar bu gün bəlkə də o həcmdə, o qədər lazım deyil, yaxud lazım olanı da bu günün tələblərinə, standartlarına uyğun olmadığına görə o, özünə bazar tapa bilməz. Bu, məlumdur. Amma eyni zamanda hər bir zavodu, fabriki, hər bir istehsal müəssisəsini bu günün tələblərinə uyğun olaraq işlətmək və onun işini qurmaq mümkündür.

O vaxt mən göstəriş verdim ki, hər bir istehsal müəssisəsi bu tələblərə uyğun olaraq öz təkliflərini hazırlayıb versin. Nazirlər Kabinetində bunlara baxılsın. Bunun üçün, şübhəsiz ki, zavodlara ya yeni səlahiyyət vermək lazımdır, yaxud onlar haqqında qeyri-adi qərarlar qəbul etmək lazımdır. Bəzi məsə[222-223]lələrin keçmiş qanunlara uyğun olmayaraq həll edilməsinə icazə vermək lazımdır ki, onlar keçmiş sistemdə, ola bilər, görülə bilməzdi, amma bunu bu gün etmək lazımdır. Bir il keçibdir, mən bir təklif almamışam.

Xatirimdədir, mənim ünvanıma yalnız "Bakı fəhləsi" zavodundan bir təklif gəlmişdi, onu da göndərdim Nazirlər Kabinetinə, orada batdı getdi. Həmin bu göstərişi bu ilin yanvarında da vermişəm, amma dörd ay keçib, heç bir şey yoxdur. Bu cür işləmək olmaz.

Şübhəsiz ki, hər bir nazir, komitə sədri, şirkət, konsern rəhbəri, zavod, fabrik başçısı bu məsələdə özü təşəbbüskar olmalı və müasir tələblərə uyğun tədbirlər hazırlanıb həyata keçirməlidir. Bunu ona görə xüsusi qeyd edirəm ki, elə təsəvvür yaranmasın ki, bütün bu işlər sadəcə olaraq Nazirlər Kabinetində baxılmadığı üçün dayanıbdır. Dəfələrlə qeyd etmişəm, bu gün də deyirəm, biz təşəbbüskarlığa geniş meydan açmışıq. Təşəbbüskar müəssisə rəhbəri çox iş görə bilər, kollektivin daxilində olan yeni fikirlərdən, yeni təkliflərdən istifadə edərək xeyli tədbirlər həyata keçirə bilər.

Ancaq bununla yanaşı, məlumdur ki, bir çox tədbirlərin həyata keçirilməsi üçün ona yuxarıdan razılıq lazımdır. Bəlkə də bəzən qeyri-adi, cəsarətli tədbiri həyata keçirmək üçün ona həqiqətən ən yüksək səviyyədə sərəncam verilməlidir. Bunları isə bizim nazirlər, Nazirlər Kabineti etməlidir. Amma Nazirlər Kabineti bu işlərlə məşğul olmur. Ona görə də fabrik-zavodlarımızın hər ay verdikləri statistika məlumatından görünür ki, istehsal filan faiz aşağı düşdü. Bu da bizim üçün adi hal olubdur.

Aydındır ki, sənayemiz, ümumiyyətlə, iqtisadiyyatımız keçid dövrünü yaşadığına görə istehsalın keçmişdə olduğu kimi yüksək sürətlə inkişafından söhbət gedə bilməz. Bir dəfə demişəm, yenə demək istəyirəm ki, xatirimdədir, 70-ci illərdə, 80-ci illərin birinci yarısında Azərbaycanda sənaye istehsalı ildə orta hesabla 8-9, bəzən 10 faiz artırdı. Kənd təsərrüfatı istehsalında da artım təxminən o qədər idi. Əsaslı tikintidə də işlərimiz təxminən bu sürətlə gedirdi. Aydındır ki, biz bu sürəti əldə edə bilmərik – bu, real deyildir. Ancaq bəzi yerlərdə istehsalı artırmaq, bəzi yerlərdə mövcud səviyyədə saxlamaq, azalmağa yol verməmək mümkündür. Əgər buna nail olmamışıqsa, demək, nazirlərimiz, komitə sədrləri, müəs[223-224]sisə rəhbərləri və onlara rəhbərlik edən Nazirlər Kabineti – baş nazir, onun müavinləri, kabinetin aparatı qeyri-qənaətbəxş işləyirlər. Mən bu gün bunu deməyə məcburam. Bu cür işləmək olmaz!

İşləyirsiniz, işə də gəlirsiniz, işdən də gedirsiniz, kabinetinizdə də oturursunuz. Amma bu işin nəticəsi nədir? Əgər statistika göstərirsə ki, istehsal hər ay aşağı düşür, sənayeyə rəhbərlik edən adamların işinin nəticəsi nədən ibarətdir? Eləcə də başqa sahələrdə. Ona görə də bu tələbləri bir daha irəli sürürəm: birincisi, həddindən artıq narazılığımı bildirmək istəyirəm. Nazirlər Kabinetinin işindən çox narazıyam, bunu sizə açıq deyirəm. Biz bir yerdə işləyirik, hər birinizə çox böyük etimad göstərilibdir. Ancaq bilin, hələ ki, bu etimadı doğrultmursunuz. Mən bunu sizə açıq deyirəm. İkincisi, tələb edirəm ki, mənim verdiyim bu göstərişlər yerinə yetirilsin. Bunun üçün də Nazirlər Kabinetinin işində mütəşəkkillik olmalıdır.

Xatirimdədir, keçmişdə Sovetlər İttifaqının tərkibində olarkən tənqid edərdik ki, Nazirlər Kabineti, – o zaman Nazirlər Soveti deyirdilər, – həddindən çox iclaslar keçirir. Nazirlər Kabineti indi də cürbəcür iclaslar keçirir. Amma mənə deyirlər ki, Nazirlər Kabinetinin ümumi iclası keçirilmir, konkret məsələlər müzakirə olunmur.

Rusiyada da islahatlar keçirilir, Rusiya televiziyası vasitəsilə bunları görməyə imkanımız var. Keçmişdə olan bir çox qanun-qayda orada saxlanılıbdır. Məsələn, Nazirlər Kabinetinin müntəzəm olaraq iclasları keçirilir. Orada operativ məsələlərə dair komissiya var, onun müntəzəm iclasları keçirilir. Mən iclas naminə keçirilən iclasın əleyhinəyəm. Nəticəsiz, əhəmiyyətsiz iclasların keçirilməsini keçmişdə də həmişə tənqid etmişəm, bu gün də bunu deyirəm. Ancaq eyni zamanda məsələləri müzakirə etmək, qərar qəbul etmək lazımdır, o qərarın həyata keçirilməsini yoxlamaq lazımdır, onu yoxlayarkən də müzakirə etmək lazımdır. Nazirlər Kabinetində bu işlər də yoxdur.

Nazirlər Kabinetinin böyük aparatı var. Bu gün mən dedim ki, buraya aparatdakı şöbələrin başçılarını dəvət etsinlər. Həddindən artıq şöbə var. Yenə də xatırlayıram, keçmişdə, 15 il bundan öncə Azərbaycan Nazirlər

Sovetində olan şöbələr hamısı eyni adda bu gün də var. Birincisi, keçən dəfə də demişdim ki, hər bir aparatda ixtisar aparmaq lazımdır. Bu qədər şöbə həqiqətən lazımdır, yoxsa yox! Mən bunu neçə dəfə [224-225] demişəm. İkincisi, bəs bu şöbələr nə edirlər, nə işlə məşğuldurlar, işin nəticəsi nədən ibarətdir?

Eyni zamanda bizim Nazirlər Kabinetinin işində böyük bir xəstəlik də var. Bu, bizə keçmişdən miras qalmış xəstəlikdir, bürokratiya xəstəliyidir, bu, uzun illər hökm sürmüş xəstəlikdir. Amma keçmişdə belə bir ümumi fikir vardı ki, sovet sosialist quruluşu ümumən bürokratik quruluşdur, orada hər bir şeyi, hər yerdə razılaşdırmaq lazımdır. Xatirimdədir, yenidənqurma vaxtı, – mən o vaxt Moskvada işləyirdim, – biz geniş tənqidə yol verəndə deyirdilər ki, belə şey ola olar, nə bilim, düymənin də qiyməti gərək Sovetlər İttifaqının Dövlət Plan Komitəsinin qərarı ilə müəyyən edilsin ki, beş qəpik, dörd qəpik, yoxsa üç qəpik olmalıdır. O vaxtlar belə tənqidlər vardı və doğrudan da ədalətli tənqidlər idi. Çox şey mərkəzləşmişdi, ona görə də, hər bir şey gərək Moskvada həll ediləydi. Yenə də deyirəm, haradasa düymənin də, iynənin də qiymətini dəyişmək üçün gərək yazılaydı, gedəydi, Dövlət Plan Komitəsinin qərarı çıxarılaydı, bəzi hallarda hətta Nazirlər Sovetinin qərarı çıxarılaydı. Biz illər boyu bu xəstəliyi tənqid etdik.

İndi yeni şəraitdə – müstəqil dövlətik, heç kəsdən asılı deyilik, hər şeyi özümüz həll etməliyik, amma bürokratiya dəhşətli səviyyəyə gəlib çatıbdır. Mən deyə bilərəm ki, indi təkcə Nazirlər Kabinetində deyil, bizim dövlət orqanlarında, hökumət orqanlarında, bütün orqanlarda bürokratiya həddindən artıq geniş miqyas alıbdır. Bürokratiya isə bizim düşmənimizdir, bütün işlərimizin getməsinə maneədir, əngəldir, kütlədə, cəmiyyətdə və insanlarda da böyük narazılıq yaradır. Narazılıq da haqlı narazılıqdır.

Təəssüf ki, bürokratiya Nazirlər Kabinetində çox kök salıbdır. Cürbəcür yerlərdən mənə deyirdilər ki, Nazirlər Kabinetinə bir kağız düşürsə oradan çıxmır, – iki ay, üç ay, dörd ay orada qalacaq, bir məsələni həll etmək mümkün deyildir. Onda bu, Nazirlər Kabineti olmadı ki! Nazirlər Kabineti indi Azərbaycanda dövlət sistemində ona görə mövcuddur ki, işlərin operativ həll olunmasını təmin etsin. Əgər işlərimizə əngəl olacaqsa, belə bir Nazirlər Kabineti bizə nəyə lazımdır? Amma bürokratiya təkcə sənədlərin gəlməsi, baxılması və hərəkəti ilə bağlı deyildir. İnsanlar, vəzifəli adamlar çox bürokratlaşıblar.

Dünən burada rəhbər vəzifəli bəzi şəxslərlə müşavirə keçi[225-226]rirdim. Bəzilərinin vəzifədən sui-istifadə etməsi, qeyri-qanuni işlər görməsi haqqında çox ciddi iradlar tutdum və ciddi tapşırıqlar verdim. Bu gün də demək istəyirəm ki, vəzifəli şəxslərimiz ümumiyyətlə bürokratik xəstəliyə tutulublar və bundan heç ayrılmaq da istəmirlər. Elə bil ki, bunların canına işləyibdir. Bürokratiya o dərəcəyə çatıbdır ki, deyirlər, nazirlərlə danışmaq mümkün deyildir. Bizdə cürbəcür telefonlar var: şəhər telefonu var, hökumət telefonu – üçrəqəmli telefon, bir də dördrəqəmli telefon – ən yüksək hökumət telefonu var. Nazirlərimiz, vəzifəli şəxslərimiz hərə özünə bir-iki katib tutub, bütün bu telefonları keçirir onun otağına, bir adam da zəng edə bilmir. Onda üç telefon nəyə lazımdır, hamıya bir telefon qoyaq. Üç telefon ona görə qoyulubdur ki, birinə şəhərdən bir adam zəng edə bilər, o biri telefona geniş miqyasda bizim hökumət orqanlarında olan adamlar zəng edə bilərlər. Üçüncü ən yüksək səviyyəli telefon isə rəhbər işçilərin məhdud qrupunda var, bunlar bir-biri ilə danışmalıdırlar. Hamısını keçiriblər katiblərin otağına. Belə şey olarmı? Kim ixtiyar veribdir? Bu gün göstəriş verirəm, dördrəqəmli telefonlar bütün qəbul otaqlarından çıxarılsın. Həmin telefon yalnız məxsus olduğu adamın iş otağında ola bilər, katibində ola bilməz.

Amma məsələ təkcə bundan ibarət deyildir. Bunu mən inzibati yolla edirəm ki, necə deyərlər, özbaşınalığın qarşısını alım. Bilin ki, bu telefonlar qoyulub ki, siz əlaqə saxlayasınız. Siz bütün əlaqələrinizi kəsib katibinizə tapşırırsınız, o da kimi kefi istəyirsə sizinlə əlaqələndirir, ya əlaqələndirmir, yaxud da ümumiyyətlə deyirsiniz ki, məni əlaqələndirmə, kefim nə istəyir onu da edirəm. Belə işləmək olmaz ki! Mənə nə qədər şikayət edirlər. Siz özünüz də bunu bilirsiniz, bir-birinizə zəng edirsiniz. Çoxunuz dördrəqəmli telefonla zəng edəndə birbaşa həmin adama düşə bilirsinizmi? Yox! Amma səsinizi çıxarmırsınız, çünki günahkarsınız. Çünki zəng vuran da belə edir, o birisi də. Ona görə də bu barədə bir-birinizlə həmrəysiniz. Bunlar da hamısı işimizə zərər vurur. Mənə deyirlər, bizim vəzifəli şəxslər var ki, beş gün, on gün, on beş gün ona telefonla zəng etmək mümkün deyildir. Bunlar hamısı bürokratiyanın ən yüksək səviyyədə olmasını göstərir. Bütün bunlara son qoyulmalıdır. Yenə də deyirəm, bürokratiya hər yerdə var, yerli icra hakimiyyəti orqanlarında, icra hakimiyyəti başçılarında da var. Bu barədə mənə çox siqnallar gəlir. Tələb edirəm ki, onlara da lazımi iş aparılsın və bu bürokratik əhval-ruhiyyə, xa[226-227]siyyət icra orqanlarından tamamilə kənar edilsin. Bizim nazirliklərdə, komitələrdə, şirkətlərdə, o cümlədən Nazirlər Kabinetində bürokratiya çox geniş yayılıbdır. Buna son qoymaq lazımdır.

Nazirlər Kabinetinin işi çox operativ olmalıdır. Hesab edirəm ki, baş nazir, onun müavinləri Nazirlər Kabinetində bu günün tələblərinə uyğun iş sistemi qurmalıdırlar. Bu iş sistemi də ondan ibarət olmalıdır ki, həftənin birinci günü, ikinci günü, üçüncü günü nə iş görülür – bir iş proqramı olmalıdır. Mühüm məsələlər həftədə bir dəfə, on gündə bir dəfə müzakirə olunmalı, lazımi tədbirlər görülməlidir.

Tapşırmışdım, bu gün mənə Nazirlər Kabinetinin rəhbərliyinin iş bölgüsünü veriblər, baş nazir hazırlayıb veribdir. Bu bölgü ilə ümumiyyətlə razıyam. Təəssüflər olsun ki, indiyə qədər Nazirlər Kabinetində normal iş bölgüsü də olmayıbdır ki, kim nə işlə məşğul olmalıdır. Məsələn, sənayemizdə vəziyyət çox ağırdır, amma Nazirlər Kabinetində sənaye ilə kim məşğul olur? Heç kəs. Hansı sahələrə kimin rəhbərlik etməsi barədə verilən təkliflə razıyam. Birincisi, buna riayət etmək lazımdır. İkincisi də, bu bölgüdə bir qüsur görürəm. Məsələn,

yazırsınız ki, baş nazir, birinci müavinlər, müavinlər hansı şöbələrə rəhbərlik edirlər. Siz şöbələrə yox, sahələrə rəhbərlik edirsiniz. Şöbələr sizin aparatınızdır. Bu cür yaramaz. Sahələrə rəhbərlik etmək üçün şöbələr sizdən ötrü vasitədir. Amma burada yazmısınız ki, baş nazir bilavasitə hansı şöbələrə, birinci müavinlər filan şöbələrə, qalan müavinlər hərəsi hansı şöbələrə rəhbərlik edirlər. Necə yəni şöbələrə, siz sahələrə rəhbərlik edirsiniz.

Məsələn, burada yazılıb: maşınqayırma, energetika şöbəsi. Elə bunun özü isə bürokratik münasibəti göstərir. Siz maşınqayırma, energetika, neft kimyası sisteminə rəhbərlik edirsiniz, şöbəyə yox. Ona görə mən prinsip etibarilə bununla razıyam, amma forma etibarilə bu, qətiyyən yaramaz. Bu, təkcə forma deyildir, yenə də onu göstərir ki, siz hesab edirsiniz şöbəyə rəhbərlik edirsiniz, şöbə də o sahəyə rəhbərlik edir. Yox, sahəyə şöbə rəhbərlik etmir, ona baş nazir, onun müvafiq müavinləri rəhbərlik edirlər. Şöbə isə bu rəhbərliyi təmin etmək üçün aparatdır.

Keçmişdə burada da, Moskvada baş nazirin birinci müavini işləyəndə də mən belə şey görməmişdim. Məsələn, baş nazirin [227-228] birinci müavini kimi bilavasitə rəhbərliyim altında on beş nazirlik var idi. Nazirliklərin, komitələrin, sahələrin adları yazılırdı. Yazılmırdı ki, hansı şöbəyə baxıram.

Ona görə də bunu dəyişirdin, bu şəkildə yaramaz. Yenə də deyirəm, məsələyə bu cür yanaşmaq Nazirlər Kabinetində bürokratik ünsürlərin indiyə qədər yaşamasını göstərir.

Hesab edirəm ki, Nazirlər Kabinetində sahələrə rəhbərlik etmək üçün yetərincə adamlar – baş nazir, onun müavinləri var və tələb edirəm ki, hərə öz sahəsi ilə məşğul olsun. Birincisi, hesab edirəm ki, baş nazirin müavinlərinə maksimum müstəqillik vermək lazımdır ki, onlar öz sahələri ilə ciddi məşğul olsunlar. İkincisi, prinsipial məsələlərin Nazirlər Kabinetində vaxtında həll olunması üçün işlək mexanizm yaradılmalıdır. Buna görə də baş nazir, onun müavinləri, hesab edirəm, işlər müdiri həftədə bir dəfə, uzun iclaslara yox, qısa müddətdə yığışıb məsələləri həll etməlidirlər. Siz plansız işləyirsiniz. Planlaşdırmalısınız ki, hansı məsələlərə nə vaxt baxmalısınız. Birinci rüb keçdi, amma ikinci rüb üçün planınız olmalıdır – hansı məsələləri, nə vaxt həll edəcəksiniz, kim hansı məsələyə cavabdehdir, hansı işi kim görmür? Yoxsa bunlar hamısı özbaşına gedir, harada necə varsa, o cür də gedir.

Əvvəllər deyilmiş sözlərə bir daha qayıdıram. Mövcud iqtisadi potensialımızdan səmərəli istifadə etmək lazımdır. Sənayedə, kənd təsərrüfatında, əsaslı tikintidə istehsal müəssisələri hərəsi özünə uyğun olan tədbirlərlə yaxşı işlədilməlidir. Ona görə də bir il bundan qabaq dediyim, dörd ay əvvəl verdiyim və indiyə qədər yerinə yetirilməmiş göstərişi bir də verirəm ki, baş nazir, hər müavin öz sahəsində qısa müddətdə işi canlandırmaq, hər bir müəssisəni işlətmək üçün tədbirlər görməlidir. Təşəbbüs, ola bilər, əvvəllər dediyim kimi istehsal müəssisələrindən gəlsin. Bəlkə də bu təşəbbüslər gəlib, sadəcə olaraq Nazirlər Kabinetində indiyə qədər onlara baxmamısınız, oturub müzakirə edib müəyyənləşdirmək lazımdır ki, hansı müəssisəni nə cür, nə vasitə ilə, hansı güclə, hansı sürətlə işlətmək olar.

Aydındır ki, bu, işlətmək naminə deyildir. İstehsal edəcəyimiz bütün məhsullar respublikamızın, ümumiyyətlə, xarici bazarın bugünkü tələblərinə uyğun olmalıdır. Əgər bu olmasa, belə istehsal da bizə lazım deyildir. Yəni istehsal naminə istehsal lazım deyildir. Müəyyən edilməlidir ki, hər bir məhsul nə üçün istehsal olunub, necə satılacaq, müəssisə, ümumiyyət[228-229]lə, respublika ondan nə mənfəət götürəcəkdir. Bunlar əsas prinsiplər olmalıdır. Ona görə də hər bir müəssisənin istehsal gücünü hərəkətə gətirmək üçün keçmişdəki kimi birtəhər istehsal edib yığmaq lazım deyildir ki, sonra satılmayıb qalsın.

Biz keçən dəfə, yanvar ayında istehsalın, ümumiyyətlə iqtisadiyyatın belə vəziyyətə düşməsinin əsas səbəblərindən biri olan debitor borcları haqqında geniş söhbət aparmışıq. Mən o vaxt baş nazirə, Nazirlər Kabinetinə tapşırıq verdim ki, qısa müddətdə bu məsələni müzakirə edib təklifinizi bildirin. Hətta dedim ki, ən cəsarətli təkliflər də verə bilərsiniz. Bir-birinə olan borcların aydan-aya, rübdən-rübə artması bizi haraya gətirib çıxaracaqdır? Heç bir təklif yoxdur. Sonra bildim ki, Nazirlər Kabineti komissiya yaradıb. Tofiq Əzizov onun sədridir. Komissiya nə edir, mən bunu bilmirəm. Yəni o mənada bilmirəm ki, istəmirəm biləm komissiya bu gün nə etdi, sabah nə etdi. Bu komissiyanın işinin nəticəsi nədir, təklifiniz nədir? Dörd ay bundan qabaq siz demişəm ki, təklif verin. Ən cəsarətli, ən riskli təkliflər verilməsini də tələb edirəm. Tələb edirəm ki, iqtisadiyyatımızı, maliyyə vəziyyətimizi yaxşılaşdıraq, müəssisələrin bir-birinə olan borclarını aradan qaldıraq. Heç bir təklif vermirsiniz, borclar da günbəgün, aybaay artır. Bu cür işləmək olmaz axı!

Hesab edirəm ki, o komissiyanı təşkil etməklə də bürokratiya yaratmısınız. Mənə belə gəlir ki, bu cür komissiyanın yaradılmasına da ehtiyac yoxdur. Sadəcə olaraq burada iki-üç-dörd prinsip ola bilər. Yığışın, məsləhətləşin – bu borcu bu prinsiplə, başqa prinsiplə ləğv edirik. Yaxud mən bir dəfə dedim ki, ya bunu dondururuq, yaxud hamısını silib yenidən başlayırıq və ya başqa bir şey edirik. Mən heç bir resept vermirəm, sadəcə olaraq mümkün variantları deyirəm.

Tələb edirəm ki, bu məsələ ilə məşğul olun. Sizə bir ay vaxt verirəm. Bir aydan sonra mənə rəsmi surətdə yazılı hesabat verməlisiniz ki, nə etmisiniz, nə əldə olunub, hansı təkliflərinizin həyata keçirilməsi üçün mənim bu işə qarışmağım, yaxud da bizim ümumi müzakirəmiz lazımdır. Beş gündən sonra verə bilərsinizsə, beş gündən sonra verin, on gündən sonra verə bilərsinizsə, verin. Amma sizə bir ay vaxt verirəm ki, bu müddətdə mümkün olan müəyyən tədbirləri həyata keçirəsiniz; o tədbirləri ki, həyata keçirə bilməzsiniz, amma təklifiniz var, bunları mənə verəsiniz. Ancaq deyim ki, bu, [229-230] tamamilə sizin səlahiyyətinizə aid olan işdir və bunu

özünüz edə bilərsiniz. Sadəcə olaraq, bəzi prinsipial məsələlər barədə məndən razılıq almaq lazımdır.

Bir qədər də struktur dəyişiklikləri barədə danışmaq istəyirəm. Struktur dəyişiklikləri dedikdə bunun iki mənası nəzərdə tutulur. Birincisi, xidmət sisteminin strukturunu sadələşdirmək və günün tələblərinə uyğunlaşdırmaq. İstehsal sahəsini götürək. On il bundan əvvəlki istehsal xeyli azalıbsa, buna rəhbərlik etmək üçün on il əvvəlki qədər aparat saxlamağa ehtiyac yoxdur. Mövcud nazirliklərin, komitələrin, idarələrin bir çoxu bu gün artıq, öz funksiyalarını itiribdir. Məsələn, keçmiş Dövlət Təchizat Komitəsi indi nə ilə məşğuldur, bilmirəm. Amma orada nə qədər adam işləyir, deyə bilərsiniz? (**Yerdən səs:** 400-dən artıq) 400 adam nə edir? Amma təkcə Material Ehtiyatları Nazirliyindən söhbət getmir.

Ona görə də struktur dəyişiklikləri deyəndə, yenə təkrar edirəm, birincisi, idarəetmə strukturunu bu günün tələblərinə uyğunlaşdırmaq, hansı təşkilatlar bizə lazımdırsa, gücləndirmək gərəkdirsə gücləndirmək, lazım olmayanları ixtisar etmək, aparatı ixtisar etmək lazımdır. Bu, eyni zamanda bürokratiyanın aradan götürülməsində də bizə kömək edəcəkdir. İkinci tərəfdən, struktur dəyişiklikləri bazar iqtisadiyyatı ilə əlaqədar idarəetmə strukturumuzun qurulması deməkdir. Dünən Ümumdünya Bankının nümayəndələri ilə söhbət edəndə də bu məsələ qalxdı. Bundan əvvəl də həm Beynəlxalq Valyuta Fondunun, həm də Ümumdünya Bankının nümayəndələri ilə danışıqlarımızda bu məsələlər meydana çıxmışdır.

Mən belə başa düşürəm ki, bu məsələlərin həyata keçirilməsində Nazirlər Kabinetinin böyük bir səhvi də budur ki, hesab edir bütün bu məsələlərin hamısını toplamaq, cəmləmək, sonra da bir gündə etmək lazımdır. Bu, mümkün deyildir. Ayrı-ayrı sahələrə baxmaq lazımdır. Məsələn, indi Səməd Sadıqov Material Ehtiyatları Nazirliyi barədə məlumat verdi. Amma mən keçən dəfəki müzakirəmizdə də demişəm ki, İqtisadiyyat Nazirliyimizin bu qədər böyük ştatının saxlanmasına ehtiyac varmı? Yoxdur! İqtisadiyyat Nazirliyimiz indiyə qədər keçmiş Dövlət Plan Komitəsinin strukturu ilə yaşayır. Ancaq Dövlət Plan Komitəsi yoxdur, biz ondan imtina etmişik, adını dəyişib İqtisadiyyat Nazirliyi qoymuşuq, amma onun vəzifələrini aparır. [230-231]

Hamısını edə bilmirsinizsə, bir tərəfi götürün, İqtisadiyyat Nazirliyini – onu edin, Material Ehtiyatları Nazirliyini götürün – onu edin. Axı, hamısını bir gündə etmək mümkün deyildir. Bu barədə mənim göstərişlərimi alandan sonra gərək oturaydınız, özünüzə bir cədvəl, plan tutaydınız ki, bu həftə bunu edirik, o biri həftə onu edirik və sairə. Bilirsiniz, cari məsələlər həmişə vaxtımızı alır. Mən Fuad Quliyevdən soruşuram, hər dəfə deyir ki, "cari işlər imkan vermir". Cari işlər heç vaxt qurtarmayacaq, amma siz bunlarla yanaşı, qarşınıza məqsəd qoysanız ki, bu həftə bu məsələlərə baxırıq, nə olursa-olsun qurtarıb təklifimizi veririk, gələn həftə bunu, o biri həftə onu edirik, – bu, mümkündür. Məcbur edirsiniz ki, mən, necə deyərlər, bu məsələni çeynəyib gətirim ortaya qoyum. Axı, bunlar məlum məsələdir. Mən yeni bir şey ixtira etmirəm ki! Amma siz etmədiyinizə görə deməyə məcburam.

İqtisadiyyatımızı tamamilə inkişaf etdirmək üçün şübhəsiz ki, bazar iqtisadiyyatı prinsiplərini geniş surətdə tətbiq etməliyik. Bu da məhz struktur dəyişiklikləri deməkdir. Amma bazar iqtisadiyyatı prinsiplərini tətbiq etməkdə çox gecikmişik. Bunun obyektiv səbəbləri də var, ancaq səhlənkarlıq da, başqa səbəblər də var. Özəlləşdirmənin həyata keçirilməsini gecikdiririk. Proqram qəbul olunub, ancaq həyata keçirilməsi ləngiyir. Bu gün bir daha deyirəm ki, özəlləşdirməni sürətlə aparmaq lazımdır. Bu işi Tofiq Əzizova tapşırdım. Şübhəsiz ki, proqramın, müəyyən sənədlərin, cürbəcür əsasnamələrin hazırlanması sahəsində xeyli iş görülübdür. Ancaq özəlləşdirmənin əməli surətdə aparılması üçün lazımi səviyyədə iş görülmür. Bu işə daha da təkan vermək üçün bir ay öncə mən komissiya yaratdım. Bu komissiya da indiyə qədər lazımi iş görə bilməyibdir.

Özəlləşdirmənin ilk addımları göstərir ki, bu, ümumiyyətlə, yaxşı səmərə verə bilər, buna şübhə yoxdur. Ancaq bu, ilk addımlardır. Nədənsə, komissiyamız da lazımi səviyyədə işləyə bilmədi və özəlləşdirmə çox ləng gedir. Dünən mən baş nazirin birinci müavini Rasizadəni komissiyanın sədri təyin etmişəm. Komissiyadan, Dövlət Əmlak Komitəsinin sədri Tofiq Əzizovdan tələb edirəm ki, özəlləşdirmə ilə əlaqədar məsələləri birinci növbəli məsələ kimi həyata keçirsinlər. Hesab edirəm ki, özəlləşdirməni həyata keçirmək üçün lazımi sənədlər hazırlanıb, şərait yaranıbdır və son bir ayda bəzi müəssisələrin satılması onu göstərir ki, bu barədə təcrübə də [231-232] əldə olunubdur. Ancaq belə sürətlə getsək, özəlləşdirməni heç beş il də qurtara bilməyəcəyik. Belə sürət yaramaz. Öhdəlik götürmüşük ki, bu il kiçik və orta müəssisələrin hamısı özəlləşdirilməlidir. Lakin ilin dörd ayı qurtardı. Komissiya bir ay müddətində çox plansız işləyibdir. Gəlin yığışaq, baxaq, görək bu məsələni necə həll edirik. Belə olmaz. Komissiyanın iş planı olmalıdır. O, müəyyən etməlidir ki, hər həftə nə iş görüləcəkdir. Hər ay üçün iş planı olmalıdır, iş də bu plana əsasən görülməlidir.

Şübhəsiz ki, bu işi görən əsasən Dövlət Əmlak Komitəsidir. Komissiyanı yaratmışam ki, həm dövlət komitəsinin işinə kömək etsin, həm də onun üzvləri öz imkanlarından istifadə edib bütün vasitələri bu tədbirin həyata keçirilməsinə səfərbər edə bilsinlər. Mən bu işləri Tofiq Əzizovdan və komissiyadan, onun sədri Rasizadədən tələb edirəm. İndiyə qədər komissiyanın işini çox pis qurmusunuz, belə işlə razı ola bilmərəm. Dövlət Əmlak Komitəsinin işində də indiyə qədər əldə edilən nailiyyətləri qiymətləndirdim, amma nəticələrə görə onun işi qənaətbəxş hesab edilə bilməz. Ona görə də bu məsələ ilə çox ciddi məşğul olmalısınız.

Aqrar sektorda islahatların keçirilməsi ilə əlaqədar bir neçə müzakirələr aparmışıq. Aprelin 2-də böyük müşavirə keçirdik, aqrar sektorda islahatların aparılması haqqında geniş söhbət getdi. Göz qabağındadır, Xızı rayonu heç bir böyük sənəd yaxud böyük proqram olmadan, bizim göstərişlərimizi yerinə yetirərək aqrar

sektorda özəlləşdirməni aparıb, çox yaxşı da nailiyyətlər əldə edibdir. Zaqatala rayonunda da müəyyən təsərrüfatlarda islahat aparılıb və onlar da nəticələr əldə ediblər. Masallı rayonunda, başqa bir neçə rayonda da bu işlər gedibdir.

Aprelin 2-də göstəriş verdim ki, ümumi proqramların həyata keçirilməsini gözləmədən mal-qaranı özəlləşdirmək lazımdır. Bu, heç bir şeylə bağlı deyildir. Telefon danışıqlarında bunu kənd təsərrüfatı nazirinə bir neçə dəfə də bildirmişəm. Harada ki, mal-qara kənddə yaşayan əhaliyə, onu saxlaya bilənlərə verilib, artıq bunun mənfəətini görürük. Verdiyim göstərişləri bu gün bir daha təkrar edirəm. Aqrar islahat komissiyasından, onun sədri Abbas Abbasovdan tələb edirəm ki, bu məsələlərlə çox ciddi məşğul olsunlar.

Torpaq islahatı haqqında qanun layihəsi hazırlanıbdır. Bir-iki gün əvvəl soruşdum, dedilər ki, nəsə hələ tam deyildir. [232-233] Qanun Milli Məclisdə hazırlanır. Abbas Abbasova da tapşırıram ki, onlarla əlaqə saxlayın, layihəni tezliklə mənə təqdim edin ki, biz ilkin müzakirəni aparaq, sonra Milli Məclisin müzakirəsinə verək. Bunlar hamısı lazımdır ki, indi görə biləcəyimiz cari işlərlə yanaşı, payıza qədər və bu payızda aqrar sektorda torpaq islahatı aparmaq, aqrar islahatlar keçirmək üçün geniş yol açaq. Payızdan o tərəfə keçə bilməz, ona görə də bu işləri indi görmək lazımdır.

Kənd təsərrüfatının cari işləri barədə aprelin 2-də ətraflı danışdıq. Mən kənd təsərrüfatı naziri ilə bir neçə dəfə əlaqə saxlamışam, onun verdiyi məlumata görə, müşavirədə verilən göstərişlər guya həyata keçirilir. Ancaq nə dərəcədə, nə səviyyədədir, bilmirəm. Dünən və bu gün də mənə məlumat gəldi ki, kənd təsərrüfatı işlərinin getməsinə müəyyən qədər mane olan amillərdən biri də əmək haqlarının verilməsinin yenə ləngiməsidir. Mən kənd təsərrüfatı nazirini buraya dəvət etmişəm, sonra bu barədə qısa məlumat verər. Həll edilməli məsələ varsa, bu gün baxıb həll etmək lazımdır. Kənd təsərrüfatında cari işlərin ləngiməsinə yol verə bilmərik.

Maliyyə sahəsində inflyasiyanın aşağı olması, demək olar ki, bir nöqtədə dayanması, milli valyutamızın dəyərinin sabitliyi iqtisadiyyatımızda, o cümlədən maliyyə sahəsində gördüyümüz tədbirlərin nəticəsidir. Bunlar müsbət hallardır və mən də müsbət qiymətləndirirəm. Ancaq bu da son hədd deyildir. Birincisi, bu məsələlərə çox ciddi nəzarət etmək, ikincisi, həmin sahədə olan tədbirləri bundan sonra da həyata keçirmək lazımdır. Beynəlxalq Valyuta Fondu, Ümumdünya Bankı ilə əməkdaşlığımız çox əhəmiyyətlidir, bizə çox mənfəət verir. Bir tərəfdən onların məsləhətlərinin, tövsiyələrinin həyata keçirilməsi, ikinci tərəfdən də həm Beynəlxalq Valyuta Fondundan, həm də Ümumdünya Bankından respublikamıza ayrılan kreditlər iqtisadiyyatımızın inkişafı üçün çox əhəmiyyətlidir. Ona görə də bu əməkdaşlığı davam etdirmək lazımdır. Bir çox layihələr haqqında bu günlərdə də müzakirələr gedibdir. Həmin layihələrin hazırlanması, həyata keçirilməsi sürətləndirilməlidir, gecikdirmək olmaz. Ümumiyyətlə, maliyyə vəziyyətimizə daimi nəzarət olmalıdır.

Bu gün sizi bir neçə belə iradlarımızı, fikirlərimizi çatdırmaq və xüsusən ilk konstitusiyamızla əlaqədar Nazirlər Kabinetinin işinin qurulması sahəsində lazımi tədbirlərin həyata keçirilməsini təmin etmək üçün dəvət etmişəm. Bu gün iqti[233-234]sadiyyat haqqında geniş söhbət aparmağa ehtiyac duymuram, hesab edirəm ki, dediyim sözlər bəsdir. Tələb edirəm ki, bu gün irəli sürdüyüm təkliflər əsasında işlər lazımi səviyyədə qurulsun. Bu barədə kimin nə sözü, təklifi varsa, dinləməyə hazıram. Kənd təsərrüfatı naziri qısa məlumat versin ki, aprelin 2-dən indiyədək bu bir ay müddətində kənd təsərrüfatı ilə əlaqədar nə işlər görülübdür və bunlar indi nə vəziyyətdədir.

## YEKUN SÖZÜ

Güman edirəm ki, bugünkü görüşümüz Nazirlər Kabinetinin işinin daha səmərəli təşkil olunmasına kömək edəcəkdir. Bayaq dediyim kimi, bu gün buraya aparatın şöbə rəhbərlərini dəvət etmişəm. Onların işindən çox şey asılıdır. Əgər normal işləsələr, çox şeyləri tez həll etmək olar. Biz Nazirlər Kabinetinin işindəki bürokratiyadan danışırıqsa, bunun birinci günahkarları Nazirlər Kabinetinin şöbələridir. Ona görə də şöbələr özləri üçün ciddi nəticə çıxarmalıdırlar.

Nazirlər Kabineti ilə mənim aparatım arasındakı əlaqələr daha sıx olmalıdır. Bizim aparatdakı müəyyən strukturlar Nazirlər Kabineti ilə sıx əlaqə saxlamalıdırlar.

Sözümün sonunda vurğulamaq istəyirəm: bütün bu tədbirlər yalnız və yalnız cari, mövcud vəziyyətdə işimizi daha da yaxşılaşdırmaq üçündür. Ancaq işimizdə, iqtisadiyyatda böyük dönüş yaratmaq, yüksək nəticələr əldə etmək üçün strateji yolumuz islahatlar yoludur, iqtisadi islahatlar yoludur. Bunların da əsas istiqamətləri məlumdur, qanunlar, proqramlar qəbul olunubdur, onları həyata keçirmək lazımdır.

İqtisadi islahatları həyata keçirib Azərbaycanda bazar iqtisadiyyatını bərqərar etsək və onun normal fəaliyyəti üçün lazım olan şəraiti, qanun-qaydaları yarada bilsək, hesab edirəm ki, Azərbaycanın iqtisadiyyatında qısa müddətdə böyük dəyişikliklər olacaqdır. Azərbaycanın böyük iqtisadi potensialı var və indiki zamanda bunu yalnız və yalnız iqtisadi islahatları həyata keçirməklə işə salmaq mümkün olacaqdır. Görürsünüz, kənd təsərrüfatı naziri deyir ki, kənddə mal-qaranın paylanması ət problemimizi həll edibdir. Mənə hamı məlumat verir ki, indi bazarlarda ət problemi yoxdur, qiymət də qalxmır. Oradan-buradan çoxları qorxudurdu ki, bunu eləsəniz qiymət belə qalxacaq, onu eləsəniz belə qalxacaq, manatın dəyəri [234-235] belə düşəcək, elə düşəcəkdir. Ancaq biz tutduğumuz yolla gedirik və nəticələri də görürük. Ola bilər, bunlar kiçik

nəticələr olsun, lakin onu göstərir ki, tutduğumuz yol bizi böyük nəticələrə gətirib çıxaracaqdır. Bunu etmək lazımdır.

Ona görə sizi bir də dəvət edirəm ki, köhnə əhval-ruhiyyədən uzaqlaşın, çəkinin. Sizi köhnə stulunuza bağlayan telləri kəsib atın. Bilirəm, bəziləriniz mebeli dəyişdirməyi sevirsiniz. Amma elə mebelə dəyişdirin, eləsində oturun ki, yeni fikirlərlə yaşayasınız. Ona görə də bütün bu dəyişiklikləri etmək lazımdır. Sağ olun. [235-236]

## ŞUŞA VƏ LAÇIN RAYONLARI SAKİNLƏRİNİN BİR QRUPU İLƏ GÖRÜŞDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*6 may 1996-cı il*

Əziz bacılar, qardaşlar!
Hörmətli şuşalılar, laçınlılar!

Bu gün biz buraya Azərbaycan xalqının, respublikamızın həyatında ən faciəli hadisələrdən olan Şuşanın və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dördüncü ildönümü ilə əlaqədar toplaşmışıq. Bu günlər mən bütün şuşalılarla və laçınlılarla görüşmək arzusundayam. Ancaq məlum səbəblərdən bu, mümkün deyil. Ona görə də Şuşa və Laçın rayonlarının nümayəndələri ilə görüşmək üçün mən sizi buraya dəvət etmişəm. Məqsədimiz o faciəli günləri bir daha yad etməkdir. Ona görə yad edirik ki, onlardan lazımi nəticələr çıxarmaq, ibrət dərsi götürmək, Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması sahəsində apardığımız işlərdə, tədbirlərdə Şuşanın və Laçının – Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş bu rayonlarımızın mütləq azad edilməsinin zəruriliyini bir daha bəyan etmək lazımdır. Məqsədimiz bundan ibarətdir.

Məlumdur ki, bu faciəli hadisələr həm Şuşa, həm də Laçın rayonlarının sakinlərini sıxır, kədərləndirir, incidir. Ancaq bu, eyni zamanda bütün xalqımızın ürək ağrısıdır, dərdidir, kədəridir. Çünki Şuşanın, Laçının Azərbaycan torpağı, respublikamız, xalqımız üçün nə qədər əziz, qiymətli olduğunu sübut etməyə ehtiyac yoxdur. Dörd ildir ki, biz bu rayonlardan məhrum olmuşuq. Ona görə də bu dərd çox ağır bir dərddir. Bu dərdi biz hamımız çəkirik. Ancaq bilirəm ki, şuşalılar, laçınlılar daha çox dərd, qəm içindədirlər. Çünki onlar, həm də yerlərindən, yurdlarından didərgin düşdüklərinə görə ağır həyat tərzi keçirirlər. Təəssüf ki, bunlar hamısı həyatımızın reallığıdır. Biz bunlara dözürük, eyni zamanda əminik ki, bütün torpaqlarımız azad ediləcək, o cümlədən Şuşa da, Laçın [236-237] da azad olunacaq, şuşalılar, laçınlılar öz evlərinə, yurdlarına, torpaqlarına qayıdacaqlar. Buna heç şübhə yoxdur. Ancaq ki, bu gün biz bu dərdin, kədərin, faciənin içindəyik. Bu münasibətlə fikirlərimizi bir-birimizlə bölüşdürmək üçün mən buraya dəvət etmişəm. İstərdim ki, əvvəlcə sizi dinləyim, sözlərinizi eşidim. Danışığımız tam sərbəst, səmimi olacaqdır. Heç kəs heç bir şeydən çəkinməsin, utanmasın. Kimin nə sözü, dərdi var desin.

### YEKUN SÖZÜ

Şübhəsiz ki, burada olanların hər birinin ürəyində çoxlu sözləri var və bu sözləri demək istəyir. Bu da təbiidir. Ancaq güman edirəm ki, bu danışıqlar artıq ümumi təsəvvür yaradır. Ona görə də etiraz etmirsinizsə, bu görüşümüzü sona çatdıraq.

Görüşümüzün əvvəlində bildirdim, bir daha demək istəyirəm ki, Şuşa və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin dördüncü ilinin tamam olduğu bir vaxtda bizim həmin hadisələrə daha doğru-düzgün qiymət vermək imkanımız keçən illərə nisbətən daha çoxdur. Bu da lazımdır, zəruridir. Çünki söhbət müstəqil Azərbaycan Respublikasının bütövlüyündən, ölkəmiz, xalqımız üçün müqəddəs olan şəhərlərimizdən, kəndlərimizdən, dağlarımızdan, meşələrimizdən, çaylarımızdan, bulaqlarımızdan, tarixi abidələrimizdən gedir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü başlanandan indiyədək respublikamızın, xalqımızın başına çoxlu bəlalar gəlibdir. Təəssüflər olsun ki, Ermənistanın bu təcavüzkar hərəkətlərinə qarşı vaxtında lazımi tədbirlər görülməyib, ölkəmizin ərazisi qorunmayıb və vətəndaşlarımız çox məhrumiyyətlərə məruz qalıblar, torpaqlarımızın bir qismi işğal olunubdur.

Bilirsiniz, buna heç cür izahat vermək mümkün deyil. Ermənistan ilə Azərbaycan arasında olan hərbi münaqişə Azərbaycanın Dağlıq Qarabağ hissəsinə Ermənistanın torpaq iddiadan başlanıbdır. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. O heç vaxt Ermənistana mənsub olmayıb və ola bilməz. Belə olan halda bu təcavüzkar, qəsbkar niyyətlərə, addımlara qarşı vaxtında lazımi tədbirlər görülməli idi. Təəssüflər olsun, bu tədbirlər görülməyib və müharibə, döyüşlər başlayıbdır. Bu da Azərbaycan xalqını belə bir ağır vəziyyətə gəti[237-238]rib salıbdır. Mən bir də qeyd etmək istəyirəm, təsəvvür etmək mümkün deyil ki, nə üçün Azərbaycan belə bir halda öz ərazisini qoruyub saxlaya bilməyibdir. Nə üçün?

Azərbaycan əraziyə görə də Ermənistandan iki dəfə, bəlkə iki dəfədən də çox böyükdür; əhalisinə görə də – münaqişə başlayan vaxtda da – Ermənistandan iki dəfə böyük olub. Dağlıq Qarabağda isə erməni millətinə mənsub yüz minə qədər Azərbaycan vətəndaşı yaşayıb. Belə olan halda, təsəvvür etmək mümkün deyil, – nə üçün Azərbaycan öz torpaqlarını qorumayıbdır?

Mən həmişə belə fikirdə olmuşam. Azərbaycan prezidenti kimi də bunu dəfələrlə bəyan etmişəm, bu gün də bəyan edirəm ki, biz azərbaycanlılar, Azərbaycan xalqı başqalarının torpağına göz dikməmişik. Baxmayaraq ki, keçmiş dövrlərdə Azərbaycanın torpaqlarının bir qismi cürbəcür hadisələr nəticəsində başqa əllərə keçibdir, o cümlədən indi Ermənistanın sərhədlərinin içərisində olan torpaqların bir hissəsi də dövri-qədimdən Azərbaycan torpağı, Azərbaycan diyarı olubdur: Göyçə mahalı da, Zəngəzur mahalı da, başqaları da.

İllər, əsrlər keçib, cürbəcür hadisələr baş veribdir. Nəhayət, bu əsrin əvvəllərində, yəni 1918-20-ci illərdə Azərbaycanın indiki sərhədləri müəyyən olunubdur. Bu sərhədlər içərisində olan torpaqlan biz doğma torpaqlarımız kimi qorumuşuq və qorumalıyıq. Bu baxımdan, bir halda ki, sərhədlər belə müəyyən olunubdur, Cənubi Qafqazda yaranmış bu sərhədlər çərçivəsində biz başqa ölkələrin, dövlətlərin torpaqlarına göz dikməmişik və bu gün də dikmirik. Ancaq öz torpaqlarımızı qorumalıydıq, saxlamalıydıq və qorumalıyıq. Biz heç zaman razı ola bilmərik ki, torpaqlarımızın hansı bir hissəsi isə başqa bir dövlətin əlinə keçsin. Ona görə də mən hesab edirəm ki, Azərbaycan hökuməti, dövləti bu münaqişə başlayan zamandan anlamalıydı ki, söhbət Ermənistanın Azərbaycana olan torpaq iddiasından gedir və onun qarşısının alınması üçün ciddi və çox səmərəli tədbirlər görülməlidir. Elə tədbirlər ki, bu hadisələrin qarşısını vaxtında alsın, bu hadisələrə cavab versin.

Bunlar olmayıb. 1988-ci ildən başlayan bu proseslər, – indi artıq 8 il tamam olubdur, – bizi belə bir ağır vəziyyətə gətirib çıxarıb. Bu proseslərin gedişində Şuşa və Laçın rayonlarının Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunması respublikamıza, xalqımıza, dövlətimizə bu münaqişə dövründə vurulmuş ən böyük zərbədir. Şuşanın, Laçının Azərbaycan [238-239] üçün nə qədər əhəmiyyətli olduğunu siz yaxşı bilirsiniz, xalqımız da yaxşı bilir. Birincisi, Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik olan böyük mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır.

Ona görə də Şuşa təkcə şuşalılar üçün yox, bütün Azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir. Ona görə də Şuşa bu qiymətinə, Azərbaycan üçün bu qədər mühüm əhəmiyyət kəsb etdiyinə görə xüsusi qorunmalı, saxlanmalı idi.

Şuşanı qurub-yaradanlar Şuşanı qoruyub saxlamaq üçün elə yerdə yaradıblar ki, onu fəth etmək mümkün deyil. Şuşanın məhz o yüksək qayalar başında, Qarabağın ən yüksək yerlərindən birində yaranması da təsadüfi deyil. Bu o demək deyil ki, Şuşanı yaradanlar onu təsadüfi olaraq orada yaradıblar. Yox, onu məhz orada yaradıblar ki, o, bir qalaya çevrilsin və Azərbaycanın dövlətçiliyinə, torpaqlarına sahib olan adamlar orada öz dövlətini, torpağını, xalqını qoruya bilsinlər. Ona görə də Şuşanın mövqeyinin hərbi-strateji əhəmiyyəti var. Buna görə də Şuşanı qoruyub saxlamaq bəlkə də respublikamızın başqa yerlərini erməni təcavüzündən qoruyub saxlamaq-dan asandır. Ancaq bu olmayıbdır.

Şuşa belə böyük tarixə malik olduğuna görə o, daim bütün azərbaycanlıların nəzər-diqqətini cəlb edib, azərbaycanlıların qayğısı altında olubdur, tək şuşalıların, orada yaşayanların, Şuşadan çıxmış adamların yox. Şuşanı dünyanın çox yerində tanıyırlar, sevirlər və Şuşaya böyük hörmət və ehtiram edirlər. Təsadüfi deyil ki, əsrimizin əvvəlində də Şuşaya xüsusi münasibət göstərilmişdi.

Xatirimdədir, mən Şuşanı ziyarət edərkən, – biz o vaxtlar Şuşanın qədim abidələrini bərpa etdik, çoxlu işlər gördük – abidələrin bərpasının vəziyyəti ilə tanış olarkən şəhərin mərkəzindəki bir məscidə gəldim. Orada mənə böyük bir foto göstərdilər. Bu fotoda Nəriman Nərimanovun 20-ci illərdə Şuşaya [239-240] gəlməsi və orada xalqın qarşısında çıxış etməsi təsvir edilmişdi. Mən bunu bilirdim. Ancaq o muzeydə bu fotonun qorunub saxlanması məni çox sevindirdi. Demək istəyirəm ki, Şuşaya daim diqqət və qayğı olubdur. Şuşa Azərbaycanın demək olar ki, böyük bir tarixi abidəsi, eyni zamanda – əgər bunu şeir dili ilə desək, – incisidir.

Mən əvvəllər Azərbaycanda işləyən zaman məhz bu səbəblərə görə o vaxtkı dövlət tərəfindən Şuşaya həmişə daimi qayğı göstərməyə çalışmışdım və biz bu barədə çox işlər gördük. Burada Nizami Bəhmənov qeyd etdi, bizim əsrimizdə Şuşanı 1905-ci ildə də, 1907-ci ildə də, 1920-ci ildə də yandırıb dağıdıblar. Şuşanın başına 1920-ci ildə daha dəhşətli bəlalar gəlib. Ancaq təəssüflər olsun ki, o vaxtdan on illər keçirdisə də, Şuşanın evləri, binalan dağılmış, yanmış vəziyyətdə qalırdı.

Mən ilk dəfə Şuşaya 1967-ci ildə, o vaxt baş vermiş faciəli bir hadisə ilə bağlı getdim. Bilirsiniz ki, o vaxtkı Stepanakertdə 1967-ci ildə böyük bir münaqişə olmuşdu, Dağlıq Qarabağdakı ermənilər ilə azərbaycanlılar arasında qan tökülmüşdü. Çox böyük bir faciə baş vermişdi. O dövrdə Dağlıq Qarabağda olan bəzi quldurlar, Azərbaycan xalqına düşmən münasibəti bəsləyən adamlar həbsdə olan iki-üç nəfər azərbaycanlını aparan dustaq maşınını dağıdıb yandırmışdılar. O vaxt biz bunun səbəblərini araşdırdıq. Onda mən on beş gün orada qaldım və Şuşanı ətraflı gəzdim, baxdım və gördüm.

O vaxt mən hələ Azərbaycanın birinci rəhbəri deyildim, ancaq rəhbər vəzifədə idim. Şuşanı gördüm, onu ətraflı öyrəndim. Bu fikrə gəldim ki, Şuşanı belə vəziyyətdə saxlamaq olmaz. Ona görə də o zaman gəlib Azərbaycanın rəhbərlərinə öz fikrimi dedim. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra mən Şuşanı abadlaşdırmaq, 1920-ci ildə bu şəhərin başına gəlmiş hadisələrin izlərini tamamilə ləğv etmək, dağıdılmış,

yandırılmış evləri bərpa etmək, eyni zamanda onun tarixi abidələrini qoruyub saxlamaq, bərpa etmək, Şuşanı böyük bir muzeyə çevirmək üçün ilk addımlar atdım.

Şuşa həqiqətən bir şəhər kimi eyni zamanda vahid bir muzey – Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən muzeydir. Şəhər özü həm quruluşu, həm də abidələri, yüksək memarlıq səviyyəsində olan binaları, Cıdır düzü ilə, təbii gözəlliyi ilə böyük bir muzeydir. Ona görə də 70-ci illərdə Şuşa şəhərinin inkişaf etdirilməsi üçün biz bir neçə xüsusi qərar qəbul etdik. Mən bu [240-241] müşavirədən əvvəl xahiş etdim, həmin qərarları arxivdən tapıb mənə gətirdilər. Bunlar o vaxt, 70-ci illərin əvvəllərində, ortalarında mənim təşəbbüsümlə qəbul olunmuş, mənim imzaladığım qərarlardır. Nizami Bəhmənov bu barədə dedi, mən də bildirmək istəyirəm ki, o vaxt biz Şuşanın keçmişdə yaradılmış binalarını, abidələrini bərpa etdik, eyni zamanda çox yeni şeylər yaratdıq.

Molla Pənah Vaqif Azərbaycan xalqının fəxri, böyük şairimizdir. Xatirimdədir, 60-cı illərin ortalarında biz Molla Pənah Vaqifin 250 illik yubileyini qeyd etdik. 1967-ci ildə mən Şuşada olarkən Molla Pənah Vaqifin məzarını ziyarət etməyə getdim. Onu əvvəl heç tapa bilmirdilər, sonra mən xahiş etdim, tapdılar, gedib baxdım. Şübhəsiz ki, o məzar Molla Pənah Vaqifə layiq deyildi. Şübhəsiz ki, belə bir böyük şəxsiyyətin qəbrini onun şəxsiyyətinin səviyyəsinə çatdırmaq lazım idi. Mən 70-ci illərdə bu fikrimi həyata keçirməyə çalışdım və buna nail oldum. 1980-1981-ci illərdə Molla Pənah Vaqifin qəbri üzərində böyük bir abidə, türbə tikildi. Bu, çox gözəl memarlıq abidəsi idi. Mən bunu Azərbaycanın həyatında böyük, əlamətdar, tarixi hadisə kimi qəbul edərək oraya nəinki özüm getdim, eyni zamanda Azərbaycanın o vaxtkı elm, mədəniyyət, incəsənət xadimlərinin çoxunu da oraya getməyə dəvət etdim. Biz çox böyük bir dəstə ilə Şuşaya getdik, orada Molla Pənah Vaqifin türbəsini açdıq, nitqlər söyləndi.

Amma təkcə bu deyil. Mən qeyd etdim, orada bir çox tarixi abidələr, məscidlər, başqa binalar bərpa olundu və çox yaxşı vəziyyətə salındı. Eyni zamanda bir çox yeni binalar tikildi. Bizim üçün çox əziz olan Üzeyir Hacıbəyovun ev muzeyi, Bülbülün ev muzeyi və başqa belə muzeylər, abidələr yaradıldı. Bunların hamısı haqqında Nizami Bəhmənov danışdı, ona görə də mən bir daha təkrar etmək istəmirəm. Yeni abidələrin yaradılması, qorunması böyük işlər idi. Yadımdadır, o vaxt Şuşada Azərbaycanın böyük şəxsiyyəti Natəvanın heykəli qoyuldu. Mən onun da açılışında çox böyük sevinclə iştirak etdim. Beləliklə, biz bu abidəni də yaratdıq, keçmişdə Şuşada nə yaranmışdısa, onları təzələdik, bərpa etdik. Eyni zamanda Şuşanı daha da zənginləşdirmək, onun tarixini daha da əyaniləşdirmək üçün çox işlər gördük, yeni binalar tikdik.

Xatirinizdədir, Şuşada böyük bir mehmanxana, çoxmərtə[241-242]bəli yaşayış binaları, ayrı-ayrı inzibati binalar tikildi. Biz o vaxt Şuşanı çox mötəbər bir statusa qaldırdıq. Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi ki, bunun da böyük əhəmiyyəti var idi. Çünki o vaxtlar Sovet İttifaqının çox yerlərindən – vilayətlərindən, şəhərlərindən adamlar buraya istirahətə gəlirdilər. Onlar eyni zamanda Azərbaycanın tarixi, mədəniyyəti, incəsənəti ilə tanış olurdular. Bunlar hamısı o illərdə Şuşanın inkişaf etdirilməsi üçün görülmüş işlərdir. Eyni zamanda bunlar Şuşaya göstərilmiş qayğıdır. Bu qayğı tamamilə təbiidir və belə də olmalıdır. Əgər 1920-ci ildən 1970-ci ilə qədər Şuşada belə işlər görülməmişdisə, şübhəsiz ki, bu, insanların səhvi olmuşdur.

Yeri gəlmişkən mən bir məsələni də demək istəyirəm. Biz burada səmimi söhbət aparırıq. Bir çoxları belə hesab edirlər ki, əgər kim hansı yerdə doğulub-böyüyübsə, o, həmin yeri başqasına nisbətən daha çox sevir. Bu, belə deyil. Ümumiyyətlə, biz Azərbaycanın hər bir yerini doğma Vətən kimi sevməliyik. "Kim haralıdır – oranı sevir" kimi əhval-ruhiyyəni aradan götürmək lazımdır. Vətən hamımız üçün Vətəndir. Vətənin hər bir yeri, hər bir nöqtəsi bizim üçün Vətəndir. Hər bir adam üçün Şuşa da, Laçın da Vətəndir. Bu yerlər təkcə şuşalılar, laçınlılar üçün yox, hamımız üçün Vətəndir. Şəxsən mən belə fikirdəyəm, belə duyğularla yaşamışam və bu gün də belə duyğularla yaşayıram. Ona görə də mən Şuşanı özüm üçün doğma bir yer hesab edirəm. Bu doğmalıq mənim daxili insani hisslərimlə əlaqədardır. Bir də, bir halda ki, mən Azərbaycanda rəhbər olmuşam, demək bu mənim borcum, vəzifəm olub.

Təəssüflə deyirəm ki, məsələn, keçmiş illərdə Azərbaycanın rəhbərliyində Şuşada doğulmuş, böyümüş adamlar, bu. şəhərin qayğısına qalmaq imkanı olan adamlar da olub. İndi mən bunu deyirəm, çünki buna əsasım var. Nədənsə onlar həmin 70-ci illərdə Şuşaya göstərilən qayğını 40-cı, 50-ci, yaxud 60-cı illərdə göstərməyiblər. Bu da həqiqətdir. Çünki hər şey göz qabağındadır ki, Şuşanın inkişafı üçün o illərdə nə olub, sonrakı dövrdə nə olub. Doğrudur, bu, bizim borcumuzdur və şəxsən mən bu barədə söhbət aparıramsa, sadəcə onu demək istəyirəm ki, mən öz borcumu yerinə yetirməyə çalışıram. Bəlkə bundan da artıq etmək mümkün idi. Ancaq mən hesab edirəm ki, Şuşanın inkişafı, abadlaşdırılması, tarixi abidələrinin bərpası üçün görülmüş işlər də çox dəyərlidir.

Bax, bütün bunların hamısına görə də bu gün Şuşanın işğal [242-243] altında qalması qəlbimizi kədərləndirir, sıxır, əzir, incidir. İnanın ki, mənim qəlbimi sizinkindən də çox sıxır. Çünki bir o qədər nəsillər zəhmət çəkib, orada o şəhəri yaradıblar, onu qalaya çeviriblər və mən də buna öz payımı vermişəm. Ona görə də bu, mənim üçün çox sıxıntılıdır, çox əzabvericidir.

Bax, bütün bunlara görə də, – bu gün burada da aşkar oldu, – Şuşanın işğalına imkan verənlər onu sadəcə olaraq hakimiyyət mübarizəsi zamanı qurban veriblər ki, bu dəhşətlidir. Bu fikirlər keçən il məhkəmə

prosesində müəyyən olunub, təsdiq edilibdir. Yəni bunlar yeni fikirlər deyil. Əslində belə fikirləri hər kəs deyə bilər, eyni zamanda onu təsdiq etmək lazımdır. Ancaq gedən istintaq, Ali Məhkəmənin apardığı məhkəmə prosesi və çıxardığı hökm artıq bunu hüquqi nöqteyi-nəzərdən sübut edib ki, Şuşa da, Laçın da o vaxt Azərbaycanda ayrı-ayrı qrupların, dəstələrin, hakimiyyət uğrunda mübarizə aparan insanların mübarizəsinin qurbanı olublar. Bu, bu gün burada deyilən sözlərdən bir daha məlum oldu və təsdiq edildi. Bu həddindən artıq dəhşətlidir.

Şuşa haqqında mən çox danışdım. Ancaq bu o demək deyil ki, Laçın bizə Şuşa kimi qiymətli deyil. Laçın rayonu Azərbaycanın çox gözəl guşələrindən biridir, dağ rayonudur. Onun gözəl insanları, gözəl təbiəti, dağları, meşələri, yamacları var. Laçında 60 minə qədər azərbaycanlı yaşayırdı. Nə qədər nəsillər orada qurublar, yaradıblar. Burada Sultan bəyin adı çəkildi. Doğrudan da o, cəsur bir qəhrəman olub. Amma tək Sultan bəy deyil, orada bir çox nəsillər Laçını yaradıblar, yaşadıblar. Kimsə burada dedi ki, Əbülfəz Elçibəy, yaxud kimsə deyib ki, guya Laçın qəsəbədir, orada az adam yaşayır. Mənim xatirimdədir, 1974-cü ildə biz Laçın şəhərinin 50 illik yubileyini qeyd etdik. O vaxt biz Laçın şəhərinin 50 illiyi münasibətilə böyük bir qərar qəbul etdik və Laçın şəhərinin, rayonunun ümumi inkişaf proqramı da bu qərarla yarandı. Necə ola bilər ki, əgər biz 1974-cü ildə Laçının 50 illik yubileyini qeyd etmişiksə, 1993-cü ildə kimsə desin ki, o, kiçik qəsəbədir və orada az adam yaşayır? Demək, bu sözü deyən heç Azərbaycanı tanımır. Bəs onlar Azərbaycana hakim olmaq iddiası ilə necə yaşayırdılar? Bu, çox dəhşətli bir haldır.

Laçın rayonunun inkişafı üçün o vaxt biz başqa qərarlar da qəbul etmişdik. Xüsusən, dağ rayonlarının inkişafı barədə qərarlar qəbul etmişdik və bu qərar Laçın rayonuna da aid idi. [243-244]

Dağ rayonlarından gənclərin Azərbaycan Respublikasının ali məktəblərinə güzəştlə qəbul olunması haqqında da qərar qəbul etmişdik, bu qərar Laçın rayonuna da aid idi. Laçın rayonunun gəncləri Azərbaycanın ali məktəblərinə güzəştlə qəbul olunurdular.

İndi bəzən deyirlər ki, Laçında yaşayanlar dağ adamlarıdır, yaxud bəzisi deyir ki, çobandır, bəzisi deyir kəndçidir, filandır və s. Kəlbəcərin işğalının ildönümü ilə əlaqədar mən kəlbəcərlilərlə görüşdüm, indi də laçınlılarla görüşürəm. Laçınlılardan alimlər, şairlər, ziyalılar çoxdur. Laçından Azərbaycanın nə qədər görkəmli elm, mədəniyyət, dövlət xadimləri çıxıblar. Ona görə də, bu baxımdan da Laçın rayonu həm təbiətinə, həm də insanlarına görə Azərbaycanın ən dəyərli guşələrindən biridir.

Azərbaycanın müstəqilliyini, ərazisini qorumaq nöqteyi-nəzərindən Laçın rayonu çox böyük strateji əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, 1992-ci ilin may ayında, yəqin ki, ona qədər də ermənilər Azərbaycanın başqa ərazilərini zəbt etmək üçün birinci növbədə məhz Laçınla Şuşanı ələ keçirmək istəyirdilər. Bu, təbiidir. Coğrafiyanı bilən adamlar yəqin ki, bunu dərk edirlər. Çünki Ermənistan Dağlıq Qarabağı daim özünə bağlamaq istəyirdi. Ermənistan ilə Dağlıq Qarabağ arasında isə Laçın rayonu durur və əsas yol da Laçından keçir. Əgər Laçın rayonu varsa, demək, Ermənistan ilə Dağlıq Qarabağ arasında bilavasitə əlaqə yoxdur. Onlar isə bilavasitə əlaqə yaratmaq istəyirdilər və buna 1992-ci ildə nail oldular.

Yenə də deyirəm, Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini qorumaq və Ermənistanın ölkəmizə qarşı torpaq iddiasının qarşısını almaq baxımından Laçın və Şuşa çox böyük strateji əhəmiyyətə malik olan rayonlardır, heç də təsadüfi deyildir ki, Ermənistan silahlı qüvvələri, bizə düşmən olan qüvvələr məhz bu rayonların işğal olunmasına bütün səylərini cəlb ediblər. Mən böyük ürək ağrısı, ürək acısı ilə bir daha deyirəm ki, bu, Azərbaycanın başında duran adamların xəyanətinin, satqınlığının nəticəsidir.

Nə Laçın, nə də Şuşa rayonları fəth oluna bilməzdi. Yenə də tarixə qayıdıram. Keçmişdə Şuşaya nə qədər hücumlar olubdur. O vaxt vahid Azərbaycan dövləti də yox idi. Amma Şuşanı məhz onun tutduğu strateji mövqeyə görə fəth edə bilmədilər. Eləcə də Laçın.

Bugünkü çıxışlar da bunu bir daha təsdiq etdi ki, Şuşa, La[244-245]çın, ancaq və ancaq Azərbaycanın o vaxt rəhbərliyində olan adamlar, həm də onları yıxıb hakimiyyətə özləri gəlmək istəyən adamlar tərəfindən qəsdən erməni işğalçılarına təslim olunub. Çox təəssüflər olsun ki, bu, belədir. Bilirsiniz, ola bilər, bir adam öz məqsədinə nail olmaq üçün kiməsə, hansı bir adamasa qəsd etsin. Bu da cinayətdir, yolverilməzdir, ancaq ola bilər, bu, həmin şəxsə aiddir. Ola bilər, kiminsə bir hərəkəti başqa bir dövlətə zərər verə bilər. Bu da cinayətdir, amma bunun da miqyası var. Ancaq Azərbaycan Respublikası Ermənistanın təcavüzü qarşısında çapaladığı bir zaman, – bu gün Nizami Bəhmənov həmin vaxtlar aybaay, günbəgün hansı kəndin nə vaxt işğal olunduğunu, nə vaxt yandırıldığını, alındığını dedi, – belə bir zamanda sən Şuşanı qəsdən təslim edəsən? O, Şuşa və Şuşanın ətrafında Dağlıq Qarabağın kəndlərinin işğal olunmasından bəhs etdi, – belə bir zamanda sən bir neçə gündən sonra Mütəllibovu hakimiyyətə gətirməkdən ötrü Şuşanı qəsdən təslim edəsən, – bundan artıq cinayət yoxdur.

Bilirsiniz ki, mən o vaxtlar – Şuşa və Laçın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilən zaman Naxçıvanda idim, bütün bunları qəzetlərdən oxuyurdum, bəzi məlumatlara baxırdım. Şübhəsiz ki, bütün bunlar barədə mənim məlumatım da, heç təsəvvürüm də yox idi. Mən 93-cü ildə bura gəldim, işlədim. Laçının və Şuşanın işğalı ilə əlaqədar 1995-ci ildə məhkəmə prosesinə qədər mənim bu barədə məlumatım yox idi. Mən bu məlumatları, məhkəmə prosesindən sonra o məlumatları alanda da hələ inanmırdım ki, yəni bu qədər böyük cinayət etmək olarmı? Xalqına qarşı bu qədər ağır xəyanət etmək olarmı? İnanmaq mümkün deyil. Amma məhkəmə prosesi də, məhkəmənin hökmü də və bu işlərin şahidləri olan sizlərin bu gün burada dedikləri də tam

həqiqətdir. Bəli, hu, belə də olubdur. Bunu Rəhim Qazıyev, Mütəllibov ediblər. Bunu onların tərəfdarları ediblər. Digər tərəfdən, bunu edənlər o vaxt o hakimiyyətdə olanlara müxalifət qüvvələri idi: Xalq Cəbhəsi olubdur, Xalq Cəbhəsinin törəmələri – indi cürbəcür partiyalara yığışıblar – onlar olublar. Bu, həqiqətdir.

Məsələn, burada danışdılar, mən bunu bu qədər təfsilatı ilə bilmirdim ki, Şuşanın müdafiəsində cürbəcür dəstələr, qruplar biri o birisinə tabe olmurmuş: bu, Rəhim Qazıyevin dəstəsidir; bu, o birisinin dəstəsidir; bu, başqasının dəstəsidir – belə müharibə, müdafiə aparmaq olmaz. Bir də ki, Xalq Cəbhəsi döv[245-246]lət deyildi axı, nə üçün gedib özbaşına işlər görürdü? Ən dəhşətlisi odur ki, gedib orada şəhəri müdafiə edə bilməyiblər.

Şuşa işğal olunub və bundan sonra Mütəllibov hakimiyyətə gəlib, qaçıb gedib və nəhayət, bundan sonra Rəhim Qazıyev hakimiyyəti ələ almaq üçün, – burada siz də dediniz, – öz hərbi dəstələrini oradan çıxarıb gətirib. Xalq Cəbhəsi də öz hərbi dəstələrini oradan çıxarıb Azərbaycanın bu meydanlarına, Prezident sarayının, parlamentin, Ali Sovetin önünə gətirib ki, bəli, burada mübarizə aparsınlar, hakimiyyəti silahla ələ alsınlar. Bu, belə də olubdur. Mən vaxtilə bunların hamısını televiziya vasitəsilə görmüşəm. Ali Sovetin qabağındakı mitinqlərə Rəhim Qazıyev öz dəstəsi ilə o tərəfdən gəlirdi, İsa Qəmbər bu biri tərəfdən gəlirdi, Əbülfəz Elçibəy bu tərəfdən gəlirdi, Etibar Məmmədov öz dəstəsi ilə gəlirdi, o birisi burdan gəlirdi. Hərəsi bir dəstə ilə mitinq edirdi.

Dəhşətli hal budur ki, – mən belə başa düşdüm, – demək, mayın 8-də Şuşa işğal edilib, Azərbaycana rəhbərlik edən adamların isə bundan xəbəri olmayıb. Deyirlər mayın 9-da Yaqub Məmmədov Ağdama gəlib ki, xəbərim yoxdur. Burada Şuşanı işğala verəndən sonra Rəhim Qazıyev qaçıb gedib oturub Daşkənddə ki, Azərbaycanın başçısı olmaq üçün danışıq aparsın. O vaxt burada qarışıq düşüb, ondan sonra qayıdıb bura. O, yenə də öz niyyətlərinə çatmaq üçün qoşunları çıxarıb və – siz də dediniz, – mayın 18-də Laçın işğal olunubdur. Ayın 18-də burada, – xatirinizdədir, onu da o vaxt televiziyada verirdilər, – kimin Ali Sovetin sədri olması uğrunda mübarizə gedirdi. Nəhayət, İsa Qəmbərovu seçdilər ki, o, Ali Sovetin sədri olsun. Orada torpaq, Laçın kimi rayon əldən gedir, – Laçın demək olar ki, Azərbaycanın alaqapısıdır, böyük qapısıdır. Əgər o, əldən gedibsə, demək, qapı açıldı, demək, Ermənistan Azərbaycana nə qədər silahlı qüvvə istəsə gətirə bilər, – ora əldən gedir, onlar isə bunu unudub, burada meydanda, yaxud da ki, Ali Sovetin binasında bir-birinin üstünə silah çəkdilər, hakimiyyəti ələ aldılar.

Kimlər? Hakimiyyəti saxlamağa, dövləti idarə etməyə heç bir səriştəsi, heç bir mənəvi haqqı, heç bir bacarığı, heç bir qabiliyyəti olmayan adamlar. Bilirsiniz, Azərbaycanın faciəsi təkcə ondan ibarət deyil ki, respublikamız Ermənistan tərəfindən təcavüzə məruz qalıbdır və bu təcavüzün qarşısını ala bilməyibdir. Azərbaycanın ən böyük faciəsi ondan ibarətdir ki, küçədə gəzən ayrı-ayrı adamlar, xalqımızın qarşısında heç bir [246-247] xidməti olmayan, bacarığı, səriştəsi olmayan adamlar şəxsi məqsədlər güdərək, bu fürsətdən istifadə edib Azərbaycanda hakimiyyəti əllərinə keçiriblər. Bu, dəhşətlidir. Xəyanət edib, satqınlıq edib vəzifə tutanlar bu vəzifəm heç vaxt əldə saxlaya bilməzlər. Allah buna yol verməz, yol verməməlidir.

Əgər bu qədər qurbanlar, bu qədər qanlar, xəyanətlər nəticəsində siz hakimiyyətə gəldinizsə, bəs onu saxlayaydınız da, nə üçün saxlaya bilmədiniz? Əgər gücünüz yoxdursa, hakimiyyətə nə üçün can atırdınız? Hakimiyyətə gəlmək istəyən adam gərək ölçsün-biçsin ki, onun gücü nədir, imkanı, bacarığı nədir, Azərbaycan belə bir müharibə şəraitində olduğu zaman o bunu edə bilər, yoxsa yox? Onlara nə Azərbaycan lazım idi, nə millət lazım idi, nə torpaq lazım idi. Sadəcə olaraq onlara bu vəzifələri gəlib tutub, Azərbaycanın varını, dövlətini dağıdıb, öz şəxsi məqsədlərinə nail olmaq lazım idi.

Bir dəstə – Mütəllibovun dəstəsi satqınlıq edib Azərbaycana bu qədər zərbələr vurubdur, indi qaçıb gedib dörd ildir Moskvada oturubdur ki, guya yenidən Azərbaycanda hansısa bir hakimiyyəti ələ keçirmək istəyir. O biri dəstə öz şəxsi mənafelərinə nail olmaq üçün guya müxalifətdə olub, gəlib hakimiyyəti əllərində saxlaya bilmədi, 1993-cü ildə respublikanı vətəndaş müharibəsi vəziyyətinə gətirib çıxardı. Qaçdılar, dağıldılar, indi də keçiblər müxalifətə, qəzetdə gündə bir şey yazırlar. Müxalifət olublar. Əgər siz hakimiyyətdə olduğunuz zaman Azərbaycana belə zərbələr vurmusunuzsa, nə müxalifətdə ola bilərsiniz? Siz müxalifətdə olduğunuz zaman Azərbaycan torpaqlarının işğal edilməsinin səbəbkarısınız. Sizin nə haqqınız var? Onların heç birisinin – nə Moskvada gizlənənlərin, nə Kələkidə gizlənənlərin, nə hakimiyyətdə olub, sonra qaçıb, indi özlərini müxalifət hesab edənlərin heç birisinin gəlib Azərbaycanda vəzifə almağa, hakimiyyətə gəlməyə heç bir mənəvi haqları yoxdur. Onların hamısı etdikləri günah, xəyanətlər, cinayətlər üçün Azərbaycan xalqı qarşısında cavab verməlidirlər.

Bəzilərinin cinayəti artıq sübut olunubdur. Amma bəzilərinin cinayəti sübut olunmayıbsa, bu o demək deyil ki, onlar ı inayət, xəyanət etməyiblər. Bugünkü danışıqlar da tam aydınlıq yaratdı. Siz də bu işlərin şahidisiniz, bu prosesləri öz gözlərinizlə görmüsünüz, – onlar cinayət ediblər. Ona görə də bunlar hamısı tək sizi yox, bütün xalqımızı, millətimizi incidir. İndi hamımızın dərdi, fikri ondan ibarətdir ki, işğal olunmuş tor[247-248]paqlarımız azad edilsin, Azərbaycanın ərazi bütövlüyü təmin olunsun. Bu baxımdan, mən yenə də deyirəm, Şuşanın, Laçının işğalı görün Azərbaycana nə qədər böyük zərbələr vurubdur. Şuşanın və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğalı Azərbaycanın başqa bölgələrinin işğal olunması üçün qapı, yol açıbdır və onlar üçün böyük imkanlar yaradıbdır.

Bilirsiniz ki, biz 1994-cü il mayın 12-də atəşin dayandırılması haqqında Ermənistan ilə saziş əldə etmişik. Bir neçə gündən sonra iki il tamam olacaqdır ki, atəş yoxdur. Biz atəşkəs rejimi şəraitində yaşayırıq, müharibə getmir. Mən bu gün hesab edirəm ki, 1993-1994-cü illərdə yaranmış vəziyyətə görə bizim bu atəşkəs sazişini imzalamağımız doğru-düzgün addım olubdur. Ötən iki il bu addımımızın, qərarımızın nə qədər doğru olduğunu sübut edib. Biz bu müddət ərzində çalışmışıq və çalışırıq ki, Ermənistan ilə Azərbaycan arasındakı münaqişəni sülh yolu ilə həll edək. Cürbəcür səviyyələrdə danışıqlar gedir. Sizin bu barədə televiziya, qəzetlər vasitəsilə məlumatlarınız var. Güman edirəm ki, əlavə məlumata ehtiyac yoxdur. Çünki mənim apardığım bütün danışıqlar, eyni zamanda mənim tapşırığımla müşavirimin, yaxud Xarici İşlər Nazirliyinin, başqa şəxslərin apardıqları danışıqların hamısı radio, televiziya və mətbuat vasitəsilə ictimaiyyətə çatır.

Ermənistanla aparılan danışıqlarda son nəticəyə gələ bilmirik. Nə üçün? Şuşa, Laçın məsələsi bizi irəli getməyə qoymur. İndi görün Şuşa, Laçın Ermənistan üçün, təcavüzkar qüvvələr üçün nə qədər lazımdır. Mən bunu demişəm, sizə də açıq deyirəm, bu il aprelin 21-də Lüksemburqda olarkən mən gecə yarısı Ermənistan prezidenti Ter-Petrosyanla görüşüb ətraflı söhbət etdim. Biz bu məsələni necə həll etməyi yenə də götür-qoy etdik. Onlar işğal etdikləri ərazilərdən, rayonlardan, – şübhəsiz ki, Dağlıq Qarabağdan başqa, – çəkilməyə etiraz etmirlər. Amma Laçın rayonundan çəkilmək istəmirlər. Çünki hesab edirlər ki, Laçın rayonu onlar üçün çox həyati əhəmiyyət kəsb edir. Əgər Laçın rayonundan çəkilsələr onların Dağlıq Qarabağla əlaqələri pozulacaqdır. Şuşa rayonundan isə ona görə çəkilmək istəmirlər ki, onlar hesab edirlər ki, Şuşa rayonu keçmiş inzibati bölgüyə görə Dağlıq Qarabağın tərkibindədir. Ona görə də əgər onlar Dağlıq Qarabağda qalırlarsa, demək Şuşadan da çəkilmirlər. [248-249] Bax, bu iki məsələ danışıqlarımızın irəli getməsinə imkan vermir.

Biz imzalayacağımız sazişə "Ermənistan silahlı qüvvələri işğal olunmuş bütün rayonlardan, o cümlədən Laçın və Şuşadan çıxmalıdırlar" sözlərinin yazılmasını tələb edirik. Onlar isə deyirlər ki, o biri rayonlardan silahlı qüvvələri çıxarmağa hazırıdırlar, ancaq Laçın və Şuşa rayonlarından yox. Orada cürbəcür variantlar var, biz onları müzakirə edirik. Sizin vaxtınızı alıb bunları demək istəmirəm. Onlar bir variant təklif edirlər, biz bir variant təklif edirik. Hər halda məsələ bu yerdə dayanıbdır.

Sizə deyə bilərəm ki, bəzi dairələr, qüvvələr, o cümlədən mənim ətrafımda olanların da bəziləri dəfələrlə mənə deyiblər ki, axı siz niyə belə inadkarlıq edirsiniz, – bəzi xarici ölkələrin başçıları da bunu mənə deyiblər, – bir halda ki, birdən-birə altı rayon azad olunacaq, bu rayonlardan olan qaçqınlar öz yerlərinə qayıdacaqlar. İndi məsələ bununla qurtarmır. Biz Dağlıq Qarabağa da status söz vermişik. Onlar deyirlər ki, Laçınla Şuşa məsələsi Dağlıq Qarabağın statusu müzakirə edilən vaxt müzakirə olunsun. Siz niyə buna razılıq vermirsiniz, inadkarlıq edirsiniz – bəziləri bunları mənə deyirlər. Deyirlər ki, bu məsələni mərhələ-mərhələ həll etmək olar. Məsələn, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları azad olunacaq, bu rayonların vətəndaşları, sakinləri öz yerlərinə qayıdacaq, bunun özü müəyyən mühit yaradacaq. Ermənistan tərəfi də bunu deyir ki, bu, müəyyən mühit yaradacaqdır, yəni bir-birinə inam artacaq, ziddiyyət aradan götürüləcək və sair. Deyirlər, ikinci mərhələdə Dağlıq Qarabağa hansı status verilərsə, Laçın və Şuşa məsələsi .onda müzakirə edilsin.

Mən bununla razı olmuram. İndi görün Şuşa və Laçın nə qədər əhəmiyyətlidir və nə qədər əzizdir. Güman edirəm, siz ə mənim fikrimlə razısınız. Bunları sizə çatdırmaqda məqsədim odur ki, siz vəziyyətin nə yerdə olduğunu biləsiniz. İkincisi də, yenə deyirəm, görün əgər Şuşa və Laçın əldən getməsəydi, bu məsələlərin həlli nə qədər asan olardı.

Burada çıxış edənlərin hamısı bildirdi ki, siz mənə çox böyük ümidlər bəsləyirsiniz, inanırsınız. İnanırsınız ki, mən bu məsələni həll edə bilərəm. Siz də bilirsiniz ki, əgər bu məsuliyyəti mən öz üzərimə götürmüşəmsə, həyatımı, canımı, – nəyim varsa hamısını buna həsr edirəm ki, Azərbaycanı bu bəladan çıxarım. Bu, mənim həyatımın məqsədidir. Bu barə[249-250]də mənə müraciət etmək lazım deyil. Əgər bu məqsədi qarşıma qoymasaydım, 1993-cü ildə Bakıya qayıtmağa razılıq verməzdim.

İndi burada o-bu mübarizə edir ki, hakimiyyətə gəlsin. Bilirsiniz ki, o vaxt gedib oturmuşdum Naxçıvanda və heç yenidən Azərbaycanda vəzifə tutmaq məqsədim də yox idi. İndi də deyirsiniz ki, mən o vaxt, bu vaxt gəlsəydim yaxşı olardı, siz o vaxt, bu vaxt müraciət edirdiniz. Bu, sizin fikrinizdir. Amma axı, mənim fikrim belə deyildi. Mənim fikrim doğulduğum yerdə daim yaşamaq və yenidən Azərbaycana rəhbərliyə qayıtmamaq idi. Mənim qəti fikrim belə idi.

1993-cü ildə vətəndaş müharibəsi başlayanda mənə nə qədər müraciətlər oldu. Mən elə o dəqiqə durub gəlmədim. Mənə bir neçə gün müraciətlər oldu, məni buraya gətirmək üçün bir neçə gün təyyarələr gəldi. Razılıq vermirdim. Mən buraya gələndən sonra da razılıq vermirdim. Bakıya gəldim, bundan bir həftə sonra razılıq verdim. Buraya gəlmək üçün mənimlə beş-altı gün danışıq aparıldı. Respublikanın vəziyyətinin çox gərgin olduğunu görəndən sonra razılıq verdim. Dedim ki, indi xalq necə, mən də elə. Dedim ki, əgər xalq ağır vəziyyətə düşəcəksə, mən də bu ağır vəziyyətin içində olmalıyam. Ona görə də razılıq verdim.

Yəni demək istəyirəm ki, bu, heç də mənim arzum-istəyim olmayıbdır. Çünki mən hesab edərdim ki, keçmişdə Azərbaycan xalqı qarşısında nə xidmət etmişəm-etmişəm. Yetər. Ancaq bir halda ki, bu məsuliyyəti öz üzərimə götürmüşəm, demək, dərk edərək götürmüşəm ki, qarşımda duran məsələ budur, bunu həll etmək lazımdır. Siz əmin ola bilərsiniz ki, mən bunları həll etmək üçün bütün imkanlarımı sərf edirəm. Amma bax,

bunların həll olunmasında da bir nöqtə var, gəlib orada dayanırıq. Bu danışıqlarda Nizami Bəhmənov iştirak edib, o, bunları bilir. Ermənilər də bu nöqtədən çəkilmirlər, biz də çəkilmirik.

Yenə də təkrar edirəm, görün Şuşanın və Laçının Ermənistan silahlı qüvvələrinə təhvil verilməsi bizim üçün nə qədər böyük itkidir, zərbədir və bu, məsələnin həllinə nə qədər böyük çətinliklər yaradıb. Görün bu rayonlar bizim üçün nə qədər əzizdir ki, biz başqa rayonların azad olunmasını bu iki rayonun azad edilməsi üçün saxlayırıq ki, hamısı birdən azad olunsun. Güman edirəm, bax, bunların hamısı şəxsən mənim [250-251] Şuşa, Laçın probleminə olan münasibətimi, səylərimi tam əyani surətdə göstərir.

Mən şübhə etmirəm ki, bu illərdə, düşdüyü bu ağır vəziyyətdə Azərbaycana xəyanət etmiş adamların hamısı öz cəzasını alacaqdır. Ancaq bu bizə heç bir şey verməyəcəkdir: kimsə cəzalandı, həbs olundu, həbsxanada yatdı – bununla bizim torpaqlarımız azad olmur. Yəni demək istəyirəm ki, onlar nə qədər böyük cəzalar alsalar da, bu, Azərbaycana dəyən zərbələrin müqabili deyil. Bu, bizim o yaralarımızı sağaltmır. Dəyən zərbələrdən bizi xilas etməyibdir. Ona görə də görün bu xəyanətin Azərbaycana vurduğu zərbələr nə qədər ağırdır, dərindir.

Bütün bu xainlər, cinayətkarlar öz cəzalarım alacaqlar. Hesab edirəm ki, Şuşanın və Laçının Ermənistan silahlı qüvvələrinə təslim olunmasında günahkarlar və ümumiyyətlə, o vaxtkı siyasi proseslərdə xəyanət edənlər üçün gərək məhkəmə cəzasından savayı ümumxalq hökmü çıxarılsın. Məhkəmə hökmü müəyyən bir hüquq çərçivəsindədir. Amma Azərbaycan xalqının, Şuşa, Laçın əhalisinin ümumxalq hökmü lazımdır. Güman edirəm ki, siz bu barədə düşünməlisiniz. O canilərə, xəyanətkarlara qarşı ümumxalq, ümumvətəndaş hökmü çıxarılmalıdır. Nə üçün? Ona görə yox ki, onlar indi cəza çəksinlər. Ona görə ki, ibrət götürsünlər, bunlar daha təkrar olunmasın.

Şuşadan burada çıxış edən dostumuz bir neçə dəfə təkrar etdi ki, niyə bizim xalqımız belədir. Mən məcbur oldum ona deyəm ki, bu, xalqımız deyil, bu, xalqın içindən çıxan ayrı-ayrı adamlardır. Ancaq bunlar var, bunlar keçmişdə də, bu son illərdə də olubdur, bu gün də var. Bunlar sayca az olsalar da, Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti üçün çox təhlükəlidirlər. Əgər onlar bu gün o qədər təhlükəli deyillərsə, gələcək üçün təhlükəlidirlər. Siz bunu bilməlisiniz.

Bilirsiniz, bu dövləti əldə saxlamaq üçün, indi siz özünüz də dediniz ki, vaxtilə səriştəli rəhbərlər olmayıb, Azərbaycan belə vəziyyətə düşübdür. Ancaq indi siz gələcəyə də baxmalısınız. Azərbaycan gələcəkdə kimlərin əlində olacaq? Əgər doğrudan da səriştəli adamların əlində olsa, bu, şübhəsiz, təhlükəli deyil. Amma bəlkə bu, belə olmadı, onda nə olacaq? Azərbaycanın gələcəyi haqqında düşünməliyik.

Ona görə də mən ümumxalq hökmü, bu cəzalar haqqında danışanda, yalnız və yalnız hər bir adamın bu hadisələrdən ibrət dərsi alması üçün deyirəm, hər bir adamın özü üçün nəticə [251-252] çıxarması üçün deyirəm. Güman edirəm və çox istərdim ki, həmin adamlar bugünkü görüşümüzdən də nəticə çıxarsınlar. Bilsinlər ki, o yolla ki, onlar gediblər – bəziləri indi də o yolla gedirlər – bu yol onlara heç vaxt uğur gətirməyəcəkdir. Onlar müvəqqəti olaraq nə vaxtsa nə isə edirlər. Bəli, etdilər. Mütəllibov da orada müvəqqəti bir şey etdi, o biriləri də, ondan sonra gələnlər də etdilər, amma bunun axın olmadı. Əksinə, onlar xain olduqlarını, xalqın mənafeyinə qəsd etdiklərini nümayiş etdirdilər. Buna baxmayaraq, mən hesab edirəm ki, onlar da nəticə çıxarmalıdırlar, düz yola gəlməlidirlər və hamı düz yola gəlməlidir. Bax, buna görə də mən deyirəm ki, bu məsələlərə dair ümumxalq hökmü lazımdır.

Burada çıxış edənlərin hamısı bir ümumi sözü də dedilər ki, əgər bu sülh danışıqları bir nəticə verməsə biz gedib öz torpaqlarımızı azad etməyə hazırıq. Doğru fikirdir. Mən də belə fikirdəyəm. Mən tamamilə sizinlə razıyam. Biz nə qədər mümkündürsə, bu məsələnin sülh yolu ilə həll olunmasına çalışacağıq. Buna əmin ola bilərsiniz.

Ancaq eyni zamanda bilmək lazımdır ki, biz heç vaxt razı ola bilmərik ki, torpaqlarımız uzun müddət Ermənistan silahlı qüvvələrinin işğalı altında qalsın. Buna razı ola bilmərik. Müəyyən bir hədd var, əgər bu həddə qədər biz bu məsələni sülh yolu ilə həll etməyə nail ola bilməsək, şübhəsiz ki, bütün vasitələrdən istifadə etməliyik. Buna görə də şuşalılar da, laçınlılar da, ağdamlılar da, füzulililər də, cəbrayıllılar da, kəlbəcərlilər də, zəngilanlılar da, qubadlılılar da, tək onlar yox, Azərbaycanın bütün vətəndaşları, gənclərimiz bilməlidirlər ki, öz torpağını müdafiə etmək, öz torpağını işğalçılardan azad etmək üçün hər kəs gərək hazır olsun. Sözlə yox. Həmin o adamlar sözlə gördünüz nə etdilər? Siz deyirsiniz ki, həmin adamlar gəlib Şuşaya yığışmışdılar. Niyə gəlib yığışmışdılar? Çünki Şuşa elə bir yer idi ki, orada hərə özünə bir siyasi məqsəd əldə etmək istəyirdi. Rəhim Qazıyev də, Arif Hacıyev də, Xalq Cəbhəsindən başqaları da oraya gəliblər, Etibar Məmmədov da, o birisi də oraya gəlibdir. Nəyə gəliblər? Gəlib nə ediblər? Gəliblər, iki gündən, Şuşa işğal olunandan sonra biri Rusiyaya, biri Daşkəndə, biri Türkiyəyə gedib. Yaxşı, nəyə gedirdin? Burada sənin torpağın işğal olunubdur, sən çalış bunu geri qaytar. Biri ora uçur, biri bura uçur. Nəyə gedirsiniz?

Ona görə də bu işlər sözlə yox, – sözlər çox eşidilib, – [252-253] əməli işlə görülməlidir. Mən başa düşürəm, indi burada ağsaqqallarımız çıxış edirlər ki, biz gedib vuruşa, döyüşə bilərik. Bəli, onlar da gedə bilərlər, ancaq bununçün gənc qüvvələrimiz lazımdır. İndi ordumuz qurulub, qurulur, – müdafiə naziri buradadır, – ancaq sizin adamlardan nə qədəri orduda xidmət edir, onlar necə xidmət edirlər, hazırlaşırlar. Bunu düşünmək lazımdır.

Tək buna görə yox. Biz müstəqil bir dövlətik. Müstəqil dövlətin müstəqilliyini qorumaq üçün yetərli qədər ordusu olmalıdır və bu ordu da yüksək səviyyədə olmalıdır. Ona görə də ordu quruculuğu ilə biz nə qədər məşğul oluruqsa, gərək siz də o qədər məşğul olasınız. Hər bir gənc orduda xidmət etməlidir, hazırlaşmalıdır, hərbi peşəni mənimsəməlidir, silahdan istifadə etməyi bilməlidir. Əgər bir hadisə baş versə, gərək elə olmasın ki, səriştəli adamımız yoxdur. Bizim əsgərimiz də, zabitimiz də, generalımız da olmalıdır. Hamısı olmalıdır.

Şübhəsiz ki, bu, Müdafiə Nazirliyinin işidir. Amma bu, eyni zamanda sizin, bütün xalqın işidir. Ordu xalqın ordusudur. Ordu xalqın gənclərindən yaranır. Ona görə də mən sizin fikrinizlə razıyam. Biz bu barədə həmfikirik. Amma bu fikri reallaşdırmaq üçün mən də, siz də, hamımız bundan sonra daha çox səylər qoymalıyıq.

Sizin məskunlaşdığınız yerlər çoxdur. Şübhəsiz ki, hamını bir yerə yığmaq mümkün deyil, bəlkə bu, heç lazım da deyil. Burada müəllimə çıxış etdi, mənim çox xoşuma gəldi. Biz buna da şərait yaradırıq ki, məsələn, Şuşadan olan uşaqlar Şuşa məktəbinə getsinlər. Müəllimə dedi ki, assimilyasiya olmasınlar, mən bu fikirlə razıyam. Yəni, şuşalılar, laçınlılar, yaxud da ki, zəngilanlılar, ağdamlılar Azərbaycan xalqının içərisində əriyib bir-birinə qatışmasınlar. Mən bununla demək istəmirəm ki, onların arasına sərhəd qoymaq lazımdır, yox. Bilirsiniz, torpağa, Vətənə, əcdadlarımızın yurduna bağlılıq məsələsi var.

Məsələn, Laçın rayonundan nə qədər adamlar Bakıya, Azərbaycanın başqa şəhərlərinə gəliblər, təhsil alıblar, böyük elm, mədəniyyət xadimləri olublar. Şuşadan həm elm, həm mədəniyyət, dövlət adamlarımız daha çoxdur. Bu da təbiidir. Azərbaycan tək Bakı demək deyil. Bakı bütün Azərbaycandır. Heç kəs hesab etməsin ki, Bakı elə bir Bakıdır. Əgər Bakı paytaxtdırsa, demək, o, Azərbaycandır. Demək, orada hər kəsin öz yeri var, hər kəs də gəlib burada yaşaya, işləyə bilər, [253-254] fəaliyyətini, istedadını göstərə bilər. Ancaq eyni zamanda biz o torpaqlarımızı da boş qoya bilmərik. Hamımız bir yerə yığışmamalıyıq. Ona görə də şuşalı gərək daim düşünsün ki, o Şuşaya qayıdacaq, qayıdıb öz evini bərpa edəcək, yaşayacaq, Şuşanın mənzərəsindən həzz alacaq, atasının, babasının qəbrinin üstünə gedəcək – təkcə bir dəfə ziyarətə getməyəcək, daim gedəcək. Bunu laçınlı da, o birisi də bilməlidir.

İşğal olunmuş torpaqlardan didərgin düşmüş vətəndaşlarımız məskunlaşdıqları yerlərdə öz rayonlarının ənənələrini daim qoruyub saxlamalıdırlar. Ona görə də bu rayonların bütün dövlət orqanları – icra orqanı da, polis, prokuror, hərbi komissarlıq orqanı da var. Bunlar mütləq olacaqdır. Baxmayaraq ki, siz, məsələn, 40, 50, yaxud 60 məntəqədə məskunlaşmısınız. Gərək, bir-birinizlə bağlılığı həmişə saxlayasınız. Gərək öz torpağınızı, evinizi unutmağa heç vaxt yol verməyəsiniz. Qayıdarsınız, gedərsiniz, öz evinizi bərpa edərsiniz, komanızı düzəldərsiniz, bundan sonra ya özünüz, yaxud uşaqlarınız gələr, yenə də Bakıda oxuyar, təhsil alar, böyük işə keçər. Bu, təbiidir. İndiyə qədər olduğu kimi elə də olmalıdır. Güman edirəm siz, məni anlayırsınız.

Bax, mən bunu bəyəndim ki, bəli, Şuşanın da öz məktəbi var. Qoy olsun. O demək deyil ki, mən şuşalıları bakılılardan ayırmaq istəyirəm, yox. Amma öz məktəbi olsun. Öz məktəbi olanda o, Şuşa haqqında daha çox düşünəcək. Bilirsiniz, Vətən hissi haradan başlayır? Adamın öz evindən, öz anasından, atasından başlayır. Elədirmi? Vətən insanın öz torpağından başlayır. Bəzisi var ki, elə onu Vətən hesab edir, amma əksəriyyəti həm onu, həm də ümumi Vətəni Vətən hesab edir. Məsələn, mən bu gün dedim ki, Azərbaycanın hər bir yeri, nöqtəsi, guşəsi hər birimiz üçün – sizin üçün də, mənim üçün də Vətəndir. Belə də olmalıdır. Amma eyni zamanda, bir yer var ki, biz oranı qorumalı, saxlamalıyıq, – o, bizim üçün xüsusi vətəndir: Şuşa da, Laçın da, Ağdam da, Füzuli də, Zəngilan da və sair. Bu, çox mühümdür.

Mən icra hakimiyyəti başçılarına demişəm, bu gün də deyirəm. Şübhəsiz ki, bu rayonlardan, – biz bu gün xüsusən Şuşa və Laçın rayonlarından söhbət açdıq, – gəlib Azərbaycanın müxtəlif yerlərində məskunlaşmış adamların hamısına qayğı göstərmək, kömək etmək lazımdır. Qərar qəbul edilməsi, ayrı-ayrı vəsaitlərin ayrılması nöqteyi-nəzərindən nə mümkündür mən edirəm. Mən İzzət Rüstəmovu baş nazirin müavini təyin [254-255] etmişəm ki, qaçqınların işi, humanitar yardımların alınması, gətirilməsi, toplanması işləri ilə məşğul olsun. Bəli, mən bu iş üçün xüsusi vəzifə təsis etmişəm. Onun da oğlu şəhid olub. Şəhid atası İzzət Rüstəmovu vəzifəyə təyin etmişəm, ona görə ki, o, sizin dərdinizi başqalarından yaxşı başa düşər. Yəni iz öz tərəfimizdən nə lazımdırsa edirik, amma gərək siz də öz tərəfinizdən lazımi tədbirlər görəsiniz.

Mənə çoxlu siqnallar gəlir ki, xaricdən göndərilən humanitar yardımlar qaçqınların bəzilərinə çatmır. Bəzi yerlərdə bunlardan sui-istifadə edirlər, oğurlayırlar, dağıdırlar, səhlənkarlıq edirlər. Mən İzzət Rüstəmova da, Prezident Aparatına da göstəriş vermişəm ki, bu məsələlərlə ciddi məşğul olsunlar, ona nəzarət etsinlər. Amma əgər sizin özünüz bu işləri yaxşı təşkil etsəniz, vallah, heç bir başqa nəzarət lazım deyil.

Mən bu gün bir daha deyirəm, – Şuşa, Laçın rayonlarından da, işğal olunmuş başqa rayonlardan da harada bizim vətəndaşlarımız məskunlaşıblarsa onlara xüsusi qayğı, diqqət göstərilməlidir. Bakı şəhər icra hakimiyyətinin başçısı da buradadır. Mən onu buraya dəvət etmişəm ki, sizin bu dərdlərinizi bilavasitə eşitsin. Güman edirəm ki, başqa rayonların icra hakimiyyəti başçıları da mənim bu çıxışımı radio və televiziya ilə eşidəcəklər. Prezident Aparatının rəhbərinə göstəriş verirəm ki, mənim bu tapşırıqlarımı onlara da çatdırsın.

İndi burada bir məsələ meydana çıxdı ki, bir qaçqını evdən çıxarıblar. Bəhmənov dedi ki, onu artıq yerləşdiriblər. Bu, başqa məsələdir. Amma onu nə üçün çıxarıblar! Deyir ki, həmin mənzili guya başqa adama satıblar. Bunu yoxlamaq və mənə məruzə etmək lazımdır. Belə hallara yol vermək olmaz.

Güman edirəm ki, bu məsələlərin müzakirəsinə, fikir mübadiləsinə bizim bu gün bu qədər çox vaxt ayırmağımız təbiidir, məqsədəuyğundur. Çünki bütün bu problemləri həll etmək üçün Şuşa, Laçın problemi mərkəz nöqtədir. Ona görə də həm bu məsələləri dərindən bilmək, həm də fikirlərimizi bir-biri ilə uyğunlaşdırmaq üçün belə bir görüş çox zəruridir, əhəmiyyətlidir. Mən bu görüşdən çox razıyam. Sizin hamınıza, xüsusən burada çıxış edən adamlara, verdiyiniz bu məlumatlara görə təşəkkür edirəm. Mənim haqqımda dediyiniz xoş sözlərə görə sağ olun. Mən çalışacağam ki, sizin sözlərinizə bundan sonra da layiq olum.

Laçın rayon icra hakimiyyətinin başçısı Muradxan Cabbarovun bu gün 70 yaşı tamam olur. Bu münasibətlə mən onu [255-256] təbrik edirəm. Güman edirəm ki, uzun illər Laçın rayonunda fəaliyyət göstərdiyinə görə Muradxan Cabbarov yüksək mükafata layiqdir. Mən Muradxan Cabbarovu "Azərbaycan bayrağı" ordeni ilə təltif etmək barədə bu gün fərman imzalayıram. . Mən qeyd etdim, çalışacağam ki, sizin mənə ünvanlanmış xoş sözlərinizə bundan sonra da layiq olum. Bu, mənim həyatımın mənasıdır. Mən bütün həyatımı xalqa xidmət etməyə həsr etmişəm, bundan sonra da bu yolla gedəcəyəm. Başqa yolum yoxdur. Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur. Buna tam arxayın ola bilərsiniz. Arxayın ola bilərsiniz ki, bütün bu problemlərin xüsusən Laçın, Şuşa probleminin həll olunması üçün mən bundan sonra da öz səylərimi əsirgəməyəcəyəm. Sağ olun. [256-257]

## AZƏRBAYCANIN XALQ ARTİSTİ SOFİYA XANIM HÜSEYNOVAYA

Hörmətli Sofiya xanım!

Sizi – Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsini anadan olmağınızın 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz böyük tarixə və zəngin ənənələrə malik olan Naxçıvan Dövlət Dram Teatrındakı yarıməsrlik fəaliyyətiniz dövründə çoxlu klassik və müasir səhnə surətləri yaratmış, öz fitri istedadınızla onlara uzun ömür bəxş etmiş xoşbəxt sənətkarlardansınız. Yaddaşlara həkk olunmuş qəhrəmanlarınız tamaşaçıların dərin hörmət və məhəbbətini qazanmışdır.

Sizin səhnə həyatınız yeni nəsillər üçün əsl vətənpərvərlik, sənətə sədaqət və fədakarlıq nümunəsi olmuşdur. Əminəm ki, bundan sonra da yüksək mənəviyyatlı insan xarakterləri yaratmaq yolunda əlinizdən gələni əsirgəməyəcək və sənətinizə vurğun olan tamaşaçıları sevindirəcəksiniz.

Yubileyiniz münasibətilə Sizi salamlayır, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*7 may 1996-cı il* [257-258]

## TANK QOŞUNLARI GENERAL-MAYORU, İKİ DƏFƏ SOVET İTTİFAQI QƏHRƏMANI HƏZİ ASLANOVUN BAKIDAKI MƏZARI YANINDA XATİRƏ MİTİNQİNDƏ ÇIXIŞ

*9 may 1996-cı il*

Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş Həzi Aslanovun məzarı önündə mən sizin hamınızı Böyük Vətən müharibəsində, alman faşizminə qarşı müharibədə qələbə bayramı münasibətilə təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycanın on minlərlə, yüz minlərlə qəhrəman oğulları alman faşizminin qarşısına çıxaraq, Sovet Ordusunun tərkibində Vətənin müdafiəsində həlak olmuşdur. Həlak olanların ruhunu bu gün biz böyük minnətdarlıq hissi ilə yad edirik. Həzi Aslanov da o həlak olanlardan biridir, o qəhrəmanlardan biridir.

Bu gün Azərbaycanın bütün guşələrində Böyük Vətən müharibəsinin qəhrəmanları xatırlanır, bu müharibədə çalınmış zəfər şərəfinə şəhər və qəsəbələrdə ucaldılmış abidələr önündə Qələbə bayramı qeyd olunur. Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Çünki Azərbaycan xalqı öz qəhrəman oğullarının cəbhədə igidlikləri ilə bu qələbənin çalınmasında böyük xidmət göstərmişdir, bu qələbədə onun böyük payı var. Eyni zamanda Azərbaycan xalqı Sovet Ordusunun və ümumiyyətlə, o vaxt alman faşizminin təcavüzünə qarşı ayağa qalxmış bütün ölkənin, bütün xalqın neft ilə, neft məhsulları ilə təmin olunmasında, bu qələbənin çalınmasında arxa cəbhədə xüsusi xidmətlər göstərmişdir. Ona görə də bu Qələbə bayramını hər il qeyd etməyə mənəvi haqqımız var. Bu, bizim əziz bayramımızdır. Çünki, bir daha qeyd edirəm, on minlərlə, yüz minlərlə azərbaycanlı, Azərbaycan oğulları bu qələbənin əldə olunması uğrunda canlarını qurban vermişlər.

Bu gün biz Böyük Vətən müharibəsində həlak olanların hamısının ruhu qarşısında baş əyirik, yaşayan veteranlara onların qəhrəmanlığına və şücaətinə görə bir daha təşəkkür edirik. Bütün müharibə veteranlarına ən əvvəl cansağlığı, səadət [258-259] və suveren Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında və Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə işlərimizdə uğurlar arzulayıram.

Sizi bir daha təbrik edirəm. Sizinlə bir də görüşəcəyik. Lakin bu müqəddəs yerdə həm həlak olanların ruhunu yad edərək, həm də yaşayanlara müstəqil Azərbaycan dövlətinin təşəkkürünü bildirərək, ürəyimdən gələn bu sözləri sizə çatdırıram. Sağ olun. [259-260]

## ALMAN FAŞİZMİ ÜZƏRİNDƏ QƏLƏBƏNİN 51-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ HƏZİ ASLANOV ADINA BAKI ALİ ÜMUMQOŞUN KOMANDİRLƏRİ MƏKTƏBİNİN MEYDANINDA RƏSM-KEÇİDDƏ ÇIXIŞ

*9 may 1996-cı il*

Azərbaycan Ordusunun əsgərləri, zabitləri, generalları!
Böyük Vətən müharibəsinin veteranları!
Azərbaycanın ərazi bütövlüyünün qorunması uğrunda gedən müharibənin döyüşçüləri, iştirakçıları və veteranları!
Hörmətli Azərbaycan vətəndaşları, bacılar və qardaşlar!

Bəşəriyyət bu gün alman faşizmi üzərində, İkinci dünya müharibəsində çalınmış qələbənin 51-ci ildönümünü qeyd edir. Bu qələbə dünyanı, bəşəriyyəti alman faşizminin faciəsindən xilas etdi. Bu müharibədə bütün tərəqqipərvər qüvvələr bəşəriyyətin əldə etdiyi sərvətləri, dünyada ədaləti, sülhü qoruyub saxlamaq üçün mübarizəyə qalxdılar və faşizm üzərində qələbə çalındı..

Sovetlər İttifaqı və onun tərkibində olan xalqlar, millətlər Böyük Vətən müharibəsinə qalxdılar. 1941-1945-ci illərdə dörd ildən artıq davam edən müharibə, döyüşlər dünya, bəşər tarixində ən böyük müharibə, ən qanlı, dəhşətli müharibə olmuşdur. Sovetlər İttifaqının tərkibində olan xalqlar, millətlər, Sovet ordusu bu müharibədə alman faşizmi üzərində misli görünməmiş qələbə çaldı. Bu müharibədə dünya tarixində misli görünməmiş qəhrəmanlıq nümunələri nümayiş etdirildi. Avropa, bütün dünya faşizm təhlükəsindən xilas oldu.

Azərbaycan xalqı da bu müharibədə iştirak etmiş, respublikamızın, xalqımızın on minlərlə, yüz minlərlə oğul və qızları cəbhədə olmuş, döyüşlərdə qəhrəmanlıq göstərmiş, çoxları həlak olmuş, geriyə qayıtmamışlar. 1941-1945-ci illər müharibəsində, 51 il bundan əvvəl may ayında qazanılmış qələbə dünyanın tərəqqipərvər qüvvələrinin qələbəsidir, faşizmin əleyhinə qalxmış bütün xalqların, Sovetlər İttifaqında birləşmiş bü[260-261]tün xalqların, böyük dövlət olan Rusiyanın, SSRİ-nin tərkibində olmuş Azərbaycan xalqının, respublikamızın qələbəsidir.

Mən bu qələbə münasibətilə sizi, Azərbaycanın bütün vətəndaşlarını, xalqımızı səmimi qəlbdən təbrik edirəm. Müharibə veteranlarına, bu müharibədə həm cəbhədə, həm də arxada çalışmış, şücaətlər, əmək fədakarlığı göstərmiş Azərbaycan vətəndaşlarına, bugünkü nəslin nümayəndələrinə, hamıya səadət, xoşbəxtlik, uğurlar diləyirəm.

1941-1945-ci illər müharibəsi dövründə, o döyüşlərdə göstərilmiş qəhrəmanlıq nümunələri, o cümlədən Azərbaycan oğullarının, qızlarının, övladlarının göstərdiyi igidliklər qəlbimizdə daim yaşayacaqdır. Alman faşizminə qarşı müharibədə həlak olmuş oğullarımızı, qızlarımızı – Azərbaycan övladlarını biz bu gün böyük minnətdarlıq hissi ilə yad edirik. Onların qəhrəmanlığı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Bu gün biz onların ruhu qarşısında baş əyirik.

Bu müharibədə qələbənin əldə olunmasında Azərbaycan xalqının xüsusi xidmətləri var. O vaxt, o illər Sovetlər İttifaqında neft və neft məhsullarının 80 faizi Azərbaycanda istehsal olunurdu. Azərbaycan xalqının fədakar əməyi nəticəsində müharibə illərində alman faşizminə qarşı döyüş cəbhəsi və böyük ölkənin bütün ehtiyacları Azərbaycanın nefti, neft məhsulları ilə təmin edilirdi. Dəfələrlə deyilən bu sözlər həqiqətdir ki, əgər o illərdə Azərbaycan nefti olmasaydı və xalqımızın rəşadəti, fədakar əməyi nəticəsində o qədər neft istehsal edilib cəbhəyə, ölkənin mühüm regionlarına göndərilməsəydi, o müharibənin aqibətinin necə olacağını təsəvvür etmək mümkün deyildi. Bəlkə də o qələbəni əldə etmək mümkün olmazdı. Ona görə də mən bir daha qeyd edirəm ki, bu böyük qələbənin əldə olunmasında Azərbaycan xalqının xüsusi xidmətləri var.

Bu gün bizim sıralarımızda Böyük Vətən müharibəsində iştirak etmiş, qəhrəmanlıq nümunələri göstərmiş, öz şücaətləri ilə yüksək mükafatlara layiq görülmüş müharibə veteranları yaşayır, fəaliyyət göstərirlər. Bu gün müstəqil Azərbaycanda 1941-1945-ci illərdə respublikamızın neft sənayesində, cəbhə üçün işləyən başqa sənaye sahələrində, bütün iqtisadiyyatında fədakar əməyi ilə qələbənin əldə olunmasına xidmət edən əmək veteranları yaşayır, fəaliyyət göstərirlər. Onlar Azərbaycanın hörmətli, möhtərəm insanlarıdır. Mən bu gün xalqımızı, millətimizi bu qələbə, onun 51-ci ildönümü münasibətilə təb[261-262]rik edərək, müharibə veteranlarının 1941-1945-ci illərdə qələbənin əldə olunmasına öz əməyi ilə xidmət etmiş əmək veteranlarının fəaliyyətini xüsusi qiymətləndirirəm, qeyd edirəm. Onları bu qələbə münasibətilə bir daha təbrik edirəm.

Azərbaycanın həyatında son illər müəyyən ictimai-siyasi proseslər olmuşdur. Bunlar təbiidir. Ancaq təəssüflər olsun ki, bu təbii, obyektiv proseslər zamanı bəzi nadan şəxslər, xalqının, millətinin tarixinə gəc baxan, onu təhrif edən ayrı-ayrı qruplar, dəstələr, insanlar tariximizi də təhrif etməyə çalışmışlar. Xalqımızın, bütün bəşəriyyətin tarixində ən görkəmli yer tutan İkinci dünya, Böyük Vətən müharibəsində Azərbaycan xalqının iştirakını unutmağa çalışmışlar, onu tarixin səhifələrindən silməyə, bu qəhrəmanlıq nümunələrini mənfi

qiymətləndirməyə çalışmışlar. Təəssüflər olsun. Məhz buna görədir ki, xalqımız üçün 1945-ci ildən əziz olan 9 May qələbə bayramı da Azərbaycanın həyatından bir bayram kimi silinmişdi. Biz bunlara son qoyduq.

Qələbə bayramı mənim təklifimlə qəbul edilmiş qərarla bərpa olunubdur. 9 May Azərbaycanın bugünkü və gələcək həyatında, xalqımızın gələcək nəsillərinin tarixində daim qələbə, qəhrəmanlıq, rəşadət bayramı, bəşəriyyət, dünya sivilizasiyası üçün ən təhlükəli olan faşizm üzərində qələbə bayramı kimi qeyd olunur və qeyd olunacaqdır. Bu müharibənin dəhşətləri illər keçdikcə daha çox dərk ediləcəkdir. Bu müharibənin iştirakçıları, bu müharibədə qəhrəmanlıq göstərənlər illər keçdikcə daha çox qiymətləndiriləcəklər, daha yüksək hörmətə sahib olacaqlar.

Bu müharibədə, döyüşlərdə canlarını qurban vermiş insanların xatirəsi illər keçdikcə daha da əziz olacaqdır. O illərdə, Böyük Vətən müharibəsi dövründə Azərbaycanın həyatında fədakar əməyi ilə respublikamızı, xalqımızı yaşatmış, saxlamış insanların fəaliyyəti illər keçdikcə daha da yüksək qiymətləndiriləcəkdir.

Bu gün, qələbə bayramı günü mən Azərbaycanın bütün müharibə, əmək veteranlarına hörmət və ehtiramımı bildirirəm. Onlara bir daha cansağlığı, uzun ömür, səadət arzulayıram. Veteranlar bilməlidirlər ki, onlara olan dövlət qayğısı ildən-ilə artacaqdır. Xalqımızın, cəmiyyətin onlara qayğısı daimi olmalıdır. Müharibə, əmək veteranına hər bir gənc hörmət və ehtiramla yanaşmalıdır. Hər bir gənc, gənc nəslimiz veteranlarımızın qəhrəmanlıq nümunələrindən, əmək fədakarlı[262-263]ğından özü üçün nümunə götürməlidir. O qəhrəmanlıq nümunələri bugünkü nəslimiz, gələcək nəsillər üçün örnək, məktəb, təcrübə mənbəyi olmalıdır. Biz bu təcrübələrdən daim bəhrələnməliyik, istifadə etməliyik.

Səkkiz il bundan əvvəl Azərbaycana qarşı Ermənistan tərəfindən hərbi təcavüz başlanıb. Bu təcavüz Ermənistan ilə Azərbaycan arasında müharibə meydanı ilə nəticələnib. Azərbaycan övladları torpaqlarımızın müdafiəsinə qalxıb, döyüşüb, şəhid, həlak olublar. Müstəqil Azərbaycan Respublikasının Milli Ordusu məhz bu zaman formalaşmağa, yaranmağa başlayıbdır. İndi bizim Milli Ordumuz var. Artıq bizim müstəqil Azərbaycana məxsus hərbi hissələrimiz, zabitlərimiz, generallarımız, qəhrəman döyüşçülərimiz, əsgərlərimiz var. Bugünkü Milli Ordumuzun yaranmasında da, qurulmasında da Böyük Vətən müharibəsində, 1941-1945-ci illər müharibəsində əldə edilmiş təcrübədən və qəhrəmanlıq nümunələrindən istifadə olunmalıdır.

Alman faşizminə qarşı döyüşlərdə qəhrəmanlıq göstərmiş Həzi Aslanovun, İsrafil Məmmədovun, Qafur Məmmədovun, Hüseynbala Əliyevin və minlərlə belə oğulların igidlikləri gənclərimiz üçün nümunə olmalıdır. Döyüşçülərimiz öz atalarının, babalarının qəhrəmanlıq tarixini yaxşı öyrənməli, bundan nəticələr çıxarmalı və öz əsgəri, hərbi fəaliyyətlərində istifadə etməlidirlər.

İndi Azərbaycan veteranları, Milli Ordumuz, zabitlər korpusumuz, əsgərlərimiz, döyüşçülərimiz hamısı birlikdə öz təcrübəsini, biliyini, döyüş bacarığını Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına sərf etməlidirlər. Biz iki ildir ki, müharibəni dayandırmışıq. İki ildir ki, atəşkəs şəraitində yaşayırıq, sülh danışıqları aparırıq. Ermənistan ilə Azərbaycan arasında olan bu hərbi münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Yəni Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş torpaqlarımızı azad etmək respublikamızın ərazi bütövlüyünü təmin etmək istəyirik. İşğalçı qüvvələr torpaqlarımızdan çıxandan sonra didərgin vətəndaşlarımızın öz yerlərinə qayıtmasını, Azərbaycanın sərhədlərinin toxunulmazlığının təmin edilməsini istəyirik. Sülh danışıqlarını bu prinsiplər əsasında aparırıq və bunları sonra da aparacağıq.

Biz əldə edilmiş atəşkəs sazişinə bundan sonra da riayət edəcəyik, Böyük Sülh Müqaviləsi imzalananadək ona sadiq olacağıq. Amma eyni zamanda, Şuşa və Laçın rayonlarının [263-264] Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmasının dördüncü ildönümünü bu günlər qeyd edərkən hamımız bir səslə bəyan etdik ki, əgər bu sülh danışıqları nəticə verməsə, biz torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edəcəyik. Biz torpaqlarımızın Ermənistan silahlı qüvvələrinin işğalı altında uzun müddət qalmasına razı ola bilmərik, buna dözə bilmərik.

Torpaqlarımızı azad etməliyik. Bunun üçün ordumuz gündən-günə qüvvətlənməli, güclənməli, qüdrətlənməlidir. Torpaqlarımızı azad etmək üçün Azərbaycan gəncləri orduda xidməti özlərinin ən şərəfli vəzifəsi bilməlidirlər. Orduda sədaqətlə xidmət etmək, Vətənə, torpağımıza, müstəqil Azərbaycana, millətimizin bu gününə və gələcəyinə sədaqət hər bir azərbaycanlının, hər bir vətəndaşımızın, gəncimizin, hər bir əsgərimizin ümdə vəzifəsi olmalıdır. 1941-1945-ci illərin Böyük Vətən müharibəsi veteranlarının qəhrəmanlıq nümunələrini bu işdə, bu yolda yenə də gözümüzün önünə gətirməliyik. O illərdə Azərbaycanın nə qədər övladları həlak oldu, öz anasının, bacısının, oğlunun, qızının yanına qayıda bilmədi. O illərdə Azərbaycandan 600 minə qədər vətəndaşımız orduya səfərbər olmuşdu, onlardan 300 mini geriyə qayıtmadı. Biz böyük qurbanlar verdik. Ona görə böyük qurbanlar verdik ki, faşizm məhv olsun, faşizmin qarşısı alınsın.

Biz bu gün də böyük qurbanlar verməyə hazır olmalıyıq ki, müstəqil Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, torpaqlarımızın hər bir metri Azərbaycanın öz əlində, idarəsində, xalqımızın ixtiyarında olsun. Ona görə də biz qurban verməyə hazır olmalıyıq, döyüşlərə hazır olmalıyıq. Atalarımızın, babalarımızın, əcdadlarımızın qəhrəmanlıq nümunələri bu gün də, gələcəkdə də müstəqil Azərbaycanı qoruyub saxlamaqda, onun müstəqilliyini əbədi etməkdə bizim üçün örnək olmalıdır.

Mən bu gün, bu bayram günü Azərbaycanın müharibə veteranları ilə, eyni zamanda ordumuzun gənc nəsli ilə görüşərək, müharibə veteranları ilə ordumuzun, gənc nəslin qüvvələrinin, səylərinin daha da birləşməsini

arzu edirəm. Gənc nəslimiz, ordumuz məhz bu yol ilə hərbi peşələri mənimsəyəcək, ordumuz səriştəli ordu, müasir tələblərə cavab verə biləcək ordu, Azərbaycanın müstəqilliyini qorumağa qadir bir ordu olacaqdır. Biz belə ordu yaradırıq, belə ordu yaratmalıyıq. Belə ordunun yaradılması yolunda hər bir Azərbaycan vətəndaşı öz əməyini, səyini əsirgəməməlidir. [264-265]

Bu qələbə bayramı münasibətilə mən bir daha hamınızı, Azərbaycanın bütün vətəndaşlarını, xalqımızı təbrik edirəm. Hamınıza cansağlığı, səadət arzulayıram. Ölkəmizə, xalqımıza daim sülh arzu edirəm. Bölgəmizdə sülhün yaranmasını və bərqərar olunmasını arzu edirəm.

Azərbaycan sülhsevər dövlətdir. Biz sülh uğrunda mübarizə aparmışıq və bundan sonra da aparacağıq. Sülh uğrunda mübarizə aparmaq üçün isə bizim güclü ordumuz olmalıdır.

Bayram münasibətilə sizi təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

* * *

Mən bu sərgi[1] ilə çox böyük maraqla tanış oldum. Yaxşı materiallar toplamısınız. Bunlar hamısı lazımdır. Bu gün biz qələbənin 51-ci ildönümü bayramını qeyd edirik. Ancaq Ermənistan silahlı qüvvələrinin Azərbaycana təcavüzü və bu müharibədə qəhrəmanlarımızın Vətən qarşısındakı xidmətləri, şəhid olmaları, özlərini qurban vermələri barədə materialların, sənədlərin hamısı yığılmalı, toplanmalıdır. Bütün bunlar bugünkü gənclərimiz üçün örnək olmalıdır. Gərək biz gəncləri bu yolla qəhrəmanlıq ruhunda tərbiyə edək. Ona görə də bu sərgi çox əhəmiyyətlidir.

## MƏKTƏBİN GENİŞ SALONUNDA MÜHARİBƏ VƏ ƏMƏK VETERANLARI İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

Əziz dostlar, bacılar və qardaşlar!

Bu gün səhərdən biz bir yerdəyik. Böyük Vətən müharibəsində qələbənin 51-ci ildönümünü sizinlə bir yerdə qeyd edirik. Qələbə haqqında bu gün səhərdən siz də, mən də çox sözlər demişik.

Bu salona 1941-1945-ci illər Böyük Vətən müharibəsinin, arxa cəbhənin veteranları, Azərbaycanın ərazi bütövlüyünün qorunmasında qəhrəmanlıq göstərənlər və Milli Ordumuzun nümayəndələri toplaşmışlar. Bu, yoldaşlıq görüşüdür. Belə bir görüşün keçirilməsini təklif etdilər, mən bu dəvəti məm[265-266]nuniyyətlə qəbul etdim. Mən bura ona görə gəldim ki, sərbəst, azad, asudə şəraitdə görüşək, bir-birimizlə danışaq, söhbət edək. Doğrudur, Ziya Bünyadov narazılıq edir ki, cəbhədə bizə yüz qram verirdilər, burada isə heç bir şey vermirlər. Mən də cavab verirəm ki, ora cəbhə idi, bura cəbhə deyil. Cəbhədə olsaydı, yəqin yüz qram verərdilər. Güman edirəm, siz həmin yüz qramlardan istifadə etmisiniz. Bunu bu gün də etmək olar. Ancaq əsas o deyil. Əsas odur ki, biz bir yerə yığışmışıq, 50-55 il bundan əvvəl olan hadisələri yada salırıq, bir-birimizi salamlayırıq, xoş sözlər deyirik, bir-birimizə hörmət və ehtiramımızı bildiririk.

Bəşəriyyət tarixi böyükdür, əsrlər, min illərlə ölçülür, amma bəşər tarixində elə mərhələlər, səhifələr var ki, ola bilər, onlar bir çox əsr ərzində bir dəfə olur. XX əsr bir çox səbəblərə görə əlamətdardır. Bu əsrin əvvəlki əsrlərdən fərqi bir də ondan ibarətdir ki, XX əsrdə iki dünya müharibəsi baş vermişdir. XX əsrə qədər bəşər tarixində heç vaxt bu qədər müharibələr olmamışdır.

Birinci dünya müharibəsi dəhşətli müharibə olmuşdur. Bundan .cəmi 30 il keçməmiş İkinci dünya müharibəsi başlanmışdır. İki dünya müharibəsi arasında 25-30 il vaxt olmasına baxmayaraq, İkinci dünya müharibəsi çox dəhşətli bir müharibə, motorlar, tanklar, təyyarələr, böyük toplar, raketlər müharibəsi olubdur. Nə qədər insan tələf olubdur.

Bu müharibədə tələf olanların sayını indi dəqiqləşdirirlər. Keçmiş, illərdə belə bir rəqəm məlum idi ki, bu müharibədə Sovet İttifaqından 20 milyon adam tələf olub. İndi isə məlumat verirlər ki, bu rəqəm 27 milyon olub. Amma bəzi tarixçilər, tədqiqatçılar deyirlər ki, tələf olanların sayı bundan da çoxdur. Hər halda 20 milyon da çoxdur, 27 milyon da dəhşətli bir rəqəmdir. Hələ bu, ancaq Sovetlər İttifaqına aid bir rəqəmdir. Təsəvvür edin, Avropada nə qədər insan tələf olub. İkinci dünya müharibəsi Afrikaya da keçmişdi, orada da müharibə gedirdi. Bu müharibədə ABŞ, Yaponiya, Çin də iştirak edirdi. Nə qədər dəhşətli müharibə idi! Hesab edirəm ki, bu müharibə həqiqətən, tarixdə bir tərəfdən öz miqyasına görə, dəhşətli nəticələrinə, bəşəriyyətə vurduğu zərbəyə, insan tələfatına görə qalacaqdır. Eyni zamanda bu müharibə insanların qəhrəmanlıq nümunələrinə görə xalqlarımızın tarixində əbədi olaraq qalacaqdır.

Keçmiş müharibələrdə də qəhrəmanlar, böyük sərkərdələr [266-267] olubdur. Tarixdə əbədi yer tutmuş qəhrəmanlar var. Ancaq bu müharibənin qəhrəmanları buna qədər olmuş bütün müharibələrin qəhrəmanlarından xeyli yüksəklərə qalxıbdılar. Çünki bu, adi müharibə deyildi. Bu nə qılınc, nə at, yaxud adi tüfəng müharibəsi deyildi. Bu, dəhşətli bır müharibə idi.

[1] *Kitab və foto sərgisi ilə tanış olduqdan sonra məktəbin fəxri qonaqlar kitabında ürək sözləri*

Bu müharibəni unutmaq olmaz. Bu qələbəni heç vaxt unutmaq olmaz. Bu müharibəyə iki nöqteyi-nəzərdən – birincisi, sadə bir müharibə kimi, ikincisi isə onun nə üçün başlandığına görə və əgər qələbə olmasaydı, nələrə gətirib çıxaracağına görə yanaşmaq lazımdır. Faşizm Avropanı bürümüşdü, bütün dünyada hökm sürmək istəyirdi, dünyanın başqa ölkələrini, millətlərini qul səviyyəsinə salmaq istəyirdi. Faşizm insanlara, bəşəriyyətə, dünyaya dəhşət gətirirdi. Faşizmin qarşısını almaq, onun Şərqə doğru irəliləməsinə yol verməmək, faşizmi məhv etmək, ləğv etmək tarixi bir hadisədir.

Bu müharibənin hər bir iştirakçısının qələbə əldə olunmasında xidməti var. Marşalın da, generalın da, zabitin də, əsgərin də – hərənin öz yeri var. Heç kəs deyə bilməz ki, onlardan birinin işi o birisininkindən çətin və yaxud asan olub. Yox, hər kəsin öz yeri olub. Bunlara görə də, yenə deyirəm, bu müharibəyə iki nöqteyi-nəzərdən yanaşmaq lazımdır.

Bu müharibə ona görə başlayıb ki, faşizm dünyanı zəbt etmək, hər yerdə tətbiq etmək istəyirdi. Qələbə faşizmin qarşısını alıb, onu ləğv edibdir. Bu, təkcə Azərbaycan, keçmiş Sovet İttifaqı üçün yox, bütün bəşər, dünya üçün tarixi bir hadisədir. Təsadüfi deyildir ki, bu qələbənin 50 illiyi Avropada da qeyd edildi. Bu qələbəni biz Londonda, Parisdə, Moskvada qeyd etdik. Bunu bütün dünya qeyd edirdi.

Qələbənin 50 illiyi münasibətilə Moskvada keçirilən təntənəli mərasimlərdə dünyanın ən böyük dövlətlərinin başçılarının hamısı iştirak edirdi, oraya gəlmişdilər. ABŞ prezidenti də, Almaniyanın başçısı da, Fransanın prezidenti də, İngiltərənin başçısı da, Çin dövlətinin başçısı da, başqa dövlətlərin başçıları da orada idilər. İndi görün, bunun nə qədər böyük ümumdünya əhəmiyyəti var. Ona görə də belə bir hadisəni unutmaq, yaxud onun üstündən xətt çəkmək, ona siyasi qiymət vermək – bunu kim edə bilər? Buna heç bir kəsin ixtiyarı yoxdur. O ki, qaldı 1990, 1991, 1992-ci illərdə Azərbaycanda mövcud olan adamlara, onların danışmağa heç bir haqqı yoxdur. Onların hansı mənəvi haqqı var? Azərbaycanın bu qədər tarixini silmək, pozmaq mümkün deyil. Mən bunları təkcə sizə görə [267-268] demirəm. Bəs cəbhədən qayıtmayan 300 min insanın xatirəsi? 1945-ci ildən indiyədək dünyasını dəyişmiş müharibə iştirakçıları? O illərdə Azərbaycanın xalq təsərrüfatım, iqtisadiyyatını işlədən, yaradan, respublikamızın neft mədənlərində gecə-gündüz çalışan və bu məhsulu əzab-əziyyətlə cəbhəyə göndərən insanlar? Bu qələbənin bəşəri nöqteyi-nəzərdən siyasi mənası nə qədər böyükdür.

İndi burada deyirlər ki, ordenini, orden lentlərini taxmağa kimsə utanır. Nə üçün? Bilirsiniz, o ordenləriniz, həmin dövrdən qalmış əşyalarınız, müharibəni əks etdirən nişanlarınız on, on beş, iyirmi ildən sonra daha da qiymətli olacaqdır. Onlar əlli ildən sonra muzeylərdə ən qiymətli eksponatlar olacaqdır.

Xatirimdədir, müharibə qurtarandan sonra Ali Baş Komandanın fərmanı var idi ki, bütün müharibə iştirakçılarına 1941-1945-ci illər müharibəsində Qələbə medalı verilsin. Həmin medalı çoxları aldı. Mən də o medaldan almışam. O vaxt hamı müharibədə iştirak etdiyinə görə bu medalı alırdı. Bəziləri fikirləşirdilər ki, bu, elə-belə medaldır, verirlər. İndi baxın görün, əlli ildən sonra o medaldan kimin var? O medallar indi nadir nişanlardır, medallardır. Yaxud, 1941-1945-ci illərin Böyük Vətən müharibəsində arxa cəbhədə rəşadətli əməyə görə, Böyük Vətən müharibəsində qələbəyə görə medallarından indi kimdə var? Nadir adamlarda. Ona görə də sizin ordenləriniz, medallarınız, nişanlarınız, müharibəni əks etdirən hər bir xırda əşya, xırda nişanə tarixə çevrilir, Azərbaycan xalqının tarixinə çevrilir. Bu gün bunların hamısından hörmətlə istifadə etmək lazımdır. Onları fəxrlə, qürurla döşünüzə taxın. Qoy hamı görsün ki, siz kimsiniz, necə qəhrəmanlıq etmisiniz. Eyni zamanda nəvələrinizə, nəticələrinizə tapşırın ki, bunlar daim yaşasın. Çünki bunlar Böyük Vətən müharibəsində Azərbaycan xalqının qəhrəmanlığını sübut edən nişanələrdir, sənətlərdir.

Bu barədə çox danışmaq olar, ürəyim doludur. Bunları ona görə deyirəm ki, mənim ürəyim sıxılırdı. Azərbaycanda 1990, 1991, 1992-ci illərdə, necə deyərlər, zatı məlum olmayan, – mən bu kəlməni işlədirəm, burada Ziya bildirir ki, belələrinə zatıqırıq deyirlər, – belə adamlar tariximizi təhrif etməyə başladılar. Küçədən gəlmiş adam durub deyir ki, biz 1920-ci ildən 1990-cı ilədək Azərbaycan tarixini tamamilə silirik. Sən kimsən, nəçisən, buna sənin nə haqqın var? Sənə bu ixtiyarı kim [268-269] verib? Nəyə görə belə olmalıdır, sən küçədə, orada-burada bağırdığın üçünmü?

Bilirsiniz, həmin illərdə Böyük Vətən müharibəsinin iştirakçılarına – həm cəbhədə, həm arxada olmuş adamlara hörmətsizlik edildiyinə görə, onlara qarşı pis münasibət göstərildiyinə, qayğı azaldığına, yaxud onlar qayğıdan azad edildiyinə görə şəxsən mənim qəlbim ağrıyır, inciyirdi. Çox inciyirdi. Çünki bu qədər haqsızlıq, ədalətsizlik olmaz. Yenə də deyirəm, bu, ayrı-ayrı fərdlərin mənafeyinə aid olan bir şey deyil. Bu, xalqımızın tarixidir. Xalqımızın tarixini heç kəs dəyişə bilməz. Tarixdə nə olub, o da var. Onu heç kəs dəyişə bilməz. Heç kəsin də haqqı yoxdur ki, tarixdən kimisə silsin, çıxarsın, kimisə salsın. Bu gün onun xoşuna bu gəlir, sabah o gəlir – belə olmaz.

Mən tarix haqqında danışacağam. Ziya müəllim də akademiyanın vitse-prezidenti kimi bu barədə düşünməlidir. Biz bir dəfə yığışmalıyıq. Mən bir dəfə demişəm, bir daha deyirəm ki, biz heç olmasa xalqımızın XX əsr tarixini yazmalıyıq. Keçən əsrləri bəlkə sonra yazmalıyıq, amma indi biz bütün qüvvələrimizi cəmləyib, XX əsrin tarixini yazmalıyıq. Özü də hər şey yazılmalıdır. Necə olub, elə də yazılmalıdır. Çünki biz o illərdə də, Sovet hakimiyyəti illərində də, təəssüflər olsun ki, tarixin təhrif olunması halları ilə rastlaşdıq. Çoxlarımız o vaxt tarixin təhrif edildiyini bilmirdik. Baxmayaraq ki, mən özüm uzun illər böyük siyasətdə, rəhbər işdə olmuşam, amma bu tarixin təhrif edilməsini, Azərbaycanın tarixinin, ümumiyyətlə, dünya tarixinin təhrif

olunmasını o illərdə bilməmişəm. Mən bunu sizə açıq deyirəm, etiraf edirəm. O vaxt bir cür təhrif ediblər, indi götürüb başqa cür təhrif etsinlər? Belə çıxır ki, kim nə vaxt imkan tapdısa tarixi istədiyi kimi dəyişdirəcək? Buna yol vermək olmaz. Yenə də deyirəm, biz XX əsrin tarixini yazmalıyıq. XX əsrin tarixində də Böyük Vətən müharibəsi, 1941-1945-ci illərin müharibəsi və bu dövrdə Azərbaycan xalqının dünya miqyasında tutduğu yer göstərilməlidir.

Hesab edirəm, biz Allaha dua etməliyik ki, dövlət müstəqilliyimizi nəhayət, əldə etdik, Dünya Birliyində müstəqil dövlət kimi öz yerimizi tutduq. Artıq bizim Azərbaycanın nəyə qadir olduğunu sübut etməyə imkanımız var. Biz keçmişdə Sovetlər İttifaqının tərkibində olanda bu imkanımız yox idi. Məsələn, təsəvvür edin. Londonda Böyük Britaniyanın kraliçası Qələbənin əlli illik yubileyi münasibətilə böyük, təntənəli mərasimlər düzəldib, bu mərasimlərdə müstəqil dövlət kimi [269-270] Azərbaycanın dövlət nümayəndəsi, prezidenti iştirak edib, Ziya Bünyadov, Məzahir Abbasov, Məlik Məhərrəmov, Baloğlan Rüstəmov, Vidadi Nərimanbəyov iştirak ediblər. Bu mərasimdə Azərbaycan nümayəndələri başqa dövlətlərdən gələnlərlə eyni səviyyədə iştirak edirdilər. Paris kimi bir yerdə yenə də Azərbaycanın nümayəndə heyəti başqa dövlətlərlə bərabərhüquqlu iştirak edib.

Azərbaycan Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində bir dövlət, millət kimi iştirak edib, qələbəyə öz xidmətlərini göstəribdir. Ona görə də indi bu mərasimlərdə iştirak edirdik. Keçmişdə biz Moskvada keçirilən tədbirlərə müttəfiq respublikanın nümayəndələri kimi gedirdik. Ancaq indi, keçən il mayın 9-da Moskvada, böyük Rusiya dövlətinin paytaxtında, bayaq dedim, dünyanın ən böyük dövlətlərinin başçıları ilə bir yerdə Azərbaycan dövlətinin başçısı da iştirak edirdi. Böyük dövlətlərin nümayəndələrinin olduğu yerdə Azərbaycanın Böyük Vətən müharibəsi veteranları da var ili, onlar oradakı mərasimlərin hamısında – Qızıl meydanda da, Poklonnı Qorada da, böyük ziyafətdə də iştirak edirdilər. Bilirsiniz, bunlar hamısı ədalətin zəfər çalmasıdır.

1941-1945-ci illər müharibəsində alman faşizmi üzərində qələbənin əldə edilməsində biz böyük xidmətlər göstərmişik. Bundan əlli il keçəndən sonra gedib Dünya Birliyinin başçılarının olduqları təntənəli mərasimdə müstəqil bir dövlətin nümayəndəsi kimi iştirak etmişik. Bunlar hamısı bu günlərimizin reallığı, gerçəkliyi, həqiqətidir. Eyni zamanda bunlar hamısı bizim böyük tariximizi sübut edən faktlardır. Bunların hamısını yaradan, Azərbaycanı bu səviyyəyə qaldıran, ona bu şöhrəti gətirən, İkinci dünya, Böyük Vətən müharibəsində respublikamızın fəal iştirak etdiyini bütün dövlətlərə göstərən sizsiniz, siz veteranlarsınız, Böyük Vətən müharibəsinin iştirakçıları, qəhrəmanlarısınız. Ona görə də Azərbaycanda sizə daim hörmət, ehtiram olacaqdır. Siz Azərbaycanda daim həm cəmiyyətin, həm ictimaiyyətin, həm dövlətin qayğısı altında olmusunuz və bu gündən sonra da olacaqsınız. Buna tamamilə arxayın ola bilərsiniz.

Bilirsiniz, o keçmiş illərdə də burada işləyəndə, indi də – yenidən Azərbaycanın başçısı kimi mən Böyük Vətən müharibəsində Azərbaycanın iştirakı, yaxud ayrı-ayrı şəxslərin qəhrəmanlığı ilə əlaqədar olan abidələri həmişə müqəddəs yerlər kimi qəbul etmişəm. Bu gün də ziyarət etdiyimiz yerlər mənim üçün həmişə müqəddəs yerlər olub. [270-271]

Xatirinizdədir, bu da tarixdir, onu yaddan çıxarmayın, – 416-cı Taqanroq diviziyası Azərbaycanda təşkil olunmuşdu. O diviziya Taqanroqda Sambek yüksəkliklərindəki döyüşlərdə böyük qələbə qazandı, qvardiya diviziyası adı, Taqanroq diviziyası adı aldı, sonra isə Berlinə qədər getdi.

Həmin diviziyanın qəhrəmanlığını tarixə salmaq, 416-cı Taqanroq diviziyasının xidmətlərini, qəhrəmanlığını əbədiləşdirmək üçün mənim yaxından iştirakımla o vaxt Rostov vilayətində Azərbaycanın vəsaiti hesabına böyük bir kompleks tikdik. Azərbaycanın gözəl heykəltəraşı Elcan Şamilovun, Roslov vilayətindən memarlar ata-oğul Qrekovların layihələri əsasında tikilən bir abidə üçün vəsaitin, tikinti materiallarının hamısını biz Azərbaycandan göndərdik, təşkil etdik. Böyük bir memorial düzəltdik. Xatirinizdədir, sizin bir çoxlarınızla biz birlikdə gedib həmin memorialı açdıq.

Mən iftixar hissi keçirirdim ki, Rusiyanın mərkəzi nöqtələrindən birində Azərbaycan əsgərinin, diviziyasının qəhrəmanlığını sübut edən böyük bir kompleks – o, adi bir heykəl deyil, böyük bir kompleksdir, Stalinqrad kompleksinə bərabərdir – yaratdıq. Krımda, Sapun dağında 77-ci Azərbaycan diviziyasının şərəfinə Ukrayna ilə birlikdə böyük bir abidə düzəltdik. Ora gedənlər görüblər. Orada döyüş əks etdirən böyük bir panoram düzəldilibdir, üzərində azərbaycanlıların adları var. Stalinqraddakı memorialda da, – oraya siz də, mən də getmişik, – azərbaycanlı qəhrəmanların adları var. Həzi Aslanovun da, başqalarının da adı oraya qızıl hərflərlə yazılıb. Bunlar hamısı xalqımızın keçdiyi yolu tarixdə əks etdirmək, həkk etmək üçün görülən işlərdir. Biz bu işləri bundan sonra da görəcəyik. Yenə də deyirəm, biz tariximizi qiymətləndirməliyik, ona hörmət etməliyik. Tariximizi yaradan adamları, o cümlədən 1941-1945-ci illər müharibəsi iştirakçılarım qəlbimizdə daim saxlamalıyıq, onların xatirəsini heç vaxt unutmamalıyıq. Ona görə də biz bu gün sizinlə bütün günü bir yerdəyik. Mən sizinlə bir yerdə olduğum bu günü özüm üçün çox xoşbəxt bir gün hesab edirəm. Sizin kimi adamlarla, qəhrəmanlarla, böyük həyat yolu keçmiş insanlarla bir yerdə olmaq, danışmaq, söhbət etmək mənim üçün böyük bir iftixardır. Mən buna çox məmnunam.

Bugünkü görüşə görə hamınıza minnətdarlığımı bildirirəm və sizi əmin edirəm ki, müstəqil Azərbaycan dövləti xalqımızın ümumi birliyi ilə yaşayacaq, böyüyəcək, biz öz müstəqil[271-272]liyimizi daim qoruyub

saxlayacağıq. Müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik. Müstəqil Azərbaycan dövlətinin çox böyük gələcəyi var.

Başımıza gələn bu bəlanı – Ermənistanın Azərbaycana təcavüzünü biz sülh yolu ilə aradan qaldırmağa çalışacağıq. Bunu dəfələrlə demişik, bu gün də deyildi, – əgər bu, mümkün olmasa, Azərbaycan torpaqlarını azad etməyə hamımız hazır olmalıyıq.

1941-1945-ci illərin Böyük Vətən müharibəsində 300 min azərbaycanlı Vətəni qorumaq üçün həlak olub, evinə qayıtmayıbdır. Mən istəmirəm ki, insanlarımız həlak olsunlar. İki ildir ki, müharibədə atəşkəsdir, insanlar həlak olmur, qan tökülmür. Ancaq Vətən Vətəndir. Vətəndən ötrü hər bir kəs, o cümlədən mən də həlak olmağa hazıram.

Sağ olun. Sizin hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Gələn görüşlərədək. [272-273]

## YENİDƏN QURULMUŞ 92 NÖMRƏLİ ATS-i VƏ 97 NÖMRƏLİ YENİ ATS-i BİRLƏŞDİRƏN AVTOMAT-TELEFON STANSİYASININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

*10 may 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən bu əlamətdar hadisə – Bakı şəhərində yeni telefon stansiyasının açılışı münasibətilə sizin hamınızı, buraya toplaşanları ürəkdən təbrik edirəm. Mən vaxtilə burada tikilmiş və indiyədək istifadə edilən 92 nömrəli ATS-in, yeni qurulmuş ATS-in də avadanlığı ilə tanış oldum. Vaxt, zaman ötmüş, keçmişdə xidmət göstərmiş stansiya indi günün tələblərinə cavab vermir. İndi isə günün tələblərinə uyğun olan yeni bir ATS yaradılıb və bu gün istismara verilir.

Mən bu hadisəni böyük məmnuniyyət hissi ilə qarşılayıram. Ona görə ki, 1994-cü il fevral ayında mənim Böyük Britaniyaya rəsmi səfərim zamanı biz orada baş nazir cənab Con Meycor, onun müavini cənab Hezltayn və ölkə hökumətinin digər rəhbərləri ilə bir neçə saziş, o cümlədən Azərbaycan ilə Böyük Britaniyanın "Ci-Pi-Ti" şirkəti arasında əməkdaşlıq haqqında saziş imzaladıq. Mən məmnunam ki, bu saziş artıq əməli surətdə həyata keçirilir və biz bu gün bunun əməli nəticəsini görürük, bununla əlaqədar mərasimdə iştirak edirik.

Bu stansiyanın yaradılmasında mən birinci növbədə "Ci-Pi-Ti" şirkətinin buraya gətirib quraşdırdığı müasir və günün tələblərinə cavab verən avadanlığı, gördüyü işləri yüksək qiymətləndirirəm. Bu stansiya "Ci-Pi-Ti" şirkəti ilə yanaşı, Rusiyanın "LUKoyl" şirkətinin həm Azərbaycanla, həm də Böyük Britaniya ilə əməkdaşlığının bəhrəsidir.

Beləliklə, biz bugünkü əlamətdar hadisədə üç ölkənin – Böyük Britaniyanın, Rusiyanın və Azərbaycanın əməkdaşlığının konkret nəticələrini görürük. Bu, çox gözəl hadisədir. Bu, həm də Azərbaycanın xarici sərmayə üçün açıq olduğunu, xarici şirkətlər ilə müştərək iş gördüyünü bir daha nümayiş etdirir, Azərbaycan Respublikasının bu gün və gələcəkdə telefon, rabitə, ümumiyyətlə kommunikasiya sahəsində çox uğur[273-274]lu addımlar atdığını göstərir. Bu, çox mühüm sahədir, çünki müasir dünyada, xüsusən hər bir müstəqil dövlətin dünya şirkətlərini, firmalarını əməkdaşlığa cəlb etməsi və bu işlərin səmərəli aparılması üçün rabitə çox böyük rol oynayır. Rabitənin də müasir səviyyədə olması, günün tələblərinə cavab verməsi, bütün işlərin gedişində sürətləndirici rol oynaması indi artıq reallıqdır. Bakıda yeni, yüksək səviyyəli texnika və texnologiyanın quraşdırıldığı ATS-in istifadəyə verilməsi respublikamızın iqtisadiyyatında, onun ictimaiyyətinin həyatında böyük hadisədir.

Mən sizin hamınızı bu münasibətlə təbrik edirəm. Böyük Britaniyanın "Ci-Pi-Ti" şirkətinə, Rusiyanın "LUKoyl" şirkətinə təşəkkürümü bildirirəm və ümidvar olduğumu söyləmək istəyirəm ki, hər bir ölkənin şirkətləri ilə, o cümlədən Böyük Britaniya və Rusiya şirkətləri ilə əməkdaşlığımız bundan sonra da davam edəcəkdir. Bugünkü hadisə göstərir ki, biz əməkdaşlıq edə bilərik, biz bu əməkdaşlığa qadirik. Ölkəmiz bu əməkdaşlıq üçün açıqdır, gəlib burada iş görmək olar və müştərək işlərin nəticəsindən də bəhrələnmək olar. Bunlar çox mühüm hadisələrdir.

Mən sizi təbrik edirəm və bu ATS-in yaradılmasında, indi istismara verilməsində zəhmət çəkmiş adamların hamısına öz təşəkkürümü bildirirəm. Sağ olun. [274-275]

## RUSİYA FEDERASİYASININ "YENİ ADLAR" BEYNƏLXALQ XEYRİYYƏ FONDUNUN VƏ "BİZNESMENLƏR – AZƏRBAYCANIN GƏNC İSTEDADLARINA" XEYRİYYƏ FONDUNUN HİMAYƏ ETDİKLƏRİ GƏNC İSTEDADLARIN TƏQDİMAT KONSERTİNDƏN ƏVVƏL "YENİ ADLAR" BEYNƏLXALQ XEYRİYYƏ FONDUNUN YARATDIĞI "PLANETİN YENİ ADLARI" KİTABI İMZALANDIQDAN SONRA ÇIXIŞ

*Rəşid Behbudov adına Dövlət Mahnı Teatrı*

*10 may 1996-cı il*

Öncə sizi salamlamaq, belə xoş, məramlı təşəbbüs göstərdiyinizə və Azərbaycanda yaydığınıza görə təbrik etmək istəyirəm. Sizin sözlərinizə bəri başdan cavab vermək istəyirəm. Dediniz ki, Rusiya prezidenti Boris Nikolayeviç Yeltsin gənc istedadları himayə edir və hamını bu təşəbbüsə qoşulmağa çağırır. Mən bu çağırışa səs verir və bu gündən etibarən Azərbaycanın bütün gənc istedadlarını himayəmə götürürəm. Sizin Rusiyada gördüyünüz işlər, digər respublikalarda görülən işlər həqiqətən gələcəyə, XXI əsrə göstərilən qayğıdır. Millətimizin gələcəyini, Azərbaycanın, Rusiyanın gələcəyini, digər millətlərin, xalqların gələcəyini təmin etmək üçün biz sizinlə birlikdə olacağıq, birlikdə irəliləyəcəyik. Mən bunu özüm üçün müqəddəs vəzifə sayıram. Buraya gəldiyinizə, öz təşəbbüsünüzlə bizi də xeyirxah işə cəlb etdiyinizə görə sizə bir daha təşəkkür edirəm. Lakin hədiyyə təqdim etməklə məni çətin vəziyyətdə qoydunuz. Axı mən tədbirin proqrammı bilmirdim. Mən də hədiyyələrlə gəlməli idim ki, borclu qalmayım. Amma biz borclu qalmayacağıq.

## TƏQDİMAT KONSERTİNDƏN SONRA SƏMİMİ MİNNƏTDARLIQ SÖZLƏRİ

Bu gözəl təşəbbüsə və gözəl konsertə görə, İvetta Nikolayevna, sizə və Azərbaycana gəlmiş bütün qonaqlara səmimi qəlbdən təşəkkür edirəm. Açığını deyim, mənə bu barədə [275-276] məlumat veriləndə düşünmürdüm ki, bugünkü tədbirdən belə böyük zövq alacağam. Əlbəttə, məsələ təkcə əyləncədə, gözəl musiqidə deyildir. Ən başlıcası odur ki, bizim belə gözəl istedadlarımız, bu cür gözəl uşaqlarımız var. Siz bu uşaqlan aşkara çıxarmaqla, onlara hamilik etməklə, yol açmaqla xeyirxah iş görmüş olursunuz. Eyni zamanda bu təşəbbüs ürəklərimizi, qəlblərimizi, düşüncələrimizi, Rusiyanı və Azərbaycanı, Azərbaycanı və Rusiyanı, Rusiyanı və digər ölkələri, digər ölkələri və Rusiyanı bir daha birləşdirir. Bütün bunlar bizim əhval-ruhiyyəmizə, fikir və düşüncələrimizə də uyğun gəlir. Çox sap olun. Sizə son dərəcə minnətdaram. Bugünkü tədbirin mənim ad günümlə bir vaxta düşməsinə və mənə belə gözlənilməz hədiyyə hazırladığınıza görə çox sağ olun. Əlbəttə, mən bunu gözləmirdim. Mənim yaşım çoxdur, lakin ad günümü heç vaxt təntənəli şəkildə qeyd etməmişəm. Bu şərəfi ilk dəfə siz mənə nəsib etdiniz. Çox sağ olun. Hamınızı öpürəm. [276-277]

## MƏŞHƏD-SƏRƏXS-TƏCƏN DƏMİRYOLU MAGİSTRALININ TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN İRANA SƏFƏRƏ YOLA DÜŞƏRKƏN BİNƏ HAVA LİMANINDA RESPUBLİKA TELEVİZİYASI MÜXBİRİNİN SUALINA CAVAB

*12 may 1996-cı il*

Səfərin çox böyük əhəmiyyəti var. İranın Məşhəd şəhərində Türkmənistan və İranın dəmir yollarının birləşməsi ilə əlaqədar təntənəli mərasim keçiriləcək və bu mərasimdə biz də iştirak edəcəyik. Şübhəsiz ki, orada müəyyən danışıqlar da aparılacaqdır. Aşqabatda isə EKO təşkilatının Zirvə görüşü keçirdəcəkdir. Görüşə dövlət başçıları toplaşacaqlar. Burada bizim həm EKO çərçivəsində əməkdaşlığımız, həm də ayrı-ayrı ölkələrlə ikitərəfli əməkdaşlığımız haqqında, zənnimcə, çox vacib söhbətlər gedəcəkdir. [277-278]

## MƏŞHƏD HAVA LİMANINDA İRAN MİLLİ TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*12 may 1996-cı il*

**Sual**: Cənab prezident. İran ilə Türkmənistanı birləşdirən dəmiryolunun çəkilməsi qədim "İpək yolu"nun yenidən bərpası deməkdir. Siz bu hadisəni necə qiymətləndirirsiniz?

**Heydər Əliyev**: Mən bu hadisəni, bu işdə əməyi olan şəxslərin göstərdikləri hünəri çox yüksək qiymətləndirir, onlara hörmət və ehtiramımı bildirirəm. Hesab edirəm ki, yenidən dirçəldilən "İpək yolu" hökmən Azərbaycandan da keçməlidir. Çünki, qədim "İpək yolu" həm də Azərbaycandan keçirdi. Biz "İpək yolu"na yeni əməkdaşlıq yolu kimi baxırıq. Bu yol ölkələrimiz arasında iqtisadi inteqrasiyanın daha da dərinləşməsinə xidmət edəcəkdir.

**Sual**: Bu layihədə Azərbaycanın xeyri nədən ibarət olacaqdır?

**Heydər Əliyev**: Birincisi, o, xalqlarımız, ölkələrimiz arasında ticarət, nəqliyyat əlaqələrini daha da gücləndirəcəkdir. İkincisi, Azərbaycanın, Qafqazın İranla, Orta Asiya ölkələri və başqa ölkələrlə əlaqələrini daha da genişləndirəcəkdir. Bu da ölkələrimizin iqtisadi inkişafına kömək edəcəkdir.

**Sual**: İran-Azərbaycan münasibətlərinin hazırkı vəziyyətini necə qiymətləndirirsiniz? Prezident Rəfsəncani ilə ayrıca görüşünüz olacaqmı?

**Heydər Əliyev**: Mən İran ilə Azərbaycan arasındakı münasibətlərin indiki vəziyyətini çox müsbət qiymətləndirirəm. O mənada ki, İran və Azərbaycan qonşu, dost dövlətlərdir, xalqlarımız da dost və qonşudurlar, qardaş xalqlardır. Eyni ənənələrə, eyni dinə mənsub olan xalqlardır. Bunlar hamısı bizim münasibətlərimizin daim müsbət olmasını tələb edir və Allaha şükürlər olsun ki, bu, belədir. Ancaq mənim arzum, istəyim ondan ibarətdir ki, bu əlaqələr daha da geniş, dərin və daha da yüksək səviyyədə olsun. Hesab edirəm ki, coğrafi mövqeyimizə, tarixi ənənələrimizə görə və başqa səbəblərə görə İran ilə Azərbaycan arasında əlaqələr bundan da yaxşı olmalıdır.

İran İslam Respublikasının prezidenti, dostum ağayi Haşimi Rəfsəncani ilə çoxdandır görüşməmişəm, darıxmışam. Şübhəsiz ki, onunla xüsusi görüşməyə ehtiyacım var. [278-279]

## İQTİSADI ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (EKO) ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISINDA ÇIXIŞ

*Aşqabat*

*14 may 1996-cı il*

Hörmətli cənab sədr!

Zati-aliləri!

İqtisadi Əməkdaşlıq Təşkilatının yüksək səviyyədə dördüncü görüşünün çağırılması ilə əlaqədar böyük məmnunluq hissi keçirdiyimi bildirirəm və təşkilatımızın üzvü olan qardaş dövlətlərin başçılarını salamlayıram.

Cənab prezident, sizi görüşümüzün sədri vəzifəsinə seçilməyiniz münasibətilə təbrik edirəm.

Türkmənistan prezidenti hörmətli Saparmurad Niyazova və qardaş Türkmənistan xalqına səmimi qarşılandığımıza və mehribanlığa görə, Aşqabatda işimiz üçün yaradılmış gözəl şəraitə görə minnətdarlığımı bildirirəm.

Zati-aliləri!

Dünya təcrübəsi göstərir ki, heç bir ölkə beynəlxalq əməkdaşlıq, təcrübə mübadiləsi olmadan, səylər və ehtiyatlar birləşdirilmədən təkbaşına iqtisadi tərəqqiyə nail ola bilməz. Məhz buna görə də təşkilatımızda fəal iştirak etmək təkcə iqtisadi maraqlarda deyil, həm də tarixi köklərin, ənənələrin, mədəniyyətin eyniliyi ilə bağlı olduğumuz qardaş ölkələrlə sıx əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin üstün istiqamətidir.

Asqabat görüşü EKO genişləndikdən sonra birgə fəaliyyətimizin üç ilinə yekun vurur. Bu, səmərəli və hadisələrlə zəngin dövr idi və həmin dövr ərzində təşkilatımız əməkdaşlığın konkret sahələrində öz uzunmüddətli perspektivlərini və üstün istiqamətləri müəyyənləşdirmişdir.

Mühüm sənədlər qəbul edilmişdir: Kvetta fəaliyyət planı, İstanbul bəyannaməsi, Alma-Atı əsas planı və sair. Biz aviasiya və gəmiçilik şirkətlərinə, Ticarət və İnkişaf Bankına, Yenidən Sığortalama Şirkətinə dair razılaşdırılmış layihələrin, tranzit ticarəti haqqında sazişin və viza qaydalarının sadələşdirilməsi haqqında sazişin həyata keçirilməsinə böyük əhəmiy[279-280]yət veririk. İslamabadda üçüncü Zirvə toplantısında qəbul olunmuş bu sənədlər əməkdaşlığımızın dərinləşməsinə, şübhəsiz, kömək edəcəkdir.

Türkmənistan və İranın dəmiryol sistemlərinin birləşdirilməsi ölkələrimizin nəqliyyat sistemlərinin qovuşmasına doğru mühüm addımdır və bu səmərəli əməkdaşlığa konkret misaldır. Mən regionda nəqliyyat-kommunikasiya sistemlərinin inkişafında əməkdaşlığın əhəmiyyətini xüsusi olaraq nəzərə çarpdırmaq istəyirəm.

Təşkilatımızın beynəlxalq nüfuzunun yüksəlməsi, digər ən iri regional və beynəlxalq təşkilatlarla konstruktiv əməkdaşlığın təşkili məmnunluq hissi doğurur. Buna BMT Baş Məclisinin 50-ci sessiyasında BMT ilə EKO arasında əməkdaşlıq haqqında xüsusi qətnamə qəbul edilməsi sübutdur. Biz təşkilatımızın BMT müəssisələri ilə, İslam İnkişaf Bankı, İslam Konfransı Təşkilatı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası ilə əməkdaşlığın genişlənməsinə yönəldilmiş səylərini də alqışlayırıq.

Zənnimcə təşkilatımızın inkişafının yeni mərhələsi əldə olunmuş müsbət nəticələr nəzərə alınmaqla EKO-nun təşkilat strukturunda dəyişikliklər aparmağı, nizamnamə sənədlərinin bəzi müddəalarını bu günün reallıqları ilə uyğunlaşdırmağı tələb edir.

Bu, bizə öz işimizi daha səmərəli qurmağa, artıq razılaşdırılmış olan layihələri həyata keçirmək üçün maliyyə ehtiyatlarını, texniki və digər ehtiyatları daha tez səfərbər etməyə, səylərimizi günü bu gün həyata keçirilə biləcək proqramlar üzərində cəmləşdirməyə imkan verər.

Zati-aliləri!

Zirvə toplantısında iştirak edən bir sıra digər dövlətlər kimi, Azərbaycan da mürəkkəb keçid dövrünü yaşayır. Biz müstəqillik qazandıqdan sonra dərin siyasi və iqtisadi islahatlar aparılması, bazar iqtisadiyyatı olan demokratik, hüquqi dövlət qurulması yolu ilə gedirik.

Qısa bir müddətdə biz Azərbaycanda siyasi plüralizmi, şəxsiyyət, söz, dini etiqad azadlığını bərqərar etmişik.

Respublika parlamentinə çoxpartiyalı əsasda ilk demokratik seçkilər keçirilmiş, müstəqil Azərbaycanın referendum yolu ilə ilk demokratik konstitusiyası qəbul olunmuşdur.

Dövlət mülkiyyətini özəlləşdirmək proqramı qəbul edilmişdir və həyata keçirilir, aqrar sektorda islahatlar aparılır. [280-281]

"Əsrin neft müqaviləsi" imzalandıqdan sonra Xəzər dənizinin Azərbaycan sektorundakı enerji ehtiyatlarının birgə işlənməsi sahəsində dünyanın ən iri neft şirkətləri ilə uzunmüddətli beynəlxalq əməkdaşlığa başlanmışdır.

Əminəm ki, Xəzər dənizinin şelflərindəki enerji ehtiyatlarının hasilatı sahəsində beynəlxalq əməkdaşlığın

genişlənməsi bütün regionun, təşkilatımızın iştirakçısı olan dövlətlərin, – onlardan dördü Xəzər ətrafında yerləşir, – iqtisadi inkişafına ən əlverişli təsir göstərəcəkdir.

Zati-aliləri, bildiyiniz kimi, Azərbaycanda keçid dövrünün çətinliklərini Ermənistan Respublikası tərəfindən səkkiz ildən artıqdır davam edən silahlı təcavüzün nəticələri daha da ağırlaşdırır.

Azərbaycan ərazisinin iyirmi faizindən çoxu işğal edilmişdir, bir milyondan artıq vətəndaşımız qaçqına çevrilmiş və çadır şəhərciklərində ağır şəraitdə yaşayır.

Bütün bunlara baxmayaraq, biz münaqişənin dincliklə, siyasi yolla, hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında – dövlətlərin sərhədlərinin, ərazi bütövlüyünün və suverenliyinin pozulmazlığı əsasında aradan qaldırılmasına çalışırıq.

Cəbhə xəttində atəşin dayandırılmasının və barışıq əldə edilməsinin mayın 12-də iki ili tamam olmuşdur. Biz ATƏT-in Minsk qrupunun himayəsi altında, maraqlı olan bir sıra dövlətlərin vasitəçiliyi ilə sülh danışıqları aparırıq. Amma, təəssüflər olsun ki, danışıqlar arzu edilən nəticəni hələ verməmişdir. Digər beynəlxalq təşkilatlar – BMT, ATƏT, İslam Konfransı Təşkilatı kimi, İqtisadi Əməkdaşlıq Təşkilatı da təcavüzkarı öz qoşunlarını Azərbaycanın işğal olunmuş bütün ərazilərindən çıxarmağa, regionda sülhü və sabitliyi bərpa etməyə dəfələrlə çağırmışdır.

Münaqişənin dincliklə aradan qaldırılmasına çalışdığımızı bir daha təsdiqləyirik, hörmətli dövlət başçıları, sizdən xahiş edirəm ki, bu münaqişənin tezliklə aradan qaldırılması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması və bir milyondan artıq azərbaycanlı qaçqının öz ocaqlarına qayıtması üçün bütün imkanlarınızdan istifadə edəsiniz.

Zati-aliləri!

Təşkilatımızın üç illik fəaliyyətini qiymətləndirərək deyə bilərik ki, o, inamla inkişaf edir, ən iri və ən nüfuzlu regional təşkilatlardan birinə çevrilir. Bu prosesdə EKO-nun baş katibi [281-282] Şəmşad Əhməd xan cənablarının rolunu və səylərini ayrıca qeyd etmək və təşkilatımızın işinə verdiyi töhfəyə görə ona minnətdarlığımı bildirmək istəyirəm.

Mən Öndər Özər cənablarının EKO-nun baş katibi vəzifəsinə namizədliyini dəstəkləyir və ümidvaram ki, bu fəxri vəzifənin öhdəsindən o, uğurla gələcəkdir.

Biz çalışmalıyıq ki, təşkilatımız regionda sülhü, sabitliyi və iqtisadi tərəqqini təmin etmək vəzifəsini daha səmərəli yerinə yetirə bilsin.

Əminəm ki, biz buna birgə səylərimizlə nail olacağıq.

Diqqətinizə görə təşəkkür edirəm. [282-283]

## DÖRDÜNCÜ ZİRVƏ TOPLANTISININ YEKUN İCLASINDA NİTQ

*Aşqabat*

*14 may 1996-cı il*

Hörmətli prezident Saparmurad Niyazov!
Möhtərəm xanımlar və cənablar!

EKO-nun Aşqabatda dördüncü Zirvə toplantısı işini başa çatdırır. Biz hamımız – ölkələrimizin dövlət və nümayəndə heyətlərinin başçıları EKO-ya daxil olan ölkələrin dövlət başçılarının Aşqabat görüşünü EKO-nun həyatında və gələcək fəaliyyətində yeni mərhələ ilə əlamətdar etmək üçün buraya böyük arzu ilə gəlmişik. Mübaliğəsiz demək olar ki, ümidlərimiz doğruldu – EKO ölkələri dövlət başçılarının Aşqabat görüşü uğurla başa çatır, mühüm sənədlər qəbul edilmişdir. Aşqabat bəyannaməsi bu sənədlər arasında xüsusi əhəmiyyətə malikdir. Bütün bunlar EKO-nun baş katibi və təbii ki, Türkmənistan prezidenti, dostumuz Saparmurad Niyazov tərəfindən görülmüş böyük hazırlıq işi sayəsində mümkün olmuşdur. Təbii ki, onlarla birlikdə ölkələrimizin xarici işlər nazirləri, nümayəndə heyətləri də böyük hazırlıq işi görmüşlər hamısı birlikdə. Lakin aydındır ki, işin əsas ağırlığı Türkmənistanın, onun prezidenti, dostumuz Saparmurad Niyazovun və bu görüşü uzun müddət hazırlamış olan adamların böyük bir qrupunun üzərinə düşür.

Bu görüşdəki dövlət başçıları adından demək istəyirəm ki, görüş çox uğurlu və son dərəcə əlverişli şəraitdə keçdi, hazırlıq işi bunda öz rolunu oynadı ki, qısa müddətdə biz fikir mübadiləsi apardıq, öz mülahizələrimizi söylədik, mühüm məsələləri müzakirə etdik və son dərəcə əhəmiyyətli sənəd qəbul etdik.

Bütün bunlar bizim, dövlət başçılarının üzərinə bir vəzifə qoyur ki, Türkmənistan prezidenti, dostumuz Saparmurad Niyazov Türkmənbaşıya bu görüşün mümkün olması üçün görülmüş çox böyük işə görə və görüşün belə müvəffəqiyyətlə keçməsi üçün onun və bütün həmkarlarının Türkmənistan torpağında dünən və bu gün apardıqları böyük işə görə dərin minnətdarlığımızı bildirək.

Bununla bərabər mən Türkmənistan prezidenti Sapar[283-284]murad Niyazovu bizim görüşün sədri seçilməsi münasibətilə təbrik etmək istəyirəm. Biz hamımız onu təbrik etdik. Lakin deməliyəm ki, o öz üzərinə böyük məsuliyyət götürmüşdür, çünki bu işi gələn görüşədək aparacaqdır. Buna görə də bütün dövlət başçıları adından Saparmurad Niyazova bu böyük və mühüm işdə uğurlar arzulamaq istəyirəm, təbii olaraq, vəd etməliyik ki, biz hamımız bu işdə ona yaxından kömək göstərəcəyik.

Bu görüşlə bağlı daha bir məsələni də qeyd etmək istəyirəm. Biz burada, Aşqabatda bu rəsmi görüş çərçivəsindən kənarda da görüşmək, fikir mübadiləsi aparmaq imkanına malik olduq, dövlət başçıları arasında ikitərəfli görüşlər fərdi qaydada da keçirildi və bunun üçün Türkmənistan, ölkə hökuməti Türkmənistan prezidenti Saparmurad Niyazovun şəxsən özü gözəl imkanlar yaratmışdı.

Mən bütün bunlara görə təşəkkürümü bildirmək və sizə gələcək fəaliyyətinizdə uğurlar arzulamaq istəyirəm. Bütün dövlət başçıları adından Türkmənistan xalqına dərin ehtiram hisslərimi çatdırmaq istəyirəm. Biz dünən də, bu gün də Türkmənistanın həyatında böyük dəyişikliklər baş verdiyini gördük, çox şey tikilir, çox işlər görülür – bütün bunlar Türkmənistanın müstəqilliyinin bəhrələridir, bütün bunlar, əlbəttə, Türkmənistan prezidenti Saparmurad Niyazov Türkmənbaşının coşqun fəaliyyətinin bəhrələridir. Mən bütün bunlardan çox məmnun qaldığımı və bir daha bütün dövlət başçıları adından dərin minnətdarlıq və təşəkkürümü bildirirəm. Sizə böyük uğurlar arzulayıram. [284-285]

## MDB ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*16 may 1996-cı il*

**Sual: Cənab prezident, MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qarşıdakı Zirvə toplantısında hansı məsələlər müzakirə olunacaqdır?**

**Cavab:** İnteqrasiya proseslərinin inkişaf etdirilməsi ilə əlaqədar məsələ orada müzakirə ediləcək ən böyük məsələlərdən biridir. Zirvə toplantısında bundan əlavə, daxili işlər nazirliklərinin təşkilatını yaratmaq, cinayətkarlığa qarşı mübarizəni gücləndirmək və digər məsələlər müzakirə ediləcəkdir. Belə məsələlərdən biri də Rusiyada demokratik islahatların müdafiə edilməsi barədə MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qəbul edəcəyi bəyanatdır. Başqa məsələlər də var. Hesab edirəm ki, bu görüş çox əhəmiyyətli olacaqdır.

**Sual: Cənab prezident, respublikamız təklif edilən inteqrasiya prosesinə qoşulacaqdırmı?**

**Cavab:** Biz ümumiyyətlə inteqrasiyanın tərəfdarıyıq. Ancaq bu inteqrasiyanın hansı hissəsini qəbul etməyimiz, hansı hissəsini qəbul etməməyimiz başqa məsələdir. Əlbəttə, inteqrasiya olmalıdır və bunsuz yaşamaq mümkün deyil. MDB üzvü olan ölkələr arasında inteqrasiya bizim üçün çox əhəmiyyətlidir. Amma inteqrasiyanın iqtisadi tərəfi və bunun da bəzi sahələri – hansına biz qoşula bilərik, hansına qoşula bilmərik – var. Biz bu məsələlərə fərdi baxırıq.

**Sual: Cənab prezident, sizin göstərişinizə əsasən "Mayak" radiostansiyasının verilişləri Azərbaycan ərazisində yenidən yayılır. Buna görə radiostansiyanın dinləyiciləri adından Sizə təşəkkürümü bildirirəm. Siz** [285-286] **Azərbaycanın digər dövlətlərlə inteqrasiyası yolunda atılmış son addımları necə qiymətləndirirsiniz? Məlumdur ki, artıq bir neçə hökumətlərarası saziş imzalanmışdır.**

**Cavab:** Ümumiyyətlə ikitərəfli sazişlər çox əhəmiyyətlidir. Biz belə sənədləri imzalamışıq və imzalayırıq. Bir daha deyirəm ki, biz MDB çərçivəsində həm də inteqrasiya prosesləri ilə bağlı olan bir çox proqramlarda fəal iştirak edirik. [286-287]

## RUSİYA FEDERAL MƏCLİSİ FEDERASİYA ŞURASININ SƏDRİ, MDB PARLAMENTLƏRARASI ASSAMBLEYASI ŞURASININ SƏDRİ YEQOR STROYEVLƏ GÖRÜŞDƏN SONRA JURNALİSTİN SUALINA CAVAB

*Moskva*

*16 may 1996-cı il*

Yeqor Semyonoviçlə çox ətraflı söhbətimiz oldu. Söhbət ən əvvəl Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi məsələləri ilə bağlı idi. Rusiya böyük ölkədir, bizə dost ölkədir. Rusiya bizim şimal qonşumuzdur, biz Rusiya ilə tarixən bağlıyıq. Buna görə də Rusiya ilə Azərbaycan arasında münasibətlər bizim üçün xarici siyasətimizdə üstün istiqamət təşkil edir. O ki, qaldı MDB-yə, əlbəttə, istərdik ki, bu birlik daha səmərəli orqan olsun. Mən belə düşünürəm ki, biz hər dəfə toplaşdıqda irəliyə doğru addım atırıq. Sabah dövlət başçıları çox mühüm məsələləri müzakirə edəcəklər. Bu məsələlərin müzakirəsinə mən də hazıram. [287-288]

## RUSİYA FEDERAL MƏCLİSİ MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ İCLASINDA BƏYANAT

*Moskva, Kreml, Yekaterina salonu*

*17 may 1996-cı il*

Hörmətli sədr, hörmətli dövlət başçıları, hökumət başçıları. Mən Rusiyada islahatların dəstəklənməsi haqqında bəyanatın müzakirəyə verilmiş layihəsini tamamilə dəstəkləyirəm. Sovet İttifaqının süqutu qanunauyğun obyektiv tarixi proseslərin nəticəsidir. Əvvəllər Sovet İttifaqının tərkibində olmuş respublikaların dövlət müstəqilliyi və suverenlik əldə etməsi tarixi hadisədir, azadlıq və istiqlaliyyət qazanan hər bir xalqın milli sərvətidir. Buna görə də bizim məqsədimiz, vəzifəmiz bütün bunları qoruyub saxlamaqdan ibarətdir. İstər Rusiyada, istərsə də digər MDB ölkələrində siyasi və iqtisadi islahatlar aparılması, tamamilə yeni bir həyat qurulması Sovet İttifaqının süqutundan sonra gələcək həyatın əsasına çevrilmişdir. Bu baxımdan Rusiya ilk cığıraçandır, Rusiya nümunədir. İqtisadi və siyasi islahatlar məhz Rusiyada başlanmış və uğurla həyata keçirilir. Bu islahatların aparılmasının təşəbbüsçüsü Rusiya prezidenti Boris Nikolayeviç Yeltsindir. Məhz bu, MDB-nin yaranması və mövcudluğu üçün əsas olmuşdur. Zənnimcə, bu həm də MDB-nin daha da möhkəmlənməsi və inkişaf etməsi, Rusiya ilə dövlət müstəqilliyi qazanmış digər MDB ölkələri arasında dostluq münasibətlərinin möhkəmlənməsi və inkişafı üçün etibarlı əsas və təminatdır.

Buna görə də prezident seçkiləri ilə əlaqədar hazırda Rusiyada çox fəal proseslər getdiyi bir dövrdə biz buna biganə qala bilmərik, çünki Rusiyada nə baş verirsə, ölkələrimizdə, o cümlədən Azərbaycanda əksini tapır. Təbii ki, biz Rusiyada demokratik islahatlar aparılması xəttini fəal dəstəkləmişik və dəstəkləyirik. Bu, düzgün xətdir. O, hələlik nə Rusiyanı, nə də [288-289] ölkələrimizi arzu edilən nəticələrə bəlkə də gətirib çıxarmamışdır, lakin bu nəticələr şübhəsiz, olacaqdır. Biz bu xəttə alternativ olan başqa bir xətt görmürük. Buna görə də bu gün Rusiyada aparılan islahatlar xəttini, Rusiyada prezident Boris Nikolayeviç Yeltsinin rəhbərliyi altında həyata keçirilən bütün tədbirləri Azərbaycan tamamilə dəstəkləyir. Zənnimcə, prezident seçkiləri məhz bu prinsiplərə əsaslanmalıdır.

Mən öz tərəfimdən, Azərbaycan xalqının rəyini ifadə edərək ümidvaram ki, Rusiya xalqı düz qərara gələcəkdir. Azərbaycanda biz bu xətti – demokratiya xəttini, islahatlar xəttini, Boris Nikolayeviç Yeltsinin həyata keçirdiyi xətti dəstəkləyirik və dəstəkləyəcəyik. [289-290]

## MDB DÖVLƏT BAŞÇILARI ŞURASININ MOSKVADA KEÇİRİLMİŞ İCLASININ YEKUNLARINA DAİR MƏTBUAT KONFRANSINDA DAĞLIQ QARABAĞIN STATUSU BARƏDƏ SUALA CAVAB

*17 may 1996-cı il*

**Sual: Siz Dağlıq Qarabağın müstəqilliyinin geniş statusundan tez-tez danışırsınız. Bu, nə kimi statusdur və onun tərifini hansı siyasi sənədlərdə tapmaq olar?**

**Cavab:** Bəli, mən dəfələrlə demişəm ki, Azərbaycan Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyətin ən yüksək statusunu verməyə hazırdır. Mən hazırda beynəlxalq praktikada mövcud olan ən yüksək statusu nəzərdə tuturam. Bu gün mən bunu bir daha təsdiq edirəm. [290-291]

## NORVEÇİN MİLLİ BAYRAMI – ÖLKƏ KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİ GÜNÜ MÜNASİBƏTİLƏ NORVEÇİN AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*20 may 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi – bu ziyafət iştirakçılarının hamısını, Norveç xalqını Norveçin milli bayramı – Konstitusiya günü münasibətilə təbrik edirəm, Norveç xalqına öz xoş arzularımı bildirirəm.

Norveç Yer kürəsinin şimalında yerləşən və qədim tarixi, çox gözəl təbiəti, mənzərəsi, başlıcası isə çox gözəl insanları olan ölkədir. Norveçin çoxəsrlik tarixi var, lakin Azərbaycan kimi, o da bir müstəqil dövlət olaraq gəncdir. Doğrudur, bizim müstəqillik yaşımızın fərqi var. Norveç 90 ildir ki, dövlət müstəqilliyi əldə edib, müstəqil dövlət kimi yaşayır. Azərbaycan isə beş ildir ki, müstəqil dövlətdir. Ancaq bunlara baxmayaraq, Norveç də müstəqil bir dövlət kimi gəncdir. Dövlət müstəqilliyini əldə etdikdən sonra, öz milli konstitusiyasını qəbul etdikdən sonra Norveç xalqı çox böyük inkişaf dövrü keçmişdir və dünyanın iqtisadi cəhətdən inkişaf etmiş dövlətləri sırasındadır. Norveç xalqının müstəqillik dövründə əldə etdiyi böyük nailiyyətlərdən biri demokratiyanın bərqərar olmasından, həyatın, dövlətin, cəmiyyətin demokratik prinsiplər əsasında yaşamasından ibarətdir.

Avropanın inkişaf etmiş dövlətlərindən biri, bir çox beynəlxalq təşkilatların fəal üzvü olan Norveç beynəlxalq aləmdə müstəqil siyasət yeridir və bu siyasətinə görə də böyük hörmət, ehtiram qazanıbdır. Norveçin iqtisadi inkişafında mühüm rol oynayan "Statoyl" şirkəti qısa bir zamanda, yəni 25-30 il müddətində dənizin dərinliklərindən neft istehsal edərək həm dünya neft şirkətləri arasında özünəməxsus yer tutub, həm də Norveç xalqının rifahının yüksəlməsində böyük xidmətlər göstəribdir. Lakin Norveçin iqtisadiyyatını inkişaf etdirən təkcə [291-292] "Statoyl" şirkəti deyildir, onunla bərabər dünyada məşhur olan bir çox şirkətlər Norveçi yüksək sənaye imkanlarına malik bir dövlət kimi tanıdıblar.

Norveç ilə Azərbaycan arasında məsafə böyükdür, lakin bizim əməkdaşlığımız, bir-birimizə olan münasibətlərimiz bizi çox yaxınlaşdırıbdır. Əgər Azərbaycanın böyük dostu, hörmətli Tur Heyerdalın nəzəriyyəsini nəzərə alsaq, deyə bilərik ki, tarixi köklərimiz də bir-birinə çox yaxın olubdur. Bunların hamısının əsasında indi Norveç ilə Azərbaycan arasında çox yüksək səviyyəli əməkdaşlıq mövcuddur. Biz bu əməkdaşlığı qiymətləndiririk və onu bundan sonra da irəlilətməyə çalışacağıq. Norveçin "Statoyl" şirkəti Azərbaycanda artıq bir neçə ildir ki, fəaliyyət göstərir. O, bizim 1994-cü ildə imzaladığımız neft müqaviləsinin böyük üzvlərindən biridir. Ümumiyyətlə, tək "Statoyl" deyil, Norveçin bir çox digər şirkətləri də artıq burada təmsil olunub, fəaliyyətə başlayıblar. Biz bunların hamısını bəyənirik, bunlara müsbət münasibət göstəririk və bu gün bir daha bəyan etmək istəyirəm ki, biz Norveçin Azərbaycana daha fəal gəlməsinə tərəfdarıq.

Bir ay bundan öncə mən Norveçin baş naziri, hörmətli xanım Brundtlandın dəvəti ilə Norveçdə rəsmi səfərdə olmuşam. Bu səfər zamanı biz böyük əhəmiyyətli danışıqlar aparmışıq, iki ölkənin gələcək əməkdaşlığına dair çox mühüm sənədlər imzalamışıq. Mən bu səfəri çox yüksək qiymətləndirirəm. Norveçin baş naziri, hörmətli xanım Brundtland ilə keçirdiyimiz söhbətlərdə biz həm ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsi problemlərini müzakirə etdik, həm də regional problemləri, Avropanın təhlükəsizliyi problemlərini, beynəlxalq problemləri, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüzlə bağlı məsələləri çox geniş müzakirə etdik. Mən bunları çox əhəmiyyətli sayıram. Norveç kralı ilə, parlamentin sədri ilə görüşlərimiz, parlamentdə keçirdiyimiz görüş zamanı çox maraqlı və əhəmiyyətli söhbətlərimiz oldu. Bunların hamısı birlikdə dövlətlərimiz arasında əlaqələri daha yüksək səviyyəyə qaldırdı.

"Statoyl" şirkəti qərargahının yerləşdiyi Stavanger şəhərinə səfərimiz də çox maraqlı və əhəmiyyətli oldu. Şirkətm prezidenti ilə danışdıqlarımız və ümumiyyətlə, bu şirkətlə yaxından tanışlığımız, başqa şirkətlərlə və onların prezidentləri ilə görüşlərimiz də çox əhəmiyyətli oldu. Şimal dənizində sahildən 240 kilometr məsafədə yerləşən Norveçin "Sleyper" neft-qaz [292-293] platformasına səyahətimiz, hesab edirəm ki, səfərimizin ən maraqlı səhifələrindən biridir. Bütün bunlar bizdə çox zəngin təəssürat yaratdı, Norveçi daha yaxından tanımağa imkan verdi, Norveç-Azərbaycan dostluğunun, əməkdaşlığının daha yüksəklərə qaldırılması üçün əsas yaratdı. Mən baş nazir xanım Brundtlandın və ümumiyyətlə, Norveç hökumətinin, dövlətinin, "Statoyl" şirkətinin qonaqpərvərliyini xüsusi qeyd etmək istəyirəm. Bizə göstərilən diqqət və qayğıya görə, mənim səfərim zamanı yaranmış mehriban dostluq şəraitinə görə bir daha təşəkkürümü bildirirəm.

Bu gün biz norveçlilərlə birlikdə Norveçin milli bayramını – Konstitusiya gününü qeyd edirik və bu da Norveç-Azərbaycan dostluğunun rəmzidir. Bu bayram günü mən Norveç hökumətinə qarşıda duran vəzifələrin yerinə yetirilməsində uğurlar arzulayıram. Norveç xalqına səadət və xoşbəxtlik diləyirəm.

Norveçin şərəfinə, Norveç xalqının şərəfinə, Norveç hökumətinin şərəfinə, Norveç-Azərbaycan dostluğu şərəfinə badə qaldırıram. Sağ olun. [293-294]

## ŞRİ LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASI, ZAMBİYA RESPUBLİKASI, QANA RESPUBLİKASI, AVSTRİYA RESPUBLİKASI VƏ POLŞA RESPUBLİKASI FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRLƏRİNİN ETİMADNAMƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*21 may 1996-cı il*

Hörmətli səfirlər!

Şri Lanka dövlətinin hörmətli fövqəladə və səlahiyyətli səfiri, Zambiya dövlətinin hörmətli fövqəladə və səlahiyyətli səfiri, Qana dövlətinin hörmətli fövqəladə və səlahiyyətli səfiri, Avstriya dövlətinin hörmətli fövqəladə və səlahiyyətli səfiri, Polşa dövlətinin hörmətli fövqəladə və səlahiyyətli səfiri!

Azərbaycan Respublikasının həyatında bu gün əlamətdar bir hadisədir: diplomatik əlaqələrdə olduğumuz beş dövlətin fövqəladə və səlahiyyətli səfirləri ölkəmizdə işə başlayırlar. Bu münasibətlə öz etimadnamələrini mənə təqdim etdilər. Mən sizin etimadnamələrinizi məmnuniyyətlə qəbul edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, siz öz dövlətlərinizi Azərbaycanda təmsil edərək, bu yüksək vəzifəni şərəflə yerinə yetirəcəksiniz. Bu yüksək vəzifələrə təyin olunmağınız münasibətilə mən hər birinizi ürəkdən təbrik edirəm və bu vəzifələri həyata keçirməkdə sizə uğurlar arzulayıram.

Sizin ölkələriniz müstəqil Azərbaycan Respublikası üçün çox böyük maraq doğurur. Azərbaycan ilə sizin ölkələriniz arasında əlaqələrin bundan sonra da inkişaf etməsində biz çox maraqlıyıq və buna böyük əhəmiyyət veririk. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu yüksək vəzifələrdə siz öz ölkələriniz ilə Azərbaycan arasında olan əlaqələrin bundan sonra da inkişaf etməsinə sədaqətlə xidmət edəcəksiniz, bu əlaqələrin daha da yüksəklərə qalxmasına çalışacaqsınız. Əmin ola bilərsiniz ki, Azərbaycanın bütün orqanları tərəfindən, şəxsən mənim tərəfimdən sizin hər birinizin respublikamızda öz ölkənizi təmsil etməsi və üzərinizə düşən səfir vəzifələrini layi[294-295]qincə yerinə yetirməsi üçün bütün imkanlar yaradılacaq, biz bu sahədə sizə əlimizdən gələn köməyi edəcəyik.

Biz, müstəqil Azərbaycan Respublikası, dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr qurmağa çalışırıq, bu əlaqələri özümüz üçün əsas vəzifələrdən biri hesab edirik. Ona görə də sizin ölkələrinizlə əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün öz tərəfimizdən lazım olan tədbirlərin həyata keçirilməsini təmin edəcəyik.

Asiya qitəsinin cənubunda olan Şri Lanka ölkəsinin tarixi bizə yaxşı məlumdur. Bu ölkəyə Azərbaycanda həmişə çox maraq göstərilibdir. İndi, bizim diplomatik əlaqələrimiz yarandığı və Şri Lankanın Azərbaycana təyin olunmuş səfiri işə başladığı zaman bu əlaqələrimiz daha da inkişaf edəcəkdir. Mən buna əminəm.

Afrika qitəsinin mərkəzində yerləşmiş Zambiya və Qana dövlətləri də Azərbaycana çox tanışdırlar. Sizin xalqlarınızın milli azadlıq, dövlət müstəqilliyi uğrunda apardığı mübarizələr tarixini də biz yaxşı bilirik. İndi müstəqil dövlətlər kimi həm Zambiya, həm də Qana Dünya Birliyinə daxildirlər və özləri öz talelərinin sahibi olaraq həyatlarını qururlar. Sizin ölkələrinizlə Azərbaycan arasında olan əlaqələrin bundan sonra da inkişaf etməsi üçün çox böyük imkanlar var. Biz çalışacağıq ki, bu imkanlardan səmərəli istifadə edək.

Avropanın mərkəzində yerləşən Avstriya Azərbaycanda çox yaxşı tanınır. Avstriyanın böyük tarixi, onun dünyada məşhur olan ənənələri, dünya sivilizasiyasına Avstriyanın verdiyi töhfələr ümumbəşəri dəyərləri zənginləşdirmiş töhfələrdir. Bunlar hamısı Azərbaycan xalqına yaxşı məlumdur. Avstriya ilə Azərbaycan arasında diplomatik əlaqələr artıq var. Biz Avstriyanın ikinci səfirini qəbul edirik. Mən çox məmnun olduğumu bildirmək istəyirəm ki, bu əlaqələr bundan sonra da inkişaf edəcəkdir.

Şərqi Avropada yerləşən Polşa bizim üçün daha da yaxındır, tanışdır. Çünki XX əsrin bir hissəsində – Azərbaycan Sovetlər İttifaqının tərkibində olarkən biz Polşa ilə eyni sistemdə yaşamışıq. İndi eyni keçid dövrünü keçiririk, ona görə də mövcud problemlərimizin bir-birinə çox bənzərliyi, oxşarlığı var. Öz vəziyyətimizi bildiyimizə görə Polşanın indiki vəziyyətini daha da dərindən dərk edirik. Polşa ilə Azərbaycanın əməkdaşlığı və keçid dövründə əldə olunan təcrübələrdən istifadə etmək, yəni bu barədə mübadilə aparmaq bizim üçün [295-296] çox əhəmiyyətlidir. Ona görə də Polşa ilə Azərbaycan arasında diplomatik əlaqələrin bərqərar olması, Polşanın Azərbaycana fövqəladə və səlahiyyətli səfirinin təyin edilməsi çox əlamətdar bir hadisədir. Güman edirəm ki, bu hadisə ölkələrimiz arasındakı əlaqələri daha da inkişaf etdirəcəkdir.

Cənab səfirlər, Azərbaycana səfir təyin olunmağınız münasibətilə sizin hər birinizi bir daha təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar arzulayıram. Sağ olun. [296-297]

## ŞAİR SABİR RÜSTƏMXANLIYA

Hörmətli Sabir Rüstəmxanlı!

Sizi – müasir Azərbaycan ədəbiyyatı və publisistikasının tanınmış nümayəndəsini anadan olmağınızın 50 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycanın ədəbi mühitində öz yaradıcılığı ilə xalqın milli şüurunun təkamülündə, xüsusilə gənc nəslin azadlıq hərəkatına qoşulmasında mühüm rol oynamış əsərlərin müəllifi kimi hörmət qazanmısınız. Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi, ərazi bütövlüyünün qorunması yolunda gedən gərgin ictimai-siyasi proseslərdə fəal iştirak edən ziyalılarımızdan biri də Siz olmusunuz. Müstəqil Azərbaycanın yeni tipli mətbuatının yaranmasında xidmətləriniz də təqdirəlayiqdir.

Əminəm ki, Azərbaycan ədəbiyyatının zəngin ənənələrini davam etdirərək oxucularınızı yeni-yeni sənət nümunələri ilə sevindirəcək, doğma Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsində əlinizdən gələni bundan sonra da əsirgəməyəcəksiniz.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni böyük yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*22 may 1996-cı il* [297-298]

## AZƏRBAYCANDA KEÇİRİLƏN GÜRCÜSTAN MƏDƏNİYYƏTİ GÜNLƏRİ ÇƏRÇİVƏSİNDƏ İKİ RESPUBLİKANIN İNCƏSƏNƏT USTALARININ BÖYÜK KONSERTİ BAŞA ÇATDIQDAN SONRA ÇIXIŞ

*Respublika Sarayı*

*22 may 1996-cı il*

Mən respublikamızda Gürcüstan mədəniyyəti günləri ilə əlaqədar Azərbaycana gəlmiş gürcüstanlı dostlarımızı səmimi salamlayıram. Heç bir çətinliyə baxmayaraq, incəsənət yaşayır. Bütün zamanələrdə adamlar incəsənətlə – mahnı, musiqi, rəqslərlə ünsiyyətdə yaşamışlar və bu gün də ünsiyyətdədirlər, Azərbaycanda da, Gürcüstanda da vəziyyət heç də asan olmasa da, bundan sonra da ünsiyyətdə olacaqlar.

İncəsənət adamları həmişə yaxınlaşdırıb, bir yerə toplayıb və birləşdiribdir. İndi də, istər Azərbaycanın, istərsə də Gürcüstanın böyük çətinliklərdən – dövlət müstəqilliyinin təşəkkülü ilə bağlı çətinliklərdən, tamamilə yeni sosial-iqtisadi sistemə keçidlə bağlı çətinliklərdən, həm gürcü xalqının, həm də Azərbaycan xalqının qarşılaşdığı itkilərlə bağlı çətinliklərdən keçdiyi dövrdə, bütün bunlara baxmayaraq, incəsənət bizi yaxınlaşdırır, incəsənət bizi birləşdirir, incəsənət bizi dostlaşdırır.

Mən şadam ki, bu gün bizim köhnə, gözəl ənənələrimiz özünü büruzə verir. Biz qardaş gürcü xalqının, qardaş müstəqil Gürcüstanın mədəniyyət və incəsənət ustalarını yenə də çox səmimi, yaxşı və mehriban qarşılayırıq.

Mən sizi ürəkdən salamlayır və əla çıxışınız münasibətilə təbrik edirəm. Gürcüstan incəsənəti Azərbaycanda həmişə yüksək qiymətləndirilib. Bu incəsənət, bu mədəniyyət bizə çox yaxın və əzizdir. Bu gün biz gürcü incəsənəti, Gürcüstan mədəniyyəti, gürcü mahnıları, rəqsləri ilə yenidən tanış olaraq, gürcü musiqisinin, gürcü rəqslərinin gözəl ifaçıları ilə görüşərək, öz xalqınızın incəsənətini necə məharətlə təqdim etməyinizə bir daha heyran qalırıq. [298-299]

Mən sizi ürəkdən salamlayıram, şadam ki, bizə qonaq gəlibsiniz. Keçmişdə bizim həmişə səmimi görüşlərimiz olub. Nə vaxtsa fasilə oldu, lakin indi, zənnimcə, gözəl ənənələrimizi bərpa etmişik. Tbilisidə, Gürcüstanda Azərbaycan mədəniyyəti günləri keçirildi, indi isə Azərbaycanda – Bakıda Gürcüstan mədəniyyəti günləri keçirilir. Dostum, Gürcüstan prezidenti Eduard Şevardnadze bir müddət əvvəl burada oldu, lap bu yaxınlarda, mart ayında isə mən prezident Şevardnadze cənablarının dəvəti ilə Tbilisiyə, Gürcüstana getdim. Çox maraqlı söhbətlərimiz, fikir mübadiləsi, səmərəli danışıqlar oldu. Biz bir çox mühüm sənədlər imzaladıq, Gürcüstan və Azərbaycan xalqları arasında indən belə əbədi olacaq dostluğun möhkəm bünövrəsini qoyduq.

Siz, incəsənət ustaları hamımıza kömək edirsiniz, əslinə qalsa, xalqlarımızı yaxınlaşdırır, sıx birləşdirir və dostluğumuzun möhkəmlənməsinə, əməkdaşlıq etməyimizə, tarixin istər gürcü xalqı üçün, istərsə də Azərbaycan xalqı üçün bu çox çətin dövründən əl-ələ verib keçməyimizə şərait yaradırsınız.

Bu gün burada həm Gürcüstanın, həm də Azərbaycanın incəsənət ustaları çıxış etdilər. Özü də sanki bir kollektiv kimi birlikdə çıxış etdilər. Hətta kimin Gürcüstandan, kimin isə Azərbaycandan çıxış etdiyini seçmək çətin idi. Bu gün sizin hamınız əla çıxış etdiniz. Mən hamınızı ürəkdən alqışladım. Hətta kimə daha çox, kimə nisbətən az əl çaldığımı söyləmək çətindir. Hər halda, əl çalmaqdan əllərim ağrıyır.

Bu gün burada həm gürcü, həm də Azərbaycan mahnıları səsləndi. Gürcülər Azərbaycan mahnılarını azərbaycanlılar isə gürcü mahnılarını ifa etdilər. Bu da tamamilə təbii haldır. Bu, bizim üçün adi haldır. Doğrudur, biz bir müddət bundan uzaq düşmüşdük. Lakin biz mehribançılığa adət etmişik. Çünki bu, bizə əcdadlarımızdan miras qalıb. Əcdadlarımız gürcü və Azərbaycan xalqlarının möhkəm dostluğunun bünövrəsini qoyublar. Biz isə bu dostluğu inkişaf etdirir və möhkəmləndiririk.

Bir daha deyirəm. Siz, incəsənət ustaları bu baxımdan böyük, nəcib iş görürsünüz. Mən sizin vasitənizlə gürcü xalqına, [299-300] Gürcüstana, Tbilisi şəhərinə, dostum Eduard Şevardnadzeyə, bütün qardaş və bacılarıma – bütün Gürcüstan vətəndaşlarına hərarətli salam göndərirəm. Onlara ən səmimi arzularımı bildirirəm, cansağlığı, firavanlıq, yeni həyat quruculuğunda, müstəqil, azad Gürcüstan quruculuğunda uğurlar arzulayıram.

Siz hamınız yaxşı görünürsünüz, yaxşı çıxış etdiniz, siz hamınız qəşəng və gözəlsiniz. Belə düşünürəm ki, bizim salonun reaksiyası buna kifayət qədər inandırıcı sübutdur. Mən sizin hamınızı qucaqlayıram, hamınızı öpürəm və sizə cansağlığı, firavanlıq, xoşbəxtlik arzulayıram. [300-301]

## "OQONYOK" JURNALI MÜXBİRLƏRİ İLƏ MÜSAHİBƏ

**– Cənab prezident, Siz Azərbaycanda hakimiyyətə gələndə müharibə aparan, iqtisadiyyatı dağılmış, separatçılığın hökm sürdüyü, Rusiya ilə əslində düşmənçilik münasibətləri olan bir respublikanı qəbul etmişdiniz. İndi bu problemlər ya həll edilmişdir, ya da əvvəlki kimi böhranlı vəziyyətdə deyildir. Buna necə nail olmağın siyasi yolları barədə fikirlərinizi bölüşdürün.**

– Burada hansısa bir konkret yol yoxdur. Respublikamız yaxşı respublikadır, xalqımız yaxşı xalqdır və təxminən səksəninci illərin ortalarından 1993-cü ilə qədər, mənim yenidən qayıdıb hakimiyyətin yüksək məsuliyyətini öz üzərimə götürdüyüm vaxtadək olanların hamısına yol verməmək olardı. Deməliyəm ki, üzərimə çox yüksək məsuliyyət götürmüşəm. Axı, mən 1982-ci ildə Azərbaycandan getdiyim dövrdən çox vaxt keçibdir.

Mən respublikanı çox yaxşı vəziyyətdə qoyub getmişdim. Həmin o 70-ci illərdə Azərbaycan bütün müttəfiq respublikalar arasında hər cəhətdən yaxşı olması ilə seçilirdi, özü də təkcə iqtisadi göstəricilərə görə yox. Burada vəziyyət də, mühit də yaxşı idi. Məsələn, indi korrupsiya ilə hamı mübarizə aparır. İndi heç kim demir ki, korrupsiya yoxdur. Ancaq o vaxtlar Sovetlər İttifaqında belə halın olduğunu etiraf etməyə qorxurdular. Mən isə bəyan etdim ki, Azərbaycanda rüşvətxorluq, korrupsiya var və bunlara qarşı mübarizə aparmaq lazımdır. Yəni, Azərbaycan açıqlıq baxımından, aşkarlıq baxımından müsbət mənada fərqlənirdi.

Respublika yaxşı vəziyyətdə idi...

Buyurun, bu da sizə birinci yol, ancaq kollektivi də, ailəni də, respublikanı da, ölkəni və xalqı da idarə etməkdən çox şey asılıdır.

Sonralar bizdə proseslər o qədər mənfi getdi ki, Azərbaycan son dərəcə böhranlı vəziyyətə düşdü.

1993-cü il üçün iqtisadiyyat dağılmışdı, xalq çox ağır vəziyyətdə idi. Respublika müharibə vəziyyətində idi, ərazimizin bir [301-302] hissəsi işğal olunmuşdu, hərc-mərclik, özbaşınalıq, parçalanma hökm sürürdü. Bunları siz bilirsiniz.

Bunun qarşısını necə almaq mümkün oldu?

Hesab edirəm ki, birincisi, xalqın etimadıdır. O etimad ki, məni gözdən salmaq üçün bir çox illər edilən cəhdlərə baxmayaraq, xalq bu etimadı daim mənə göstərirdi. Məlum oldu ki, yalnız az bir qisim adam öz şəxsi hikkələrinə görə mənə mənfi münasibət bəsləyirmiş. Xalqın böyük əksəriyyəti, hətta deyərdim ki, hamısı həmin ədalətsiz münasibətlə razı deyildi. Hətta mən Moskvada yaşayan illərdə də yanıma çox adamlar gəlirdi, mənə müraciət edir, məktub yazırdılar.

Yəni, öz əməyimlə, öz işimlə və insanlara qarşı münasibətimlə qazana bildiyim məhz həmin etimad qısa müddətdə respublikanı böhrandan çıxara bilməyimin əsası olmuşdur.

İkinci cəhət isə, şübhəsiz ki, təcrübədir.

Kim deyirsə ki, küçədən gələn hər kəs dövləti idarə edə bilər, səhv edir. İdarəetmə təcrübəsi prinsip etibarilə eynidir. Vaxtilə həmin müttəfiq respublikanı, indi isə müstəqil ölkəni idarə etməyim, – bunlar bir çox cəhətdən oxşar şeylərdir. Ona görə də uzun həyatım dövründə – həm Azərbaycanda, respublikaya rəhbərlik etdiyim dövrdə, həm də Moskvada, Sovetlər İttifaqının rəhbərlərindən biri olduğum dövrdə, – topladığım təcrübə çox böyük məktəb, çox böyük təcrübə idi. Şübhəsiz ki, bu, indi məsələlərin həllində mənə kömək edibdir.

Daha bir amil də var. Mən bunu müxtəlif ölkələrdə olanda hiss edirəm: məni tanıyırlar, vaxtilə görüşdüyüm, nə vaxtsa danışıqlar apardığım adamlar məni xatırlayırlar. Bəziləri isə məlumat kitablarına baxırlar ki, Əliyev siyasi büronun üzvü, SSRİ-nin rəhbərliyində olubdur, açıq deyirəm, hətta o ölkələrdə də, hansı ki, vaxtilə Sovetlər İttifaqı onlarla müxtəlif ideoloji cəbhədə idi, keçmişdəki münasibətdən asılı olmayaraq, fövqəldövlət kimi onun haqqında rəy indi də qalır. İnsanlar arasındakı münasibətlər dövlətlər parçalandıqdan sonra da qalır. Ona görə mənə də nəzərə çarpdırılan ehtiram bəsləyirlər. Məsələn, Rusiya ilə münasibətləri bərpa etmək məndən ötrü heç bir çətinlik törətmədi. O vaxtlar Sovetlər İttifaqında işləyən adamların tam əksəriyyəti indi də Rusiyada müxtəlif sahələrdə işləyir. Ona görə mənim onlarla indi də əlaqələrim var.

**– Sizin sözlərinizdə sanki SSRİ barədə həsrət səsləndi?...** [302-303]

– SSRİ barədə həsrət yoxdur. Mən hesab edirəm ki, Sovetlər İttifaqının dağılması qanunauyğun proses idi. Bu, reallıq idi. Bu, labüd idi. Bu prosesin qarşısını almaq çətin idi.

Ancaq birlikdə işlədiyimiz adamlar, şərait, görüşlər barədə həsrət var... Şübhəsiz ki, mən bunların hamısını xatırlayıram. Böyük səmimiyyətlə, böyük hörmətlə xatırlayıram. Hər halda bu, mənim də həyatımdır.

Lakin Azərbaycanın müstəqilliyi heç vaxt sual altına alınmayacaq, biz heç vaxt başqa dövlətə birləşməyəcəyik.

**– MDB-nin üzvü olan bəzi dövlətlər başqa cür düşünürlər...**

– Bilirsiniz ki, Azərbaycan əvvəllər MDB-yə daxil deyildi. Mən bir neçə ay inandırmalı və ümumiyyətlə möhkəm iş aparmalı oldum ki, təkcə parlamentin deyil, həm də ictimai rəyin razılığına nail olum. İnsanları inandırmaq lazım idi ki, Azərbaycan MDB-yə daxil olmalıdır. Mən də bunu etdim, buna nail oldum.

Mən bu ittifaqı, bu birliyi çox vacib hesab edirəm. Ancaq bu, məhz birlik, müstəqil dövlətlərin birliyi olmalıdır. Öz adına tam uyğun olmalıdır. Mən MDB çərçivəsindəki görüşlərimizdə demişəm: yalnız yaxşı mexanizm, məhz birliyə lazım olan, ancaq bir-birinin müstəqilliyinə toxunmayan səmərəli fəaliyyət mexanizmi işləyib hazırlamaq lazımdır. Mən belə MDB-yə tərəfdaram.

İndi isə birliyin nə üçün belə vacib olması barədə. İş bundadır ki, MDB tərkibində olan ölkələrin hamısı eyni bir yolu keçir. Bəziləri bir qədər irəlidə, başqaları geridədir, lakin biz hamımız keçid dövrünün eyni yolundayıq. Çünki biz hamımız iqtisadi cəhətdən bir-birimizlə çox sıx bağlı olmuşuq. Əgər Sovetlər İttifaqının həmin inteqrasiyasını, iqtisadi inteqrasiyasını Müstəqil Dövlətlər Birliyinə keçirmək mümkün olsaydı, bu, çox gözəl olardı. Mən belə MDB-yə və belə prosesə tərəfdaram.

**– Bu prosesdə Rusiyanın rolunu necə görürsünüz?**

– Siz bilirsiniz, mən hər şeydən öncə ölkələr arasında, o cümlədən MDB tərkibindəki ölkələr arasında ikitərəfli münasibətlərin olmasını zəruri və vacib hesab edirəm. Yəni MDB-yə daxil olmaq dövlətlər arasındakı ikitərəfli münasibətlərin inkişafını istisna etmir, əksinə, nəzərdə tutur. Ona görə də mən Rusiya ilə Azərbaycan arasındakı ikitərəfli münasibətlərə çox böyük əhəmiyyət verirəm, şübhəsiz, mən hesab etmirəm [303-304] ki, bizim münasibətlərimizin səviyyəsi ehtiyaclarımıza, – həm də təkcə Azərbaycanın deyil, Rusiyanın da ehtiyaclarına cavab verir. İkitərəfli münasibətlərimizi daha intensiv inkişaf etdirmək üçün tədbirlər görülməsini zəruri sayıram. Rusiya Azərbaycanın əsrlər boyu bağlı olduğu, həm iqtisadi cəhətdən, həm də elm, mədəniyyət, təhsil, humanitar əlaqələr, insani əlaqələr sahəsində bağlı olduğu ən böyük tərəfdaş, ən böyük ölkədir. Biz Sovetlər İttifaqının tərkibində olarkən fərqi yox idi, sən haradasan – Moskvada, Leninqradda, Omskda, Novosibirskdə, yaxud Bakıda. Hamısı vahid ölkə idi. Neçə illər, neçə onilliklər birlikdə yaşamışdıq... İndi bütün bunları kəsmək, qırmaq, Rusiyanı da, Azərbaycanı da – eləcə də digər ölkələri – heç vaxt birlikdə ittifaqda olmayanlar arasında mövcud olan münasibətlərə gətirib çıxarmaq, – bu, mümkün deyildir. Biz iki yüz il Rusiyanın tərkibində, bir dövlətin tərkibində olmuşuq və bu iki yüz il ərzində əlaqələr o qədər çulğaşmışdır ki, bunları qırmaq mümkün deyildir. Heç lazım da deyildir. Əksinə, bir çox başqa ölkələrlə belə əlaqələr yaratmaq mümkün olsaydı, çox yaxşı olardı.

Rusiya ilə münasibətlər – xüsusi münasibətlərdir. İstər iqtisadi əməkdaşlıq baxımından, istərsə də elmi və mədəni dəyərlərin mübadiləsi baxımından, sadəcə olaraq insanlar arasında münasibətlər saxlamaq baxımından xüsusi münasibətlərdir. Bu, çox mühümdür.

**– Həyatınızda ən ağır məqam hansı olmuşdur?**

– Həyatımın ən ağır dövrü Naxçıvanda olmuşdur. Azərbaycana qayıtmağım qeyri-adi xarakter daşıyırdı. Mənim qayıtmağıma Azərbaycanda da mane olurdular, Moskvada Sovetlər İttifaqının rəhbərləri də mane olurdular. Moskvada məndən ötrü ümumiyyətlə dözülməz şərait yaradılmışdı – mən əslində cəmiyyətdən təcrid edilmişdim, ciddi nəzarət altında idim, ev dustağı idim.

Mənə Bakıda da çətin idi. Naxçıvana getməli oldum. Orada da asan deyildi. Birincisi, bu respublika özü blokada vəziyyətində idi. Paytaxtla və Azərbaycanın digər bölgələri ilə normal əlaqə yox idi. Blokada vəziyyəti bir çox mühüm həyati amillərin olmamasını da şərtləndirmişdi – elektrik enerjisi yox idi, su, qaz çatışmırdı. Vaxtilə Naxçıvana da, Dağlıq Qarabağa da qazı mən çəkdirmişdim.

İlk vaxtlar yaşamağa yerim də yox idi, qohumlarımın yanında qalırdım, mənzil şəraiti çox çətin idi. Mən orada bir ildən [304-305] çox adi sakin kimi yaşadım. 1991-ci ilin sentyabrında isə xalq qalxdı və tələb etdi ki, mən Naxçıvan Respublikasının Ali Sovetinə başçılıq edim. Yəni əslində respublikanın başçısı olum. Düzünü deyirəm, mən bunu heç də istəmirdim. Lakin bir neçə gün böyük mitinqlər keçirildi, məni razı salmaq istəyirdilər. Sonra hiss etdim ki, Naxçıvan xalqı üçün həyatın ən ağır dövründə bu yükü öz üzərimə götürməliyəm.

Lakin hətta bu ağır həyatda da mən özüm üçün maraqlı və sevindirici olan çox şey tapırdım, yenə də keçmiş əlaqələrimdən istifadə edirdim. İran və Türkiyə ilə əlaqə yarada bilmişdim. Biz Araz çayı üzərində körpü tikdik, bu, böyük hadisə idi, çünki qısa bir müddətdə əslində həyat yolu yaratmışdıq. İrandan elektrik xətti çəkdik, mən bir çox başqa işlər də görə bildim.

Sonra məni Bakıya çağırdılar. Burada artıq vətəndaş müharibəsi gedirdi, bir-birinə atəş açırdılar, hərənin öz silahlı dəstəsi var idi. Qayda-qanun yaratmaq üçün mənə iki il yarım vaxt lazım gəldi.

İndi iki ilə yaxındır ki, xalq əmin-amanlıqda yaşayır. Bəli, insanlar dörd ildir, çadırlarda yaşayırlar. Siz həmin düşərgələrdə olmuş, qaçqınların vəziyyətini görmüsünüz. Bəli, ağırdır, son dərəcə ağırdır. Lakin bir var, müharibə gedir, bir də var ki, müharibə yoxdur. Tabutlar gətirmirlər, qalan işlərin öhdəsindən gələ bilərik.

**– Siz həyatda nədənsə qorxursunuzmu?**

– Mən indi heç nədən qorxmuram, o zaman da heç nədən qorxmamışam. Buraya gələndə başa düşürdüm ki, ölüm təhlükəsi var. Bu, məni qorxutmadı.

**– Siz ən çox nəyi sevirsiniz?**

– Bilirsiniz, mən özümü siyasi fəaliyyətə, öz xalqıma, respublikama həsr etmiş adamam. Respublikamı çox sevirəm. Nə qədər təmtəraqlı səslənsə də, mən hər şeydən çox torpağımı, xalqımı sevirəm. Öz Azərbaycan Respublikamı sevirəm. Axıra qədər də onunla bir yerdə olacağam.

O ki, qaldı şəxsi həyatıma, hər bir adam kimi, mənim də bağlı olduğum şeylər var. Lakin bu, təkcə mənə və yaxın adamlarıma aiddir.

**– İndiyədək yaşadığınız həyata yekun vurularsa, başlıca hadisə nə olardı?**

– Bilirsiniz, mən bu sual barədə heç vaxt düşünməmişəm, [305-306] ona görə cavabım o qədər də dəqiq görünməyə bilər. Başlıca hadisə... Buna da müxtəlif cür yanaşmaq olar.

Şəxsi həyatımda evlənməyim, qızımın, oğlumun dünyaya gəlmələri başlıca hadisə olubdur.

Siyasi fəaliyyətimdə isə həyatımda olanlar mənim iradəmdən asılı olmayaraq baş veribdir. Məsələn, məni siyasi büronun üzvü, Azərbaycanın rəhbəri seçmiş, o cür böyük ölkənin nazirlər soveti sədrinin birinci müavini təyin etmişdilər. Azərbaycanın tarixində belə şey olmamışdı. Ona görə də bu, xalqım üçün tarixi hadisə idi ki, onun övladı belə yüksəyə qalxmışdı. Lakin deyə bilmərəm ki, bu, o zaman məndən ötrü böyük sevindirici hadisə idi. Mən hətta oraya getmək istəmir, müqavimət göstərirdim, Respublikadan ayrılmaq məndən ötrü çətin idi. İndi bunların hamısını, bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam.

Söhbəti **Vasif Səmədov**
və **Aleksandr Sıqanov** aparmışlar.

"Oqonyok" jurnalı

*may 1996-cı il* [306-307]

## MİLLİ BAYRAM – RESPUBLİKA GÜNÜ MÜNASİBƏTİLƏ TƏNTƏNƏLİ YIĞINCAQDA NİTQ

*Respublika Sarayı*

*26 may 1996-cı i*

Əziz həmvətənlər, bacılar və qardaşlar!

Hörmətli xanımlar və cənablar!

Sizi, bütün Azərbaycan xalqını, vətəndaşlarını milli bayramımız – Respublika günü münasibətilə təbrik edirəm.

1918-ci il mayın 28-də ilk Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması dünyaya bəyan edildi. Azərbaycan xalqının tarixində böyük və əlamətdar bir hadisə baş verdi. Azərbaycan xalqı öz milli azadlığım, müstəqilliyini əldə etməyə başladı.

İlk demokratik cümhuriyyətin elan edilməsi o zaman Azərbaycana qarşı xaricdən və daxili düşmənlər tərəfindən olan təcavüzlər və o dövrdəki qarmaqarışıqlar, xalqımızın həyatının gərgin bir şəraitində olmuşdur. Buna görə də ilk Azərbaycan Demokratik Cümhuriyyətinin, onun hökumətinin fəaliyyəti ağır və çətin bir şəraitdə keçmişdir. 1918-ci ilin sentyabr ayında ilk Azərbaycan Demokratik Cümhuriyyətinin hökuməti Gəncədən paytaxtımız Bakıya gəlməyə nail olmuş və öz fəaliyyətini davam etdirmişdir.

Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsini yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır.

Dünyada o zaman gedən proseslər – Birinci dünya müharibəsində Rusiyanın məğlubiyyəti və Avropada ümumiyyətlə, dünyada baş vermiş dəyişikliklər – bunlar hamısı Azərbay[307-308]canın dövlət müstəqilliyi əldə etməsinə, demokratik cümhuriyyət qurmasına şərait yaratmışdır.

Azərbaycan Demokratik Cümhuriyyətinin, onun hökumətinin ömrü qısa olmuşdur. Bu cümhuriyyət, hökumət 23 ay ömür sürmüşdür. Ancaq bu qısa zamanda çox böyük işlər görülmüşdür. Ən böyük nailiyyət, tariximizə yazılmış qızıl səhifə ondan ibarətdir ki, çoxəsrlik tariximizdə ilk dəfə Azərbaycan xalqı dövlət müstəqilliyini əldə edə bilmişdir, müstəqillik əhval-ruhiyyəsini hiss edə, dərk edə bilmişdir, müstəqil yaşamaq, öz taleyinin sahibi olmaq duyğularını dərk edə bilmişdir.

Qeyd etdiyim kimi, ilk demokratik cümhuriyyətin hökuməti çox işlər görmüşdür. Azərbaycan torpağında demokratik cümhuriyyətin yaranması dünyaya bəyan edilmiş, dünyanın bir çox dövlətləri ilə əlaqələr qurulmuş, milli müstəqillik prinsipləri əsasında Azərbaycanda dövlət quruculuğu tədbirləri həyata keçirilmiş, ilk Azərbaycan universiteti yaradılmışdır. Bu hökumət Azərbaycanı dünyaya müstəqil dövlət kimi tanıtmışdır.

Azərbaycan Demokratik Cümhuriyyətinin yaşadığı dövr çox çətin, ziddiyyətli, mürəkkəb dövr olmuşdur. Belə bir ağır şəraitdə görülən işlər və sonrakı nəsillərə, bizə çatan irs ilk Azərbaycan Demokratik Cümhuriyyətinin tarixi əhəmiyyətini çox gözəl əks etdirir. Məhz bu demokratiya, milli azadlıq, müstəqillik əhval-ruhiyyəsi sonrakı dövrlərdə xalqımızın qəlbində yaşamış və nəhayət, bu əsrin sonunda xalqımızı dövlət müstəqilliyinə gətirib çıxara bilmişdir.

Biz bu gün 28 May gününü böyük iftixar hissi ilə bayram edirik. Bu, Azərbaycan xalqının milli bayramıdır. Məhz ona görə ki, ilk dəfə müstəqil Azərbaycan dövləti, demokratik cümhuriyyəti dünyaya elan olunubdur. Azərbaycanın dövlət müstəqilliyinin, milli azadlığının gələcəyi üçün böyük əsas, təməl qoyulubdur. Biz bu gün, bu bayram günü o illərdə, ağır və çətin şəraitdə Azərbaycan xalqının qabaqcıl, mütəfəkkir insanlarının xidmətlərini böyük minnətdarlıq hissi ilə qeyd edirik. İlk Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasında, yaşamasında, onun böyük milli irs kimi yaranmasında iştirak edənləri biz bu gün minnətdarlıq hissi ilə qeyd edirik. Onların xidmətləri Azərbaycanın tarixinə həkk olunub, bu xidmətlər heç vaxt unudulmayacaqdır.

Biz Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasında böyük işlər görmüş, xidmətlər göstərmiş Məmmədəmin Rəsulzadəni, Əlimərdan bəy Topçubaşovu, Fətəli xan Xoyskini, [308-309] Nəsib bəy Yusifbəyovu və digər dövlət xadimlərini bu gün böyük minnətdarlıq hissi ilə xatırlayırıq və onların xidmətlərinə, Azərbaycan xalqının həyatında, tarixində oynadıqları böyük rola öz hörmət və ehtiramımızı bildiririk.

O zaman yaranmış şərait nəticəsində ilk Azərbaycan Demokratik Cümhuriyyəti öz fəaliyyətini sona çatdırdı. Ancaq qeyd etdiyim kimi, o, gələcək nəsillər üçün böyük irs qoydu və xalqımızın bu günü üçün böyük əsas yaratdı. Ondan sonrakı dövrdə Azərbaycan xalqı böyük həyat yolu keçibdir. O yol çox mürəkkəb, ziddiyyətli

olubdur. Ancaq eyni zamanda xalqımız bu illəri – 1920-ci ildən 1991-ci ilə qədər olan dövrü yaşamış, o illərdə yaratmış, inkişaf etmiş, respublikamız bu günlərə gəlib çatmışdır.

1920-ci ildən 1929-cu ilin sonunadək olan dövrü də biz heç zaman unutmamalıyıq. O vaxt Azərbaycanda Sovet Sosialist Respublikası yaranmış, fəaliyyət göstərirdi. Bu hökumətə Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanov rəhbərlik edirdi. Doğrudur, o respublika kommunist ideologiyası əsasında yaranmışdı. İki ildən artıq bir müddətdə müəyyən müstəqillik imkanlarından istifadə edərək Azərbaycan xalqının həyatında böyük rol oynamışdır. 1922-ci ilin sonundan Azərbaycan Respublikası Sovetlər İttifaqının tərkibinə daxil olmuşdur. Qeyd etdiyim kimi, bu dövr çox mürəkkəb, ziddiyyətli dövr – bir tərəfdən hakim rejimin repressiyaları, xalqımızın ənənələrinə, mənəviyyatına göstərilən təzyiqlər, məhrumiyyətlər və məhdudiyyətlər, ikinci tərəfdən isə, eyni zamanda xalqımızın böyük inkişaf yolu dövrü olmuşdur.

20-ci illərin, 30-cu illərin repressiyaları on minlərlə insanın həyatını məhv etmişdir. On minlərlə azərbaycanlı yurdlarından uzaq yerlərə sürgün olunmuşdur. Onların hüquqları pozulmuş, var-yoxları əllərindən alınmış, Azərbaycan xalqının əsrlər boyu yaratdığı mədəni və mənəvi irsə böyük zərbələr vurulmuşdur. O illərin qurbanları minlərlə, on minlərlə, bəlkə yüz minlərlə olmuşdur. Onların arasında Azərbaycanın görkəmli şəxsləri – Hüseyn Cavid, Mikayıl Müşfiq, Əhməd Cavad, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz və başqa dəyərli insanlar olmuşdur. Eyni zamanda, o dövrdə Azərbaycan xalqının içindən respublikamızın mədəniyyətini, elmini inkişaf etdirən görkəmli simalar çıxmış, yaşamış və yaratmışlar.

O illərin ağırlıqları, çətinlikləri ilə yanaşı, böyük nailiyyətləri də olmuşdur. Ən böyük nailiyyət bundan ibarət olmuşdur [309-310] ki, xalqımız savadlanmış, onun mədəni səviyyəsi yüksəlmiş, Azərbaycanın böyük elmi yaranmış, respublikamızın milli mədəniyyəti yüksək səviyyələrə qalxmışdır. Azərbaycan öz mədəniyyəti, elmi, yüksək təhsili ilə böyük bəşəri keyfiyyətlərini bütün dünyaya nümayiş etdirə bilmişdir. Bəli, o illərdə böyük itkilərimiz olubdur. Qeyd etdiyim kimi, eyni zamanda o illər mədəniyyətimizdə, ədəbiyyatımızda, elmimizdə böyük şəxsiyyətlər yetişdiribdir. Üzeyir Hacıbəyov, Müslüm Maqomayev kimi dahi bəstəkarlarımız yeni əsərlər yaratmışlar. Cəfər Cabbarlı kimi dahi yazıçımız Azərbaycan xalqına böyük ədəbi töhfələr vermişdir. Ədəbiyyatımızda Səməd Vurğun, Rəsul Rza, Süleyman Rüstəm, Süleyman Rəhimov kimi böyük şəxsiyyətlər yetişmişdir. Alimlərimiz – Mirəsədulla Mirqasımov, Mustafa bəy Topçubaşov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mirzə İbrahimov, bir çox başqa alimlər 1945-ci ildə ilk dəfə Azərbaycanın böyük elmini bir yerə yığıb Elmlər Akademiyası yaratmışlar. Bunların hamısı o çətin, ağır illərin eyni zamanda, böyük nailiyyətləridir.

Azərbaycanın bu gün müstəqil yaşaması üçün o illər böyük əsas yaratmışdır. Azərbaycanın iqtisadiyyatı inkişaf etmişdir Azərbaycanda iqtisadi, sənaye potensialı yaranmışdır. Azərbaycanda yeni şəhərlər yaranmış, kəndlər, qəsəbələr abadlaşmış, insanların rifah halı yaxşılaşmışdır. Bunlar hamısı tariximizin həqiqətləridir. Bunlar hamısı bizimdir, Azərbaycanındır. Çoxəsrlik tariximiz də bizimdir, doğma sərvətimizdir.

1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti də bizim milli sərvətimizdir, tariximizin parlaq səhifəsidir. Ondan sonrakı illər, onilliklər də həyatımızın böyük mərhələləridir, parlaq səhifələridir, xalqımızın böyük nailiyyətləridir. Məhz bunlar hamısı birlikdə indiki müstəqil Azərbaycanın həm iqtisadi, elmi, intellektual, həm də mədəni potensialını yaradıbdır. Biz bu gün, bu milli bayramı – Respublika gününü qeyd edərkən XX əsrdə xalqımızı irəliyə aparmış, elmimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı inkişaf etdirmiş insanların hamısını böyük hörmət və ehtiram hissi ilə, minnətdarlıqla yad edirik.

1991-ci ildə dünyada, keçmiş SSRİ-də gedən obyektiv ictimai-siyasi proseslərin nəticəsində Sovetlər İttifaqı dağıldı. Bu, zəruriyyətdən doğan bir hadisə idi. Bu, belə də olmalı idi. Bunun nəticəsində Azərbaycan xalqı əsrlərdən-əsrlərə keçib gələn arzusuna çatdı. 1918-ci ildə dadını duyduğu milli azadlıq, [310-311] dövlət müstəqilliyi əldə edə bildi. 1991-ci ilin sonunda Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdi. Artıq beşinci ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Bu, Azərbaycan xalqının ən böyük nailiyyətidir.

Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük bir addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olubdur. Azərbaycanın dövlət müstəqilliyi bizim tarixi nailiyyətimizdir. Eyni zamanda bu, XX əsrin əvvəlindən sonunadək xalqımızın qəlbində yaşayan hissiyyatların, xalqımızın içində gedən proseslərin məntiqi nəticəsidir.

Dövlət müstəqilliyi bizim əziz nemətimizdir. Bu gün biz 28 May gününü qeyd edərkən Azərbaycanın müstəqillik, istiqlaliyyət bayramını qeyd edirik. Xalqımız bu müstəqilliyi qəbul edib, bundan sonra başqa bir quruluş, dövlət qəbul edə bilməz. Nəhayət, biz öz taleyimizin, ərazimizin, torpaqlarımızın sahibiyik, özümüz özümüzə hakimik. Bu gün, Azərbaycanın milli bayramı günü mən bəyan edirəm ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qoruyub saxlamaqdan, əbədi etməkdən ibarətdir. Bir prezident kimi bu gün bəyan edirəm ki, bu vəzifəyə, bu məqsədlərə mən daim sadiq olacağam.

Azərbaycan xalqı öz dövlət müstəqilliyini ikinci dəfə də çox ağır və çətin bir şəraitdə əldə edibdir. Azərbaycan 1991-ci ilin sonunda öz dövlət müstəqilliyini elan edən zaman artıq

Ermənistan tərəfindən hərbi təcavüz altında idi. Torpaqlarımızın bir qismi artıq işğal olunmuşdu. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan qovulmuşdu. Başqa məntəqələrimiz daim atəş altında idi. Xalqımız öz ərazi

bütövlüyünü qoruyub saxlamaq üçün çalışırdı, vuruşurdu. Azərbaycanın dövlət müstəqilliyi məhz belə bir zamanda, dövrdə elan olunubdur. Elə buna görə də Azərbaycanın dövlət müstəqilliyi elan olunandan indiyədək respublikamız ağır, çətin proseslər içindədir.

Dövlət müstəqilliyimizi qoruyub saxlamaq üçün ən əsas amil Azərbaycanı Ermənistan təcavüzündən xilas etməkdir.Bu təcavüz 8 ildən artıqdır davam edir. Təəssüflər olsun ki, bir çox səbəblərə görə bu təcavüz nəticəsində Azərbaycanın ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal olunmuş bu ərazilərdən Azərbaycanın bir milyondan çox vətəndaşı zorla qovulub, çıxarılıb, yerindən-yurdundan didərgin düşüb, indi çadırlarda yaşayırlar. Bu, yəni [311-312] Azərbaycan torpaqlarının işğal olunması və işğal olunmuş torpaqlardan vətəndaşlarımızın çıxarılması, onların çadırlarda ağır şəraitdə yaşaması qəlbimizin böyük yarasıdır. Ermənistan təcavüzü Azərbaycanı yaralayıbdır. Bu yara böyük, ağır yaradır. Bu yara odur ki, torpaqlarımızın bir qismi işğal altındadır. Bu yara ondan ibarətdir ki, bir milyondan çox əhalimiz köçkün vəziyyətindədir, ağır şəraitdə, çadırlarda yaşayır. Bu, bizim dərdimizdir. Bu, xalqımızın başına gələn bəladır. Bunun səbəbləri məlumdur. Bu gün bu barədə izahat verməyə ehtiyac yoxdur. Mən bu faktı sadəcə qeyd edirəm.

Bizim əsas vəzifəmiz Azərbaycan xalqını bu bəladan qurtarmaqdır. Bu gün, bu bayram günü qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq, torpaqlarımızın müdafiəsi uğrunda, Ermənistan təcavüzünə qarşı apardığı müharibədə xalqımız böyük itkilər, qurbanlar veribdir. Azərbaycanın igid övladları qəhrəmancasına döyüşüblər, vuruşublar, şəhid olublar, canlarını qurban veriblər. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda, torpaqlarımızın müdafiəsi yolunda canlarını qurban vermiş Azərbaycan övladlarının xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Eyni zamanda, biz o igidlik nümunələrindən istifadə edərək xalqımızda qəhrəmanlıq əhval-ruhiyyəsini daha yüksəklərə qaldırmalıyıq. Bu, bizim müstəqilliyimizi, ərazi bütövlüyümüzü qorumaq üçün əsas şərtdir, əsas amildir.

Bildiyiniz kimi, iki il bundan öncə müharibə dayandırılmışdır. Ermənistan ilə Azərbaycan arasında döyüşlərdə atəşkəs haqqında sazişə razılıq vermişik, məsələnin sülh yolu ilə həll olunması üçün çox səylər göstərmişik və bu gün də göstəririk. Biz hesab edirik ki, iki il bundan öncə düz addım atmışıq, doğru qərar qəbul etmişik. Bu qərar yalnız və yalnız Azərbaycan xalqının sülhsevər xalq olduğunu dünyaya bir daha nümayiş etdirir. Amma eyni zamanda bu qərar məsələnin sülh yolu ilə həll olunub Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi üçün qəbul olunubdur. [312-313]

Bu iki il müddətində görülən işlər sizə məlumdur. Biz bütün imkanlardan istifadə etmişik. Beynəlxalq təşkilatların, böyük dövlətlərin imkanlarından, Ermənistan ilə birbaşa aparılan danışıqlardan, bütün başqa imkanlardan istifadə etmişik və edirik. Bu proses davam edir. Bu gün ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan dövlətinin, Azərbaycan xalqının sülhsevər siyasəti öz nəticəsini verəcək və Azərbaycanın işğal olunmuş torpaqlarının sülh yolu ilə azad edilməsinə, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, sərhədlərinin toxunulmazlığına nail olacağıq. Bu, o deməkdir ki, biz heç vaxt ərazimizin, torpağımızın bir qarışını belə heç kəsə bağışlaya, verə bilmərik.

Biz Qafqazda, bölgəmizdə sülhün bərqərar olmasını istəyirik. Bu, həm bizim üçün, həm də Qafqazdakı, bölgəmizdəki bütün dövlətlər, xalqlar üçün zəruri amildir. Biz buna nail olmaq istəyirik. Ancaq bu, yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması şərti ilə bağlıdır. Biz heç kəsin torpağına göz dikmirik, baxmayaraq ki, keçmiş zamanlarda Azərbaycanın torpaqlarının bir qismi əlindən gedibdir. Xalqımız əldən getmiş torpaqların nisgilini indi də çəkir. İndi də Göyçə mahalı, Zəngəzur deyəndə xalqımızın ürəyi ağrıyır, xalq o torpaqların arzusu ilə yaşayır. Amma eyni zamanda Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edərkən beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədləri çərçivəsində olan ərazimizi biz heç vaxt heç kəsə verməyəcəyik.

Bu barədə bizim təkliflərimiz aydındır: Ermənistanın silahlı dəstələri işğal olunmuş ərazilərdən çıxmalı, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, Azərbaycan beynəlxalq təşkilatlar tərəfindən tanınmış sərhədlərinin sahibi olmalıdır. Dağlıq Qarabağ münaqişəsinin tamamilə aradan qaldırılması üçün Azərbaycan Respublikasının, Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verməyə hazırıq. Biz bu şərtlər əsasında danışıqlar aparırıq və həmin şərtlər daxilində tam sülhün əldə edilməsini istəyirik və buna nail olmağa çalışacağıq. Dünya da bilməlidir ki, bizim şərtlərimiz ədalətlidir, sülhsevər şərtlərdir. Eyni zamanda, yenə də deyirəm, biz ərazimizin hər bir qarışını qoruyacağıq, onun sahibi olmağa çalışacağıq. Əgər bu şərtlər çərçivəsində istədiyimizə nail olmasaq, nəyin bahasına olursa-olsun – canımızın, qanımızın, gücümüzün bahasına biz işğal olunmuş torpaqlarımızı [313-314] azad edib Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik. Buna hamı əmin ola bilər.

Təsəvvür edə bilərsiniz ki, belə ağır şəraitdə dövlət müstəqilliyini əldə saxlamaq, möhkəmləndirmək nə qədər çətindir. Ancaq biz buna qadirik, bunu edirik və gələcəkdə də edəcəyik. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra təəssüflər olsun ki, xarici təcavüzlə yanaşı, daxildə də ictimai-siyasi vəziyyət sabit olmayıbdır. Azərbaycanın daxilində olan çəkişmələr, hakimiyyət mübarizəsi, ayrı-ayrı silahlı dəstələrin çirkin məqsədləri həyata keçirmək iddialan xalqımızı ağır vəziyyətə salmışdır.

Uç il bundan əvvəl, 1993-cü ilin may – iyun aylarını xatırlayın. Azərbaycan nə vəziyyətdə idi! Artıq vətəndaş müharibəsi başlanmışdı. Azərbaycan parçalanırdı, böyük fəlakət qarşısında idi. Fəlakət artıq baş

vermişdi. Allaha şükürlər olsun ki, Azərbaycan xalqının iradəsi, müdrikliyi, yüksək mənəvi keyfiyyətləri bizi bu bəlalardan qurtardı. Amma bu bəlalardan öz-özünə xilas olmadıq. Azərbaycanın dövlətçiliyinin möhkəmləndirilməsi, müstəqilliyimizin qorunub saxlanması yolu ilə, dövlətimizin artıq böyük qüdrətə malik olması sayəsində biz vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycan Respublikasının parçalanmasının qarşısını aldıq, ölkəmizi bu bəlalardan xilas etdik.

Təəssüflər olsun ki, Azərbaycanın daxili düşmən qüvvələri sonrakı dövrdə də öz iddialarından, cəhdlərindən əl çəkmədilər. 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında Azərbaycanda dövlət çevrilişinə göstərilən cəhdlər, terrorçu dəstələrin mövcud olması və nəinki dövlət xadimlərinə, həm də xalqa, adi vətəndaşlara qarşı terrorçuluq etməsi halları Azərbaycanın həmin illərdəki gerçəkliyidir. Biz bunu unuda bilmərik. Bunların da öhdəsindən gələ bildik, bunların da qarşısı alındı. Azərbaycan 1994-cü ilin oktyabr, 1995-ci ilin mart bəlasından xilas oldu. Cinayətkar dəstələri, qrupları, yəni Azərbaycanı dağıtmağa cəhd edən qüvvələri zərərsizləşdirdikdən sonra daxili ictimai-siyasi sabitliyi bərqərar edə bildik.

Bu, son üç ildə Azərbaycan dövlətçiliyinin, dövlət müstəqilliyimizin qorunub saxlanmasının böyük tarixidir. Ola bilər, zaman baxımından üç il böyük vaxt deyildir. Amma bu üç il müddətində Azərbaycan xalqının keçdiyi yol, ölkəmizin həyatında baş vermiş proseslər, təhlükələr və bunların qarşısının alınması həmin illərin nə qədər ağır, çətin bir dövr olduğunu, [314-315] eyni zamanda Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi üçün nə qədər əziyyətli dövr olduğunu bir daha sübut edir. Bu bayram günündə böyük iftixar hissi ilə qeyd edirəm ki, biz Azərbaycanı o bəlalardan, vətəndaş müharibəsindən, parçalanmaqdan xilas etdik, Azərbaycanı qoruyub saxladıq. Bu gün müstəqil Azərbaycan qüdrətli, özünü qorumağa qadir olan dövlətdir.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın müstəqilliyinə qəsd edən daxildəki qüvvələr, ayrı-ayrı cinayətkar yollarla ölkəmizə zərbə vurmağa cəhd göstərən qüvvələr artıq özləri üçün nəticə çıxarıblar. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycandan kənarda onlara havadarlıq, himayədarlıq edən qüvvələr də özləri üçün nəticə çıxarıblar. Onlar da, onların Azərbaycandakı tör-töküntüləri, ölkəmizin hüdudlarından qaçıb kənarda gizlənənlər və Azərbaycana qarşı təxribat əməliyyatları aparan adamlar da bilməlidirlər ki, Azərbaycanın dövlət müstəqilliyini sarsıtmaq mümkün deyildir. Azərbaycan özünü qoruyub saxlamağa qadirdir və bundan sonra heç vaxt ölkəmizin dövlət müstəqilliyinə zərər vurulmasına imkan verməyəcəyik.

Müstəqillik dövründə, xüsusən son üç ildə Azərbaycan dünya miqyasında özünə layiq yer tutubdur. Dünyanın demək olar, əksər dövlətləri ilə Azərbaycanın diplomatik əlaqələri var. Azərbaycan dünyanın bütün beynəlxalq təşkilatlarının üzvüdür, dünyanın böyük dövlətləri ilə qarşılıqlı surətdə faydalı əlaqələr yaradıbdır. Azərbaycan ilə bu dövlətlər arasında çox mühüm əhəmiyyət kəsb edən müqavilələr, sazişlər imzalanıbdır. Qonşu dövlətlərlə Azərbaycanın dostluq, əməkdaşlıq əlaqələri var. Əgər Ermənistan Azərbaycana qarşı təcavüz edibsə, ölkəmizi əhatə edən bütün başqa dövlətlərlə, yaxın-uzaq qonşularımızla səmimi dostluq, əməkdaşlıq əlaqələrimiz mövcuddur və çox sürətlə inkişaf edir. Bunlar hamısı müstəqil Azərbaycan dövlətinin beynəlxalq aləmdə əldə etdiyi nailiyyətlərdir.

Bu ilin aprelində biz beynəlxalq aləmdə yeni bir addım atmağa nail olduq. Avropa Birliyi ilə əməkdaşlıq və tərəfdaşlıq haqqında saziş imzaladıq. İndi Avropa Şurası ilə də əməkdaşlıq haqqında belə bir saziş imzalamağa hazırlaşır və onun şərtləri üzərində işləyirik.

Bunlar hamısı Azərbaycanın dövlət siyasətinin nəticəsidir. Azərbaycanda hüquqi demokratik, dünyəvi dövlət qurulur. [315-316] Hesab edirəm ki, bu illərdə dövlət quruculuğu sahəsində çox dəyərli işlər görülüb və böyük nailiyyətlər əldə edilibdir. Biz dünyaya bəyan etmişik və bu gün bir daha bəyan edirəm ki, Azərbaycanın dövlət quruculuğu prinsipləri demokratiya prinsiplərinə əsaslanır. Azərbaycanda demokratik prinsiplər bərqərar olubdur, siyasi plüralizm hakimdir, hamıya bütün azadlıqlar verilibdir. İnsan azadlığı, vicdan, din, mətbuat azadlığı Azərbaycanda bərqərar olmuş prinsiplərdir. Məhz bu demokratik prinsiplərin əsasında gördüyümüz işlər nəticəsində keçən il Azərbaycan Respublikasının ilk demokratik konstitusiyası qəbul olunub, demokratik seçki yolu ilə, çoxpartiyalılıq prinsipi əsasında parlament seçilibdir.

Bunlar Azərbaycan xalqının həyatında tarixi hadisələrdir. Azərbaycanın ilk demokratik konstitusiyası ölkəmizin həyatının bütün sahələrində demokratiyanın yaranması, geniş inkişaf etməsi üçün əsas qanun və böyük bir proqramdır. Əminəm ki, Azərbaycanın ilk demokratik konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcəkdir və gələcək nəsillərə sivilizasiyalı, yüksək səviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövləti gətirib çatdıracağıq.

Biz keçmiş ictimai-siyasi quruluşdan imtina etmişik. Bu gün bəyan edirəm ki, Azərbaycan heç vaxt yenidən belə bir quruluşa qayıda bilməz. Biz müstəqil dövlətik, Dünya Birliyində olan dövlətlərlə sıx əlaqələr yaradırıq. Qeyd etdiyim kimi, beynəlxalq təşkilatların, demək olar, əksəriyyətinin üzvüyük. O cümlədən Müstəqil Dövlətlər Birliyinin də üzvüyük. Ancaq biz Sovetlər İttifaqının yenidən bərpa olunmasına heç vaxt razı ola bilmərik və yenidən heç bir dövlətin tərkibinə daxil ola bilmərik. Bizim gələcək yolumuz müstəqillik, demokratiya yoludur. İqtisadiyyatımız demokratik prinsiplər əsasında qurulub, yaradılıb inkişaf etdiriləcəkdir. Bu, gələcək həyatımızın əsas prinsipləri, əsas proqramlarıdır.

Biz respublikamızı dünya üçün açmışıq, qapılarımız hamı üçün açıqdır. Böyük məmnuniyyət hissi ilə qeyd edə bilərəm ki, son illər bu siyasətimiz gözəl nəticələr veribdir. Dünyanın bir çox böyük şirkətləri – neft şirkətləri və başqa sahələrdəki şirkətlər artıq ölkəmizə gəliblər, Azərbaycanla müştərək iş görürlər, sərmayə qoyurlar. 1994-cü ilin sentyabrında dünyanın böyük şirkətləri ilə imzalanmış və "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsi artıq dünyada məşhurdur. O, bir çox öl[316-317]kələrdə rəğbət qazanıb, bəzi ölkələrdə də qısqanclıq hissi oyadıbdır. Ancaq o da, bu da onu göstərir ki, biz doğru yol seçmişik, düz iş görmüşük, xalqımızın bu günü və gələcəyi üçün böyük bir iqtisadi addım atmışıq.

Biz bu yolu davam etdiririk. Bildiyiniz kimi, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının dünyanın bir neçə böyük şirkəti ilə müştərək işlənməsi, üçün 1995-ci ilin noyabrında yeni bir müqavilə imzalanıbdır. İndi daha bir yeni müqavilənin layihəsi hazırlanır. Bu il iyunun əvvəlində Azərbaycanda böyük beynəlxalq sərgi keçiriləcəkdir. Bu, üçüncü sərgidir, yəni Azərbaycanda dalbadal üç ildir belə sərgi keçirilir. Həmin sərgidə dünyanın neft hasil edən, demək olar, bütün ölkələrinin şirkətlərinin nümayəndələri təmsil edilir. Beləliklə, Azərbaycan dünya tarixində tutduğu yeri, yəni neft diyarı tək tanınmış ölkə kimi öz yerini yenidən tutur. Böyük bir neft ölkəsi, neft sənayesi mərkəzi kimi Azərbaycana maraq göstərilir və qeyd etdiyim kimi, bu sərgiyə dünyanın neft hasilatı ilə məşğul olan bütün ölkələrindən şirkətlər, dövlət nümayəndələri gələcəklər.

Bunlar hamısı bizim sərbəst iqtisadiyyat yolu ilə getməyimizi sübut edir. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə inteqrasiyasını nümayiş etdirir. Bunlar hamısı onu göstərir ki, biz öz yolumuzla, müstəqil yolla gedirik.

Azərbaycanın iqtisadiyyatım inkişaf etdirmək üçün biz islahatlar aparırıq. İslahatların aparılması üçün bir neçə qanun, o cümlədən özəlləşdirmə haqqında qanun, proqram qəbul olunubdur və həyata keçirilir. Aqrar sektorda islahatların aparılması üçün qanunlar qəbul olunubdur. Yaxın günlərdə torpaq islahatı haqqında, banklar haqqında, iqtisadiyyatı sərbəstləşdirmək, xarici ölkələrlə iqtisadi əlaqələri sərbəstləşdirmək üçün qanunlar və fərmanlar qəbul ediləcəkdir. Bunlar hamısı bir aha sübut edir ki, biz iqtisadiyyatımızı yeni prinsiplər əsasında qururuq və keçmiş iqtisadi formalara heç vaxt qayıda bilmərik. Ola bilər, bu islahatların, tədbirlərin həyata keçirilməsi müəyyən mərhələdə iqtisadiyyatımızı indiki ağır vəziyyətdə saxlayacaq, xalqın rifahının yaxşılaşdırılması üçün bəlkə o qədər də sürətli tədbirlər görmək mümkün olmayacaqdır. Ancaq bunlar hamısı yaxın vaxtlarda özünün çox gözəl nəticələrini verəcəkdir. Mən buna tam əminəm.

İqtisadiyyat, dövlət quruculuğu, demokratiyanın inkişafı sahəsində görülən bütün bu işlər müstəqil Azərbaycan dövləti[317-318]nin möhkəmlənməsinə, xalqımızın, vətəndaşlarımızın rifahının yaxşılaşdırılmasına yönəldilibdir.

Bilirik ki, indi respublikamız iqtisadi böhran içərisindədir. Böhrandan çıxmaq üçün ciddi addımlar atırıq, bunu artıq dedim. İqtisadi böhran nəticəsində xalqın, vətəndaşların yaşayışı, şübhəsiz ki, ağırdır, çətindir. Bizi ən çox narahat edən qaçqın vətəndaşlarımızın vəziyyətidir. Onların vəziyyətini yaxşılaşdırmaq üçün lazımi tədbirlər görülür və bundan sonra da görüləcəkdir. Əhalinin iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün bu günlərdə sizə məlum olan sərəncamlar imzalamışam. Bunlar əhalinin bir çox təbəqələrinə verilən müavinətlərin artırılması, maaşların artırılması və başqa tədbirlər barədədir. Şübhəsiz ki, bu tədbirlər əhalinin iqtisadi vəziyyətini biz istədiyimiz səviyyəyə gətirib çıxarmayacaq, ancaq indiki mərhələdə bunu müəyyən qədər yaxşılaşdıracaqdır. Sizi əmin edirəm ki, bu sahədə gərgin iş gedir və gələcəkdə yeni tədbirlər görüləcəkdir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, respublikamız bu iqtisadi böhran vəziyyətindən də tədricən çıxacaq və xalqımızın, vətəndaşlarımızın rifahı günbəgün yaxşılaşacaqdır. Mən buna tam əminəm.

Qarşımızda duran vəzifələri həyata keçirmək, xalqımızı xoşbəxt günlərə çıxarmaq üçün hamımız qüvvələrimizi birləşdirməliyik. Keçən il Azərbaycanın ilk demokratik konstitusiyasının qəbul olunması, parlamentə ilk demokratik seçkilərin keçirilməsi və onun fəaliyyətə başlaması, dövlət tərəfindən görülən bir neçə tədbirlər onu göstərir ki, biz respublikamızda xalqın, vətəndaşların birliyinə nail olmuşuq. Ancaq hesab edirəm ki, bu birliyi daha da gücləndirməli, səylərimizi daha da artırmalıyıq.

Azərbaycanda demokratiya, siyasi plüralizm hökm sürür və bundan sonra da olacaqdır. Heç kəs narahat olmasın ki, demokratiya, yaxud siyasi plüralizm müəyyən qədər məhdudlaşdırılacaq. Biz buna yol verməyəcəyik. Bundan sonra daha geniş şərait yaranacaqdır. Çoxpartiyalı sistem bərqərar olubdur, hər bir partiyanın fəaliyyət göstərməsinə imkan verilib və bundan sonra da veriləcəkdir. Bunlar bizim daxili mənəviyyatımızın ifadəsidir, dövlət quruculuğu sistemi barədə istək və arzularımızdır. Heç kəs düşünməsin ki, bunlar kiminsə sayəsində, hansı qüvvəninsə təsiri sayəsində olub, yox. Biz, yəni hakimiyyətdə olan şəxslər, bir prezident kimi mən Azərbaycanda demokratiyanın gündən-günə inkişaf etməsini ölkəmizin [318-319] bu günü və gələcəyi üçün zəruri amil hesab edirəm və bundan ötrü bütün səylərimizi göstərmişəm və indən sonra da göstərəcəyəm.

Amma bununla yanaşı, biz yaxın keçmişdə Azərbaycanın həyatında baş vermiş hadisələrin yenidən təkrar olunmasına yol verməyəcəyik. Bunu hamı bilməlidir. Hərə öz fikrini bildirə bilər, istədiyi şeyi qəzetdə yaza, öz partiyasının siyasətini həyata keçirə bilər. Ancaq bunların heç birisi silahlı dəstələrlə, silahlı qüvvələrlə, qanun pozuntusu ilə olmamalıdır. Qanunun aliliyi təmin edilməlidir və hər bir vətəndaş qanuna tabe olmalıdır. Biz öz tərəfimizdən qanunun aliliyini təmin etməyə çalışacağıq və hər bir vətəndaşı da qanuna tabe olmağa dəvət

edirəm. Bu prinsiplər əsasında bundan sonra vətəndaş birliyini, həmrəyliyini daha da möhkəmləndirməK, yüksəklərə qaldırmalıyıq. Güman edirəm ki, artıq buna nail olmuşuq və bundan sonra atdığımız addımlar isə birliyimizi daha da möhkəmləndirəcəkdir. Mən buna əminəm.

Məhz bunların nəticəsində beynəlxalq aləmdə Azərbaycan Respublikasının nüfuzu getdikcə artır. Biz beynəlxalq təşkilatlarda sözümüzü açıq-aydın, ürəklə deyir, istədiyimiz fikirləri irəli sürür, təkliflərimizi veririk. Dünyanın bir çox dövlətləri ilə, o cümlədən böyük, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərlə qarşılıqlı surətdə faydalı əlaqələr qurmuşuq və bunlar bizə səmərələr gətirir, eyni zamanda beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu daha da yüksəklərə qaldırır. Bunlar hamısı Azərbaycanın dövlət müstəqilliyinin nailiyyətləridir. Biz bunlarla fəxr edir, eyni zamanda bunları gələcək işlərimiz üçün əsas hesab edirik. Yəni bu sahədə görəcəyimiz işlər, qarşımızda duran vəzifələr hələ çoxdur. Bu vəzifələri bundan sonra da layiqincə həyata keçirməliyik.

Məhz bunların nəticəsidir ki, Azərbaycanın milli bayramı münasibətilə dünyanın bir çox dövlətlərinin başçıları bizi təbrik ediblər, təbrik məktubları, teleqramları göndəriblər. Məhz bunun nəticəsidir ki, Azərbaycanda dünyanın bir çox ölkələrinin səfirlikləri təmsil olunub, onlar burada sərbəst fəaliyyət göstərir və qarşılıqlı əlaqələr qurmağımız üçün böyük xidmətlər göstərirlər.

Bu bayram günü dünyanın bütün xalqlarına, dövlətlərinə sülh və əmin-amanlıq, əməkdaşlıq naminə bu salondan Azərbaycan salamını göndərirəm. Bəyan edirəm ki, müstəqil dövlət kimi Azərbaycan sülhü bərqərar etmək, möhkəmləndirmək, [319-320] iqtisadi əlaqələri inkişaf etdirmək üçün bütün dövlətlərlə əməkdaşlığa hazırdır və biz bundan sonra da səylərimizi göstərəcəyik.

Milli bayramı münasibətilə Azərbaycanı təbrik edən dövlət başçılarına və bugünkü mərasimdə iştirak edən xarici dövlətlərin səfirlərinə təşəkkür edir və onlara Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Bu gün, milli bayram günü biz keçmişimizi qiymətləndirməli, əldə etdiyimiz nailiyyətləri doğru-düzgün, ədalətlə təhlil etməli, gələcəyə baxmalıyıq. Azərbaycanın böyük gələcəyi var. Gələcək nəsillər haqqında düşünməliyik. Azərbaycanın gəncləri, gənc nəsli, Milli Ordusu, bu orduda xidmət edən gənclər ölkəmizin bu günü və gələcəyi haqqında daim düşünməlidirlər, xalqımıza, Vətənimizə, millətimizə sədaqətlə xidmət etməlidirlər. Mən əminəm ki, belə də olacaqdır.

Hamınızı Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi, ölkəmizin gələcəyi, müstəqil Azərbaycan dövlətinin qüdrətlənməsi naminə yeni fəaliyyətə, birliyə, əməkdaşlığa dəvət edirəm.

Sizi, Azərbaycanın bütün vətəndaşlarını bu bayram münasibətilə təbrik edir, hamınıza, Azərbaycanın hər bir vətəndaşına cansağlığı, xoşbəxtlik, səadət, uğurlar arzulayıram. Hamınıza birlikdə müstəqil Azərbaycanın xoşbəxt gələcəyə çıxmasını arzu edirəm. Sağ olun. [320-321]

## AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ ZAMANI ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN BİNƏ HAVA LİMANINDA QARŞILANMASI MƏRASİMİNDƏ BƏYANAT

*27 may 1996-cı il*

Biz Özbəkistan Respublikasının prezidenti, dostumuz və qardaşımız cənab İslam Kərimovu Azərbaycanda, Bakı şəhərində səmimi qəlbdən salamlayırıq. Özbəkistan Respublikası prezidentinin Azərbaycana bu ilk səfəri ölkəmizin həyatında, Özbəkistan Respublikası ilə Azərbaycan Respublikasının qarşılıqlı münasibətlərində çox mühüm hadisədir. Mən dostumuz, prezident İslam Kərimovu ürəkdən salamlayır və qəti ümidvar olduğumu bildirmək istəyirəm ki, onun Azərbaycanda olduğu müddətdə Özbəkistan ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətlərinin gələcək inkişafı ilə bağlı bir çox məsələləri, Dünya Birliyində hər iki tərəfi maraqlandıran problemlərlə əlaqədar məsələləri müzakirə edə biləcəyik.

Azərbaycan xalqı Özbəkistan prezidentini mehriban qonaqpərvərliklə qəbul edir və ümidvardır ki, onun səfəri xoş və səmərəli keçəcəkdir. Sizi bir daha salamlayıram. [321-322]

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN NÜMAYƏNDƏ HEYƏTLƏRİ ARASINDA İKİTƏRƏFLİ DANIŞIQLAR ZAMANI ÇIXIŞ

*Prezident Sarayı*

*27 may 1996-cı il*

Zati-aliləri! Hörmətli Özbəkistan Respublikasının prezidenti İslam Kərimov cənabları!

Möhtərəm qonaqlar, dostlar!

Mən sizi Azərbaycan xalqı adından Azərbaycan torpağında səmimi salamlayır və ümidvar olduğumu bildirirəm ki, müstəqil Özbəkistan prezidentinin Azərbaycana ilk səfəri Özbəkistan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə mühüm mərhələ, əməkdaşlığımızın, qardaşlıq münasibətlərimizin inkişafı üçün mühüm mərhələ olacaqdır. Hörmətli İslam Kərimov, dəvətimi qəbul edib, Azərbaycana gəldiyinizə görə sizə təşəkkür edirəm və əminəm ki, söhbətlərimiz, danışıqlarımız və sizin səfəriniz səmərəli olacaq, ümumi işimizə fayda gətirəcəkdir. Bu, müstəqil Özbəkistan Respublikası prezidentinin Azərbaycana ilk səfəridir. Biz bunu yüksək qiymətləndiririk.

Özbəkistan və Azərbaycan xalqları arasında, özbək və Azərbaycan xalqları arasında münasibətlərin qədim tarixi var, bütün dövrlərdə xalqlarımız dost olmuş, bir-birinə arxa durmuş, mədəni, mənəvi dəyərlərlə qarşılıqlı surətdə faydalanmışlar. Dilimizin, köklərimizin ümumiliyi, islam dininə mənsubiyyətimiz və ənənələrin ümumiliyi qardaşcasına yaxın münasibətlərimizin həmişə əsası olmuşdur. Bu münasibətlər XX əsr ərzində də davam etmişdir. Biz həm elm, həm texnika, həm də təsərrüfat, iqtisadiyyat xadimlərindən ibarət Özbəkistan və Azərbaycan nümayəndə heyətlərinin ölkələrimizə tez-tez səfərlər etdiklərinin şahidi olmuşuq.

Özbəkistan və Azərbaycan müstəqilliyə nail olduqdan sonra münasibətlərimiz istədiyimiz kimi inkişaf etməmişdir. Lakin bunların hamısı indi keçmişdə qalmışdır. Başlıcası budur ki, indi biz, necə deyərlər, belə bir yekdil rəyə gəlmişik ki, əsr[322-323]lər boyu xalqlarımız – özbək və Azərbaycan xalqları arasında təşəkkül tapmış dostluğun, əməkdaşlığın, qardaşlıq münasibətlərinin bütün zəngin potensialı əsasında bu gün gözəl münasibətlər yaratmaq və həm Özbəkistan xalqı üçün, həm də Azərbaycan xalqı üçün qarşılıqlı faydanı təmin etmək imkanına malikik.

Bununla əlaqədar mən Özbəkistan prezidentinin Azərbaycana səfərini böyük hadisə hesab edirəm. Biz bunu çox yüksək qiymətləndiririk. Mən bu səfərə görə öz minnətdarlığımı, öz təşəkkürümü bir daha bildirirəm. Adamlarımız, ekspertlərimiz işləmiş, çoxlu sənəd və çoxlu saziş hazırlamışlar. Onların sayı kifayət qədər çoxdur. Başlıcası budur ki, biz belə bir fikrə gəldik ki, bu sənədlərin hamısını imzalamaq olar. Lakin bu, Özbəkistan ilə Azərbaycan arasında çoxtərəfli əməkdaşlığı müstəqillik şəraitində yeni əsasda həqiqətən təmin etmək üçün hələlik ilk addım ola bilər. Məndə şübhə yoxdur ki, indiki işimiz istər münasibətlərimizin genişlənməsi və dərinləşməsi üçün, istərsə də, təbii olaraq, uğurlu əməkdaşlığımızı təmin edə biləcək müqavilə normativ sənədlərinin daha geniş dairəsini yaratmaq üçün əsas olacaqdır.

Özbəkistan Azərbaycan üçün yaxın dost ölkədir. Dediyim kimi, xalqlarımız arasında dostluğun qədim tarixi vardır. Əcdadlarımız bu dostluğun yaranması və möhkəmlənməsi üçün çox iş görmüşlər. İndi, həm Özbəkistanın dövlət müstəqilliyinə malik olduğu, həm də Azərbaycanın dövlət müstəqilliyinə malik olduğu bir dövrdə bizim nəslə, bizə bu münasibətləri davam etdirmək və genişləndirmək kimi böyük şərəf nəsib olmuşdur və üzərimizə böyük məsuliyyət düşür. Siz əmin ola bilərsiniz ki, Azərbaycanda hamı buna çalışır, hamı bunu istəyir. Mən tam əminəm ki, indi, siz burada olduğunuz zaman biz Özbəkistan ilə Azərbaycan arasında dostluğun çox böyük gələcəyi üçün bünövrə qoyuruq.

Mən sizi bir daha salamlayır və əmin olduğumu bildirirəm ki, buraya səfəriniz səmərəli və xoş olacaqdır. Hər halda, biz öz tərəfimizdən bunun üçün hər şeyi etməyə çalışırıq. Biz sizi əziz dostlar kimi, qardaşlar kimi ən xoş münasibətlərlə, dostluq və qardaşlıq münasibətləri ilə qarşılayır, qəbul edirik.

* * *

... Həqiqətən, biz keçmişdə, Sovet İttifaqının tərkibində olduğumuz illərdə Özbəkistanla əlaqələrimiz çox yaxın və sıx [323-324] idi. Hər il nəinki böyük nümayəndə heyətləri, həm də ayrı-ayrı şəxslər bir-birinə qonaq gedib gəlirdilər. Öz aramızdır, bir-birinə pambıqçı briqadaları göndərmək ənənəsi Özbəkistanda yaranmış və bütün pambıq əkən rayonlara yayılmışdı. Hər il bizim adamlar Özbəkistanda olurdular. Özbəkistandan isə bizə gəlir, bir-birini yoxlayır, bir-birinə kömək edir, məsləhətlər verirdilər. Başqa sahələrdə də çox əlaqələr olmuşdur. 80-ci illərin əvvəllərində burada Özbəkistan mədəniyyəti günləri uğurla keçdi. Özbəkistanda isə Azərbaycan mədəniyyəti günləri müvəffəqiyyətli oldu. Biz bir-birimizə mədəniyyət, incəsənət xadimləri

göndərirdik. Dövlət xətti ilə çox əlaqələr var idi. Üstəlik, mənimlə rəhmətlik Şərəf Rəşidov arasında çox böyük dostluq var idi. Bizi o vaxtlar bir çox ümumi cəhətlər birləşdirirdi. 69-cu ildə mən respublikaya rəhbərlik etməyə başladıqda aramızda yaxşı, mehriban münasibətlər yarandı və bu münasibətlər inkişaf edərək dostluğa çevrildi. Bizim ailələrimiz də dostluq edirdilər. Əlbəttə, bütün bunlar bir-birimizə arxa-həyan olmaq üçün, bir-birimizə kömək göstərmək, təcrübə mübadiləsi etmək üçün çox böyük rol oynadı.

Biz o illərdə Özbəkistanın təcrübəsindən çox şey götürdük. Lakin təəssüflər olsun ki, müstəqillik illərində bu əlaqələr zəiflədi, bəlkə də sıfıra endi. Dediyim kimi, bütün bunlar keçmişdə qalmışdır. İslam Abduqəniyeviç, mən bunu çox mühüm hesab edirəm ki, biz sizinlə nəinki keçmişdəki ənənəvi əlaqələrimizi bərpa etmək, həm də keçmişdə olan təcrübədən və bu müddət ərzində sizin də, bizim də əldə etdiyimiz təcrübədən istifadə edərək bir-birimizə kömək göstərmək və əməkdaşlıq etmək üçün tamamilə yeni şəraitdə, yeni əsaslarla münasibətlər qurmağa başlamaq imkanı tapa bildik.

Bu baxımdan 91-ci ildən etibarən Özbəkistanda baş verən və indi də gedən proseslər haqqında və nail olduğunuz böyük müvəffəqiyyətlər barədə burada dediklərinizi çox böyük təsir bağışlayır. Bütün bunlar bizi, o cümlədən bir dost kimi şəxsən məni çox sevindirir. Bu uğurlar, nailiyyətlər münasibəti ilə, qarşıya çıxan problemləri özünüzə məxsus tərzdə həll etmək təcrübəniz münasibətilə və bütün bunların burada haqqında böyük iftixarla və tam əsasla bizə söylədiyiniz müvəffəqiyyətlərə gətirib çıxarması münasibəti ilə sizi ürəkdən təbrik edirəm. Bu, bizi sevindirir, sizi təbrik edir və yeni, daha böyük uğurlar arzulayıram.

Şübhəsiz ki, müstəqillik illərində Özbəkistanda bu nailiyyətlərə [324-325] ilk növbədə prezidentin, bizim dostumuz İslam Abduqəniyeviçin bacarıqlı rəhbərliyi sayəsində nail olunmuşdur. Əlaqələrimiz kifayət qədər olmasa da, biz bunu bilirik, hər halda informasiya var idi və indi də var, əvvəllər və indi aldığımız informasiya onu göstərir ki, bütün bunlar məhz sizin iş üslubunuz, biliyiniz, təcrübəniz və siyasi, iqtisadi baxımdan bütün başqa cəhətlərdən müstəqil siyasətiniz sayəsində və hər şeyi Özbəkistanın özünəməxsus şəraitini, xalqınızın mentalitetini, tarixi xüsusiyyətlərini, ənənələrini nəzərə almaqla təşkil etməyiniz və həyata keçirməyiniz sayəsində mümkün olmuşdur. Şübhəsiz ki, bu, sizin qeyd etdiyiniz kimi, qazandığınız böyük nailiyyətlərin əsasını təşkil etmişdir.

Bir daha deyirəm, bütün bu işlərdə dostumuz İslam Abduqəniyeviçin rolu çox böyükdür və ona görə də Azərbaycanda sizin nüfuzunuz yüksəkdir. Şəxsən mən sizin fəaliyyətinizi və edə bildiklərinizi çox yüksək qiymətləndirir və hesab edirəm ki, özbək xalqının həyatının və tarixinin bu məsul mərhələsində onun layiqli rəhbəri var. Bütün bunlara görə sizi təbrik edirəm.

O ki qaldı bizə, sizin də məlumatınız olmasına baxmayaraq, müstəqillik illərini necə yaşadığımızı və haraya gəlib çıxdığımızı, nəyə malik olduğumuzu bilmək, şübhəsiz, sizin üçün maraqlı olar.

Özbəkistandan fərqli olaraq, Azərbaycan hələ dövlət müstəqilliyini əldə edənə qədər çox ağır vəziyyətə düşmüşdür. Siz bir iqtisadçı və həm də o illərdə ittifaqın ümumi iqtisadiyyatına yaxşı bələd olan şəxs kimi çox düzgün qeyd etdiniz ki, bəli, biz Sovetlər İttifaqının tərkibində olarkən Azərbaycan özünü tamamilə təmin edən çox az respublikalardan biri idi. Hər halda mərkəzlə qarşılıqlı münasibətlərdə Azərbaycan müsbət saldoya malik idi. Bunu bu işlə məşğul olanların hamısı və Azərbaycana rəhbərlik edən şəxs kimi mən də bilirdim. Hətta sonralar, Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi Moskvada işləyəndə də Sovetlər İttifaqının respublikalarında keçmişdə və o zaman nələrin baş verdiyini daha dərindən təhlil etmək imkanım var idi.

Azərbaycanın belə imkanları olmuşdur və indi də var. Mən sizin bu fikrinizlə tamamilə razıyam ki, Özbəkistan olduqca böyük iqtisadi imkanlara, olduqca böyük əmək ehtiyatlarına, olduqca böyük potensiala malik olduğu halda, bir çox mövqelərdə dotasiyalı respublika sayılırdı. Belə çıxırdı ki, Özbəkista[325-326]nın topladığı beş milyon ton pambığı onun əlindən alır, sonra da hesablamağa başlayırdılar ki, sizə nə qədər yağ verilsin və ya verilməsin, sizə nə qədər ət verilsin və ya verilməsin, bunu versinlər, onu versinlər, yoxsa verməsinlər. Bütün bunlar keçmiş zamanın reallığıdır. Özbəkistan həqiqətən olduqca böyük imkanlara malik idi. Özbəkistan çox zəngin respublikadır. Amma o illərdə bu zənginlikdən sizin söylədiyiniz kimi istifadə edirdilər.

Sizin toxunduğunuz bir məsələ barəsində öz fikrimi də demək istəyirəm. 83-cü ildən etibarən, Şərəf Rəşidovun vəfatından sonra o illərdə başlanmış hadisələr Özbəkistanın üzərinə təcavüzkar bir hücum idi. Mən sizinlə razıyam ki, bu, soyqırımına bərabər bir hadisə idi. O illərdə mən Moskvada işləyirdim. Həm sizə, həm də burada iştirak edənlərin hamısına açığını deyəcəyəm, bütün bu hallarda hiddətlənirdim, öz etirazımı, Özbəkistan barəsində törədilən əməllərə qarşı etirazımı və bu əməllərlə razı olmadığımı dəfələrlə bildirmişdim.

... Bu barədə həm Qorbaçovla, həm də Liqaçovla bir neçə dəfə çox kəskin söhbətlərim olmuşdur. Hər dəfə xəbər tuturdum ki, müxtəlif vilayətlərdən toplanmış 30-40 və ya 50 adamı katiblik vasitəsilə buraxır və buraya göndərirdilər. Mən hiddətlənir və deyirdim: bəlkə də başqa səbəblərlə yanaşı bunun özü də 87-ci ildə bir səbəb oldu ki, mən kənarlaşmağa məcbur oldum, Siyasi Büronun tərkibindən və bütün vəzifələrdən kənar edildim.

Məni hiddətləndirən bu idi ki, özbək xalqının taleyini Qdlyan həll edirdi. Xatırlayırsınızmı?

**İslam Kərimov:** Bəli, tanış şəxsdir.

**Heydər Əliyev:** Tanış şəxs demək azdır, hər şeyi onun vasitəsi ilə edirdilər. Qdlyanı dəfələrlə Qorbaçov, Liqaçov qəbul etmişdi. Qdlyan gəlir, bilavasitə məruzə edirdi. Faciə də bundadır. Bir sözlə, bu, çox böyük

tarixdir, indi vaxtımızı almağa ehtiyac yoxdur. Demək istəyirəm ki, o illərdə mən bu qərara qarşı etirazımı bildirdim və hesab edirəm ki, həmin qərar özbək xalqı barəsində tarixi ədalətsizlik idi.

Siz də, bütün özbək xalqı da bilir ki, Şərəf Rəşidoviç vəfat edəndə, o, həyatdan getməzdən əvvəl mən Vyetnama gedərkən Daşkənddə olmuşdum. Geri qayıdarkən Özbəkistanı Şərəf Rəşidoviçsiz gördüm, onun məzarına, ailəsinə baş çəkdim. O zaman öz mülahizələrimi Şərəf Rəşidoviçin yerinə gələn adamlara söylədim. Lakin onlar başqa yolla getdilər. Bunun [326-327] üzərində dayanmayaq. Lakin elə o zaman Özbəkistandan sonra növbə Azərbaycanın idi. Azərbaycana qarşı belə təzyiq təxminən 85-ci ildən etibarən mən Siyasi Büronun tərkibində olarkən başlanmışdı. Orada baş verən hər şey mənə çox yaxşı məlumdur. 87-ci ilin oktyabrında mən vəzifədən kənar ediləndə, istefaya gedəndə Azərbaycanın həyatında ağır dövr başlandı. Buraya öz adamlarını göndərir, onlar isə yenə də Rusiyanın hər tərəfindən qruplar dəvət edirdilər. Yüz və ya iki yüz adam olardı. Sayını bilmirəm, bunu istintaq qrupu bilir. Burada ikinci "Özbəkistan işi" təşkil etmək istəyirdilər. Bax, elə o zaman xalq artıq bunun əleyhinə qalxdı, 90-cı ilin yanvarında xalq həmin bu binanın qarşısında bir neçə gün dalbadal mitinqlər keçirir və rəhbərliyin dəyişdirilməsini tələb edir, bir tərəfdən Ermənistan ilə Azərbaycan arasında münaqişə probleminə ədalətsiz münasibətlə əlaqədar, ittifaq rəhbərliyinin hərəkətlərinə qarşı, digər tərəfdən isə Azərbaycana göstərilən təzyiqə qarşı etirazını bildirirdi. Bax, elə həmin vaxt buraya qoşun yeridərək günahsız insanları məhv etdilər. Buraya çox böyük – 40 min nəfərlik qoşun yeritmişdilər. Azərbaycanda güclü hərbi qüvvə var idi, lakin bu azlıq etdi, müdafiə naziri Yazov, daxili işlər naziri Bakatin və bütün digərləri başda olmaqla daha 40 minlik qoşun yeritdilər. Bu gün məzarlarını sizinlə birlikdə ziyarət etdiyimiz həmin insanları həlak etdilər.

Bütün bunlar həm Özbəkistan, həm Azərbaycan tarixinin çox ağır mərhələləridir. Bunları xalqlarımız da xatırlayırlar. Bunları siz də, biz də yaxşı bilirik. Allaha şükür ki, indi biz müstəqil dövlətlər olmuşuq və öz taleyimizi özümüz müəyyənləşdiririk. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkədə həyatın necə getdiyi barədə bir-iki kəlmə demək istərdim.

Artıq 88-ci ildən başlayaraq Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz həyata keçirildi və bu təcavüzdən məqsəd Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. 90-cı ildə buraya qoşun yeritdilər ki, Azərbaycan xalqının iradəsini qırsın və ona ziyan vursunlar. 91-ci ildə, Azərbaycan artıq müstəqil dövlət olarkən onun ərazisinin bir hissəsi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edildi. Həmin dövrdə Azərbaycanda, əlbəttə, sabit rəhbərlik yox idi. Təəssüf ki, bu müstəqillik illərində, – sizin kimi, biz də artıq dörd il yarımdır müstəqillik şəraitində yaşayırıq, – Azərbaycanda daxili siyasi mübarizə gedirdi. Bir tərəfdən, Ermənis[327-328]tanın təcavüzü, ardı-arası kəsilməyən hərbi əməliyyatlar, tələfat, Azərbaycan ərazisinin işğalı, digər tərəfdən isə, daxili qeyri-sabitlik, hakimiyyət uğrunda daxili siyasi mübarizə. Bu müstəqillik illəri ərzində Azərbaycanda hakimiyyət üç dəfə dəyişmişdir. Artıq 93-cü ildə, xalq məni buraya, Bakıya dəvət etdikdə, – mən təcrid olunmuşdum, – Azərbaycan vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı və ölkə əslində parçalanmışdı.

Bax, o vaxtdan bəri biz bu vəziyyəti aradan qaldırmaq üçün mübarizə aparırıq. Təəssüf ki, Azərbaycanı daxildən, – əlbəttə, təkcə daxildən yox, – dağıdan bu qüvvələr daxili qüvvələr olsalar da, bir çox hallarda kənar qüvvələr tərəfindən idarə edilirdi, bu yandan da Ermənistanın təcavüzü aman vermirdi. 94-cü ilin oktyabrında yenidən dövlət çevrilişi cəhdi edildi. Biz onun qarşısını bütün xalqımızın qüvvəsi ilə aldıq. Lakin altı aydan sonra, 95-ci ilin martında bir daha dövlət çevrilişi cəhdi göstərildi. Biz onun da qarşısını aldıq. Sonra terror cəhdləri və sair əməllər oldu. Biz onları da dəf etdik. Təbii ki, bütün bunlar Azərbaycanda daxili siyasi vəziyyəti çox güclü şəkildə çətinləşdirir və iqtisadiyyatın vəziyyətinə, islahatlar aparılmasına, müstəqillik şəraitində həyata keçirilə biləcək müxtəlif tədbirlər görülməsinə təsir göstərməyə bilməzdi.

Lakin Azərbaycana çox böyük ziyan vuran ən başlıcası Ermənistan tərəfindən hərbi təcavüzdür. Bilirsiniz ki, bunun nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuşdur. Dağlıq Qarabağın ərazisi 4 min kvadratkilometrdir, cəmi isə 16 min kvadratkilometr işğal edilmişdir, yəni Dağlıq Qarabağın hüdudlarından kənarda 12 min kvadratkilometr işğal olunmuşdur. İşğal edilmiş torpaqlardan bir milyon Azərbaycan vətəndaşı didərgin salınmışdır. Onlar olduqca ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayırlar. Bilirsinizmi, elə adamlar var ki, dörd ildir, bəli, dörd ildir çadırlarda yaşayırlar. Təsəvvür edirsinizmi, bu necə də ağırdır! Əlbəttə, bütün bu amillər vəziyyətimizi çətinləşdirir. Lakin 93-cü ildə mən burada işləməyə başladıqda biz hərbi əməliyyatların dayandırılması, sülh danışıqları üçün imkan yaranması məqsədi ilə tədbirlər gördük. Nəticədə iki il bundan əvvəl, 94-cü ilin mayında biz Ermənistanla barışıq haqqında saziş imzalanmasına razılıq verdik. Budur, iki ildir nə müharibə gedir, nə də hərbi əməliyyatlar aparılır. [328-329]

Mən bunu mühüm nailiyyətlər sayıram. Amma bununla bərabər, sülh də yoxdur, ərazimiz işğal altındadır, adamlar öz yaşayış yerlərindən didərgin salınıblar. Bu gün mənə məlumat verdilər ki, torpaqlarımızın işğalı nəticəsində 20 milyard dollardan artıq məbləğdə ziyan vurulmuşdur, işğal altında olan torpaqlarımızda hər şey talan edilmiş, hər şey – şəhərlər, kəndlər, zavodlar, fabriklər, məktəblər, yaşayış evləri dağıdılmış, yerlə-yeksan edilmişdir. Bəs xalqımıza nə kimi mənəvi zərər dəymişdir – bunu heç bir milyardla hesablamaq mümkün deyildir. Əlbəttə, bu amil ümumiyyətlə respublikamızın həyatını çətinləşdirir və bütün sahələrə, o cümlədən də

iqtisadi sahəyə təsir göstərir. Lakin əgər bir milyon adam öz yurd-yuvasından qovulubsa, onlar işləmirsə, çadırlarda yaşayırsa, onları təmin etmək, sadəcə olaraq yedizdirib-içizdirmək üçün çox böyük məbləğdə vəsait gərəkdir.

Bundan başqa, daxili siyasi vəziyyət sabit deyildi, xalqımız üçün əsla lazım olmayan, tamamilə zərərli olan daxili siyasi mübarizə, hakimiyyət uğrunda mübarizə gedirdi, silahlı qruplar mövcud idi. Bu yaxın vaxtlaradək burada olduqca böyük miqdarda silahlı quldur dəstələri var idi. OMON adlanan axırıncı belə bir dəstəni biz 95-ci ilin martında ləğv etdik. Bu dəstə bizi devirməyə can atırdı. Sonralar 95-ci il ərzində, hətta 96-cı ildə belə quldur dəstələri aşkara çıxarılmışdır. Təbii ki, bu, xalqın həyatına çox ağır təsir göstərir.

Lakın bütün bu çətinliklərə, əngəllərə baxmayaraq, bütün keçmiş sovet respublikaları üçün səciyyəvi olan keçid dövrünün ümumi çətinliklərinə baxmayaraq, biz həyatın demokratikləşdirilməsi yolu ilə inamla gedirik, dediyiniz kimi, ötən ilin noyabrında konstitusiyamızı qəbul etdik. Biz onu demokratik hüquqi cəmiyyət, demokratik hüquqi dövlət quruculuğu üçün şəraitin təmin olunması baxımından çox yaxşı konstitusiya hesab edirik. Biz parlamentə çoxpartiyalı əsasda demokratik seçkilər keçirdik, ötən ilin noyabrında daimi fəaliyyət göstərən parlament yaratdıq. Bu parlament fəaliyyət göstərir. İslahatlara dair bir sıra qanunlar qəbul etdik, özəlləşdirmə proqramı qəbul etdik. İndi bu proqram həyata keçirilir. Yaxın günlərdə torpaq islahatı haqqında qanuna baxacağıq. Biz, iqtisadi islahatların aparılmasında gecikmişik. Lakin indi bu yolla sürətlə gedirik. Bu, çox çətin şəraitdə xarici təcavüz, daxili qeyri-sağlamlıq şəraitində ən başlıcası budur ki, biz daim demokratiya prinsiplərini, siyasi plüralizm prinsiplərini, şəxsiyyətin azad[329-330]lığı, insan azadlığı prinsiplərini, bütün insan azadlıqlarını bərqərar etmişik və insan hüquqlarının qorunması üçün şərait yaradırıq.

Söz yox ki, iqtisadi vəziyyətimiz çətindir, mürəkkəbdir və sizin təcrübənizə, belə şəraitdə nailiyyətlər qazanmış digər ölkələrin təcrübəsinə ehtiyacımız var. Buna görə də belə düşünürəm ki, görüşümüz və fikir mübadiləsi, ən başlıcası isə, hazırlanmış olan və imzalayacağımız dövlətlərarası sənədlər Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişlənməsinə kömək edəcəkdir. Biz respublikamızın iqtisadi inkişafı üçün bu əməkdaşlıqda da böyük potensial imkanlar olduğunu görürük.

Bir daha demək istəyirəm ki, Özbəkistan bizə dost ölkədir və orada baş verən hər bir şey bizdə böyük maraq doğurur. Bu, dostluq münasibətlərimiz baxımından doğan maraqdır. Biz sizin müvəffəqiyyətlərinizə sevinirik, sevinirik ki, indi gələcək əməkdaşlığımız üçün zəmin yaratmaq imkanımız var. Bizə söylədiyiniz bütün bu məlumatlara görə sizə bir daha təşəkkür edirəm.

* * *

Biz sizinlə imzaladığımız sazişi çox qiymətləndiririk. Sizin dediyiniz kimi bu, dördlərin sazişidir və hesab edirəm ki, həm Özbəkistan, həm Türkmənistan, həm Azərbaycan, həm də Gürcüstan üçün, şübhəsiz ki, böyük siyasi əhəmiyyəti də olacaq, iqtisadi əməkdaşlığımızdan ötrü çox yaxşı perspektivlər açır.

Yeri gəlmişkən, bununla əlaqədar demək istəyirəm ki, orada, MDB-də kim dördlər sazişi, kim ikilər sazişi imzalamışdır, – bu məsələlərdə bizim öz, müstəqil fikrimiz var. Biz Azərbaycanda dövlət müstəqilliyimizi xalqımızın tarixi nailiyyəti sayırıq. Biz heç vaxt köhnə quruluşun bərpa olunmasına, keçmişə qayıtmağa yol verə bilmərik. Mayın 17-də Moskvada çıxış edəndə də biz sizinlə yekdil idik ki, Sovetlər İttifaqı məhz qanunauyğun, obyektiv, tarixi, ictimai-siyasi proseslərin [330-331] nəticəsində dağılmışdır və bir daha ona qayıdıla bilməz. Bir daha təkrar edirəm, dövlət müstəqilliyi bizdən ötrü tarixi nailiyyətdir. Bütün məsələlərdə bizim öz mövqeyimiz, öz rəyimiz var və bunları lazım gələn hər yerdə deyirik. Mən əvvəllər də hiss edirdim və bu gün daha çox hiss etdim ki, biz bu məsələdə sizinlə tam həmrəyik. Biz ölkələrimizi seçdiyimiz yolla inkişaf etdirəcəyik, öz taleyimizin sahibiyik və öz ölkələrimizi heç vaxt hansısa başqa tabeçiliyə, başqa təsir altına verməyəcəyik. Bu məsələdə biz yekdilik. [331-332]

## AZƏRBAYCAN-ÖZBƏKİSTAN SƏNƏDLƏRİNİN İMZALANMASINDAN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident sarayı*

*27 may 1996-cı il*

Hörmətli xanımlar və cənablar! Bu gün səhər Özbəkistan Respublikasının prezidenti hörmətli İslam Kərimovun Azərbaycana rəsmi dövlət səfəri başlanıbdır. Biz səhərdən böyük və səmərəli iş görmüşük, danışıqlar aparılmış, ölkələrimiz arasında əməkdaşlığın gələcək inkişafı məsələləri müzakirə olunmuş, bir çox məsələlərə dair fikir mübadiləsi etmiş və belə bir yekdil rəyə gəlmişik ki, Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığın inkişafı, müstəqil respublikalarımız arasında, özbək və Azərbaycan xalqları arasında qardaşcasına dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün böyük ehtiyatlar və imkanlar mövcuddur. Biz həmçinin Özbəkistana və Azərbaycana aid olan bir çox məsələlər barədə, o cümlədən regionumuzun problemləri, Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstanın nəqliyyat kommunikasiyalarından fəal istifadə edilməsi barədə, regionlarımızın həyatı və vəziyyəti ilə əlaqədar bir çox digər məsələlərə dair fikir mübadiləsi etdik. Biz beynəlxalq həyat məsələləri, o cümlədən həm Özbəkistanın, həm də Azərbaycanın daxil olduqları MDB-nin fəaliyyəti ilə bağlı məsələlər barədə fikir mübadiləsi apardıq. Müzakirə edilən bütün məsələlərdə baxışlarımızın eyniliyi, bir çox məsələlərdə yekdillik aşkar oldu ki, bu da əməkdaşlığımızın bundan sonra da inkişaf etməsi və möhkəmləndirilməsi üçün yaxşı əsas yaradır.

Danışıqlarımız, söhbətlərimiz zamanı, o cümlədən İslam Abduqəniyeviçlə təkbətək görüşümüz zamanı belə bir yekdil fikrə gəldik ki, əcdadlarımızın, bizdən əvvəlki nəsillərin topladıqları və bizə çatdırdıqları hər nə varsa, bunların əsasında xalqlarımız arasında dostluğu daha da möhkəmləndirmək üçün çox böyük imkanlar mövcuddur. Bütün bu söhbətlər və [332-333] danışıqlar nəticəsində belə qənaətə gəldik ki, çoxlu sayda dövlətlərarası sənədlərin imzalanması mümkündür. Biz belə hesab edirik ki, bu sənədlər iqtisadiyyatın, elmin, mədəniyyətin müxtəlif sahələrində, həyatın bütün başqa sahələrində əməkdaşlığı təmin etmək üçün yaxşı hüquqi-qanuni əsas yaradır. Hesab edirəm ki, Özbəkistan və Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilə çox mühüm sənəddir.

Prezident İslam Kərimovun Azərbaycana səfəri müstəqil Özbəkistan Respublikası rəhbərinin Azərbaycana ilk səfəri, iki müstəqil dövlətin prezidentlərinin Azərbaycan torpağında ilk görüşüdür. Ona görə də söhbətlərimiz, danışıqlarımız zamanı belə bir məsələdə tam yekdil idik ki, ölkələrimizin dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişaf etdirilməsi ən mühüm vəzifədir və bu məsələdə baxışlarımız və fikirlərimiz tamamilə üst-üstə düşür. Biz hesab edirik ki, Özbəkistanın və Azərbaycanın müstəqilliyinin bundan sonra da möhkəmləndirilməsi və inkişafı gələcək əməkdaşlığımızın əsası və etibarlı təminatıdır. Biz bu işdə bir-birimizə kömək göstərməyə söz verdik və imzaladığımız sənədlər bundan ötrü yaxşı əsas yaradır. Bu baxımdan Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqavilədə çox mühüm müddəa var. Şəxsən mən bunu yüksək qiymətləndirir və bəyan edirəm ki, Azərbaycan bu sazişlərə, dostluq və əməkdaşlıq haqqında müqaviləyə sadiq qalacaqdır. Bizim aramızda həll edilməmiş hansısa problem yoxdur və mən gördüyümüz işdən məmnunam. Lakin biz hələ bu gün və sabah da, prezident İslam Kərimov respublikamızdan yola düşənədək işləməliyik. Diqqətinizə görə təşəkkür edirəm.

**Sual**: **Azərbaycan xarici neft şirkətləri ilə müqaviləyə daxil edilən yataqlardan çıxaracağı öz neftini Özbəkistana göndərəcəkmi? Qarabağ probleminin tənzimlənməsində ATƏT-in nə kimi rolu var? Sual İslam Kərimovadır: Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqaviləni Özbəkistan necə həyata keçirmək niyyətindədir, bu sənəd iki dövlət arasında əməkdaşlığın inkişafına nə kimi təkan verəcəkdir? Azərbaycanın problemlərinin həllində ona köməkdən danışarkən siz nəyi nəzərdə tuturdunuz?**

**Heydər Əliyev**: Birinci suala cavab verim. 1994-cü ilin sentyabrında ölkəmiz Xəzər dənizinin Azərbaycan sek[333-334]torundakı neft yataqlarının birgə işlənməsi haqqında böyük müqavilə imzaladı. Müqavilə dünyanın on bir iri şirkətinin – ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Rusiya və Səudiyyə Ərəbistanı şirkətlərinin daxil olduğu konsorsiumla imzalanmışdır. Biz bu müqavilənin həyata keçirilməsi sayəsində çoxlu neft çıxarılacağını gözləyirik. Ona təxminən 8 milyard dollar əsaslı vəsait qoyulacaqdır. Neft çıxarmağa başladıqda Özbəkistanı unutmayacağıq, əlbəttə, onun neftə ehtiyacı olarsa, neftimizi ondan əsirgəməyəcəyik.

O ki, qaldı Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması barədə ikinci suala, bilirsiniz ki, bu münaqişə səkkiz ildir davam edir. İki il bundan əvvəl biz barışıq haqqında saziş bağladıq. O vaxtdan bəri döyüş əməliyyatları aparılmır, biz atəşkəs rejimi şəraitində yaşayırıq. Biz bütün bu dövrü məsələnin dincliklə tənzimlənməsinə nail olmaq üçün danışıqlara həsr etmişik. Biz bu gün də məsələnin sülh yolu ilə tənzimlənməsi

mövqeyində durmuşuq, hərbi əməliyyatlara yenidən başlanmasının əleyhinəyik. Lakin məsələnin dincliklə nizama salınması Azərbaycanın ərazi bütövlüyünü tamamilə bərpa etməyi nəzərdə tutur. Bildiyimiz kimi, təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altındadır, bu torpaqlardan bir milyon nəfərdən çox Azərbaycan sakini didərgin salınmışdır, onlar çox ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır. Buna görə də məsələnin dincliklə nizama salınmasının əsas şərti erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan rayonlarından çıxarılmasından, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsindən, Azərbaycan vətəndaşlarının öz əvvəlki yaşayış yerlərinə qayıtmasından ibarətdir. Bu zaman biz digər tərəfin də, yəni Ermənistanın, habelə Dağlıq Qarabağın da mənafelərini nəzərə alırıq. Burada erməni millətindən təxminən yüz min adam yaşayır. Dağlıq Qarabağ Azərbaycan ərazisinin bir hissəsidir və Azərbaycanın tərkibində olmalıdır. Buna görə də ərazi bütövlüyündən danışarkən bildiririk ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibindədir və bu məsələ nizama salınarkən biz Dağlıq Qarabağa Azərbaycan Respublikasının tərkibində müasir dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

Bu məsələ ilə ATƏT və münaqişənin aradan qaldırılması üçün xüsusi olaraq yaradılmış onun Minsk qrupu məşğul olurlar. Təbii ki, prosesdə digər ölkələr də iştirak edərək, vasitəçi[334-335]lik funksiyalarını həyata keçirirlər. Biz bundan da istifadə edirik, amma ATƏT-in Minsk qrupu bu münaqişənin aradan qaldırılmasında aparıcı rol oynayır. İnanırıq ki, münaqişə dinc yolla aradan qaldırılacaqdır və biz öz tərəfimizdən, buna nail olmağa var qüvvə ilə səy göstəririk.

**İslam Kərimov**: Özbəkistan ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq haqqında müqaviləyə gəldikdə, əslinə qalsa, bu, əsas sənəddir və əməkdaşlığımızın prinsipial və başlıca istiqamətlərini göstərir. Zənnimcə, bu sənədi, habelə onun əsasında qəbul ediləcək sənədləri həyata keçirmək üçün hökumətlərarası komissiya yaradacağıq. Komissiya bu sənədin yerinə yetirilməsinə operativ nəzarət edəcək və bu zaman ortaya çıxan məsələləri operativ həll edəcəkdir. Mənə elə gəlir ki, bütün dövlətlərlə əlaqələrimizdə istifadə etdiyimiz beynəlxalq praktika məqbuldur. Ümidvaram ki, bu, Azərbaycan üçün də məqbul olacaqdır.

O ki qaldı Azərbaycanın qarşılaşdığı problemlərin həllinə maraq göstərməyimizlə bağlı məsələlərə, indi biz münasibətlərimizi möhkəmlətməkdən danışarkən təbiidir ki, Özbəkistan Azərbaycanda sabitlik olmasını, ona Qarabağ problemi nəticəsində vurulmuş yaraların tezliklə sağalmasını ürəkdən istəyir. Biz həmçinin istəyirik ki, Azərbaycan özünün olduqca böyük ehtiyat və insan potensialından, bütün imkanlarından istifadə etsin, inkişaf etmiş, qabaqcıl ölkələr sırasında tezliklə öz yerini tutsun, öz xalqına layiqli şərait yaratsın.

Transqafqaz kommunikasiyası haqqında sənədə, yaxud "TRASEKA" layihəsi adlandırılan layihəyə gəldikdə, Avropa İttifaqının bunda marağı var ki, Avropadan Mərkəzi Asiyaya və geriyə yüklər məhz bu dəhliz ilə daşınsın. Biz bilən, Avropa İttifaqı, onun strukturları bu layihənin həyata keçirilməsi üçün böyük məbləğdə vəsait ayırmaq niyyətindədirlər. Aydındır ki, bu yol istifadəyə verildikdən sonra Özbəkistan, eləcə də həmin nəqliyyat dəhlizindən istifadə edəcək digər dövlətlər Azərbaycanda sabitliyin qorunub saxlanmasını, onun çətin problemlərinin həllini eyni dərəcədə hiss edəcəklər. Ümidvarıq ki, Azərbaycan bu problemləri yaxın vaxtlarda aradan qaldıracaqdır.

**Sual: Cənab Kərimov, Özbəkistan Transqafqaz dəhlizi vasitəsilə hansı layihələri həyata keçirmək niyyətindədir? Siz MDB çərçivəsində yeni ittifaqlar yaradılmasını necə qiymətləndirirsiniz?** [335-336]

**İslam Kərimov:** Əgər bu dəhliz bizim bütün yük axınını təmin etsə, biz bundan ancaq razı qalarıq. Onu nəzərdə tuturam ki, Özbəkistanın xarici ticarətdə əmtəə dövriyyəsi 6,5 milyard dollardır. Bunun nə demək olduğuna özünüz diqqət yetirin. Bu gün Özbəkistan bir çox Asiya, Avropa və Amerika ölkələri ilə sıx əlaqələrə malikdir. Odur ki, kommunikasiya məsələsi bizim ən zəif, necə deyərlər, yaralı yerimizdir. Bizim dənizə çıxışımız yoxdur. Belə çıxışı olan ölkələrə həsəd aparırıq. Çünki onlar bu cür imkanı olmayan ölkələrlə müqayisədə böyük üstünlüyə malikdirlər. Buna görə də biz bu gün Avropaya və digər ölkələrə pambıq, böyük həcmdə məhsul göndərmək, oradan isə boş dayanan müəssisələrimiz üçün dəzgahlar, avadanlıq gətirmək istəyirik. Bu dəhliz istifadəyə verildikdən sonra biz nəinki yükləri Azərbaycan vasitəsi ilə aparıb-gətirəcək, həm də öz məmulatlarımızı buraya gətirəcək, sizin məhsulunuzu da aparacağıq. Bunu bildirməyə şadam ki, Özbəkistandan ilk yük – 2 min ton pambıq Türkmənistan, Bakı və Gürcüstan yolları ilə mənzil başına, Poti limanına gətirilmişdir. Burada həmin yük gəmiyə vurulub, son ünvanına göndəriləcəkdir. Ümumiyyətlə, biz milyonlarla ton yük göndərmək fikrindəyik. Həm də Azərbaycan bu yüklərin tranziti üçün beynəlxalq normalar üzrə gəlir əldə edəcəkdir. Zənnimcə, bu, Azərbaycanı nəinki Avropa, dünya ölkələri ilə, həm də Mərkəzi Asiya ölkələri ilə birləşdirəcək. Yük axınına respublikanızı da cəlb edəcəkdir. Ümidvaram ki, bu, əməkdaşlığımızı möhkəmlətmək, əmtəə dövriyyəmizi genişləndirmək üçün yeni stimul və təkan olacaqdır.

O ki qaldı ikinci sualınıza, demək istəyirəm ki, dördlər ittifaqının, dördlər sazişinin, – ona müxtəlif adlar verirlər, – onu imzalamış dövlətlərin, yəni Belarus, Rusiya, Qazaxıstan və Qırğızıstanın daxili işidir. Hər dövlət öz taleyini özü təyin edir və kimsənin haqqı yoxdur ki, bu prosesləri qiymətləndirsin və ya onlara qarışsın. Əlbəttə, əgər bu proseslər həmin ölkələrə bilavasitə aid deyildirsə, Özbəkistan birmənalı şəkildə bildirmişdir ki, o, heç bir ittifaqa daxil olmayacaqdır.

Fürsətdən istifadə edib demək istəyirəm ki, biz dördlərin gömrük ittifaqına da daxil olmaq fikrində deyilik. Səbəb budur ki, dördlərin müqaviləsi, təsisçilərin bəyan etdikləri kimi, heç də dərinləşdirilmiş iqtisadi və

humanitar inteqrasiya müqaviləsi deyildir. Mən qəti əminəm ki, bu, coğrafi-siyasi müqavilədir və fövqəldövlət vəzifələrinin həyata keçirilməsini [336-337] nəzərdə tutur. Yəni elə fövqəldövlət strukturları yaradılır ki, onlar heç də təkcə iqtisadi xarakterli deyil, başqa səpkili bir çox məsələləri həll edəcəklər. Biz isə bunun qəti əleyhinəyik ki, suveren dövlətlər öz funksiyalarının bir qismini fövqəldövlət strukturlarına versin və bununla da öz suverenliyinin bir hissəsindən məhrum olsunlar. Bu, bir növ qovuşdurucu damarlardır. Fövqəldövlət strukturu yaradılmışdır və bu müqaviləyə daxil olan hər bir dövlət öz suverenliyinin bir hissəsini həmin fövqəldövlət strukturlarına verməlidir. Onlar öz üzərilərinə nə qədər səlahiyyət götürürlər, bu dövlətlər nə qədər itirirlər – məlum deyildir. Buna görə də bu müqavilədə suverenliyin tamamilə saxlandığına bizi nə qədər əmin etsələr də, bu, adicə tənqid əndazəsinə sığmır. Belə isə fövqəldövlət strukturlarını yaratmaq nəyə gərəkdir? MDB çərçivəsində qəbul olunmuş sənədlərin nə üçün yerinə yetirilmədiyini həll etməkdə kim bizə maneçilik törədir? Kim təminat verir ki, bu dörd dövlətin imzaladığı sənədlər yerinə yetiriləcəkdir? Məsələ bunda deyildir. Məsələ bundadır ki, MDB çərçivəsində elə strukturlar yaratmaq istəyirlər ki, onlar öz nizamnaməsinə və istiqamətinə, məqsədlərinə uyğun olaraq MDB çərçivəsindən kənara çıxırlar. Buna görə də biz bu məsələyə birmənalı yanaşırıq – biz fövqəldövlət, fövqəlmilli strukturların əleyhinəyik. Hesab edirik ki, MDB-nin ehtiyatlarından və potensialından hələ büsbütün istifadə olunmayıbdır. Buna görə də biz ona tərəfdarıq ki, MDB çərçivəsində proseslər fəallaşdırılsın.

**Sual**: Cənab Kərimov, Özbəkistanın Ermənistanla nə kimi əlaqələri var? Siz islam təməlçiliyi meyllərinə necə baxırsınız?

**İslam Kərimov**: Bizim Ermənistanla heç bir əlaqəmiz yoxdur. Bizim yalnız səfirliklər səviyyəsində rəsmi münasibətlərimiz var.

İslam təməlçiliyinə gəldikdə, zənnimcə, Özbəkistan öz xəttini, proqramını, perspektivini birdəfəlik müəyyənləşdirərək, birmənalı şəkildə bildirmişdir ki, o, hər hansı təməlçiliyin – dini təməlçiliyin də, kommunist təməlçiliyinin də əleyhinədir. Təməlçiliyin hər iki forması bizim üçün eyni dərəcədə qeyri-məqbuldur.

Bilirsinizmi, çoxları islamı səhv şərh edir və yeni problemlər yaratmaq və onları islam təməlçiliyi ilə bağlamaq üçün is[337-338]lamdan bir vasitə kimi istifadə edirlər. Biz hesab edirik ki, islam dini də hər hansı başqa bir din kimidir. Mən Quranı, digər dini kitabları oxumuşam. Özbəkistan İmaməl Buxarinin, İmam ət-Termezinin vətənidir. Onlar Məhəmməd peyğəmbərin hədislərinin toplanmasında ən görkəmli din xadimləri sayılırlar. Bir vaxtlar onlar bu hədisləri toplayaraq çox böyük iş görmüşlər. Biz bu hədisləri indiyədək bərpa etməyə çalışırıq. Onlar islam dünyasının olduqca böyük əhəmiyyətli və dəyərli sərvətidir. Bu hədisləri, Quranı diqqətlə oxusanız, görərsiniz ki, islam ən demokratik dindir. Mən fəxr edirəm ki, ata-babalarımız bu dinə inanmış, ona etiqad etmişlər. Biz isə atalarımızın dininə böyük hörmət bəsləyirik.

**Sual**: Zəhmət olmasa, gələcək mədəni əlaqələrimiz haqqında danışın, Rusiyada seçkiqabağı kampaniyaya münasibətinizi də bildirin.

**Heydər Əliyev**: Özbək və Azərbaycan xalqları arasında mədəni əlaqələrin qədim tarixi var. Xalqlarımızın mədəni, ədəbi əlaqələrindən danışarkən çoxlu misallar və adlar çəkmək olar. Lakin bizim əsrimizdən, son onilliklərdən söhbət gedərsə, deyə bilərik ki, biz Azərbaycanda özbək mədəniyyəti günlərini uğurla keçirmişik. O zaman ongünlük ərzində özbək mədəniyyətinin bütün məşhur nümayəndələri Azərbaycanda idilər, respublikamızın sakinləri artistləri də, musiqiçiləri də, müğənniləri də, şairləri və yazıçıları da salamlayırdılar. Özbəkistanda Azərbaycan mədəniyyəti günləri də eynilə bu cür keçmişdir. Bizim rəssamlarımız, bəstəkarlarımız, artistlərimiz, şairlərimiz, yazıçılarımız tez-tez bir-birlərinə qonaq gedirdilər. Əlişir Nəvaidən tutmuş müasir özbək yazıçılarına, şairlərinə qədər bir çoxlarının külli miqdarda əsəri ölkəmizdə Azərbaycan dilinə tərcümə edilmişdir. Mən bilirəm ki, Özbəkistanda da belədir. Bir sözlə, bu baxımdan bizim çox böyük potensialımız, böyük zəminimiz var. Şübhə etməmək olar ki, indi, Özbəkistan prezidentinin buraya gəlişindən, sənədlərin imzalanmasından sonra mədəni əlaqələrimiz genişlənəcəkdir. Xüsusən də ona görə ki, bu sənədlərdən biri mədəniyyət sahəsində əməkdaşlığın inkişafına aiddir. Yəni demək istəyirəm ki, bu məsələdə heç bir problem olmayacaqdır. Bunlar xalqlarımız arasında dostluğun daha da möhkəmləndirilməsinə xidmət edəcəkdir. Bu baxımdan mədəniyyət həmişə son dərəcə mühüm rol oynayır.

Rusiyada seçkilərə gəldikdə isə, şəxsən mən arzu edirəm [338-339] ki bu seçkilər demokratik əsasda keçsin, orada demokratiya, islahatlar prinsipləri bərqərar olsun.

**İslam Kərimov**: Heydər Əliyeviç mədəniyyət barədə çox tutarlı danışdı və mən deyilənlərə elə bir şey əlavə edə bilmərəm. Lakin Nizami Gəncəvi, Füzuli kimi böyük azərbaycanlıların adlarını çəkmək istərdim, onlar bəlkə də Özbəkistanda sizdə olduğundan daha məşhurdurlar. Ona görə belə deyirəm ki, Füzulinin özbək dilinə tərcümə edilmiş şerləri bizdə bütün dövrlərdə məşhurdur. Adamlar bu şerləri dinləyir və bunlardakı ecazkarlıq sayəsində həyatı yeni şəkildə dərk edirlər. Daha sonrakı dövrlərdə yaşamış müəlliflər, məsələn, Səməd Vurğun da çox məşhurdur. Mən bu siyahını artıra bilərdim. Demək istəyirəm ki, özbəklər sizin yazıçıları və şairləri özbək dilində oxuyurlar, bu fakt isə çox şey deyir. Rus dilində oxumurlar. Füzulini rus dilində oxumaq mümkün deyil. Füzulinin rus dilinə tərcümə edilmiş şerlərinə necə mahnı bəstələmək olar, təsəvvür etmirəm. Axı, onun qəzəllərini yalnız milli, dərindən bildiyin dildə oxumaq mümkündür: əks halda başlıca gözəlliyi, mənası itir.

Müasir ədiblərdən, məsələn, milliyyətcə azərbaycanlı olan yazıçımız Şeyxzadədən danışsan, o,

Özbəkistanın ən nüfuzlu yazıçılarından biridir. Doğrudur, indi o, həyatdan getmişdir, lakin bu insan Azərbaycanın Özbəkistan tarixinə əbədi daxil olması üçün çox böyük töhfə vermişdir. O, Özbəkistanın tarixini elə dərindən bilirdi ki, Uluqbəyin, Teymurilərin həyatı haqqında klassik, tarixi əsərlər yazmışdır. Şeyxzadə azərbaycanlı olsa da, artıq bu gün özbək ədəbiyyatının klassiki sayılır. Bu barədə çox danışmayacağam. Lakin sizin dərin lirik, sırf milli musiqinizi biz çox gözəl duyuruq. Ən ucqar qışlaqda yaşayan hər hansı özbək Azərbaycan musiqisini məmnuniyyətlə dinləyir. Ona görə də biz günahkarıq ki, qəlbləri sevindirən və ilhama gətirən, ruhu sakitləşdirən, harmoniya yaradan və eyni kökdən olduğumuzu xəbər verən bu xəzinədən müəyyən bir müddət uzaqlaşmışıq. Əgər eyni kökdən olmasaydıq, musiqini və klassik şeri başa düşməzdik.

Bu mövzuda çox danışa bilərdim, çünki siyasət məni bezikdirir və bu məsələlərdən daha çox danışmağı üstün tuturam, ona görə ki, bunlar insana, onun qəlbinə yaxındır. Gündəlik siyasət arxasında bu həyatın bütün gözəlliyini, mənasını itirir, çox böyük kasadlıq duyuruq. [339-340]

O ki qaldı ikinci suala, bu barədə Heydər Əliyeviçdən bir qədər çox danışacağam, çünki o, məndən təcrübəlidir, mənə nisbətən daha böyük diplomatdır. Demək istəyirəm ki, hazırda Rusiyanın seçkiqabağı meydanında çox sərt qarşıdurma gedir. Əgər mən rusiyalı seçici olsaydım, Yeltsinə səs verərdim. Ona görə yox ki, çox xoşuma gəlir, ona görə ki, digər namizədlərin arasında ondan yaxşısını görmürəm. Bu da sizə konkret cavab. Lakin başa düşürəm ki, səs verən yalnız Rusiya, yalnız onun insanları olacaqdır. Bununla belə, biz həmin seçkilərə biganə deyilik. Bu yaxınlarda, MDB-nin iclasında da hamımız bu barədə danışmışıq. Çünki sabah, məsələn, vətənpərvər-kommunist adlandırılanları seçsələr, qəti əminəm ki, qarşıdurma təkcə Rusiyanın özü ilə qurtarmayacaq. Geriyə qayıtma təkcə orada olmayacaq, ehtimal ki, bu, hazırda MDB çərçivəsində birləşmiş ölkələrin həyatına da təsir edəcəkdir. Belə nəticəyə gəlmək üçün ciddi əsaslar var.

Biz geriyə qayıtmağın əleyhinəyik, biz Rusiyanın demokratik ölkə olmasını istəyirik, onunla bərabər səviyyəli, qardaşlıq münasibətlərimizin olmasını istəyirik, bizi müstəqil, suveren dövlətlər kimi tanınmasını, gələcək üçün bizimlə bərabər səviyyəli münasibətlər yaratmasını istəyirik. Rusiyanın demokratik ölkə olmasının mənasını yalnız bunda görürük.

Əgər qısaca desək, iyunun 16-sı çox şeyi müəyyən edəcəkdir. Rusiyanın seçdiyi yol təkcə MDB-yə, Avropaya, Asiyaya deyil, həm də ümumən bütün dünyaya təsir edəcəkdir. Mən buna əminəm. Ona görə də Özbəkistanın rəhbəri kimi bir daha bəyan etmək istəyirəm ki, mən Rusiyanın demokratik yol seçməsinin, onu bundan sonra da demokratiya yolu ilə aparacaq adamı seçməsinin tərəfdarıyam. [340-341]

## M. Ə. RƏSULZADƏ ADINA BAKI DÖVLƏT UNİVERSİTETİNDƏ ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVA BDU-nun FƏXRİ DOKTORU DİPLOMUNUN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*27 may 1996-cı il*

Hörmətli dostumuz, Özbəkistan Respublikasının prezidenti cənab İslam Kərimov!

Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi münasibətilə sizi ürəkdən təbrik edirəm. Sizə cansağlığı, firavanlıq, qardaş Özbəkistanın daha da çiçəklənməsi naminə dövlət və elmi fəaliyyətinizdə yeni böyük uğurlar arzulayıram.

Sizə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi sizin həyat yolunuza, elmi fəaliyyətinizə, dövlət fəaliyyətinizə nəinki universitet tərəfindən, həm də Azərbaycanın bütün elmi ictimaiyyəti tərəfindən, bütün Azərbaycan xalqı tərəfindən hörmətin təzahürüdür.

Əziz dostumuz, siz öz xalqınız üçün, öz torpağınız üçün, öz müstəqil dövlətiniz üçün çox işlər görmüsünüz. Azərbaycanda yaxşı bilirlər ki, məhz sizin səyləriniz, rəhbərliyiniz, coşqun fəaliyyətiniz sayəsində Özbəkistan dövlət müstəqilliyi qazanaraq tam azadlığa çıxmış və öz taleyini xalqın istədiyi kimi, xalqın milli ənənələrinin tələb etdiyi kimi idarə etmək imkanı almışdır.

Azərbaycanda onu da yaxşı bilirlər ki, siz özbək xalqının milli mənlik ruhunun dirçəlməsi üçün, özbək xalqının milli dirçəlişi üçün, Özbəkistan Respublikasının müstəqilliyinin möhkəmlənməsi üçün çox işlər görmüsünüz. Siz ömrünüzün çox illərini xalqa xidmətə həsr etmisiniz. Lakin həyatınızın ən parlaq səhifəsi Özbəkistan Respublikasına rəhbərlik etdiyiniz dövrlə, özbək xalqı keçmiş Sovet İttifaqının rəhbərləri tərəfindən böhtanlara, ədalətsiz əməllərə məruz qaldığı dövrlə bağlıdır. Yaxşı məlumdur, mən bunu bu salonda əyləşənlərdən bəlkə də daha yaxşı bilirəm ki, siz keçmiş Sovet İttifaqı rəh[341-342]bərlərinin Özbəkistan barəsində, özbək xalqı barəsində ədalətsiz, təhqiramiz hərəkətlərinə qarşı böyük mərdlik nümayiş etdirmisiniz. İstər keçmiş zamanlarda, istərsə də indiki zamanda Özbəkistan tarixini səciyyələndirən yaxşı, qiymətli nə varsa, onların hamısının bərpa olunması üçün siz böyük cəsurluq, müdriklik göstərmisiniz. Sizin bu xidmətiniz təkcə Özbəkistanda deyil, Azərbaycanda da, şəxsən məndə də böyük ehtiram hissləri doğurur. Görüşlərimiz zamanı söylədikləriniz, universitetdə bu görüşün iştirakçılarına dedikləriniz böyük təəssürat oyadır, dərin hörmət hissləri doğurur.

Siz öz milli inkişaf, dövlət müstəqilliyini möhkəmlətmək yolunuzu, öz islahatlar aparmaq yolunuzu, cəmiyyətin, Özbəkistanda bütün dövlət sisteminin demokratikləşdirilməsi yolunuzu seçmisiniz və böyük uğurlar qazanmısınız. Sizi bu uğurlar münasibətilə ürəkdən təbrik edirəm və sizə bir daha cansağlığı, firavanlıq və yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayıram.

Sizə Bakı Dövlət Universitetinin fəxri doktoru adı verilməsi Özbəkistan ilə Azərbaycan arasında qardaşlıq münasibətlərinin möhkəmlənməsi işində, dövlətlərimiz arasında əməkdaşlığın möhkəmlənməsi işində xidmətlərinizin qiymətləndirilməsi deməkdir. Siz burada tamamilə haqlı olaraq xalqlarımızın tarixi ənənələrindən, tarixi əlaqələrindən, özbək və Azərbaycan xalqlarının görkəmli şəxsiyyətlərindən danışdınız. Siz çox düzgün olaraq köklərimizdən, dilimizin, mədəniyyətimizin, ənənələrimizin ümumiliyindən söhbət açdınız. Siz çox düzgün olaraq xalqlarımızı həmişə birləşdirmiş və yaxınlaşdırmış olan gözəl zəmindən danışdınız. Bu gün biz xalqlarımızın tarixindən, özbək və Azərbaycan xalqları arasında əlaqələrin tarixindən və indi malik olduğumuz böyük irsdən həqiqətən minnətdarlıq hissi ilə danışa bilərik.

İndi, Özbəkistan və Azərbaycan müstəqil dövlətlər olduğu bir dövrdə bu əlaqələri dərinləşdirmək və inkişaf etdirmək üçün, əməkdaşlığımızı dərinləşdirmək və inkişaf etdirmək üçün qarşımızda geniş imkanlar açılır. Sizin bu salonda söylədiyiniz fikirlər, mülahizələr belə deməyə əsas verir ki, ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında əməkdaşlığı inkişaf etdirmək üçün gözəl imkan var. Əziz dostumuz, bu baxımdan biz sizin coşqun fəaliyyətinizə böyük ümidlər bəsləyirik.

Mən şadam ki, bu gün siz Bakı Dövlət Universitetinin fəxri doktoru adını alarkən Bakı Dövlət Universiteti ilə Daşkənd [342-343] Dövlət Universiteti arasında əlaqələrin möhkəmlənməsi üçün öz vəzifələrinizi və əməkdaşlığımızı, dostluğumuzu daha da irəlilətmək üçün bütün mümkün işləri görmək arzusunda olduğunuzu elan etdiniz. Mən bunların hamısına inanıram. Universitetin professor-müəllim heyəti, tələbə nümayəndələri də bu görüşə bu inamla toplaşıb və sizi doğma bir adam kimi mehribanlıqla qarşılayırlar. Əminəm ki, bugünkü danışıqlardan, söhbətlərdən və fikir mübadiləsindən sonra, Özbəkistan ilə Azərbaycan arasında 19 dövlətlərarası saziş imzalandıqdan, mühüm bir sənəd – "Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalandıqdan sonra biz gözəl nəticələr əldə edəcəyik və istər Özbəkistanda, istərsə də Azərbaycanda yeni-yeni nailiyyətlərin şahidi olacağıq. Biz xalqlarımız arasında,

dövlətlərimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi sahəsində yeni-yeni addımların şahidi olacağıq.

Hörmətli İslam Abduqəniyeviç, siz Asiyada iri dövlətlərdən birinin – Özbəkistan Respublikasının başçısı kimi öz coşqun fəaliyyətinizlə dünya birliyində həqiqətən böyük nüfuz qazanmısınız. Məhz özünəməxsus fəaliyyətinizlə, öz fəallığınızla, öz qətiyyətinizlə, milli ənənələrə, milli ruha sadiqliyinizlə öz xalqınız arasında, öz ölkənizdə, Dünya Birliyində yüksək nüfuz qazanmısınız. Sizi bu nailiyyətlər münasibətilə ürəkdən təbrik edirəm. Sizi özbək xalqının, müstəqil Özbəkistan Respublikasının nailiyyətləri münasibətilə ürəkdən təbrik edirəm. Sizə yeni nailiyyətlər, yeni uğurlar arzulayıram. Sizi bu yüksək ad münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, firavanlıq, dövlət və elmi fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram. [343-344]

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*27 may 1996-cı il*

Zati-aliləri, hörmətli Özbəkistan Respublikasının prezidenti, cənab İslam Kərimov! Möhtərəm qonaqlar, xanımlar və cənablar!

Bu gün səhər Özbəkistan Respublikasının prezidenti İslam Kərimovun Azərbaycana rəsmi dövlət səfəri başlanmışdır. Bu, Özbəkistan Respublikası. prezidentinin ölkəmizə ilk səfəridir və o, son on beş ildə Özbəkistandan Azərbaycana gələn ali qonaqdır. Bu, Azərbaycanın həyatında, Özbəkistan ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərdə mühüm hadisədir. Biz Özbəkistan Respublikasının prezidenti, dostumuz İslam Kərimovu və onu müşayiət edən şəxsləri səmimi salamlayırıq və bu səfərə görə, bu gün görülmüş böyük və səmərəli işə görə öz minnətdarlığımızı bildiririk.

Bu gün rəsmi dövlətlərarası danışıqlar aparıldı, nümayəndə heyətlərinin üzvləri arasında çox ətraflı söhbət, Özbəkistan ilə Azərbaycan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin geniş dairəsi barədə fikir mübadiləsi oldu. Mən dostumuz prezident İslam Kərimovla həm Özbəkistanı, həm də Azərbaycanı maraqlandıran məsələlər, bir çox digər məsələlər barəsində təkbətək söhbət etmək imkanına malik oldum.

Ümumiyyətlə, danışıqlar, söhbətlər zamanı Özbəkistan ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı məsələlərin geniş dairəsi barədə ətraflı fikir mübadiləsi oldu. Biz beynəlxalq ictimaiyyəti narahat edən problemlər, regionumuzun həyatına aid bir çox problemlər barəsində də fikir mübadiləsi apardıq. Məmnunluqla deyə bilərəm ki, əslində bütün məsələlərdə baxışlarımız uyğun [344-345] gəldi, bir çox məsələlər barəsində yekdil rəydə olduq. Bu isə Böyük razılıq hissi doğurur.

Danışıqlarımızın və söhbətlərimizin nəticələrinə əsasən dövlətlərarası sənədlər imzalandı. Özbəkistan və Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi vaxtdan bəri ilk dəfə olaraq sənədlərin böyük bir paketi, 19 saziş imzalandı. Onların hamısı çox böyük əhəmiyyətə malikdir və əməkdaşlığımızı daha da inkişaf etdirmək, dostluğumuzu möhkəmləndirmək üçün yaxşı müqavilə – hüquqi bazadır. Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin xüsusi əhəmiyyəti var. Bu sənəddə gələcək əməkdaşlığımızın böyük bir proqramı öz əksini tapmışdır. Başlıcası isə, ölkələrimiz, xalqlarımız arasında əlaqələrin çoxəsrlik tarixi ərzində ilk dəfə olaraq biz belə müqavilə imzalamışıq. Bütün bunlar bir çox yüzilliklər və minilliklər ərzində böyük sınaqlardan keçən Özbəkistan-Azərbaycan münasibətlərini əmələ gətirən fundamental bazaya əsaslanır. Bu gün biz daha da yaxınlaşdıq. Bütün bunlar əcdadlarımız, əvvəlki nəsillər tərəfindən qoyulmuş bünövrə üstündədir. Bütün bunlar ona görə mümkün olur ki, biz bir kökdən olan xalqlarıq, millətik. Tarixi köklərimiz bizi bir-birimizə möhkəm bağlamışdır. Bir dilə, bir dinə mənsubiyyət, ənənələrimizin, adətlərimizin, mədəniyyət və ədəbiyyatımızın oxşarlığı, yaxınlığı və ya eyniliyi – bütün bunlar elə bir baza, elə bır bünövrədir ki, indi Özbəkistan-Azərbaycan münasibətləri onların üzərində qurulur.

Bu gün özbək və Azərbaycan xalqlarının tarixi əlaqələrindən çox danışmaq olar. Bu barədə çox deyilib. Dostumuz İslam Kərimov Bakı Dövlət Universitetinin professor-müəllim heyəti ilə, tələbə nümayəndələri ilə görüş zamanı bu barədə çox parlaq və inandırıcı danışdı. Amma Özbəkistan prezidentinin səfəri ilə bağlı böyük səmərəli işi başa çatdırarkən daha bir neçə söz demək istərdim.

Bir daha təkrar edirəm, tarixi köklərimiz bizi birləşdirmişdir və birləşdirir. Bu gün biz dünya sivilizasiyasına çox sanballı töhfə vermiş olan Xarəzmi, Fərabi, Biruni, İbn Sina, Uluq bəy kimi Şərqin, Özbəkistanın görkəmli mütəfəkkirlərinin, filosoflarının, alim və şairlərinin adlarını dərin ehtiram hissi ilə çəkirik. Bu gün biz özbək klassik ədəbiyyatının banisi Əlişir Nəvainin, Özbəkistanın bir çox digər alimlərinin, mütəfəkkirlərinin, filosof və şairlərinin adlarını dərin ehtiram hissi ilə xatırlayırıq. Lakin bununla bərabər, bu gün biz böyük sevinc [345-346] hissi ilə xatırlayırıq ki, tarixi köklərimiz Özbəkistanın və Azərbaycanın mütəfəkkirləri, şairləri, alimləri arasında çox sıx dostluq telləri üçün əsas olmuşdur. Onlar bir-birinə təsir göstərmiş, öz yaradıcılığı ilə bir-birinə kömək etmişlər. Böyük Azərbaycan şairi Nizami Gəncəvi XII əsrdə görkəmli əsərlər yazmış və bu əsərlər dünya sivilizasiyasını zənginləşdirmişdir. Bunlar "Xəmsə" və bir çox digər əsərlərdir. Tarixdən bilirik ki, artıq XIV əsrdə özbək şairi Qütb Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının təsiri altında "Fərhad və Şirin" poemasını yazmışdır. XV əsrdə özbək şairi Mir Heydər Nizaminin "Sirlər xəzinəsi" poemasının fikir və duyğularını əks etdirərək "Bağın sirri" adlı bu cür poema yazmışdır. Nizami Gəncəvi kimi, Əlişir Nəvai də "Xəmsə" və digər diqqətəlayiq əsərlər yaratmışdır. Bu əsərlərdə o, Nizami yaradıcılığının fikir və duyğularını əks etdirmişdir. Əlişir Nəvai Nizami Gəncəvini şairlər şairi, Gəncə şairlərinin şahı adlandırırdı. Öz növbəsində,

biz Əlişir Nəvainin əsərlərinin Füzuli yaradıcılığına, habelə digər özbək şairlərinin yaradıcılığına böyük təsir göstərdiyini görürük. Tarixdə minlərlə belə faktlar var, onlar tarixi, mədəni, ədəbi əlaqələrdən xəbər verir. Biz hələ onu demirik ki, xalqlarımızın əlaqələri min bir tellə çulğalanmışdır.

XX əsrdən danışarkən sevinc və iftixar hissi ilə demək olar ki, xalqlarımız öz aralarındakı əlaqələri daha yüksək səviyyəyə qaldırmışlar. Əsrimizin başlanğıcında özbək və Azərbaycan xalqlarının dostluğunu və əməkdaşlığını sübut edən çoxlu fakt var. Yeri gəlmişkən, o illərdə Azərbaycan xalqının görkəmli oğlu bir neçə il Moskvada Şərqin işləri ilə məşğul olmuş Nəriman Nərimanov çox iş görmüşdür. Buna görə də təsadüfi deyil ki, indiyədək neçə-neçə məktəb və müəssisə Nəriman Nərimanovun adını daşıyır. Yadımdadır, rəhmətlik Şərəf Rəşidov mənə deyirdi ki, o, Nəriman Nərimanovun adını daşıyan məktəbdə oxumuşdur. Görünür, bu hisslərin təsiri altında 70-ci illərin axırlarında – 80-ci illərin əvvəllərində Daşkənd yaxınlığında böyük bir kompleks, gərək ki, motorqayırma zavodu tikilərkən orada şəhər salındıqda Şərəf Rəşidov təşəbbüs irəli sürmüş və bu şəhərə Nəriman Nərimanovun adını vermişdir. O özünün bu təşəbbüsü barədə mənə demiş, mənimlə məsləhətləşmişdir. Təbii ki, mən bunu çox böyük hörmət hissi ilə qarşıladım. Bütün bunlar və bir çox digər işlər inandırıcı surətdə göstərir ki, biz bir-birimizə çox yaxınıq, biz bir-birimizlə sıx bağlıyıq. Bu gün bu barədə dostum İslam Kərimov da [346-347] danışdı. Mən demək istəyirəm ki, Qafur Qulamla Səməd Vurğunun dostluğu özbək və Azərbaycan xalqları arasında dostluğun çox parlaq səhifəsidir.

Yaxşı məlumdur ki, Azərbaycan musiqisi klassiklərinin əsərləri Özbəkistanda böyük məhəbbətlə ifa olunmuşdur və ifa edilir. Məsələn, məşhur "Arşın mal alan" operettası hələ çox-çox illər qabaq, müharibədən əvvəlki illərdə Özbəkistanda da Azərbaycandakı kimi böyük müvəffəqiyyətlə göstərilmişdir. Azərbaycan şairləri və yazıçıları özbək ədəbiyyatı klassiklərinin, demək olar, bütün əsərlərini ana dilinə tərcümə etmişlər. Bu əsərlər kütləvi tirajla nəşr olunmuşdur. Çox diqqətəlayiq bir fakt gətirmək istəyirəm, Azərbaycan yazıçısı Mirzə İbrahimov və başqaları rəhmətlik Şərəf Rəşidovun romanlarmı tərcümə etmişdilər. Bu romanlar 70-ci illərdə Azərbaycanda kütləvi tirajla buraxılmışdır. Azərbaycan ədəbiyyatı və incəsənətinin nümayəndələri Özbəkistanda müvəffəqiyyətlə çalışmışlar. Bu barədə dostumuz İslam Kərimov da danışdı. Mən də iftixar hissi ilə demək istəyirəm ki, soydaşımız, azərbaycanlı Maqsud Şeyxzadə özbək ədəbiyyatının klassiki olmuşdur, əsərlərini özbək dilində yazırdı. Bir görün, o, özbək xalqına nə kimi əsərlər qoyub getmişdir! Bunlar həm özbək xalqı üçün, həm də Azərbaycan xalqı üçün iftixardır.

Görkəmli rejissorumuz Firidun Səfərov uzun illər ərzində Daşkənd Opera Teatrında işləmişdir, ola bilsin, orada indi də işləyir. Nəhayət, 70-ci illərin axırlarında mühüm hadisə baş verdi. İstedadlı Azərbaycan bəstəkarı Arif Məlikov mərhum Şərəf Rəşidovla birlikdə "İki qəlbin əfsanəsi" adlı gözəl balet yaratdı. Bu balet Şərəf Rəşidovun povesti əsasında yazılmışdı. Sonra isə onun özü baletə libretto yaratdı. Balet Daşkənd Opera və Balet Teatrında böyük müvəffəqiyyətlə göstərildi. Yadımdadır, rəhmətlik Şərəf Rəşidov, Arif Məlikov buna çox sevinirdilər. Buna mən də sevinirdim, çünki bu, qardaşlıq münasibətlərimizi, əlaqələrimizi bir daha təsdiqləmişdi.

Nəhayət, bir dövlət xadimi kimi Şərəf Rəşidovun özbək və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsində oynadığı böyük roldan ayrıca danışmaq istəyirəm. O, Azərbaycanda dəfələrlə olmuş, bizim bir çox yazıçı və şairlərimizlə əlaqə saxlayırdı. Məni də onunla böyük şəxsi dostluq telləri bağlayırdı. Xatirimdədir, 80-ci ildə burada, bu salonda biz onunla bir stol arxasında əyləşmişdik və Azərbaycan xalqının [347-348] böyük bayramını qeyd edirdik. Şərəf Rəşidov bizim əziz qonağımız idi.

Bunların hamısı tarixdir. Müəssisələrimizin, xüsusən pambıqçılarımızın çoxsaylı əlaqələri də bu zəngin tarixə sübutdur. Hər il payız özbək pambıqçıları nümayəndə heyətlərinin gəlişi böyük sevinc doğururdu. Elə bir il olmurdu ki, mən onlarla görüşməyim. Özü də təkcə mən yox, Azərbaycanın bütün rəhbərliyi də onlarla görüşürdü. Bütün bunlar dostluğumuzu möhkəmlədir və inkişaf etdirirdi. Bütün bunlar elə bir zəmindir ki, indi münasibətlərimiz onun üzərində qurulur. Lakin bu gün malik olduqlarımız keçmişdəki münasibətlərimizdən qat-qat üstündür. Çünki indi münasibətlərimiz elə bir şəraitdə qurulur ki, Özbəkistan da, Azərbaycan da müstəqil dövlətdir. Biz dostumuz, yoldaşımız, Özbəkistan prezidenti, Özbəkistan Respublikasının ilk prezidenti İslam Kərimovu və onunla birlikdə gələn şəxsləri ilk dəfə olaraq qəbul edirik.

Müstəqilliyin dörd il yarımı ərzində ölkələrimiz böyük yol keçmişlər. Başlıca nailiyyət budur ki, Özbəkistan və Azərbaycan öz dövlət müstəqilliyini möhkəmlətmişlər. Bu gün biz bəyan edirik ki, Azərbaycanın müstəqilliyi dönməzdir. Bu, bizim üçün tarixi müvəffəqiyyət, tarixi nailiyyətdir və biz öz müstəqilliyimizi heç vaxt əldən verməyəcəyik. Biz həyatımızın çətin bir dövrünü keçirik və bu, xarici təcavüzlə, keçid dövrünün bir çox çətinlikləri ilə bağlıdır. Bu çətinliklər yaxın keçmişdə Azərbaycanın daxili-siyasi həyatını mürəkkəbləşdirmişdir. Lakin bütün bunlara baxmayaraq dövlət müstəqilliyi, milli azadlıq bizim üçün hər şeydən ucadır və biz buna böyük ehtiramla yanaşırıq və heç vaxt yol verməyərik ki, kimsə onlara qəsd etsin. Bu gün, danışıqlar və söhbətlər zamanı biz bu məsələdə Özbəkistan prezidenti ilə Azərbaycan prezidenti arasında, ölkələrimizin nümayəndə heyətləri arasında tam yekdillik olduğunu aşkara çıxardıq və bu, çox vacibdir. Bu, ona sübutdur ki, biz keçmişdəki kimi yenə də eyni mövqe tuturuq.

Bu gün biz prezident İslam Kərimovun çıxışından müstəqil Özbəkistanın iqtisadi, sosial sahədə və digər sahələrdə qazandığı nailiyyətlər barədə məlumat aldıq. Biz buna hörmətlə yanaşırıq ki, Özbəkistanda

demokratik dövlət qurulur, demokratik cəmiyyət yaradılır, bazar iqtisadiyyatı əsasında iqtisadi islahatlar aparılır, Özbəkistan Dünya Birliyində layiqli yer tutmuşdur, bu qısa zaman ərzində öz taleyinin sahibi olan özbək xalqı ən əvvəl iqtisadi sahədə, dünyanın bir çox ölkələri ilə [348-349] iqtisadi əlaqələr yaradılmasında, bir çox ölkələrlə əmtəə dövriyyəsində elə nailiyyətlər qazanmışdır ki, əvvəllər o, belə nailiyyətə malik olmamışdır. Bunlar bizi bir dost kimi sevindirir və bununla əlaqədar mən dostumuz İslam Kərimovu və Özbəkistandakı bütün qardaşlarımızı bir daha təbrik edirəm. Bir daha demək istəyirəm ki, çətinliklərə baxmayaraq, Azərbaycan dövlət müstəqilliyi yolu ilə gedir, demokratik, hüquqi, sivilizasiyalı dövlət quruculuğu yolu ilə gedir, hüquqi, demokratik cəmiyyət yaradır. Bu, bizim böyük nailiyyətimizdir ki, ötən ilin noyabrında biz müstəqil Azərbaycan Respublikasının gələcəyə yolu göstərən ilk konstitusiyasını qəbul etdik, habelə müstəqil Azərbaycan Respublikasının ilk parlamentinə demokratik seçkilər keçirdik. Parlamentimiz artıq formalaşmışdır və fəaliyyət göstərir. Biz öz ölkəmizi xarici sərmayələrin üzünə açmışıq, dünyanın bir çox sərmayədarları ilə, bir çox iri şirkətləri ilə əlaqələr yaratmışıq və bu şirkətlərlə Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının birgə işlənməsi haqqında "Əsrin müqaviləsi" adlanan müqavilə imzalamışıq. Bu əməkdaşlığımız davam edir, ikinci müqavilə imzalanıb, üçüncü müqavilə imzalanmağa hazırlanır. Əcnəbi sərmayədarlarla bir çox digər əlaqələrimiz də var. Bunların hamısı inandırıcı şəkildə göstərir ki, azad sahibkarlıq üçün, bazar iqtisadiyyatı üçün, bütün ölkələrlə, dünyanın ən iri şirkətləri ilə qarşılıqlı surətdə faydalı iqtisadi münasibətlər qurulması yolu ilə Azərbaycanın dünya iqtisadiyyatına qovuşması üçün bizdə şərait yaradılmışdır. Bütün bunlarda da baxışlarımızın, mövqelərimizin yenə də uyğun gəldiyi özünü büruzə verir.

Əlbəttə, belə bir cəhət Özbəkistan üçün vacibdir ki, o, dövlət müstəqilliyi qazandığı vaxtdan bəri burada daxili ictimai-siyasi sabitlik üçün şərait yaradılmışdır. Bu, müstəqil Özbəkistan dövlətinin, Özbəkistan prezidentinin böyük nailiyyətidir. Biz buna şadıq.

Təəssüf ki, biz bir çox çətinliklərlə qarşılaşmışıq. Bizim üçün ən böyük müsibət Ermənistan Respublikası tərəfindən edilən hərbi təcavüzdür. Artıq səkkiz ildir davam edən bu təcavüz nəticəsində ərazilərimizin 20 faizi işğal olunub, bir milyondan çox sakinimiz öz yurd-yuvalarından didərgin salınıb və onlar çox ağır şəraitdə yaşayırlar. Bayaq dedim ki, iki il əvvəl biz barışığa razılıq verdik. Biz hərbi əməliyyatlara yenidən başlanmasını istəmirik, beynəlxalq təşkilatların imkanlarından, [349-350] böyük dövlətlərin vasitəçilik səylərindən istifadə edərək, bu məsələnin dincliklə nizama salınmasına çalışırıq. Biz daxili siyasi proseslərlə bağlı çətinlikləri aradan qaldırdıq. 1993-cü ildə biz vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanın müxtəlif hissələrə parçalanmasının qarşısını aldıq, 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişləri cəhdlərinin qarşısını aldıq, hər cür terror hərəkətlərinin qarşısında möhkəm dayandıq və indi Azərbaycanda daxili siyasi vəziyyət sabitdir. Əminəm ki, biz bu sabitliyi qoruyub saxlamağa və möhkəmlətməyə qadirik.

Görünür, bu sabitlik elə bir əsasdır ki, bu gün biz Özbəkistan ilə Azərbaycan arasında bu qədər mühüm sənədlər imzaladıq. Görünür, bu sabitlik elə bir əsasdır ki, bir müddət əvvəl Türkmənistanda biz Transqafqaz magistralı haqqında, Özbəkistan yüklərinin Türkmənistan, Azərbaycan və Gürcüstan vasitəsilə Qara dəniz limanlarına və geriyə nəql edilməsi haqqında mühüm saziş imzaladıq və beləliklə, Avropanı Asiya ilə, Mərkəzi Asiya ilə birləşdirən son dərəcə əhəmiyyətli bir magistral yaratdıq. Biz bu daxili-siyasi sabitliyi bundan sonra da möhkəmləndirəcək və qoruyacağıq. Buna görə də dostluğa ehtiyacımız var. Bu gün Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında yenidən bu cür dostluğun və əməkdaşlığın bünövrəsi qoyulur.

Bütün bunlarda hörmətli qonağımız, dostumuz, Özbəkistan prezidenti İslam Kərimovun böyük xidməti var. Bu gün Özbəkistanın dövlət müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, respublikada azad iqtisadi inkişaf üçün şərait yaradılmasında onun olduqca böyük xidmətlərindən də danışmaq lazımdır. Mən onun xidmətlərini xüsusilə yüksək qiymətləndirirəm ki, o, özbək xalqının milli mənlik şüurunun inkişafı və möhkəmlənməsi üçün, Özbəkistanda milli ruhun dirçəlməsi üçün, Şərəf Rəşidovun vəfatından sonra 80-ci illərdə Özbəkistanın qarşılaşdığı çox böyük çətinliklərin, ola bilsin, çox böyük faciənin aradan qaldırılması üçün İslam Kərimov çox işlər görmüşdür. Bu gün mən universitetdə dedim, burada da demək istəyirəm: İslam Kərimovun məhz mərdliyi, insaniliyi elə bir əsasa çevrilmişdir ki, bu əsas özbək xalqının doğru-düzgün tarixini, Özbəkistanın görkəmli adamlarının, o cümlədən də dostumuz, mərhum Şərəf Rəşidovun təmiz adını bərpa etməyə imkan vermişdir. Bu insanilik, bu mərdlik və müdriklik ən yüksək qiymətə layiqdir. 1983-cü ildən ta Özbəkistana [350-351] İslam Kərimov başçılıq edən vaxtadək ölkənin necə bir faciəyə məruz qaldığı yadımızdadır.

İslam Kərimov Özbəkistan rəhbəri kimi bu respublika hələ dövlət müstəqilliyi əldə etməzdən əvvəl çox işlər görmüşdü. Keçmiş Sovet İttifaqı rəhbərlərindən Özbəkistana qarşı gördükləri ədalətsiz tədbirlər barədə onun 90-cı ilin əvvəlində verdiyi bəyanat da mənə yaxşı məlumdur, özbək xalqının tarixini, Özbəkistan tarixini keçmiş Sovet İttifaqı rəhbərlərinin cinayətkarcasına, vicdansızcasına Özbəkistana yağdırdıqları çirkabdan təmizləmək üçün həyata keçirdiyi tədbirlər də. Əslinə qalsa, bütün bunlar, görünür, elə bir əsasdır ki, prezident İslam Kərimov Özbəkistanda belə böyük nüfuza və hörmətə malikdir, öz dövlətinin müstəqil siyasətini sərbəst şəkildə aparır, o, Dünya Birliyində böyük nüfuz və hörmət qazanmışdır.

Mən bütün bunlar barəsində həm özbək xalqının tarixinə, həm də müstəqil Özbəkistan Respublikasının bugünkü nailiyyətlərinə dərin ehtiram hissi ilə danışıram. Bu hisslərlə mən müstəqil Özbəkistanın şərəfinə,

Özbəkistan Respublikası şərəfinə, özbək xalqının şərəfinə, Özbəkistan prezidenti, dostumuz İslam Kərimovun şərəfinə, bizə gəlmiş bütün qonaqların şərəfinə, Özbəkistan ilə Azərbaycan arasında qardaşcasına dostluğun və əməkdaşlığın daha da möhkəmlənməsi naminə, sizin sağlığınıza badə qaldırıram! [351-352]

## "AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ ƏMƏKDAŞLIĞININ PERSPEKTİVLƏRİ" MÖVZUSUNA HƏSR OLUNMUŞ KONFRANSIN AÇILIŞINDA NİTQ

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*30 may 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığının perspektivlərinə həsr olunmuş konfransın açılması münasibətilə sizi səmimi qəlbdən təbrik edirəm və hamınızı ürəkdən salamlayıram.

Bu konfrans Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin yeni mərhələsini müəyyən edir. Bu konfransın hazırlanmasına çox böyük vaxt, əmək sərf olunub. İlk dəfədir ki, respublikamızda Azərbaycana ilə Türkiyə arasında iqtisadi əməkdaşlığa həsr olunmuş belə bir geniş, mötəbər konfrans öz işinə başlayır. Bu münasibətlə Türkiyədən Azərbaycan konfransın işini təşkil edənlər və konfransda bilavasitə iştirak etmək üçün qonaqlar gəlmişlər. Mən Türkiyə Respublikasından bu konfransda iştirak edən qardaşlarımızı, bacılarımızı səmimi qəlbdən salamlayıram. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu konfrans həqiqətən Türkiyə ilə Azərbaycan arasında iqtisadi əlaqələrin problemlərini dərindən araşdıracaq, səmərəli iş görəcək və ölkələrimizin, xalqlarımızın arasında olan əlaqələri daha da sıx edəcək, yüksəklərə qaldıracaqdır.

Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi var. Bu əlaqələr bir çox əsrlər boyu formalaşıb, inkişaf edib, bugünkü xoşbəxt günlərə gəlib çatıbdır. Xalqlarımızın eyni kökə, eyni dinə, eyni dilə mənsub olması, adət və ənənələrimizin bir-birinə bənzərliyi, yaxud eyniliyi, milli duyğularımızın bir-biri ilə oxşar olması – hamısı birlikdə əsrlərdən-əsrlərə xalqlarımızı bir, bərabər etmişdir, xalqlarımız arasında sıx dostluq, qardaşlıq əlaqələri yaratmışdır. Məhz [352-353] buna görədir ki, biz tez-tez belə bir gözəl ifadəni işlədirik. "Biz bir xalq, iki dövlətik".

Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr yeni vüsət almışdır. Məlumdur ki, bundan əvvəlki illərdə, uzun bir zaman əlaqələrimizdə çox böyük məhdudiyyətlər, məhrumiyyətlər olmuşdur, bizi bir-birimizdən ayırmağa çalışmışlar, bizim aramızda böyük sədlər, hüdudlar qoyulmuşdur. Ancaq bunların heç biri xalqlarımızın bir-birinə bağlılığını sarsıda, sındıra bilməmişdir, bizi bir-birimizdən qəlbən, ruhən ayıra bilməmişdir.

Məhz buna görə də 1991-ci ilin sonunda Azərbaycan milli azadlığına nail olandan, dövlət müstəqilliyini əldə edəndən sonra Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələr sürətlə inkişaf etməyə başladı. Qısa bir müddətdə biz yüksək zirvələrə gəlib çatmışıq. Bu münasibətlər bütün sahələri əhatə edir. Türkiyə Cümhuriyyəti, xalqı Azərbaycan dövlət müstəqilliyini əldə edən kimi ölkəmizə ən böyük dayaq, kömək olmuş və respublikamız müstəqillik yolunda ilk addımlarını atan zaman həmişə onun yanında olmuşdur. Xalqımız, dövlətimiz bunu çox yüksək qiymətləndirir və heç zaman, heç vaxt unutmayacaqdır.

Məlumdur ki, Azərbaycan dövlət müstəqilliyini elan edən kimi ölkəmizi müstəqil dövlət olaraq dünya miqyasında ilk tanıyan dövlət Türkiyə Cümhuriyyəti olmuşdur. Mən bir daha qeyd edirəm, bundan sonrakı dövrdə bizim əlaqələrimiz çox sürətlə inkişaf etmişdir. Bunlar hamısı bizim uzun illər, onilliklər boyu bir-birimizdən ayrı düşdüyümüz vaxtları tezliklə aradan götürmüşdür. İndi biz bir-birimizə çox yaxınıq, bir yerdəyik, bərabərik.

Müstəqil Azərbaycan Respublikasının qarşısında çox böyük problemlər durur. Bu problemlər Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və əbədi etməkdən ibarətdir. Bu problemlər Azərbaycanı uzun sürən Ermənistan təcavüzündən xilas etməkdən, respublikamızın ərazi bütövlüyünü təmin etməkdən ibarətdir. Azərbaycan vətəndaşlarının hamısına rahat həyat şəraiti yaratmaqdan ibarətdir. Azərbaycanda sülh, əmin-amanlıq yaratmaqdan ibarətdir. Bu problemlər Azərbaycanın dövlət quruculuğunda, ictimai-siyasi həyatında, iqtisadiyyatında ciddi dəyişikliklər etməkdən ibarətdir. Bu problemlər Azərbay [353-354]canı demokratik hüquqi dövlət quruculuğu yolu ilə aparmaqdan, respublikamızda demokratik hüquqi cəmiyyət formalaşdırmaqdan ibarətdir.

Bu problemlərin həll edilməsində biz daim Türkiyə Cümhuriyyətinin dəstəyini, yardımını, onun bizə göstərdiyi dostluq, qardaşlıq qayğısını hiss edirik. Qısa bir zamanda, yəni Azərbaycan dövlət müstəqilliyini əldə edəndən indiyədək, deyə bilərəm ki, Türkiyədən vətənpərvər, türk qanı olan insanlar respublikamıza daim qayğı, hörmət, sayğı göstəriblər. Biz bunu yüksək qiymətləndiririk. Bununla bərabər – yəni türk xalqının bizə ümumi dəstək verməsi ilə bərabər – biz Türkiyənin dövlət xadimləri tərəfindən də bu illərdə çox böyük qayğı, qardaşlıq münasibəti hiss etmişik.

Bu münasibətlə mən, bu dövrdə Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlığın yaranmasında,

inkişaf etdirilməsində böyük xidmətləri olan Türkiyənin keçmiş prezidenti, mərhum Turqut Özalın xidmətlərini xatırlamaq istəyirəm. Türkiyənin indiki prezidenti, Azərbaycanın böyük dostu, hörmətli Süleyman Dəmirəlin xidmətlərini xüsusi qeyd edirəm. Türkiyənin baş naziri, hörmətli Məsud Yılmazın xidmətlərini və yaxın zamanlara qədər Türkiyənin baş naziri vəzifəsini aparmış hörmətli Tansu Çillərin xidmətlərini qeyd edirəm. Türkiyənin Böyük Millət Məclisinin xidmətlərini xüsusi qeyd edirəm. Türkiyənin bütün dövlət xadimlərinin, siyasi məsələlərlə məşğul olan, siyasi partiyalara rəhbərlik edən şəxslərin xidmətlərini qeyd edirəm. Beləliklə, biz gün yenidən bir araya gəldiyimiz zaman mən Türkiyə xalqına, cümhuriyyətinə və onun rəhbərlərinə Azərbaycan xalqının hörmət və ehtiramını bildirirəm.

Türkiyə tərəfindən bu konfransın hazırlanmasında xidmət göstərən şəxslər burada iştirak edirlər. Mən onlara təşəkkür edirəm. Eyni zamanda bu konfransa salamlar göndərmiş və bu konfransın təşkil olunmasına dəstək vermiş, bu konfransda bu gün bizimlə birlikdə olan hörmətli dostum, qardaşım, əziz dostumuz Süleyman Dəmirəlin xüsusi xidmətlərini qeyd edirəm. Bu salondan hörmətli Süleyman Dəmirələ Azərbaycan xalqı adından hörmət və ehtiramımı bildirirəm.

Biz Azərbaycanda konfransın işinə çox böyük ümidlər bəsləyirik. Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr, qeyd etdiyim kimi, dostluq, qardaşlıq xarakteri daşıyır. Bunlar hamısı Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası [354-355] arasında imzalanmış müqavilələrdə və bir çox sazişlərdə öz əksini tapmışdır.

Siyasi məsələlər sahəsində, Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsi yolunda Türkiyə ilə respublikamız arasında əməkdaşlıq çox müvəffəqiyyətlə həyata keçirilir. Azərbaycanın beynəlxalq aləmdə tanınmaq və öz müstəqilliyini möhkəmləndirmək sahəsində, xüsusən respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi ilə əlaqədar olan problem – Ermənistanın ölkəmizə etdiyi təcavüzə son qoyulması və bu barədə görülən işlər sahəsində də biz Türkiyə Cümhuriyyəti dövlətinin, hökumətinin başçıları ilə daim əməkdaşlıq edirik və sıx əlaqələr saxlayırıq.

Bu problem tək Azərbaycana aid deyil. Bu bölgədə, yəni Türkiyənin və Azərbaycanın birgə olduğu bir bölgədə, Qafqaz bölgəsində Ermənistanın təcavüzkar siyasəti, hərəkəti, respublikamızın torpaqlarını işğal etməsi, ölkəmizin bir milyondan çox vətəndaşının didərgin düşməsinə səbəb olması təkcə Azərbaycana vurulan zərbə deyil. Bu, bizim bütün xalqlarımıza vurulan zərbədir. Bu, Türkiyə-Azərbaycan dostluğuna, eyni zamanda Türkiyəyə vurulan zərbədir. Mən bunu dəfələrlə demişəm, bu gün bu fürsətdən istifadə edərək bir daha üzümü Türkiyənin ictimaiyyətinə tutaraq bildirmək istəyirəm ki, Ermənistanın təcavüzkarlığı bu bölgədə təkcə Azərbaycan üçün təhlükə deyil, bütün başqa xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün təhlükədir, Türkiyənin sülh və əmin-amanlıq şəraitində yaşaması üçün təhlükədir. Ona görə də Ermənistanın Azərbaycan etdiyi bu təcavüz Türkiyə üçün də, Azərbaycan üçün də, bu bölgədə yaşayan başqa dövlətlər üçün də təhlükədir.

Biz çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Bildiyiniz kimi, atəşkəs haqqında saziş iki ildən artıqdır imzalanıb. Biz bu atəşkəs sazişinə sadiqik və bundan sonra da riayət edəcəyik. Bu sahədə biz Türkiyə ilə çox sıx əməkdaşlıq edirik, məsələlərin həll olunmasında Türkiyə ilə birlikdə hərəkət edirik. Buna görə də mən Türkiyə ilə Azərbaycan arasında siyasi məsələlər haqqında, yaxud beynəlxalq problemlərin həll olunması barəsində, xüsusən Ermənistanın Azərbaycana etdiyi təcavüzə son qoyulması sahəsində olan əməkdaşlığı son dərəcə müvəffəqiyyətli, uğurlu hesab edirəm.

Ancaq xalqlarımız arasında olan əlaqələri inkişaf etdirmək [355-356] üçün iqtisadiyyat çox mühüm əhəmiyyət kəsb edir. Bütün əlaqələri – insani əlaqələri, xalqlarımız arasında olan münasibətləri, elmi, mədəni, texniki əlaqələri, bütün başqa əlaqələri inkişaf etdirməkdə ən əhəmiyyətli yer iqtisadiyyata məxsusdur, iqtisadiyyatdan asılıdır. Ona görə də iqtisadi əlaqələrin inkişaf etdirilməsi, yüksəklərə qaldırılması Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələrinin demək olar ki, əsasını təşkil edir, onun özəyidir.

Bu sahədə az iş görülməyib. Yəqin ki, konfransda siz bunu təhlil edəcəksiniz və görülən işlər haqqında məlumat verəcəksiniz. Ancaq mən hesab edirəm ki, başqa sahələrdə əldə etdiyimiz nailiyyətlərlə iqtisadiyyat sahəsində qazandığınız nailiyyətləri müqayisə etsək, şübhəsiz ki, iqtisadiyyatdakı nailiyyətlər geridədir. Təəssüf ki, bu, belədir. Bunun obyektiv səbəbləri də var. Ancaq bu obyektiv səbəbləri də aradan qaldırmaq mümkün idi. Bu gün mən bu sözü deyərkən günahı əsasən Azərbaycanın üzərinə götürürəm. Ancaq güman edirəm ki, bu iqtisadi əlaqələrlə Türkiyə tərəfindən məşğul olan adamlar da gərək bu məsələlərə daha da ciddi yanaşsınlar, bu məsələlərə daha dərindən münasibət göstərsinlər, iqtisadi əlaqələrin inkişaf etməsi üçün bütün əngəllərin aradan qaldırılmasına çalışsınlar, nail olsunlar.

Bilirsiniz, xalqlarımız, ölkələrimiz bir-birinə o qədər yaxındırlar ki, Türkiyə ilə Azərbaycan arasındakı iqtisadi əlaqələr, hesab edirəm, Türkiyənin bütün başqa ölkələrlə iqtisadi əlaqələrindən üstün olmalıdır. Şübhəsiz ki, bu, mənim ümumi fikrimdir. Əgər bunu konkret bir çərçivəyə salsaq, bəlkə də bu fikir hamı tərəfindən qəbul oluna bilməz. Çünki mən bilirəm ki, Türkiyə böyük iqtisadiyyata malikdir. Türkiyənin iş adamları ölkədən kənarda bir çox gərəkli işlər görürlər. Bunlar hamısı Türkiyənin iqtisadiyyatı üçün gərəklidir, çox əhəmiyyətlidir və inkaredilməzdir. Bunlar təbiidir. Ancaq bütün bu böyük işlərin içərisində Türkiyə Azərbaycan ilə iqtisadi əlaqələrinə xüsusi yer verməlidir.

Mən hesab edirəm ki, Türkiyənin həm dövlət dairələri, həm də iş adamları Azərbaycanda iş görməyi yalnız iqtisadi mənfəətlə bağlanmamalıdırlar. Şübhəsiz ki, iqtisadi mənfəət olmasa, iqtisadi əlaqələr də olmayacaqdır. Bu, aydındır. Ancaq Azərbaycan ilə Türkiyə arasında olan əlaqələrin xüsusi xarakterini alaraq Azərbaycana gələn hər bir iş adamı, respublikamıza sərmayə qoymaq istəyən iş adamı və dövlət dai[356-357]rələrindən ölkələrimiz arasındakı iqtisadi əlaqələri qorumağa məsul şəxslər gərək bilsinlər ki, bu, Türkiyə ilə başqa ölkələr arasında olan iqtisadi əlaqələr deyil, bunun iqtisadi cəhətindən çox böyük mənəvi cəhəti var. Bu mənəvi cəhəti heç vaxt unutmaq lazım deyil. Mən demirəm ki, bu mənəvi cəhət həmişə nəzərə alınmalıdır. Ancaq Azərbaycanın iqtisadiyyatı ayaq üstündə durana qədər, respublikamız bu iqtisadi problemlərin həll edilməsi dövründən keçib gedənə qədər gərək bu, Türkiyədə nəzərə alınsın.

Mən açıq danışıram, çünki biz qardaşıq. Qardaş ilə qardaş arasında söhbət tamamilə açıq olmalıdır. Ona görə də mən ərk edirəm və bu sözləri də ərklə deyirəm. Bunu bir də ona görə deyirəm ki, mən bu işləri izləyirəm, görürəm ki, Türkiyə ilə Azərbaycan arasında olan iqtisadi əlaqələr əksərən ticarət əlaqələrindən ibarətdir. Şübhəsiz ki, ticarət də olmalıdır və biz ticarət əlaqələrini bundan sonra da inkişaf etdirməliyik. Bu necə deyərlər, iqtisadi əlaqələrin başlanğıcıdır. Ticarət əlaqələri olmasa, başqa əlaqələr də olmayacaqdır. Ancaq Türkiyə ilə Azərbaycan arasında əlaqələr təkcə ticarət əlaqələri ilə bitməməli, məhdudlaşmamalıdır. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasında olan əlaqələr respublikamıza sərmayə qoymaq, ölkəmizdə müştərək iş görmək, müştərək işlər nəticəsində həm mənfəət götürmək, həm də Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməkdən ibarət olmalıdır.

Siz bilirsiniz, mən bunu hamıya deyirəm, bu gün isə Türkiyədən gələn qonaqlarımıza müraciət edərək deyirəm ki, indi Azərbaycan öz iqtisadiyyatında, ictimai-siyasi həyatında keçid mərhələsini yaşayır. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət qurulur. Azərbaycanın cəmiyyəti demokratik cəmiyyət, hüquqi dövlət, azad, sərbəst cəmiyyət kimi formalaşır. Azərbaycan keçmiş iqtisadi sistemdən imtina edərək öz iqtisadiyyatını bazar iqtisadiyyatı əsasında qurmağa çalışır, bu barədə tədbirlər görür. Bunun üçün biz iqtisadi islahatlar həyata keçiririk, keçmiş iqtisadiyyat formasından tamamilə imtina edirik. Bunlar hamısı indi Azərbaycanın iqtisadiyyatının keçid dövrünü təşkil edir.

Bu keçid dövrü hər bir ölkədə çətin olur. Türkiyənin bugünkü iqtisadiyyatı elə anadangəlmə belə olmayıb ki! Türkiyə iqtisadiyyatının 20, 30, 40 il bundan əvvəlki vəziyyətini biz bilirik, bunların hamısını təhlil etməyə imkanımız var. Türkiyə də böyük keçid dövrü keçirib. Ancaq iş burasındadır ki, Türki[357-358]yədə heç vaxt nə sosialist iqtisadiyyatı, nə də kommunist ideologiyası quruluşu olubdur. Türkiyənin özünəməxsus cürbəcür sistemləri olubdur. Amma bu sistemlərin hamısında şəxsi mülkiyyət həmişə olubdur. Şəxsi mülkiyyət, sahibkarlıq Türkiyədə heç vaxt yasaq edilməyib. Bunlar hamısı Türkiyədə olub. Türkiyənin həyatında gedən proseslərin də keçmişdə nə qədər çətin, ağır olduğunu biz bilirik. Türkiyənin iqtisadiyyatını bu yüksək səviyyələrə gətirmiş insanlara biz daim hörmət və ehtiramımızı bildiririk. Ancaq istəyirik ki, Türkiyədəki dostlarımız, qardaşlarımız respublikamızın bu keçid dövrünün nə qədər mürəkkəb, çətin olduğunu daha dərindən duysunlar və bununla əlaqədar olaraq da Azərbaycan-Türkiyə iqtisadi əlaqələrini yaratsınlar.

Mən bir daha qeyd etmək istəyirəm ki, Ermənistanın Azərbaycana etdiyi təcavüz nəticəsində ərazimizin 20 faizi işğal altındadır. İşğal olunmuş bu ərazilərdən çıxarılan bir milyondan çox vətəndaşımız qaçqın və köçkün vəziyyətindədir və əksəriyyəti çadırlarda yaşayır. İqtisadiyyatımız nə qədər gözəl olsa da bu, onu çox ağırlaşdıran bir amildir. Bir bu deyil. Bilirsiniz ki, son zamanlara qədər Azərbaycanın daxilində ictimai-siyasi vəziyyət sabit olmayıbdır. Bunu Türkiyədə olan dostlarımız, qardaşlarımız bütün başqa ölkələrdən yaxşı bilirlər. Çünki Azərbaycanın daxilində gedən bu ictimai-siyasi proseslər Türkiyə mətbuatında dərhal əks etdirilib, ictimaiyyətə çatdırılıbdır. Bəzən də bunlar tərsinə, qərəzli əks etdirilibdir, bunu da demək istəyirəm. Bu fikirlər Türkiyə ictimaiyyətinə bəzən düzgün olmayaraq çatdırılıbdır. Amma bunlar hamısı Türkiyə mətbuatı vasitəsilə xalqına məlum olubdur. Bu da ondan ibarətdir ki, Azərbaycanda əvvəllər ictimai-siyasi sabitlik olmayıbdır, dövlət sabit olmayıbdır. Əgər beş il müddətində Azərbaycanda üç dəfə dövlət hakimiyyəti dəyişdirilibsə, sabitlik necə ola bilərdi?

Bu, sizin Türkiyədəki dövlət hakimiyyətinin dəyişdirilməsi demək deyil, çünki sizdə demokratiya var və bu demokratiya o qədər yüksək səviyyəyə qalxıbdır ki, dövlət də işləyir, insanlar da yaşayır, maliyyə də, məhkəmə də, polis də, ordu da öz yerindədir, ancaq partiyalar bir-biri ilə dilə gəlmirlər, ona görə də indi sizdə də hökumətin qurulmasında çətinliklər var. Ancaq bunlar tamamilə başqa şeydir. İndi Türkiyədə silah alıb, gəlib ayrı-ayrı adamları yox etmək, dövləti dağıtmaq halları yoxdur. Allaha şükürlər olsun ki, yoxdur. Ancaq Azərbaycanda [358-359] bu, dünənədək, yaxın vaxtlaradək olub. Siz, Türkiyədən olan dostlarımız, qardaşlarımız bunların hamısını yaxşı bilirsiniz. Şübhəsiz ki, bunlar da Azərbaycanda iqtisadi proseslərin, islahatların həyata keçirilməsini ləngidibdir.

Şübhəsiz ki, bunların da nəticəsində Türkiyənin iş adamları bəzən gedib Mərkəzi Asiyaya sərmayə qoyurlar, amma gəlib Azərbaycana sərmayə qoymurlar. Bilirsiniz, mən heç kəsə qısqanclıq etmək istəmirəm. Türkiyənin iş adamları sərbəstdirlər və hara istəyirlər, ora da gedə bilərlər. Məsələn, Türkiyənin iş adamları Rusiyada çox böyük işlər görürlər. Hətta Moskvadakı böyük tikinti işlərini Türkiyənin inşaat şirkətləri aparırlar. Mən buna böyük iftixar hissi ilə yanaşıram. Rusiyanın paytaxtı Moskva dünyanın ən böyük şəhərlərindən biridir, mən onu

yaxşı tanıyıram. İndi bu şəhərdəki gözəl-gözəl binaların tikilməsində, bərpa edilməsində, onların modernləşdirilməsi işində Türkiyə şirkətləri çox yaxından iştirak edirlər. Bunların hamısı yaxşıdır və bizi də sevindirir. Türkiyənin iş adamlarının gedib keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi müstəqil dövlət olan ölkələrdə iş görməsi gözəl işdir. Ancaq Türkiyənin iş adamları Azərbaycana da sürətlə gəlməlidirlər, sərmayə qoymalıdırlar.

Mən yenə də o fikrə qayıdıram ki, bir tərəfdən Azərbaycanın Ermənistan təcavüzü altında olması, torpaqlarımızın işğal edilməsi, ikinci tərəfdən respublikamızın daxilində ictimai-siyasi vəziyyətin sabit olmaması, silahlı dəstələrin, cürbəcür terrorist qrupların olması hər bir iş adamını qorxudur, çəkindirir. Mən bunu başa düşürəm və heç kəsi də qınamıram. Ancaq onu demək istəyirəm ki, biz bu dövrü də keçdik. İki ildir ki, müharibədə atəşkəsdir. Təxminən iki ildir ki, həmin o silahlı dəstələrə, hakimiyyəti zorla devirmək istəyən, silah gəzdirən adamlara – hamısına son qoyuldu. Təəssüf ki, o dəstələrin bəziləri nədənsə, indiyədək Türkiyədə hörmətlə, ehtiramla xatırlanır və onlar haqqında bəzən qəzetlərdə də yazırlar. Hesab edirəm ki, bunlar da bizim dostluğumuza zərər gətirən hallardır.

İndi Azərbaycanda ictimai-siyasi vəziyyət tamamilə sabitdir, normaldır. Dövlət öz qüdrətini bütün dünyaya nümayiş etdiribdir. Dövlət Azərbaycanın bütün ərazisində hakimdir. Ölkədə dövlət quruculuğu prosesi gedir. Belə bir halda Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıq daha da geniş olmalıdır. Yəni, Türkiyənin iş adamlarının Azərbaycana sərmayə qoy[359-360]ması bizim üçün çox lazımdır. Bu, həm Türkiyə üçün, həm də Azərbaycan üçün iqtisadi, siyasi cəhətdən çox əhəmiyyətli amildir.

Türkiyənin "Qoç qrupu" şirkəti respublikamızda böyük bir supermarket tikib, gözəl ticarət mərkəzi yaradıbdır. Hörmətli baş nazir Məsud Yılmaz Azərbaycanda səfərdə olarkən mən özüm də onunla birlikdə həmin ticarət mərkəzinin açılışında iştirak etdim. Amma yenə də bu, ticarətdir. Bəs istehsal yaratmaq, müştərək iş görmək üçün nə işlər görülüb? Bilirsiniz, mən bunların hamısını ona görə deyirəm ki, Türkiyə böyük iqtisadiyyata malikdir. Türkiyədə iqtisadiyyat, istehsal çox yüksəklərə qalxıb. Bu ölkənin böyük imkanları vardır. Şübhəsiz ki, Türkiyə bu imkanlardan dünyanın hər yerində geniş istifadə etmək istəyir, ancaq bu, Azərbaycanda da həyata keçirilməlidir. Bu işlərə keçmiş vaxtlarda olduğu kimi, ehtiyatla, müəyyən qədər qorxu hissi ilə yanaşmaq halları geridə qalmalıdır.

Biz elan etmişik ki, Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Biz həyata keçiririk. Elan etmişik ki, hər bir şirkət gəlib Azərbaycanda mülk ala bilər, mülk sahibi ola bilər, özəlləşdirmədə iştirak edə bilər. Yaxud mən Azərbaycandakı böyük sənaye müəssisələrinin xarici şirkətlərin idarəsinə verilməsi barədə fərman imzalamışam. Artıq bu sahədə bir neçə təklif var və yenə də təkliflər gəlir. Biz bunları alqışlayırıq. Ancaq bu işlərdə Türkiyə birinci sırada olmalıdır.

Dünya iqtisadiyyatı ilə bizim sıx bağlanmağımızı nümayiş etdirən ən böyük amil ondan ibarətdir ki, 1994-cü ilin sentyabrında Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarından müştərək istifadə edilməsi barədə böyük bir müqavilə imzaladıq. Ona "Əsrin müqaviləsi" deyirlər. Bu müqavilədə Türkiyənin neft şirkəti də iştirak edir. Mən bu gün açıq demək istəyirəm ki, Türkiyənin neft şirkəti Azərbaycan öz müstəqilliyini əldə edən zaman, xüsusən Xalq Cəbhəsi hakimiyyətdə olduğu vaxt bu müqavilənin hazırlanmasının ən fəal iştirakçılarından biri olmuşdur. Ancaq bu müqavilədə Türkiyənin yeri nə idi? 1,75 faiz. Ancaq sonradan Türkiyə dövləti başçılarının xahişinə görə Azərbaycanın öz hissəsindən, müqavilə imzalanandan sonra respublikamıza qalmış hissədən beş faiz də Türkiyə dövlətinə, şirkətinə orada yer ayırdıq. Artıq burada Türkiyənin yeri 6,75 faiz oldu. Bax, biz bu addımı atdıq ki, ölkəmizə Türkiyənin sərmayəsi gəlsin.

Bilirsiniz, neçə vaxtdır ki, neft kəməri haqqında danışıqlar [360-361] gedir. Hətta mən 1993-cü ildə buraya işləməyə gələndə, 1994-cü ildə hələ müqavilə imzalanmamış, mənə bir məktub gətirdilər. Bu, bir müqavilə, yaxud kağız idi, orada 15-ə yaxın imza var idi ki, boru xətti Türkiyədən keçəcəkdir. Bağışlayın, mən öz keçmişimiz haqqında da deyirəm – amma eyni zamanda bu əlaqələrin keçmişi barədə də deyirəm, bu kağız heç bir hüquqi əsası olmayan bir şey idi. Hamı da imza atmışdı və orda-burda, mətbuatda da bağırırdılar ki, boru xətti Türkiyədən keçəcək. Amma əgər nefti çıxarmaq, istehsal etmək haqqında müqavilə yox idisə, boru xəttinin haradan keçməsini necə müəyyən etmək olardı? Yəni bu nə iqtisadi, nə hüquqi əsası olmayan bir kağız idi. Bu kağızı hazırlayan insanlar da özləri-özlərini və ictimaiyyəti aldadırdılar. Bunlar hamısı boş şeylər idi.

Ancaq biz bunların hamısını qaydaya saldıq. İlkin neftin ixracı üçün neft kəmərinin haradan keçməsi barədə xeyli mübahisə getdi. Biz öz iradəmizi bildirdik və ilkin neft kəmərinin qərb istiqamətində Gürcüstan ərazisindən Türkiyəyə keçməsi haqqında qərar qəbul etdik. Siz bilin ki, bu qərarın qəbul olunması o qədər də asan məsələ deyildi. Bilirsiniz ki, Azərbaycan çox istiqamətlərdə təzyiq altında idi. Ancaq biz bunu etdik. Bundan sonra da addımlar atacağıq.

Bunların hamısını deyərək bildirmək istəyirəm ki, Azərbaycan ilə Türkiyə arasında iqtisadi əlaqələr daha dərin, geniş olmalıdır. Mən indiyədək olan nailiyyətləri yüksək qiymətləndirirəm, ancaq onları yetərli hesab etmirəm. Çünki iqtisadi əlaqələrimiz Azərbaycanın Türkiyə ilə dövlətlərarası ictimai-siyasi sahələrdəki əlaqələri səviyyəsində deyil. Bilirsiniz, dövlətlərimiz arasındakı siyasi əlaqələrlə iqtisadi əlaqələrimiz arasında məsafə çox böyükdür. Bu məsafəni ləğv etmək lazımdır. İqtisadi əlaqələri həmin o əlaqələr səviyyəsinə qaldırmaq lazımdır. Şübhəsiz ki, bunun üçün biz özümüz çox iş görməliyik. Əgər bu məsələni irəli sürürüksə –

Azərbaycanın prezidenti kimi mən bu məsələni bu gün bu konfransda irəli sürürəmsə birinci növbədə respublikamızın dövlət, hökumət dairələri, müəssisə, şirkət rəhbərlərini, iş adamlarını da buna dəvət edirəm və hətta onların qarşısında bunu vəzifə kimi qoyuram, bunu onlardan tələb edirəm. Amma eyni zamanda mən Türkiyənin həm dövlət, hökumət dairələrinə, həm də xüsusən bu ölkənin işgüzar dairələrinə müraciət edirəm ki, Azərbaycan ilə iqtisadi əlaqələr genişləndirilsin, respublikamı[361-362]za sərmayə qoyuluşu prosesi inkişaf etdirilsin. Ölkəmizdə müştərək iş görmək və beləliklə həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək, həm də respublikamızın iqtisadiyyatı ilə Türkiyənin iqtisadiyyatını sıx bağlamaq lazımdır.

Dörd il yarımdır ki, respublikamız müstəqil dövlətdir. Ancaq iqtisadiyyatımız çox çətin vəziyyətdədir. Bunun səbəbləri nədən ibarətdir. Ondan ibarətdir ki, on illərlə, 1920-ci ildən, daha doğrusu, 20-ci ilə qədər də Azərbaycanın iqtisadiyyatı Rusiyanın, Sovetlər İttifaqının başqa respublikalarının iqtisadiyyatı ilə çox sıx bağlı olub. Vaxtilə bunları düşünülmüş şəkildə bir-birinə elə calaşdırıblar ki, ayırmaq mümkün olmasın. Məsələn, 1991-ci ildə Sovetlər İttifaqının qalıb-qalmaması haqqında referendum keçirilərkən çoxları deyirdilər ki, yox, Sovetlər İttifaqını dağıtmaq olmaz. Çünki dağılsa bu respublikaların heç biri müstəqil yaşaya bilməz: onların istehsal müəssisələri və sair bir-biri ilə elə bağlıdır ki, bu, burada məhsulu istehsal edib, ora aparır, o isə istehsal edib bura gətirir. Əgər onlar bu malları bir-birinə verməsə, fabrik-zavodlar necə işləyəcək?

Yenə də deyirəm, bunu belə qurmuşdular – respublikalar bir-biri ilə elə bağlı olsunlar ki, heç vaxt ayrıla bilməsinlər. Xatirimdədir, 1970-ci illərdə mən burada respublikaya rəhbərlik etdiyim zaman Azərbaycanda iqtisadiyyatı inkişaf etdirərkən Moskvadan, mərkəzdən bir məhsulu tam şəkildə istehsal etməyə bizə imkan vermirdilər. Yəni həm xammal, həm ilkin istehsal bizimdir, həm də son məhsulun istehsalı respublikamızda mümkün idi, lakin buna imkan vermirdilər. Deyirdilər ki, xammal sizdədir, bax, bunu bu dərəcəyədək istehsal edin, sonra onu Voronejə, yaxud Sverdlovska, Moskvaya göndərin, onlar orada ondan son məhsulu alsınlar. Bunun iki səbəbi var idi. Birinci səbəbi ondan ibarət idi ki, bağlamaq istəyirdilər ki, ayrılmaq mümkün olmasın. İkinci səbəbi isə – şübhəsiz ki, siz iqtisadçısınız, bunu yaxşı bilirsiniz – xammalın ilkin istehsalından alınan məhsulun qiyməti birdir, amma son məhsulun qiyməti tamamilə yüksəkdir. Son məhsulun xeyri Rusiyaya gedirdi.

Məsələn, Sumqayıtda böyük kimya kompleksi inkişaf etdirilirdi. Bu inkişaf 1962-ci illərdən başlamışdı. Mən özüm 1969-cu ildə respublikaya rəhbərlik edəndən bu işlə bilavasitə məşğul olmuşam. 1970-ci illərdə Sumqayıtda kimya zavodlarının inkişaf etdirilməsi üçün çox böyük məsələlər qaldırmışdıq və çox [362-363] böyük işlər gördük. Mən o vaxt çalışırdım, vuruşurdum ki, əgər polietilen istehsal ediriksə, onun son məhsulunu da biz özümüz hazırlamalıyıq. Amma bizi məcbur edirdilər ki, polietileni xammal kimi başqa yerlərə verin.

Respublikada pambıq, mahlıc istehsal edilirdi. Həmin mahlıcı az miqdarda biz özümüz son məhsula gətirib çıxara bilərdik. Onun demək olar ki, 90 faizi respublikadan kənara gedirdi, orada son məhsul istehsal olunurdu, toxuculuq məmulatı kimi satılırdı. Şübhəsiz ki, toxuculuq məmulatının qiyməti mahlıcın qiymətindən qat-qat artıq idi.

Bunları ona görə deyirəm ki, əgər o vaxt belə siyasət aparıb bizi bir-birimizə bağlamışdılarsa, bu bağlılıqdan indi də əziyyət çəkirik və bu, istehsalın aşağı düşməsinin hazırkı səbəblərindən biridir. İndi Türkiyə və Azərbaycan iqtisadiyyatlarının bir-biri ilə bağlanması ölkələrimizin əlaqələrini sıxlaşdıracaqdır. Mən bunu əlaqələrimizin siyasi, mənəvi cəhətinə gətirib çıxarıram. Bunlar haqqında da düşünməliyik.

İqtisadçı iqtisadçıdır, iş adamıdır. Amma iş adamı vətənsiz ola bilməz. Heç bir iqtisadçı öz millətinə biganə ola bilməz. Heç bir iqtisadçı düşünməməlidir ki, "pul mənim üçün hər şeydən üstündür". Bəs Vətən, torpaq, millət, mənəviyyat? Bunların hamısı haqqında düşünmək lazımdır.

Azərbaycanda indi böyük iqtisadi islahatlar prosesi gedir. Respublikamızda iş görmək üçün geniş imkanlar yaranır. Bunun üçün biz bir sıra qanunlar qəbul etmişik və edəcəyik. İqtisadiyyatın, idxalın, ixracın sərbəstləşdirilməsi üçün lazımi qanunlar qəbul olunur və bundan sonra da qəbul ediləcəkdir. İqtisadiyyatda Azərbaycanın gələcək yolu müstəqil bazar iqtisadiyyatıdır, azad sahibkarlıqdır, sahibkarlığa geniş imkanlar verilməsidir. Bax, bu yol bizim üçün əbədidir. Xahiş edirəm, Türkiyədən olan həmkarlarımız, bizimlə müştərək iş görən adamlar narahat olmasınlar ki, başqa bir yol da ola bilər. Olmayacaqdır!

Xarici investisiya üçün Azərbaycan açıqdır. Kim bu gün tez gəlib Azərbaycana sərmayə qoysa, o, beş-on ildən sonra udmuş olacaqdır. Mən bunu sizə açıq deyirəm. Azərbaycan daim belə vəziyyətdə qalmayacaqdır. Bir az uzaqgörən olmaq lazımdır. Gərək iqtisadçılar da, iş adamları da uzaqgörən olsunlar. Azərbaycanın qapıları açıqdır və müştərək iş görülməsi üçün biz çox imkanlar verəcəyik. [363-364]

Hesab edirəm, bu konfransın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, iş adamlarımız, istehsalla, iqtisadiyyatla məşğul olan adamlarımız Türkiyənin təcrübəsi ilə daha yaxından tanış olacaqlar. Şübhəsiz ki, Türkiyənin iqtisadiyyatında böyük nailiyyətlər var. Bu ölkə çox uğurlu iqtisadi inkişaf yolu keçib, yüksək iqtisadiyyata, zəngin iqtisadiyyata malikdir. Avropada əldə edilən nailiyyətlərin Türkiyədə tətbiq olunması çox məharətlə həyata keçirilir. Ona görə də Türkiyənin bütün bu təcrübəsindən istifadə etmək Azərbaycanın iqtisadçıları, iş adamları üçün, iqtisadi islahatları həyata keçirmək üçün çox gərəkli, əhəmiyyətlidir. Hesab edirəm ki, Türkiyədən gələn qonaqlarımız bu sahədə öz biliklərini, təcrübələrini ictimaiyyətimizə, konfrans iştirakçılarına çatdıracaqlar və bu barədə bizə öz köməklərini əsirgəməyəcəklər.

Mən hesab edirəm ki, bu konfrans ilk belə konfransdır, hər halda xatirimdə belədir. Bu konfrans Türkiyə-Azərbaycan iqtisadi əlaqələrinin inkişafına çox böyük təkan verəcəkdir. Bunlar hamısı da Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, əməkdaşlıq əlaqələrini daha da möhkəmləndirəcəkdir.

Mən sizi, konfrans iştirakçılarını bir daha salamlayıram. Konfransın işinə uğurlar arzulayıram. Türkiyəli qonaqlarımıza bir daha "xoş gəlmisiniz" deyirəm. Ümidvaram ki, burada onların işləri səmərəli olacaqdır. Ümidvaram ki, bu konfrans yeni iqtisadi əlaqələr qurulmasına kömək edəcək və iqtisadi əlaqələr də əməli işə çevriləcəkdir. Sağ olun. [364-365]

## UŞAQLARI BEYNƏLXALQ MÜDAFİƏ GÜNÜ MÜNASİBƏTİLƏ UŞAQ MUSİQİ FESTİVALI QALİBLƏRİNİN YEKUN KONSERTİNDƏ ÇIXIŞ

*Azərbaycan Dövlət Opera və Balet Teatrı*

*1 iyun 1996-cı il*

Əziz uşaqlar, əziz balalar!

Uşaqları Beynəlxalq Müdafiə günü münasibətilə sizi, bütün Azərbaycan uşaqlarını, bütün dünya uşaqlarını ürəkdən təbrik edirəm.

Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Uşaqlar hər bir insanın mənəviyyatıdır. Ona görə də dünyada, hər bir insanpərvər cəmiyyətdə uşaqlara daim xüsusi qayğı, xüsusi diqqət göstərilibdir. Uşaqlar daim qayğı altında olmalıdır, onları qorumaq, müdafiə etmək, böyütmək, insan cəmiyyətinin fəal iştirakçısı, fəal üzvü etmək lazımdır. Ona görə də dünyada Uşaqları Beynəlxalq Müdafiə günü təsis olunubdur. Bu bayram dünyanın hər yerində, hər bir ölkədə qeyd edilir.

Müstəqil Azərbaycan Respublikasında biz bu günü, bu bayramı xüsusi qeyd edirik. Çünki Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı həmişə hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur. Təsadüfi deyil ki, əsrlərdən-əsrlərə Azərbaycanda insanlar istəyiblər ki, onların çox uşağı olsun, ailələr çoxuşaqlı olublar. Ata-analar uşaqlarını qorumağı, saxlamağı, böyüdüb tərbiyə etməyi öz həyatının mənası və məqsədi hesab ediblər. Bu, əcdadlarımızdan, ulu babalarımızdan bizə qalan ənənələr nəsihətdir, irsdir. Biz də bu ənənəyə sadiqik. Bizim borcumuz bu ənənələri dərinləşdirmək, genişləndirmək, daha da inkişaf etdirməkdən ibarətdir.

Müstəqil Azərbaycan Respublikasının, dövlətimizin qayğıları çoxdur. Ancaq Azərbaycanın prezidenti kimi mən bu gün [365-366] bəyan edirəm ki, uşaqlara, körpələrə olan qayğı bütün qayğılardan üstündür. Bu, bizim müqəddəs borcumuzdur.

Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır. Ona görə də bu, bizim müqəddəs borcumuzdur. Biz bu borcu yerinə yetirməyə çalışırıq. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çətin keçid mərhələsində daim çalışırıq ki, uşaqlarla əlaqədar olan məsələləri tez və yaxşı həyata keçirək. Məlumdur, biz bunların hamısına nail ola bilmirik. Bunun obyektiv səbəbləri var. Bu səbəblərdən biri də Azərbaycan Respublikasının Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasıdır. Səkkiz ildir ki, Azərbaycan bu təcavüzə dözür, ona qarşı mübarizə aparır.

Xalqımız bu təcavüzdən çox zərbələr alıbdır. Biz çox itkilər, şəhidlər vermişik. Ancaq bu təcavüzdən ən çox bizim körpələrimiz, uşaqlarımız zərər çəkiblər. Ən çox bizim gənc nəslimizə zərər dəyibdir, şəhid olanların əksəriyyəti gənclərdir. Bu təcavüz nəticəsində ərazimizin iyirmi faizi işğal olunubdur. Bir milyondan artıq vətəndaşımız həmin torpaqlardan zorla qovulub, didərgin düşübdür. Həmin ailələrdə uşaqlar da çoxdur. Təsəvvür edin, bizim nə qədər ağrılı, yaralı yerlərimiz var. Körpə uşaqlar hələ böyüməmiş, elinə-obasına öyrəşməmiş yerindən-yurdundan ediliblər. Ürəyimiz ona görə çox ağrıyır ki, didərgin düşmüş, öz yerlərindən məcburi köçmüş vətəndaşlarımızın ailələrinin əksəriyyəti çadırlarda yaşayır. Körpələrimiz çadırlarda yaşayır, böyüyür, çadırlarda məktəbə gedir, çadırlarda əylənirlər. Çadırlarda dünyaya gələn, doğulan uşaqlarımız var. Əgər ailələr dörd ildən artıqdır ki, çadırlarda yaşayırlarsa, burada ailə böyüyür. Yeni övladlar dünyaya gəlir, Bu, həyatımızın ən yaralı cəhətidir, ən ağrılı hissəsidir. Ancaq eyni zamanda bu, həyatımızın gerçəkliyidir.

Bununla bərabər, demək istəyirəm ki, yaşlılarımız da, uşaqlarımız da – hamısı bu əzab-əziyyətə dözürlər. Ona görə dözürlər ki, biz torpaqlarımızın müdafiəsindəyik, respublikamızın ərazisinin işğal olunmuş hissəsini azad etmək istəyirik. Ona görə dözürlər ki, respublikamızın ərazi bütövlüyünü təmin etmək istəyirik. Bu ağrı-acılara, əzab-əziyyətlərə dözən analara, atalara və xüsusən uşaqlara, körpələrə, çadırlarda yaşayanlara bu gün, Uşaqları Beynəlxalq Müdafiə günü xüsusi hörmət və ehtiramımı bildirir, onlara səmimi salamlarımı çatdırıram. [366-367]

Xalqımız bilir, uşaqlarımız, körpələrimiz də bilməlidirlər ki, ağır günün ömrü uzun çəkməyəcəkdir. Ağır günün ömrü gödək olur. Biz bu ağır günlərdən çıxacağıq. Qaçqınlarımız çadırlardan, ağır vəziyyətdə yaşadıqları yerlərdən çıxacaq, öz evlərinə-obalarına, doğma torpaqlarına qayıdacaqlar. Dünyaya yeni-yeni övladlarımız, körpələr gələcək. Həyat davam edir, davam edəcək, uşaqlar böyüyəcək, onların yerini yeni körpələr tutacaqdır.

Azərbaycan xalqı istedadlı xalqdır. Əsrlərdən-əsrlərə xalqımız istedadlar yetiribdir. Bu istedadlar Azərbaycan xalqının mənəviyyatını, elmini, ədəbiyyatını, incəsənətini yaradıb, yaşadıb, inkişaf etdiriblər. Məhz xalqımızın istedadlarının fəaliyyəti nəticəsində və xalqımızın mənəviyyata, mədəniyyətə xüsusi qayğısı və münasibəti nəticəsində Azərbaycan xalqının böyük, gözəl mədəniyyəti, böyük elmi yaranıbdır. Azərbaycanın

görkəmli elm, mədəniyyət xadimləri, incəsənət ustaları dünya mədəniyyətinə gözəl töhfələr verib, onu zənginləşdiriblər.

Bu gün də biz bu prosesin şahidiyik. Ölkəmiz nə qədər ağır vəziyyətdə yaşayırsa da, xalqımız öz mənəviyyatını, mədəniyyətini, musiqisini, şərqisini, mahnısını, rəqsini heç vaxt unutmayıbdır. Mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, mahnılarımız xalqımızı ən ağır dövrlərdə də gələcəyə inam ruhunda, nikbin əhval-ruhiyyədə yaşadıb və bu gün də yaşadır. Məhz bunların nəticəsidir ki, bu illərdə də Azərbaycanın uşaqları, gənc nəsli arasından belə gözəl istedadlar meydana çıxır. Bu, bizi sevindirir, onu göstərir ki, xalqımız yaşayır, yaradır, inkişafdadır.

Bu gün biz Bakı şəhəri istedadlarının bir qrupunun çıxışlarını dinlədik, onların şahidi olduq. Bizə çox gözəl mahnılar, musiqi nümunələri təqdim etdilər. Bunlar hamısı bir daha onu göstərir ki, Azərbaycan xalqı istedadlı xalqdır və nə olur olur-olsun, nə qədər çətin vəziyyətdə yaşasaq da, bu istedadlar meydana çıxır, öz bacarıqlarını göstərir, həyatımızı, mədəniyyətimizi zənginləşdirirlər.

Mən Bakı şəhərinin istedadlı uşaqlarının çıxışlarından çox məmnun olduğumu bildirir, bu konserti bizə təqdim edənlərə təşəkkür edir, burada çıxış edərək hamımızı sevindirən uşaqları istedadları və yüksək incəsənət nümunələri göstərmələri münasibətilə təbrik edirəm. [367-368]

Bizim borcumuz istedadlara daim qayğı göstərməkdir. Mayın 10-da gənc istedadlarla ilk görüşümdə bəyan etdim və bu gün bir daha təkrar edirəm: ölkəmizin gənc istedadları, istedadlı uşaqları bundan sonra Azərbaycan prezidentinin xüsusi qayğısı altında olacaqlar.

Ölkəmizin iqtisadi vəziyyəti, xalqımızın ümumi yaşayış tərzi nə qədər çətin olsa da biz istedadlara xüsusi qayğı göstərəcəyik. İstedadlar – uşaqlar, gənclər də bilsinlər ki, onların bütün qayğılarını Azərbaycan prezidenti özü şəxsən çəkəcəkdir.

İstedadı cəmiyyətə, xalqa göstərmək lazımdır, ona istedadını inkişaf etdirmək üçün kömək etmək, istedada yol açmaq lazımdır. Bu sahədə Azərbaycanın, Bakının musiqi məktəbləri, respublikamızın mədəniyyət ocaqları, Mədəniyyət Nazirliyi, mədəniyyətlə məşğul olan təşkilatlarımız çox iş görürlər. Bu gün burada öz istedadlarını nümayiş etdirənlərin müəllimləri, musiqi məktəbləri ilə də tanış olduq. Mən müəllimləri, musiqi məktəblərini, həmin məktəblərin kollektivlərini və bütün mədəniyyət işçilərini, gənc istedadlara qayğı göstərənlərin, öz istedadlarını nümayiş etdirmək üçün onlara dərs verənlərin, kömək edənlərin hamısına təşəkkürümü bildirir, bu gözəl işlər münasibətilə onları təbrik edirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bugünkü konsert gələcək böyük konsertlərə yol açır, Azərbaycanın hər bir guşəsində, hər bir şəhərində, kəndində istedadlara qayğı göstəriləcək, onlara yol açılacaq, xalqımızın mədəniyyəti bundan sonra da yüksələcəkdir. Şübhə etmirəm ki, Azərbaycan xalqının gələcək incəsənəti, mədəniyyəti, elmi indikindən daha da zəngin olacaq, daha da yüksəklərə qalxacaqdır.

Əziz balalar, bunlar hamısı sizdən asılıdır. Bunların hamısını siz etməlisiniz, gənc istedadlar etməlidirlər. Sizi bu gün bir daha təbrik edir, hamınızı qucaqlayıb bağrıma basır, öpürəm. Hamınıza cansağlığı, səadət, yeni uğurlar, incəsənətdə yeni zirvələr arzu edirəm. Sağ olun. [368-369]

## "OQONYOK" JURNALININ AZƏRBAYCANA HƏSR OLUNMUŞ XÜSUSİ NÖMRƏSİNİN TƏNTƏNƏLİ TƏQDİMAT MƏRASİMİNDƏ NİTQ

*Azərbaycan Tarixi Muzeyi*

*1 iyun 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz qeyri-adi bir hadisənin iştirakçısıyıq: "Oqonyok" jurnalı nömrəsinin təqdimat mərasimi keçirilir. Bu hadisə ona görə qeyri-adidir ki, bizim praktikamızda, hər halda, Azərbaycanda jurnal nömrəsinin təqdimat mərasimi heç vaxt keçirilməyib. Mən bilmirəm, bu, bəlkə də Rusiyanın təcrübəsində, başqa ölkələrin təcrübəsində var, amma bu hadisə bizim üçün tamam yenidir. Lakin belə düşünürəm ki, təkcə bizim üçün yox, başqaları üçün də yeni bir hadisədir. Bununla belə, bu, tamamilə qanunauyğun təzahürdür, çünki "Oqonyok" jurnalının Azərbaycana, müstəqil Azərbaycan Respublikasına həsr edilmiş nömrəsi Azərbaycan üçün olduqca böyük əhəmiyyətə malikdir.

Hesab edirəm ki, bu, sadəcə olaraq jurnalın bir nömrəsi deyil, Azərbaycan haqqında kitabdır, həm də çox yaxşı kitabdır. Keyfiyyətli, doğru-düzgün və səmimi yazılmış kitabdır. Buna görə də bu gün bu hadisəni respublikamızın həyatında, xalqımızın həyatında əlamətdar bir hadisə kimi böyük məmnunluq hissi ilə qeyd etməyə tam mənəvi haqqımız var.

Mən jurnalın bu nömrəsini alqışlayıram. Mən "Oqonyok" jurnalının baş redaktoru, bizim hörmətli Lev Nikitoviç Quşşini alqışlayıram.

"Oqonyok" jurnalının böyük tarixi var. Burada dedilər ki, o, [369-370] yüzillik tarixə malikdir. Əlbəttə, bütün yüz ilin hamısı yadımızda deyil, amma şəxsən mən özüm bu jurnalı ümumiyyətlə xatırlayıram, təxminən 50 ildən çoxdur, onun oxucusuyam. Jurnal çox məşhur və hamıya tanışdır. Lakin indiki halda mən öz hisslərimdən danışıram. O, mənə də yaxşı məlumdur. Hamıya məlum olanlar da, mənə məlum olanlar da onu göstərir ki, jurnal özünün bütün tarixi ərzində adamların tərbiyəsində, mədəniyyətin yayılmasında, insanlar arasında əlaqələr yaranmasında, xüsusən elmin, incəsənətin təbliğində çox böyük rol oynamışdır. Buna görə də bizim haqqımız var ki, bu jurnal barəsində, onun tarixi barəsində ən xoş sözlər söyləyək.

Lakin bununla yanaşı, bu jurnal öz tarixi ərzində zamana müvafiq olaraq, Rusiyada, keçmiş Sovet İttifaqında ictimai-siyasi şəraitə müvafiq olaraq öz üslubunu, xarakterini, məzmun və münasibətini dəyişmişdir. Bu gün mən jurnalın hər hansı dövrü barədə tənqidi baxımdan heç nə demək istəmirəm. Tənqid etmək həmişə olar, tənqid etmək asandır, amma bir iş görmək, yaratmaq, qurmaq tənqid etməkdən qat-qat çətindir. Buna görə də bu jurnal Sovet İttifaqında ən çox yayılan nəşr olduğu illərdə milyonlarla adam onu böyük həvəslə oxuyurdu. Biz jurnalın səhifələrində dünyanın, Rusiyanın, bütün xalqların, o cümlədən də ölkəmizin, xalqımızın sənət ustalarının, rəssamlarının misilsiz əsərlərinin əla reproduksiyaları, illüstrasiyaları ilə böyük məmnunluqla tanış olurduq.

Jurnalın həyatındakı mərhələlərdən çox danışmaq olar. Mən tarixə öz ehtiramımı bildirmək üçün yalnız bir neçə kəlmə dedim. Biz tarixi qiymətləndirməli və tarixə vicdanla və obyektiv yanaşmalı, heç nəyə bəzək-düzək vurmamalıyıq. Lakin bununla bərabər, heç nəyə də qara yaxmamalıyıq.

O ki qaldı bu jurnalın həyat və fəaliyyətinin son mərhələsinə, mən bunu, əlbəttə, ən yüksək pillə sayıram. Təbii ki, bu da əvvəlki ənənələrə, o gözəl keçmişə və ötən tarix ərzində toplanmış nəhəng intellektual jurnalist potensialına əsaslanır. Bu jurnal on il əvvəl olduğuna nisbətən indi bəlkə də daha az tirajla çıxır, amma öz şöhrəti, xüsusən öz məzmunu, üslubu və bədii tərtibi ilə bütün əvvəlki illərdə olduğundan, əlbəttə, üstündür.

Mən ürəkdən şadam ki, "Oqonyok" jurnalı məhz belə, bugünkü kimi olmuşdur. Təkrar edirəm, mən bu jurnala bələdəm, çox onillərdir onun pərəstişkarıyam. Buna görə də bir oxucu kimi mənim üçün xoş və sevindirici haldır ki, jurnal indi [370-371] də məhz belədir. O, bütün dünya standartlarına, beynəlxalq standartlara uyğundur, təkcə öz ölkəsində deyil, həm də bütün dünyada oxunur, qiymətləndirilir və böyük nüfuza malikdir. Söz yox ki, o, nəinki Rusiya vətəndaşları, eləcə də dünyanın bir çox digər ölkələrinin, o cümlədən ölkəmizin vətəndaşları üçün həm təbliğat, həm təşviqat, həm də maarif sahəsində mühüm vasitədir.

Təkrar edirəm, mən bu jurnalı bir çox illər oxumuşam. Çox-çox illər əvvəl bu jurnalda mənim xatirələrim, məqalələrim, mənimlə müsahibələr dərc edilmişdir. Onlar mənim arxivimdə qalmaqdadır. Əlbəttə, haradasa, nəsə itib batmayıbsa. Hər halda, "Oqonyok"un arxivində onların hamısı yəqin ki, saxlanır. Mən bu jurnal ilə bağlıyam. Təkrar edirəm, bir çox illər artıq bəzi məqalələrin, müsahibələrin və digər yazıların müəllifi olmuşam.

Amma elə hallar da olub ki, bu jurnalda mənim barəmdə ədalətsiz qeydlər də verilib. Bu da olub. Ancaq bunların hamısı, zənnimcə, jurnalın məhz simasını müəyyənləşdirən zəngin tarixdir. O ki qaldı jurnalın bu gün belə olmasına, yəni demokratik olmasına, o, açıq və səmimi yazan, bununla yanaşı, çox məzmunlu, maraqlı

nəşrdir. Bu isə olduqca böyük məmnunluq hissi doğurur. Mən jurnalın baş redaktorunu da, bütün kollektivini də bu böyük nailiyyət münasibətilə ürəkdən təbrik edirəm, bu jurnala yeni qələbələr və yeni yaradıcılıq uğurları arzulayıram.

Mən Azərbaycanda uzun illər rəhbər işləyərkən həmişə çalışırdım ki, respublikamız haqqında, xalqımız, mədəniyyətimiz, həyatımız haqqında, o vaxtlar dediyimiz kimi, mərkəzi mətbuatda, İttifaq mətbuatında, o cümlədən "Oqonyok" jurnalında bacardıqca daha çox məlumat, daha çox yazılar dərc edilsin. Biz bunu etməyə çalışır, buna nail olurduq. Lakin demək istəyirəm ki, jurnalın ümumittifaq nəşri olduğu, hamımızın bir dövlətin, yəni Sovet İttifaqının tərkibində bərabər hüquqlu respublikalar olduğu əvvəlki dövrlərdə biz heç vaxt belə imkana malik deyildik.

Bir diqqət yetirin nə baş verir: bu jurnal Rusiyaya mənsub olduğu, Azərbaycan başqa ölkə müstəqil dövlət olduğu halda, Rusiyanın "Oqonyok" jurnalı bütöv bir nömrəsini Azərbaycan Respublikasına, Azərbaycan xalqına həsr edir. Bu, olduqca böyük hadisədir. Mən bunu çox yüksək qiymətləndirirəm və bu[371-372]na görə də xüsusi minnətdarlığımı bildirirəm. Məsələ heç də onda deyil ki, jurnalın bir nömrəsi bütünlüklə və tamamilə Azərbaycana həsr olunmuşdur. Məsələ burasındadır ki, bu, necə xeyirxahlıq hissi ilə, necə demokratizm hissi ilə edilmişdir. Bunların hamısı jurnalın səhifələrində, jurnala çox gözəl rövnəq verən reproduksiyalarda, fotoşəkillərdə öz əksini tapmışdır.

Buna görə də hesab edirəm ki, bu, bizim üçün hadisədir. Bu, Azərbaycan haqqında kitabdır. Bilirsinizmi, indi biz istəyirik ki, Azərbaycanda baş verən bütün hadisələr başqa ölkələrdə, o cümlədən Rusiyada hər yerdə və hamıya məlum olsun. Bizim buna ehtiyacımız var. Lakin buna hər bir xalqın, hər bir ölkənin də ehtiyacı var. Bu, təbii haldır. Lakin bizim buna xüsusən ona görə ehtiyacımız var ki, təəssüflər olsun, müəyyən səbəblərə görə, Rusiyada da, digər ölkələrdə də, Qərbdə də, Şərqdə də müxtəlif dairələrdə Azərbaycan barəsində ədalətsizliyə yol verilmişdir və indiyədək yol verilir. Odur ki, xalqımızın müasir həyatı barədə, vəziyyət və şərait barədə, Azərbaycanda, müstəqil bir dövlətdə baş verən proseslər barədə doğru-düzgün məlumatın yayılması bizim üçün olduqca böyük əhəmiyyətə malikdir, bu, bizim üçün çox mühüm məsələdir.

Mən açıq deyirəm, Rusiyada hansısa qəzetdə, hansısa jurnalda respublikamızın həyatının bu və ya başqa cəhətini doğru-düzgün əks etdirən bir məqalə dərc ediləndə biz buna sevinirik. Eyni zamanda istər Rusiyada, istərsə də başqa ölkələrdə qəzet və jurnallarda böhtan xarakterli, qərəzli məqalə və materiallar dərc olunanda kədərlənir və gizlətmirəm, bundan hiddətlənirik.

İndiki halda jurnalın bütöv bir nömrəsinin Azərbaycana həsr edilməsi və burada Azərbaycanın bu günü və tarixi barədə, hazırda Azərbaycanda nə kimi işlər görülməsi barədə düzgün, açıq yazılması bizim üçün çox böyük kömək, dəstəkdir.

Bildiyiniz kimi, mətbuat – jurnallar, qəzetlər, kütləvi informasiya vasitələri insanlara, cəmiyyətə, siyasi xadimlərə və dövlət xadimlərinə çox güclü təsir göstərir. Əlbəttə, bu mənada, bir daha təkrar edirəm, bu nömrənin buraxılması bizdən ötrü çox böyük kömək və dəstəkdir.

Şübhəsiz ki, Azərbaycan haqqında – onun tarixi və bugünkü həyatı barədə çox yazmaq olar. Fikir verin, jurnalın həcmcə çox da böyük olmayan bir nömrəsində ölkəmizin hə[372-373]yatının demək olar bütün sahələri – tariximizi, keçmişimizi səciyyələndirən müəyyən epizodlar da, bugünkü həyatımızı xarakterizə edən bir çox cəhətlər də, həyatımızın faciəli dövrü də, müstəqil, demokratik, hüquqi dövlət qurmaq, demokratik cəmiyyət formalaşdırmaq, respublikada həyatı yenidən qurmaq, iqtisadiyyatı inkişaf etdirmək, insanların yaşayışını yaxşılaşdırmaq üçün atdığımız ilk addımlar da əksini tapmışdır.

Şübhəsiz ki, Ermənistan Respublikasının Azərbaycana qarşı artıq səkkiz il davam edən hərbi təcavüzü və bu təcavüzün ağır nəticələri barədə faktları əks etdirən materialların dərc olunması xüsusilə sevindiricidir. Bu materiallarda ərazimizin 20 faizinin Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilməsi, Azərbaycanın bir milyon vətəndaşının qaçqın vəziyyətinə düşməsi və onların əksəriyyətinin çadır şəhərciklərində yaşaması, xalqımızın bu təcavüzdən əziyyət çəkməsi, Azərbaycanın ərazi bütövlüyünün pozulması, Azərbaycan barəsində ədalətsizlik edilməsi və bunun indiyədək beynəlxalq təşkilatlar, beynəlxalq ictimaiyyət tərəfindən tam qiymətləndirilməməsi, müəyyənləşdirilməməsi ifadəsini tapmışdır. Özü də təkcə məqalələrdə, söhbətlərdə deyil, həm də fotoşəkillərdə əksini tapmışdır və bunlar çox dəqiq, yaxşı və inandırıcı surətdə göstərir ki, bax, qaçqınlar bunlardır, onların yaşadıqları çadırlar bunlardır, uşaqlar, qadınlar, qocalar bax belə vəziyyətdə yaşayırlar, həmin təcavüzün qurbanları bunlardır. Bütün bunlar jurnalın səhifələrində əksini tapmışdır.

Bunların hamısı bizdən ötrü çox mühüm, olduqca mühümdür. Lakin bununla yanaşı, belə bir cəhət də bizi sevindirir ki, iqtisadiyyatı inkişaf etdirmək, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası üçün gördüyümüz tədbirlər, iqtisadiyyatımızı demokratikləşdirməyimiz və sərbəstləşdirməyimiz, Azərbaycan iqtisadiyyatmı və ümumiyyətlə, Azərbaycanın təbii sərvətlərini xarici investisiyalar üçün açmağımız, bizim çox böyük təbii sərvətlərimizdən hazırda xarici şirkətlərin, o cümlədən Rusiya şirkətlərinin birgə səyləri ilə istifadə olunması və gələcəkdə də istifadə ediləcəyi jurnalın səhifələrində öz əksini tapmışdır.

Bir daha təkrar edirəm, məni xüsusilə sevindirir ki, jurnal bu gün Azərbaycanda, demokratiya, plüralizm yolu ilə, hüquqi demokratik cəmiyyət və dövlət quruculuğu yolu ilə gedən Azərbaycanda mövcud real vəziyyəti

obyektiv əks etdirir. Bu[373-374]nunla əlaqədar jurnalistlərin böyük və dəyərli zəhmətindən danışmaq istəyirəm.

"Oqonyok" jurnalı redaksiyasının kollektivi təcrübəli jurnalistlərdən ibarətdir və onların arasında ən təcrübəli jurnalist baş redaktor Lev Nikitoviç Quşşindir. Mən onu çoxdan, hələ Moskvada işlədiyim vaxtlardan tanıyıram, özü də təcrübəli jurnalist kimi tanıyıram. Buna görə də şadam ki, o, jurnalist fəaliyyətində və "Oqonyok" redaksiyasında böyük yol keçərək (mən onu "Oqonyok"da başqa rollarda da xatırlayıram) indi bu jurnala başçılıq edir. Əminəm ki, jurnal öz baş redaktorunun, hörmətli Lev Nikitoviç Quşşinin məhz şəxsiyyəti, xarakteri, jurnalist peşəkarlığı və əlbəttə, vicdanlılığı və alicənablığı, demokratikliyi sayəsində məhz indiki kimi olmuş, Azərbaycana həsr edilmiş nömrədəki kimi belə demokratik, xeyirxah, səmimi olmuşdur.

Mən bu fürsətdən istifadə edərək, jurnalist əməyinə böyük hörmət etdiyimi bildirmək istəyirəm. Jurnalistlərin əməyi qeyri-adi əməkdir, olduqca böyük, zəhmətli əməkdir, çox səylər göstərilməsini, hətta cəsurluq, hünər, fədakarlıq tələb edən əməkdir, öz peşəsinə vurğunluq tələb edən əməkdir. İnsanın daxilində bu peşəyə xüsusi bir meyl, ehtiras olmasa, o, jurnalist peşəsinin öhdəsindən gələ bilməz.

Siz dünya təcrübəsindən bilirsiniz ki, Yer kürəsinin qaynar nöqtələrində olan jurnalistlər bəzən necə həlak olurlar. Jurnalistlər bizdə, Azərbaycanda da həlak olmuşlar. Cəbhə zolağında, Ermənistan tərəfindən Azərbaycana qarşı təcavüz ilə bağlı döyüş əməliyyatları gedən zaman bizim neçə-neçə istedadlı jurnalistimiz həlak olmuşdur. İndi jurnalistlər Çeçenistanda da, Rusiyanın digər qaynar nöqtələrində də həlak olurlar. Onlar dünyanın başqa ölkələrində də həlak olurlar. Bəli, həlak olurlar, amma bununla belə, əsl jurnalistlər öz jurnalist peşəsindən imtina etmirlər. Buna görə də jurnalist peşəsi hünər tələb edən peşədir.

Əlbəttə, bizim hər birimiz jurnalistdən obyektivlik, düzlük, səmimilik gözləyirik. Lakin jurnalistlər bu və ya digər qüsurları aşkara çıxararaq, nöqsanları aşkara çıxararaq, qanuna, konstitusiyaya zidd faktları aşkara çıxararaq, bəlkə də başqalarına nisbətən sözü üzə daha şax və açıq deyir, bəzən də xoşagəlməz olurlar. Bununla bərabər, onlar cəmiyyətin demokratikləşdirilməsi işinə, siyasi plüralizm prinsipinin bərqərar edilməsinə və dərinləşməsinə olduqca böyük kömək göstərirlər. [374-375]

Hərçənd bəzən onlar da ifrata varırlar, elə vicdansız jurnalistlər də olur ki, onlar tamahkarlıq məqsədi ilə və ya başqa məqsədlərlə qeyri-səmimi, qeyri-obyektiv yol tutur və bütövlükdə jurnalist peşəsinə böyük xələl gətirir və təbii olaraq, həyatın və cəmiyyətin bu və ya digər sahəsinə düzəldilməsi mümkün olmayan zərər vururlar. Lakin mən bunu müəyyən dərəcədə təbii hal sayıram: dünyada ideal heç nə yoxdur və heç kəs iddia edib deyə bilməz ki, o, hər şeyi ideal surətdə edir. Bu nöqsanlar, bu qüsurlar, bu çatışmazlıqlar jurnalistlərin gördükləri çox böyük işlə müqayisədə cüzi bir şeydir.

Mən jurnalist peşəsinə həmişə çox hörmətlə yanaşmışam. Biz Sovet İttifaqında olduğumuz illərdə, hamımız kommunist ideologiyasına xidmət etdiyimiz dövrlərdə çalışırdım ki, jurnalistlər hadisələrin fövqündə olsunlar, jurnalistlərə daha böyük imkanlar verilsin. Mən çalışırdım ki, jurnalistlər bacardıqca daha açıq yazsınlar, hərçənd o vaxtlar bu, dövlətdə və cəmiyyətdə mövcud olmuş ümumi konsepsiyaya görə çox çətin idi. Sözün düzü, bu gün iftixar hissi ilə deyə bilərəm ki, 1969-cu ildə mən Azərbaycan KP MK-nın birinci katibi, yəni Azərbaycanın rəhbəri seçildikdə ilk addımlarım məhz aşkarlıqla, açıqlıqla əlaqədar olmuşdur. İstəyirdim ki, heç nə gizlədilməsin, hər şey mətbuatda dərc edilsin və adamlara cəmiyyətimizdə nə varsa hamısını – yaxşını da, pisi də, qiymətli olanı da, mənfi olanı da bilməyə imkan verilsin.

Yeri gəlmişkən, deyim ki, "Oqonyok"un nömrələrində dərc edilən məqalələrimdən, müsahibələrimdən danışarkən (bunları qaldırıb baxmaq olar) bildirmək istəyirəm ki, öz yazdıqlarımın və ya müxbirlərlə söhbətlərimin hamısını o dövrün mənfi hallarına, bu halların, korrupsiyanın, rüşvətxorluğun, qəyyumçuluğun və əslində həmin quruluşun dağılmasına gətirib çıxaran bir çox digər mənfi halların kökünü kəsməyin zəruriliyinə həsr etmişəm. Mən bu barədə açıq danışır və açıq yazırdım. Ona görə bu gün də o zaman yazdıqlarım barədə, o cümlədən "Oqonyok" jurnalının səhifələrində yazdıqlarım haqqında təmiz vicdanla danışıram.

Mən bunu məhz ona görə deyirəm ki, jurnalist. əməyinə uzun illər bəslədiyim dərin hörməti təsdiq edim. İndi belə deyirlər ki, jurnalistlər dördüncü hakimiyyətdir və mən istəyirəm ki, bu dördüncü hakimiyyət həmişə möhkəm olsun, lakin eyni zamanda ölkəmizdə və xüsusən demokratiya yolu, iqti[375-376]sadiyyatını bazar prinsipləri əsasında inkişaf etdirmək yolu keçən ölkələrdə hakimiyyətin bütün qollarının möhkəmlənməsinə həmişə kömək etsin.

Bilirəm ki, "Oqonyok" jurnalı bu istiqamətdə çox iş görür və onun Azərbaycana həsr edilmiş nömrəsində də məhz belə materiallar çoxdur. Bir daha demək istəyirəm ki, Azərbaycan haqqında çox kitablar yazılıbdır və bu gün də çox yazılır, gələcəkdə də çox yazılacaqdır. Lakin jurnalın bu gün təqdimatını keçirdiyimiz nömrəsi Azərbaycanın tarixində, Azərbaycan tarixşünaslığında xüsusi yer tutur və tutacaqdır.

Jurnalın bu nömrəsini yaratmaq üçün səy göstərənlərin hamısını, bu nömrənin ərsəyə gəlməsi üçün əmək sərf etmiş jurnalistlərin, müxbirlərin hamısını – həm Azərbaycan jurnalistlərini, müxbirlərini, həm də Rusiya jurnalistlərini, müxbirlərini bu hisslərlə təbrik edirəm.

Sözümün sonunda daha bir mühüm cəhəti, mühüm amili qeyd etmək istəyirəm. Bu da ondan ibarətdir ki, jurnalın həmin nömrəsi Rusiya ilə Azərbaycan arasında münasibətlərin möhkəmlənməsinə və inkişafına mühüm töhfədir.

Rusiya böyük ölkədir, bizim Şimal qonşumuzdur. Azərbaycanı Rusiya ilə çoxəsrlik tarix bağlayır. Hazırda Rusiyada demokratikləşdirmə prosesləri, çox qızğın ictimai-siyasi proseslər baş verir. Biz bu prosesləri diqqətlə izləyir və Rusiyada demokratiyanın qələbəsini arzulayırıq. Biz bütünlüklə və tamamilə Rusiyadakı demokratik qüvvələrin, siyasi və iqtisadi islahatları həyata keçirən islahatçı qüvvələrin tərəfindəyik. İndi Rusiya çox mühüm tarixi hadisə – prezident seçkiləri qarşısındadır. Biz burada, Azərbaycanda arzu edirik ki, Rusiyada demokratiya, islahatlar uğrunda hərəkat qalib gəlsin, islahatları beş ildən bəri həyata keçirən qüvvələr qalib gəlsin ki, bu xətti gələcəkdə də davam etdirmək mümkün olsun, bu xətt dəyişməsin, nəzərdə tutulan bütün planlar başa çatdırılsın.

Şübhəsiz ki, bununla əlaqədar Rusiya prezidenti, hörmətli Boris Yeltsinin rolu böyükdür. Biz burada, Azərbaycanda deyəndə ki, Rusiyada demokratiyanı, islahatlar xəttini tam dəstəkləyirik, bu zaman prezident seçkilərində Boris Yeltsini dəstəklədiyimizi nəzərdə tuturuq.

Rusiyanın həyatının və bizim həyatımızın bu çox mühüm dövründə çap edilən bu jurnal da Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, Rusiya ilə [376-377] Azərbaycan arasında əməkdaşlığın möhkəmləndirilməsi üçün çox böyük rol oynayır.

Bu gün bəyan edirəm ki, Rusiya ilə dostluğumuzun və əməkdaşlığımızın bizim üçün bu gün də, gələcəkdə də çox böyük əhəmiyyəti var. Rusiya ilə dostluq və əməkdaşlığı möhkəmləndirmək xəttini inkişaf etdirmək və genişləndirmək üçün əlimizdən gələni edəcəyik. "Oqonyok" jurnalı da bu işdə bizə kömək edir.

Jurnalın redaksiyasına bir daha sağ ol deyirəm, baş redaktor Lev Nikitoviç Quşşinə və jurnalın bu nömrəsini yaradan bütün müəlliflərə, jurnalistlərə bir daha minnətdarlığımı bildirirəm. [377-378]

## BMT İNKİŞAF PROQRAMININ RƏHBƏRİ GEYMS QUSTAV SPETİN SUMQAYITDA QARŞILANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*2 iyun 1996-cı il*

Əziz sumqayıtlılar!
Əziz həmvətənlər!

Mən sizin hamınızı ürəkdən salamlayıram və Azərbaycanın gözəl guşələrindən biri olan Sumqayıt şəhərində bu gün olmağımdan çox məmnun qaldığımı bildirirəm. Sizə səmimi-qəlbdən salamlarımı, hörmət və ehtiramımı çatdırıram.

Sumqayıt şəhəri Azərbaycan Respublikasının gənc şəhərlərindən biridir. Qısa dövrdə – 50 ildən az bir zamanda Sumqayıt böyük bir şəhərə, sənaye, mədəniyyət mərkəzinə çevrilibdir. Bizim üçün ən əhəmiyyətlisi, əziz olanı odur ki, Sumqayıtda Azərbaycanın bütün guşələrindən, şəhərlərindən, bölgələrindən vətəndaşlarımız toplaşıblar, məskunlaşıblar, burada bir ailə – sumqayıtlılar ailəsi qurublar. Sumqayıt şəhəri bütün Azərbaycanı təmsil edir. Azərbaycanın hər yerindən bu şəhərdə yaşayanlar var. Azərbaycanın elə bir guşəsini tapmaq olmaz ki, oradan gəlmiş bacılarımız, qardaşlarımız – vətəndaşlarımız bu şəhərdə yaşamasın. Bu, Sumqayıtın xüsusiyyəti, əhəmiyyətidir. Ona görə də Sumqayıt Azərbaycan xalqının birlik, həmrəylik şəhəridir, ölkəmizin dayağıdır, gözəl bir guşəsidir.

Azərbaycan Respublikasının burada məskunlaşmış vətəndaşları – özlərini sumqayıtlı adlandıran bütün sakinləri keçmiş onilliklər ərzində bu şəhəri qurub-yaradıblar və onu bu gözəl səviyyəyə gətirib çatdırıblar. Sumqayıtın gözəl yaşayış binaları, mədəniyyət sarayları, məktəbləri, xəstəxanaları, sənaye müəssisələri və məni ən çox sevindirən yaşıllığı – bu qısa müddətdə yüksək zirvələrə çatmış ağaclar, yaşıllıqlar – bu şəhəri Azərbaycanın gözəl bir guşəsi edibdir.

Bəzən deyirlər ki, Sumqayıt ölü bir şəhərdir. Mən bununla razı deyiləm. Yalan fikirdir. Sumqayıt qəhrəmanlar, gözəl insanlar şəhəridir. Sumqayıt sizin şəhərinizdir. Burada siz yaşayırsınız, böyümüsünüz, əziyyət çəkmisiniz. Siz Azərbaycanın sə[378-379]nayesini, mədəniyyətini, ölkəmizin həyatını burada inkişaf etdirirsiniz. Siz gözəl insanlarsınız. Mən sizin hər birinizə baxdıqca ürəyim dağa dönür, sevinirəm. Burada yaşayanların yaşlısı da, cavanı da, körpəsi, uşağı da, qadını, kişisi də – hamısı gözəldir, qəhrəmandır, cəsarətlidir.

İndi Azərbaycan müstəqil dövlət kimi yaşayaraq, öz müstəqilliyini möhkəmləndirərək hər bir vətəndaşın dayağına, iradəsinə söykənir. Azərbaycanın prezidenti kimi mən isə bütün xalqımızın dəstəyinə, dayağına, iradəsinə, etimadına söykənirəm, əziz sumqayıtlılar, sizin etimadınıza, dəstəyinizə söykənirəm.

İki ildən bəri işlənib hazırlanan və artıq başa çatan sənəd Sumqayıt şəhəri sənaye kompleksinin inkişaf etdirilməsi, bu şəhərin azad iqtisadi zonaya çevrilməsi proqramı müzakirə ediləcək və bu münasibətlə lazımi sənədlərin, hazırlanmış kitabın təqdimatı olacaqdır. Bu proqramları hazırlamaq üçün bizə yaxından kömək edən, dəstək verən bizimlə bərabər işləyən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rəhbəri cənab Spet və onunla bərabər BMT-nin nümayəndə heyəti buraya gəlibdir.

Mən BMT-ni, onun baş katibi cənab Butros Butros-Qalini və bu təşkilatın Azərbaycana gəlmiş nümayəndə heyətini, bu heyətin başçısı cənab Speti sumqayıtlılar adından – sizin adınızdan ürəkdən salamlayıram. Demək istəyirəm ki, bu gün Sumqayıtın həyatında yeni bir mərhələ açılır. Sumqayıt indiyədək əldə etdiyi nailiyyətlərlə fəxr edə bilər. Sumqayıtın həyatında itirdiklərimizə, buraxılmış səhvlərə də bu gün biz çox heyfsilənirik. Amma eyni zamanda Sumqayıtda yaradılmış böyük istehsal, işçi qüvvəsi potensialı, böyük intellektual, mühəndis-texniki potensial, ən əsası isə – burada yüksəlmiş bilik, mədəniyyət səviyyəsi, sumqayıtlıların işgüzarlığı, qəhrəmanlığı buranı daha gözəl şəhərə çevirmək, onun iqtisadiyyatını daha da inkişaf etdirmək, sakinlərə, vətəndaşlara gözəl həyat tərzi təmin etmək, onların rifah halını yaxşılaşdırmaq üçün çox böyük əsas yaradır.

Bu gün biz bu proqramı burada müzakirə edəcəyik. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu proqram uğurlu olacaqdır. Sumqayıtın həyatında açılan yeni mərhələ bu şəhəri böyük gələcəyə aparacaqdır. Sumqayıt günü-gündən inkişaf edəcək, gözəlləşəcək, yüksələcəkdir. Bunlar hamısı birinci növbədə insanlar üçün, Azərbaycan xalqı, vətəndaşları üçün[379-380]dür, əziz bacılar və qardaşlar, əziz sumqayıtlılar, sizin üçündür. Biz də sizin üçün çalışırıq. Bu proqram da sizin doğma proqramınızdır. Biz bunları müzakirə edəcəyik və mən bu münasibətlə buraya gəlmişəm.

Mən bugünkü görüşlərimdən çox məmnunam. Küçələrdə, meydanlarda sumqayıtlıların xoş əhval-ruhiyyəsini görərkən mən sevinirəm. Əziz bacılar və qardaşlar, mən bilirəm ki, sizin gününüz o qədər də firavan deyil. Həyatınızda çətinliklər var. Maddi iqtisadi vəziyyətiniz istənilən səviyyədə deyil, bəzən də ağır vəziyyətdədir. Bunlar hamısı məlumdur. Sumqayıtda on minlərlə qaçqın yaşayır. Yerindən-yurdundan didərgin düşmüş, torpaqlarını, evini-eşiyini qoyub gəlmiş, varını-yoxunu itirmiş qaçqınlar burada ağır vəziyyətdə yaşayırlar. Bunların hamısı məlumdur. Mən bunları bilirəm. Mənim ürəyim daim sizinlədir, xüsusilə burada

yaşayan qaçqınlarla, köçkünlərlədir, qohumlarını, qardaşlarını, bacılarını itirmiş adamlarladır. Mən sizin bu vəziyyətinizi bilirəm, bu vəziyyətiniz məni daim düşündürür. Sizi və bütün Azərbaycan xalqını bu vəziyyətdən çıxarmağa çalışırıq. Mən əlimdən gələni etmişəm və bundan sonra da edəcəyəm. Buna tam əmin ola bilərsiniz.

Bütün bunlara baxmayaraq – qaçqınların, köçkünlərin çoxunun ağır vəziyyətdə yaşamasına baxmayaraq, bu gün Sumqayıtın əhalisinin demək olar ki, hamısı küçələrə, meydanlara çıxıb, hamısı xoş əhval-ruhiyyədədir, sevinir, hamısında nikbin sima var. Bütün bunlar millətimizə, Azərbaycan xalqına xas olan xüsusiyyətlərdir, xalqımızın milli ənənəsidir. Bu xüsusiyyət ağır günlərdə bizi həmişə saxlayıb, bu gün də saxlayacaqdır və gələcəkdə də uğurla saxlayacaqdır.

Bu xoş əhval-ruhiyyənizə, nikbinliyinizə, Azərbaycan xalqının milli mənafeyini hər şeydən üstün tutduğunuza görə, müstəqil dövlətimizin möhkəmləndirilməsi üçün hər bir əzab-əziyyətə, cəfaya dözdüyünüzə görə mən sizin hamınıza təşəkkür edirəm, minnətdarlığımı bildirirəm. [380-381]

# "AZƏRBAYCAN RESPUBLİKASINDA İNSAN İNKİŞAFINA DAİR HESABAT" KİTABININ TƏQDİMAT MƏRASİMİNDƏ ÇIXIŞ

*Sumqayıt, Kimyaçıların Mədəniyyət Sarayı*

*2 iyun 1996-cı il*

Hörmətli sumqayıtlılar! Hörmətli bacılar və qardaşlar! Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar, Azərbaycan Respublikasının hörmətli qonağı cənab Ceyms Spet!

Bu gün Sumqayıt şəhərində Azərbaycan Respublikasının həyatında çox böyük əhəmiyyət kəsb edən bu tədbirin, mərasimin keçirilməsini mən əlamətdar hadisə hesab edirəm. Bu salona toplaşanların hamısını, bütün sumqayıtlıları bu münasibətlə təbrik edirəm.

Bu mərasim Birləşmiş Millətlər Təşkilatı tərəfindən Azərbaycanda insan inkişafına dair hazırlanmış proqramın, kitabın təqdim edilməsinə, eyni zamanda Sumqayıtın sənayesinin, bütün iqtisadiyyatının inkişafı ilə əlaqədar bu şəhərin azad iqtisadi zonaya çevrilməsi barədə görülən işlərin təhlilinə həsr olunmuşdur. Bunlar həm Sumqayıt, həm də bütün Azərbaycan Respublikası, dövləti üçün çox əhəmiyyətli tədbirlərdir. Bu münasibətlə BMT-nin nümayəndə heyəti respublikamıza qonaq gəlibdir. Mən bu nümayəndə heyətini ürəkdən salamlayıram. Nümayəndə heyətinin başçısı cənab Ceyms Spetə xüsusi salamlarımı və hörmətimi bildirirəm.

Cənab Ceyms Spet bu mərasimin iştirakçılarına, Azərbaycan xalqına BMT-nin baş katibi, hörmətli dostumuz Butros Butros-Qalinin salamlarını və təbrikini çatdırdı. Mən hörmətli Butros Butros-Qaliyə bu münasibətlə öz təşəkkürümü yetirirəm və bu mərasimin iştirakçıları, Azərbaycan xalqı adından, öz adımdan ona hörmət və ehtiramımı bildirirəm.

Bugünkü mərasimimiz Azərbaycan hökumətinin və BMT-nin birgə həyata keçirdiyi tədbirdir. Bu, çox əlamətdar bir hadisədir. Bu, Azərbaycan Respublikasına, onun həyatının çox [381-382] mühüm sahələrinə BMT-nin göstərdiyi diqqətin və qayğının parlaq təzahürüdür. BMT İnkişaf Proqramı nümayəndəliyinin son illər Azərbaycanla əməkdaşlığından mən çox məmnun olduğumu bildirmək istəyirəm. Bu əməkdaşlığa görə onlara təşəkkür edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, əməkdaşlığımız bundan sonra daha da uğurla irəliləyəcəkdir.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycanın həyatının bütün sahələrinə göstərdiyi diqqət və qayğı, xüsusən Sumqayıt şəhərinə diqqəti, qayğısı təsadüfi deyil. Çünki Sumqayıt Azərbaycanda xüsusi yer tutur. Onun həm əhalisi, həm sənaye potensialı, həm də ictimai-siyasi, iqtisadi vəziyyəti doğrudan da çox diqqət, qayğı tələb edir. Buna görə də BMT öz səylərini birinci növbədə Sumqayıt şəhərinə ünvanlandırıbdır. Mən bunu bəyənirəm və tamamilə təbii hesab edirəm.

Sumqayıt gənc şəhərdir. Onun cəmisi 46 yaşı var. 46 il bundan əvvəl Sumqayıtda – Abşeron yarımadasının səhralıq bir hissəsində Azərbaycanın neft sənayesi üçün çox lazım olan boru-prokat zavodunun tikintisi başlanıbdır. O vaxt bu zavodu yaradan inşaatçılar üçün burada taxtadan bir neçə ev qurulub. Sumqayıt şəhərinin yaşı o günlərdən, aylardan başlayıbdır. 46 il müddətində Sumqayıt demək olar ki, çox şərəfli, gözəl bir tarixi yol keçibdir. İndi Sumqayıt Azərbaycanın həm gözəl, həm də böyük iqtisadi, sənaye potensialına malik olan bır şəhəridir, həm də gözəl insanlar şəhəridir.

Yadımdadır, vaxtilə biz sizinlə bərabər Sumqayıt şəhərinin 30 illik yubileyini qeyd etmişdik. Sizin qoruyub saxladığınız fotolara bu gün baxanda nədənsə o yubiley mərasiminə aid bir foto görmədim. Bəlkə də orada var idi. Yadımdadır, o vaxt biz təntənəli mərasim keçirdik, Sumqayıtın 30 illik yubileyini qeyd etdik. Sumqayıt şəhərinin 45 illik yubileyini də keçirmək nəzərdə tutulmuşdu. Mən o yubileydə iştirak etmək istəyirdim. Ancaq təəssüflər olsun ki, o vaxt respublikanın həyatındakı bəzi mühüm məsələlər mənə bu imkanı vermədi. Bu gün mən sizinlə bir yerdəyəm və ümidvaram ki, gələcək illəri biz sizinlə bərabər yaşayacağıq və Sumqayıtı daha da inkişaf etdirəcəyik, bu şəhərin yarımərlik yubileyini birlikdə qeyd edəcəyik.

Mən bu gün bu fürsətdən istifadə edib Sumqayıt şəhərinin əsasını qoyanlara, onu qurub-yaradanlara, inkişaf etdirənlərə, bu günlərə gətirib çıxaranlara öz hörmət, ehtiramımı və Azərbaycan dövləti adından təşəkkürümü bildirirəm. Sumqayıtın [382-383] əsası qoyulan gündən bu şəhərdə yaşayıb çalışan insanlar bu gün bu salona toplaşıblar, bu salonda əyləşiblər. Azərbaycanın dəyərli insanları, Sumqayıtı qurub-yaratmaq üçün buraya gəlmiş və 46 il müddətində bu şəhərdə yaşamış, heç bir yerə getməmiş, buraya bağlı olan dəyərli adamlar bu gün bu salona toplaşıblar.

Əziz dostlarım, sumqayıtlılar, Azərbaycanın dəyərli vətəndaşları, mən sizə xüsusi hörmət və ehtiramımı bildirirəm. Sumqayıtda yaranmış nəhəng sənaye, istehsal müəssisələri nəinki bu şəhərin iqtisadiyyatının inkişafında, bütün Azərbaycanın iqtisadiyyatının yüksəlişində və xalqımızın rifah halının yaxşılaşmasında, respublikamızın inkişafında böyük rol oynamışlar. Biz bunu heç vaxt unuda bilmərik. Həmin bu nəhəng sənaye

müəssisələri Azərbaycanın sənaye, iqtisadi potensialının özəyini təşkil edib. Bu, Sumqayıtın ən əsas xüsusiyyətlərindən biridir.

Sumqayıtda yaranmış sənaye – qara metallurgiya, əlvan metallurgiya, kimya, toxuculuq, yüngül sənaye müəssisələri, sənayenin başqa sahələrinə aid olan istehsal müəssisələri, burada yaranmış inşaat kompleksi – bunlar hamısı birlikdə Azərbaycan iqtisadiyyatının inkişafında çox əhəmiyyətli rol oynamışdır. Biz bunu heç vaxt unuda bilmərik. Sumqayıtın sakinləri də məhz bu nəhəng sənaye müəssisələrinin yaranmasında, inşa edilməsində, işlədilməsində öz fəaliyyətlərini göstərmək üçün respublikamızın bütün regionlarından, guşələrindən buraya toplaşmış vətəndaşlarımızdır. Sumqayıtın sakinləri bilavasitə bu şəhərdə doğulmuş, ərsəyə gəlmiş, təhsil almış və bu gün bu şəhərin böyük hissəsini təşkil edən sumqayıtlılardır. Bir daha qeyd etmək istəyirəm, onlar Sumqayıt şəhərində böyük sənaye müəssisələrinin yaradılması ilə əlaqədar buraya toplaşmışlar. Sumqayıt da məhz bu müəssisələrin yaranması ilə qurulmuş bir şəhərdir.

Bu sənaye müəssisələrini qurarkən, tikərkən, işlədərkən şübhəsiz ki, müəyyən səhvlərə də yol verilibdir. Bu da təbiidir. Sumqayıtda böyük kimya kompleksi qurarkən biz bunu Azərbaycanda kimya sənayesi yaratmaq üçün etmişik. Şübhəsiz ki, burada görülən işlər yüksək qiymətə layiqdir. Burada bütün sənaye müəssisələrinin və nəhəng sənaye potensialının yaranması Azərbaycan Respublikasının tarixində böyük bir səhifədir. Bunlar hamısı yüksək qiymətə layiqdir. Bu gün mən keçmişə bir daha nəzər salaraq tam qətiyyətlə deyirəm ki, [383-384] Sumqayıtda görülən işlərin hamısı Azərbaycan xalqının rifahı, müstəqil respublikamızın iqtisadi potensialının yaranması naminə görülmüş işlərdir. Bu işlərin hamısı Azərbaycan xalqının xeyrinə görülmüşdür.

Sumqayıtın yaranması, inkişaf etməsi dövründə görülən işlərin ən mühümü ondan ibarətdir ki, insanların burada yaşaması üçün yaraşıqlı, müasir tələblərə uyğun yaşayış binaları yaradılıb, tikilibdir. Burada mədəniyyət ocaqları, məktəblər, elmi tədqiqat institutlarının binaları tikilib, bu müəssisələrin işləməsi üçün gözəl şərait yaradılıb. Ticarət müəssisələri, xəstəxanalar, insanlara bütün sahələr üzrə lazım olan binalar, müəssisələr tikilib. Bunlar hamısı Sumqayıtı gözəl bir şəhər kimi formalaşdırıbdır. Bunlar hamısı 46 il ərzində həm sumqayıtlıların, həm də Azərbaycan hökumətinin, dövlətinin gördüyü işlərin nəticəsidir. Mən bu gün bunları böyük hörmət hissi ilə qeyd edirəm.

Bu gün toplaşdığımız bu gözəl sarayı da sumqayıtlılar yaradıblar. Bu, sumqayıtlılar üçün yaradılıb. Eyni zamanda bu, respublikamızın ən gözəl saraylarından biridir. Mən tam qətiyyətlə deyə bilərəm ki, dünyanın Sumqayıtdan da böyük şəhərlərində belə gözəl, yaraşıqlı, çox münasib saraya rast gəlmək bəlkə də mümkün deyil. Bu, sumqayıtlıların əməyinin nəticəsidir, eyni zamanda Sumqayıtın sakinlərinə göstərilən qayğının nəticəsidir. Bu sarayın tikilməsi, yaradılması üçün mən nə qədər zəhmət çəkmişəm, iş görmüşəm, bu sarayda bu gün çıxış edərkən, sizinlə görüşərkən düşünürəm ki, nə qədər gözəl işlər görmüşük, bu gün üçün də, gələcək nəsillər üçün də belə saray yaratmışıq.

Bu gün Sumqayıta gələrkən məni çox şey sevindirdi. Məni çox sevindirən cəhətlərdən biri də Sumqayıtdakı bu yaşıllıqlar, gözəl-gözəl ağaclar, güllər, çiçəklərdir. Sumqayıt indi bir yaşıl şəhər, demək olar ki, parklar şəhəridir. Mən sizi yenə də tarixə nəzər salmağa dəvət edirəm. 46 il bundan əvvəl Sumqayıtın ilk bünövrə daşları, kərpicləri qoyulanda burada bir dənə də ağac yox idi. Bura Abşeron yarımadasının bir səhra hissəsi idi. Keçmişdə burada olmuş adamlar bunu xatırlayırlar. Bura Xəzərin sahilində qumlu, səhra, külək çox olan bir yer idi. İndi burada böyük, gözəl bir şəhər yaradılıb. Bu şəhər yaşıl ağaclar, güllər-çiçəklər şəhəridir.

Burada çox yüksəklərə qalxmış ağaclar məni həddindən artıq sevindirir. Bu da təsadüfi deyil, 1970-ci ildə Azərbayca[384-385]nın şəhərlərində – Bakıda, Sumqayıtda, bütövlükdə Abşeron yarımadasında yaşıllaşdırma proqramına başlamağımızın nəticəsidir. İndi Bakıdan Sumqayıta gələn yolun hər iki tərəfi özəl ağaclarla əhatə olunub. Ancaq təsəvvür edin ki, 25 il undan əvvəl Bakıdan Sumqayıta gələn yolda bir dənə də ağac yox idi. Bu ağacları əkib, bəsləyib, böyüdüb, ərsəyə gətirib güclü ağac etmək üçün biz 1970-ci ildə böyük bir proqram irəliyə sürdük. Mən çox sevinirəm, məmnunam və bunu Azərbaycanda olan fəaliyyətimin ən mühüm hissələrindən biri hesab edirəm ki, biz buna nail olduq. İndi Sumqayıt da yaşıl bir şəhərdir, gözəl ağaclar, güllər, çiçəklər şəhəridir. Bakı da yaşıl bir şəhərdir.

Bilirsiniz ki, Bakı ilə Sumqayıt arasındakı o yolu da vaxtilə biz çəkmişik. Mən indi baxıram – bu avtomobil yolunun o tərəfi də, bu tərəfi də göz işlədikcə ağaclardır, yaşıllıqlardır. Bunlar bizim təbii sərvətimizdir. Bunları qoruyub saxlamaq lazımdır. Nəinki qoruyub saxlamaq, daha da inkişaf etdirmək lazımdır.

Abşeron yarımadasında, Bakıda, Sumqayıtda, bütün bu qəsəbələrdə yaşıllıqları artırmaq lazımdır. Biz bunları gələcəkdə də edəcəyik. Mən buna əminəm ki, əgər 70-ci illərdə irəli sürdüyümüz proqram artıq həyata keçirilibsə, baxmayaraq ki, 88-ci ildə Azərbaycan çox bərbad vəziyyətdə olub, bu dövrdə ağacların bəziləri qırılıb, dağıdılıb, amma onların əksəriyyəti yaşayırsa, biz bundan sonra bunları da yaşadacağıq, yeni ağaclar da əkəcəyik. Sumqayıtın belə gözəl, yaşıl bir şəhər olması həm insanlar, həm Sumqayıtın ab-havası, ekologiyası üçün, həm də gözəlliyi üçün lazımdır. Bunlar məni çox sevindiribdir. Mən sizə təşəkkür edirəm ki, bu ağacları qorumusunuz, saxlamısınız, ucaltmısınız. Çox sağ olun.

Azərbaycan xalqı, respublikası qarşısında Sumqayıtın böyük xidmətlərindən biri də ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərimizdən didərgin düşmüş, elindən-obasından zorla

çıxarılmış vətəndaşlarımızın böyük bir hissəsini bu şəhər qucağına alıbdır, qəbul edibdir və onlar burada müvəqqəti olaraq məskunlaşıblar, yaşayırlar.

Sumqayıt şəhəri bu gün Azərbaycanın böyük bir guşəsi kimi respublikamızın ictimai-siyasi, iqtisadi həyatında görkəmli rol oynayır. Lakin onun qarşısında böyük problemlər var. Sumqayıtdakı böyük sənaye potensialını tam gücü ilə işə sal[385-386]maq, bundan səmərəli istifadə etmək, Azərbaycanın iqtisadiyyatını inkişaf etdirmək həm respublikamızın, həm də Sumqayıtın sakinlərinin rifah halının yaxşılaşdırılması deməkdir.

Sumqayıtlılar, bu şəhərin rəhbərləri, buradakı sənaye müəssisələrinin, eləcə də Azərbaycan hökumətinin rəhbərləri, üzvləri, respublikanın müvafiq nazirlikləri, konsernləri, şirkətləri, Sumqayıtın problemləri ilə məşğul olan bütün təşkilatları bundan sonra ciddi iş görməlidirlər. Mən indiyədək görülən işləri qənaətbəxş hesab etmirəm. Obyektiv çətinliklərə, maneələrə baxmayaraq hesab edirəm ki, bundan da çox iş görülə bilərdi və Sumqayıtın iqtisadiyyatı yüksək səviyyədə ola bilərdi.

Nazirlər Kabineti, respublikanın müvafiq orqanları bu gün ciddi tədbirlər görməlidirlər, amma eyni zamanda, Sumqayıt şəhərinin, müəssisələrinin rəhbərləri də çox ciddi tədbirlər görməlidirlər. Burada imkanlar var. Məsələn, mən bu gün buradakı çox kiçik sərgiyə baxarkən məlumat verdilər ki, kimya kompleksində istehsal bu ilin ötən aylarında 30 faiz artıb. Bu, sevindirici haldır. Eyni zamanda bu göstərir ki, bunu başqa sahələrdə də etmək mümkündür. Mənə bir neçə başqa müəssisənin işinin canlanması haqqında da məlumat verdilər. Deməli, bu sənaye müəssisələrinin özlərinin mövcud imkanlarından istifadə edib cürətli, qeyri-adi addımlar atmaq yolu ilə istehsalatı işə salmaq, hərəkətə gətirmək və beləliklə də iqtisadiyyatı qaldırmaq olar. Siz bunları edə bilərsiniz. Mən bu gün bunları əsas vəzifə kimi qarşıya qoyuram.

İqtisadiyyatı inkişaf etdirmək, sənayeni canlandırmaq üçün bizim əsas yolumuz islahatlar keçirməkdən, iqtisadiyyatı bazar münasibətləri yolu ilə qurmaqdan ibarətdir. Bizim bu sahədə də proqramlarımız var. Bunları həyata keçirmək lazımdır. Azərbaycanda mülkiyyətin özəlləşdirilməsi haqqında qanun qəbul olunub və onun həyata keçirilməsinə başlanıbdır. Bu, bir qədər ləngiyib, lakin qarşımızda duran ən əsas vəzifə bu özəlləşdirmə proqramını sürətlə həyata keçirməkdən, bazar iqtisadiyyatını geniş tətbiq etməkdən ibarətdir. Strateji yolumuz budur, biz bu yolla gedəcəyik. Bizim bundan savayı yolumuz yoxdur. Bu yolu təmin etmək üçün hər bir sənaye, istehsal müəssisəsində təşəbbüs göstərmək lazımdır. Hərə öz işinin xüsusiyyətini nəzərə alaraq ciddi addımlar atmalıdır.

Sumqayıtın əsas problemlərindən biri ekologiya problemidir. Sumqayıtda keçmişdə yaradılmış sənaye müəssisələri Azərbaycan, bu şəhər üçün çox gərəkli idi. Bunların hamısının [386-387] yaranması çox zəruri idi və bunların heç birinə heyfsilənmək lazım deyil. Bu müəssisələrin yaradılması barədə ötən 46 ildə qəbul olunmuş qərarlar əsaslıdır, doğrudur, düzgündür. Eyni zamanda qeyd etmək lazımdır ki, bu böyük, nəhəng sənaye müəssisələri yaradılarkən ekologiya məsələləri lazımi səviyyədə planlaşdırılmamışdır. Bunun müəyyən obyektiv səbəbləri olmuşdur. Çünki o zamanlar, təəssüf ki, Sumqayıt müəssisələrinin əksəriyyətinin planlaşdırılması, onlara vəsait ayrılması Sovetlər İttifaqının paytaxtından həyata keçirilirdi. Əgər onlar zavodun tikilməsinə vəsait ayırırdılarsa, onun təmizləmə sexinin işləməsinə vəsait nəzərdə tutmurdular, deyirdilər ki, bunu sonra ayıracağıq və sairə. Bu sahədə müəyyən uyğunsuzluq o vaxtdan yaranıbdır və bunlar da Sumqayıtda ətraf mühitin çirklənməsinə, zəhərlənməsinə təsir göstəribdir. Sumqayıtda ekoloji vəziyyət pozulubdur. Bu həqiqətdir.

Sumqayıt sənayesinin modernləşdirilməsi, yeniləşdirilməsi, müəssisələrin bəzilərinin yenidən qurulması onların müasir texnologiya və texnika ilə təmin olunması proseslərini həyata keçirərkən bu ekologiya məsələləri, tələbatları mütləq nəzərə alınmalıdır. Biz keçmişdə buraxılmış səhvləri aradan qaldırmağa və bundan sonra belə səhvlərə yol verməməyə çalışmalıyıq. Bunları qeyd edərək onu da bildirmək istəyirəm ki, təxminən 1988-ci ildən başlayaraq, Azərbaycan Respublikasını ləkələmək, hörmətdən salmaq məqsədi ilə irəli sürülmüş qərəzli fikirlər – "Sumqayıt ölülər şəhəridir, ölü zonadır, bədbəxtlər şəhəridir" – bu fikirlər respublikamıza xeyirxah münasibət göştərməyən adamlar tərəfindən irəli sürülüb. İndi bəzi populist fikirli adamlar da bunları danışırlar, orda-burda yayırlar. Mən bunlara tamamilə etiraz edirəm. Mən bu fikirləri tamamilə rədd edirəm, bu fikirlərlə razı deyiləm. Sumqayıt xoşbəxtlər, gözəl insanlar şəhəridir.

Azərbaycan xalqının mənəviyyatına zidd olan, xalqımızı ləkələmək məqsədi ilə irəliyə atılan cürbəcür fikirlər, sözlər yenə də deyirəm, öz içimizdən, özümüzdən olan ayrı-ayrı adamlar tərəfindən məhz Sumqayıtda, Azərbaycanda görülən işləri ləkələmək, öz şəxsi, çirkin məqsədlərinə nail olmaq üçün edilib. Mən 1988-ci ildə həmin bu məsələləri ortaya atanlardan və bundan sonrakı dövrlərdə xalq hərəkatının içindən çıxıb ayrı-ayrı mitinqlərdə bu sözləri danışan adamlardan, bu gün orda-burda həmin fikirləri yayan adamlardan sual edirəm: onlar Sumqayıtın həyatı üçün nə ediblər, hansı daşı daş üstə [387-388] qoyublar, hansı ağacı əkiblər, hansı tədbiri görüblər ki, Sumqayıt daha da yaxşı, gözəl olsun? Heç bir şey etməyiblər. Ancaq Azərbaycan xalqının mənəviyyatını, hörmətini ləkələyən bu sözləri ortaya atıblar. Yenə də deyirəm, mən bunların hamısına nifrət edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, sumqayıtlılar da bu fikirlərimlə razıdırlar.

Azərbaycanda, o cümlədən Sumqayıtda mövcud olan problemlərin müvəffəqiyyətlə həll edilməsinə mane olan əsas amil Azərbaycanın Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasıdır. Bildiyiniz kimi bu təcavüz nəticəsində Azərbaycan ərazilərinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. İşğal

olunmuş ərazilərdən bir milyondan artıq vətəndaşımız qaçqın düşüb, respublikamızın müxtəlif guşələrində yaşayır. Onların bir qismi də Sumqayıtda yaşayır. Bunlar hamısı Azərbaycanın həyatmı gərginləşdirən amillərdir.

Öz ərazisini qorumaq, müdafiə etmək üçün Azərbaycan xalqı döyüşüb, vuruşub, çalışıbdır. Doğrudur, keçmişdə dövlətin ayrı-ayrı dairələri tərəfindən buraxılan səhvlər bir çox sahələrdə məğlub olmağımıza gətirib çıxarıbdır. Ancaq xalq, millət döyüşüb, vuruşub. Xalqımız böyük itkilər, qurbanlar, şəhidlər veribdir. O cümlədən sumqayıtlılar da torpaqlarımızı müdafiə edərkən şəhidlər veriblər. Dənizkənarı parkda Şəhidlər Xiyabanı var, keçən dəfə mən Sumqayıta gələrkən oranı ziyarət etdim, şəhidlərin məzarları qarşısında baş əydim. Azərbaycan torpaqlarının qorunması üçün özlərini qurban, şəhid etmiş xalqımızın övladlarını böyük minnətdarlıq hissi ilə yad edirəm. Onların qəhrəmanlıq nümunələri, ruhu qəlbimizdə əbədi yaşayacaqdır. Sumqayıtlı şəhidlərin də ruhu qəlbimizdə əbədi yaşayacaq və bunlar hamısı xalqımızı öz torpaqlarımızı daha cəsarətlə qorumağa dəvət edəcəkdir. Bilirsiniz ki, iki ildir biz müharibəni dayandırmışıq, atəşkəs haqqında saziş imzalamışıq. Ermənistan ilə Azərbaycan arasında olan münaqişənin, Ermənistanın ölkəmizə etdiyi təcavüzün aradan qaldırılması ilə məşğul oluruq. Bu məsələni danışıqlar, sülh yolu ilə həll etməyə çalışırıq. Çox ciddi, ardıcıl danışıqlar aparırıq. Çalışırıq ki, bu məsələni sülh yolu ilə həll edək. Bundan sonra da çalışacağıq. Biz müharibə etmək istəmirik, sülh istəyirik. Yenidən döyüşlərə qayıtmaq istəmirik. Məsələni sülh yolu ilə həll etmək əsas prinsipimizdir. Eyni zamanda biz torpaqlarımızın işğal altında qalmasına dözə bilmərik. Tələbimiz ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlarımızdan [388-389] çəkilməlidir, respublikamızın ərazi bütövlüyü bərpa olunmalıdır, sərhədlərimizin toxunulmazlığı təmin edilməlidir, yurdundan didərgin düşmüş vətəndaşlarımız öz yerlərinə qayıtmalıdır. Ermənistan ilə Azərbaycan arasında tədricən sülh münasibətləri yaradılmalıdır. Azərbaycan dövlətinin tərkibində Dağlıq Qarabağa muxtariyyət statusu vermək mümkündür.

Sumqayıtda sizinlə birlikdə olarkən küçələrdə, meydanlarda mənə dəfələrlə müraciətlər olundu. Sumqayıtlılar, yerindən-yurdundan didərgin düşmüş vətəndaşlar müraciət edirlər ki, işğal olunmuş torpaqlar tezliklə azad edilsin, onlar öz yerlərinə qayıtsınlar. Füzulidən didərgin düşərək burada yaşayan bir bacım mənə xüsusi müraciət etdi. Onun sözləri mənə olduqca təsir etdi. O, apardığımız bu sülhsevər siyasəti dəstəklədi. Bildirdi ki, o, bu siyasətimizi bəyənir. Füzulililər, didərgin düşərək Sumqayıtda məskunlaşan vətəndaşlar adından dedi ki, biz sizin gördüyünüz işləri bəyənirik, dəstəkləyirik. İndi artıq tabut gəlmir, qan tökülmür, şəhidlər yoxdur. Bunlar yaxşıdır. Ancaq belə qaçqın vəziyyətində də qala bilmərik. Mənim füzulili həmin bacım yəqin burada iştirak edir, o mənə dedi ki, əgər görülən işlər nəticə verməsə, mən də bir əsgər kimi gedərəm ki, torpaqlarımızı nəyin bahasına olursa-olsun azad edək. Əziz dostlarım, bacılarım, qardaşlarım, mən sizin bu fikirlərinizlə razıyam. Mən də belə fikirdəyəm. Əgər bütün bu işlərimiz nəticə verməsə biz öz torpaqlarımızı nəyin bahasına olursa-olsun azad etməliyik, öz ərazimizin, torpaqlarımızın sahibi olmalıyıq.

Sumqayıtda qarşıda duran problemlərin həll olunmasından danışarkən mən bu barədə BMT-nin bizimlə bərabər gördüyü Kərəkli işləri xüsusi qeyd etmək istəyirəm. Sumqayıtın sənaye kompleksinin inkişaf proqramı demək olar ki, işlənib hazırlanıbdır. BMT-nin respublikamızdakı nümayəndəliyi və ona başçılıq edən cənab Lembo bu sahədə bizimlə bərabər çox işlər görmüşdür. Mən bunu xüsusi qeyd edirəm. Sumqayıtın sənaye potensialının inkişaf etdirilməsinə dair aparılan təhlil və toplanmış materiallar xüsusi yaradılmış bir kitabda öz əksini tapıbdır. Mən bu kitabla tanış olarkən çox məmnun oldum. Bu kitabı cənab Lembo mənə təqdim etdi. İki cilddən ibarət olan bu kitabda Sumqayıtdakı böyük sənaye müəssisələrinin bütün göstəriciləri, onların tarixi, indiyədək görülən iş, indiki vəziyyət və hansı sənaye müəssisəsini bu vəziyyətdən necə çıxarmaq [389-390] məsələləri öz əksini tapıbdır. Bunlar çox dərin təhlilin, çox ciddi tədqiqatların, işlərin nəticəsidir. Bunların nəticəsində hazırlanan kitablar, mən hesab edirəm ki, bu günümüz, gələcəyimiz üçün çox əsaslı bir sənəddir.

Sumqayıtı azad iqtisadi zonaya çevirmək sahəsində də çox iş görülübdür. Biz iki il bundan əvvəl bu barədə qərar vermişik. Bu müddətdə BMT ilə bizim müvafiq təşkilatlarımız, Nazirlər Kabineti çox gərəkli işlər görmüşlər, gözəl proqram hazırlamışlar. Artıq biz Sumqayıtın azad iqtisadi zona elan olunması şüarından əməli işə keçmək səviyyəsinə çatmışıq.

Sumqayıtın problemlərinə aid olan proqramların hazırlanmasında BMT-nin Azərbaycandakı nümayəndəsi cənab Paolo Lembo xüsusi xidmətlər göstərmişdir. Mən bunu burada qeyd edirəm. Güman edirəm ki, BMT-dən bizə qonaq gəlmiş cənab Ceyms Spet bu fikrimizi nəzərə alacaqdır və onlar da bu xidmətləri öz tərəflərindən qiymətləndirəcəklər. Ümidvaram ki, sumqayıtlılar da cənab Paolo Lembonun bu xidmətlərini qiymətləndirəcəklər.

BMT ilə respublikamızın müvafiq orqanları tərəfindən birgə hazırlanmış və bu gün təqdim olunan, Azərbaycanda insan inkişafına həsr edilən xüsusi kitab bu beynəlxalq təşkilatın ölkəmizə göstərdiyi qayğının təzahürüdür. Bu, Azərbaycanda insan inkişafına həsr olunmuş, BMT tərəfindən hazırlanmış ikinci kitabdır. Mən bu kitabın hazırlanması və bu gün təqdim olunması münasibətilə BMT-yə öz təşəkkürümü bildirirəm. Bildirmək istəyirəm ki, Azərbaycanda insan inkişafına həsr olunmuş bu kitab BMT tərəfindən beynəlxalq təşkilatlarda, dünya dövlətlərində, ölkələrində yayılacaqdır. Bütün bunlar da Azərbaycanın indiki vəziyyəti haqqında geniş

məlumatlar verəcəkdir. Şübhəsiz ki, bunların nəticəsində Azərbaycana başqa ölkələr, beynəlxalq təşkilatlar tərəfindən olan maraq, diqqət və qayğı artacaqdır.

Ermənistanın respublikamıza təcavüzü nəticəsində Azərbaycan əhalisinin, yerindən-yurdundan didərgin düşmüş adamların ağır vəziyyəti, ümumiyyətlə, ölkəmizin iqtisadiyyatının bütün bu səbəblərə görə düşdüyü ağır vəziyyət bu kitabda öz əksini tapıbdır. Ümidvaram ki, BMT belə bır təşəbbüs, bu kitabın yaradılmasına öz səylərini göstərməklə yanaşı, eyni zamanda respublikamızın vəziyyətini yaxından bildikdən sonra Azərbaycana diqqətini və qayğısını artıracaqdır. [390-391]

Mən BMT-nin nümayəndə heyətinin və xüsusən BMT-nin İnkişaf Proqramının rəhbəri cənab Ceyms Spetin respublikamıza gəlməsini və bu gün səhərdən indiyədək burada bizimlə bərabər olmasını xüsusi qiymətləndirirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar bütün bu vəziyyəti gördükdən, problemləri yaxından hiss etdikdən sonra cənab Ceyms Spet BMT tərəfindən Azərbaycana göstərilən yardımın bundan sonra artırılması üçün öz səylərini əsirgəməyəcəkdir.

Biz bu gün səhərdən başlayaraq bir neçə saatdır ki, Sumqayıtdayıq, sizinlə bir yerdəyik. Güman edirəm ki, birlikdə gördüyümüz işlər öz səmərəsini verəcəkdir. Bizim üçün bu gün çox əziz gündür. Mən sumqayıtlılarla görüşməyimdən çox məmnunam. Keçmiş illərdə, 10-15, 20-25 il bundan əvvəl Sumqayıta gələrkən zavodlarda, fabriklərdə, küçələrdə, ayrı-ayrı toplantılarda gördüyüm adamlarla, əmək veteranları ilə, bu şəhəri qurub-yaradan adamlarla yenidən görüşməyimdən çox məmnun olduğumu bildirmək istəyirəm.

Bu gün demək olar ki, Sumqayıtın bütün sakinləri – uşaq da, böyük də, qadın da, kişi də, gənc də, veteran da – hamısı bu şəhərin küçələrində, meydanlarında idilər. Onlar bizimlə görüşmək istəyirdilər. Mənim üçün də ən dəyərlisi odur ki, onlarla görüşmək arzum bu gün yerinə yetdi.

Məlumdur ki, respublikamız, ölkəmiz indi ağır vəziyyətdədir, əhalimiz, insanlar ağır iqtisadi şəraitdə yaşayırlar. Məlumdur ki, təkcə Sumqayıtda yox, Azərbaycanın başqa şəhərlərində, məntəqələrində də insanlar var ki, onların həyat tərzi, maddi vəziyyəti həddindən artıq çətindir. Bunlar hamısı məlumdur. Sumqayıtda da belə adamlar var, az deyil, bəlkə də çoxdur. Bu gün sumqayıtlıların hamısının – ağır şəraitdə yaşayanın da, maddi vəziyyəti ən çətin olanın da xoş əhval-ruhiyyə ilə, sevinclə, dövlətinə, millətinə, dövlət başçısına hörmətlə küçələrə, meydanlara çıxması, bunlar hamısı xalqımızın yüksək mənəviyyatını bir daha nümayiş etdirir. Bu bizim ən böyük sərvətimizdir. Bu, mənim üçün ən gözəl bir görüşdür. Bunlar üçün mən sizin hamınıza, bütün sumqayıtlılara hörmət və ehtiramımı, təşəkkürümü bildirirəm.

Azərbaycan xalqı bu ağır günlərdən keçib gedəcəkdir. Əminəm ki, biz bu çətinliklərin hamısının öhdəsindən gələcəyik, Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik. Əminəm ki, Azərbaycanın dövlət müstəqilliyi günü-gündən daha da möhkəmlənəcəkdir. Əminəm ki, Azərbaycan xalqı bundan [391-392] sonra daha da sıx birləşəcək, öz müstəqilliyini, dövlətçiliyini qoruyacaqdır. Əminəm ki, Azərbaycanda demokratiya, insan hüquqlarının qorunması, bütün demokratik prinsiplər bundan sonra da ardıcıl surətdə həyata keçiriləcəkdir. Əminəm ki, Azərbaycan demokratik hüquqi dövlət kimi bundan sonra da Dünya Birliyində özünə layiq yer tutacaqdır. Əminəm ki, Azərbaycan xalqını xoşbəxt gələcək gözləyir və bu xoşbəxt gələcək naminə mən sizin hamınıza cansağlığı, səadət arzulayıram. Hamınıza işinizdə uğurlar arzulayıram. Sağ olun.

## TƏQDİMAT MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSI

**Sual: Sumqayıt layihəsi Azərbaycanda və bütövlükdə regionda vəziyyətə nə kimi təsir göstərəcəkdir?**

**Heydər Əliyev:** Hesab edirəm ki, Sumqayıtda xüsusi iqtisadi zona yaradılması Azərbaycanın həyatına, iqtisadiyyatına təsir göstərəcəkdir. Azərbaycanda da, keçmiş Sovet İttifaqının indi müstəqil dövlətlər olan ayrı-ayrı regionlarında da çox danışıqlar, çox söhbətlər gedibdir. Ancaq hələ indiyədək Azərbaycanda heç bir yerdə azad iqtisadi zona yaradılmayıbdır. Artıq dərk olunubdur ki, azad iqtisadi zona elan etməklə onun yaradılması arasında çox böyük məsafə var. Bunu elan etmək asandır, amma yaratmaq çox çətindir. Buna görə də biz Birləşmiş Millətlər Təşkilatı ilə birlikdə azad iqtisadi zona yaratmaq üçün çox vaxt sərf etmişik, çox iş görmüşük.

Hesab edirəm ki, hazırlanmış olan proqram əsaslıdır. Təsəvvürə gətirmək çətin deyil ki, əgər Sumqayıtda azad iqtisadi zona həqiqətən mövcud olsa, yəni fəaliyyətə başlasa, bu, Azərbaycan iqtisadiyyatının bütün sahələrinə təsir göstərəcək və ölkəmizdə sərbəst iqtisadi sistem, bazar iqtisadiyyatı yaratmağa çox kömək edəcəkdir. Bu, eyni zamanda, bizim qonşu dövlətlərə də təsir göstərəcəkdir. Məsələn, bilirsiniz ki, biz may ayının əvvəlində Sərəxsdə – Türkmənistanla İran arasındakı yaşayış məntəqəsində olarkən Özbəkistan, Türkmənistan, Azərbaycan, Gürcüstan mühüm bir müqavilə imzalamışlar ki, Özbəkistandan və Türkmənistandan Avropaya gedən yüklər Azərbaycan və Gürcüstan ərazisindən keçib Qara dənizə çıxarılsın və eyni zamanda əks istiqamətdə də yüklər daşınsın. Bu, Transqafqaz magistralının yaradılması deməkdir və hesab edi[392-393]rəm ki, çox səmərəli nəticələr verəcəkdir. Belə bir magistral yarandıqdan sonra Sumqayıtda azad iqtisadi zonanın olması, təsəvvür edin, nə qədər əhəmiyyətli olacaqdır. Sumqayıt azad iqtisadi zonası həm də Şərq ilə Qərb arasında çox mühüm bir vasitə olacaq və ticarət əlaqələrinin yaranmasına, inkişafına çox kömək

edəcəkdir. Bütün bunlar onu göstərir ki, bu, təkcə Azərbaycan üçün yox, Azərbaycanı əhatə edən ölkələr üçün və onlarla həmsərhəd dövlətlər üçün də çox əhəmiyyətli olacaqdır.

**Paolo Lembo:** Başlıca vəzifə şəhərin sənaye kompleksinin səviyyəsini dünya standartlarınadək yüksəltməkdir. Xatırladım ki, bu iş ərazisinin 20 faizi işğal edilmiş, bir milyondan çox qaçqını olan və demokratik dəyişikliklər aparılan, bazar münasibətlərinə keçilən bir ölkədə görülür. Bununla yanaşı, burada bütün sahələrdə islahatlar aparılması üçün yaxşı zəmin yaradılıb. Elə Sumqayıt layihəsinin həyata keçirilməsi də buna kömək edəcəkdir. Layihənin yaradılmasının başlanğıc mərhələsindəki. çətinliklərə baxmayaraq, prezident Heydər Əliyev və BMTİP hesab edirlər ki, bu layihənin bütün region üçün əhəmiyyəti olacaqdır. O, Zaqafqaziya ölkələri arasında hərtərəfli əlaqələrin; əməkdaşlığın inkişafına, regionda sülh yaranmasına kömək edəcəkdir. Layihəyə Azərbaycanla həmsərhəd dövlətlər, xüsusən Gürcüstanda maraq göstərmişlər. Biz Azərbaycan prezidenti Heydər Əliyev tərəfindən bu layihənin dəstəklənməsini xüsusi qiymətləndiririk.

**Sual: Cənab Lembo, bu cür layihələr müharibə gedən başqa dövlətlərdə də həyata keçirilirmi?**

**Paolo Lembo:** Azərbaycanın müharibə şəraitində olması faktını nəzərə alaraq, biz prezident Heydər Əliyevin şəxsən özü ilə dəfələrlə görüşdük və layihənin reallaşdırılması perspektivlərini, müddətlərini müzakirə etdik. Biz bir dilemma qarşısında qalmışdıq – layihənin həyata keçirilməsinə ya indi, ya da müharibə qurtardıqdan sonra başlamalı. Biz layihəni hazırlamağa başladıqda çox şəkk-şübhə gətirənlər var idi, elə Azərbaycanın özündə də. Onlar layihənin həyata keçirilməsinin mümkünlüyünü şübhə altına alırdılar. Buna baxmayaraq, ilkin danışıqlar aparmaq üçün 1994-cü ildə BMT ekspertlərinin böyük bır nümayəndə heyəti Azərbaycana gəldi. Prezident Heydər Əliyev onlarla görüşərək, Sumqayıt layihəsinin yaradılmasının zəruriliyi barədə öz qəti fikrini söylədi. Bu layihə [393-394] regionda sülh və sabitlik yaranmasına da kömək edəcəkdir. İndi biz şadıq ki, layihə həyata keçirilir. Bildirmək istəyirəm ki, bu layihə artıq bütün dünyada məlumdur, onu bir çox ölkələrdə bəyənirlər. Layihə Azərbaycan parlamenti tərəfindən müzakirə olunmaq və ona hüquqi status verilmək üçün Milli Məclisin sədri Rəsul Quliyevə təqdim edilibdir.

Demək istəyirəm ki, layihədə şəhərin infrastrukturunu tamamilə təkmilləşdirmək, müəssisələri modernləşdirmək, biznes, tibb, maarif mərkəzləri yaratmaq nəzərdə tutulur. Başlıcası, tələsmək lazım deyil, axı iş yenicə başlanır və biz doğru yoldayıq.

**Sual: İndi Azərbaycana nisbətən digər MDB ölkələrinə daha çox xarici sərmayələr qoyulur. Sumqayıt layihəsi bu sərmayələrin ölkəmizə axınını artıracaqmı?**

**Paolo Lembo:** Heç bir MDB dövlətində ərazinin 20 faizi işğal edilməyib, bir milyon qaçqın yoxdur. Buna görə də sizi digər MDB ölkələri ilə müqayisə etməyə lüzum yoxdur. Lakin hər halda mənim məlumatıma görə, Azərbaycana digər MDB ölkələrinə olduğundan heç də az sərmayə gəlmir. Təkcə son dörd ayda 75 iri xarici korporasiya və şirkətin nümayəndələri Sumqayıtda olmuşlar. Onlar bu layihəyə sərmayə qoymaq istədiklərini bildirmişlər. Zənnimcə, bu məsələyə nikbin yanaşmaq lazımdır. Biz Sumqayıt üçün xüsusi özəlləşdirmə proqramı hazırlamaqdan ötrü şura yaradılması, habelə şəhərin bir sıra müəssisələrinin özəlləşdirilməsi və onların xarici şirkətlərin idarəsinə verilməsi haqqında qərarları yüksək qiymətləndiririk. Başa düşürük ki, Azərbaycanda müəyyən çətinliklər var, lakin layihənin həyata keçirilməsi üçün var qüvvə ilə səy göstərmək lazımdır.

**Sual: Sualım prezident Heydər Əliyevədir, Sumqayıt layihəsini Azərbaycanın başqa bölgələrində də həyata keçirmək mümkündürmü?**

**Heydər Əliyev:** Mümkündür. Amma, gəlin ilk növbədə bu böyük proqramın həyata keçirilməsinə başlayaraq, onun nəticələrini görək, təcrübəsini mənimsəyək. Bundan sonra onu Azərbaycanın başqa bölgələrinə keçirək. Məsələn, bildiyiniz kimi, Naxçıvan Muxtar Respublikası blokada şəraitindədir və eyni zamanda İran və Türkiyə ilə həmsərhəddir. Onun bu ölkələrlə giriş-çıxışı var. Orada azad iqtisadi zona yaradılması fikri məndə hələ Naxçıvanda olarkən – 90-cı və 91-ci [394-395] illərdə var idi. Mən o vaxtlar müəyyən addımlar atırdım, amma o zaman bizim həm təcrübəmiz yox idi, həm də sizə məlum olan bəzi səbəblərə görə, biz bunu həyata keçirə bilmədik. Güman edirəm ki, bizim orada gördüyümüz iş, əldə etdiyimiz təcrübə və nəticələr bu təcrübəmizi Azərbaycanın başqa regionlarına yaymağa imkan verəcəkdir.

**Sual: Cənab Spet, dünən Azərbaycan prezidenti ilə görüş zamanı siz bildirdiniz ki, BMTİP-nin Azərbaycan üçün yeni layihələrini müzakirə etməyə hazırsınız. Söhbət hansı layihələrdən gedir?**

**Ceyms Spet:** Hesab edirəm ki, indiki vaxtda Azərbaycanda BMTİP layihələrinin həyata keçirilməsi üçün başqa sahələr də var. BMTIP özünün əsas vəzifəsini çox böyük sayda qaçqın və köçkünlərin yerləşdirilməsi, onların problemlərinin həlli işində, bu işin görülməsi üçün geniş proqram hazırlanmasında Azərbaycan rəhbərliyi və hökuməti ilə səyləri birləşdirməkdə görür. 1996-cı ildə Azərbaycanda insan inkişafına dair hesabatın 7-ci bölməsində BMT-nin və BMTİP-nin sizin ölkədə həyata keçirməyi planlaşdırdığı səkkiz layihədən danışılır. Bu layihələrin maliyyələşdirilməsi məsələsi həll edilən kimi, biz işə başlayacağıq. Hesabatda səkkiz layihənin olması onu göstərir ki, biz Azərbaycan hökuməti ilə danışıqlara başlayırıq. Layihələrdə yoxsulluğun aradan qaldırılması, qaçqın və köçkünlərin yerləşdirilməsi, həyat səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur. BMTİP Xəzəryanı ölkələr üçün qlobal layihələr yaradılmasını planlaşdırır ki, bundan da məqsəd regionda ekoloji vəziyyəti yaxşılaşdırmaq, ətraf mühiti mühafizə etməkdir. [395-396]

## AZƏRBAYCAN, ERMƏNİSTAN, GÜRCÜSTAN VƏ RUSİYA DÖVLƏT BAŞÇILARININ, HABELƏ RUSİYA FEDERASİYASININ SUBYEKTLƏRİ OLAN ŞİMALI QAFQAZ RESPUBLİKALARI, DİYARLARI VƏ VİLAYƏTLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNDƏ ÇIXIŞ

*Kislovodsk*

*3 iyun 1996-cı il*

Hörmətli dövlət başçıları, hörmətli Şimali Qafqaz respublikalarının rəhbərləri!
Xanımlar və cənablar!

Mən sizin hamınızı salamlayıram və bu gözəl görüşdən çox məmnun qaldığımı bildirirəm. Desəm ki, bu, Qafqazın bütün xalqları, bütün dövlətləri nümayəndələrinin bütün tarix ərzində ilk görüşüdür, zənnimcə, yanılmaram. Bu, çox gözəl təşəbbüsdür, xüsusən indiki vaxtda, mühüm təşəbbüsdür. Bu təşəbbüsü Rusiya Federasiyasının prezidenti, bizim hörmətli dostumuz Boris Nikolayeviç Yeltsin irəli sürmüşdür. Boris Nikolayeviç, mən bu təşəbbüsə görə sizə təşəkkür edirəm və əminəm ki, bu görüş, imzaladığımız bəyannamə və burada apardığımız fikir mübadiləsi Qafqazda sülhün və sabitliyin möhkəmlənməsinə, şübhəsiz, kömək göstərəcəkdir.

Qafqaz elə bir regiondur ki, Yer kürəsinin bir çox regionlarından özünün bir sıra xassələrinə görə seçilib fərqlənir. Qafqaz özünün müstəsna gözəl təbiəti ilə, çoxmillətli tərkibi, burada yaşayan xalqların özünəməxsus ənənə və adətləri ilə səciyyələnir. Qafqazın tarixinə bu xalqların dostluğu və qardaşlığı haqqında neçə-neçə parlaq səhifələr yazılmışdır. Son vaxtlar Qafqazın siyasi xəritəsi əhəmiyyətli dərəcədə dəyişmişdir. Sovet İttifaqının süqutundan sonra müstəqil suveren dövlətlər – Azərbaycan Respublikası, Ermənistan Respublikası və Gürcüstan Respublikası yaranmışdır. Şimali Qafqazda, Rusiya Federasiyasının ərazisində respublikalar daha çox hüquqlar, daha çox səlahiyyətlər almışlar. [396-397]

Zənnimcə, belə desəm ədalətli olar ki, Şimali Qafqaz respublikaları, xalqları keçmiş çar imperiyasının, Sovet İttifaqının tərkibində heç vaxt belə hüquqlara, belə müstəqilliyə və belə səlahiyyətlərə malik olmayıblar. Bu isə Rusiyanın həqiqətən federativ quruluşuna və Rusiyada dövlət quruluşunun doğrudan da demokratikləşdirilməsinə sübutdur.

Amma bununla yanaşı, son vaxtlar Qafqaz faciəli hadisələrlə, hərbi münaqişələrlə qarşılaşmışdır. Bu gün bütün Qafqazı münaqişələr bürümüşdür və bu, bütövlükdə Qafqaza, bütün xalqlara çox böyük ziyan vurur, onları müsibətlərə, iztirablara, fəlakətlərə düçar edir. Odur ki, vəzifəmiz bu vəziyyəti aradan qaldırmaqdır.

Təəssüflər olsun ki, bu münaqişələr hələ Sovet İttifaqının mövcudluğu dövründə başlanmışdır. Ən əvvəl başlayan münaqişə Dağlıq Qarabağla əlaqədar Ermənistanla Azərbaycan arasında olan münaqişədir. Bu münaqişə hələ 1988-ci ildə başlanmışdır. Mən əminəm və bu gün inamla deyirəm ki, keçmiş Sovet İttifaqının rəhbərləri bu münaqişəyə yol verməmək, bu qan tökülməsinə yol verməmək, onun dərinləşməsinə yol verməmək üçün hər cür imkana malik idilər. Amma onlar uzaqgörən siyasətçilər olmalıdılar, bəziləri isə bu münaqişənin qızışmasına, məncə, bu və ya digər dərəcədə kömək etdilər.

Bu münaqişə nəinki Azərbaycana, həm də Ermənistana, bütün Qafqaza olduqca böyük ziyan vurur. Əslinə qalsa, bütün Qafqazda, keçmiş Sovet İttifaqının bütün məkanında da münaqişələrin hamısı bu münaqişədən başlanmışdır. Bu münaqişə nəticəsində Azərbaycan son dərəcə böyük ziyan çəkmişdir. Məlum olduğu kimi, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdir, işğal olunmuş torpaqlardan bir milyondan çox Azərbaycan vətəndaşı zorakılıqla qovulmuşdur. Onlar olduqca ağır şəraitdə yaşayırlar, əksəriyyəti dörd ildir çadırlarda məskunlaşıb. Təəssüf ki, işğal olunmuş torpaqlar viran qoyulmuş, qarət edilmiş və Azərbaycana çox böyük həm mənəvi, həm də maddi ziyan vurulmuşdur.

Lakin bütün bunlara baxmayaraq, biz hər halda belə bir fikrə gəldik ki, hərbi əməliyyatları davam etdirməkdənsə, məsələnin həllinə sülh yolu ilə nail olmaq daha yaxşıdır. İki il bundan əvvəl biz Ermənistanın rəhbərliyi, Ermənistan prezidenti cənab Ter-Petrosyan ilə razılıq əldə etdik və atəşkəs [397-398] haqqında saziş imzaladıq. Bu atəşkəs rejimi indi də qalmaqdadır və davam edir.

Mən bunu çox müsbət məqam sayıram. Atəşkəs rejimini böyük siyasi saziş imzalanan vaxtadək davam etdirmək niyyətimiz, iradəmiz, istəyimiz bu gün bizim bəyannamədə də əksini tapmışdır. Biz sülh istəyirik, biz hərbi əməliyyatlara yenidən başlanmasını istəmirik. Biz Ermənistan ilə Azərbaycan arasında sülh olmasını istəyirik. Taleyin hökmü ilə biz yanaşı yaşayırıq, qonşuyuq və buna görə də uzun müddət düşmənçilik etmək olmaz, xüsusən də əbədi olaraq düşmənçilik etmək olmaz. Biz sülh istəyirik, məsələnin dincliklə

nizamlanmasını istəyirik. Bu məsələ barəsində təkliflərimiz dəfələrlə elan edilmişdir. Bundan ötrü Azərbaycanın ərazi bütövlüyü təmin olunmalı, qaçqınlar öz doğma torpaqlarına, yurd-yuvalarına, öz ocaqlarına qayıtmalıdırlar. Təbii ki, bu şərtlər əsasında Dağlıq Qarabağa Azərbaycan Respublikası tərkibində muxtariyyət statusu – müasir beynəlxalq praktikada olan ən yüksək muxtariyyət statusu verilməklə.

Həmin şərtləri mən bu gün bir daha elan edir və ümidvaram ki, biz məsələnin həllinə, münaqişənin aradan qaldırılmasına, sülh yaranmasına bundan sonra da birgə səylərlə çalışacağıq.

Lakin bizi təkcə öz taleyimiz, xalqlarımızın, özümüzün taleyi narahat etmir, biz həm də bütün Qafqaz üçün narahatıq. Təəssüf ki, bütün Qafqaz, bayaq dediyim kimi, münaqişələr alovuna bürünmüşdür. Əlbəttə, bütün bunlar da separatizmin nəticəsidir, təcavüzkar millətçiliyin, davakar millətçiliyin nəticəsidir, şovinizmin nəticəsidir. Bilirsinizmi, bu münaqişələr də Sovet İttifaqının mövcudluğu dövründə başlanmışdır. Zənnimcə, bütün bunlar həm də Sovet İttifaqı Kommunist Partiyasının, daha doğrusu, Sovet İttifaqı Kommunist Partiyası rəhbərlərinin və keçmiş Sovet İttifaqı rəhbərlərinin düzgün olmayan milli siyasətinin nəticəsidir.

O illərdə buraxılmış və bu münaqişələrə gətirib çıxarmış səhvlər məlumdur və aşkardır. Bu səhvlər Qafqaz xalqları barəsində də, Zaqafqaziya xalqları barəsində də buraxılmışdır. Onların barəsində çox danışmaq olar. O illərdə mən Sov. İKP MK Siyasi Bürosunun üzvü olduğuma və bir çox müzakirələrdə iştirak etdiyimə görə bunlar yadımdadır və indi bu barədə danışmağı lazım bilirəm, çünki tarix bütün həqiqəti bilməlidir. [398-399]

Məsələ burasındadır ki, o vaxtlar Sovet İttifaqının, Kommunist Partiyasının ayrı-ayrı rəhbərləri tərəfindən yol verilmiş bu şovinizm ona gətirib çıxarırdı ki, Sovet İttifaqında yaşayan xalqların, o cümlədən də Qafqazda yaşayan xalqların mənafeləri, milli adətləri, milli ənənələri nəzərə alınmırdı.

Yadımdadır, Kabarda-Balkariya Respublikasının rəhbərini əvəz etmək məsələsinə baxılarkən və Malbaxov öz vəzifəsindən gedərkən buraya bu regionla, bu respublika ilə heç bir əlaqəsi olmayan, təbii ki, yerli millətə mənsub olmayan bir nəfəri – sibirlini təyin etmək planlaşdırılırdı. O vaxt mən buna etiraz etdim. Lakin Kommunist Partiyasının bəzi rəhbərlərinin, ən əvvəl Qorbaçovun volyuntarist qərarında bu etiraz, əlbəttə, qətiyyən nəzərə alınmadı.

Eyni əhvalat Qazaxıstanda da baş verdi. O vaxtlar oraya respublikaya, bütöv Qazaxıstan Respublikasına elə bir adamı göndərdilər ki, o heç vaxt orada yaşamamışdı, işləməmişdi, təbii ki, yerli millətə mənsub deyildi. Belə faktlardan çox gətirmək olar. Lakin mən onlardan yalnız birindən qısaca danışdım ki, indi bizim hamımızın, Qafqazın məruz qaldığı bu münaqişələrin, bu müsibətlərin, bu faciələrin səbəblərindən birinin hər halda nədən ibarət olduğunu xatırladım.

Çox şükürlər olsun ki, indi Rusiyada, demokratik Rusiyada bu məsələlər daha yaxşı, daha normal həll edilir. Hesab edirəm ki, nəinki təkcə Qafqaz üçün, həm də özümüzün bütün siyasi fəaliyyətimiz üçün borcumuz, ən vacib borcumuz millətçiliyə, separatizmə, şovinizmə gedən yolları kəsmək, bunun qarşısını almaqdır. Bu, Qafqaz üçün xüsusilə əhəmiyyətlidir. Təkrar edirəm, mən inanıram ki, indi Rusiyada bu prinsiplər üstün tutulur və əminəm ki, bu, Qafqazda münaqişələrin tezliklə aradan qaldırılmasına kömək edəcəkdir.

Bizi Qafqazda baş verən bütün hadisələr, ən əvvəl Çeçenistanda olan hadisələr narahat edir. Mən Çeçenistanda münaqişənin dincliklə aradan qaldırılması üçün prezident Boris Yeltsinin atdığı addımları alqışlayıram. Ümidvaram və əminəm ki, bu addımlar davam etdiriləcək, Çeçenistanda sülh yaradılacaq və bunun Qafqazda – istər Şimali Qafqazda, istərsə də Zaqafqaziyada digər bütün münaqişələrin aradan qaldırılması üçün çox böyük əhəmiyyəti olacaqdır.

Buna görə də mən prezident Boris Yeltsinin bu addımını bir daha alqışlayır və ümidvar olduğumu bildirirəm ki, bu addım davam etdiriləcəkdir. Zaqafqaziyada münaqişələrə son [399-400] qoyulması üçün biz Rusiya Federasiyasının, Rusiya prezidentinin, Rusiya dövlətinin böyük köməyinə möhtacıq. Rusiyanın və şəxsən prezident Boris Yeltsinin göstərdikləri sülhyaratma səyləri, o cümlədən də Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Ermənistanla Azərbaycan arasında vasitəçilik səyləri böyük əhəmiyyətə malikdir. Buna görə də ümid etmək istərdik ki, bu səylər davam etdiriləcək və məsələnin tamamilə tənzimlənməsinə gətirib çıxaracaqdır.

Ümumiyyətlə, mən bugünkü görüşdən çox məmnun qaldığımı bir daha bildirmək istəyirəm. Mən istəyirəm ki, Qafqazda sülh olsun, Qafqazda sabitlik olsun, axı Qafqazda müxtəlif millətlərin nümayəndələri, müxtəlif dinlərə etiqad bəsləyən adamlar yaşayırlar, onların çoxu müsəlman dininə mənsubdur. Təəssüf ki, o vaxtlar Sovet İttifaqında dinə ümumən düzgün münasibət göstərilmirdi, xüsusən də müsəlman dininə təcavüzkar bir münasibət var idi. Elə bu da yaranmış münaqişələrin səbəblərindən biridir. İndi Rusiyada bu məsələlərə zənnimcə, çox düzgün münasibət bəslənilir. Odur ki, bizim borcumuz, bizim hər birimizin borcu, – mən öz borcumdan danışıram, – bu məsələlərə maksimum diqqətlə yanaşmaqdan, bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir. Təkrar edirəm, bununla əlaqədar Qafqaz xalqlarını sıx birləşdirməyə və Qafqazı dinc bir regiona çevirməyə imkan var.

Mən prezident Boris Yeltsinin fikri ilə razıyam ki, yaxşı olardı, bu görüşlər davam etdirilsin, ənənəyə çevrilsin. Hesab edirəm ki, biz bundan daha çox faydalanarıq. Məsələn, Qafqazda, nəinki Qafqazda, həm də keçmiş Sovet İttifaqında uzun illər işləmiş bir şəxs kimi rəhbərlərin belə tərkibi ilə ilk dəfə qarşılaşıram. Bu, olduqca xoş və fərəhli haldır.

Fürsətdən istifadə edərək, hazırda Rusiyadakı vəziyyət barədə də bir neçə kəlmə demək istəyirəm. İndi Rusiya öz həyatının çox məsul mərhələsini yaşayır, çox mühüm ictimai-siyasi proseslər baş verir, Rusiya prezidentinin seçkilərinə hazırlıq görülür. Təbii ki, bu, rusiyalıların işidir. Rusiya vətəndaşlarının işidir. Bizim buna ancaq rəğbətimiz, hörmətimiz və ya hər hansı rəyimiz ola bilər. Lakin bununla yanaşı, biz Rusiyanın taleyinə və Rusiyanın gələcəyinə biganə deyilik. Çünki respublikamız, – mən öz respublikamı nəzərdə tuturam, – Azərbaycan Respublikası Rusiya ilə çoxəsrlik tarixlə, iqtisadi, mədəni, elmi, texniki əlaqələrlə, humanitar əlaqələrlə bağlıdır və bu [400-401] əlaqələr yaşamalı və davam etməlidir. Biz onları qıra bilmərik. Buna görə də onların inkişafı üçün hər şey etməliyik. Bununla əlaqədar biz Rusiyanın sabah necə olacağına, hansı Rusiya ilə əlaqələr quracağımıza biganə deyilik.

Rusiyada iqtisadi və siyasi islahatlar aparılır. Bu baxımdan Rusiya bizə, MDB-yə daxil olan digər dövlətlərə nümunə göstərir. Çox işlər görülmüşdür. Bu islahatlar Rusiyada başlanmışdır. Biz Rusiyanın təcrübəsindən çox şey əxz edirik. Çünki eyni vəziyyətdə yaşayırıq və eyni keçid dövründəyik. Bu islahatların həyata keçirilməsinin təşəbbüsçüsü, bu islahatların fəal aparıcısı Boris Nikolayeviç Yeltsindir. O, beş ildir Rusiya prezidentidir. Əlbəttə, biz, – mən Azərbaycanı nəzərdə tuturam, öz rəyimi deyirəm, – bunun qızğın tərəfdarıyıq ki, Rusiyada siyasi və iqtisadi islahatlar davam etsin, Rusiya demokratik bir ölkə olsun. Biz Rusiyada demokratiyanın çiçəklənməsini, demokratiyanın tərəqqisini görmək istəyirik. Bizim bu tərkibdə burada olmağımız Rusiyada məhz həyatın demokratikləşdirilməsinin, dövlət quruluşunun demokratikləşdirilməsinin nəticəsidir. Biz bu xəttin davam etdirilməsini istəyirik.

Buna görə də biz demokratik Rusiya tərəfindəyik. Rusiyada demokratiya prinsiplərinin daha da bərqərar olmasına, iqtisadi islahatlar aparılmasına, bazar iqtisadiyyatının inkişaf etdirilməsinə tərəfdarıq. Təbii ki, bütün bunlara prezident Boris Nikolayeviç Yeltsin başçılıq edir və bizim rəğbətimiz, dəstəyimiz də, şübhəsiz, onun tərəfindədir.

Mən fürsətdən istifadə edərək, Rusiyanın xeyirxah qonşusu kimi ümidvar olduğumu bildirmək istəyirəm ki, Rusiya xalqı düzgün qərar qəbul edəcək və biz demokratik Rusiya ilə iş görəcəyik.

Diqqətinizə görə sağ olun. [401-402]

## AZƏRBAYCAN RESPUBLİKASI, ERMƏNİSTAN RESPUBLİKASI, GÜRCÜSTAN VƏ RUSİYA FEDERASİYASI DÖVLƏT BAŞÇILARININ GÖRÜŞÜNDƏ QƏBUL EDİLMİŞ "QAFQAZDA ƏMİN-AMANLIQ, SÜLH, İQTİSADİ VƏ MƏDƏNİ ƏMƏKDAŞLIQ UĞRUNDA BƏYANNAMƏ"

Biz, Qafqaz respublikaları, diyarları və vilayətləri rəhbərlərinin iştirakı ilə 1996-cı il iyunun 3-də Kislovodsk şəhərində toplaşmış Azərbaycan, Ermənistan, Gürcüstan və Rusiyanın dövlət başçıları

Ümumbəşər sivilizasiyasının nadir nümunəsi sayılan müxtəlif dil qruplarına, dinlərə və milli mədəniyyətlərə mənsub xalqların tarixən beşiyi olan Qafqaz regionunun bu günü və gələcəyi üçün ümumi məsuliyyət daşıdığımızı dərk edərək,

Qafqazı vahid bütöv orqanizm və coğrafi-siyasi reallıq kimi qiymətləndirərək,

Regionda yaşayan xalqların mehriban qonşuluq və qarşılıqlı kömək münasibətlərini qoruyub saxlamağa və möhkəmləndirməyə olan iradəsini rəhbər tutaraq,

Qafqazda millətlərarası həmrəyliyi təmin etməyin müstəsna əhəmiyyətini dərk edərək, sülh, təhlükəsizlik və sabitliyin təmin olunmasına dair təşəbbüsləri inkişaf etdirərək,

Regionda davam etməkdə olan münaqişələrdən və yüz illər ərzində formalaşmış siyasi, iqtisadi əlaqələrin və humanitar əlaqələrin qırılmasından ciddi narahatlıq keçirdiyimizi ifadə edərək,

Hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq normalarına, Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin başlıca sənədlərinin məqsəd və prinsiplərinə qətiyyətlə tərəfdar çıxaraq,

Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olmasına hərtərəfli kömək göstərmək, xalqlarımız arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərini genişləndirmək və inkişaf etdirmək əzmində olduğumuzu bəyan edirik. [402-403]

Regionda baş verən silahlı münaqişələr dağıdıcı və antihumanist xarakter daşıyır. Bunlar ölkələrimizin siyasi, iqtisadi və sosial inkişafına, onların daha sıx qarşılıqlı əlaqəsinə, şəxslərarası ünsiyyətlərin bərpasına mane olur.

Biz bütün əlaqədar tərəflərə müraciət edərək, hələ də mövcud olan münaqişələrin hamı tərəfindən qəbul olunmuş beynəlxalq hüquq prinsipləri və normaları əsasında hərtərəfli şəkildə aradan qaldırılmasına nail olmaq üçün səyləri əsirgəməməyə çağırırıq. Bununla əlaqədar Rusiyanın və beynəlxalq təşkilatların sülhyaratma rolunun mühüm əhəmiyyəti olduğunu vurğulayırıq.

Görüş iştirakçıları Çeçenistanda hərbi əməliyyatların dayandırılması haqqında razılaşmanı və bu problemi qəti şəkildə nizama salmaq məqsədilə Rusiya Federasiyası prezidentinin göstərdiyi səyləri alqışlayırlar.

Onlar gürcü – osetin münaqişəsində tərəflər arasında təhlükəsizliyin təmin edilməsinə və qarşılıqlı etimadın möhkəmləndirilməsinə dair tədbirlər haqqında memorandumun imzalanmasını da alqışlayırlar.

Görüş iştirakçıları Dağlıq Qarabağ münaqişəsində iki il ərzində atəşkəs rejiminin qorunub saxlanmasından razı qaldıqlarını ifadə edir və münaqişənin sülh yolu ilə tezliklə hərtərəfli şəkildə aradan qaldırılması üçün danışıqlar prosesini fəallaşdırmağı öhdələrinə götürürlər.

Biz, milliyyətindən asılı olmayaraq qaçqınların və məcburi köçkünlərin problemlərini ümumi kədərimiz sayırıq və onların tezliklə könüllü olaraq və təhlükəsiz surətdə öz doğma ocaqlarına qayıtmaları üçün şərait yaratmaqdan ötrü hər cür səy göstərəcəyik.

Biz təcavüzkar separatçılığı, milli müstəsnalığın müxtəlif dinlər arasında ədavətin və dini ekstremizmin təzahürlərini qətiyyətlə rədd edirik. Biz etnik və dini dözümlülüyə, regionun mədəni və dil baxımından rəngarəngliyinə qayğı və hörmətlə yanaşılmasına qəti şəkildə kömək etmək niyyətindəyik.

Biz terrorçuluğun bütün formalarını və təzahürlərini pisləyir və onun kökünü kəsmək üçün səylərimizi birləşdirmək əzmindəyik. Silahların və narkotiklərin qanunsuz dövriyyəsinə son qoymaq lazımdır.

Qafqaz və Rusiya xalqlarını ənənəvi olaraq birləşdirən yaxşı nə varsa bunların hamısını birlikdə qoruyub saxlamaq və [403-404] artırmaq niyyətində olduğumuzu bildiririk. Qarşılıqlı etimad və açıqlıq, insan hüquqlarına və əsas azadlıqlara hörmət, mübahisələrin dinc vasitələrlə həlli və daxili işlərə qarışmamaq, üzərimizə götürülmüş öhdəliklərə vicdanla əməl etmək və qarşılıqlı surətdə faydalı tərəfdaşlıq bizim münasibətlərimizin əsasını təşkil etməlidir.

Dövlətlərimizin hərtərəfli tərəfdaşlığının və qarşılıqlı əlaqəsinin mühümlüyünü, suveren bərabərlik və qarşılıqlı fayda əsasında onların arasında inteqrasiya proseslərini təşviq etməyin mühümlüyünü, Qafqaz regionunda tarazlaşdırılmış iqtisadi siyasətin həyata keçirilməsinin zəruriliyini vurğulayırıq. Münaqişələr aradan qaldırıldıqca ümumi iqtisadi məkanın formalaşdırılması, ticarət-iqtisadi, elmi-texniki əməkdaşlığın hərtərəfli

inkişaf etdirilməsi, telekommunikasiyalar, tikinti-nəqliyyat, yanacaq-energetika kompleksi, ətraf mühitin qorunması sahəsində birgə layihələrin həyata keçirilməsi, beynəlxalq hüququn hamı tərəfindən qəbul olunmuş prinsipləri əsasında və təşəkkül tapmış mədəni, tarixi əlaqələr nəzərə alınmaqla investisiya fəaliyyətinin və ticarətin təşviq edilməsi birinci dərəcəli vəzifədir.

Qafqazın nadir təbiətinin qorunması, texnogen nəticələrin və təbii fəlakətlərin, silahlı münaqişələrin nəticələrinin aradan qaldırılması məsələlərində, beynəlxalq turizmin inkişaf etdirilməsində hərtərəfli əməkdaşlığa xüsusi diqqət yetirilməlidir.

Biz bəyan edirik ki, mədəni, elmi, humanitar ünsiyyətləri və digər ünsiyyətləri genişləndirmək, demokratiya və ictimai tərəqqi ideyalarının bərqərar olmasına kömək göstərmək vasitəsilə Qafqazda millətlərarası həmrəyliyi və sülhü möhkəmləndirmək naminə bütün səviyyələrdən olan rəhbərlərin, siyasətçilərin, partiyaların, hərəkatların, müxtəlif dinlərin nümayəndələrinin atdıqları istənilən addımlara kömək göstərəcəyik.

Görüş iştirakçıları bu bəyannamədə şərh edilən məqsədlərə nail olunmasına yönəldilmiş tədbirləri maksimum təşviq etmək, iqtisadiyyat, mədəniyyət, təhsil sahələrində və sosial sahədə dövlətlərimiz arasında və onların tərkib hissələri arasında hərtərəfli əməkdaşlığı inkişaf etdirmək, Qafqazda münaqişələrə son qoyulmasına və bunların nəticələrinin aradan qaldırılmasına istiqamətləndirilmiş səmərəli tədbirlər görmək əzmindədirlər. [404-405]

Biz, Azərbaycanın, Ermənistanın, Gürcüstanın, Rusiyanın dövlət başçıları xalqlarımızın gələcəyi üçün tarixi məsuliyyət daşıdığımızı dərk edərək, milyonlarla insanın iradəsini ifadə edərək millətlərarası həmrəyliyi, sülhü, iqtisadi tərəqqini təmin etmək, Qafqaz xalqlarının mədəni-tarixi irsini birlikdə artırmaq üçün özümüzdən asılı olan hər şeyi etməyə hazır olduğumuzu bəyan edirik.

Qafqaz bizim ümumi evimizdir. Onu öz tarixləri ilə fəxr edən və gələcəyə inamla baxan insanların yaşadıqları dinc, tərəqqi edən regiona çevirmək bizim borcumuzdur.

**Azərbaycan Respublikası adından**
**HEYDƏR ƏLİYEV**

**Ermənistan Respublikası adından**
**LEVON TER-PETROSYAN**

**Gürcüstan adından**
**EDUARD ŞEVARDNADZE:**

**Rusiya Federasiyası adından**
**BORİS YELTSİN**

*Kislovodsk, 3 iyun 1996-cı il* [405-406]

## AZƏRBAYCAN, ERMƏNİSTAN, GÜRCÜSTAN VƏ RUSİYANIN DÖVLƏT BAŞÇILARININ, HABELƏ ŞİMALI QAFQAZ RESPUBLİKALARI, DİYAR VƏ VİLAYƏTLƏRİ RƏHBƏRLƏRİNİN GÖRÜŞÜNDƏN QAYITDIQDAN SONRA BİNƏ HAVA LİMANINDA "MİR" DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNİN MÜXBİRİ İLƏ MÜSAHİBƏ

*3 iyun 1996-cı il*

**Sual: Xahiş edirəm, bu görüş barədə öz təəssüratınızı bölüşəsiniz.**

**Heydər Əliyev:** Təəssüratlarım yaxşıdır. Bu, ilk görüşdür ki, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan prezidentləri, Rusiya Federasiyasının subyektləri olan Şimali Qafqaz respublikalarının, diyar və vilayətlərinin rəhbərləri bir yerə toplaşmışdılar. Hələ heç vaxt belə olmayıbdır. Biz Qafqazda sabitliyin, demək olar, bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi ilə bağlı məsələləri müzakirə etdik, bəyannamə imzaladıq. Hesab edirəm ki, bu, mühüm sənəddir. Bu görüşün keçirilməsi faktının özü böyük əhəmiyyətə malikdir. Lakin, bundan başqa, biz hamımız belə bir yekdil fikirdə olduq ki, Qafqazın istər Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan kimi müstəqil ölkələr üçün, istərsə də müxtəlif millətlərdən çoxlu insanın yaşadığı bu regionun respublikaları, diyarları, vilayətləri üçün misilsiz əhəmiyyəti var. Təəssüf ki, burada silahlı münaqişələr gedir. Əlbəttə, bu baxımdan da görüş çox vacib bir görüş idi. Mən məmnunam.

**Sual: Lütfən deyin, bu görüş Rusiyada qarşıdakı prezident seçkilərinə hər hansı dərəcədə təsir göstərəcəkmi?**

**Heydər Əliyev:** Təbii ki, təsir göstərəcəkdir. Orada bu barədə də söhbət getdi və Şimali Qafqaz respublikalarının, diyar və vilayətlərinin rəhbərləri indiki prezident Boris Yeltsinin qarşıdakı seçkilərdə dəstəklənməsi haqqında xüsusi bəyanat qəbul etdilər. Təbii ki, Rusiyada seçkilər barəsində biz də öz fikrimizi söylədik, o cümlədən mən də öz çıxışımda [406-407] dedim ki, əlbəttə, biz Rusiya ilə maraqlanırıq, axı bizi Rusiya ilə çox şey bağlayır. buna görə də biz seçkilərin necə keçəcəyinə və xalqın kimi seçəcəyinə biganə deyilik. Mən, məsələn, dedim ki, Azərbaycan demokratiyanı, demokratik islahatları, islahatlar xəttini dəstəkləyir və təbii olaraq, bununla əlaqədar biz Yeltsinə rəğbət bəsləyirik, onu dəstəkləyirik.

**Sual: Əgər hamısına birlikdə yekun vursaq, şəxsən siz bu görüşdən razı qaldınızmı?**

**Heydər Əliyev:** Bilirsinizmi, mən əvvəlcə bu təklifi o qədər də həvəslə dəstəkləmirdim. Çünki burada bizim üçün məsələlər, problemlər var, misal üçün, sülh haqqında Ermənistan prezidenti ilə bəyannamə imzalamalı idik. Biz tez-tez görüşsək də, Ermənistan tərəfindən hərbi təcavüzü, hərbi münaqişəni nəzərə alsaq görərik ki, bu sənədi imzalamaq o qədər də yerinə düşmür. Buna baxmayaraq, hesab edirəm ki, bu, faydalıdır.

**Müxbir:** Çox sağ olun. [407-408]

## BAKIDA "XƏZƏRNEFTQAZ-96" ÜÇÜNCÜ BEYNƏLXALQ SƏRGİSİNİN AÇILIŞ MƏRASİMİNDƏ ÇIXIŞ

*4 iyun 1996-cı il*

Hörmətli xanımlar və cənablar, möhtərəm qonaqlar!

Bu gün Bakıda, Azərbaycanda əlamətdar, mühüm hadisə baş verir. 20 ölkənin 190 neft və qaz şirkətinin nümayəndələri "Xəzərneftqaz-96" beynəlxalq sərgisinin açılışı ilə əlaqədar Azərbaycan Respublikasının paytaxtına – Bakıya toplaşıblar. Burada olanların hamısını, sərginin açılışı ilə əlaqədar Azərbaycana gəlmiş sərgi iştirakçılarını, qonaqları səmimi salamlayıram.

"Xəzərneftqaz-96" sərgisini açıq elan edirəm.

1994-cü ildən etibarən artıq dalbadal üçüncü ildir ki, ilin məhz bu vaxtı Bakıda neft və qaz problemlərinə dair beynəlxalq sərgi işinə başlayır. Bu gün biz yenə də sərginin açılışındayıq. "Speahed eksibişnz LTD" şirkətinin Azərbaycan Ticarət-Sənaye Palatası ilə birlikdə təşkil etdiyi bu sərgi getdikcə daha da məşhurlaşır, öz miqyasını genişləndirir. Elə indi də bu sərgi istər mahiyyətinə görə, istərsə də adına görə həqiqətən geniş beynəlxalq xarakter daşıyır. Diqqətəlayiq haldır ki, bu sərginin təşkilində, onun işində nəinki neft və qaz problemləri ilə bilavasitə və ya dolayısı ilə əlaqələri olan müxtəlif neft və qaz şirkətlərinin rəhbərləri və nümayəndələri, həm də məhsulları bu sərgidə göstərilən ölkələrin hökumət nümayəndələri fəal iştirak edirlər. Mən bu sərgiyə gələn hökumət nümayəndələrini səmimi salamlayıram. Hesab edirəm ki, onların sərginin açılışında, bu sərgi çərçivəsində keçiriləcək konfransın işində iştirakı ona daha böyük əhəmiyyət verir.

Neft və qaz problemlərinə həsr olunmuş belə beynəlxalq sərginin üç il dalbadal Bakıda keçirilməsini qanunauyğun sayıram. Bu, ölkəmizin neft və qaz sərvətlərinə, Azərbaycan Respublikası neftçilərinin ənənələrinə marağın artdığını göstərir. Məlumdur ki, Azərbaycan qədim neft ölkəsidir. Azərbaycanın, Bakının neft yataqları, neft sərvətləri bütün dünyada məş[408-409]hurdur. Ötən vaxtlarda Azərbaycan nefti təkcə Azərbaycanın, keçmiş Rusiyanın, keçmiş Sovetlər İttifaqının deyil, dünyanın bir çox ölkələrinin də iqtisadiyyatının inkişafında rol oynamışdır. Biz hər dəfə iftixar hissilə danışırıq və bu gün də deməyi lazım bilirəm ki, dünyada ilk dəfə olaraq məhz Bakıda, Azərbaycanda 1848-ci ildə neft fontan vurmuşdur. Dünyada ilk dəfə olaraq məhz Azərbaycanda dənizdə neft yataqlarının istismarına başlanmışdır və 1949-cu ildən etibarən Xəzər dənizinin Azərbaycan sektorunda zəngin neft və qaz yataqları fəal istismar edilir. Bütün bunlar birlikdə götürüldükdə belə deməyə tam əsas verir ki, Azərbaycan Odlar yurdu, neft diyarıdır.

XX əsrdə Yer kürəsinin müxtəlif regionlarında, müxtəlif ölkələrdə yeni-yeni çox zəngin neft yataqları kəşf edilmişdir. İndi quruda da, dənizdə də çoxlu neft və qaz çıxarılır. Lakin neft məmləkəti kimi Azərbaycan öz əhəmiyyətini itirməyib. Bu bir yana. Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqlarının aşkara çıxarılması, Azərbaycan ərazisində bir çox köhnə neft və qaz yataqlarının olması belə deməyə əsas verir ki, ölkəmizdə neft və qaz hasilatının hələ çox böyük gələcəyi var. Bütün bunlar belə deməyə haqq verir ki, 190 neft və qaz şirkətinin eksponatları olan beynəlxalq neft və qaz sərgisinin məhz Azərbaycanda açılması Azərbaycanın istər tarixinə, istərsə də bugünkü gününə tam müvafiqdir.

Hazırda Azərbaycanın neft-qaz sənayesi yeni mərhələ – dirçəliş mərhələsi keçirir. Neft və qaz kəşfiyyatı və hasilatının miqyası genişlənib, başlıcası isə neft və qaz hasilatında dünyanın bir çox ölkələri və şirkətləri ilə əməkdaşlığın miqyası genişlənibdir. Bütün bunlar onun sayəsində mümkün olmuşdur ki, Azərbaycan xalqı öz milli istiqlaliyyətini qazanmışdır, Azərbaycan müstəqil suveren dövlət olmuşdur və indi Azərbaycan xalqı, Azərbaycan dövləti öz taleyinin, öz sərvətlərinin, öz təbiətinin sahibidir. Bunun nəticəsində Amerika Birləşmiş Ştatlarının, Rusiya, Böyük Britaniya, Norveç, Fransa, İtaliya, Səudiyyə Ərəbistanı, Türkiyə, İran və bir çox digər dövlətləri təmsil edən bütün bu şirkətlər indi sərginin iştirakçılarıdır. Bu ölkələrin hökumət nümayəndələri, bu şirkətlərin nümayəndələri sərgiyə öz eksponatlarını təqdim etmişlər ki, bu da çox mühüm hadisədir. Məhz dövlət müstəqilliyi və suverenliyi şəraitində Azərbaycan Respublikası 1994-cü ilin sentya[409-410]brında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının birgə işlənməsi haqqında neft şirkətlərinin iri beynəlxalq konsorsiumu ilə "Əsrin müqaviləsi" adlandırılan müqavilə imzalamaq imkanı tapmışdır.

1995-ci ilin noyabrında Xəzərin Azərbaycan sektorundakı "Qarabağ" adlı iri neft və qaz yatağının birgə işlənməsi haqqında bəzi böyük neft şirkətləri ilə ikinci müqavilə imzalandı. Bu gün Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz və neft yatağının birgə işlənməsi haqqında dünyanın bir çox böyük neft şirkətləri ilə üçüncü müqavilə imzalanacaqdır.

Bütün bunlar, bir tərəfdən, Azərbaycan Respublikasının çox zəngin neft və qaz ehtiyatlarına malik olduğuna, digər tərəfdən isə yataqların birgə işlənməsində, bu neft sərvətlərindən birgə istifadə edilməsində dünyanın neft şirkətləri ilə, bir çox böyük ölkələrlə fəal əməkdaşlığımıza sübutdur. Bunların hamısı Azərbaycan iqtisadiyyatının bütün dünya üçün açıq olmasına, onun dünya iqtisadiyyatı ilə inteqrasiyasına yönəldilmiş

siyasətimizi, xəttimizi nümayiş etdirir. Bunların hamısı bazar iqtisadiyyatı prinsiplərinə müvafiq dərin iqtisadi islahatlar aparılmasına və bu əsasda dünya iqtisadiyyatı ilə inteqrasiyaya yönəldilmiş Azərbaycan hökumətinin, dövlətinin xəttini nümayiş etdirir. Biz məhz bu yolla dönmədən gedəcək, azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsiplərini Azərbaycanda dönmədən həyata keçirəcək, Azərbaycan iqtisadiyyatının inkişafı üçün, əməkdaşlığımızın inkişafı üçün, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatı ilə inteqrasiyasının inkişafı üçün bütün ölkələrlə, dünyanın bütün şirkətləri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq edəcəyik.

İndiki beynəlxalq sərgi əməkdaşlığımızı fəallaşdırmaq məqsədilə yeni əlaqələr yaratmaq üçün gözəl imkanlar verir. Əminəm ki, sərgi də, burada onun çərçivəsində keçiriləcək konfrans da bizə əməkdaşlığımızın miqyasını genişləndirməyə, getdikcə daha çox xarici şirkətləri, dövlətləri Azərbaycanla əməkdaşlığa cəlb etməyə də imkan yaradacaqdır.

Bu gün açılan sərgi bəlkə də bütöv bir il ərzində, yəni 1995-ci ilin sərgisi başa çatdığı vaxtdan bəri görülmüş böyük və çox gərgin, zəhmətli işin nəticəsidir. Bununla əlaqədar çox böyük və zəhmətli iş görmüş olan Britaniyanın "Speahed ekzibişnz LTD" şirkətinə təşəkkürümü bildirmək və təbii olaraq, bu şirkətin icraçı direktoru, bu gün mənə təqdim edilən gözəl [410-411] xanımı alqışlamaq istəyirəm. Bu sərginin hazırlanması üçün böyük səy göstərmiş olan Azərbaycan Ticarət-Sənaye Palatasına, onun bütün əməkdaşlarına da təşəkkür etmək istəyirəm. Bu sərgiyə öz eksponatlarını təqdim edən və təbii olaraq, onun bu gün keçirilməsi üçün çox böyük iş görən bütün şirkətlərə, firmalara təşəkkürümü bildirirəm.

Sərginin açılışında iştirak etmək üçün Azərbaycana gələn ölkələrin hökumət nümayəndələrini səmimi salamlayır və onlara, habelə hazırda fəal əməkdaşlıq etdiyimiz ölkələrə öz böyük ehtiramımı bildirirəm. Əməkdaşlığımızın daha da inkişaf etməsinə uğurlar arzulayıram. Bir daha sizin hamınızı beynəlxalq sərginin açılışı münasibətilə təbrik edirəm, sərgiyə də, burada təqdim olunmuş şirkətlərə də müvəffəqiyyətlər diləyirəm. Sizin hamınızı təbrik edirəm, sizə xoşbəxtlik, firavanlıq, işlərinizdə uğurlar arzulayıram.

## "ŞAHDƏNİZ" YATAĞININ BİRGƏ İŞLƏNMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT NEFT ŞİRKƏTİ İLƏ XARİCİ NEFT ŞİRKƏTLƏRİ ARASINDA MÜQAVİLƏ İMZALANMASI MƏRASİMİNDƏ ÇIXIŞ

*"Gülüstan" Sarayı*

*4 iyun 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Bu gün 1996-cı il iyunun 4-ü Azərbaycan Respublikasının həyatında neft və qaz istehsalına, neft və qaz sənayesinə həsr olunmuşdur. Azərbaycanda, Bakıda biz bu gün səhər böyük beynəlxalq neft-qaz sərgisi açdıq. Ardıcıl olaraq, dalbadal üç ildir ki, Azərbaycanda belə böyük neft-qaz sərgisi təşkil olunur, açılır və bu sərginin iştirakçılarının sayı ilbəil artır, sərginin miqyası genişlənir.

Biz hamımız bu gün eyni fikrə gəldik ki, beynəlxalq neft-qaz sərgisi bundan sonra Azərbaycanda hər il açılacaq, fəaliyyət göstərəcək və bu, bir ənənəyə çevriləcəkdir. Bu, Azərbaycan Respublikasında zəngin neft-qaz yataqlarının bundan sonra da işlənməsi üçün respublikamıza göstərilən maraqdır, eyni zamanda neft ölkəsi kimi Azərbaycana verilən yüksək qiymətdir. Eyni zamanda bu, müstəqil Azərbaycan Respublikasının dünya ölkələri, şirkətləri ilə müstəqil əlaqə qurmasını nümayiş etdirən əlamətdar bir hadisədir.

Azərbaycanda neft qədim zamanlardan hasil olunur. Azərbaycan hələ ötən əsrdən dünyada neft ölkəsi kimi məşhurlaşıbdır. Ancaq son illərə qədər ölkəmizin həyatında belə sərgi heç vaxt olmamışdır. [412-413]

Bu gün bu möhtəşəm "Gülüstan" sarayına biz eyni zamanda, yeni bir əlamətdar hadisə münasibətilə yığışmışıq. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənməsi barədə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkəti arasında müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Son iki il ərzində üçüncü dəfədir ki, biz böyük neft müqaviləsi imzalayırıq. Üçüncü dəfədir ki, bu əlamətdar hadisə münasibətilə buraya – "Gülüstan" sarayına toplaşırıq. 1994-cü il sentyabrın 20-də Bakıda imzalanmış böyük neft müqaviləsi – Azərbaycan Respublikası ilə dünyanın nüfuzlu neft şirkətləri arasında müqavilə artıq yaşayır, işləyir və öz nəticələrini verir. "Əsrin müqaviləsi" adlandırılan bu müqavilə Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının müştərək işlənməsi ilə əlaqədardır.

Xəzər dənizinin Azərbaycana aid sektorundakı "Qarabağ" neft yatağının müştərək işlənməsi ilə istifadə olunması üçün keçən ilin noyabrında ARDNŞ dünyanın bir neçə böyük neft şirkəti ilə ikinci neft müqaviləsini imzalamışdır. Bu müqavilə də işləyir, yaşayır və ümidvaram ki, öz nəticələrini verəcəkdir.

Bu gün imzalanmaq üçün hazırlanmış müqavilə Xəzər dənizinin Azərbaycana məxsus sektorundakı "Şahdəniz" neft-qaz yatağının müştərək işlənməsinə, istifadə edilməsinə həsr olunubdur. "Şahdəniz" yatağı Azərbaycanın geoloqları, alimləri, neftçiləri tərəfindən açılmış, kəşf edilmiş çox zəngin yataqlardan biridir. Bu yataq geoloqlarımıza, alimlərimizə hələ on illər bundan əvvəl məlum olmuş, 80-ci illərdə açılmışdır. Nəhayət, biz bu yataqdan əməli surətdə istifadə edilməsi üçün böyük bir addım atırıq.

Deyilənlərə görə, təxminən 1990-cı ildə Dövlət Neft Şirkəti tərəfindən Azərbaycanın qaz ilə təchizatını təmin etmək üçün "Şahdəniz" yatağında bu quyunun qazılmasına başlanmış, verilən məlumata görə təxminən 2 min metr dərinliyə qədər qazılmış, ancaq vəsaitin, imkanların olmamasından bu iş davam etdirilməmiş və başlı-başına buraxılmışdır. 1992-ci ilin sentyabrında Azərbaycan hökuməti "Şahdəniz" yatağının işlənməsi ilə əlaqədar Böyük Britaniya Krallığının "Britiş Petroleum" və Norveçin "Statoyl" şirkətləri ilə müqavilə imzalamışdır. Bu müqavilədə həmin yatağın birgə işlənməsi üçün danışıqlar aparılması və yatağın işlənməyə hazırlanması barədə [413-414] "Britiş Petroleum" və "Statoyl" şirkətlərinə xüsusi səlahiyyətlər verilmişdir. Bu iki şirkət alyans yaradaraq işə başlamış, sonra həmin alyansa Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti də qoşulmuş, onlar bu işləri öz imkanları çərçivəsində aparmışlar.

Son illərdə ARDNŞ ölkəmizin iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə Azərbaycan Respublikasının neft-qaz ehtiyatlarından, mövcud yataqlardan səmərəli istifadə edilməsi üçün lazımi işlər görmüşdür. Azərbaycan Dövlət Neft Şirkəti, alimlərimiz, geoloqlarımız, neftçilərimiz "Şahdəniz" yatağında son illər müəyyən tədqiqatlar aparmış, işlər görmüşlər. Bunların nəticəsində, 1995-ci ilin oktyabrında ARDNŞ "Şahdəniz" yatağının dünyanın böyük neft şirkətləri ilə birlikdə, müştərək işlənməsini zəruri hesab etmiş və bu barədə təklif irəliyə sürmüşdür. Həmin təklif əsasında bu sahədə iş görülməsi üçün mən onlara həm səlahiyyət, həm də lazımi tapşırıqlar vermişəm. Aparılan işlər nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti "Şahdəniz"

yatağının dünyanın bir sıra neft şirkətləri ilə birgə işlənməsi, istifadə olunması haqqında müqavilə layihəsi hazırlayıb mənə təqdim etmişdir.

Bu müqavilə layihəsini hazırlayarkən, "Şahdəniz" yatağından əməli surətdə istifadə edilməsi üçün tədbirlər görərkən ARDNŞ "Britiş Petroleum", "Statoyl", "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətləri ilə bərabər, dünyanın başqa neft şirkətlərinin bu neft yatağının işlənməsinə cəlb edilməsi haqqında təkliflər irəli sürmüş və bu təkliflərin həyata keçirilməsinə nail olmuşdur. Beləliklə, bu neft-qaz yatağının işlənməsinə Rusiya Federasiyasının "LUKoyl", Fransanın "Elf Akiten" şirkətləri və İran İslam Respublikasının neft şirkəti də qoşulmuşdur. Hazırlanmış müqavilə Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın "Britiş Petroleum", Norveçin "Statoyl", Türkiyənin "Türkiyə Petrolları Anonim Ortaqlığı", Rusiyanın "LUKoyl", Fransanın "Elf Akiten" şirkətləri və İranın neft şirkəti arasında müştərək iş görmək barədə müqaviləddir.

Mən bu neft-qaz yatağının və eyni zamanda bu müqavilənin bir neçə göstəriciləri haqqında da söhbət açmaq istəyirəm. Verilən məlumatlara görə, "Şahdəniz" yatağından 400 milyard kubmetr qaz çıxarılması, 200 milyon ton qaz-kondensat əldə olunması və 100 milyon ton neft hasil edilməsi gözlənilir. Beləliklə, bu, çox böyük bir sərvətə malik olan neft-qaz yatağıdır və belə bir yatağın işlənməsi və istifadə edilməsi, şübhəsiz ki, həm Azərbaycan Respublikasına, həm də bu mü[414-415]qavilənin iştirakçısı olan şirkətlərə, həmin şirkətlərin mənsub olduğu ölkələrə çox böyük faydalar verəcəkdir.

Müqavilədə nəzərdə tutulmuş layihəni həyata keçirmək üçün dörd milyard ABŞ dolları məbləğində vəsait qoyulması planlaşdırılmışdır və müqavilə 30 il müddətinə yerinə yetiriləcəkdir. Beləliklə, bu müqavilə həm Azərbaycan Respublikası üçün, həm də müqavilənin həyata keçirilməsində iştirak edəcək şirkətlər və onların mənsub olduğu ölkələr üçün iqtisadi cəhətdən çox səmərəlidir.

Bütün bu göstəriciləri nəzərə alaraq mən bu müqaviləni bəyənmişəm və həmin layihə əsasında müqavilənin imzalanması haqqında fərman vermişəm. Məhz bunların da nəticəsində biz bu gün buraya bu müqavilənin imzalanması mərasiminə toplaşmışıq.

Mən məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, Azərbaycanın yeni neft-qaz yatağının istifadə olunmasında bizimlə artıq bir neçə il əməkdaşlıq edən Böyük Britaniya Krallığının hökuməti və bu ölkənin "Britiş Petroleum" şirkəti yenə də bizimlə bir yerdədir. Bu baxımdan mən Böyük Britaniya Krallığının energetika və sənaye naziri cənab Tim Eqqarı xüsusi salamlayıram və onun bu işlərdə xidmətlərini qeyd edirəm. Mən bunu xüsusi qeyd edirəm ki, biz bu işlərə başlayarkən – ilk müqaviləni imzaladıqdan indiyədək cənab Tim Eqqar bizimlə birlikdədir və bu gün də bu tədbirdə iştirak edir.

Azərbaycan ilə Norveç arasında əməkdaşlıq da çox sabit xarakter daşıyır. Norveçin "Statoyl" şirkəti bizim birinci böyük müqavilənin iştirakçısıdır və bu gün də yenidən bu müqavilənin fəal iştirakçısıdır. Bu münasibətlə mən Norveç hökumətinin Azərbaycana olan diqqətini, marağını və Norveç dövlətinin, hökumətinin sənaye və energetika naziri cənab Stoltenberqin burada olmasını xüsusi qeyd edirəm. O, sərgidə iştirak etdi və vacib məsələ olduğu üçün indi öz ölkəsinə qayıtmalı oldu. Ancaq o, bizimlə bərabərdir. "Statoyl" şirkətinin rəhbərləri və Norveçin Sənaye və Energetika Nazirliyinin nümayəndələri də indi burada bizimlə birlikdədirlər, bu müqavilənin imzalanmasında iştirak edirlər. Mən onları salamlayıram.

Xəzər dənizinin Azərbaycana məxsus neft-qaz yataqlarının dünya şirkətləri ilə müştərək işlənməsi prosesinə başlayarkən biz ilk əvvəldən indiyədək Rusiya Federasiyası ilə əməkdaşlıq edirik. 1993-cü ilin oktyabrında Rusiya Federasiyasının yanacaq və energetika naziri cənab Yuri Şafrannik böyük nüma[415-416]yəndə heyəti ilə Azərbaycanda olmuşdur. Xəzər dənizinin Azərbaycana məxsus olan sektorundakı neft yataqlarının müştərək işlənməsi haqqında o vaxt biz Azərbaycan Respublikasının hökuməti ilə Rusiya Federasiyasının hökuməti arasında saziş imzalamışıq. Rusiya Federasiyası və onun böyük neft şirkəti "LUKoyl" bizim indiyədək imzaladığımız müqavilələrin hamısının – 1994-cü ilin sentyabrında imzalanmış müqavilənin, 1995-ci ilin noyabrında "Qarabağ" neft yatağının birgə işlənməsi ilə əlaqədar imzalanmış müqavilənin üzvüdür. Rusiya Federasiyasının "LUKoyl" şirkəti bu gün "Şahdəniz" yatağının müştərək işlənməsi barədə hazırlanmış müqavilənin də üzvüdür. Mən bunu çox müsbət hal hesab edirəm. Mən bunu Azərbaycan ilə Rusiya arasında olan iqtisadi əməkdaşlığın nümayişi kimi qeyd edirəm. Bu münasibətlə Azərbaycana gəlmiş nümayəndə heyətini və xüsusən Rusiyanın yanacaq və energetika nazirinin birinci müavini cənab Vladimir Kostyunini xüsusi salamlayıram.

Bu gün imzalanan müqavilənin xüsusiyyətlərindən biri də odur ki, neft-qaz sənayesi sahəsində biz yeni ölkələrlə əməkdaşlığa başlayırıq. Həmin ölkələrdən biri Fransadır, bu ölkənin məşhur "Elf akiten" şirkətidir. Mən Fransa ilə bu sahədəki əməkdaşlığımızı müsbət qiymətləndirirəm və bundan məmnun olduğumu bildirmək istəyirəm. Bu münasibətlə Fransadan Azərbaycana gəlmiş nümayəndə heyətinin başçısı, Fransa Respublikasının sənaye və energetika nazirinin müavini cənab Gi Arleti və "Elf Akiten" şirkətinin prezidenti cənab Filip Jofreni xüsusi salamlayıram.

Mən qeyd etdim və bir daha bildirmək istəyirəm ki, Türkiyə Cümhuriyyətinin "Türk petrolları" şirkəti neft-qaz sənayesi sahəsində bizimlə sıx əməkdaşlıq edir. Onlar "Şahdəniz" yatağı barədə müqavilənin işlənib hazırlanmasında "Britiş Petroleum" və "Statoyl" şirkətləri ilə birgə bir neçə ildir ki, məşğuldurlar. Məhz bunların nəticəsində "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkəti indi imzalanan müqavilənin fəal iştirakçısıdır.

Türkiyədən bizə daim yüksək səviyyəli nümayəndələr gəlir. Hörmətli səfir bu gün bildirdi ki, Türkiyənin daxili vəziyyəti ilə əlaqədar enerji naziri bu gün buraya gələ bilməyibdir. Ancaq biz onu da burada hesab edirik. Bu gün mən Türkiyə Cümhuriyyətinin və onun "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin müqavilədə iştirak etməsini xüsusi qeyd edirəm. Türkiyə Cümhuriyyətindən Azərbaycana gəlmiş nü[416-417]mayəndə heyətini, "Türkiyə Petrolları Anonim Ortaqlığı" şirkətinin prezidenti cənab Sidqi Səncəri və Türkiyədən gəlmiş qonaqlarımızın hamısını salamlayıram.

İran Azərbaycanın yaxın qonşusu, dostudur, Azərbaycan ilə İran arasında əməkdaşlıq gündən-günə inkişaf edir. İndi biz İran ilə neft-qaz sənayesi sahəsində də əməkdaşlığımızı gücləndiririk. Qeyd etmək istəyirəm ki, bizim bu əməkdaşlığımız var. Xəzər dənizinin İran sektorunda Azərbaycan neftçiləri iki quyu qazma barədə sifariş alıblar və orada işləyirlər. Biz bunu İran ilə əməkdaşlığımızın bir nümunəsi hesab edirik. Xəzər dənizində İranın öz sektoru var. Amma eyni zamanda, Xəzər dənizinin Azərbaycan sektorunda olan – "Şahdəniz" yatağının işlənməsinə İranın da cəlb edilməsini mən müsbət hadisə kimi qeyd edirəm. Güman edirəm ki, bu, əməkdaşlığımızı daha da inkişaf etdirəcəkdir. Bu gün imzalanan müqavilədə İran İslam Cümhuriyyətinin OİEK şirkəti də iştirak edir. Mən İran İslam Cümhuriyyətindən gələn qonaqlarımızı salamlayıram, milli neft şirkətinin birinci vitse-prezidenti cənab Seyid Əli Əkbər Haşimini salamlayıram.

İmzalanmaq üçün təqdim olunan müqavilə Azərbaycanın neft yatağında yeddi ölkənin şirkətlərinin müştərək işi üzərində qurulubdur: Azərbaycan Respublikası, Böyük Britaniya Krallığı, Norveç, Rusiya, Türkiyə, Fransa, İran. Bu, çox əlamətdar bir haldır.

Mən sizi, bütün Azərbaycan xalqını bu əlamətdar hadisə münasibətilə, yeni neft müqaviləsinin imzalanması münasibətilə ürəkdən təbrik edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, iqtisadi əməkdaşlıq, iqtisadiyyatın inkişaf etdirilməsi sahəsində atdığımız bu böyük addım Azərbaycan xalqının rifahı naminə yeni uğurlar gətirəcəkdir.

Bu müqavilənin imzalanması münasibətilə bu salona toplaşanları – xarici ölkələrdən gəlmiş qonaqlarımızı, xarici ölkələrin Azərbaycandakı səfirlərini, beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrini, bütün qonaqlarımızı ürəkdən salamlayıram, ümidvar olduğumu bildirmək istəyirəm ki, biz gələcəkdə belə böyük hadisələrin yenə də şahidi olacağıq.

Hamınızı bir daha təbrik edirəm. Hesab edirəm ki, müqavilənin imzalanmasına başlamaq olar. [417-418]

## YEKUN ÇIXIŞI

Hörmətli xanımlar və cənablar!

Azərbaycanda, Bakıda üçüncü böyük neft müqaviləsi imzalandı. Bugünkü mərasimin iştirakçıları bu müqavilə haqqında, əvvəllər imzalanmış müqavilələr haqqında dəyərli sözlər dedilər. Heç şübhə yoxdur ki, bu müqavilələr əməli surətdə həyata keçiriləcək, öz bəhrəsini, nəticələrini verəcək və Azərbaycan xalqının rifah halının yüksəlməsi üçün böyük xidmətlər göstərəcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, biz bu gün dünyanın məşhur və çox güclü neft şirkətləri ilə bu neft müqaviləsini imzalayarkən Azərbaycan Respublikasının iqtisadiyyatım inkişaf etdirmək, xalqımızın, vətəndaşlarımızın rifah halını yaxşılaşdırmaq məqsədi daşıyırıq.

Allah Azərbaycan xalqına zəngin sərvətlər bəxş etmişdir. Bizim borcumuz, vəzifəmiz bu sərvətlərdən ehtiyatla istifadə etmək, eyni zamanda bu yataqları ardıcıl olaraq aşkara çıxarıb hərəkətə gətirmək, onlardan müstəqil respublikamızın inkişafı, xalqımızın rifahı naminə istifadə etməkdən ibarətdir. Hamı bilməlidir ki, belə müqavilələrin hazırlanması və onları imzalamaq haqqında qərarlar qəbul edilməsi çox böyük əmək, eyni zamanda böyük iradə tələb edir.

Mən bu gün bildirmək istəyirəm ki, biz bu müqavilələri hazırlayarkən bütün məsələlərə çox diqqətlə, məsuliyyətlə yanaşırıq. Həm bugünkü, həm də gələcək nəsillər qarşısında məsuliyyətimizi dərk edirik, Yalnız dərin və geniş təhlildən, tədqiqatdan, müzakirədən, onların birinci növbədə Azərbaycan üçün gərəkli, faydalı olduğunu hiss edəndən sonra biz bu müqavilələrin imzalanması haqqında qərar qəbul edirik. Bu müqavilələrin imzalanması haqqında qərar qəbul edərkən Azərbaycan Respublikasının prezidenti kimi mən üzərimə böyük məsuliyyət götürürəm, bu məsuliyyəti dərk edirəm. Əmin ola bilərsiniz ki, bu müqavilələr yalnız və yalnız Azərbaycan üçün çox zəruri olduğuna, ölkəmizin gələcəyi üçün çox xeyirli olduğuna, gələcək nəsillərimiz üçün lazım olduğuna görə mən bu məsuliyyətli qərarları qəbul edirəm.

Bu müqavilələr, onların imzalanması Azərbaycan Respublikasının dövlət müstəqilliyini və suverenliyini dünyaya ,bir daha nümayiş etdirir. Azərbaycan qədim və böyük neft ölkəsidir. Azərbaycanın təbii sərvətlərindən on illərlə, əsrlərlə istifadə [418-419] olunubdur. Ancaq Azərbaycan xalqı heç vaxt indiki kimi öz sərvətlərinin sahibi olmayıb və heç vaxt da özü, yalnız özü belə iri, cəsarətli, iradəli addımlar atmaq imkanına malik olmayıbdır. Bunlar hamısı dövlət müstəqilliyimizin, suverenliyimizin bəhrəsidir və bizim də borcumuz bu müstəqilliyi, suverenliyi göz bəbəyi kimi qoruyub saxlamaqdan ibarətdir.

Bu müqavilələrin imzalanması Azərbaycanda hüquqi, demokratik dövlətin mövcud olmasını, ölkəmizdə demokratik proseslərin bərqərar olub inkişaf etməsini, respublikamızda siyasi, iqtisadi islahatların həyata

keçirilməsini nümayiş etdirir. Azərbaycanın sərbəst bazar iqtisadiyyatı yolu ilə getməsini və dünya iqtisadiyyatına sıx bağlanmasını nümayiş etdirir. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycan Respublikasının konstitusiyasında əks edilmiş bu prinsiplər bu gün də, gələcəkdə də həyatımızın qanunu, bütün sahələrdə işlərimizin əsası olacaqdır.

Təsəvvür edin, Azərbaycan bu müqavilələr üzrə 13 ölkə ilə əməkdaşlıq edir. Bunlar hələ işin başlanğıcıdır. Bizim təbii sərvətlərimiz zəngindir, imkanlarımız böyükdür. Biz gələcəkdə də bu yolla gedəcəyik və Azərbaycan Respublikasının təbii sərvətlərindən xalqımızın rifah halını yaxşılaşdırmaq, ölkəmizin iqtisadi potensialmı yüksəltmək üçün səmərəli istifadə edəcəyik.

Bu gün iyunun 4-dür. Düz üç il bundan əvvəl, məhz iyunun 4-də Azərbaycan xalqı, respublikamız böyük təhlükə qarşısında idi. Azərbaycanda #qardaş qanı tökülmüşdü, vətəndaş müharibəsi başlanmışdı. Üç il bundan əvvəli xatirinizə salın, o vaxt Azərbaycan necə ağır vəziyyətdə idi. Azərbaycan qarma-qarışıq vəziyyətdə idi, insanlar gələcəyə ümidini itirmişdilər. Azərbaycan xalqı, dövlətimiz bu üç il müddətində çox ağır, böyük uğurlu bir yol keçib. Azərbaycanda demokratiya bərqərar olub, ilk konstitusiya qəbul edilib, ölkəmizdə demokratik prinsiplər əsasında Azərbaycanın ilk parlamenti seçilibdir. Bu ağır, çətin illərdə xalqımız yenə də öz müdrikliyini göstərdi. Məhz Azərbaycan xalqının müdrikliyinə, mənəviyyatına görə biz ölkəmizi, xalqımızı bu fəlakətlərdən xilas edə bildik, vətəndaş müharibəsinin qarşısını aldıq, Azərbaycanın daxilində olan qarmaqarışıqlığı aradan götürdük, cinayətkar qüvvələri zərərsizləşdirdik və respublikamızda daxili ictimai-siyasi sabitlik yaratdıq. [419-420]

İndi Azərbaycanın daxili həyatı sabitdir. İnsanlar rahat yaşayır və məhz ictimai-siyasi sabitliyin bərqərar olunması nəticəsində xarici ölkələr Azərbaycana sərmayə qoymaq səylərini günü-gündən artırırlar. Məhz bunların nəticəsində 1994-cü ildə birinci neft müqaviləsini imzaladıq və bu gün üçüncü böyük neft müqaviləsini imzalayırıq.

Təsəvvür edin, üç il bundan əvvəl, iyunun 4-də respublikamız, xalqımız çapalayırdı, təhlükə qarşısında, qan içində, vətəndaş müharibəsi içində idi. Amma üç ildən sonra biz məhz bu gün – iyunun 4-də artıq üçüncü böyük neft müqaviləsini imzalayırıq.

Qonaqlarımız əmin ola bilərlər ki, Azərbaycanda ictimai-siyasi sabitlik möhkəmdir və günü-gündən möhkəmlənəcəkdir. Azərbaycanda demokratik proseslər gedir və bundan sonra daha da sürətlə gedəcəkdir. Azərbaycan demokratik, hüquqi, sivilizasiyalı dövlət kimi dünya birliyində öz yerini bundan sonra da tutacaqdır.

Hörmətli dostlar, qonaqlar!

Sizi və bütün Azərbaycan xalqını, vətəndaşlarım bu gün, yəni 1996-cı il 4 iyun günü münasibətilə, üçüncü neft müqaviləsinin imzalanması münasibətilə təbrik edirəm. Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Müqavilə uğurlu olsun! Gələn görüşlərə, müqavilələrə qədər. [420-421]

## RUSİYA FEDERASİYASININ BAKIDAKI SƏFİRLİYİNİN RUSİYANIN MİLLİ BAYRAMI – RUSİYANIN SUVERENLİYİ HAQQINDA BƏYANNAMƏNİN QƏBUL OLUNMASI GÜNÜ MÜNASİBƏTİLƏ TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA ÇIXIŞ

*10 iyun 1996-cı il*

Hörmətli Rusiya Federasiyası Dövlət Dumasının sədri cənab Gennadi Seleznyov, hörmətli Rusiya Federasiyası Dövlət Dumasının üzvləri, Federasiya Şurasının üzvləri, möhtərəm səfir, xanımlar və cənablar!

Sizi Rusiya Federasiyasının milli bayramı – Rusiyanın Suverenliyi günü münasibətilə təbrik edirəm. Sizin hamınıza, bütün Rusiya Federasiyası xalqına xoşbəxtlik, əmin-amanlıq, suverenliyin daha da möhkəmlənməsində uğurlar arzulayıram.

Rusiya Federasiyasının dövlət suverenliyi haqqında aktla Rusiyanın dövlətçiliyi əslində bərpa edilmişdir. Rusiya dövlətçiliyi çoxəsrlik tarixə, zəngin ənənələrə malikdir. Ötən dövrdə Rusiya Federasiyasının həyatında böyük dəyişikliklər baş vermişdir, çox coşqun proseslər müşahidə olunur.

Bütün bunlar iyirminci əsrin sonunda baş verdiyi bir vaxtda bu əsrə əvvəlki nəsillərin nədən başladıqları da yada düşür. Rusiyanın həyatında böyük dəyişikliklər, böyük yeniliklər yaranmışdır. Sonuna yaxınlaşdığımız iyirminci əsr ərzində də çox hadisələr baş vermiş, çox şey dəyişmişdir.

Lakin indi suveren bir dövlət kimi Rusiya Federasiyası öz dövlətçiliyini bərpa etmiş, öz suverenliyinin, öz dövlətçiliyinin daha da inkişaf etməsi və möhkəmlənməsi, Rusiya xalqlarının daha yaxşı həyatının təmin olunması üçün yeni böyük addımlar atılır.

Biz Rusiyada baş verən bütün hadisələri çox maraqla izləyir və Rusiya xalqlarına indi bizim hamımızın yaşadığımız dövrün çətinliklərini uğurla aradan qaldırmağı və Rusiya Federasiyasının getdiyi yolda yeni müvəffəqiyyətlər qazanmağı ürəkdən arzulayırıq. [421-422]

Rusiya ilə Azərbaycan arasında dostluq əlaqələrinin zəngin və çox böyük tarixi var. Xalqlarımız – Rusiya və Azərbaycan xalqları bir çox onilliklər və əsrlər ərzində birlikdə yaşamış və bunun nəticəsində qarşılıqlı surətdə zənginləşmişlər. Keçmişdə bizi birləşdirmiş olan nə varsa, hamısı çox qiymətlidir. Buna görə də biz dostluq münasibətlərimizin tarixini minnətdarlıq hissi ilə xatırlayır və bu .gün baş verən hadisələrə böyük ehtiram hissi ilə yanaşırıq. İndi Rusiya Federasiyası ilə müstəqil Azərbaycan Respublikası arasında dostluq münasibətləri, səmimi əməkdaşlıq yaranmışdır. Bu, əməkdaşlıq Rusiya Federasiyasına da, Azərbaycana da fayda gətirir.

Bir daha nəzərə çarpdırmaq istəyirəm ki, bu, münasibətlərimizin tarixi ilə, Rusiya xalqları, rus xalqı ilə Azərbaycan xalqı arasında dostluğun tarixi ilə qabaqcadan müəyyən edilmişdir. Bu dostluq bizim üçün qiymətlidir və indi Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında dövlətlərarası münasibətlər onun əsasında qurulur.

Əməkdaşlığımız həyatın, demək olar, bütün tərəflərini – iqtisadiyyatı da, mədəniyyəti də, elmi də, humanitar sahələri də, yəni sırf insani münasibətləri əhatə edir. Bütün bunlar bizim üçün çox vacibdir, bütün bunlar bizim üçün böyük dəyərə malikdir. Rusiya böyük ölkədir, Rusiya bizim xeyirxah və böyük qonşumuzdur. Odur ki, Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin müstəqil Azərbaycan Respublikasının daha da möhkəmlənməsi, inkişaf etməsi üçün böyük əhəmiyyəti var və zənnimcə, Rusiya Federasiyasının suverenliyinin möhkəmlənməsi ilə bilavasitə bağlıdır.

Buna görə də bu gün biz bu milli bayramı, dostluğumuzun bayramını birlikdə qeyd edirik. Ümidvaram ki, münasibətlərimizin gələcəyi daha möhkəm, daha uğurlu olacaqdır. Zənnimcə, bu, çox xoş təsadüfdür ki, Rusiya Federasiyasının dövlət suverenliyi gününün bayram edilməsi mərasimində Rusiya parlamentinin böyük bir nümayəndə heyəti, Rusiya Federasiyası Dövlət Dumasının sədri Gennadi Seleznyov cənabları, parlamentin deputatları, Federasiya Şurasının üzvü olan deputatlar da iştirak edirlər.

Bəli, bu, Rusiya Dövlət Duması seçildikdən sonra ötən qısa müddətdə Dövlət Duması deputatlarının həqiqətən ilk səfəridir. Biz bunu yüksək qiymətləndiririk. Bu, Rusiya Federasiyası ilə Azərbaycan arasında dövlətlərarası münasibətlərin daha da möhkəmlənməsi və inkişaf etməsi üçün və xalqlarımız və [422-423] ölkələrimiz arasında dostluğun və əməkdaşlığın möhkəmlənməsi üçün böyük əhəmiyyətə malikdir. Mən Rusiya Federasiyasının parlament nümayəndə heyətini Azərbaycanda səmimi salamlayıram. Bu, mənim onlarla ilk görüşümdür və çox xoşdur ki, bu görüş burada keçirilir. Əminəm ki, Rusiya parlamentinin – Dövlət Dumasının, Federasiya Şurasının nümayəndə heyətlərinin Azərbaycana səfəri bizə Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında münasibətlərlə bağlı bir çox məsələlər barəsində fikir mübadiləsi aparmağa imkan verəcəkdir.

Parlamentlərarası əlaqələr ölkələr və dövlətlər arasında bütün sahələrdə münasibətləri möhkəmlətmək üçün çox mühüm rol oynamışdır və oynayır. Mən buna böyük əhəmiyyət vermişəm və verirəm. Rusiya Federasiyasının yeni seçilmiş parlamenti deputatlarının Azərbaycana ilk səfəri əlamətdar hadisədir. Biz Rusiya Federasiyası parlamenti üzvlərinin Azərbaycana rəsmi səfəri çərçivəsində də, Qara Dəniz Hövzəsi Ölkələrinin Parlament Məclisi çərçivəsində də birlikdə işləməliyik. Ümidvaram və əminəm ki, görüşlər, məsələlərin birlikdə müzakirələri, fikir mübadiləsi bizə münasibətlərimizin daha da möhkəmlənməsini təmin etməyə kömək göstərəcək və təbii olaraq, milli məsələlərimizin həllinə imkan yaradacaqdır. Mən hamını bu böyük bayram münasibətilə bir daha təbrik edir, bütün Rusiya xalqlarına, rus xalqına, Rusiya Federasiyasına xoşbəxtlik və tərəqqi arzulayıram. [423-424]

## QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİNİN YEDDİNCİ SESSİYASI İŞTİRAKÇILARININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ NİTQ

*"Gülüstan" Sarayı*

*11 iyun 1996-cı il*

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanın paytaxtı Bakıda Qara Dəniz Hövzəsi Ölkələri İqtisadi Əməkdaşlığı Parlament Məclisi öz işinə başladı. Mən Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlığı Parlament Məclisinin işinə başlamasını alqışlayır və onun fəaliyyətinə uğurlar arzulayıram.

Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlığı Təşkilatı böyük regional təşkilatdır və mövcud olduğu dövrdə ona daxil olan ölkələr arasında iqtisadi əməkdaşlığı təmin edə bilmişdir və indi əməkdaşlığın daha da dərinləşməsində və inkişafında yeni addımlar atır.

Azərbaycan bu təşkilata onun bünövrəsi qoyulduğu vaxtdan daxildir və ümid edir ki, bu təşkilatda iştirak Qara dəniz hövzəsi ölkələri ilə əməkdaşlığın inkişafına kömək edəcək və təbii olaraq, həm bu ölkələrə, həm də Azərbaycana fayda gətirəcəkdir.

Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin növbəti iclasının Azərbaycanda, Bakıda keçirilməsini biz bu təşkilatın respublikamıza, şəhərimizə diqqətinin təzahürü hesab edirik və əminik ki, burada sizə səmərəli iş üçün hər cür şərait və imkan yaradılacaqdır.

Azərbaycan xalqı adından, Bakı şəhərinin sakinləri adından, öz adımdan mən sizi ürəkdən salamlayıram və əminəm ki, respublikamızla, səhhətimizlə tanışlıq xalqımız, ölkəmiz haqqında sizin üçün əlavə məlumat mənbəyi olacaq, sizin ölkələrinizlə Azərbaycan arasında dostluq əlaqələrinin daha da [424-425] möhkəmlənməsinə və inkişaf etməsinə yaxşı imkanlar yaradacaqdır.

Ötən ilin yayında Rumıniya paytaxtında – Buxarestdə Qara Dəniz iqtisadi əməkdaşlığı ölkələrinin dövlət başçılarının görüşü oldu. Hesab edirəm ki, bu görüş Qara dəniz hövzəsinin ölkələri arasında iqtisadi münasibətlərin daha da genişlənməsində öz rolunu oynadı. Biz iqtisadi əməkdaşlığın vaxtı çatmış məsələlərini müzakirə etmək, təşkilatımızın daha da inkişaf tapması yollarını müəyyənləşdirmək imkanına malik olduq. Əminəm ki, biz bu yolla getsək, Qara dəniz hövzəsi ölkələrinin iqtisadi əməkdaşlığında böyük müvəffəqiyyətlər qazana bilərik.

Ölkələrimizin parlamentləri, eləcə də parlament məclisi bizim regional təşkilatın fəaliyyətində mühüm rol oynayırlar. Buna görə də bu gün inamla demək olar ki, parlament məclisi fəal işləyir, ölkələrimizin parlament nümayəndələri dövlət başçılarına nisbətən daha tez-tez görüşür və iqtisadi əməkdaşlığımızın daha da inkişaf etməsi və dərinləşməsi üçün yaxşı qanunvericilik zəmini yaradırlar.

Azərbaycan Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatında öz iştirakına böyük əhəmiyyət verir və bu əməkdaşlığa kömək göstərməyə, bu əməkdaşlıqda fəal rol oynamağa çalışır. Ümidvaram ki, Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin növbəti iclasının Azərbaycanda, Bakı şəhərində keçirilməsi Qara dəniz hövzəsi ölkələrinin parlament üzvlərinə həyatımızla, iqtisadi imkanlarımızla və Azərbaycanla iqtisadi əməkdaşlığın perspektivləri ilə yaxından tanış olmağa imkan verəcəkdir. Odur ki, bu fürsətdən istifadə edərək biz əməkdaşlığımızın ümumən uğurlu olması üçün, bu əməkdaşlıqda Azərbaycanın daha fəal iştirak etməsi üçün öz imkanlarımızı daha inandırıcı şəkildə göstərə bilərik.

İqtisadi əməkdaşlıq ölkələrin, xalqların yaxınlaşması üçün, etimadın, qarşılıqlı anlaşmanın möhkəmlənməsi üçün ən mühüm vasitədir. İndi, dünyada mürəkkəb proseslər getdiyi bir dövrdə bizim hamımız, bütün ölkələrimiz, xalqlarımız bir-birimizlə daha sıx münasibətlər yaratmağa, bütün sahələrdə əməkdaşlığı möhkəmlətməyə ehtiyac duyuruq.

Əminəm ki, bu təşkilat ölkələrimizin iqtisadi əməkdaşlığını təmin edərək, digər bütün sahələrdə ölkələrimiz arasında, bütövlükdə regionumuzda münasibətlərin həm inkişafı, həm də dərinləşməsi üçün çox iş görə bilər. Biz hamımız buna ehtiyac [425-426] duyuruq. Biz hamımız sabitliyə, sülhə ehtiyac duyuruq və iqtisadi əməkdaşlıq buna nail olmaq üçün çox mühüm vasitədir.

Şübhə yoxdur ki, Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlığı Təşkilatı ölkələrinin parlament nümayəndələrinin indiki görüşü iqtisadi münasibətləri inkişaf etdirməklə və dərinləşdirməklə yanaşı, bütün sahələrdə münasibətləri möhkəmlətməyə imkan verəcək, bir-birini daha yaxşı tanımağa imkan verəcək, ölkələrimiz və xalqlarımız arasında sülhü və qarşılıqlı anlaşmanı möhkəmlətməyə imkan verəcəkdir.

Mən sizi bir daha salamlayır, sizə uğurlu iş arzulayıram və regional təşkilatımız çərçivəsində iqtisadi əməkdaşlığın daha da inkişaf etməsi və dərinləşməsi naminə, regionumuzda sülhün daha da möhkəmlənməsi,

əməkdaşlığın daha da inkişaf etməsi naminə, sabitlik naminə, iqtisadi əməkdaşlıq təşkilatımızı təmsil edən ölkələrin və xalqların xoşbəxtliyi və tərəqqisi naminə badə qaldırıram. Sizin sağlığınıza badə qaldırıram! [426-427]

## QARA DƏNİZ HÖVZƏSİ ÖLKƏLƏRİ İQTİSADİ ƏMƏKDAŞLIĞI PARLAMENT MƏCLİSİNİN YEDDİNCİ SESSİYASINDA NİTQ

*12 iyun 1996-cı il*

Hörmətli qonaqlar!
Möhtərəm xanımlar və cənablar!

Sizi – Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin yeddinci sessiyasının iştirakçılarını ürəkdən salamlayır və işinizdə uğurlar arzulayıram.

Qara dəniz iqtisadi əməkdaşlığı üç ildir ki, mövcuddur. Bu dövrdə dövlət, hökumət, parlament başçıları səviyyəsində, Parlament Məclisi səviyyəsində, xarici işlər nazirləri səviyyəsində xeyli iş görülmüşdür. Bizim görülmüş işdən razı qalmağa əsasımız var. Lakin bununla yanaşı, hesab edirəm ki, görülmüş işlər Qara dəniz iqtisadi əməkdaşlığının daha geniş inkişaf tapması üçün, bu çox mühüm regional təşkilatda birləşən ölkələrin öz qarşılarına qoyduqları məqsəd və vəzifələrin yerinə yetirilməsini əməkdaşlığımızın təmin edə bilməsi üçün yalnız başlanğıcdır.

Ötən il yayda Rumıniyanın paytaxtı Buxarestdə biz Qara dəniz iqtisadi əməkdaşlığı çərçivəsində görüşdük, orada dövlət və hökumət başçıları səviyyəsində görüş keçirildi. Biz bir çox məsələləri müzakirə etdik və fəaliyyət proqramını müəyyənləşdirdik. Bu proqram həyata keçirilir. Cari ilin aprelində yenə orada, Buxarestdə xarici işlər nazirlərinin görüşü oldu. Bu gün Bakıda isə Parlament Məclisinin VII sessiyası keçirilir. Bütün bunlar kompleks şəkildə onu göstərir ki, Qara dəniz iqtisadi əməkdaşlığı çərçivəsində əməkdaşlıq üçün birləşən ölkələrimiz bu imkandan istifadə etməyə çalışırlar. Lakin belə düşünürəm ki, biz keçmişdə görülmüş işləri layiqincə qiymətləndirərkən bilməliyik ki, qarşımızda hələ böyük iş durur və bu sessiya əməkdaşlığımızın daha da inkişaf etməsinə və möhkəmlənməsinə öz töhfəsini verməlidir. [427-428]

Ölkələrimizin əməkdaşlığının səmərəli olması üçün bütün istiqamətlərdə, o cümlədən qanunvericilik, qanun yaradıcılığı sahəsində səy göstərmək gərəkdir. Əməkdaşlığın uğurlu olması üçün biz ölkələrimizin əsas prinsiplər haqqında qanunlarının qarşılıqlı surətdə əlaqələndirilməsinə çalışmalı, güclü qanunvericilik əsası yaratmalıyıq.

Bu birinci Parlament Məclisidir və zənnimcə, indiki sessiya da, Parlament Məclisinin məhz həmin məqsədlərə yönəldilmiş gələcək fəaliyyəti də bizə təşkilatımızın daha uğurlu inkişafını təmin etməyə imkan verəcəkdir. Məsələlər də çoxdur, problemlər də. Söhbət iqtisadiyyat, ticarət, texnologiya, ətraf mühitin mühafizəsi, təhsil, humanitar əlaqələr, elm, texnika sahəsində əməkdaşlıqdan gedir. Təbiidir ki, bütün bunlar regionumuzda sülhə, sabitliyə və təhlükəsizliyə nail olmaqdan ötrü əməkdaşlığımızın təmin edilməsi ilə bağlıdır.

Ümidvaram ki, bu sessiya öz diqqətini həmin məsələlər üzərində cəmləşdirəcək və daha müvəffəqiyyətlə irəli getməyimiz üçün yeni addım atacaqdır.

Azərbaycan Respublikası beynəlxalq təşkilatların, o cümlədən də regional təşkilatların fəaliyyətində iştiraka böyük əhəmiyyət verir. Bunu əsas tutaraq biz Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatında öz iştirakımıza da böyük əhəmiyyət veririk və bu əməkdaşlığın hər bir ölkə üçün, o cümlədən Azərbaycan üçün və bütün regionumuz üçün səmərəli olmasından ötrü hər şeyi edəcəyik.

Azərbaycan Respublikası öz xarici siyasətində dünyanın bütün ölkələri ilə ikitərəfli, qarşılıqlı surətdə faydalı əlaqələr və münasibətlər yaradılmasına və onların inkişaf etdirilməsinə doğru istiqamət götürmüşdür. Bu baxımdan biz müstəqilliyimiz illərində xeyli iş görmüşük, məmnunuq ki, Azərbaycan Dünya Birliyində öz layiqli yerini tutmuş, dünyanın bir çox ölkələri ilə sıx əməkdaşlıq və səmimi dostluq münasibətləri yaratmış və bir sıra regional təşkilatların, o cümlədən Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatının işində iştirak edir.

Bu regiona daxil olan ölkələrin təşkilatımız çərçivəsində bir çox ümumi vəzifələri, ümumi məqsədləri var və onların həyata keçirilməsi üçün biz səylərimizi birləşdirməliyik. Biz ötən il yayda Buxarestdə bu barədə danışdıq. Dövlət başçıları bir sıra təkliflər irəli sürdülər və bu təkliflər indi həyata keçirilməkdədir. Hesab edirəm ki, iqtisadi əməkdaşlığımız Xəzəryanı ölkələrin əməkdaşlığı ilə müəyyən dərəcədə əlaqələndirilərsə, [428-429] onda Qara dəniz hövzəsində əməkdaşlıq daha uğurlu ola bilər.

Qara dənizlə Xəzər dənizi bir-birinin yaxınlığında yerləşir. Qara dəniz çox ölkələri əhatə edir, təşkilatımıza on bir ölkə daxildir və onların Qara dənizlə bilavasitə əlaqəsi var. Lakin beş Xəzəryanı ölkə də əməkdaşlıq üçün səmərəli zəmin tapmağa çalışır. Mən bu barədə Buxarestdə danışdım və bu gün demək istəyirəm ki, əgər biz Qara dəniz hövzəsi ölkələrinin əməkdaşlığını Xəzəryanı ölkələrlə qarşılıqlı surətdə əlaqələndirməyə müvəffəq ola bilsək, bu, hamımıza fayda gətirər. Xüsusən də ona görə ki, indi daha konkret nəqliyyat kommunikasiyaları yaratmaq nəzərdə tutulur. Onlar Mərkəzi Asiya, Qafqaz və Qara dəniz ölkələrini birləşdirəcəkdir. Bu yaxınlarda Türkmənistanda nəqliyyat kommunikasiyaları və bu sahədə əməkdaşlıq haqqında Özbəkistan, Türkmənistan,

Azərbaycan və Gürcüstan arasında saziş imzalandı. Bu saziş Transqafqaz magistralı adlandırılan magistral yaradır və o, Mərkəzi Asiyadan yükləri Xəzər dənizi vasitəsilə Qara dəniz limanlarına və oradan Avropaya, Qara dəniz hövzəsinin digər ölkələrinə və əks istiqamətdə daşımaq üçün çox səmərəli işləyə biləcəkdir. Məhz bu, Qara dəniz iqtisadi əməkdaşlığı çərçivəsində əməkdaşlığı Xəzəryanı ölkələrlə əməkdaşlıqla əlaqələndirməyin, zəruriliyinə diqqəti bir daha yönəltmək üçün mənə əsas verir.

Təbii ki, işin gedişində yeni təkliflər irəli sürüləcək, ortaya yeni məsələlər çıxacaqdır. Odur ki sizli-bizli hamımızın vəzifəsi bütün bu təkliflərə çox diqqətlə yanaşmaqdan və çalışmaqdan ibarətdir ki, dəyərli, faydalı nə varsa, hamısı bütün ölkələrin mənafeləri naminə, bütün regionumuzun mənafeləri naminə həyata keçirilə bilsin.

İqtisadi əməkdaşlıq təşkilatımıza daxil olan ölkələrdən bir çoxu hərbi münaqişələrlə qarşılaşmışdır. Bir çox ölkələr daxili həyatla da bağlı çətinliklər çəkir. Təşkilatımıza daxil olan ölkələri təxminən iki hissəyə ayırmaq olar. Birinci qrup ölkələr artıq çoxdan suveren, müstəqil dövlətlərdir və öz yolu ilə çoxdan gedirlər. Digər qrup ölkələr isə Şərqi Avropa ölkələri və keçmişdə Sovet İttifaqına daxil olmuş ölkələrdir. Onlar keçid dövrü mərhələsini, iqtisadiyyatın, sosial-siyasi həyatın yenidən qurulması mərhələsini, milli dövlətçiliyin qurulması, milli müstəqilliyin təşəkkül tapması mərhələsini yaşayırlar. [429-430]

Bu ölkələrin hər iki qrupunun öz daxili həyatına xas olan məsələləri və bizim oxşar, eyni cür vəziyyətimizlə bağlı olan və sıx inteqrasiya, sıx qarşılıqlı fəaliyyət tələb edən məsələlər var. Yeri gəlmişkən, bu gün Rusiya Federasiyasının Dövlət Suverenliyi günüdür, milli bayramıdır. Bu imkandan istifadə edərək, mən Rusiya Federasiyasının nümayəndə heyətini milli bayram – Dövlət Suverenliyi günü münasibətilə ürəkdən təbrik edir, bütün Rusiya xalqlarına səadət və tərəqqi arzulayıram.

Rusiya öz dövlət suverenliyinin ildönümünü qeyd edir. Qara dəniz iqtisadi əməkdaşlığına daxil olan və öz müstəqilliyini Sovet İttifaqının dağılmasından sonra qazanan ölkələr öz milli dövlətçiliyini qurur, problemlərini həll edir və onlar da şanlı tarixi günlərini qeyd edirlər, lakin ən başlıcası budur ki, dövlət müstəqilliyi əldə olunduqdan sonra, dövlət suverenliyi əldə edildikdən sonra qarşımıza çıxan problemlərlə mübarizə aparırlar. Odur ki, çoxdan, bəlkə də lap çoxdan suveren müstəqil dövlətlər kimi yaşayan ölkələrdəki problemlər, təşkilatımıza daxil olan Şərqi Avropa ölkələrindəki problemlər, Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələrdəki problemlər bir çox cəhətdən eynidir, bir-birinə oxşayır. Buna görə də birgə işimiz bizə bu problemləri daha müvəffəqiyyətlə aradan qaldırmağa kömək edə bilər.

Bizdə, Azərbaycanda keçid dövrü, yəni dövlət müstəqilliyi, suverenliyi qazandıqdan sonra yaşadığımız dövr çox mürəkkəb proseslərlə bağlıdır. Bizim üçün ən ağrılı-acılı, ağır problem Ermənistanla Azərbaycan arasında hərbi münaqişədir. Bu münaqişə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini Ermənistanın ilhaq etmək niyyəti ilə əlaqədar 1988-ci ildə yaranmışdır. O vaxtdan başlayan hərbi münaqişə güclənərək Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüzə çevrilmişdir. Bu təcavüz Azərbaycan Respublikasına olduqca böyük ziyan vurmuşdur. Biz çox itkilər vermişik, adamlar həlak olmuşdur. Biz olduqca böyük maddi ziyana, mənəvi zərərə məruz qalmışıq. Ermənistan silahlı birləşmələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişdir. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindən başqa, Dağlıq Qarabağ ətrafında yeddi rayonun ərazisi də işğal olunmuşdur. İşğal edilmiş torpaqlardan – Dağlıq Qarabağın özündən və digər rayonlarından bir milyondan çox Azərbaycan vətəndaşı zorakılıqla di[430-431]dərgin salınmışdır. Onlar son dərəcə ağır şəraitdə, əksəriyyəti də çadırlarda yaşayır.

Öz yaşayış yerlərindən zorakılıqla qovulmuş və artıq dördüncü-beşinci ildir çadırlarda yaşayan Azərbaycan vətəndaşlarının başına gələn belə müsibətlərə dünyanın hər hansı digər ölkəsində çətin rast gəlmək olar. Buna yəqin ki, nə Afrikada, nə Orta və Yaxın Şərqdə, nə Fələstində, nə də Əfqanıstanda, heç yerdə rast gəlmək olmaz.

Deyirlər ki, statistikaya görə dünyada 20 milyon qaçqın var. Azərbaycanda isə respublikanın 7 milyonluq əhalisinin bir milyonu qaçqındır. Bu, Azərbaycan xalqının, Azərbaycan Respublikasının qarşılaşdığı ağır bəladır. İşğal olunmuş torpaqlarda bu ellərin sakinlərinin, azərbaycanlıların bir çox nəsilləri tərəfindən yaradılmış nə varsa hamısı dağıdılmış, talan edilmişdir. Belə vəhşiliyə hər hansı digər yerdə çətin rast gəlmək olar.

Mən yaxşı bilirəm, hətta İkinci dünya müharibəsi, Böyük Vətən müharibəsi dövründə, faşist qoşunları tərəfindən keçmiş Sovet İttifaqının xeyli hissəsi işğal edildiyi dövrdə belə dağıntılar olmamışdır, belə vəhşilik törədilməmişdir. Bu, düşdüyümüz reallıqdır. Bu, elə bir həyəcan harayıdır ki, hamı üçün xəbərdarlıq olmalıdır. Separatçılığın, davakar millətçiliyin, şovinizmin inkişafına yol vermək olmaz, buna yol verilməməlidir. Nəticələr bax burada, gözlərimiz qarşısındadır. Nəticələr nəinki buradadır, həm də keçmiş Sovet İttifaqının bir çox regionunda, xüsusən Qafqazdadır.

Bu barədə biz Rusiya Federasiyası, Gürcüstan, Ermənistan və Azərbaycanın dövlət başçılarının iyunun 3-də Kislovodskda görüşü zamanı danışdıq. Bu, Azərbaycan üçün böyük bəladır və təbii ki, milli dövlətçiliyi möhkəmlətmək üçün göstərdiyimiz səylərə böyük zərər vuran amildir. Azərbaycanın ərazi bütövlüyü, beynəlxalq hüququn müqəddəs prinsipi pozulmuşdur. Bütün bunlara baxmayaraq, biz Azərbaycanda müstəqil demokratik hüquqi, sivilizasiyalı dövlət qururuq. Biz həyatımızın bütün sahələrini demokratikləşdirmək yolu ilə gedirik. Biz iqtisadiyyat sahəsində demokratikləşdirməyə doğru gedirik. Biz Azərbaycanın xüsusiyyətlərini nəzərə alaraq bazar iqtisadiyyatı prinsiplərinin tətbiq olunması yolu ilə gedirik. Biz bütün dünya ölkələri ilə öz

iqtisadi əlaqələrimizi genişləndiririk və iqtisadi əməkdaşlıq üçün, iqtisadi inteqrasiya üçün açırıq. Biz birgə iqtisadi fəaliyyət üçün, milli iqtisadiyyatımızın inkişafı [431-432] naminə Azərbaycana xarici sərmayələr gətirilməsini təşviq edirik. Biz Müstəqil Dövlətlər Birliyinin ölkələri ilə inteqrasiya əlaqələrinə böyük əhəmiyyət veririk. Bu ölkələrlə bizi çoxəsrlik dostluq telləri bağlayır, biz onlarla iqtisadi sahədə sıx bağlıyıq. Biz bu inteqrasiya proseslərini inkişaf etdiririk və etdirəcəyik.

Ermənistanın təcavüzünün respublikamıza olduqca böyük maddi, mənəvi zərər vurmasına baxmayaraq, biz atəşkəs haqqında saziş bağlanmasını lazım bildik və 1994-cü ilin mayında bu saziş əldə edildi. Artıq iki ildir ki, Ermənistanla Azərbaycan arasında hərbi əməliyyatlar aparılmır, atəş açılmır, qan tökülmür, tələfat yoxdur. Bu, respublikamızda ümumən müsbət qarşılanmışdır, çünki Azərbaycan xalqının sülhsevər xarakterini, Azərbaycan dövlətinin sülhsevər siyasətini nümayiş etdirir. Biz regionumuzda sülhə tərəfdarıq, bütün dünyada sülhə tərəfdarıq, ölkəmizdə sülhə tərəfdarıq. Biz müharibə istəmirik. Hesab edirik ki, müharibə heç vaxt xoşbəxtlik, firavanlıq gətirmir və hər bir müharibə sülhlə qurtarır. Amma sonra müharibənin nəticələrini, hər hansı təcavüzün nəticələrini aradan qaldırmaq, müharibənin vurduğu yaraları sağaltmaq üçün çox vəsait, vaxt sərf etmək, çox səy göstərmək lazım gəlir. Biz bunu yaxşı başa düşürük. Buna görə də sülh mövqeyində dururuq. Elə iki il bundan əvvəl atəşkəsə razılaşarkən bunu əsas tutmuşduq və bu gün də əsas tuturuq ki, bu münaqişəni dinc yolla həll etmək olar. Biz bunu istəyirik.

Mən bu gün bir daha bəyan edirəm ki, biz Ermənistanla əbədi ədavət, düşmənçilik vəziyyətində olmağı təsəvvürümüzə belə gətirmirik. Ermənistanla bizim aramızda böyük sərhəd var, qədim zamanlardan bəri xalqlarımız yan-yana, qonşu kimi yaşayırlar. Regionumuzda, Qafqazda və xüsusən Zaqafqaziyada sülh ancaq onunla təmin edilə bilər ki, Qafqazın bütün ölkələri arasında, Zaqafqaziyada isə Gürcüstan, Ermənistan və Azərbaycan arasında mehriban qonşuluq münasibətləri yaradılsın.

Bununla əlaqədar biz Rusiya ilə əməkdaşlığa da böyük əhəmiyyət veririk. Bizim Rusiya ilə böyük ümumi sərhədimiz və dərin tarixi əlaqələrimiz var.

Atəşkəs dövründə biz münaqişənin ədalətlə, dincliklə aradan qaldırılması üçün bütün imkanlardan istifadə etməyə çalışmışıq və bu gün də çalışırıq. Əsasən ATƏT-in Minsk qrupunun imkanlarından və təbii ki, dünyanın iri ölkələrinin – Ru[432-433]siya Federasiyasının, Amerika Birləşmiş Ştatlarının, ATƏT-in Minsk qrupunun digər üzvlərinin, o cümlədən Türkiyə, Almaniya, Fransa və bir çox başqa ölkələrin imkanlarından istifadə olunur. Biz bu istiqamətdə səylərimizi davam etdirəcəyik. Ermənistanla Azərbaycan arasında münaqişənin dincliklə aradan qaldırılması sahəsində Rusiyanın vasitəçilik səylərinin böyük əhəmiyyəti var. Rusiya ATƏT-in Minsk qrupunun həmsədridir və Rusiya bu problemlə fəal məşğul olur. Bu məsələnin ədalətlə, dincliklə nizama salınması üçün Rusiyanın böyük imkanları var.

Biz məqbul, ədalətli şərtlər təklif edirik, bu danışıqlarda özümüzü konstruktiv ruhda aparırıq, sülhə nail olmaq naminə güzəştlərə gedirik. Təkliflərimiz bundan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək, Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədlərinin pozulmazlığını təmin etmək lazımdır. Bundan ötrü Ermənistan silahlı birləşmələrini işğal olunmuş torpaqlardan çıxarmaq, bu torpaqların sakinlərinin öz doğma ocaqlarına, yurd-yuvalarına qayıtması üçün şəraiti təmin etmək gərəkdir, hərçənd orada ev-eşik yoxdur, hər şey dağıdılmışdır, lakin orada doğma torpaq var. Öz torpağından didərgin salınmış hər bir adamın yeganə bir arzusu var – öz torpağına qayıtmaq, əcdadlarının uyuduqları yerə qayıtmaq, əcdadlarının əsrlər boyu yaşadıqları yurda, öz Vətəninə, öz torpağına qayıtmaq. Bu, mühüm şərtdir.

Təbiidir ki, bununla eyni zamanda biz Dağlıq Qarabağdakı erməni əhalisinin, Azərbaycandakı erməni azlığın – orada təxminən yüz min erməni yaşayır, əsrlər boyu Dağlıq Qarabağda yaşamış bütün azərbaycanlılar isə oradan qovulmuşlar, – təhlükəsizliyinin təmin olunmasını, bundan ötrü Dağlıq Qarabağa Azərbaycan dövlətinin tərkibində müasir dünya praktikasında mövcud olan ən yüksək muxtariyyət statusu verilməsini zəruri və mümkün hesab edirik. Təkliflər bax, bundan ibarətdir və onlar həm Ermənistan üçün, həm də Azərbaycan üçün tamamilə məqbuldur. Ərazimizin bir hissəsinin işğal olunmasından istifadə edərək, onların fikrincə, malik olduqları hərbi üstünlükdən istifadə edərək bizə təzyiq göstərilməsinə və Dağlıq Qarabağa zorakılıq yolu ilə dövlət müstəqilliyi verilməsinə, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə biz, əlbəttə, yol verə bilmərik.

Bununla dünyanın heç bir dövləti də razılaşa bilməz. Heç [433-434] bir beynəlxalq təşkilat beynəlxalq hüququn, beynəlxalq hüquqi münasibətlərin və dövlət münasibətlərinin bu cür tapdalanmasına yol verə bilməz. Biz bu istiqamətdə fəaliyyət göstərəcəyik. Mən bu gün bir daha bəyan edirəm ki, biz problemin dincliklə nizama salınmasına tərəfdarıq, hərbi əməliyyatlara yenidən başlanmasına yol verməyəcəyik, istər bu ilin aprelində Lüksemburq görüşü zamanı, istər mayın 17-də Moskvada MDB ölkələri dövlət başçılarının görüşü zamanı, istərsə də iyunun 3-də Kislovodskda Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın dövlət başçılarının görüşü zamanı qəbul olunmuş bəyanatda, bəyannamədə, biz münaqişənin dincliklə aradan qaldırılmasına və atəşkəs rejiminə əməl olunmasına sadiq qaldığımızı bir daha təsdiq etmişik.

Zənnimcə, sizə bu barədə məlumat vermək üçün vaxtınızı aldığıma görə məni başa düşərsiniz. Mən bunu zəruri hesab edirəm. Çünki bunun Qara dəniz hövzəsi regionunda təhlükəsizlik, sabitlik və sülh probleminə bilavasitə dəxli var. Mən bilirəm, siz də bilirsiniz ki, Qara dəniz hövzəsinin digər ölkələri də böyük problemlərlə, münaqişələrlə qarşılaşmışlar. Rusiya kimi böyük bir ölkə çeçen problemi ilə, çeçen separatizmi ilə

qarşılaşmışdır. Artıq il yarımdır ki, müharibə gedir. Təbiidir ki, biz buna da biganə deyilik, məhz ona görə ki, Rusiya Federasiyasının öz ərazi bütövlüyünə nail olmaq haqqı var, Rusiyanın hər hansı formada separatizmin qarşısını almağa haqqı var. Biz də bu cür hüquqa malikik. Zənnimcə, biz hamımız zəmanəmizin davakar, separatçılıq, terrorçuluq kimi iyrənc hallarına və digər zorakılıq hallarına qarşı eyni cür yanaşmalıyıq.

Təkrar edirəm, biz demokratik, hüquqi dövlət quruculuğu yolu ilə gedirik. Biz öz milli dövlətçiliyimizi, dövlət müstəqilliyimizi möhkəmləndiririk və möhkəmləndirəcəyik. Biz bunu əsas tuturuq ki, bu zəmində dünyanın bir çox ölkələri ilə, ən əvvəl, qonşu ölkələrlə, Qara dəniz hövzəsinin ölkələri ilə ən səmərəli əməkdaşlıq ola bilər və dostluq münasibətləri yaradıla bilər. Dostluq, mehriban qonşuluq, bir-birinin daxili işlərinə qarışmamaq, insan hüquqlarına və xalqların hüquqlarına hörmət, hər bir dövlətin suverenliyinə hörmət prinsipləri zəminində.

Bizdə, Azərbaycanda demokratikləşmə prosesləri mürəkkəb daxili siyasi şəraitdə gedir. Burada təmsil edilmiş bir çox ölkələrdən fərqli olaraq, Azərbaycanda biz Ermənistan tərəfindən [434-435] hərbi münaqişə, hərbi təcavüz ilə yanaşı, mürəkkəb daxili siyasi problemlərlə də qarşılaşmışıq. Ölkəmizdə dövlət müstəqilliyi əldə edildikdən sonra bir çox illər sabitlik olmayıbdır. Həmin dövrdə Azərbaycanda hakimiyyət üç dəfə dəyişmişdir. Təəssüf ki, bundan ötrü silahlı dəstələrdən, qanunsuz silahlı birləşmələrdən istifadə edilmişdir. Üç il bundan əvvəl məhz bu günlərdə, 1993-cü ilin iyun ayında Azərbaycanda vətəndaş müharibəsi başlandı, hakimiyyət böhranı yarandı və Azərbaycan daxili qarşıdurmanın böyük fəlakəti qarşısında, vətəndaş müharibəsi ilə bağlı fəlakət qarşısında durdu.

Biz bunların hamısını aradan qaldıra, hadisələrin daha da kəskinləşməsinin qarşısını ala bildik. Lakin həmin qanunsuz silahlı birləşmələr və özlərini dövlət xadimi, siyasi xadim hesab edən, öz məqsədlərinə çatmaq, hakimiyyətə gəlmək üçün qanunsuz silahlı birləşmələrə arxalanan xadimlər öz psixologiyası, öz mənəviyyatı ilə yaşamaqda davam edirdilər. Ona görə də 1994-cü ilin oktyabrında biz silahlı dövlət çevrilişi cəhdi ilə qarşılaşdıq. Bütün xalqın dəstəyi, bütün xalqın gücü sayəsində bu cəhdin qarşısını almaq mümkün oldu. 1994-cü ilin oktyabrında prezidentin çağırışı ilə Prezident sarayının qarşısına, ertəsi gün isə Bakının Azadlıq meydanına toplaşmış bir milyon insanın, bütün xalqın hakimiyyəti dəstəkləməsi bu qarşıdurmanın daha da dərinləşməsinə imkan vermədi və biz silahlı birləşmələri zərərsizləşdirə bildik.

Amma eyni zamanda ətalət özünü göstərirdi, bir də təkrar edirəm, təxminən 1989-cu və 1990-cı illərdən başlayaraq Azərbaycanda yaranmış şərait, təəssüflər olsun ki, özünü göstərirdi. 1995-ci ildə biz yenidən iki dəfə XTPD-nin – Daxili İşlər Nazirliyinin tabeliyindən çıxmış bu silahlı dəstənin, şübhəsiz ki, həm respublika daxilində, həm də onun hüdudlarından kənarda olan bir çox müxalifətçi qüvvələrlə birləşərək hakimiyyəti silahlı yolla devirmək cəhdi ilə qarşılaşdıq. Biz bunun da qarşısını ala bildik. Terrorçuluq əməlləri törətmək cəhdləri də olubdur.

Bütün bunlar son illərdəki həyatımızın reallığıdır. Eyni zamanda bunların hamısı ölkəmizdə gedən proseslərə mənfi təsir göstərir və şübhəsiz ki, demokratik dəyişiklikləri həyata keçirməyimizə mane olurdu.

Amma bütün bunlara baxmayaraq, biz seçdiyimiz yolla, demokratiya, demokratik hüquqi dövlət quruculuğu yolu ilə inamla gedirik. Bu yolla gedərək keçən ilin noyabrında [435-436] ümumxalq səsverməsi, referendum yolu ilə müstəqil Azərbaycan Respublikasının ilk konstitusiyasını qəbul etmişik və onu demokratiya prinsiplərini, milli dövlətçilik prinsiplərini, insan hüquqları prinsiplərini, dünyanın bir çox başqa ölkələrində olan demokratik quruculuq təcrübəsini əks etdirən konstitusiya sayırıq.

Elə o zaman, keçən ilin noyabrında demokratik seçkilər əsasında müstəqil Azərbaycan Respublikasının ilk parlamenti seçildi. İndi biz konstitusiya müddəalarının əməli surətdə həyata keçirilməsi mərhələsindəyik, parlamentimizin fəaliyyətini genişləndiririk. Biz çoxlu qanunlar qəbul etməliyik. İslahatlar proqramının, xüsusən özəlləşdirmənin həyata keçirilməsində, aqrar sektorda islahatların aparılmasında, torpaq islahatında və sairədə gecikmişik.

Ancaq hesab etmirəm ki, biz çox geri qalmışıq, yaxud çox şey itirmişik. Biz başqa ölkələrin, xüsusən MDB-yə daxil olan ölkələrin təcrübəsini izləmişik, çünki biz eyni problemlərlə qarşılaşırıq. Bu ölkələrdə müsbət nə varsa hamısını götürməyə, onların buraxdığı səhvlərə isə yol verməməyə çalışırıq.

Şübhəsiz ki, bütün bu məsələlərdə biz zəngin ənənələri olan demokratik ölkələrin nailiyyətlərini əsas götürürük. Biz bazar iqtisadiyyatı prinsiplərini həyata keçirərkən özlərinin indiki iqtisadi sistemini və bazar iqtisadiyyatı münasibətlərini nəinki onilliklər, hətta əsrlər ərzində formalaşdırmış ölkələrin təcrübəsindən çox şey götürürük. Biz Qərb ölkələrinin təcrübəsindən geniş istifadə edirik, lakin Azərbaycanın xüsusiyyətini nəzərə alırıq, gələcəkdə də həmin zəngin təcrübədən istifadə edəcəyik.

Mən sizə Azərbaycanın həyatının bəzi cəhətləri haqqında məlumat verdim. Ancaq dövlət başçısı kimi hər şeydən öncə belə hesab edirəm ki, bir-birimizin qarşılaşdığı problemləri bilərək, bu imkandan daha yaxşı əməkdaşlığa, daha yaxşı qarşılıqlı anlaşmaya, qarşılıqlı fəaliyyətə nail olmaq üçün istifadə etmək bundan heç də az zəruri deyildir. Bir daha demək istəyirəm ki, bizim problemlərimiz – istər hərbi münaqişə ilə, istərsə də daxili siyasi vəziyyətlə bağlı olan problemlərimiz bu və ya başqa dərəcədə regionumuzun bir çox digər ölkələri üçün də xarakterikdir.

Hazırda Azərbaycanda sabit ictimai-siyasi vəziyyət yaranıbdır. İqtisadi əlaqələri daha da inkişaf etdirmək

üçün, iqtisadi inteqrasiya, birgə layihələri həyata keçirmək üçün hər cür [436-437] şərait və imkan var. Siz bilirsiniz ki, biz dünyanın iri neft şirkətləri ilə – həm Qərb neft şirkətləri ilə, həm də Rusiya neft şirkəti, Türkiyə neft şirkəti ilə neft yataqlarının istismarına dair birgə layihələrin həyata keçirilməsinə başlamışıq. Hesab edirəm ki, bu, bizim iqtisadiyyatımızın iqtisadi əməkdaşlıq üçün açıq olmasını səciyyələndirən misaldır. Ölkəmizdə sabitlik təmin olunubdur, konstitusiya var, birgə iqtisadi fəaliyyətə təminat verən bütün qanunlar var, birgə layihələrin həyata keçirilməsi üçün şərait var. Biz bunu Qara dəniz iqtisadi əməkdaşlığına daxil olan ölkələrlə də, dünyanın bütün başqa ölkələri ilə də edə bilərdik.

Hesab edirəm ki, Qara dəniz hövzəsi ölkələri çərçivəsində əməkdaşlıq ölkələrimiz, dövlətlərimiz və xalqlarımız arasında dostluq münasibətlərinin bundan sonra da inkişaf etməsi və möhkəmlənməsi üçün gözəl imkandır. Xalqlarımız arasında çox qədim əlaqələr – həm iqtisadi, həm mədəni, həm də insani əlaqələr var. Bu əlaqələr bizi həmişə zənginləşdirib və qarşılıqlı fayda gətiribdir. Biz bu ənənələrə qayğı ilə yanaşmalı və onlardan müasir həyatımız üçün, gələcək nəsillərin həyatının təməlini qoymaq üçün maksimum səmərəli istifadə etməyə çalışmalıyıq.

Ona görə də mən bu gözəl imkandan istifadə edərək, sizi dostluğa, əməkdaşlığa, geniş qarşılıqlı fəaliyyətə dəvət edirəm. Azərbaycan açıq ölkədir. Azərbaycan sülh istəyir və siz Azərbaycanın timsalında həmişə dostluq, əməkdaşlıq üçün, gələcək əlaqələr üçün etibarlı tərəfdaş tapa bilərsiniz. Hörmətli dostlar, hamınıza işinizdə uğurlar arzulayıram. Təşkilatımıza daxil olan bütün ölkələrə və xalqlara uğurlar və tərəqqi diləyirəm, regionumuza sülh, təhlükəsizlik və sabitlik arzulayıram.

Diqqətinizə görə sağ olun. [437-438]

## ABŞ KONQRESİNDƏ "PORTER ƏLAVƏSİ"NİN MÜZAKİRƏSİ İLƏ ƏLAQƏDAR BƏYANAT

*Prezident sarayı*

*13 iyun 1996-cı il*

Cənab səfir, bu gün mən sizi bir mühüm məsələ münasibətilə dəvət etmişəm. Bu məsələ həm Azərbaycan Respublikası üçün çox mühüm əhəmiyyətə malikdir, həm də Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında olan əlaqələr üçün çox mühüm əhəmiyyət kəsb edir.

Məlumdur ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə edəndən indiyə qədər öz xarici siyasətində Amerika Birləşmiş Ştatları ilə əlaqələrin daim inkişaf etməsinə çalışıbdır və hesab edirəm ki, bu sahədə yaxşı nailiyyətlər əldə olunubdur. Biz Amerika Birləşmiş Ştatları, xüsusən də onun hökuməti tərəfindən daim belə səylərin şahidiyik və Azərbaycanda bunu qiymətləndiririk.

Amma eyni zamanda məlumdur ki, 1992-ci ildə Amerika Konqresi tərəfindən Azərbaycana qarşı ədalətsiz bir qərar qəbul olunubdur. "Azadlığı dəstəkləmə aktı"nın 907-ci maddəsinə Azərbaycana kömək etməmək barədə bir əlavə edilibdir. Hesab edirəm ki, bu əlavə qəbul edilən vaxtda da Azərbaycana qarşı ədalətsizlik olubdur və ondan sonra keçən dövrdən indiyə qədər də ədalətsizlik kimi qalır.

Bu qərarın qəbul olunmasının əsasını belə izah edirlər ki, guya Azərbaycan Ermənistanı blokadaya götürübdür və ona görə də Azərbaycana qarşı bu cür ayrı-seçkilik tədbiri görülür. Beləliklə, dörd ildir ki, Azərbaycan keçmiş Sovetlər İttifaqına daxil olmuş respublikalar arasında yeganə respublikadır ki, o, "Azadlığı dəstəkləmə aktı" çərçivəsində Amerika tərəfindən nəzərdə tutulmuş köməkdən məhrum olubdur.

Biz dəfələrlə – həm sizinlə, həm də Amerika Birləşmiş Ştatlarının dövlət nümayəndələri ilə görüşlərimizdə bildirmişik ki, Azərbaycana qarşı qəbul olunmuş belə bir qərarın heç bir əsası yoxdur, çünki Azərbaycan Ermənistanı blokadaya alma[438-439]yıbdır. Real vəziyyət ondan ibarətdir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir, işğal olunmuş torpaqlardan bir milyondan artıq vətəndaş qaçqın düşübdür. Xüsusən onu qeyd etmək istəyirəm ki, bu işğal nəticəsində Azərbaycanı Ermənistana bağlayan, Naxçıvana, Dağlıq Qarabağa bağlayan dəmir yolu xətti işğal altındadır. Şübhəsiz ki, belə bir şəraitdə Azərbaycanın Ermənistanı blokadaya alması haqqında söhbət ola bilməz. Xüsusən 1992-ci ildən, qərar qəbul olunandan sonra keçən vaxt və bu dövrdə gedən proseslər də onu göstərir ki, Azərbaycan özü böyük bir təcavüz altındadır. Bilirsiniz ki, Azərbaycan özü blokadadadır – şimal tərəfdə dəmir yollarımız və dəniz yolumuz Rusiya tərəfindən kəsilibdir.

Ona görə də biz dəfələrlə Amerika Birləşmiş Ştatlarının dövlət orqanları qarşısında məsələ qaldırmışıq ki, Azərbaycana qarşı olan bu ədalətsiz qərar ləğv edilsin.

Bildiyiniz kimi, son illər Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında olan əlaqələr çox müsbət istiqamətdə, çox intensiv inkişaf edir. Azərbaycan dövləti olaraq biz Amerikanı özümüzə dost ölkə və dəyərli tərəfdaş kimi qəbul etmişik, xüsusən iqtisadi sahədə çox geniş əməkdaşlığa imkan yaratmışıq. Bizim neft sərvətlərimizdən istifadə olunması üçün 1994-cü ilin sentyabrında, 1995-ci ilin noyabrında imzalanmış neft müqavilələrində ABŞ-ın böyük neft şirkətlərinin iştirak etməsi Amerika Birləşmiş Ştatları ilə çox sıx əlaqələr yaratdığımızı sübut edir.

Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması sahəsində də Amerika Birləşmiş Ştatlarının mühüm rol oynamasını biz daim qeyd edirik və ABŞ-ın bu gün də, gələcəkdə də bu prosesdə mühüm rol oynamasını istəyirik. Məlumdur ki, Ermənistan ilə Azərbaycan arasındakı bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün addımlar atmışıq, iki il bundan öncə atəşkəs haqqında saziş əldə etmişik. Yəni özümüzün sülhsevər olduğumuzu və Ermənistanla sülh şəraitində yaşamaq istədiyimizi dünyaya bir daha nümayiş etdirmişik. Hesab edirəm ki, bu müddətdə bütün dünyaya sübut etmişik ki, Azərbaycan sülhsevər dövlətdir, müharibə istəmir, Ermənistanla münaqişənin sülh yolu ilə aradan qaldırılmasının tərəfdarıdır və Azərbaycan bu sahədə çox ciddi addımlar atır. Belə olan halda Amerika Birləşmiş [439-440] Ştatları Konqresinin Azərbaycana qarşı qəbul etdiyi qərarın indiyə qədər qüvvədə qalması, şübhəsiz ki, bizdə və ictimaiyyətimizdə çox böyük narazılıq törədir.

Keçmiş Sovetlər İttifaqına mənsub olan, indi keçid dövrünü yaşayan ölkələrə bu illərdə Amerika Birləşmiş Ştatlarından maddi və maliyyə yardımları edilir, o cümlədən Ermənistana çox güclü maddi və maliyyə yardımları göstərilir. Amma Azərbaycan bütün bu maddi yardımlardan məhrumdur. Bizə qarşı olan bu ədalətsizliyin heç bir əsası yoxdur və mən bunu dəfələrlə bildirmişəm. Xüsusən son illərdə ABŞ ilə Azərbaycan arasında sıx əməkdaşlıq, dostluq əlaqələri mövcud olduğu halda belə bir ədalətsizliyin qalması çox böyük təəccüb doğurur.

Mən bu barədə 1994-cü ilin sentyabrında və 1995-ci ilin oktyabrında Nyu-York şəhərində Amerika

prezidenti cənab Bill Klintonla görüşlərim zamanı onunla söhbət etmişəm və öz fikirlərimi cənab prezidentə çatdırmışam. Bizim o söhbətlərimizdə cənab Bill Klinton mənə bildirib ki, onun özü də belə bir qərarın qəbul edilməsinin əleyhinə olubdur və bu gün də həmin qərarın əleyhinədir. Ancaq təəssüf ki, belə bir qərarın ləğv olunması üçün lazımi addımlar atılmayıb, lazımi tədbirlər görülməyibdir. Keçən il konqresmen cənab Uilson bu maddənin modifikasiya edilməsi ilə əlaqədar təklif irəli sürmüşdü və bu təklif qəbul olunmuşdur. Biz bu kiçik modifikasiyanı da özümüz üçün yeni bir nailiyyət hesab etdik və mən bununla əlaqədar olaraq cənab Bill Klintona, nümayəndələr palatasının sədri cənab Qinqriçə, konqresmen Uilsona və başqalarına təşəkkür, minnətdarlıq məktubları göndərdim. Təəssüf ki, bu modifikasiya modifikasiya kimi qaldı, ondan heç bir əməli nəticə meydana gəlmədi. Biz gözləyirdik ki, əgər 907-ci əlavənin tamamilə ləğvi mümkün deyilsə, bəlkə yeni bir addım atılacaq ki, bu modifikasiyadan da bir az, daha geniş qərar qəbul olunsun.

Ancaq bunun əvəzinə konqresmen cənab Porterin əlavəsi meydana çıxıbdır. Porterin əlavəsi Azərbaycana kömək əvəzinə, ona yeni bir zərbə vurur. Azərbaycanın ərazi bütövlüyünü təhlükə altında qoyur, Azərbaycana nəinki xeyir gətirmir, əksinə, çox zərər verir.

"Porter əlavəsi" meydana çıxan kimi biz bu barədə sizə də müraciət etdik, Azərbaycanın Vaşinqtondakı səfərinə göstəriş verdik ki, lazımi dairələrlə danışıqlar aparsın ki, "Porter əla[440-441]vəsi"nin qəbul olunmasının qarşısı alınsın. Təəssüf ki, buna nail ola bilməmişik. Mən bilmirəm, bizə cürbəcür məlumatlar gəlir. Ancaq bu gün aldığım məlumatdan görünür ki, "Porter əlavəsi" Konqresin nümayəndələr palatasında artıq qəbul olunubdur. Bu, bizi çox narahat edir. İctimaiyyətimizdə də çox böyük narahatçılıq var. Şübhəsiz ki, Amerika Birləşmiş Ştatları ilə bizim dostluq əlaqələrimiz olduğu halda bu əlavənin qəbul edilməsini başa düşmək mümkün deyildir. Bəlkə də mən müəyyən qədər başa düşürəm, amma ictimaiyyət, bizim xalq bunu başa düşə bilmir.

Biz bilirik ki, Amerika Birləşmiş Ştatlarında parlament, Konqres prezidentdən və ya hökumətdən asılı deyil, onların buna təsir etmək gücü o qədər böyük deyildir, Konqres bəzən belə qərarlar qəbul edir. Amma mən sizə açıq deyirəm, bizim ictimaiyyət Amerika Birləşmiş Ştatlarını böyük bir dövlət kimi qəbul edir. Adamlara izah etmək mümkün deyil ki, prezident istəmir, amma kimsə qəbul edir. Ancaq qəbul edilən qərar Azərbaycana zərbə vurur, Azərbaycan-Amerika əlaqələrinə zərbə vurur, Azərbaycanda bir məsəl var: qaş düzəltdiyi yerdə vurdu gözünü də çıxartdı. Bu, təxminən belə olubdur. Biz çalışmışıq ki, əlavəni ləğv etdirək, bundan canımızı qurtaraq, əvəzində vəziyyəti daha da gərginləşdiriblər.

Yenə də qeyd edirəm, əgər qəbul olunan hər bir qərar, yaxud da ki, tədbir, – kim tərəfindən qəbul edilməsindən asılı olmayaraq, – ədalətli olsa, ona etiraz etmək mümkün deyildir. Ancaq ədalətsiz qərarla barışmaq olmaz. Ona görə mən bu gün sizə və sizin vasitənizlə Amerika Birləşmiş Ştatları dövlətinə bu barədə Azərbaycanın narazılığını bildirirəm. Bildirmək istəyirəm ki, biz bu cür əlavə ilə heç vaxt razı ola bilmərik. O, Azərbaycanın zərərinə olan bir əlavədir və müəyyən qədər, Azərbaycanın ərazi bütövlüyünün şübhə altına alınmasını əks etdirir. Ümumiyyətlə, bu, Azərbaycan-Ermənistan münaqişəsinin, Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə həll edilməsinə ciddi mane olan haldır.

Konqresmen cənab Porter kimə xidmət göstərir, nə üçün bu işləri edir, – mən bunu araşdıra bilmirəm, bu, mənim işim deyil. Ancaq güman edirəm ki, ABŞ Konqresi elə bir hörmətli, mötəbər orqandır ki, gərək ədalətsiz addımlara yol verməsin. Bir də qeyd edirəm, bu, bizim dövlət dairələri ilə yanaşı, ictimaiyyətdə də böyük narazılıq törədibdir. Rica edirəm ki, mənim bu sözlərimi öz dövlətinizə, dövlət başçınıza, rəhbərlə[441-442]rinizə, o cümlədən hörmətli prezident cənab Bill Klintona çatdırasınız. Biz belə bir əlavə ilə razılaşa bilmərik. Mənə deyirlər ki, nümayəndələr palatasından sonra bu əlavəni Senat da qəbul edəcəkdir. Mən xahiş edirəm ki, Senat vasitəsilə, yaxud başqa vasitələrlə, belə bir əlavənin qəbul olunmasının qarşısı alınsın. Mən bu sözləri sizə çatdırmaq üçün sizi dəvət etmişəm.

* * *

907-ci maddəyə olan düzəlişə baxmayaraq, indiyədək Azərbaycana göstərdiyi yardıma görə ABŞ-a təşəkkür edirəm. Ancaq şəxsən mənim siyasətimin və ümumiyyətlə bizim siyasətimizin mənası təkcə ondan ibarət deyil ki, 907-ci maddəyə edilən düzəlişi aradan qaldıraq ki, bizə yardımçı olasınız. Biz indiyə qədər bu yardımsız yaşamışıq, bundan sonra da yaşayarıq. Ermənistana bizə edilən yardımdan on dəfə artıq yardım göstərmisiniz. Biz buna da dözürük. Amma bizi narahat edən ədalətsizlikdir. Mənim də etirazım Azərbaycana qarşı olan ayrı-seçkiliklə əlaqədardır. Biz buna dözə bilmirik. Eybi yoxdur, yardım olmasa da yaşayacağıq.

Son vaxtlar Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış dostluq əlaqələri və gözəl iqtisadi əməkdaşlıq onu göstərir ki, bizə qarşı belə ədalətsizlik, ayrı-seçkilik etmək olmaz. Bu məsələdə şəxsən sizin mövqeyiniz bizə məlumdur. Mən onu da qiymətləndirirəm ki, siz bu barədə obyektiv mövqedəsiniz və bizimlə həmfikirsiniz. Bu, bizə təskinlik verir. Ancaq məsələnin həll olunmaması bizi narahat edir.

ABŞ-ın indiyə qədər mövcud olan dövlət quruluşunun demokratiyanın qorunub saxlanmasındakı rolunu da qiymətləndiririk. Şübhəsiz ki, Amerikanın dövlət quruluşu onun öz işidir, biz bu barədə heç nə deyə bilmərik. Ancaq əgər bu dövlət quruluşu, siz dediyiniz kimi, xarici siyasətdə problemlər yaradırsa, belə ədalətsiz qərarlar

qəbul edirsə, şübhəsiz ki, bunu da normal hesab etmək olmaz. Amma yenə də qeyd edirəm ki, bu, bizim işimiz deyil, sizin işinizdir. Biz sadəcə olaraq istəyirik ki, dövlət quruluşunun necəliyindən asılı olmayaraq, Azərbaycana qarşı ədalətsizlik olmasın. Biz Ermənistan ilə Azərbaycan arasında olan münaqişənin aradan qaldırılması üçün çox işlər görmüşük. Bu məsələnin həllində ABŞ-ın da fəal rol oynaması üçün istək və arzularımızı da çox bildirmişik. Ona görə də [442-443] bunlar hamısı 907-ci maddəyə Azərbaycan barədə edilən düzəlişin indi aradan götürülməsinə əsas verir. Əgər bu edilmirsə, demək, indi də ədalətsizlikdir. Əgər bu edilmirsə, qoy heç olmasa ondan da pis olmasın. Amma bir də təkrar edirəm, cənab Porterin əlavəsi vəziyyəti müəyyən qədər yüngülləşdirmək əvəzinə, bizim üçün ağırlaşdırır. Şübhə etmirəm, tam əminəm ki, siz bundan sonra da bu sahədə bizimlə əməkdaşlıq edəcək, həmin problemimizin həll olunması üçün çalışacaqsınız. Ümidvar olduğumu bildirmək istəyirəm ki, sizin dediyiniz bundan sonrakı mərhələlərdə "Porter əlavəsi"nin qəbul edilməsinin qarşısı alınacaqdır. Mən bu barədə bu gün cənab Bill Klintona, cənab Qinqriçə və cənab Albert Qora məktub da göndərmişəm. Arzu edirəm ki, sizinlə ümumi əməkdaşlığımız və səylərimiz nəticəsində bu əlavənin qəbul edilməsinin qarşısı alınsın və Azərbaycana yeni bir zərbə vurulmasın. İnanıram ki, bunu birlikdə edə bilərik. [443-444]

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ MİLLİ BAYRAMI – ÜLYAHƏZRƏT KRALİÇA II YELİZAVETANIN AD GÜNÜ MÜNASİBƏTİLƏ İNGİLTƏRƏNİN BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*"Hyatt-Recensi-Naxçıvan" mehmanxanası*

*20 iyun 1996-cı il*

Hörmətli səfir, hörmətli xanımlar və cənablar!

Mən sizi Böyük Britaniya Krallığının milli bayramı – kraliça Yelizayetanın anadan olması günü münasibətilə təbrik edir, Böyük Britaniya Krallığının bütün xalqlarına səadət, xoşbəxtlik arzulayıram.

Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında əlaqələr son illər sürətlə inkişaf edir və artıq öz konkret bəhrələrini verir. Xüsusən iqtisadi əməkdaşlığımız sahəsində çox əhəmiyyətli nəticələr əldə olunubdur. Bildiyiniz kimi, Böyük Britaniyanın "Britiş Petroleum" şirkəti bir neçə ildir ki, Azərbaycanda bizimlə əməkdaşlıq edir, bu əməkdaşlıq nəticəsində 1994-cü ildə və bu il iyunun 4-də imzalanmış neft müqavilələrinin çox böyük iştirakçısıdır.

Bununla yanaşı, Azərbaycanda müştərək iş görməyə Böyük Britaniyanın bir çox digər şirkətləri də maraq göstəriblər. Məhz bunların nəticəsidir ki, indiyədək Azərbaycanda Böyük Britaniyanın 45-dən çox şirkəti və firması öz ofisini açıb və respublikamızla müştərək iş görürlər.

İyunun 4-də Bakıda açılmış beynəlxalq neft-qaz sərgisində Böyük Britaniya şirkətləri geniş təmsil olunmuşdular. Onların təqdim etdikləri eksponatlarla, Azərbaycanda gördükləri işlərlə tanış olarkən bir daha belə nəticəyə gəlmək olar ki, bizim əməkdaşlığımız müvəffəqiyyətlə irəliləyir.

1994-cü ilin fevralında Böyük Britaniya hökuməti ilə Azərbaycan Respublikası arasında bir çox sazişlər imzalanmışdır. [444-445] Bu gün məmnuniyyətlə deyə bilərik ki, həmin sazişlər əməli surətdə həyata keçirilir və müsbət nəticələrini verir. İyunun 4-də Bakıda keçirilmiş beynəlxalq neft-qaz sərgisinin iştirakçısı, Böyük Britaniyanın energetika və sənaye naziri cənab Timoti Eqqar ilə apardığımız danışıqlar və fikir mübadiləsi onu göstərdi ki, əməkdaşlığımız doğrudan da yüksək səviyyədədir və onu bundan sonra da genişləndirmək üçün yaxşı imkanlar var.

Böyük Britaniya ilə Azərbaycan arasında olan əməkdaşlıq ölkəmizin problemlərinin beynəlxalq aləmdə həll edilməsi üçün də faydalıdır. Bu baxımdan aprel ayında Lüksemburqda Azərbaycan ilə Avropa Birliyi arasında əməkdaşlıq haqqında saziş imzalanarkən Böyük Britaniyanın xarici işlər naziri cənab Rifkindlə xüsusi görüşümüz zamanı bu əlaqələri bir daha təhlil və müzakirə etdik, bir çox məsələlərdə eyni mövqedə, eyni fikirdə olduğumuzu bəyan etdik.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində ölkəmizin siyasəti ilə və beynəlxalq aləmdə gördüyümüz işlərlə, tədbirlərlə əlaqədar Böyük Britaniyanın rəsmi dairələn ilə daim məsləhətləşirik və bu, həmin məsələlərin həllində bizə kömək edir. Bunlar hamısı bir daha göstərir ki, ölkələrimiz arasında əlaqələr sürətlə inkişaf edir. Bu əlaqələrin inkişafı, xüsusən Böyük Britaniyanın iqtisadi imkanlarının Azərbaycanda təmsil olunması üçün biz öz tərəfimizdən səylərimizi bundan sonra da davam etdirəcəyik. Biz bu dostluq, əməkdaşlıq əlaqələrindən razıyıq və onların gələcək perspektivlərinə də çox nikbin baxırıq.

Milli bayram münasibətilə sizi bir daha təbrik edir, səadət, xoşbəxtlik, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. [445-446]

## GÖRKƏMLİ ALİM VƏ DÖVLƏT XADİMİ VƏLİ YUSİF OĞLU AXUNDOVUN 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY YIĞINCAĞINDA NİTQ

*Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin iclas salonu*

*21 iyun 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi – Vəli Axundovun xatirəsinə hörmət edib bu yubiley mərasiminə toplaşanları səmimi qəlbdən salamlayıram və sizinlə bir daha görüşümdən məmnun olduğumu bildirirəm. Vəli Axundovun 80 illik yubileyinin keçirilməsi haqqında sərəncam qəbul edərkən mən iki məqsədi nəzərə almışam. Birincisi, xalqımızın, millətimizin, respublikamızın, dövlətimizin tarixinə daimi hörmət və ehtiramın zəruriliyini, bununla yanaşı olaraq Vəli Axundovun xidmətlərinə və onun şəxsiyyətinə olan hörmət və ehtiramımı nəzərə almışam.

Görkəmli şəxsiyyətlərin yubileylərinin keçirilməsi demək olar ki, dünyanın hər yerində ənənəvi xarakter daşıyır. Respublikamızda da bu ənənə uzun illərdir ki, yaşayır və mən bunu gözəl ənənələrdən biri hesab edirəm. Ancaq təcrübədə belə hallar müşahidə olunur ki, demək olar, çox vaxt, adətən mədəniyyət, elm, ədəbiyyat xadimlərinin yubileyləri qeyd edilir, amma ictimai-siyasi, dövlət xadimlərinin yubileyləri çox nadir hallarda qeyd olunur, yaxud da bunlar unudulur. Hesab edirəm ki, həyat öz qanun-qaydalarını get-gedə özü tənzimləyir, nizama salır. Amma eyni zamanda, bu adət-ənənələri, qanun-qaydaları nizamlamaq, tənzimləmək üçün təşəbbüslər göstərmək lazımdır.

Şübhəsiz ki, hər bir xalqın şairi, yazıçısı, müğənnisi, bəstəkarı, rəssamı, incəsənət xadimi onun iftixarıdır. Xalq onları qiymətləndirir və qiymətləndirməlidir. Ona görə də onların yubileyləri keçirilir. Hesab edirəm ki, biz bu ənənəni genişləndirməli, inkişaf etdirməliyik. Amma tarixdə, cəmiyyətdə insan[446-447]ların bir qismi həyatını, fəaliyyətini dövlət işinə, siyasətə, xalqın bu gününün, gələcəyinin qurulmasına, yaradılmasına həsr edir. Təəssüf ki, onların əksəriyyəti ya vəzifədən gedəndən sonra unudulur, yaxud da həyatdan köçəndən sonra tamamilə unudulur. Bu, normal hal deyildir. Ona görə də Vəli Axundovun 80 illiyi haqqında sərəncam qəbul edərkən şəxsən mən bu cəhətə üstünlük vermişdim.

Vəli Axundov görkəmli alimdir, respublikada səhiyyə işinin böyük təşkilatçılarından biri olubdur. Amma onun xalq qarşısındakı xidmətlərini ölçüyə götürsək, respublikaya rəhbərlik etdiyi zaman gördüyü işlər və xalqa etdiyi xidmətlər səhiyyə sahəsindəki xidmətlərindən qat-qat üstündür. Məhz buna görə də mən belə bir yubileyin keçirilməsi haqqında sərəncam qəbul etmişəm.

Sizin qarşınızda mən həmişə səmimi olmuşam. Bu gün də səmimi danışıram. Təəssüflər olsun ki, belə bir yubileyin keçirilməsi haqqında mən heç bir təşkilatdan, şəxsən təşəbbüs almamışam. Bu gün bu salona ziyalılarımız, Vəli Axundovu tanıyanlar, ona hörmət edənlər, onun qohum-əqrəbası toplaşıblar. Amma heç kim təşəbbüs göstərmədi ki, Vəli Axundovun yubileyi yaxınlaşır, onu qeyd etmək lazımdır. Yada salmadılar. Mən çox düşündüm. Uzun illər siyasi fəaliyyətim zamanı mən belə adamlarla rastlaşmışam. Hər dəfə də belə insanların bir-birinə, xalqımızın dəyərli insanlarının xatirəsinə belə biganəliyi məni narahat edibdir və bu gün də narahat edir. Ona görə də mən bu addımımla istəyirəm xalqımızı, millətimizi, cəmiyyətimizi tariximizə, insanlara lazımi münasibət göstərmək istiqamətinə yönəldim.

Əsrlər boyu xalqımız böyük tarixi yol keçibdir. Tariximizin hər bir səhifəsi bizim üçün əzizdir. Şübhəsiz ki, tariximizin parlaq səhifələri də, qaranlıq səhifələri də var, təntənəli səhifələri də, faciəli səhifələri də var. Tariximizdə xalqımızın başına bəlalar da gətirilibdir. Faciələrin çoxu bununla əlaqədar olubdur. Ancaq bir çox əsaslı, əsassız səbəblərdən içimizdə bir-birinə düşmənçilik, ədavət, ziddiyyət hissiyyatları da olub, xalqımızı ötən əsrlərdə, minilliklərdə çox ağır, faciəli məqamlara gətirib çıxarıbdır. Birincisi, gərək biz bunları obyektiv, düzgün təhlil edək. İkincisi də, gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq. Ona görə də belə yubileylər keçirmək, eyni zamanda ayrı-ayrı şəx[447-448]siyyətlərin xidmətlərinə qiymət vermək, tariximizi yada salmaq, tariximizə verilən qiymət kimi dəyərləndirilməlidir.

Mən qeyd etdim ki, dövlət xadimlərinin, ictimai-siyasi xadimlərin fəaliyyəti təəssüf ki, unudulur, yaxud da hakimiyyətdən gedəndən, həyatdan köçəndən sonra onların xidmətləri haqqında danışılmır. Əksinə, oradan-buradan axtarıb tapırlar ki, o bunu pis edib, bunu etməli idi – etməyib və s. Bunlar aradan götürülməlidir. Bilirsiniz, biz indi elə bir mərhələyə gəlib çatmışıq ki, özümüz öz taleyimizin sahibiyik, həyatımızı özümüz qururuq. Ona görə də bu həyatı elə qurmalı, yaratmalı, bu günü də, sabahı da, keçmişi də elə təmin etməliyik ki, səhv, yanlışlıq olmasın.

Hələ ötən il mən Nəriman Nərimanovun anadan olmasının 125 illiyinin respublikamızda qeyd olunması barədə fərman verdim. Nəriman Nərimanov məşhur şəxsdir. Onun haqqında burada geniş danışmağa bəlkə də

ehtiyac yoxdur. Mən, eyni zamanda Fətəli xan Xoyskinin 125 illiyini qeyd etmək barədə fərman verdim. O da indi tanınır, amma ola bilər ki, o, Nəriman Nərimanov qədər məşhur bir şəxs deyil. Ancaq bu iki şəxsiyyət arasında böyük oxşarlıq var.

Fətəli xan Xoyski 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının qısa zamanda baş naziri olubdur. Nəriman Nərimanov isə 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının Xalq Komissarları Sovetinin sədri, yəni baş nazir olubdur. Tutduqları vəzifəyə görə yox, şəxsiyyətlərinə və ictimai-siyasi fəaliyyətlərinə görə onların ikisi də çox dəyərli insanlar olubdur.

Onlar təsadüfi adamlar deyildilər. Məsələn, Fətəli xan Xoyski 1918-ci ildə təsadüfən gəlib bizim ilk demokratik respublikamızın baş naziri olmamışdır. O, əvvəlki illərdə də siyasi fəaliyyət göstərmişdi, çar Rusiyası Dumasının Azərbaycandan deputatı olmuşdu. Doğrudur, Sovet hakimiyyəti dövründə tariximiz çox təhrif edilmişdi. O zaman Fətəli xan Xoyski tamamilə unudulmuşdu. Biz son illər tariximizi düzgün təhlil etmək imkanı əldə edəndən sonra Fətəli xan Xoyskinin kimliyini və onun fəaliyyətinin nədən ibarət olduğunu artıq dərk etmişik.

Yəqin mətbuatdan sizə məlumdur ki, Gürcüstan prezidenti Eduard Şevardnadzenin dəvəti ilə mən bu ilin martında bu respublikada rəsmi səfərdə olarkən Fətəli xan Xoyskinin qəbri üzərində onun abidəsinin açılması mərasimində iştirak etdim. [448-449] Onun qəbri Mirzə Fətəli Axundovun qəbri ilə yan-yanadır. Mən Mirzə Fətəli Axundovun qəbrini ilk dəfə 1970-ci ildə, Tbilisidə olarkən ziyarət etmişəm. Onun qəbri o vaxt istənilən şəkildə deyildi. Onun qəbrinin müəyyən qədər abadlaşdırılması barədə o vaxt mən lazımi tədbirlər görmüşdüm. Amma o vaxt heç kəs mənə deməmişdi ki, Mirzə Fətəli Axundovun qəbrindən bir metr o yanda Fətəli xan Xoyskinin qəbri yerləşir. Bunu mən də bilməmişdim. Çünki mənə deyən olmamışdı. Fətəli xan Xoyski ona görə unudulmuşdu ki, o Sovet hökumətinin düşməni olubdur. Xalqının mənafeyi uğrunda fədakarlıq göstərən insan olduğuna görə o, erməni daşnaklarının gülləsi ilə Tbilisidə qətlə yetirilmişdi.

Fətəli xan Xoyskinin adı indi bərpa olunub. Amma görürəm ki, respublikamızın bəzi ictimai-siyasi təşkilatları ona yenə də lazımi fikir vermirlər. Ona görə də mən onun yubileyinin qeyd olunması barədə fərman verdim, Azərbaycanda son illər, xüsusən 1989, 1990-cı illərdə gedən bəzi cərəyanlar nəticəsində meydana çıxmış bir sıra siyasətçilər tariximizin ötən 70-80 ilini tamamilə pozmağa, Nəriman Nərimanovun xidmətlərini kənara qoyaraq onu unutmağa cəhd göstərirdilər. Öz tarixinə, öz millətinə bu qədər ədalətsizlik etmək olarmı?

Nəriman Nərimanovun 100 illiyini qeyd edərkən, xatirəsini əbədiləşdirərək Bakının çox görkəmli bir yerində onun abidəsini ucaltdıq. Biz onun o vaxtkı Kommunist, indiki İstiqlaliyyət küçəsində olan evini muzey etdik. Amma sonra bir il müddətinə hakimiyyətə gələn insanlar bu evi zəbt edib, onu mənzilə çevirməyə çalışdılar. Onlar Nəriman Nərimanovu tariximizdən tamamilə silməyə cəhd etdilər. Əgər biz tariximizə və görkəmli şəxsiyyətlərimizə belə münasibət göstərsək, onda elə çıxacaq ki, nə tariximiz, nə kökümüz, nə əsl-nəcabətimiz, nə də keçmişimiz var, heç bir şeyimiz yoxdur.

Burada çıxış edən Cəmil Quliyev tarixin bir neçə məqamını yada saldı. Əgər sona çatmaqda olan XX əsri götürsək, 1918-ci ilə qədər Azərbaycanda hakimiyyət çar Rusiyasının qubernatorlarının, eyni zamanda ayrı-ayrı bölgələrdəki xanların, bəylərin əlində olmuşdur. Yəni o dövrdə vahid Azərbaycan dövləti, demək, Azərbaycanın vahid rəhbərliyi də olmayıb.

1918-ci ildə ilk Azərbaycan Demokratik Respublikası yaranıb, 23 ay fəaliyyət göstərib. Onlar çox ağır şəraitdə yaşayıblar, işləyiblər. Sonra Azərbaycanda Sovet Sosialist Respublikası [449-450] yaranıb. Bu respublika Moskva ilə bağlı olsa da, yenə də iki 11 müstəqil respublika kimi yaşayıb. 1922-ci ildən isə bu respublika Sovetlər İttifaqının tərkibinə daxil olub. 1918-ci ilə qədər Azərbaycan vahid dövlət olmayıb, 1918-ci ildən 1920-ci ilədək onun rəhbərləri altı aydan bir dəyişdirilib, 1920-ci ildən 1934-cü ilədək, – burada düzgün deyildi, – o vaxtkı sistemə görə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsində respublikamıza öz millətimizdən olan adam, azərbaycanlı rəhbərlik etməyib. Respublikamıza rəhbərlik edənlər o vaxt həmişə kənardan gələnlər və cürbəcür millətlərin nümayəndələri, o cümlədən ermənilər olublar.

Belə bir dövrdə 1920-ci ildə Nəriman Nərimanov kimi bir şəxsiyyət meydana çıxmış və Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin sədri olmuşdur. O, Moskvada iki il SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri olub, 1925-ci ildə qəflətən dünyasını dəyişmişdir.

Sonrakı dövr tariximizi götürək. 1934-cü. ildən 1953-cü ilə qədər Mircəfər Bağırov, ondan sonra beş il İmam Mustafayev, sonra 10 il Vəli Axundov respublikaya rəhbərlik etmişlər. Bundan sonrakı dövr isə sizə məlumdur. Məgər biz bunları unuda bilərikmi? Axı, ötən bu illərin hər birində Azərbaycanın həyatında böyük dəyişikliklər olubdur. Mübarizə də, gərginlik də, çətinlik də, faciələr də, repressiyalar da olubdur. Amma xalq yaşayıb, yaradıb, inkişaf edibdir. Məgər biz bunları unuda bilərikmi və yaxud deyə bilərikmi ki, tariximizin bu hissəsi tamamilə unudulmalıdır, bu hissəsi mənim xoşuma gəlir, ona görə də gəlin bunu tərifləyək?

Bir meyl də meydana çıxıb. Sovet hakimiyyəti vaxtı tariximizdə hansı şeylər ki, sovet ideologiyasına uyğun deyildi, onları ya tamamilə unudurdular, yaxud gizlədirdilər, tərsinə çatdırırdılar; o şeylər ki, mənfəətli idi, onu gətirib mənfəətli şəkildə də göstərirdilər. Bu da o dövrün əcaibliyi idi. Mən bir dəfə demişdim, bu gün bir daha deyirəm, bəzi alimlərimiz sübut etməyə çalışırdılar ki, elə Nizaminin də, Füzulinin də əsərlərində sosializm ideyaları olubdur. Belə cəhdlər də var idi. 1990, 1991, 1992-ci illərdə isə meyl o biri tərəfə idi; 1920-ci ildən

1992-ci ilədək olan nə varsa hamısını pisləmək. Deyirdilər ki, nə varsa hər şey 1918-ci ildən 1920-ci ilədək olubdur, ondan sonra nə Azərbaycan, nə millət, nə dövlət olubdur – heç bir şey olmayıbdır və hər şeyi unutmaq lazımdır. Bax, keç[450-451]mişdəki xəstəlik indi başqa istiqamətdə sirayət etməyə başlamışdı. Biz bunlara yol verə bilməzdik.

Ona görə də mən dəfələrlə demişəm, bu gün bu salonda bir daha deyirəm. Bilirəm ki, buraya toplaşanların əksəriyyəti alimlərdir, akademiklərdir, akademiyanın üzvləridir. Biz qısa vaxtda heç olmasa XX əsrin tarixini yazmalıyıq. Mən bu mövzuya bir daha qayıdacağam.

Bax, bunlara görə bu gün Vəli Axundovun yubileyinin keçirilməsi yubiley çərçivəsindən çıxan bir tədbirdir. Bilirsiniz ki, üç ildir mən yenidən Azərbaycana qayıtmışam və respublikaya rəhbərlik edirəm. Bu üç il müddətində mənim istirahət etməyə bir gün də vaxtım olmayıb. Bu müddətdə bir çox yubileylər keçirilib. Bu yubileylərin hamısında iştirak etməyə mənim vaxtım olmayıb. Ancaq bu gün, bu yubileyə mən birincisi, Vəli Axundovla olan şəxsi münasibətimə görə, ikincisi, mənim nöqteyi-nəzərimcə, bu yubiley adi yubiley çərçivəsindən kənara çıxdığına görə gəlmişəm. Mən bu fikirləri, sözləri burada bax, ona görə deyirəm.

Vəli Axundovun həyat yolu, fəaliyyəti haqqında məndən əvvəl burada çıxış edən natiqlər geniş məlumat verdilər. Deyilənlərin hamısı ilə razıyam və onları təsdiq edirəm. Vəli Axundovu mən uzun illər ərzində tanımışam. Ola bilər ki, onu o qədər yaxından tanıyan adamlar burada azdır. Mən Vəli Axundovu təxminən 1953-cü ildən tanıyırdım və hətta sonralar lap yaxından tanış olmuşdum, bir yerdə işləmişdik. Onun elmi fəaliyyəti, səhiyyə sahəsində gördüyü işlər qiymətlidir və bu barədə burada danışdılar. Ancaq Azərbaycan Respublikasına on il rəhbərlik etmək onun gördüyü bütün işlərin hamısından ağır, çətin olubdur, bir daha qeyd edirəm, bütün xidmətlərindən şərəfli və üstün olubdur.

Vəli Axundovun Azərbaycana rəhbərlik etdiyi dövr – 1959-cu ilin iyulundan 1969-cu ilin iyulunadək – Sovetlər İttifaqının, o cümlədən Azərbaycanın həyatında çox gərgin və mürəkkəb bir dövr idi. Bu, elə bir dövr idi ki, Stalin öləndən sonra Xruşşovun hakimiyyəti dövründə Sovetlər İttifaqının həyatında çoxlu dəyişikliklər gedirdi, cürbəcür tədbirlər aparılırdı. Xruşşov hakimiyyətinin ikinci mərhələsi idi. O, on il hakimiyyətdə olmuşdu. Xruşşovun hakimiyyətinin birinci mərhələsində Azərbaycana İmam Mustafayev rəhbərlik edib, bu dövrün beş ili onun üzərinə düşüb. Sonrakı beş il isə Vəli Axundovun üzəri[451-452]nə düşüb. Yenə də deyirəm, o illər çox ağır, çətin, gərgin dəyişikliklər illəri olub. O vaxt, Xruşşov dövründə bir çox yuxarı dövlət orqanlarında dəyişikliklər gedirdi, Stalin dövründə işləmiş adamlar işdən çıxarılırdı və s. Bundan sonra 1937-38-ci illərin repressiyalarının aşkar olunması, repressiyaya məruz qalmış insanların reabilitasiyası gedirdi.

Bilirsiniz, o dövr Azərbaycan üçün ona görə çox gərgin idi ki, 1953-cü ildə respublikanın rəhbəri olan Mircəfər Bağırov həbs edilmişdi. Azərbaycanın həyatında. çox gərgin bir vəziyyət yaranmışdı. Bu dövrdə Azərbaycana İmam Mustafayev rəhbərlik edirdi. Bundan sonra Xruşşovun hakimiyyəti zəifləməyə başlamışdı. 1964-cü ildə Xruşşov hakimiyyətdən getmiş və Brejnev, onun tərəfdarları hakimiyyətə gəlmişdilər. Bu dövr mürəkkəb bir dövr idi. Şübhəsiz ki, bu dövrdə işləmək, respublikaya rəhbərlik etmək asan məsələ deyildi.

Vəli Axundovun üzərinə düşən çətin vəzifələrdən biri də ondan ibarət idi ki, – fürsətdən istifadə edərək demək istəyirəm, təəssüf ki, bu, bizim milli bəlamız, dərdimizdir – içimizdən içimizi dağıdanların, yeyənlərin günahı üzündən 1959-cu ildə Azərbaycan Respublikasında millətçilik meyllərinin mövcud olması haqqında o vaxtlar Sovetlər İttifaqı Kommunist Partiyasının Mərkəzi Komitəsi qərar qəbul etmişdi. Bilirsiniz, o vaxtlar da mən kənarda duran adam deyildim – bir vətəndaş kimi, bu, məni yandırmışdı, indi də yandırır ki, o vaxt Azərbaycan kimi beynəlmiləlçi bir millət, respublika tapmaq bəlkə də çətin idi. İndi görün bizim bəlamız nə dərəcədə idi ki, o vaxt gətirib Azərbaycana millətçilik damğası vurdular. Azərbaycanın rəhbərliyini işdən götürdülər, respublikamızın başına çox bəlalar gətirdilər. Bu, böyük bir tarixdir. Azərbaycanın başına gələn bu bəlalar sadə məsələlər deyildi. Hansı millətçilikdən söhbət gedə bilərdi? Nə var-nə var, siz "Nəriman Nərimanovu başlamısınız tərifləməyə, Şaumyanı az təbliğ edirsiniz" və sairə. Vəziyyət belə idi.

Vəli Axundov bax, belə bir qərardan sonra respublikaya rəhbərlik etməyə başlamışdı. Asan deyildi. Ancaq həm biliyinə, həm təcrübəsinə, həm də zəkasına, təmkinliliyinə görə Vəli Axundov bu ağır, çətin bir dövrdə on il respublikaya rəhbərlik etdi. Bu on il müddətində respublikamızda böyük nailiyyətlər də olmuşdu, xalqımız yaşamışdı, qurmuşdu. Bütün bunlar heç də avtomatik olaraq getməmişdi. Şübhəsiz ki, bunlar Azərbaycan Respublikasının dövləti, hakim dairələri tərəfin[452-453]dən idarə olunmuşdu, istiqamətləndirilmişdi, tənzimlənmişdi. Respublikanın rəhbərliyində birinci şəxsin bunların hamısında rolu, şübhəsiz ki, hər bir kəsin rolundan üstün idi. Bunu heç kəs, heç vaxt unutmaz.

Bilirsiniz, o vaxt – Stalin tənqid edilən zaman belə bir əhval-ruhiyyə yarandı ki, bəli, Sovetlər İttifaqı yaşayır, böyüyür. Amma Stalin olmasaydı daha da yaxşı olardı. İkinci dünya, Böyük Vətən müharibəsində Sovet İttifaqı qalib gəlibdir, amma Stalinin burada rolu yox imiş. Bilirsiniz, bu, adi xəstəlik deyildi, bəlkə də kommunist ideologiyasının xəstəliyi idi, bu ideologiyanı həyata keçirən ayrı-ayrı qrupların, dəstələrin xəstəliyi idi. Onlar öz şəxsi mənafeləri, məqsədləri naminə başqasının rolunu ya ləkələmək, yaxud onu qiymətdən salmaq istəyirdilər.

Ona görə də həmin dövrdə görülən işlərdə, əldə edilən nailiyyətlərdə Azərbaycanın birinci rəhbəri kimi Vəli Axundovun rolu böyükdür, yüksək qiymətə layiqdir və mən bunu bu gün böyük məmnuniyyət hissi ilə qeyd edirəm.

O dövrdə səhvlər də, əyintilər də olub. Bunlar bəzən cürbəcür obyektiv səbəblərdən, bəzən də subyektiv səbəblərdən meydana çıxıb. O dövrdə, yəni 60-cı illərdə Azərbaycanın həyatında şübhəsiz ki, iqtisadiyyatda gerilik, ayrı-ayrı sahələrdə səhvlər, ayrı-ayrı sahələrdə bəzi mənfi hallar mövcud idi. 70-ci illərdə biz bunları tənqid etmişdik, şəxsən mən öz çıxışlarımda, məruzələrimdə tənqid etmişdim. Ona görə yox ki, kimi isə pisləmək istəmişəm. Bu səhvləri buraxmamaq üçün, işləri yaxşı qurmaq üçün tənqid etmişəm. Məlumdur ki, işlər bundan sonra daha yaxşı qurulmuşdur. Ancaq bunların heç birisi Vəli Axundovun Azərbaycan Respublikasının rəhbəri kimi, ona 10 il rəhbərlik etmiş bir şəxs kimi fəaliyyətini heç də azaltmır, əksinə, onun fəaliyyəti yüksək qiymətə layiqdir.

Mən o illərdə, yəni Vəli Axundov respublikaya rəhbərlik etdiyi illərdə onunla birlikdə, onun rəhbərliyi altında işləmişəm. Bilirsiniz ki, mən Dövlət Təhlükəsizliyi Komitəsində işləmişəm və iş prosesində onunla sıx əlaqədə olmuşam. Bəzən onun dərdlərini də hiss edirdim, çətinliklərini də. Onun ürək ağrısını görür, hiss edirdim. Bunların bəziləri obyektiv xarakter daşıyırdı, bəziləri də işlərin görülməsi üçün bəlkə də onun özünün lazımi imkanı olmamasından irəli gəlirdi. Bunların bəziləri onun ətrafında olan ayrı-ayrı adamların ona etdikləri maneçiliyin nəticəsi idi. [453-454]

Cəmil Quliyev burada bir-iki faktı xatırlatdı. Doğrudan da, o illərdə Ermənistanın millətçi dairələri, Moskvada oturan millətçilər Azərbaycana həmişə təzyiq göstərməyə və Azərbaycanın nailiyyətlərinə həmişə mane olmağa, xüsusən ermənilərin Azərbaycana təsirini daim saxlamağa çalışırdılar. Vəli Axundov bunların qarşısını almağa səy göstərir, müəyyən iş görürdü. Mən səmimi danışıram, indi bunlar tarixə döndüyünə, keçmişdə qaldığına görə danışmaq olar. Sonralar mən respublikaya rəhbərlik etməyə başladıqda biz vaxtaşırı görüşürdük, o, mənim yanıma gəlirdi. Bəzən gəlib danışırdı ki, siz, misal üçün, bu məsələni həll etdiniz. Amma mən neçə il çalışdımsa, onu həll edə bilmədim. Mən bilirdim ki, o, doğrudan da çalışır, amma həll edə bilmirdi. Ona görə yox ki, həll etmək istəmirdi. Buna bəzi səbəblərə görə gücü çatmırdı.

Bunlar təbiidir, hər bir kəsdə ola bilər. Amma onu da, şəxsən məni də çox narahat edən bu idi ki, onun ətrafında olan adamlar, irəli çəkdiyi adamlar işinə mane oldular. Bu, həqiqətən belədir – onun işinə mane oldular.

Bilirsinizmi, bu xəstəlik sonralar da davam etdi, indi də davam edir. Vəzifə hərisliyi insanları bəzən çox ləyaqətsiz hərəkətlərə təhrik edir. Vaxtilə Vəli Axundovun irəli çəkdiyi adamlar sonra onun yerini tutmaq üçün onu vəzifədən kənarlaşdırmağa çalışdılar. Mən bunları görürdüm. O da bəzən öz dərdini mənə deyirdi. Onun səhhəti o qədər də yaxşı deyildi, ona bu da mane olurdu. Ona görə də bəzən dərdini açıb söyləyərkən mən onun dərdinə şərik olurdum və imkan dairəsində çalışırdım ki, ona kömək edim. O vaxt Vəli Axundov birinci katib, yəni Azərbaycanın birinci rəhbəri olarkən mən respublikanın dövlət təhlükəsizliyi orqanının başçısı kimi həmişə prinsipial mövqedə dururdum və işlərin prinsipial surətdə həyata keçirilməsinə çalışırdım. Onun bütün məsələlərdə hamıdan fərqli olaraq həmişə sağlam mövqe tutduğunun şahidi olmuşam.

O vaxtlar doğrudan da, Qarabağ məsələsi qaldırılmışdı. Xatirimdədir, bir dəfə hətta yenə məcbur etmək istəyirdilər ki, Qarabağ məsələsinə baxılsın. O, bir neçə dəfə mənimlə məsləhətləşdi. Bu məsələnin qarşısı alındı. Ancaq sonra, – Cəmil Quliyev onu burada dedi, – bir neçə erməni, eləcə də Ermənistan çalışırdı ki, Azərbaycanın Ermənistanla sərhəd rayonlarında bəzi torpaqlarımızı öz torpaqları kimi əllərinə keçirsinlər. Onlar köhnə xəritələri – 28-ci ilin, yaxud da 29-cu ilin xəritələrini [454-455] ortaya çıxarmışdılar. İki-üç il danışıqlar getdi. Bu danışıqları tək Vəli Axundov deyil, Məmməd İsgəndərov, Ənvər Əlixanov, ikinci katib Yelistratov birlikdə aparırdılar. Təəssüf ki, bu danışıqlar nəticəsində 1969-cu ilin may ayında Azərbaycanın Ali Soveti elə bir qərar qəbul etmişdi ki, həmin sərhədyanı torpaqlar guya Ermənistana mənsubdur və ona verilməlidir. Mən iyul ayında Azərbaycana rəhbər seçilən kimi bu məsələni bir ay müddətində təhlil etdim və həmin qərardan imtina etdim. Çox çalışdılar ki, bu qərar həyata keçirilsin, lakin mən buna imkan vermədim. Bu qərarın o vaxt necə qəbul olunduğunu da bilirəm. İndi bunu danışmağa ehtiyac yoxdur. Amma bununla onu demək istəyirəm ki, şübhəsiz, o da həmin torpaqların verilməsini istəməmişdi. Ancaq həm yuxarıdan, Moskvadan olan təzyiqlər, həm sağdan, həm də soldan olan təzyiqlər birlikdə bu cür qərarın qəbul edilməsinə gətirib çıxarmışdı.

İşlədiyi son illərdə Vəli Axundovun səhhəti zəifləmişdi. Bəzi şəxslər bundan istifadə edərək onu vəzifədən götürməyə çalışırdılar. Çünki hər birisi hesab edirdi ki, Vəli Axundov vəzifədən götürülsə, onun yerinə o keçəcəkdir. Bax, bu, bizim bəlamızdır. O vaxtlar mən müşahidə edirdim və bu barədə Vəli Axundovla söhbət aparırdım. Mən ona böyük ürək ağrısı ilə dedim ki, bizim adamlar öz şəxsi məqsədləri üçün belə yollara gedirlər.

Lakin siz həqiqəti bilməlisiniz. Həqiqət də belə oldu ki, o adamlar, – onların bəziləri dünyasını dəyişib, bəziləri isə hələ sağdır, – çalışırdılar ki, Vəli Axundov vəzifədən getsin və onlar da onun vəzifəsini tutsunlar. Amma onların heç birisi bu vəzifəni tuta bilmədi. Siz soruşa bilərsiniz, bəs necə oldu ki, bu vəzifəyə Heydər Əliyev gəldi? Bunu hamı bilir, rəhmətlik Vəli Axundov da çox yaxşı bilirdi ki, o vaxt məndə respublikanın rəhbəri olmaq fikri qətiyyən yox idi. Özünüz yaxşı bilirsiniz ki, mən gənc yaşlarımdan hərbi xidmətdə olmuşam,

zabit, general rütbələri almışam, təhlükəsizlik orqanlarında işləmişəm. Mən bu işi çox sevən bir adam idim. Odur ki, həyatımı ancaq bu sahə ilə bağlamışdım. İkincisi də, mən təsəvvür edə bilməzdim ki, respublikaya rəhbərlik edəcəyəm. Çünki mən bu işlərdən çox kənar idim, daim öz peşəmlə məşğul olurdum.

Lakin Vəli Axundovu yıxmaq uğrunda mübarizə aparan adamlar sonra da bir-birini yıxdılar. Nəticədə belə oldu ki, artıq Vəli Axundov vəzifədən getməli idi, onların isə heç biri [455-456] yararlı olmadı. Bir neçə adamla söhbət etmişdilər, amma onlar yararlı olmadılar. Sonra mənə müraciət etdilər. Bilirsiniz ki, mən 69-cu ildə həmin vəzifəyə seçildim.

O vaxtlar Vəli Axundovun öz yerinə təqdim etdiyi adam o qədər də layiqli olmamışdı. Bu həqiqəti də demək lazımdır. O adam sonra bunu etiraf etdi. O da öz yerinə bir adam təqdim etmişdi. Lakin bu adam da qəbul olunmamışdı. Bunu sonra onun özü etiraf etdi.

Bu xəstəlik, yəni bir-birinə mane olmaq, bir-birinə zərər vurmaq, bir vəzifəni tutmaqdan ötrü həmin vəzifədə olan adamın ayağının altını qazmaq xəstəliyi bizdə keçmişdə də olubdur, təəssüf ki, sonralar da olubdur. O vaxtlar bu barədə mənim Vəli Axundovla bir-iki dəfə söhbətim oldu. Bu da tarixdir və bunu da bilmək lazımdır. 1920-ci ildə Nəriman Nərimanov Azərbaycanda Xalq Komissarları Sovetinin sədri olarkən şübhəsiz ki, o, həmin dövrdə ən hörmətli və ən dəyərli bir şəxsiyyət idi. Amma Azərbaycana zidd olan qüvvələr, Moskvadan gəlmiş şovinistlər, həm də Azərbaycanda o vaxt çox böyük vəzifələrdə olan ermənilər Nəriman Nərimanov kimi adamın Azərbaycanda olmasını istəmirdilər.

Ona görə də Nəriman Nərimanovun ətrafında olan o vaxtkı bəzi rəhbər şəxsləri qızışdırıb onun üstünə salmışdılar. Bu, tarixdən məlumdur. Onlar Nəriman Nərimanovun əleyhinə cürbəcür təxribatlar aparırdılar. Əgər onun Moskvaya getməsinə səbəb bir tərəfdən, doğrudan da Sovet İttifaqının Mərkəzi İcraiyyə Komitəsinin sədrlərindən biri vəzifəsinə seçilməsi idisə, digər tərəfdən bu, Nəriman Nərimanovu – Azərbaycanda milliliyi möhkəmləndirmək üçün fəaliyyət göstərən bir adamı aradan götürmək məqsədi daşıyırdı.

Yəqin yadınızdadır, dörd-beş il əvvəl mən hansısa qəzetdə oxumuşdum, Məmməd Səid Ordubadi yazmışdı ki, Nəriman Nərimanov Moskvada olarkən bir dəfə Tiflisə gəlmişdi, amma onun oradan Bakıya gəlməsinə burada bəziləri imkan verməmişdi. Deyəsən, o, Dadaş Bünyadzadənin adını çəkirdi. O, Nəriman Nərimanova hətta imkan verməmişdi ki, gəlib burada haradasa çıxış etsin. Bunu tarixçilərimiz bilməlidirlər.

Bu hadisələri, yəni keçmiş tariximizin həmin səhifələrini mən Vəli Axundovla bir neçə dəfə müzakirə etmişdim. O, vəzifədə olan zaman da, ondan sonra mən respublikanın rəhbəri olan zaman da görüşlərimizdə müzakirə etmişdik. O da belə fikirdə idi, mən də belə fikirdə idim ki, biz gərək elə edək, bu [456-457] daxili çəkişmələrə daha yol verilməsin. Məhz bu daxili çəkişmələrə görə 1920-ci ildən başlayaraq 1934-cü ilə qədər Azərbaycanda birinci rəhbər azərbaycanlı olmadı. Bütün bu daxili çəkişmələrin nəticəsi idi ki, 37-38-ci illərdə bir belə qurbanlar verdik, onlar repressiya qurbanı oldular. O daxili çəkişmələrin nəticəsində 59-cu ildə Azərbaycan haqqında millətçilik damğası ilə bir qərar qəbul edildi. Hörmətli İmam Mustafayev bunları yəqin ki, xatırlayır. O, Azərbaycanın rəhbəri olarkən ona sağdan da, soldan da təxribatlar edirdilər. Bəs nəticədə nə oldu? Nəticə də bu oldu ki, 59-cu ildə qərar çıxararaq hamını işdən götürdülər. Ona görə də mən Vəli Axundovla işlədiyim zaman söhbətlər edərkən ikimiz də eyni fikirdə idik ki, bu hallara son qoyulmasına çalışmalıyıq.

Mən 1982-ci ilin dekabr ayında Moskvaya işləməyə gedərkən burada qalan həmkarlarıma iki tövsiyə etdim: birincisi, çalışın ki, rəhbərlikdə qruplaşma olmasın, çəkişmə olmasın. Azərbaycana düşmən qüvvələr bunlardan istifadə edəcək, Azərbaycana zərbələr vuracaqlar. İkincisi isə, Dağlıq Qarabağ məsələsinə diqqət yetirin. Təəssüf ki, mənim bu tövsiyələrimə riayət etmədilər və nəticədə respublikamız son illər belə ağır vəziyyətə düşdü. Mən bunları bu gün, Vəli Axundovun yubileyi günü ona görə deyirəm ki, onlar tariximiz üçün ümumiyyətlə, əhəmiyyətli faktlardır. Eyni zamanda bunu deməkdə məqsədim Vəli Axundovun işlədiyi 10 il müddətində nə qədər çətinliklərlə, nə qədər problemlərlə rastlaşmasını qeyd etməkdir.

Məsələn, o vaxtlar, yəni Vəli Axundov işləyən dövrdə bizim tarixçilər ona iradlar tuturdular ki, Vəli Axundov Azərbaycanın könüllü surətdə Rusiya tərkibinə daxil olmasının 150 illik yubileyini keçirdi və bu da tarixə zidd olan bir haldır. O vaxt burada Vəli Axundovun əleyhinə açıq olmasa da, üstüörtülü cürbəcür çıxışlar olurdu. Mən Vəli Axundovla bu barədə bir-iki dəfə söhbət etmişdim. Mən onun mövqeyi ilə, izahı ilə tamam razı idim. Hər dövrün bir hökmü var. O mənə deyirdi ki, "Gülüstan" müqaviləsi ilə, Türkmənçay müqaviləsi ilə Azərbaycan parçalanıbdır və bir hissəsi Rusiyanın tərkibinə keçibdir. Biz indi Sovet İttifaqı kimi bir dövlətin tərkibindəyik, Rusiya da bu dövlətdə dominantdır. Belə bir halda o tarixi bu cür təqdim edərək bu beynəlmiləlçiliyi, Rusiya-Azərbaycan dostluğunu daha da təbliğ etmək mümkündür.

O, şikayətlənirdi ki, bəzi adamlar bunu ona irad tuturlar. Bir dəfə söhbət əsnasında dedi ki, "Yaxşı, biz burada nə itiri[457-458]rik? Bayram keçirdik. Bu, böyük xalq bayramı idi. Beləliklə, Azərbaycan Respublikasının bayrağında daha bir Lenin ordeni peyda oldu. Biz heç nə itirmədik".

Bilirsinizmi, bu fikrə bəlkə də kimsə yenə də etiraz edə bilər. Ancaq hesab edirəm ki, o dövr üçün, o zaman üçün onun atdığı həmin addım bu gün ona gərək heç də günah sayılmasın. Əgər belə günahlar axtarmalı olsaq, onda hər adamda bir günah tapmaq olar. Şübhəsiz ki, sonrakı dövrdə bu məsələlərin hamısı aydınlaşdı, aşkara çıxarıldı.

Mən bununla bir daha qeyd etmək istəyirəm ki, o dövr ağır, çətin bir dövr olub və Vəli Axundov bütün imkanlardan istifadə edərək Azərbaycana layiqli rəhbərlik edibdir. Vəli Axundovu tanıyan adamlar bilirlər, – mən də onu yaxından tanıyan adamam, – o, çox hazırlıqlı insan idi, geniş dünyagörüşünə malik idi. Öz elmindən, öz sahəsindən savayı, siyasi sahədə çox hazırlıqlı idi. Mədəniyyəti yaxşı bilirdi, tarixlə çox maraqlanırdı, ziyalı və mədəni insan idi, təvazökar idi. O, şəxsi həyatında da, davranışında da təvazökar idi. İnsanlara xoş münasibət göstərirdi. Bəzən deyirdilər ki, çox liberaldır. İşdə liberallıq edirdi, amma görünür, bu da onun xasiyyətinin yumşaqlığından irəli gəlirdi. O, mülayim təbiətli adam idi. Lakin bunların hamısı, ümumiyyətlə, onun obrazını həmişə müsbət bir obraz kimi göstərirdi. Mənim ona həmişə çox böyük hörmətim olmuşdur. Ailəsi də çox təvazökardır. Mən onun ailəsi ilə tanış idim. Həyat yoldaşı Sara xanım çox təvazökar bir qadındır.

Deyə bilərəm ki, Vəli Axundov o vaxt onun ətrafında olan rəhbər şəxslərin hamısından həm biliyinə görə, həm insani mədəniyyətinə görə, həm alicənablığına görə, həm də özünün və ailəsinin təvazökarlığına görə seçilirdi və onların hamısından üstün idi. Mən işləyən vaxt Vəli Axundov bir müddət akademiyada vitse-prezident, sonra isə ömrünün axırına qədər Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru oldu.

Mən bu gün deyə bilərəm ki, ona olan şəxsi insani münasibətimi heç vaxt dəyişmədim, əksinə, o, institut direktoru olarkən, mən isə respublikanın rəhbəri vəzifəsində çalışarkən ona daim qayğı göstərmişəm, həmişə onun problemlərini vaxtında həll etmişəm, onun hər müraciətinə həmişə diqqətlə baxmışam və ona alimdən gələn köməyi əsirgəməmişəm. Bizdə belədir ki, böyük vəzifədən gedən adamın sonra vəziyyəti ağır [458-459] olur. Mən özüm belə bir vəziyyəti keçirmişəm. 1987-ci ilin oktyabr ayında mən Moskvada istefa verəndən sonra başıma gələn bəlalar, işlər çoxlarına bəlkə də hələ məlum deyildir. Ancaq bir şey məlumdur ki, ətrafımda olan adamların böyük əksəriyyəti məni unutdu, mən Moskvada, qərib bir yerdə tamam yalqız qaldım və üstəlik də mənə qarşı ədalətsiz hərəkətlər, böhtanlar, cürbəcür çirkin əməllər oldu. Düzdür, bütün bunlar mənim başıma vəzifədən getdikdən sonra gəlibdir. Amma mən indi bu fikri ona görə demirəm ki, bütün bunlar başıma gəlibdir. Mən 69-cu ildə Azərbaycana rəhbər seçiləndə hesab etmirdim ki, vəzifədən gedəndən sonra başıma belə işlər gələcəkdir. Mən hesab edirdim ki, vəzifədə, özü də yüksək vəzifədə olmuş adam vəzifədən getdikdən sonra onun vəziyyətinə həmişə diqqətlə yanaşmalıdırlar. Xüsusən də respublikanın birinci şəxsiyyətinə.

Buna görə də mən respublikada işlədiyim zaman Vəli Axundovla daim əlaqə saxlayırdım, onun bütün məsələlərini, o cümlədən də mənzil məsələsini istədiyi kimi həll etmişdim, göstəriş verirdim ki, institutuna lazım olan maddi-texniki vəsait ayrılsın və ayrılırdı. Onun rəhbərlik etdiyi institut xüsusi bir vəziyyətdə idi və mən ona xüsusi hörmət edirdim.

Ona görə ki, bu şəxs on il Azərbaycana rəhbərlik etmişdir və belələrini heç vaxt unutmaq lazım deyildir və unutmaq da olmaz.

Mən Moskvada olarkən Vəli Axundov mənə hərdənbir məktub da göndərirdi. Məni bayramlar, ayrı-ayrı hadisələr münasibətilə təbrik edirdi. Amma təəssüflər olsun ki, o, həyatdan gedəndən sonra on il müddətində onun xatirəsinə lazımi qayğı göstərilməyib, demək olar, heç bir qayğı göstərilməyibdir. Mən bunu da qeyri-normal hal hesab edirəm. Mən buraya, Azərbaycana dönəndən sonra maraqlandım, indi onun 80 illiyi ərəfəsində bu qərarı qəbul etdim. Bilirsiniz ki, dünən mən sərəncam imzalamışam. Onun işlədiyi institutun adı dəyişdirilib, üç institut birləşdirilib, artıq o institut dünən verdiyim sərəncamla Vəli Axundovun adını daşıyır. Onun yaşadığı evə xatirə lövhəsi vurulması haqqında qərar qəbul etmişəm. Tibb Universitetində onun adına iki təqaüd təsis etmişəm. Güman [459-460] edirəm ki, Vəli Axundovun xatirəsinə ictimaiyyətimiz və dövlət tərəfindən qayğı bundan sonra da davam edəcəkdir.

Nitqimin əvvəlində dediyim kimi, mən bu gün buraya çox dərin hisslərlə gəlmişəm, çünki Vəli Axundov kimi bir insanla bir yerdə işləmişəm, onu uzun illər ərzində tanımışam. Eyni zamanda bir Azərbaycan vətəndaşı kimi onun Azərbaycana on il rəhbərlik etməsini çox qiymətli hesab edirəm.

Mən sizin hamınızı bugünkü yubiley münasibətilə təbrik edirəm, ümidvaram ki, Vəli Axundovun xatirəsi hamımızın qəlbində yaşayacaqdır, onun nəcib işləri heç vaxt unudulmayacaq və bir çox alimlərimiz üçün, dövlət xadimlərimiz üçün örnək olacaq, nümunə olacaqdır. Sizi bir daha təbrik edirəm, sizə cansağlığı, səadət, xoşbəxtlik arzulayıram. Sağ olun. [460-461]

## TÜRKİYƏNİN İQDIR, VİLAYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Prezident Sarayı*

*21 iyun 1996-cı il*

İqdır Azərbaycan üçün çox mühüm bir vilayətdir. Şəxsən mən İqdır haqqında hələ qırx-əlli il bundan əvvəl kitablar oxumuş və oranı görmək arzusunda olmuşam. Orada olduğum günlərdən də çox məmnunam. Türkiyənin bir hissəsi kimi İqdırla Azərbaycan həmişə bağlıdır və şəxsən mən də bağlıyam. Bu baxımdan buraya gəlməyinizi bəyənir və sizinlə görüşməyi lazımlı hesab edirəm.

## 5008 NƏFƏR İQDIRLININ İMZALADIĞI VƏ PREZİDENT HEYDƏR ƏLİYEVƏ ÜNVANLANMIŞ MƏKTUB

### AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HÖRMƏTLİ HEYDƏR ƏLİYEVƏ

Hörmətli və çox dəyərli böyüyümüz.

Öncə, sizlərə göndərdiyimiz bu məktuba imza atan və ya ata bilməyən bütün iqdırlıların salam və sevgilərini yollayırıq.

O salamlar ki, sizlərin dar günlərinizdə,

o salamlar ki, köməksiz günlərinizdə,

o salamlar ki, zəhmətli günlərinizdə yanınızda olan və dostluğunuzdan heç bir zaman şübhə içinə düşməyən iqdırlıların salamlarıdır.

O salamlar ki, iki türk cümhuriyyətini bir-birinə bağlayan torpaqlar üstündə yaşayan insanların salamlarıdır.

O salamlar ki, millətinin hər fərdinə Azərbaycan və Naxçıvan deyəndə ürəyi kövrəlib gözləri dolan insanların salamlarıdır:

o salamlar ki, böyük dünyanın öndər yetişdirdiyi böyük liderinə olan sevginin salamlarıdır.

O böyük lider ki, dünyada Atatürkdən sonra yetişmiş ən [461-462] böyük siyasət adamı – hörmətli Heydər Əliyevə və onun xalqına göndərilən dostluq və qardaşlıq salamlarıdır.

Hörmətli prezidentimiz!

Bütün İqdır xalqının sizdən ricası budur ki, Azərbaycanda sizə və sizin hər hansı vətəndaşınıza bir zərrə də olsun heç bir qəsdi və qərəzi olmayacağına inandığımız bir qardaşımızın bir səhv üzündən orada tutularaq həbsə salınması nəticəsində bizi, ailəsini və bütün iqdırlıları üzüntü və kədərə salan bu acıya son qoyasınız.

Şanınıza, böyüklüyünüzə və liderlik simanıza yaraşan bir şəkildə onu əfv edəcəyinizə tamamilə inanırıq.

Bu işdə hörmətli bələdiyyə. başqanlarımızın, hörmətli partiya başqanlarımızın və bütün İqdır xalqının həmin qardaşımız üçün zamin olacağına inanmağınızı istəyirik.

O, əsla xain və pis niyyətli bir adam olmamışdır və ola bilməz də.

Onun xəstəxanada xərçəngdən yatmaqda olan arvadının və gözü yollarda qalan çocuqlarının və İqdır xalqının bu ağrısına son qoyacağınıza inanırıq.

Onu bağışlamağınızla İqdır xalqının ürəyində sizə olan sevginin min qat artacağını bilməyinizi istəyirik.

Bu ümid və inancla sizə hörmət və ehtiramımızı çatdırırıq.

Sizə uzunömürlü və dünyanın qürur duyacağı bir dövlət rəhbəri həyatı diləyir, əllərinizdən öpürük.

İqdır xalqı adından:

**Əli Əsgər AŞIRIM,**
**İqdır bələdiyyə başqanı,**

**Feyzulla TÜRKELİ,**
**Mələkli bələdiyyə başqanı,**

**Müzəffər GƏNCƏ,**
**"Ana Vətən" il başqanı**

**İQDIR NÜMAYƏNDƏLƏRİNİ DİNLƏDİKDƏN VƏ MƏKTUBLA TANIŞ OLDUQDAN SONRA ÇIXIŞ**

Bir də qeyd edirəm, İqdır Azərbaycan üçün Türkiyənin ən önəmli, ən əziz bir yeridir. Türkiyə Cümhuriyyətinin hər yeri bizim üçün əzizdir. Azərbaycan xalqı üçün, Azərbaycan Respublikası üçün Türkiyə Cümhuriyyəti ən yaxın dost, qardaş [462-463] ölkədir. Bu dostluq, qardaşlıq əlaqələrinin böyük tarixi, dərin kökləri var. Biz bu barədə dəfələrlə danışmışıq. İndi, Azərbaycan dövlət müstəqilliyi əldə edəndən sonra onun ən sıx, ən yaxın əlaqəsi Türkiyə ilədir. Yenə deyirəm, Türkiyənin hər bir nöqtəsi, hər bir qəzası, şəhəri Azərbaycan üçün əzizdir.

Biz Azərbaycanda uzun illər – yetmiş il Türkiyənin həsrəti ilə yaşamışıq ki, oranı görək, ziyarət edək. Bu baxımdan İqdırın xüsusi əhəmiyyətini ona görə vurğulayıram ki, İqdır Türkiyəni Azərbaycana bağlayan, Azərbaycanla sərhəddə olan yerdir. Türkiyə-Azərbaycan sərhədi Azərbaycanın Naxçıvan hissəsi, Türkiyənin də İqdır hissəsidir. Ona görə də burada həmin əlaqələr keçmişdə də daha yaxın olubdur.

Bilirsiniz ki, keçmiş zamanlarda Azərbaycan təkcə indiki hüdudlarda deyildi. İndi Ermənistanın əlində olan Göyçə mahalı da, yaxud sizin İqdırın qarşısındakı Vedibasar, Zəngibasar, İrəvan xanlığı da Azərbaycanın olubdur. Sizin ulu babalarınızın əksəriyyəti oralardandır. İqdırda yaşayanlardan soruşsan ki, kökün haradandır, hər on nəfərdən dördü-beşi deyəcək ki, ya Zəngibasardan, ya Vedibasardan, ya İrəvandan, yaxud Borçalıdan, ya da Gəncədəndir, Naxçıvandandır. (Müzəffər Gəncə bildirdi ki, mən gəncəliyəm, babam oradandır). Necə olub ki, sən Gəncədən İqdıra gedib çıxmısan? Çünki o məntəqə, o bölgə azərbaycanlılar üçün, – Türkiyədə azərilər deyirsiniz, – azərilər üçün həmişə bir məskən olubdur. Bunların tarixi kökləri var. İqdırın Azərbaycana daha əziz olması və sevilməsi, bax bu tarixi köklərə əsaslanır. Siz gəncsiniz, kitablar oxuyursunuz, mən də bunların bir hissəsini kitablardan bilirəm. Amma bir hissəsini şəxsi həyatımdan bilirəm.

Hələ 1940-cı illərdə, İkinci dünya müharibəsi zamanı, Sovetlər İttifaqı alman faşizmi ilə müharibə edəndə, – tarix tarixdir, – Türkiyə Almaniyanın tərəfində idi, amma müharibə etmirdi. Hitler faşizminin qoşunları 1942-ci ildə Qafqaz dağlarına gəlib çatmışdı, Bakını işğal etmək istəyirdilər. Əgər onlar Bakını işğal edə bilsəydilər, bəlkə də alman faşizmi Sovetlər İttifaqına qalib gələrdi. Çünki o vaxtlar Bakı nefti bütün Sovetlər İttifaqının ordusunu saxlayırdı. Biz burada yaşayırdıq və biz də təhlükədəydik ki, Türkiyə Almaniya ilə müttəfiqdir. Məlumatlar gəlirdi ki, ola bilər Türkiyə Qafqazı işğal etmək üçün bu tərəfdən hücum etsin. Amma Türkiyədə ağıllı adamlar çox oldu: Almaniya ilə müttəfiq oldular, ancaq [463-464] onunla birlikdə ikinci dünya savaşma qoşulmadılar və Qafqaza girmədilər. Girsəydilər, çox böyük bəla olardı.

Bunu ona görə xatırlayıram ki, mən o vaxtlardan bütün İqdırın xəritəsini bilirəm, Ərzurumun, Qarsın, Diyarbəkirin, Ərdəhanın xəritəsini bilirəm. O vaxt bu bölgələr bizi çox maraqlandırırdı. Eyni zamanda onlara bizdə həmişə bir sevgi, məhəbbət vardı.

70-ci illərdə mən Azərbaycana rəhbərlik edərkən Türkiyə ilə əlaqələr qurmağa çalışırdım. Ancaq Sovetlər Birliyi bizi sıxırdı, müstəqil hərəkət etməyə imkanımız yox idi. Amma 1992-ci ildə açdığımız "Həsrət körpüsü"nün, "Ümid körpüsü"nün əsasını mən o vaxt qoydum. Sonra Moskvada Sovetlər İttifaqının başçılarından biri olarkən həmin qərarın həyata keçirilməsinə şərait .yaratdım, onu təmin etdim.

Amma Sovetlər İttifaqının rəhbərləri də, ermənilər də, başqaları da bunu istəmirdilər. Deyirdilər, Sovetlər İttifaqı böyük bir ölkədir, bir tərəfdən Gürcüstandan, o biri tərəfdən Ermənistandan Türkiyəyə yolları var. Belə bir körpü nəyə lazımdır, ona nə üçün xərc qoyulsun? Belə iqtisadi məsələlər ortaya atırdılar. Amma mən buna nail oldum və Allah elə buyurdu ki, Moskva ilə vidalaşdım, gəldim Bakıya, sonra da gəldim Naxçıvana və həmin körpünün tikilməsi ilə şəxsən özüm məşğul oldum.

Siz o vaxtlar İqdırda oturmuşdunuz, bilmirdiniz ki, həmin işləri biz necə görürdük. Ancaq mən həftədə üç dəfə Arazın kənarına gəlirdim. Adamları çayın o tərəfinə, bu tərəfinə göndərirdik ki, körpünü tikək. Tikinti ləngiyirdi. Biz orada müvəqqəti körpü düzəltdik, xatirinizdədirmi, dəmir körpü idi. Körpü Arazın o tayında tikilirdi, bu işi Türkiyə öz üzərinə götürmüşdü. Bizim maddi imkanımız yox idi. Çayın bu sahili ilə əlaqə lazım idi ki, inşaatçılar gedib-gələ bilsinlər. Biz bunu yaratdıq. Mən həmin müvəqqəti körpünü açdım. Ola bilər, siz o vaxt İqdırda deyildiniz. Orada idiniz, hə? O vaxt hələ Sovet hökuməti, rus əsgərləri vardı. Mən elan etdim ki, sabah saat 10-da körpünün açılışı olacaq. Naxçıvandan oraya iyirmi minədək adam gəldi, mitinq keçirdik. Amma sizin tərəfdən adamlar gəlməmişdi, qorxmuşdular. Orada sizin sərhədçilər toplaşmışdılar, sərhədi qorumağa çalışırdılar. Bizim tərəfdən sərhədi qoruyanlar rus əsgərləri idilər. Orada bir polkovnik vardı, mənə tabe deyildi, amma şəxsiyyətimə hörmət edirdi. Mənə bildirdi ki, bunu etmək olmaz. Dedim ki, sən çəkil. [464-465] Əsgərləri gətirdi ki, bizim adamların qarşısını kəssinlər. Dedim, yox, əsgərləri götür, yoxsa bu insanlar onları əzəcəklər. Ara qızışdı, bu proses bir-iki saat çəkdi.

Mən elan etdim ki, biz özümüz sərhədi açırıq. Dəmirdən, taxtadan düzəldilmiş körpü çox kiçik idi. Onu açan kimi insanlar körpüyə doluşdular. Sizin tərəfdən sərhədçilər gəlib körpünün ortasında dayandılar ki, buraxmırıq, qayıtsınlar. İnsanlar da həsrətlə o tərəfə keçmək istəyirdilər. Çünki Naxçıvanda Türkiyəyə, Türkiyə

torpağına insanlarda o qədər məhəbbət, sevgi var ki, keçib oranı görmək istəyirdilər. Əslində orada, Arazın kənarında nə var ki, – heç nə yoxdur. Oradan Aralığa getmək üçün təxminən 40 kilometr, buradan da İqdıra getmək üçün 30 kilometr yol keçmək lazımdır. Amma insanlar bunu təsəvvür etmirdilər, elə bilirdilər ki, Arazın o tərəfinə keçdilər – elə Türkiyədir, Türkiyənin hər yerini görəcəklər.

Xatirimdədir, "Zaman" qəzetinin başqanı İlham bəy İşbilən mənim yanımda idi. Gördüm, körpüyə o qədər adam yığılıb ki, körpü uçacaq, insanlar da hamısı Araza töküləcəklər. Sizin adamlar da buraxmırdılar. Mən onlara bir az qışqırdım, geriyə çəkildilər və körpü açıldı. Təxminən on min adam Türkiyə torpağına keçdi. Keçənlər də orada dayanmır, qaçırdılar ki, mümkün qədər çox getsinlər. Bax burada, mənim yanımda olan Bəylər indi generaldır, mənim mühafizəçilərimin başçısıdır. O, sonra mənə danışırdı ki, getdim oradan torbaya yığıb torpaq gətirdim, Türkiyə torpağı. Bunu təsəvvür edirsinizmi?

Sonra mənə Moskvadan ittihamlar gəldi ki, – o vaxt hələ Moskva hakim idi, – Heydər Əliyev orada qanunsuz iş görüb, filan edibdir. Bunu qəzetlərə verdilər, televiziyada göstərdilər. Rus polkovniki də gəlib mənə dedi ki, sizin insanların bir çoxu Türkiyəyə gedib, amma qayıtmayıblar. Hətta mənə dedilər ki, iki gənc orada su kanalına düşüb boğulmuşdur. Belə bir faciə də olmuşdu.

Ondan sonra biz həmin körpünü işlətdik və nəhayət, böyük körpünü tikdik. Xatirinizdədir, 1992-ci il mayın 28-də hörmətli dostum, əziz qardaşım Süleyman Dəmirəl bütün Türkiyəni yığıb gətirdi. Naxçıvanın tarixində belə bir şey olmamışdı. Bütün nazirlər, 80 nəfər millət vəkili, nə qədər başqa insanlar gəlmişdi. O vaxt Süleyman Dəmirəlin bütün yardımçıları orada idi. Ərdal İnönü də, Tansu Çillər, Hikmət Çətin, İsmət [465-466] Sezgin də – hamısı orada idi, Naxçıvana gəldilər. Naxçıvandan o körpüyə qədər 75 kilometrdir. Türkiyədən gələn qonaqları qarşılamaq üçün bütün bu yolda insanlardan canlı divar çəkilmişdi. Bəlkə də otuz beş-qırx yerdə bizi saxlayaraq qurban kəsdilər. Amma o zaman Naxçıvanın vəziyyəti, yaşayışı çox ağır idi. Biz blokada şəraitində yaşayırdıq. Körpünü bax, belə açdıq.

Gəldilər, İqdırı gördülər. Hamı gəlib İqdırı ziyarət etdiyini deyir, özünü xoşbəxt adam hesab edirdi. Ona görə də Türkiyənin bir məntəqəsi kimi İqdır və iqdırlılar Azərbaycan üçün çox. əzizdir.

İqdırlılar otuz il idi ki, istəyirdilər İqdır vilayət olsun, siz buna il deyirsiniz. Otuz il idi siz mübarizə aparırdınız, amma alınmırdı. Bunu da etdik. Yəni baş nazir, hörmətli Süleyman Dəmirəl mərhum Turqut Özalla birlikdə belə bir qərar qəbul etdilər. İqdır da vilayət oldu. Bu, çox böyük işdir. Sizin üçün də böyük işdir. Amma bizim üçün, Azərbaycan üçün də böyük işdir. Siz Qarsa bağlı idiniz. Qars ilə İqdır arasında nə qədər məsafə var. İqdır vilayət olandan sonra daxili imkanları artır. Mən o vaxtlar həm hörmətli Süleyman Dəmirələ, həm də mərhum Turqut Özala deyirdim ki, İqdırın bu problemini həll edin, iqdırlılar bunu arzulayırlar, azərbaycanlılar – naxçıvanlılar da bunu istəyirlər. Bu, bizim üçün, Naxçıvan üçün də lazım idi. Səbəblərini bilirsiniz.

Ona görə də İqdır bizim üçün, əzizdir. Mən də İqdırı əziz bir yer sayıram. Mən keçmişdə, Sovetlər İttifaqı zamanı Türkiyədə olmuşdum. Təyyarə ilə gedib-gəlmişdim. Amma Naxçıvanda olarkən Türkiyəyə ilk səfərlərim İqdırdan başlamışdı. Xatirimdədir, iqdırlılar məni necə qarşılayırdılar. Məni bir kilometr əlləri üstündə apardılar. Bələdiyyə idarəsinin qarşısında çıxış da etmişdim.

Bunlar hamısı təbiidir, çünki biz bir millətik, bir xalqıq. Biri Arazın o tayında, biri bu tayındadır. Hamımız birik, köklərimiz də birdir. Ona görə mənim İqdıra da, iqdırlılara da xüsusi münasibətim var.

İqdır Naxçıvan üçün, Azərbaycan üçün dayaqdır. Bilirsiniz ki, Ermənistan səkkiz ildir ki, Azərbaycana qarşı təcavüz edibdir, torpaqlarımızı işğal edibdir. Naxçıvan Azərbaycanın əsas ərazisindən ayn düşübdür. Bu da ədalətsizlikdir, çünki Naxçıvanla Azərbaycanın qalan hissəsi arasında olan Mehri rayonu ki var, o da Azərbaycanındır. Amma Azərbaycana düş[466-467]mənçilik edən adamlar 20-ci illərdə o yerləri Ermənistana verərək Naxçıvanı Azərbaycanın əsas hissəsindən ayırıblar. Ermənistana da bu lazım idi ki, İranla sərhədi olsun. Bunu o vaxt Moskvada oturanlar, Ermənistana kömək göstərənlər ediblər, ədalətsizlik ediblər. Ancaq bu, olub.

Naxçıvan Azərbaycanı Türkiyəyə bağlayan ərazidir. Bu tərəfdən Naxçıvan, o tərəfdən də İqdır – hər ikisinin böyük əhəmiyyəti var. Naxçıvanın qorunması, Ermənistanın təcavüzündən müdafiə edilməsi üçün İqdırın çox böyük əhəmiyyəti var. İqdırla Naxçıvan arasında bilavasitə əlaqələr çox sıx olmalıdır. Mən Naxçıvanda olanda da bunu etməyə çalışmışam, indi də Naxçıvanın rəhbərlərinə daim tövsiyə edirəm ki, bunu etmək lazımdır.

İqdırlılar, Türkiyədə olan qardaşlarımız və xüsusən azərilər Azərbaycanda gedən proseslərdə, milli müstəqillik, dövlət müstəqilliyi əldə etmək üçün mübarizəmizdə bizə mənəvi dayaq olublar, mətbuatda çox işlər görüblər, mitinqlər keçiriblər. Bunlar hamısı qiymətlidir. Bu belə də olmalıdır. Türkiyə gərək indi də Azərbaycanın dərdi ilə yaşasın. Çünki Türkiyə böyük gücü olan dövlətdir. Azərbaycan isə gənc müstəqil bir dövlətdir, müstəqilliyini yenicə əldə edib, ancaq torpağının 20 faizi işğal olunub, bir milyon əhalisi qaçqın vəziyyətindədir. Bunları unutmaq lazım deyil.

Bir vaxtlar Sovetlər İttifaqı ilə Türkiyə arasında münasibətlər çox soyuq idi, gedib-gəlmək imkanımız yox idi, xüsusən mən burada, Azərbaycanda işləyən zaman, Azərbaycandan tutaq ki, Amerikaya yaxud Almaniyaya, Avropanın hər hansı ölkəsinə bir nümayəndə heyəti gedirdisə, bunun problemi yox idi. Amma Türkiyəyə getməyə Moskvada maneçilik edirdilər. Çünki heç vaxt istəmirdilər ki, Azərbaycan Türkiyə ilə yaxınlaşsın. Ermənilər də həmişə Moskvaya məlumat verir, çalışırdılar ki, Türkiyə ilə Azərbaycanın yaxınlaşmasına imkan olmasın.

İndi bunlar aradan götürülüb, biz müstəqil dövlətik. Sərhədlərimiz, yolumuz açıqdır, gedib-gəlirik. Ancaq bu o demək deyil ki, bütün problemlər həll olunub. Yox, olunmayıb. Azərbaycan üçün həll olunmayıb. Türkiyə üçün də həll edilməyibdir Bunu bilməlisiniz. İndi Ermənistan hərbi ittifaqlar, birliklər yaradır. Siz eşitdiniz ki, bu yaxınlarda Ermənistan Yunanıstanla strateji saziş bağlayıbdır. Eyni saziş bir il bundan öncə Rusiya ilə də bağlanıbdır. Kimə qarşı, kimin [467-468] əleyhinə? Yunanıstan sizinlə keçmişdə də savaşda olubdur, Ermənistan da savaşda olubdur. İndi Ermənistan həm Yunanıstanla, həm Suriya ilə, həm də Rusiya ilə strateji saziş bağlayır. Bunları görməmək olmaz.

Siz Ermənistanla da sərhəddəsiniz. Mən eşidirəm ki, İqdırda bəziləri çox təlaş edirlər ki, oradan Ermənistana qapı açmaq lazımdır. Neyləyirsiniz o qapını? Hörmətli Məsud Yılmaz buraya gələrkən bəzi iqdırlılar bu qapını açmaq istəyirdilər. Mən buna etiraz etdim. Süleyman bəyə də dedim. O qapı nəyə lazımdır? Onsuz da PKK-nı dəstəkləyənlərin hamısı sərhədin o tayında oturub. Bilirsinizmi o sərhədlə Ermənistandan sizə nə qədər casus göndərirlər, PKK-nı dəstəkləyirlər? Bunları bilməlisiniz. İndi qapı da açırsınız ki, onların işlərini daha da asanlaşdırasınız? Siz qapını açanda tacir-tüccar gedib bir şey satacaq, bir şey alacaqdır. Amma dövlətinizə, millətinizə nə qədər zərbə vurulacaqdır. Bunları düşünmək lazımdır. Böyük siyasəti kiçik hisslərə, xırda mənfəətlərə bağlamaq olmaz. Hər bir vətəndaş gərək ölkəsinin böyük siyasəti haqqında düşünsün, kiçik mənfəətləri, maraqları haqqında düşünməsin. Mən bunları sizə dost, qardaş olaraq, bır də bu işləri yaxşı bildiyimə görə deyirəm.

Bir məsələni də deyim. O vaxtlar ki, Sovet İttifaqında kommunist rejimi var idi. Azərbaycan Sovetlər Birliyinin tərkibində idi, Türkiyə ilə əlaqə yox idi, orada Azərbaycan kültür dərnəyi vardı. Bu, o vaxtlar – 20-30-cu illərdə Azərbaycandan mühacirət etmiş və qəlbləri Azərbaycanla döyünən azərilər tərəfindən yaradılmış kültür dərnəyidir və onun da böyük xidmətləri olmuşdur. O, mərhum Məmməd Əmin Rəsulzadənin vaxtında yaradılmış və ondan sonra da davam etdirilmişdi. Bu dərnəyə girən adamların bir qismi də İqdırdan olmuşdur, bu da sizə məlumdur. Onların xidmətləri məlumdur və tarixdə qiymətini alıbdır.

Amma indi Azərbaycan müstəqil dövlətdir. Türkiyə ilə də bütün əlaqələri var. İndi Türkiyədə Azərbaycana aid olan hər bir dərnək, yaxud təşkilat ölkələrimiz arasındakı əlaqələri daha da yaxınlaşdırmağa çalışmalıdır. Amma o dərnək kommunist rejimi vaxtında Azərbaycanda olan hakimiyyətin əleyhinə getdiyi kimi, indi də müstəqil Azərbaycan dövlətinin əleyhinə gedir. Orada bir neçə adam oturub, bəziləri də İqdırdan olanlardır, bilirsiniz, mən heç onların adlarını çəkmək istəmirəm, çünki layiq görmürəm. Amma o dərnəyin [468-469] tarixi xidmətlərinə hörmət etdiyimə görə, 1994-cü ilin fevralında hörmətli dostum, prezident Süleyman Dəmirəlin dəvəti ilə Türkiyəyə rəsmi səfərə gələrkən dedim proqrama salsınlar ki, mən o dərnəyin üzvləri ilə görüşüm. Dərnəyin başçıları – bir neçə adam mənimlə görüşməkdən imtina etdilər. Dedim ki, heç mən də görüşmək istəmirəm. Orada yaşayan azərbaycanlılar, yəni sağlam fikirli adamlar gəldilər. "Şeraton" otelində böyük bir salonda onlarla görüşdüm.

Dərnəyin nümayəndələri orada mənim əleyhimə məqalələr yazdılar, indi də yazırlar. Bunlar sizin adamlar iqdırlılardır. Nə istəyirlər, kimdir onlar, nə haqları var? Onlar Türkiyədə yaşayan azərilərin heç də hamısını təmsil etmirlər.

Yenə də deyirəm, o vaxt ki, burada kommunist rejimi vardı, Türkiyə ilə Azərbaycan arasında əlaqələr yox idi, onda o dərnəyin fəaliyyətinin əhəmiyyəti var idi. Amma dərnək köhnə əhval-ruhiyyə ilə yaşayırsa, yaşaya bilməz. Əgər Azərbaycana xidmət etmək istəyirsə, o dərnək bilməlidir ki, indi Azərbaycan müstəqil dövlət olub, onun hökuməti var, bu dövlətlə, hökumətlə iş görmək lazımdır. Əgər orada oturub Azərbaycanın qanuni hökumətinin əleyhinə iş görürlərsə, demək, Azərbaycana düşmənçilik edirlər. Orada bülleten buraxırlar, – bizim səfir mənə göstərmişdi, – yazırlar ki, Azərbaycanda belə oldu, elə oldu. Bu nədir, bizə düşməndirlər, Azərbaycana düşmənçilik edirlər?

Mən burada Türkiyənin bütün mənafelərini təmin etmişəm. Türkiyə dövləti ilə, bütün Türkiyə ilə sıx qardaşlıq əlaqələrimiz var. Bu dərnək isə orada özlərinə bir "dövlət" yaradıb bizim buradakı müxalifətlə Azərbaycanın əleyhinə gedir. Belə şeylər yaramaz. Biz demokratiya tərəfdarıyıq və onu tətbiq etdik; konstitusiya qəbul etdik, çoxpartiyalılıq əsasında parlament seçkiləri keçirdik. Hər şey var, sabitlikdir.

Düz üç il bundan öncə, iyun ayında mən Naxçıvandan buraya gəlmişəm. Mən gəlmək istəmirdim. Həmin o dərnəyin dəstəklədiyi adamlar, Xalq Cəbhəsi burada hakimiyyətdə bir il qala bilmədi. Vətəndaş müharibəsi başlandı, Bakıda qan töküldü. Hakimiyyətə gəldilər, mən də Naxçıvanda onlara səs verdim, yardım etdim. Amma hakimiyyəti əldə saxlaya bilmədilər. Vətəndaş müharibəsi qalxdı, Azərbaycanı parçalamağa başladılar. Bir tərəfdən həmin Xalq Cəbhəsinin liderlərindən olan Rəhim Qazıyev, digər tərəfdən Talış Cümhuriyyəti yaratmaq istəyən Əlikram Hümbətov, – o da [469-470] Xalq Cəbhəsinin liderlərindən idi, – o biri tərəfdən İskəndər Həmidov, İsa Qəmbərov, Pənah Hüseynov, Əbülfəz Elçibəy Azərbaycanı parçaladılar.

Məcburiyyət qarşısında qaldılar, xalq məni dəvət etdi. Mənim dalımca Naxçıvana beş-altı gün təyyarələr gəldi. Dedim ki, gəlməyəcəyəm. Naxçıvanı qoruyacağam. Başqa şey istəmirəm. Ancaq özləri dəvət etdilər. Əbülfəz Elçibəy neçə dəfə mənə telefonla müraciət etdi ki, rica edirəm, gəlin. Buraya gəldim, ancaq işləmək üçün yox, sadəcə olaraq öz məsləhətlərimi vermək üçün. Amma mənə dedilər ki, gəl, parlamentin sədri ol. Dedim, olmaram. Mənimlə bir həftə danışıqlar apardılar. Bir həftə razılıq vermədim. Sonra gördüm ki,

Azərbaycan dağılır, parlamentin sədri olmağa razılıq verdim. Ondan iki gün sonra Əbülfəz buradan qaçdı, üç ildir dağlarda yaşayır. Bilirsiniz, vəzifə tutmusansa, xalq səni seçibsə, sona qədər dayanmalısan – ya borcunu yerinə yetirməlisən, ya da həlak olmalısan. Qaçıb canını qurtarmaq qəhrəmanlıq deyil, buna fərarilik deyirlər – ordudan, səngərdən, döyüş meydanından qaçmaq deməkdir. Bu, qəhrəmanlıq deyil.

Mən üç il meydanda tək qaldım, bu üç ildə Azərbaycanda sabitlik yaratdım. İndi o kültür dərnəyi nə istəyir, – Azərbaycanda yenə qovğamı istəyir, qan tökülməsini, silahlı dəstələrmi istəyir? Burada məni üç dəfə devirmək istədilər, bacarmadılar. Bir dəfə Surət Hüseynov devirmək istədi, xalqı çağırdım. Siz televiziyada gördünüz, mənim bir çağırışımla nə qədər xalq yığışdı. Amma Əbülfəz Elçibəy xalqa müraciət etdi, xalq onu müdafiə etmədi, məni Naxçıvandan dəvət etdilər.

Mən bilirəm, siz kültür dərnəyi ilə əlaqədəsiniz, ona görə də sizə deyirəm – gedin onları başa salın. Buraxılmasını xahiş etdiyiniz şəxs də həmin dərnəyin adamıdır, onun göstərişi ilə burada Azərbaycanın əleyhinə materiallar toplamaq üçün gəlibdir. Bu adama görə yox, sizə, iqdırlılara hörmət edərək onu əfv edirəm. Amma bilirsinizmi onu necə tutublar? Pənah Hüseynovla birlikdə maşında tutublar. Üç il idi Pənah Hüseynov qaçıb gizlənirdi, bizim polis onu tuta bilmirdi. Bu isə gedib onu haradan tapıbdır? Pənah Hüseynovla nə işi var – qəzetçidir, gəlsin öyrənsin ki, nə var nə yox, sonra gedib yazsın. Nə yazır yazsın. Pənah Hüseynovla – üç il axtarışda olan, gizlənən, cinayət etmiş adamla nə işi var? O biri – Arif [470-471] Hacıyev Müsavat Partiyasındandır, bizə müxalifətdə olan adamdır, onunla nə işi var? Qəzetçi sərbəst adamdır, öz işi ilə məşğul olsun. O, həmin dərnəyin adamıdır. Gəlib Pənah Hüseynovla görüşməsi onu göstərir ki, dərnək Azərbaycanın əleyhinə iş aparır. Azərbaycanın indiki hakimiyyətinə qarşı düşmənçilik edir. Ancaq burada neçə-neçə silahlı dəstələr Azərbaycanın bugünkü hakimiyyətinə bir şey edə bilməyiblərsə, dərnəkdəki ağlını itirmiş bəzi adamlar heç nə edə bilməzlər.

Mən o adamı, birincisi, sizə görə, ikincisi İqdıra olan məhəbbətimə görə, üçüncüsü, qəzetçi olduğuna görə, – qəzetçilərə mənim hörmətim var, – günahı da varsa, bağışlayıram. İndi əmr verəcəyəm, bu gün azad etsinlər, götürüb aparın. Ancaq mənim bu sözlərimi, birincisi, özünüz yadda saxlayın, ikincisi, o dərnəyi yığın, başa salın – onların nə bu günü, nə də gələcəyi var. Müstəqil Azərbaycanın və onun prezidenti Heydər Əliyevin Azərbaycanın müstəqilliyini qoruyub saxlamaq üçün böyük gələcəyi var. Bunu unutmasınlar. Əgər onlar Azərbaycanı sevirlərsə, xalq tərəfindən seçilmiş hakimiyyətlə əməkdaşlıq etsinlər. Yoxsa, nə ilə razıdırlar, nə ilə yox – kimdir onlar? Kültür dərnəyi olub Azərbaycana nə xidmət ediblər? Heç bir şey. Burada, Azərbaycanda canlarından keçib, ölkəni bu günə çatdıran adamlar var. Bakını görürsünüz, onu yaradanlar var. İqdır gözəl yerdir. Ancaq mən gedib oranı görəndə dedim ki, əcəba, nə üçün İqdır belə kasıbdır? Acığınız gəlməsin, mən həqiqəti deyirəm. Naxçıvana da baxın, İqdıra da baxın. Naxçıvan sovet hakimiyyəti şəraitində olub, İqdır yox. Biz Naxçıvanda nə qədər qurub-yaratdıq, zavodlar, fabriklər saraylar tikdik, iş yerləri açdıq. İqdırda nə var? İndi vilayət olub, güman edirəm, orada da dəyişikliklər olacaqdır.

Bu sözləri sizə ona görə deyirəm ki, Türkiyə ilə Azərbaycanın dostluğunun möhkəmlənməsini, orada yaşayan azərilərin daha yaxşı mövqe tutmalarını, ölkələrimiz arasında körpünü daha da qüvvətləndirmələrini və Azərbaycanın bu günü, gələcəyi üçün hər bir adamın çalışmasını istəyirəm. [471-472] Gəlib burada Azərbaycanın daxilini qarışdırmaq lazım deyildir.

İqdırda bələdiyyə başqanı var idi – Əli bəy, yaxşı bir insan, mənim yaxın dostumdur. O vaxtlar mən İqdıra gedib-gələndə bələdiyyə başqanı idi. Seçki sizin daxili işinizdir, bir müddət biri olur, sonra başqası. Heç kəs daimi deyildir. Ancaq mənim ona hörmətim var, siz, də ona hörmət edin və əməkdaşlıq edin. Mən dostluqda etibarlı adamam. [472-473]

## RESPUBLİKADA AQRAR İSLAHATLARIN GEDİŞİ VƏZİYYƏTİNƏ VƏ TORPAQ İSLAHATI HAQQINDA QANUN LAYİHƏSİNİN MÜZAKİRƏSİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ GİRİŞ SÖZÜ

*Prezident Sarayı*

*24 iyun 1996-cı il*

Aqrar bölmədəki islahatlarla əlaqədar vaxtilə təşkil olunmuş komissiyaların üzvlərini və ümumiyyətlə, aqrar islahatlarla məşğul olan orqanların, təşkilatların rəhbərlərini mən bu gün buraya dəvət etmişəm. Məqsədim bu işlərin gedişini təhlil etməkdən ibarətdir.

Bilirsiniz ki, 1995-ci ilin fevral ayında biz aqrar bölmədə islahatlar haqqında iki qanun qəbul etmişik və bu qanunların həyata keçirilməsini, onların icrasını təmin etmək üçün xüsusi komissiya təşkil etmişik. Eyni zamanda, aqrar islahatları geniş miqyasda aparmaq üçün bu müddətdə bir neçə dəfə görüşlər keçirilib, müzakirələr aparılıb. Biz ayrı-ayrı ölkələrdə, xüsusən Müstəqil Dövlətlər Birliyinə mənsub olan ölkələrdə aqrar islahatların aparılması ilə əlaqədar təcrübə ilə tanış olmaq üçün bəzi tədbirlər həyata keçirmişik. Bu islahatların bir neçə rayonda eksperiment şəklində geniş miqyasda keçirilməsi barədə də qərarlar qəbul etmişik. Şübhəsiz ki, bunlar öz nəticəsini veriblər. Ancaq hələ ki, biz aqrar islahatların həyata keçirilməsi, yəni aqrar bölmənin yeni prinsiplər əsasında işləməsi üçün qarşıda qoyduğumuz vəzifələrin hamısını yerinə yetirə bilməmişik, məqsədə nail ola bilməmişik.

Hesab edirəm ki, bir tərəfdən, qəbul etdiyimiz qanunların, qərarların həyata keçirilməsində səhlənkarlıq mövcuddur, amma eyni zamanda, təcrübənin olmaması və bəzi yerlərdə isə mühafizəkarlıq meylləri bu islahatların həyata keçirilməsinə maneçilik edir. Bu məsələ ilə dəfələrlə maraqlanarkən mənə bildirirlər ki, bu islahatları tamamilə geniş miqyasda həyata keçirmək üçün bir qanun da – torpaq islahatı haqqında qanun da lazımdır. Şübhəsiz ki, qanun lazımdır. Ancaq bu qa[473-474]nunu qəbul etmək üçün də, yəqin ki, bir çox işlər görmək, ölçüb-biçmək, təcrübə qazanmaq lazımdır.

İndi bu qanun layihəsi hazırlanıb, vaxtilə mənim fərmanımla yaradılmış komissiyada Arif Rəhimzadənin rəhbərliyi ilə bir neçə dəfə müzakirə olunubdur. Ancaq mənə məlumatlar veriblər ki, bu qanun layihəsinin bəzi müddəaları çox mübahisəlidir. Belə olan halda, şübhəsiz, mən həmişə məsləhət görürəm ki, məsələni bir daha, bir daha dərindən öyrənin, təhlil edin, məsləhətləşin, səhv buraxılmasın.

Bir şey hamıya aydın olmalıdır. Mən bunu dəfələrlə bəyan etmişəm və bu gün də deyirəm ki, iqtisadiyyatımızın bu günü və gələcəyi yalnız və yalnız iqtisadi islahatların həyata keçirilməsi ilə bağlıdır. Yolumuz budur, başqa yol yoxdur. Güman edirəm ki, ictimaiyyətimizin əksəriyyəti artıq bunu dərk edir. İslahatların bəzi yerlərdə həyata keçirilməsindən alınan müsbət nəticələr, mənfəətlər də insanları buna daha da inandırır. Ona görə də heç kəs başqa cür düşünməsin.

Bəziləri özlərini həddindən artıq islahatçı göstərmək istəyirlər ki, guya onlar çox islahatçıdırlar, amma başqaları mühafizəkardırlar. Onlar bu populist hərəkətlərindən əl çəkməlidirlər. Çünki burada dövlət siyasəti var. Dövlət siyasəti də prezident tərəfindən müəyyən edilir.

Bir prezident kimi mən Azərbaycanın aqrar bölməsində, ümumiyyətlə, iqtisadiyyatında dövlət siyasətini artıq müəyyən etmişəm. Bu, islahatlar yoludur, islahatlar vasitəsilə istehsalın artırılması, inkişaf etdirilməsi, mülkiyyətin özəlləşdirilməsi, özəl bölmənin inkişafına geniş yer verilməsi, bazar iqtisadiyyatı, insanlara sərbəstlik verilməsi, sahibkarlığa, təşəbbüskarlığa şərait yaradılmasıdır. Bu, dövlət siyasətimizin əsas prinsipləridir. Mən bunu dəfələrlə elan etmişəm.

Eyni zamanda, "Aqrar bölmədə islahatları belə aparmaq, elə aparmaq lazımdır" deyənlərdən daha yaxşı bilirəm və məlumatlıyam ki, iqtisadiyyatın aqrar bölməsi çox mürəkkəbdir. İndi biz özəlləşdirmə aparırıq. Məsələn, yanacaqdoldurma məntəqələrinin satılması o qədər də problem deyil. Onları ilk dəfə satmaq istəyən adamlar satıb pulun bir hissəsini ciblərinə qoymaq istəyirdilər. Biz bunun qarşısını aldıq. Ona görə də bu iş ləngidi. Ola bilər, belə şeylər olacaq, çünki biz bundan tamamilə sığortalanmamışıq. Ancaq bunlar o qədər də böyük problemlər deyil. Mağazalar da, başqa kiçik müəssisələri də özəl bölməyə satmaq problem deyil. Şübhəsiz ki, böyük müəs[474-475]sisələri özəlləşdirmək bunlara nisbətən mürəkkəb problemdir. Amma bunun da yollan məlumdur.

Aqrar bölmədə xüsusən torpaqla əlaqədar olan məsələ ən mürəkkəb məsələdir. Torpaqda işləməmiş, ömrünü Bakının küçələrində keçirmiş adamlar elə bilirlər ki, bu, asan məsələdir. Amma asan deyil. Mən bunu bir neçə dəfə demişəm, bir daha deyirəm. Vaxtilə, oktyabr inqilabından sonra kollektivləşmə prosesinə nail olmaq üçün on ildən çox vaxt keçdi. 1929-1930-cu illərdə kollektivləşmə proqramı oldu, kolxozlar yarandı, şəxsi mülkiyyətdən torpaqlar, kənd təsərrüfatı istehsal vasitələri alındı – bütün bunlar təzyiqlər, inzibati

tədbirlərlə, insanların repressiyası, məhkum olunması ilə baş verdi. Bunlar tarixdən məlumdur ki, o vaxt qolçomaqları sürgün edirdilər. Torpaqların, ümumiyyətlə, kənd təsərrüfatının kollektivləşdirilməsinə mane olanları aradan götürürdülər, sürgün edirdilər. Muzdurları onların üzərinə qaldırırdılar. Yəni böyük bir repressiya gedirdi. Bütün bunlar da təsadüfi deyildi. Çünki nəsildən-nəslə keçmiş torpaq mülk sahibinin idi. Onun torpağı, mülki, mal-qarası var idi və bunları tutub əlindən alanda, əlbəttə ki, o, müqavimət göstərəcəkdi. Bu, təbii bir şeydir. Ancaq o vaxtkı rejimin nə qədər sərt İ olmasına baxmayaraq kollektivləşdirmə prosesini bir-iki ilə aparmaq mümkün olmadı, nə qədər vaxt keçdi, qanlar töküldü, insanlar repressiya edildi.

Bundan sonrakı dövrdə insanların bir çoxu bunun əksi olan psixologiya ilə tərbiyə edildi. Onlar da fikirləşirlər ki, kolxozsuz, sovxozsuz yaşaya bilməzlər. Bu psixologiyanı da dəyişdirmək üçün indi biz inzibati bir iş görə bilmərik və görməyə də ehtiyac yoxdur, buna yol vermək, məcburi iş görmək olmaz.

Ona görə də torpaq islahatı, torpaq mülkiyyətində dəyişiklik aparmaq çox çətin məsələdir. Əvvəllər keçirdiyimiz görüşlərdə mən bunu bir neçə dəfə demişəm. Məsələn, mal-qaranın özəlləşdirilməsinə çox müqavimət göstərirlər, ancaq biz bunu çox yerlərdə həyata keçiririk. Məsələn, biz Naxçıvanda bu işə 1992-ci ildə başlamışdıq. Mən dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri ilə görüşümdə maraqlandım. O mənə dedi ki, Şahbuz rayonunda iki kolxozda qalıb, orada bir qədər mühafizəkarlıq edirlər, qalan yerlərdə bütün mal-qara kəndlilərə verilib, satılıb. O mənə dedi ki, indi hər tərəf – çöl, səhra mal-qaradır, qoyun-quzudur. Soruşuram ki, ət necədir, deyir ki, doludur. Mən Naxçıvanda yaşayanda, – hər halda [475-476] mənim o vaxtkı yaşayış şəraitimi bilirsiniz, – bir də görürdün, xəbər gəlirdi ki, sabah səhər Cəhri kəndində ət kəsəcəklər. Yığışıb gedirlər ki, görsünlər kim tez bir kilo, iki kilo ət ala bilər. Bir neçə gündən sonra deyirdilər ki, Nehrəm kəndində ət kəsəcəklər. Ora gedirdilər. Çünki mağazalarda ət yox idi. İndi mənə danışırlar ki, Naxçıvanda küçələrdə, bazarlarda, hər yerdə ət var. Həmin yer, həmin torpaqdır, indi necə olur ki, orada hər yer ətlə doludur? Hətta deyirlər ki, əti aparıb sərhəddən o tayda da satırlar.

Təəssüf ki, Azərbaycanın bir çox başqa rayonlarında bu proses ləng gedir. Ona görə də bu il aprelin 2-də biz müşavirə keçirərkən bir daha ciddi göstəriş verdim ki, bunu etsinlər. Yəqin, vəziyyətin nə yerdə olduğu barədə bu gün məlumat verəcəklər. Mənim narahatçılığım yoxdur, bu proses gedir və bir neçə müddət də gedəcəkdir. Kənd təsərrüfatı naziri də mənə bir neçə dəfə məlumat veribdir ki, Bakının özündə də hər yerdə ət doludur, onun qiyməti də qalxmır, hətta deyirlər aşağı düşür. Yəni demək istəyirəm ki, heyvandarlıq sahəsində bu tədbirləri keçirməkdə problemlər var, amma çətin deyil.

Torpaq problemi isə ayrı-ayrı regionlarda müxtəlif xarakter daşıyır. Bununla mən bu gün onu demək istəyirəm ki, birincisi, fevralda qəbul etdiyimiz qanunlar ləng icra edilir, ikinci tərəfdən də mən bu məsələnin mürəkkəbliyini bilirəm. Amma bunlara baxmayaraq nə qədər mürəkkəb olsa da, biz bu mürəkkəb məsələni iqtisadiyyatımız, vətəndaşlarımızın rifah halı üçün doğru-düzgün həll etməliyik.

Xatirinizdədir, vaxtilə mən müxtəlif respublikalara nümayəndə heyətləri göndərdim ki, getsinlər, onların təcrübələrini öyrənsinlər. Xəbər gəldi ki, Rusiyanın Oryol, Nijni Novqorod vilayətlərində islahatlar yaxşı nəticələr veribdir. Mənim göstərişimlə oraya gedən nümayəndə heyətinə Arif Rəhimzadə rəhbərlik edirdi. Onlar gedib həm Oryol, həm də Nijni Novqorod vilayətlərində olublar. Orada yaxşı təcrübə əldə edilib. Mən göstəriş vermişdim ki, digər sahələrdəki təcrübə ilə də yaxından tanış olsunlar, harada yaxşı nə varsa, onu götürək. Amma hansı sahədə səhv varsa, biz ona yol verməyək. Hesab edirəm ki, bizim bu sahədə müəyyən üstünlüyümüz var. Yəni biz tələsməmişik, ona görə də müxtəlif ölkələrdə, regionlarda olan təcrübədən daha da səmərəli istifadə edə bilərik.

Bu gün mən işimizi belə planlaşdırıram. Fevralda qəbul et[476-477]diyimiz iki qanunun icrası haqqında Abbas Abbasov məlumat versin. Torpaq islahatına aid hazırlanmış qanun layihəsi haqqında Arif Rəhimzadə məlumat versin və bu qanun layihəsinin məzmunu, mənası, çatışmayan cəhətləri, mübahisə doğuran yerləri, yaxud bu qanunun əhəmiyyəti haqqında danışsın. Bundan sonra fikir mübadiləsi aparaq. Ancaq xəbərdarlıq edirəm ki, bu gün danışıqlarımız, çıxışlar çox yığcam və konkret olmalıdır. Çıxış edənlərin hər biri çalışsın ki, konkret söz, fikir söyləsin, təklif desin, yaxud təcrübə haqqında yığcam məlumat versin. Yəni vaxtımıza qənaət etmək lazımdır. Mənim bu gün bir neçə başqa tədbirlərim do var. İmkan vermək olmaz ki, vaxt çox getsin.

## YEKUN SÖZÜ

Görürəm ki, bu qanun layihəsinin 11-ci maddəsi ətrafında çox söhbət gedir. Mübahisə də, fikir ayrılığı da əsasən bu maddə ilə əlaqədardır. Deyəsən, başqa maddələrlə bağlı o qədər də müxtəlif fikirlər yoxdur. Ancaq eyni zamanda bugünkü müzakirə bir daha təsdiq edir ki, torpaq islahatı aparmaq həqiqətən mürəkkəb bir prosesdir. Lakin biz bu işi görməliyik və torpaqda mülkiyyətin forması dəyişməlidir, konstitusiyamızda yazıldığı kimi, torpaq üzərində də xüsusi mülkiyyət olmalıdır. Bunların hamısı yalnız və yalnız respublikanın torpaqlarından ölkəmizin iqtisadiyyatının inkişafı üçün və əhalinin, vətəndaşların rifahının yaxşılaşması üçün daha səmərəli istifadə etmək məqsədi daşıyır.

Torpaq daim insanların ən böyük sərvəti olubdur. Hər şey torpaq üzərində qurulur. Bəşər tarixi torpaqdan istifadə üzərində meydana gəlib və əsrlər boyu bəşəriyyətin bugünkü vəziyyətinə gəlib çıxmasına xidmət

edibdir. Ona görə də bir tərəfdən, biz torpağı qorumalıyıq, ona çox diqqətlə, çox qayğı ilə, – çox ehtiyatla yanaşmalıyıq. Torpağın hər bır kvadratmetri bizim üçün əziz və əvəzsiz bir sərvətdir. Biz torpağa bu mövqedən yanaşmalıyıq. Bununla yanaşı, torpaqdan səmərəli istifadə olunması üçün bundan sonra çox ciddi işlər, çox ciddi tədbirlər görməliyik.

Ümumiyyətlə, bu gün torpaq islahatından söhbət gedəndə Azərbaycanın bütün torpaqları göz qabağına gəlir. Bütün torpaqları. Əldə etdiyimiz nailiyyətləri qiymətləndirməklə yanaşı, deməliyik ki, təkcə kənd təsərrüfatı məhsullarının istehsalı [477-478] üçün yox, ümumiyyətlə, torpaqlardan səmərəli istifadə etmək prinsipləri daim pozulubdur. Təkcə kənd yerlərində deyil, yəni kənd təsərrüfatı məhsulları istehsal edilən torpaqlarda deyil, şəhərlərdə də binaların, istehsal müəssisələrinin tikilməsində, yolların çəkilməsində, insan yaşayışı üçün lazım olan bütün qurğuların yaradılmasında torpağa münasibət həmişə çox səthi olubdur. Belə düşünüblər ki, torpaqdır, onun üstündə hər şey tikmək olar. Amma harada nə tikmək lazımdır, harada hansı binanı ucaltmaq lazımdır, torpağın hansı hissəsindən bağ üçün, bağça üçün istifadə etmək lazımdır, şəhərin hansı hissəsində, məsələn, bina, fabrik, zavod tikmək mümkündür, torpağın hansı hissəsində bitki əkilməlidir, məhsul istehsal edilməlidir, hansı hissəsi isə otlaq, yaxud meşə olmalıdır, hansı hissəsi Azərbaycanın təbiəti kimi qorunub saxlanılmalıdır. Bu məsələlər cəmiyyətimizdə alimləri də, ayrı-ayrı adamları da narahat edibdir. Bu bir tərəfdən. Digər tərəfdən isə bu işlərdə, bu məsələlərdə pərakəndəlik, bəzən özbaşınalıq, bəzən də torpağın çox qiymətli olduğunu dərk etməmək belə hallara gətirib çıxarmışdır.

Biz XX əsri sona çatdırırıq, 2000-ci ilə yaxınlaşırıq. Biz tarixin böyük bir ayrıcındayıq. Bir neçə ildən sonra üçüncü minilliyə qədəm qoyacağıq. Bu dünyada, yəni bizim planetimizdə insanlar nə qədər yaşayırlarsa, onların torpağa olan ehtiyacları da gündən-günə bir o qədər artır, torpağın qiyməti də bir o qədər artır. Biz indi müstəqil dövlətik, öz taleyimizin sahibiyik. Ərazimiz də o qədər böyük deyil, torpaqlarımız da o qədər çox deyil. Əhalimiz də artır, bundan sonra da artacaqdır. Ona görə də bu məsələyə çox qlobal mövqelərdən yanaşmaq lazımdır. Ümumiyyətlə, Azərbaycanın təbiəti, bütün torpaqları haqqında düşünmək gərəkdir. Bizim bu barədə gərək böyük dövlət proqramımız olsun.

İndi biz torpaq islahatı haqqında qanunun layihəsini müzakirə edirik. Sadəcə olaraq bu torpaqdan necə istifadə edilməsi, xüsusən kənd təsərrüfatı məhsulları üçün istifadə olunması haqqında danışırıq.

Amma mən sizi ümumiyyətlə bu məsələdən daha ətraflı danışaraq Azərbaycanın bütün təbiətinə, bütün torpaqlarına qlobal nöqteyi-nəzərdən baxmağa dəvət edirəm. Buna görə də fikirləşirəm ki, bizim ümumiyyətlə Azərbaycanın təbiəti ilə əlaqədar, Azərbaycanın bütün torpaqları ilə əlaqədar dövlət proqramımız olmalıdır. Bəlkə bu barədə bir qanun, böyük bir [478-479] dövlət proqramı da qəbul etməliyik ki, təkcə kolxoz və sovxozlarda olan torpaqlar deyil, ümumiyyətlə bütün torpaqlarımızdan bundan sonra necə istifadə olunmasını müəyyənləşdirmək, Prinsip də bundan ibarət olmalıdır: qurmaq, qayğıkeşliklə yanaşmaq, torpağın qiymətli olduğunu daim dərk etmək və cəmiyyətə, ictimaiyyətə çatdırmaq, torpağa münasibəti tamamilə dəyişdirmək.

Güman edirəm ki, Nazirlər Kabineti, mənim aparatım, Prezident Aparatı bu məsələlərlə məşğul olmalı və mənə xüsusi təkliflər verməlidirlər.

Konkret surətdə müzakirə edilən məsələ haqqında isə onu demək istəyirəm ki, şübhəsiz, torpağı şəxsi mülkiyyətə vermək lazımdır. Amma bunu elə etmək lazımdır ki, bu proses hətta həyata keçirildiyi zaman da bizə zərər gətirməsin. Əksinə, bu prosesin həyata keçirildiyi dövrdə də biz bu qanunun, yaxud bu tədbirin müsbət nəticəsini, səmərəsini görə bilək.

Burada müxtəlif fikirlər söylənildi və bu, əvvəlki müzakirələrdə də olubdur. Bəziləri deyir ki, torpağı kənddə yaşayanların hamısına vermək lazımdır, digərləri deyir ki, torpaq yalnız təsərrüfatla bağlı olan adamlara verilməlidir, başqaları isə deyir ki, adamları kateqoriyalara bölmək, kimə az, kimə çox torpaq vermək lazımdır. Bu fikirlərin hamısında əsas var. Yəni cürbəcür fikirlərin olması da bu məsələnin həqiqətən nə qədər mürəkkəb olduğunu bir daha nümayiş etdirir. Bu gün görüşümüzün əvvəlində dediyim kimi, buna görə də bu məsələyə səthi, ötəri yanaşmaq olmaz. Gördüyünüz kimi, mən maraqlandım ki, təcrübə nədən ibarətdir, məsələn, Rusiyanın qabaqcıl vilayətləri olan Oryol vilayətində, yaxud Nijni Novqorod vilayətində nəticə, səmərə nədən ibarətdir? Məmməd Abbasov Nijni Novqorod vilayətində görülən işlərin nəticəsi haqqında yazını burada oxudu. Mən onları da qınamıram, yəni onlar heç bir şeydə günahkar deyildirlər. Onlar iş görüblər, işin müsbət nəticəsi də var, mənfi nəticəsi də. Bu işi biz də görürük. Ona görə də düşünməliyik ki, bu iş özbaşına rəvan getməyəcəkdir. Bunun çətinlikləri də olacaqdır.

Ancaq mən hesab edirəm ki, bir prinsip əsas götürülməlidir. Bu, ədalət prinsipidir. Sosial ədalət prinsipi. Keçmişdə Azərbaycanda, ümumiyyətlə başqa ölkələrdə də torpaqlar mülkədarların əlində olubdur. Bilirsiniz ki, 1861-ci ildə Çar Rusiyasında torpaq islahatı aparılıbdır. Təhkimçilik hüququ [479-480] deyirdilər, onu ləğv ediblər. Gördüyünüz kimi, torpaqla hələ o vaxtlar da məşğul olublar. Sonralar Stolıpin islahatları deyilən islahatlar aparıldı, siz onu da bilirsiniz. Oktyabr inqilabından sonra sosialist quruluşu, kommunist rejiminin qanunları meydana gəldi. Lakın torpaq ümumiyyətlə həmişə şəxsi mülkiyyətdə olubdur. Amma keçmişdə şəxsi mülkiyyət şəraitində də hər adamda torpaq olmayıbdır. Keçmişin ədalətsizliyi bundan ibarət olub ki, torpağı vərəsəliklə nəsildən-nəslə veriblər – kimin ki, torpağı vardı, torpaq onunku olubdur, o da torpağını genişləndirib. Torpaq sahibləri olubdur, qalan adamlar da o torpaq sahiblərinin mülklərində, malikanələrində

işləyiblər. Məsələn, bilirsiniz ki, Baltikyanı respublikalarda, Şərqi Avropa ölkələrində – kollektivləşmə aparılıb torpağın kolxozlara verildiyi ölkələrdə də bu .proses çox gərgin gedir. Məsələn, Rumıniya prezidenti cənab İliyesku onlarda çətinliklərin nədən ibarət olduğunu mənə danışdı. Keçmişdə, 1945-1946-cı illərə qədər onlarda torpaq şəxsi mülkiyyətdə olubdur. Odur ki, onlar qərar qəbul etdilər ki, torpaqlar həmin illərədək kimin olubsa, onlara verilsin. Ona görə də bir para adamlar deyiblər ki, bu torpaq mənimdir, o torpaq mənimdir. Bəs onlardan sonra gələnlər?

Litva prezidenti Brazauskas mənə danışırdı ki, onlarda vaxtilə belə bir qanun qəbul ediblər və böyük çətinliklərlə qarşılaşıblar. Şükürlər olsun ki, bizdə belə deyildir. Amma keçmişdə torpaqlar ayrı-ayrı mülkiyyətçilərin əlində olubdur, torpağı onların əlindən alıblar, ümumiləşdiriblər, torpaq kollektiv mülkiyyət olubdur və bu kollektiv mülkiyyətdə hər adamın öz payı olubdur. Amma bununla yanaşı onların real payı olmayıbdır. Keçmişdə cürbəcür mərhələlərdə cürbəcür ədalətsizliklər olubdur. Gərək indi biz bu ədalətsizliyə yol verməyək. Keçmiş vaxtlarda nə olubsa, olubdur. Bu qaldı arxada. Biz indi gərək bu islahatı elə quraq ki, ədalətsizliyə yol verməyək. Sonra nə cür olacaq? Bu proseslər müəyyən qədər görünür. Amma bunlar artıq bazar iqtisadiyyatının qanunları ilə meydana gələn proseslərdir. Mən də bu fikirdəyəm.

Burada bəziləri belə fikir söylədilər ki, torpağı, məsələn, hamıya paylayanda hamının torpaqdan istifadə etməyə imkanı olmayacaqdır. Yəni biri sadəcə olaraq torpaq alacaq, lakin görəcək ki, ondan istifadə edə bilmir. Biri başqa işlə məşğuldur, torpaq payını alır, amma bu işə baş qatmaq istəmir, [480-481] çünki onun başqa işi var. Buna görə də o, torpağı ya qohumuna verəcək, ya satacaq, ya da icarəyə verəcəkdir. Bunların hamısı olacaqdır. Torpaq islahatından sonra bir proses – təmərküzləşmə prosesi gedəcəkdir. Bəli, bu proses, şübhəsiz, gedəcəkdir. O şəxslər, o mülkiyyətçilər, yaxud torpağa bağlı olacaq, torpaqdan səmərəli istifadə edə biləcək ailələr bu işlə məşğul olacaqlar və onların ətrafında o xırda torpaq sahibləri də bəlkə birləşəcəklər. Amma bu, prosesin ikinci mərhələsidir. Bu, artıq təbii, obyektiv proses olacaqdır. İndi isə biz bu işi tənzimləyirik. Biz onu tənzimləyərkən, yəni qərar qəbul edərkən gərək sosial ədalətsizliyə yol verməyək. Yəni sosial ədalət prinsipini əsas götürək. Biz gərək sosial ədalət prinsipi ilə hərəkət edək.

Mənə elə gəlir ki, belə olan halda bu gün torpağın hamıya verilməsi, yaxud da verilməməsi məsələsi ortaya çıxır. Burada bir söz də dedilər ki, torpaq hamıya mənsubdur. Deyəsən, Aydın müəllim dedi ki, 7 milyon əhali var və bu 7 milyonun hamısına torpaq verilməlidir. Belə deyil. Məsələn, adam var ki, şəhərdə doğulub, onun babası da, ulu babası da heç vaxt torpaqla bağlı olmayıbdır. Mən vaxtilə burada işləyəndə yanımda mənə vəzifəcə çox yaxın olan bir nəfərlə, – onun adını çəkmək istəmirəm, – Zuğulbada dövlət bağında bəzən söhbət edəndə ondan soruşurdum ki, bu nə ağacıdır? Bu adam, məsələn, ərik ağacı ilə alça ağacını, yaxud alma ağacı ilə armud ağacını ayırd edə bilmirdi. Mənə məlum idi ki, bu adam bunu bilmir. Ona görə də gəzişərkən qəsdən soruşurdum ki, bu nə ağacıdır? Ola bilsin ki, o küknarı, yaxud qovağı hər adam tanımasın. Amma, şübhəsiz, bağça-bağı olan, torpaqla məşğul olan adam meyvə ağacını mütləq bilir. O bilir ki, məsələn, bu ərikdir, bu almadır, alçadır, bu heyvadır, yaxud başqa ağacdır. Lakin dediyim həmin adam bunları bilmirdi. Neçə dəfə də demişdim ki, a kişi, sən bunları öyrən, gələn il biz bu bağda gəzişəndə səndən yenə soruşacağam ki, bu hansı ağacdır, o hansı ağacdır. Lakin yenə də bunu öyrənə bilmirdi. Əlbəttə, mən onu təqsirləndirə bilməzdim. Çünki bu adam dünyasında nə bağ görmüşdü, nə də bağça, nə kənd görmüşdü, nə də torpaq. Bu adam şəhərdə doğulub, şəhərdə də yaşayıb, asfaltdan, binadan başqa heç nə görməyibdir, kəndlə də əlaqəsi olmayıbdır. İndi bizdə belə adamlar çoxdur. Yoxsa, deməliyik ki, onlara da torpaq düşür? Əlbəttə ki, onlara torpaq düşmür. Əgər düşürsə, onda şəhərdə – deyək ki, [481-482] Bakıda, Sumqayıtda, yaxud da Gəncədə olan torpaqlardan düşməlidir.

Buna görə də söhbət kənd təsərrüfatına yararlı torpaqlardan və kənd təsərrüfatı məhsulları istehsal etməklə məşğul olan adamlardan gedir. İndi bizim rayonlarda elə adamlar var ki, bu gün torpaqla bağlı deyil, yəni kolxozda işləmir, amma kənddə yaşayır, onun həyətyanı torpağı var. Burada o, tərəvəz də əkir, onun alması da var, armudu da, narı da var. Lakin kolxozda işləmir, yaxşı, biz ona torpağı nə təhər verməyək? Mən hesab edirəm ki, ona torpaq verməmək olmaz. Axı, o da bu torpağın sahibidir, vaxtilə kolxozda işləyibdir. Elə burada oturanların təxminən 90 faizi vaxtilə torpaqdan çıxan adamlardır. Elədirmi? Onlar torpaqdan çıxıblar, indi bəzilərinin kənddə qohum-əqrəbası qalıb, bəzilərinin heç kəsi qalmayıb, buraya gəliblər. Amma onlar torpaqla əlaqəsi olan adamlardır. Ona görə də bu barədə düşünmək lazımdır.

Zənnimcə, bunu bir də müzakirə etmək və düzgün qərara gəlmək vacibdir. Yenə də deyirəm, biz gərək bu tədbiri, bu qanunu çox ədalətli tədbir, çox ədalətli qanun edək. O, mənada ədalətli ki, əgər vaxtilə ədalətsizlik olubsa, kimlərinsə torpağını əlindən alıblarsa, kimləri isə öz mülkündən, öz əmlakından məhrum ediblərsə, biz ikinci dəfə bu islahatı apararkən gərək ədalətsizliyə yol verməyək. Bir daha qeyd edirəm, bizim bu tədbirimizin, yəni islahatımızın, qəbul edəcəyimiz qanunun əsas məqsədi bundan ibarətdir ki, torpaqdan istifadənin səmərəsini artıraq. Torpağımız çoxdur. Əgər biz bu torpaqlardan səmərəli istifadə etsək, o torpaqlardan 70-ci illərdə aldığımız məhsullardan da xeyli artıq məhsul əldə edə bilərik. Bütün tarix də bunu göstərdi ki, torpaqlardan yalnız o halda səmərəli istifadə etmək olar ki, bu torpaq kiminsə mülkü olsun, o buna şəxsi mülk kimi baxsın və ondan çox mənfəət götürməyə çalışsın. O, torpaqdan çox mənfəət götürdükdə, deməli, istehsalı artıracaqdır. Özü də mənfəət götürəcək, ümumi istehsalı da artıracaqdır. Bizim isə indi ümumi istehsalı

artırmağımızın yolu sahibkarlığı, xüsusi mülkiyyətçiliyi artırmaq yoludur. Biz həm aqrar sektorda, həm sənaye sektorunda, həm də iqtisadiyyatın başqa sektorlarında bu yolla gedəcəyik.

Bax, bu mülahizələrlə mən komissiyaya bir daha tapşırıram ki, bugünkü müzakirələri də nəzərə alsınlar və iyul ayının 5-[482-483]dək bu qanun layihəsinin son variantını mənə təqdim etsinlər. Bu komissiyanın rəhbəri Arif Rəhimzadədir. Siz dediniz ki, məsələn, 11 rayondan belə təklif gəlib, 30 rayondan başqa təklif gəlib, filan rayon başqa təklif göndərib. Görürsünüzmü, burada nə qədər rəngarənglik var. Elədirmi? Ona görə də oturub bunları bir daha təhlil edirik. Rayonlarda olan fikirlərlə əlaqədar daha bir müzakirə aparaq. Görək, bu niyə belə təklif verir, başqası niyə ayrı təklif göndərir. Şübhəsiz ki, bu, onların xüsusiyyəti ilə də bağlıdır.

Bir məsələni də qeyd edim ki, biz bu ümumi qanunu qəbul etdikdən sonra onun tətbiqi hər bir rayonda, hətta hər bir kənddə bir-birindən çox fərqli olacaqdır. Bu, tamamilə təbii haldır. Amma biz ümumi prinsipləri bu qanunda təsbit etməliyik, onun icrasını isə, zənnimcə, rayon təşkilatlarına, kənd təşkilatlarına həvalə etməliyik. Əlbəttə ki, məsələn, Lənkəranda torpaq azdır, İmişlidə. isə çoxdur. Buna görə də Lənkəranda torpaq payı az, İmişlidə isə çox olacaqdır. Ağcabədidə torpaq payı çox, Astarada isə az olacaqdır. Bunlar tamamilə təbiidir. Lakin hər rayonun öz xüsusiyyəti var. Bu proses, məsələn, Xızıda bir cür gedib, Zaqatalada isə başqa cür. Bu da təbiidir. Ona görə bunları da nəzərə alaraq siz bu məsələni qanunda əks etdirməyə çalışın ki, seçmək üçün, manevr üçün imkan olsun. Əlbəttə, mən bu məsələ barəsində fərman verəcəyəm. Bəli, manevr üçün imkan olsun ki, daha keçmişdəki kimi olmasın – yəni Moskvada nə deyirdilərsə, onu hər yerdə tətbiq etmək lazım idi. Bilirsinizmi, o böyüklükdə ölkədə belə hərəkət edirdilər, yəni Moskvada bu cür deyiblər, ona görə də bunu Azərbaycanda da, yaxud Özbəkistanda da, Sibirdə də etmək lazımdır.

Biz burada fərq məsələsinə çox ciddi yanaşmalıyıq. Baxın görün, bunu qanunda necə əks etdirmək olar.

Mən hesab edirəm ki, biz bu gün çox səmərəli müzakirə apardıq. Siz bu layihəni mənə iyul ayının 5-dək təqdim etməlisiniz. Mən proqramımı əvvəldən sizə deyirəm. İyulun 5-dən 10-dək biz bunu sizinlə birlikdə bir daha müzakirə edəcəyik. İyulun təxminən 10-da bu məsələni artıq Milli Məclisdə müzakirəyə çıxarıb qanun qəbul etmək olar. Sağ olun. [483-484]

## GÖRKƏMLİ DÖVLƏT XADİMİ, GENERAL-LEYTENANT ARİF HEYDƏROVUN 70 İLLİYİNƏ HƏSR OLUNMUŞ YUBİLEY GECƏSİNDƏ NİTQ

*Şəhriyar adına mədəniyyət sarayı*

*28 iyun 1996-cı il*

Hörmətli xanımlar və cənablar, hörmətli dostlar!

Bu gün Arif Heydərovun xatirəsinə həsr olunmuş yubiley mərasimi son illər Azərbaycanda keçirilən silsilə yubiley mərasimlərindən fərqlidir. Fərq də ondan ibarətdir ki, səhv etmirəmsə, ilk dəfədir Azərbaycanda, ölkəmizdə hüquq-mühafizə orqanlarında həyatını keçirmiş, xidmət etmiş şəxsin 70 illik yubileyi belə təntənəli şəraitdə keçirilir. Bu birinci növbədə bizim hamımızın, ictimaiyyətin, dövlətin hüquq-mühafizə orqanlarında çalışan və keçmişdə çalışmış insanlara və ümumiyyətlə dövlətin hüquq-mühafizə orqanlarına olan qayğının, diqqətin rəmzidir. Eyni zamanda bu general Arif Heydərovun şəxsiyyətinə və onun xalqımız qarşısında etdiyi xidmətlərə göstərilən hörmət və ehtiramın rəmzidir.

Bu gün buraya toplaşanların əksəriyyətini Arif Heydərovun qohum-əqrəbası, ailə üzvləri ilə bərabər, hüquq-mühafizə orqanlarında işləyənlər, yaxud da bu orqanların veteranlarıdır. Hamınızı ürəkdən salamlayır və sizinlə yenidən məhz burada, sizin üçün və məndən ötrü əziz olan bu sarayda görüşməyimdən çox məmnun olduğumu bildirirəm.

Hüquq-mühafizə orqanları dövlətin çox əhəmiyyətli bir hissəsidir. Heç bir dövlət öz dövlətçiliyini saxlamaq üçün belə orqanları olmadan yaşaya bilməz. Hüquq-mühafizə orqanlarında çalışan insanlar da dövlətə, xalqa xidmət edirlər. Bu orqanların hər bir dövlətdə, o cümlədən bizim bugünkü dövlətimizdə də, keçmişdə yaşadığımız dövlətdə də xüsusi rolu var. Əgər bizim Azərbaycanda bu orqanlardan bəhs etsək, onu deyə bilərəm ki, 1920-ci ildən indiyə qədər həmin orqanlarda keçmişdə işləmiş, çalışmış, fəaliyyət göstərmiş insanlar da və bu gün xidmət edənlər də dövlətə, Azərbaycan xalqına xidmət edirlər. Keçmişdə xidmət edənlər də fəaliyyətlərini və həyatlarını öz xalqına həsr ediblər. [484-485]

Bu orqanların işi çox mürəkkəbdir. Həmin orqanlarda işləmək üçün xüsusi keyfiyyətlərə malik olmaq, bir çox xüsusi tələblərə uyğun olmaq lazımdır. Hüquq-mühafizə orqanlarında həqiqi iş görən adam məhz bu keyfiyyətlərə, xüsusiyyətlərə malik olmalıdır. Əgər bunlar olmasa, belə adamlar hüquq-mühafizə orqanlarında ya işləyə bilməzlər, yaxud, işləsələr do, onların işinin səmərəsi olmaz.

Bu gün burada gənc nəslin nümayəndələri var. Müstəqil Azərbaycan dövlətinin ordusunda, Daxili İşlər Nazirliyində, Milli Təhlükəsizlik Nazirliyində, prokurorluq, məhkəmə orqanlarında işləyən, fəaliyyət göstərən şəxslər var. Eyni zamanda bu salonda keçmişdə həyatının, demək olar, hamısını məhz bu xidmətə həsr etmiş insanlar var. Keçmişdə işləyənlər də, bu gün veteran kimi burada iştirak edənlər, yaxud Azərbaycanda veteran adı daşıyanlar da və indi bizim bu orqanlarda fəaliyyət göstərənlər də – hamısı Azərbaycan xalqına, müstəqil Azərbaycan dövlətinə, doğma torpağımıza xidmət edirlər. Ona görə keçmişdəkilər də bizim üçün qiymətlidir, mən onların da xidmətinə yüksək qiymət verirəm, bu gün fəaliyyət göstərənlər də qiymətlidir, onların da işini yüksək qiymətləndirirəm.

Keçmiş zamanlarda öz həyatını, fəaliyyətini təhlükəsizlik orqanlarında, Daxili İşlər Nazirliyində işləməyə həsr etmiş adamlar bunu özlərinə böyük bir şərəfli iş kimi qəbul ediblər. Həqiqətən də belə olubdur. Keçmişdə bu sahələrdə işləmək hər adama nəsib olmayıbdır. Hər adam bu sahələrdə istədiyi kimi işləmək arzusuna nail ola bilməyibdir. O illərdə insanlar bu sahələrdə işləmək üçün xüsusi seçilirdi. Birinci, mənəvi keyfiyyətlərinə görə, ikinci də bu sahədə iş görmək bacarığına, qabiliyyətinə görə seçilirdi.

Əgər tariximizə, respublikamızın, o cümlədən dövlət təhlükəsizliyi orqanlarının, Daxili İşlər Nazirliyi orqanlarının tarixinə nəzər salsaq, görərik ki, bu tarixin cürbəcür mərhələləri olubdur. Vaxt olub ki, bu orqanlar çox yüksək qiymətləndirilib. Vaxt olub ki, ciddi tənqid edilib, onların işində çox qüsurlar qeyd olunubdur, bir çoxları da gördükləri bəzi işlərə, yaxud buraxdıqları səhvlərə görə cəzalanıblar. Ancaq bunlar hamısı həm xalqımızın tarixidir, həm də bu orqanların tarixidir. Bu tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi də qiymətləndirmək lazımdır, tarixi təhrif etmək də olmaz, tariximizdəki qara ləkələri, qara səhifələri unutmaq da olmaz. [485-486]

Çekistlərin ən yüksək simvolu Dzerjinski idi. Çekistlər, yəni təhlükəsizlik, daxili işlər orqanlarında işləyənlər onu bir ideal kimi qəbul etmişdilər. İdeallıq təkcə ondan ibarət deyildi ki, o, kommunist ideyalarına sadiq bir insan, həmin ideyaları həyata keçirən şəxs idi. İdeallıq ondan ibarət idi ki, Dzerjinskinin şəxsiyyətində sədaqət, mənəvi saflıq, mənəvi sağlamlıq, fədakarlıq, cəsurluq, qəhrəmanlıq nümunələri əks olunmuşdu. Ona görə də o illərdə özünü, həyatını dövlət təhlükəsizliyi orqanlarında, daxili işlər orqanlarında xidmətə həsr edən

adamlar bu prinsipləri əsas tuturdular. Məsələn, bu sözləri vaxtilə Dzerjinski deyibdir, ancaq hər dövr üçün yarayan sözlərdir: "Yalnız soyuq mühakiməli, coşqun qəlbli və saf vicdanlı adam çekist ola bilər".

Bu sözü mən bu gün də deyə bilərəm. Bəli, dövlət işində, milli təhlükəsizlik orqanlarında, Daxili İşlər Nazirliyində, digər hüquq-mühafizə orqanlarında işləyənlər, indi müstəqil Azərbaycana xidmət edənlər gərək məhz belə keyfiyyətlərə malik adamlar olsunlar, mənəviyyatca təmiz, saf adamlar, doğrudan da çox təmkinli adamlar olsunlar. Eyni zamanda onların qəlbləri həmişə gərək coşqun olsun, millətə, ölkəyə ürək yandırsınlar.

Arif Heydərov məhz belə insan idi, məhz belə bir həyat yolu keçmiş zabit, belə keyfiyyətlərə malik olan dövlət xadimi idi. Məhz buna görə, bu keyfiyyətlərinə görə də Arif Heydərov dövlət təhlükəsizliyi orqanlarında şərəfli yol keçdi və yüksək vəzifələrə layiq oldu, həyatını da öz xidməti borcunu yerinə yetirərkən itirdi.

Məsələn, mən qırxıncı, əllinci illəri xatırlayıram. O zaman Azərbaycanda dövlət təhlükəsizliyi orqanlarında azərbaycanlılar çox az idi. Dövlət təhlükəsizliyi orqanlarının rəhbər vəzifələrində işləyənlər və bütün belə dairələrdə vəzifələri tutanlar başqa millətlərə mənsub olan adamlar idi, azərbaycanlılar çox az idi. Azərbaycanlılar içərisindən bu orqanlarda işləyib, fəaliyyət göstərib yüksək qiymətə layiq olan adamlar yalnız və yalnız öz şəxsi keyfiyyətləri ilə buna nail ola bilirdilər, ona da çox çətinliklə. O vaxt burada, yanımızda olan binada, – biz orada işləyirdik, – azərbaycanlı üçün özünü göstərmək, vəzifə almaq çox çətin idi.

Mən 1950-ci ildə Leninqradda yüksək təhsil alandan sonra Bakıya döndüm və o vaxtdan burada, həmin bu küçənin o biri tərəfindəki binada işləməyə başladım. O vaxt mən o kol[486-487]lektivlə rastlaşarkən oradakı mürəkkəb vəziyyəti və gənc azərbaycanlılardan ötrü işləmək, xalqına, ölkəsinə xidmət etmək üçün şəraitin nə qədər məhdud olduğunu gördüm. Bir də qeyd edirəm, yalnız çox istedadlı və çox yüksək keyfiyyətlərə malik olan gənclər bax, bu çətin yollardan keçib xalqına xidmət etmək üçün layiqli vəzifələr tuta bilirdilər. Onlardan biri də məhz Arif Heydərovdur.

O vaxt həmin bu orqanlarda yaranmış mürəkkəb vəziyyətə, cürbəcür çətinliklərə baxmayaraq, bu gün demək istəyirəm ki, bu orqanlarda eyni zamanda insanlar çox yaxşı yetişirdi, bərkdən-boşdan çıxaraq möhkəmlənirdi, qüdrətlənirdi, siyasi cəhətdən çox inkişaf edirdi. Əlbəttə ki, istedadı, saf mənəviyyatı olan adamlar. Çünki bu orqanlarda başqaları da var idi. Yenə də deyirəm, bu orqanlar belə istedadlı, saf mənəviyyatlı Azərbaycan gəncləri üçün çox yaxşı yollar açırdı. Bu yollardan istifadə edənlərdən biri də Arif Heydərovdur.

Mən Arif Heydərovla 1950-ci ildə Azərbaycana, Bakıya işə gələndən sonra tanış oldum. Bizim tanışlığımız qısa bir müddətdə yaxınlığa çevrildi. O zamanlar Arif Heydərovun həyatının son dəqiqələrinə qədər onunla həm iş sahəsində sıx əlaqəm olub, eyni zamanda şəxsi dostluğum olubdur.

Bilirsiniz, indi mənim həyatım artıq Azərbaycanın gözünün qabağındadır. Həyatımda o qədər şəxsi dostlarım olmayıbdır. Mənim dostlarım ətrafımda olan, mənimlə bərabər işləyən adamlar, Azərbaycanın bütün vətəndaşları olubdur. İndi bütün Azərbaycan xalqı mənim dostumdur. Heç vaxt seçməmişəm ki, bu mənim dostumdur, o isə dostum deyildir. Bunlara baxmayaraq, gənc yaşlarımda insanlar vardı ki, onlarla rəsmi münasibət saxlayırdım, amma insanlar da vardı ki, rəsmi münasibətdən savayı, onlarla şəxsi münasibət də saxlayırdım. Arif Heydərova münasibətim məhz belə, şəxsi münasibət xarakteri daşıyıbdır. Bir də qeyd edirəm, bu şəxsi münasibətimiz də o vaxtdan sona qədər davam edibdir. Bunun da əsası var. Əsası da ondan ibarətdir ki, mən yalnız öz xasiyyətimə uyğun olan adamla şəxsi münasibət saxlaya bilərəm. Arif Heydərovun mənəvi dəyərləri, mənəviyyatı hər şeydən üstün tutması, sadəliyi, işgüzarlığı, öz üzərində daim çalışması, özünü təkmilləşdirməsi, işə sağlam münasibəti, sağlam əxlaqı – bunlar hamısı birlikdə mənim tələblərimə uyğun olduğuna görə mənimlə onun arasında şəxsi münasibətlər yaranmışdı. [487-488]

Biz dövlət təhlükəsizliyi orqanlarında işləyərkən vəzifələrimiz fərqli olmuşdur. Ancaq buna baxmayaraq bu dostluq həmişə davam etmişdi. Bu dostluq əlaqələrinin nəticəsi də sonra bizi yüksək səviyyələrdə bir yerdə işləməyə gətirib çıxarmışdı. Dövlət təhlükəsizliyi orqanlarında uzun müddət bir yerdə işləyəndən, 1969-cu ildə mən Azərbaycan Respublikasının rəhbəri seçiləndən sonra bilirsiniz ki, üzərimə düşən vəzifələri həyata keçirmək üçün bir çox kadr dəyişiklikləri etdim. O zaman mənə sədaqətli kadrlar, mənəviyyatca saf, təmiz insanlar lazım idi. Çünki o vaxt, 1969-cu ilin iyulundan sonra mən xalqımızı, respublikamızı çox narahat edən bir çox hallarla rastlaşdım və onlara qarşı mübarizə aparmağa başladım. Xüsusən vəzifəsindən sui-istifadə edən şəxslərlə. rüşvətxorlarla, xalqın əmlakını dağıdanlarla, vəzifəsindən istifadə edib insanların hüquqlarını pozanlarla, iqtisadiyyatımıza zərər vuranlarla, mənəviyyatımıza ləkə gətirənlərlə, cürbəcür neqativ hallarla mübarizəyə başladım. Bu, Azərbaycanın tarixindən məlumdur. O zaman bu işləri aparmaq, ayrı-ayrı sahələrə rəhbərlik etmək üçün mənim tələblərimə uyğun insanlar lazım idi. Bunlardan birincisi, mən Arif Heydərovu seçdim.

1969-cu ilin iyulunda Azərbaycana rəhbər seçiləndən sonra həmin ilin sonunda mənim ilk addımlarımdan biri Daxili İşlər Nazirliyində yaranmış ağır vəziyyəti aradan götürməkdən ibarət oldu. Burada çıxış edən Arzuman Zülfüqarov o vaxtkı vəziyyət haqqında məlumat verdi. Doğrudan da Daxili İşlər Nazirliyinin rəhbərliyində dözülməz bir vəziyyət yaranmışdı. Onlar əhali arasında hörmətini itirmişdilər. Alınan şikayətlər həddindən artıq çox idi və mən Daxili İşlər Nazirliyinin rəhbərliyində ciddi dəyişikliklər etmək zərurətində idim. Mən bu addımı atarkən şübhəsiz ki, həmin vəzifəni o sahəni – dövlət üçün mühüm olan sahəni etibarlı, bu işi apara biləcək, sədaqətli bir adama tapşırmalı idim.

Arif Heydərov o vaxt Türkiyədə idi. Ümumiyyətlə o, dövlət təhlükəsizliyi orqanlarında işləyərkən çox vaxt kəşfiyyat sahəsində çalışırdı. Bundan əvvəl də xarici ölkələrdə işləmişdi və o vaxt Türkiyədə idi. Mən onu Türkiyədən dəvət etdim və ona daxili işlər naziri vəzifəsini təklif etdim. Doğrudur, o, bu işə o qədər də həvəslə girişmədi. Çünki bilirdi ki, bir tərəfdən bu, çətin, ağır işdir, digər tərəfdən də o, xaricdəki işindən ayrılmaq istəmirdi. Ancaq o, hiss edəndə ki, mənə burada kömək [488-489] lazımdır və bu sahə çox mühüm sahədir. Söhbət ayrı-ayrı adamların vəzifəsindən yox, ümumxalq prinsiplərindən, mənafeyindən gedir, – bu vəzifəni öz üzərinə götürməyə razı oldu. Ondan sonra da həyatının son dəqiqəsinə qədər bu vəzifədə sədaqətlə xidmət etdi.

Dediyim kimi, Arif Heydərov mənim iş yoldaşım, dostum olubdur, tutduğum yüksək vəzifələrdə mənim silahdaşım olubdur. Mən ona çox inanırdım, etibar edirdim. Onun fəaliyyətini çox yüksək qiymətləndirirdim. Ona görə də mən Azərbaycanda rəhbər olarkən o, əsas dayaqlarımdan biri idi. Deyə bilərəm ki, əvvəl dövlət təhlükəsizliyi orqanlarında olduğu kimi, Azərbaycanın Daxili İşlər Nazirliyinə rəhbərlik etdiyi dövrdə – səkkiz il müddətində də çox fədakarcasına çalışdı, çox işlər gördü. O, orqanlarda sağlam mühit yaratmaq, cinayətkarlığa qarşı mübarizəni həqiqətən gücləndirmək, ictimai asayişin qorunmasını təmin etmək üçün, Daxili İşlər Nazirliyinin üzərinə düşən bütün başqa vəzifəsindən yox, ümumxalq prinsiplərindən, mənafeyindən gedir, – bu vəzifəni öz üzərinə götürməyə razı oldu. Ondan sonra da həyatının son dəqiqəsinə qədər bu vəzifədə sədaqətlə xidmət etdi.

Dediyim kimi, Arif Heydərov mənim iş yoldaşım, dostum olubdur, tutduğum yüksək vəzifələrdə mənim silahdaşım olubdur. Mən ona çox inanırdım, etibar edirdim. Onun fəaliyyətini çox yüksək qiymətləndirirdim. Ona görə də mən Azərbaycanda rəhbər olarkən o, əsas dayaqlarımdan biri idi. Deyə bilərəm ki, əvvəl dövlət təhlükəsizliyi orqanlarında olduğu kimi, Azərbaycanın Daxili İşlər Nazirliyinə rəhbərlik etdiyi dövrdə – səkkiz il müddətində də çox fədakarcasına çalışdı, çox işlər gördü. O, orqanlarda sağlam mühit yaratmaq, cinayətkarlığa qarşı mübarizəni həqiqətən gücləndirmək, ictimai asayişin qorunmasını təmin etmək üçün, Daxili İşlər Nazirliyinin üzərinə düşən bütün başqa vəzifələri həyata keçirmək üçün çox səmərəli işlər gördü. O, çox tədbirlərin təşəbbüskarı idi və mən onun təşəbbüslərini həmişə dəstəkləyirdim, onlara kömək edirdim, onların həyata keçirilməsi üçün öz tərəfimdən lazımi tədbirlər görürdüm.

Arif Heydərov mənim üçün sevimli bir insan idi. Ona görə də mən hələ Təhlükəsizlik Nazirliyinin rəhbəri olarkən onun xidmətlərinə yüksək qiymət verir, təltif olunması üçün lazımlı qərarlar qəbul edirdim. O, daxili işlər naziri işlədiyi dövrdə də onun fəaliyyətini yüksək qiymətləndirərək ona lazımı rütbələr, [489-490] təltiflər verilməsi üçün lazımi qərarlar qəbul edirdim. Ona verilən adlara, rütbələrə, ordenlərə, medallara o, tam layiq idi və öz sədaqətli işi, saf əməlləri ilə bunların hamısını almağa haqq qazanmışdı.

Mən qeyd etdim ki, Arif Heydərov bir insan kimi çox sadə, təvazökar və yaxşı bir yoldaş idi. Ona görə də mən onunla şəxsən yoldaşlıq edirdim. Arif Heydərovun oğlanları, onun həyat yoldaşı Adilə xanım indi burada iştirak edirlər. Nə qədər vaxt keçib? Arif Heydərovun toyunu biz bir yerdə etmişik. Arif Heydərovun Adilə xanımla evlənmə mərasimində, toyunda mən iştirak etmişdim. Bir yerdə işləyərkən nə qədər asudə vaxtlar da keçirmişdik. Mən bunların hamısını daim keçmişin ən xoş günləri kimi xatırlayıram. Mənim həyatım həmişə çox gərgin olubdur. Həyatımda demək olar ki, gərginliklə yanaşı, asudə bir vaxt kimi xatirimdə qalan günlər çox az olub. Həm də belə günlər mənim gənclik dövrümdə olubdur. Bunların da bir çox hissəsi məhz Arif Heydərovla bir yerdə olubdur. Bunlar hamısı mənim üçün əzizdir. Biz həmin bu binada, salonda bir yerdə böyük iclaslar da, konsertlər də keçirmişik. Bəzən böyük bir kollektivlə burada yeni ili bir yerdə qarşılayırdıq. Bir yerdə çox yaxşı, şən axşamlar da keçirmişik. O vaxt çox mehriban bir kollektivimiz var idi. Nə qədər çətinliklərimiz olsaydı, içimizdə nə qədər nadürüst adamlar olsaydı da – bunlarsız deyildi, – amma ümumiyyətlə çox mehriban, çox gözəl kollektivimiz var idi. Mən məhz bu kollektivin içərisindən çıxıb Azərbaycanın rəhbəri oldum. Arif Heydərov da məhz bu kollektivin içərisindən çıxıb Azərbaycanın daxili işlər naziri oldu.

Arif Heydərov eyni zamanda, Azərbaycanın ictimai-siyasi həyatında çox fəal iştirak edirdi, o vaxt bizim dövlət tədbirlərinin hamısının fəal iştirakçısı idi. Həm Ali Sovetin deputatı idi, həm də bizim bütün yüksək dövlət orqanlarının üzvü idi. Yəni mənimlə bərabər işlədiyi zaman o, təkcə daxili işlər naziri kimi yox, Azərbaycanın görkəmli dövlət xadimi kimi həmişə fəal mövqedə olubdur, respublikamızın ictimai-siyasi həyatının fəal iştirakçısı olubdur. Bunların hamısına görə də o, çox silinməz izlər qoyubdur: həm dövlət təhlükəsizliyi orqanlarının işində – onların nümayəndələri, veteranları, bu gün orada çalışanlar da burada iştirak edirlər, – Daxili İşlər Nazirliyinin işində, həm də respublikanın ictimai-siyasi həyatında çox dərin, silinməz izlər qoyubdur. [490-491]

Arif Heydərovun həyatı çox faciəli şəkildə, fəlakət nəticəsində qırıldı. Gözlənilməz faciəli bir hadisə bizi, bütün respublikanı, məni sarsıtdı. Ancaq bu faciəli ölümü də onun iş başında, iş yerində baş verdi. O, demək olar ki, son damla qanına, son dəqiqəsinədək öz səngərində oldu. Onun həyatına qəsd edən, onu qətl edən cani, günahkar o vaxt nə qədər böyük cinayət etdi! Bilirsiniz, indi ictimaiyyət belə cinayətlərə artıq alışıbdır. Amma o vaxt respublikamızda, yaşadığımız ümumi dövlətdə – Sovetlər İttifaqında əsasən əmin-amanlıq dövrü idi. Belə hallar çox nadir idi. Ona görə də bu, bizi həm sarsıtdı, həm kədərləndirdi. O günlər biz həyatımızda çox faciəli günlər yaşadıq. O hadisədən sonra, o güllə yarasından sonra Arif Heydərov hələ yaşayırdı. Onun həyatının xilas olunması üçün mən bütün imkanlardan istifadə etdim. Dərhal, bir neçə saatdan sonra mən Moskvadan ən yüksək

səviyyəli cərrahları, professorları, akademikləri dəvət etdim, onları buraya gətirdim. Əlimdə olan bütün imkanları, təkcə Azərbaycanda yox, o vaxt Moskvada olan tibb imkanlarını səfərbər etdik. Təəssüf olsun ki, onun həyatını xilas edə bilmədik.

Bu, bizim üçün böyük itki oldu, xalqımız, respublikamız üçün böyük itki oldu, şəxsən mənim üçün çox böyük itki oldu. Onun vəfatı günü bütün Azərbaycan matəmə batdı. Bu, bizim hamımız üçün matəm oldu, bütün Azərbaycan xalqı üçün matəm oldu. Onu əziz dost, qardaş kimi, şəxsən mən öz çiynimdə son mənzilə yola saldım. O günləri xatırlamaq çox çətindir. Mən bu gün salonda oturmuşam, düşünürəm, həyatının ən bəhrəli, ən çiçəklənən bir dövründə, xalqımız, respublikamız, millətimiz üçün onun təcrübəsinin, imkanlarının ən lazım olduğu bir dövrdə o, həyatdan getdi. Özü də gənc bir vaxtda həyatdan getdi. Bu, ailəsi üçün də böyük bir itki oldu. Biz bu faciəni çox ağır hisslərlə yaşadıq.

Bu gün onun 70 illiyini qeyd edərkən mən bir tərəfdən qəm-qüssə keçirirəm. Eyni zamanda ölümündən, vəfatından 18 il sonra onun xatirəsinin, 70 illik yubileyinin bu gün belə qeyd edilməsi məndə böyük qürur hissi doğurur ki, mənim silahdaşım, dostum, yoldaşım gözəl həyat yolu keçib, xalqına, millətinə sədaqətlə xidmət edib və bu gün müstəqil Azərbaycan Respublikasının dövləti, bugünkü nəsillər onun xidmətlərini böyük hörmət, ehtiramla yad edirlər.

Mən bu gün bu mərasimə yalnız və yalnız Arif Heydərova olan şəxsi münasibətim və onun şəxsiyyətinə olan hörmətim [491-492] ilə əlaqədar gəlmişəm. Mən çox məmnunam ki, bura toplaşanların hamısı – onu tanıyanlar da, onunla bir yerdə işləmiş adamlar da və gənc nəslin nümayəndələri də Arif Heydərovun 70 illiyinə belə həvəslə, yüksək hisslərlə gəliblər.

Arif Heydərovun gördüyü işlər yaşayır. Bu gün məndən əvvəl çıxış edən natiqlər bu barədə çox sözlər dedilər. Qeyd etdiyim kimi, o, böyük izlər qoyub gedibdir. Onun xatirəsini mən 1979-cu ildə verdiyim qərarla da əbədiləşdirmişdim və indi onun 70 illik yubileyinə hazırlıq zamanı da dünən sərəncam verdim. O, bunlara layiqdir. Burada Arzuman Zülfüqarovun təklifini də mən bəyənirəm və qərar verirəm ki, Daxili İşlər Nazirliyinin qospitalına – bilirəm, o, Arif Heydərovun rəhbərliyi altında tikilib – Arif Heydərovun adı verilsin.

Biz tariximizi həmişə qiymətləndirməliyik. Azərbaycan xalqının böyük tarixi var. Arif Heydərov da Azərbaycan tarixində özünəməxsus görkəmli yer tutubdur. Tarix görkəmli insanların işləri, fəaliyyətləri ilə yaranır. Tarixi yaradan insanlardır. Bu gün bu yubiley mərasimini keçirərək, biz bir daha öz tariximizə hörmət və ehtiramımızı bildiririk. Bir daha bəyan edirik ki, Azərbaycan xalqının zəngin tarixi, keçmişi və xalqımızın dəyərli şəxsiyyətləri var. Bu şəxsiyyətlərdən biri də görkəmli dövlət xadimi, Azərbaycan xalqının generalı, unudulmaz Arif Heydərovdur. Onun xatirəsi bizim qəlbimizdə və gələcək nəsillərin qəlbində əbədi yaşayacaqdır. [492-493]

## NAZİRLƏR KABİNETİNİN RƏYASƏT HEYƏTİ ÜZVLƏRİNİN, İQTİSADİYYATIN İNKİŞAFINDA MÜHÜM ROL OYNAYAN NAZİRLİKLƏRİN BAŞÇILARININ VƏ PREZİDENTİN İCRA APARATI RƏHBƏR İŞÇİLƏRİNİN İŞTİRAKI İLƏ 1996-cı İLİN BİRİNCİ YARISININ İŞ YEKUNLARININ TƏHLİLİNƏ HƏSR OLUNMUŞ İCLASDA ÇIXIŞ

*Prezident sarayı*

*28 iyun 1996-cı il*

Bu gün mən sizi Nazirlər Kabinetinin iclasına dəvət etmişəm. Yeni konstitusiya qəbul ediləndən sonra bu ilin əvvəlində, yanvarın 8-də mən Nazirlər Kabinetinin ümumi iclasını keçirdim. Burada yeni başlanmış 1996-cı ilin vəzifələri və qarşıda duran problemlər, eyni zamanda yeni konstitusiya ilə əlaqədar vəzifələrlə bağlı məsələlər müzakirə olundu. O vaxt biz çox geniş danışdıq, söhbət apardıq. Bu müzakirələrdən sonra mən qərarlar da imzaladım ki, Nazirlər Kabinetinin işi lazımi səviyyədə təşkil edilsin, həm də iqtisadiyyat sahəsində vəzifələrimizin həyata keçirilməsi təmin olunsun.

İndi ilin birinci yarısı başa çatdı. Şübhəsiz ki, bu müddətdə iqtisadiyyat sahəsində müəyyən işlər görülüb, nailiyyətlər əldə olunubdur. Amma eyni zamanda, hesab edirəm ki, iqtisadiyyatın idarə edilməsi üçün həm zəruri tədbirlər görülməsi, həm də konkret tədbirlərin həyata keçirilməsi sahəsində Nazirlər Kabineti, onun Rəyasət Heyəti, Nazirlər Kabinetinin rəhbərliyi tərəfindən işlər lazımi səviyyədə təşkil olunmur. Birincisi, onu qeyd etməliyəm ki, yanvarın 8-də verilən göstərişlər və qəbul olunmuş qərarlardakı tələblər indiyədək həyata keçirilməyib. Şübhəsiz ki, bu, məni narahat etməlidir. Bunlar hamısı da iqtisadiyyatımızda, sosial sahədə olan imkan[493-494]larımızdan səmərəli istifadə edilməsinə nəinki şərait yaratmır, hətta mane olur.

Aydındır ki, hər bir iş onun təşkilindən çox asılıdır. Biz iqtisadiyyatda ciddi dəyişikliklər prosesi keçiririk. Bu prosesləri də lazımi səviyyədə aparmaq lazımdır. Mən dəfələrlə qeyd etmişəm və bu gün bir daha deyirəm ki, mövcud iqtisadi potensialımızdan səmərəli istifadə olunmalıdır. Təəssüf ki, bunlar yoxdur. Potensialımızdan səmərəli istifadə olunmasına görə də biz imkanımız çərçivəsində olan nailiyyətləri əldə edə bilmirik.

Keçid dövründə iqtisadiyyatda çətinliklər çoxdur. Bunlar məlumdur. Ancaq bu çətinliklərin təsirini azaltmaq olar, eyni zamanda bu çətinliklərin qarşısını alaraq mövcud imkanları daha sürətlə hərəkətə gətirmək mümkündür. Təəssüf ki, Nazirlər Kabineti, nazirlər, nazirliklər, komitələr, şirkətlər, konsernlər bu işlərlə lazımi səviyyədə məşğul olmurlar.

İndi biz ilin birinci yarısının yekunlarını təhlil etməliyik. Bu gün iyunun 28-dir, altı ay başa çatır. Bu altı ayda nə etmişik, nə əldə etmişik? İqtisadiyyatımızda nə kimi dəyişikliklər baş veribdir, biz sosial sahədə nəyə nail olmuşuq, əhalinin həyat tərzinin yaxşılaşdırılması üçün hansı işlər görə bilmişik? Güman edirəm ki, bütün bunlar Nazirlər Kabinetində hər ay müzakirə edilməli, təhlil olunmalıdır. Bunun də nəticəsində qarşıdakı ay üçün lazımi tədbirlər görülməlidir. Təəssüf ki, Nazirlər Kabinetində indiyədək belə bir sistem qurulmayıb.

Biz keçmişdəki üsuldan, müşavirələr keçirməklə iş aparmaq üsulundan imtina etmişik. Bu, lazım deyil. Amma işləri də bu qədər özbaşına qoymaq olmaz. Hər bir nazirlik, hər bir təsərrüfat vahidi, iqtisadiyyatın hər bir sahəsi gərək bilsin ki, bu gün nə edir, sabah nə edəcək və sabah hansı nəticəyə gəlib çatacaqdır. Amma bəzi sahələrdə iş indi özbaşına buraxılıbdır. Kim nə edə bilirsə edir, kim nə etmirsə ona heç bir söz də deyilmir. İşin təşkil olunmasında çox böyük qüsurlar var.

İqtisadiyyatımızın əsasını təşkil edən istehsaldır. İstehsalda, xüsusən sənaye istehsalında çoxlu problemlər, çətinliklər var. Ancaq bu çətinlikləri, problemləri nə cür həll edirik, hansı tədbirlər görməliyik – bir tərəfdən bu, müəyyənləşdirilməlidir, digər tərəfdən də müəyyənləşdiriləndən sonra onun həyata keçirilməsi üçün gərgin iş görülməlidir. Amma mən müşahidə edirəm, görürəm ki, nazirliklərin, komitələrin, şirkətlərin, kon[494-495]sernlərin işində özbaşınalıq var, işin nə axırı, nə əvvəli görünmür. Yəni hansı işin hansı mərhələdə, hansı vasitə ilə görüldüyü məlum deyil. İkinci tərəfdən də Nazirlər Kabinetinin bu işlərə nəzarəti, təşkilatçılıq funksiyası istənilən səviyyədə deyil.

Ona görə də mən çox təəssüf edirəm ki, Nazirlər Kabinetinin yanvarın 8-də keçirdiyim geniş iclasında verilən göstərişlər – onların bir qismi, bəlkə də çoxu indiyədək həyata keçirilməyib. Qarşımızda duran əsas vəzifələrdən biri iqtisadiyyatın inkişaf etdirilməsi və struktur dəyişiklikləri aparılmasıdır. Bu istiqamətdə görülən işlər qənaətbəxş hesab edilə bilməz. Nazirlər Kabinetinin yanvarın 8-də keçirilən iclasında mən göstəriş verdim ki, sənayemizin əsas komplekslərini – yanacaq, energetika, kimya, maşınqayırma və digər

komplekslərin indiki vəziyyətdən çıxması, onların imkanlarından hərtərəfli istifadə olunması üçün proqramlar hazırlansın və həyata keçirilsin. İndi yarım il başa çatır, amma mən nə proqram, nə də verilən bu tapşırıqların həyata keçirilməsi üçün lazımi nəticələri görürəm.

Struktur dəyişiklikləri deyəndə biz birinci növbədə mülkiyyətin özəlləşdirilməsini nəzərə alırıq. Bu sahədə çox ciddi nöqsanlara yol verilibdir. Baş nazirin müavini, Dövlət Əmlak Komitəsinin sədri Tofiq Əzizov dəfələrlə ona verilən tapşırıqlara, göstərişlərə, tələblərə baxmayaraq, bu məsələlərin təşkilində çox böyük səhvlərə yol veribdir. Məsələlərin həll edilməsi həddindən artıq ləngidilib. Ona görə də mən bu məsələlərin həll edilməsi üçün xüsusi komissiya yaradılmasına məcbur oldum. Komissiya müəyyən işlər görür. Ancaq biz bu sahədə çox geridəyik. Bu da iqtisadiyyatımıza çox mənfi təsir göstərir. Ona görə də mən Dövlət Əmlak Komitəsinin işindən çox narazı olduğumu bildirirəm. Buraxılan səhvlərə görə Tofiq Əzizova çox ciddi xəbərdarlıq edirəm. Bildirmək istəyirəm ki, mən belə vəziyyətə dözə bilmərəm. Əgər bu işlərdə dönüş yaranmasa, mən başqa tədbirlər görməyə məcbur olacağam.

Yenə də deyirəm, sənaye kompleksimizin fəaliyyətində problemlər var. Ancaq problemləri həll etmək mümkündür.

Energetika, yanacaq kompleksində də problemlər var. Amma eyni zamanda biz bir neçə başqa ölkəyə nisbətən neft və qaz istehsal edirik, bu neft xammalından məhsul alırıq, ondan istifadə edə bilirik. Bəs nə qədər istehsal edirik və bu[495-496]nun üçün nə qədər imkanımız var? Bütün bunlar barəsində mənim məlumatım yoxdur. Hesab edirəm ki, sizin də məlumatınız yoxdur. Mən dəfələrlə demişəm, keçmişdə biz hər gün məlumat alırdıq ki, hansı neft buruğu nə qədər neft veribdir və gün ərzində biz nə qədər neft çıxarmışıq, ondan sonra emal etmişik, emal olunan bu neft hara göndərilib, nə qədər və necə göndərilib. Amma indi bütün bunlar başlı-başına buraxılıb.

Kimya sənayesi. Mənə deyirlər ki, burada bəzi dəyişikliklər var. Ancaq mən bunu da qənaətbəxş saymıram. Qaz istehsalını götürək. "Pennzoyl" şirkəti bizim üçün böyük bir qaz-kompressor stansiyası yaradıb. Bizim onlarla münasibətlərimiz məlumdur. İndi mən bunu burada təhlil etməyi lazım bilmirəm. Yəqin ki, bu işlə məşğul olan adamlar bunu bilirlər. Həmin qaz-kompressor stansiyası hesabına bizdə qaz istehsalı artıbdır, çünki havaya buraxılan qazlar indi bu stansiyanın sayəsində yığılıb bizim istifadəmizə verilir. Bəs belə olan halda biz niyə qaz istehsalında bundan əvvəlki səviyyədən aşağıdayıq?

Maşınqayırma kompleksi. Burada çətinliklər, problemlər var. Ancaq bizim konkret proqramımız olmalıdır: nəyi nə vaxt edəcəyik və nəyə nail olacağıq. Neçə illərdir ki, maşınqayırma kompleksi başlı-başına buraxılıbdır.

İndi bizim büdcəmizin əsas hissəsini vergilər təşkil edir. Bu vergilərin yığılması, dövlət büdcəsinə, dövlətin sərəncamına verilməsi sahəsində də, təəssüflər olsun, nöqsanlar çoxdur, özü də olduqca çoxdur. Bu işə Nazirlər Kabineti tərəfindən nəzarət də çox zəifdir, həddindən artıq zəifdir.

Bizi ən çox narahat edən iqtisadiyyatın idarə olunması strukturunu təkmilləşdirmək məsələsidir. Mən bu tələbləri 1995-ci ildə də irəli sürmüşdüm. Lakin Nazirlər Kabineti bunları icra etmədi. 1996-cı il yanvarın 8-də mən bu tələbi bir daha qoydum. Qərara aldıq ki, yanvarın axırınadək təkliflər veriləcəkdir. Lakin verilmədi. Sonra məndən əlavə vaxt istədilər. Əlavə vaxt da verildi. İndi mənə deyirlər ki, nəsə hazırlayıblar. Ancaq hələ ki, buna baxılmayıbdır və biz bu barədə heç bir qərar qəbul etməmişik. Artıq iki ildir deyirik ki, iqtisadiyyatımızı mövcud idarəetmə strukturu ilə idarə etmək olmaz. İdarəetmə strukturunda, idarəetmə orqanlarında ciddi dəyişikliklər, ixtisarlar aparılmalı, onlar təkmilləşdirilməlidir. Ancaq təəssüf ki, biz bunu edə bilməmişik. [496-497]

Bunların hamısı aşağıdan yuxarıyadək iqtisadiyyatımızın idarə edilməsi ilə məşğul olan orqanların hamısında ciddi nöqsanlar olduğunu göstərir və bu nöqsanlar da iqtisadiyyatımızın inkişafına zərər gətirir, biz istədiyimizi inkişaf sürətinə çıxara bilmirik.

Məlumdur ki, iqtisadiyyatımızın və iqtisadi kompleksdəki işlərin əsas məqsədi və mənası əhalinin rifahını yaxşılaşdırmaq və sosial problemlərin həlli üçün lazımi şərait yaratmaqdır. Əgər biz iqtisadiyyatda istədiyimiz nailiyyətləri əldə edə biləriksə, onda şübhəsiz ki, sosial problemlərin həllində, iqtisadiyyatın sosial yönümünün inkişaf etdirilməsində qarşımızda duran vəzifələri həyata keçirə və məqsədimizə nail ola bilərik.

Bütün bunlar heç bir statistika məlumatı ilə, heç bir arayış, yaxud başqa material ilə tanış olmadan bu aylarda etdiyim müşahidələrin nəticəsində məndə formalaşmış fikirlərdir. Hesab edirəm ki, indi biz ilin birinci yarısına dair rəqəmləri, statistika məlumatlarını aldıqdan sonra, ola bilsin, müəyyən düzəlişlər aparılsın. Amma ümumi fikir belədir. Güman edirəm ki, tanış olacağımız rəqəmlərin, statistika məlumatlarının ümumi nəticəyə böyük təsiri olacaqdır.

Mən Nazirlər Kabineti Rəyasət Heyətinin üzvlərini, iqtisadiyyatda çox mühüm rol oynayan nazirliklərin başçılarını və prezidentin İcra Aparatının bəzi rəhbər işçilərini buraya dəvət etmişəm. Mən sizə bu fikirlərimi bildirərək, əvvəla cari il yanvarın 8-də Nazirlər Kabinetinin iclasında verilən göstərişlərin necə həyata keçirilməsi ilə əlaqədar öz narazılığımı ifadə edirəm. Sizdən tələb edirəm ki, işə münasibət dəyişdirilsin və nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlər görülsün. Eyni zamanda hesab edirəm ki, biz 1996-cı ilin birinci yarısının, yəni altı ayın yekunlarını geniş müzakirə etməliyik. Mənim bu işə müdaxilə etməyimə bəlkə də ehtiyac yoxdur. Çünki bizdə Nazirlər Kabineti var. O, bütün bu işlərin həyata keçirilməsi üçün böyük

səlahiyyətə malikdir. Mən yenə deyirəm, Nazirlər Kabinetinin işində, işinin təşkilində çox qüsurlar var. Bax, bunlara görə mən məcburam ki, 1996-cı ilin birinci yarısının yekunlarını sizinlə birlikdə müzakirə edim. Mən sizi buraya bu fikirlərimi çatdırmaq üçün, eləcə də altı aylıq işinizin yekunları barədə bir neçə konkret fikrimi bildirmək üçün dəvət etmişəm. [497-498]

Hesab edirəm ki, bəzi statistika məlumatlarını toplamağa macal tapmaq üçün iyulun 18-də Nazirlər Kabinetinin geniş iclasını keçirməliyik. Mən belə qərar qəbul edirəm. Bu iclasda 1996-cı ilin birinci yarısının yekunları müzakirə olunmalıdır. Müzakirənin səmərəli keçməsi üçün və onun nəticəsində işi sürətləndirmək məqsədi ilə lazımi tədbirlər görülməsi üçün sizi məhz bu gün dəvət etmişəm ki, hər biriniz ilin birinci yarısını təhlil edəsiniz. Biz bu müzakirə zamanı altı ayda görülən işləri, əldə olunan nailiyyətləri, yol verilən nöqsanları və bu nöqsanların səbəblərini geniş təhlil edə bilək. Məqsəd də ondan ibarətdir ki, işlərimizi daha da sürətləndirək.

Bu müzakirədə konkret nəticə əldə etmək və onun səmərəliliyinə nail olmaq üçün, zənnimcə, bir neçə məruzəni dinləməliyik. Birincisi, Azərbaycan Respublikası iqtisadiyyatının inkişafı və onun struktur dəyişikliklərinin sürətləndirilməsi vəzifələri haqqında. İqtisadiyyat naziri bu barədə məruzə etməlidir. İkincisi, Respublika Nazirlər Kabinetinin 1996-cı il 8 yanvar tarixli iclasında qəbul olunmuş 3 və 4 nömrəli qərarların həyata keçirilməsi və bunun nəticəsi haqqında, xüsusən də iqtisadiyyatın idarə edilməsində struktur islahatı özəlləşdirmənin sürətləndirilməsi, iqtisadiyyatın əsas kompleksləri olan yanacaq, energetika və maşınqayırma, kimya komplekslərinin inkişafına dair proqramlar haqqında. Bu barədə məruzələr dinlənilməlidir.

Özəlləşdirmə haqqında məruzə dinlənilməlidir. İqtisadiyyatda idarəetmə strukturlarının islahatı barədə ayrıca məruzə edilməlidir. Əsas sənaye komplekslərinin vəziyyəti haqqında onların rəhbərləri məlumat verməlidirlər.

Dediyim kimi, indi iqtisadiyyatımızın əsas hissəsini maliyyə məsələləri təşkil edir. Maliyyə sahəsində vəziyyət haqqında maliyyə naziri, Milli Bank, Baş Dövlət Vergi Müfəttişliyi, Gömrük Komitəsi rəhbərləri məruzə etməlidirlər.

Daha bir məsələ barəsində. O da bundan ibarətdir ki, ixrac-idxal ilə əlaqədar işlərimiz nə yerdədir. Güman edirəm ki, bu barədə xarici iqtisadi əlaqələr naziri məlumat verməlidir. Hesab edirəm ki, belə bir müzakirə sizin çoxunuza vəziyyətimizi daha yaxşı tanıdacaqdır. Məndə belə bir fikir yaranıb ki, bizim bəzi sahələrimizə lazımi nəzarət edilmir. Bu nəzarəti də Nazirlər Kabineti həyata keçirməlidir. Ona görə [498-499] də, qeyd etdiyim kimi, bəzi sahələrdə özbaşınalıq mövcuddur. Biz bütün bu hallara son qoymalıyıq.

Sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı yaratmaq eyni zamanda qanunlarımızın tələblərinin təmin olunması ilə, nizam-intizamla əlaqədardır, bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat, idxal və ixrac proseslərinin tənzimlənməsi ilə əlaqədardır. Yenə də deyirəm, bu məsələlərdə hələ də özbaşınalıq müşahidə olunur.

Mənim təklifim bundan ibarətdir. Ola bilsin ki, sizin bu barədə fikirləriniz var. Siz əlavələr də edə bilərsiniz, yaxud təkliflər də verə bilərsiniz. Mən sizi dinləməyə hazıram. Sizi bu gün məhz həmin məsələlər barəsində öz fikirlərimi sizə çatdırmaq üçün də dəvət etmişəm.

* * *

- Səməd Sadıqov, siz deyirsiniz ki, ödəmələr haqqında fərman layihəsi hazırlayırsınız. Xatırlayın, Nazirlər Kabinetinin yanvarın 8-də keçirilən iclasında mən sizə dedim ki, bu barədə qısa müddətdə təkliflərinizi verin. Həm də qeyd etdim ki, mən sizdən qeyri-adi təkliflər gözləyirəm. Müəssisələrin, ayrı-ayrı sahələrin bir-birinə olan borcu həddi aşıb. Mən dedim ki, ya təklif verin bu borcların hamısını silək, yaxud başqa təklif verin. İndi altı ay keçib, nə üçün bunu etmirsiniz? Axı mən bunu sizə tapşırmışam. Respublikanın prezidenti kimi sizə deyirəm ki, bunu həll etmək lazımdır. Bu təşkilatlar bir-birinə olan borclarını onsuz da ödəyə bilməyəcəklər. Bəs siz bu məsələni niyə həll etmirsiniz? Fuad Quliyev mənə dedi ki, Tofiq Əzizovun rəhbərliyi ilə komissiya yaratmışıq. Bu komissiya nə etdi, nə iş gördü, nə nəticəyə gəldi? Axı bu cür işləmək olmaz.

Bir sıra problemlər var ki, onları həll etmək çətindir. Bu məsələ də çətin problemlərdən biridir. Hansı yolusa seçib bunu həll etməliyik. Bunun üçün də Nazirlər Kabineti, İqtisadiyyat Nazirliyi ölçüb-biçməlidir ki, bax bunu etməliyik. Altı ay keçib, amma siz yerinizdə sayırsınız. Bununla əlaqədar komissiya yaradılanda mən buna ehtiyac olmadığını bildirdim. Çünki bu problem çox aydındır. Sadəcə fikirləşib, mövcud variantlardan birini seçmək lazımdır. Ümumi işin, gələcək müsbət nəticənin naminə burada müəyyən riskə də getmək [499-500] olar. Bəs nəyi gözləyirsiniz? İndi isə deyirsiniz ki, fərman layihəsi hazırlayırsınız. Bunu yanvar ayında etmək olmazdımı?

Yenə də deyirəm, iqtisadiyyatımızda elə problemlər var ki, çətindir, amma elələri də var ki, işə can yandırılsa, təşəbbüskarlıq göstərilsə onlar həll edilə bilər. İndi iqtisadiyyatımızı gərgin vəziyyətdə saxlayan problemlərdən biri debitor borclarıdır. Mən sizə demişəm ki, siz variantlar hazırlayın, mən bunun həll edilməsinə razıyam. Amma bir variantın seçilib mənə təqdim olunması üçün altı ay keçib, heç bir şey etməmisiniz. Axı belə bir qərarı dövlətin başçısı qəbul edəcək, siz niyə narahat olursunuz? Sizin borcunuz sadəcə, odur ki, təklif hazırlayıb verəsiniz. Niyə vermirsiniz? Həddindən artıq acınacaqlı haldır.

* * *

- Bilirsiniz, respublikamız üçün lazım olan hər bir məsələ üçün iclas keçirməyə hazıram. Mən özəlləşdirmə mövzusunda dəfələrlə iclaslar, müzakirələr aparmışam və yenə də bunu etməyə hazıram. Amma, axı bu işlərin əksəriyyətini siz, Dövlət Əmlak Komitəsi, baş nazirin birinci müavininin rəhbərlik etdiyi komissiya, Nazirlər Kabinetinin Rəyasət Heyəti, baş nazir görməlidir. Məsələlər bu mərhələlərdə həll edilməlidir. Siz hansı məsələni həll edə bilmirsinizsə bunun üçün mənim yanıma gəlin. Amma bu məsələləri hərə öz üstündən atıb, gətirib mənim üstümə yıxmayın. Prezidentin üzərinə nə qədər başqa vəzifələr düşür. İqtisadiyyatla məşğul olmaq üçün səlahiyyətli Nazirlər Kabineti var. Öz vəzifənizi, cəmiyyətdə tutduğunuz yeri, sizə verilən səlahiyyətləri bilin. Mən müşavirə keçirməyə hazıram.

## YEKUN ÇIXIŞI

Bu ayın 24-də biz burada aqrar islahatların gedişi vəziyyəti və torpaq islahatı haqqında qanun layihəsinin müzakirəsi ilə əlaqədar geniş müşavirə keçirdik. Mən torpaq islahatı ilə əlaqədar komissiyaya göstəriş vermişəm ki, aparılan müzakirələr nəticəsində bu qanunun layihəsini iyulun 5-dək işləyib tamamlasınlar. Biz iyulun 10-dək həmin layihəni müzakirə edib, Milli Məclisə verməliyik. Mən iyulun 18-də Nazirlər Kabinetinin geniş iclasını keçirməyi tapşırdım. Mən bu barədə [500-501] qərar qəbul edirəm və bugünkü iclasda sizə elan etdiyim fikirlər bu qərarda öz əksini tapır. Hazırlaşın. Hazırlaşmaq o demək deyil ki, siz imtahana gəlməyə hazırlaşırsınız, xeyr. Siz məsələni həll edin. Təəssüflər olsun, bu son illərdə belə bir ənənə yaranıb ki, heç görülən iş də təhlil olunmur.

Bizdə Statistika Komitəsi var. Komitənin sədri buradadırmı? Sənə xəbərdarlıq edirəm. Statistika Komitəsinin işi barədə çox xoşagəlməz fikirlər gəlir. Bu, Dövlət Statistika Komitəsidir. Amma mənə xəbərlər gəlir ki, bu komitə şəxsi bir təşkilata çevrilib. Kim nə məlumat istəyir verir. Bəzən də doğru olmayan məlumatlar verir. Sizin işiniz haqqında mənə belə xoşagəlməz siqnallar gəlib. Mən sizə xəbərdarlıq etmək istəyirəm. Nazirlər Kabineti Statistika Komitəsinin işi ilə məşğul olurmu? Statistika Komitəsinin sədrini Nazirlər Kabinetinə çağırıb heç dinləmisinizmi ki, bu nə iş görür? Statistika Komitəsi əsas orqanlardan biridir. Mən bayaq dediyim fikirləri təsadüfi demədim. Bu təşkilatları özbaşına buraxmısınız. Bunlar da elə hesab edirlər ki, nazirliklər, dövlət idarələri onların hərəsinin şəxsi mülkiyyəti, işidir. Respublikanın baş naziri Statistika Komitəsinin sədrini indiyədək çağırıb dinləməyib ki, o orada nə iş görür. Vaxt yoxdursa, tapşırın müavinlərdən biri Statistika Komitəsinin sədrini çağırıb dinləsin. Buna nəzarət edin. Görünür, bu da ağlını itirib, orada müəyyən işlərlə məşğul olur. Mən sənə xəbərdarlıq edirəm. Baş nazirə tapşırıram ki, Dövlət Statistika Komitəsi ilə ciddi məşğul olsun.

Bayaq dediyim kimi, Rəyasət Heyətinin üzvləri ötən altı ayın yekunları barədə geniş təhlil hazırlasınlar. İyulun 18-də keçirəcəyimiz iclas imtahan deyil. Mən bu gün – iyunun 28-də iyirmi gün qabaq sizi buraya çağırmışam və göstəriş verirəm ki, hər biriniz öz sahənizdə işləri təhlil edəsiniz, görəsiniz ki, vəziyyətimiz necədir, nə əldə etmişik, çatışmazlıq, nöqsan nədir? Ən əsası odur ki, nə etməliyik? Şübhəsiz ki, bunlar hamısı iqtisadiyyatın idarə edilməsində, təşkil olunmasında yeni, müasir prinsiplərə söykənməlidir. Biz iyulun 18-də bu məsələləri müzakirə edəcəyik. [501-502]

Kitabın hazırlanmasında iştirak edənlər:
Tofiq Babayev, Qəzənfər Zalıyev, Müzəffər Maşayey, Arif Məmmədov,
Kamil Muxtarov, Azər Fərzəliyev.

Rəssamı *Fuad Fərəcov*

Redaktorları *Tofiq Babayev, Kamil Muxtarov*

Texniki redaktoru *Zoya Nəcəfova*

'Tayms" qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı № 1. Şərti çap vərəqi 32. Uçot nəşr vərəqi 33,0. Tirajı 5000. Sifariş 156. Müqavilə qiymәti ilə.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyi.

Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, – 370005, Hüsü Hacıyev küç. 4.

Yığılmışdır "Şərq-Qərb" mətbəəsində. Bakı, Aşıq Ələsgər küç. 17.

"Qismət" Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.